ZƏLİMXAN
YAQUB

# ƏSƏRLƏRİ

ON ÜÇ CİLDDƏ

XIII
CİLD

"Şərq-Qərb"
Bakı – 2013



Bəy mağə güzgüsü, aynası yoxdu,
Yüz il yaşasa da, mənası yoxdu,
Diri ölülərin dünyası yoxdu,
Bu dünya əbədi dirilərindi!

Əlixan Yaqub

**Zəlimxan Yaqub. Əsərləri, 13 clddə, XIII cild.**
Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 440 səh.

Tərtib edəni və
redaktoru: **Musa NƏBİOĞLU**

Xalq şairi Zəlimxan Yaqubun 13 cildlik əsərləri külliyyatının XIII cildində şairin görkəmli ədəbiyyat və sənət adamlarına açıq məktubları, onlar haqqında xatirələri, ayrı-ayrı müəlliflərin kitablarına yazdığı ön söz və rəylər, ozan-aşıq sənəti ilə bağlı fikirləri və ictimai-siyasi həyatımızın digər sahələrinə həsr olunmuş aktual yazıları toplanmışdır.

**ISBN** 978-9952-404-00-5

Şərq Qərb East West
1986-cı ildən since 1986

www.eastwest.az
www.fb.com/eastwest.az

© Zəlimxan Yaqub, 2013
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013

## YADDAŞIMDA YAŞAYAN OSMAN SARIVƏLLİ

1970-ci ilin əvvəlləri idi. Azərbaycan Dövlət Universitetində kitabxanaçılıq fakültəsinin ikinci kursunda oxuyurdum. O vaxtlar Gürcüstan mətbuatında şeirlərim müntəzəm çap olunsa da, Azərbaycan mətbuatına təzə-təzə ayaq açırdım. Borçalı mahalında, Bolnis – Kəpənəkçidə keçən ömrümün 18 illik uşaqlıq-gənclik çağları arxada qalmışdı. O illərin mənə bağışladığı – görüb-götürdüyüm, duyub-yaşadığım şirinli-acılı xatirələr idi. O xatirələr ki, onda sazlı-aşıqlı, nağıllı-dastanlı, bayatılı-qoşmalı, şeirli-nəğməli bir dünya var. O xatirələr ki, yaddaşıma yazılan, könlümə köçən, qanıma hopan duyğularla zəngindir. Bu zənginliyin içində müasir poeziyamızda üç şairdən biri kimi sevdiyim, sevə-sevə əzizlədiyim Osman Sarıvəlli kimi ustad bir sənətkar da var idi. Borçalıda heç bir saz-söz məclisi Səməd Vurğunsuz, Osman Sarıvəllisiz, Hüseyn Arifsiz (o zaman Hüseyn Hüseynzadə idi) keçməzdi. "Ay mamaoğlu", "Günah onun özündədi" şeirlərini bilməyən aşığı məclisə qoymazdılar. Osman Sarıvəllinin əksər şeirlərini mən əvvəlcə Borçalı aşıqlarının dilindən eşitmişəm, sonra kitablardan oxumuşam.

Günlərin birində xəyalımda əfsanələşən Osman Sarıvəllinin üzünü görmək, səsini eşitmək, ondan məsləhət, ustad xeyir-duası almaq üçün Yazıçılar İttifaqına yollandım. İlk dəfə pillələnləri qalxanda həyəcandan dizlərim əsirdi. Xəyalımdan keçən bu idi ki, deməli, bu pillələrə Səməd Vurğunun ayağı dəyib, bu divarlara Səməd Vurğunun nəfəsi toxunub. Bütün yaradıcı gənclərə tanış olan utancaq bir hislə ikinci mərtəbəyə qalxdım. Foyedə məni Səməd Vurğunun böyük portreti qarşıladı. Şəklə heyran-heyran baxıb, yan otağa keçdim. Taleyin qisməti, Allahın xoşbəxtliyi idi. İki ustad şair otaqda şirin-şirin söhbət edirdi: Osman Sarıvəlli və Hüseyn Hüseynzadə.

İcazə alıb içəri girdim. Borçalı qaydası bağır basdım, baş əydim, salam verdim. Məni çox səmimi qarşıladılar. Bu görüş mənim üçün bütün görüşlərimin, uğurlarımın xeyirli başlanğıcı, uğurlu xeyir-duası oldu. Şeirlərim haqqında ilk dəfə "Uğurlu yol" yazan Hüseyn Hüseynzadəni, ilk kitabım haqqında ilk xeyir-duanı verən, gözəl məqalə yazan Osman Sarıvəllini ömrüm boyu unutmaram. İlk görüşdən sonra görüşlərimizin sayı çoxalır, səmimiyyət meydanı daha da genişlənir, aramızda hər iki şairlə nəfəs doğmalığı, ata-oğul, ağsaqqal-cavan, ustad-şagird münasibəti yaranırdı. Hər görüşdə Osman Sarıvəlliyə şeirlər oxuyurdum. Ustad hər dəfə məni həvəsləndirir, uğurlarımı, qüsurlarımı göstərir, yazılarıma geniş təhlil verə-verə mənə qayğı göstərir, dayaq olurdu. Bu görüşlərdən aldığım təəssürat çox geniş və rəngarəng olsa da, qısaca bir xarakterizə etmək olar: Osman Sarıvəlli bir şair kimi gənclərə qarşı həssas və tələbkar, xeyirxah və səmimi, dilimizi bütün zənginliyi ilə bilən və öyrədən, təbiəti misilsiz dərəcədə duyan və şeirə gətirən, bütün güllərin, çiçəklərin, quşların adını tanıyan, torpağa, torpağın poeziyasına dərindən bələd olan, qəlbini, ruhunu, duyğularını saz üstündə köklməyi bacaran, xalqın içindən çıxan, elin-obanın dilini bütün incəliklərinə qədər anlayan və anladan ustad bir sənətkar idi. Osman Sarıvəlli mənim yaddaşımda gözəl bir insan, nurlu bir ağsaqqal, işıqlı bir şəxsiyyət, ləyaqət və təvazökarlıq timsalı, dumduru dağ çeşməsinə bənzəyən bir varlıq kimi qalıb. Bütün yazıçılar və şairlər, sənət adamları, ümumən ziyalılar ona "Osman qağa" – deyə müraciət edirdilər. Çünki onun ədəbiyyatımıza, şair və aşıqlarımıza, ədəbi gəncliyimizə qayğısında qağalıq da vardı, ustadlıq da, dədəlik də! Müasir poeziyamızın görkəmli nümayəndələrindən elə bir şair təsəvvür etmək olmur ki, Osman Sarıvəlli haqqında bir-birindən gözəl məqalələr yazmasın, ona şeir həsr etməsin. Böyük Səməd Vurğunun dediyi təkcə,

“Bu Osmanın nəfəsidir,
Yurdumuzun öz səsidir!”

– beyti çox böyük mənəvi dəyərlərdən xəbər verir.

Bir gün təsadüfən Nizami küçəsində qarşılaşdıq. Ömrünün ixtiyar çağlarını yaşayan şair Yazıçılar İttifaqından çıxıb evinə gedirdi. Görüşdük, hal-əhval tutduq. Vəziyyətini soruşdum. “Bir az nasazam” – dedi. Borçalıdan, Başkeçiddən təzəcə qayıtdığımı dedim. Borçalı ağsaqqallarının ustada salamlarını yetirdim. Kövrəldi, gözləri doldu. Dedim: “Ustad, niyə kövrəlirsən?” Ustad mənalı-mənalı üzümə xeyli baxıb, dedi: “Cavansan, sağlıq olsun, mənim kimi şəhərdə 70 il yaşa, mənə verdiyin sualın cavabını özün tapacaqsan, ancaq o zaman biləcəksən ki, mən niyə kövrəlmişəm!” Bu duyğular məni rahat buraxmadı. Ustadın kövrək danışığı, titrəyən səsi, yaşaran gözləri belə bir şeirin yaranmasına səbəb oldu:

Gəl çıxaq gəzməyə, ay Osman qağa,
Gözləyir yaylaqda gözəllər səni.
Şair hanı deyib, yollara baxır,
O yerlər çox görüb əzəllər səni.

Min dəfə baxsa da, doymamış baxan,
Şeirindi dağlardan süzülən, axan,
Kimdi qocalığı başına qaxan,
De, niyə kövrəldir xəzəllər səni.

Çiçəklər döşənib çıxdığın yola,
Zəlimxan inanmır saralıb-sola.
Təbiət zamanla verib qol-qola,
Yaşadar qəlbində yüz illər səni.

İkinci bənddəki “min dəfə baxsa da, doymamış baxan” misrasını “bezməmiş baxan” şəklində oxuyan kimi, dərhal reaksiya verdi. “Yəni o günə qalmışıq ki, bizdən də bezə bilərlər”. Səhvimi başa düşüb, ustaddan üzr

istədim, şeirə düzəliş verdim. Bir neçə gündən sonra özünəməxsus təvazökarlıqla: "Şeirinə bir cavab qaralamışam", – dedi.

Yanğılı, həsrətli bir səslə gənclik illərini yada sala-sala həmin şeiri oxudu:

Quzeydə ağaran qayamı, qarmı,
Yaşıl yaylaqların heç tayı varmı?
Üç günlə, beş günlə doymaq olarmı,
Dağlardan doymağa yüz illər gərək.

Daha səməndimin ağarıb yalı,
Sökülüb dırnağı, tökülüb nalı.
Dağlara çıxmağa qalmayıb halı,
Gedəydim o yerə əzəllər gərək.

Elə həmin səslə gənclik illərində Sayalı xanıma yazdığı şeirdən də bir bənd oxudu:

Nə dağlar çəkibdi mənə dağ yolu,
Yaşadım cibim boş, ürəyim dolu.
Qəlbi fırtınalı, başı alovlu,
Başına döndüyüm yadıma düşdü.

Bəy qızı Sayalı xanım, doğrudan da, xanımlar xanımı bir qadın, Osman Sarıvəlliyə yaraşan vəfalı bir həyat yoldaşı idi. O qədər əlindən çay içib, süfrəsində çörək yemişəm ki! Ömründə bir dəfə qaşının qulağı çatılmadı. Hər dəfə görüşəndə məni öz anam kimi qarşılardı. Mənim üçün Bakıda olan üç-dörd müqəddəs evdən biri Osman Sarıvəllinin evi idi. Çox nadir naxışlarla bəzədilmiş, qeyri-adi gözəlliyə malik olan bir saz var idi evlərində, hərdənbir o sazı bağrıma basıb, ustadın ruhuna uyğun astadan-astadan dilləndirər, kövrək bir səslə oxuyardım. Arabir "filan aşıq filan havanı belə oxuyardı" – deyib, özü dodaqaltı şirin-şirin zümzümə eləyərdi. Həmin sazın gücü, qüdrəti idi ki, çəkdi Osman Sarıvəllini Qazağa, Vidadi yatan torpağa. Fəxri Xiyaban

arzusuna düşmədi, doğulduğu torpağı, böyüdüyü eli-obanı hər şeydən müqəddəs bildi. Bu gün hər iki sevgili – Osman Sarıvəlli və Sayalı xanım yan-yana İkinci Şıxlıda kənd qəbiristanlığında uyuyur. Allah hər ikisinə qəni-qəni rəhmət eləsin. Dəfələrlə o qəbirlərin ziyarətinə getmişəm. Məni Qazağa çəkən, Şıxlı təpəsinə, kənd qəbiristanlığına qaldıran ustad şairimizin və xanım anamızın ziyarətinə aparan qüvvənin adı məhəbbətdir. "Ustadına kəm baxanın gözlərinə ağ damar", – deyiblər.

Dilinin əzbəri Səməd Vurğun idi. Elə görüşümüz yadıma gəlmir ki, o, Səməd Vurğunu xatırlamasın. Lap kövrələndə dərindən ah çəkib, "Eeeh, Səməd, Səməd!" – deyərdi. Səməd Vurğunun üzünü görməyən ədəbi gənclik onun ətrini Osman Sarıvəllidən almaqla təskinlik tapardı. Səməd Vurğun haqqında "Qalacaqdır dünyada" adlı xatirələr toplusu çap olunmuşdu. O kitabda çoxlarının xatirələri olsa da, Osman Sarıvəllinin xatirəsi yox idi.

Bir gün soruşdum ki, ustad, bu kitabda niyə sizin də xatirəniz yoxdur. Başını buladı və böyük təəssüf hissi ilə dedi: "O kitabda mənim necə xatirəm ola bilər ki, orada elə müəlliflər xatirə çap elətdiriblər ki, onlar vaxtilə Səmədin ölümünə fərman vermək istəyir, üzünə gülür, kürəyinə bıçaq endirirdilər".

Təzəcə "Xalq şairi" fəxri adına layiq görülmüşdü. Ziyarətinə, təbrikinə getdim. Heç bir dəyişiklik, həyəcan, sevinc, yenilik hiss etmədim. Təəccübləndim və təəccübümü gizlətmədim. "Ay Osman qağa, sizə fəxri ad veriblər, heç sevincinizi hiss etmirəm", – dedim. Təvazökarcasına, "çox sağ olsunlar, bu adı veriblər, ancaq bir de görüm, bu fəxri ada görəmi mən şair olmuşam? Mən təzəmi bilirəm ki, bu xalqın şairiyəm!" – dedi.

"Mənim şeirlərimin dördcə misralıq bir bayatı qədər ömrü olaydı", – deyərdi. "Yer üzündə hələ xalqdan böyük şair yaranmayıb", – deyərdi. "Səməd Vurğundan analar nə doğub, nə də doğacaq", – deyərdi. "Ayağınız

torpaqdan üzülməsin", – deyərdi. "Bircə könül gətir mənə gələndə, o böyük qəlbinlə fəxr edim mən də", – deyərdi. Dünyaya, insana, insanlığa, gəncliyə, təbiətə və cəmiyyətə könlünün gözüylə baxardı. Ustadın nə qədər maraqlı söhbətlərinə qulaq asdımsa, ömrümdə bir dəfə o kişinin dilindən qeybət eşitmədim, kiminsə bostanına daş atdığının şahidi olmadım. Əli halal, dili halal, qələmi halal bir ömür yaşadı Osman Sarıvəlli!

Ləyaqətin varsa, tapallar səni,
Şan-şöhrət dalınca qaçmaq əbəsdir!

– dedi.

Könül, kef də çəkdim, əzab da çəkdim,
Çəkdiyim kefi də əzabda çəkdim!

– dedi.

Alnının tərinə, əlinin qabarına, qələminin gücünə arxalandı:

Döydü yağış məni, döydü qar məni,
Bir qarışqa minsəm, aparar məni!

– dedi.

Ən ağır gündə, ən dar məqamda, ən çətin anda, dolu döyəndə, qar üşüdəndə, şaxta kəsəndə dosta sədaqətini, xalqa inamını itirmədi. Ləyaqətinin, kişiliyinin, şairliyinin hesabına!

Şairin Tanrısı gözəl əsərdi,
Can qoyub yaratmaq böyük hünərdi.
Qərib əyləncələr gəldi-gedərdi,
Hər kəsin öz yarı qalır, qadası!

"Gətir oğlum, gətir" – deyib, yaratdığını sevə-sevə yaratdı, hər şeirə Tanrı kimi tapındı. Qərib əyləncələrə, ötəri-itəri vıyıltılara meyil salmadı.

Hər kiçik bayatı xalqın səsidir,
Kamal dünyasının xəzinəsidir!

– deyib şair babasının əmanətinə, bənövşəsinə təzə bir poetik abidə qoydu.

Yaddaşımda bir Osman Sarıvəlli yaşayır. El nəfəsli, torpaq canlı, xalq ətirli, təbiət naxışlı, qartal qıylı, tərlan havalı Osman Sarıvəlli!

Yaddaşımda bir Osman Sarıvəlli yaşayır. Eldən-obadan, adət-ənənədən, sazdan-sözdən, arandan-yaylaqdan, dağdan-binədən söz düşəndə qəlbi kövrələn, ruhu incələn, yanağı allanan, dodaqları titrəyən, yay kimi açılıb-sıxılan Osman Sarıvəlli!

Yaddaşımda bir Osman Sarıvəlli yaşayır – ən gözəl ailə başçısı, ən müdrik ağsaqqal, ən vəfalı ər, ən mehriban ata, ən qayğıkeş müəllim, ən mötəbər ustad Osman Sarıvəlli!

Yaddaşımda bir Osman Sarıvəlli yaşayır və yaşayacaq mən də bir gün Haqqın dərgahına qovuşana kimi!

Yanından ayağım kəsilməyəcək,
Yanına əbədi gəlincə sənin!

***"Günay" qəzeti,***
***1995, 14 dekabr***

## SEVGİ DASTANI

Səməd Vurğunun sevgi şeirlərini varaqlayıram. Deyəsən, haqqın yanında günah işlətdim. Səməd Vurğunun sevgisiz yazılmış bircə şeiri, bircə misrası, bircə kəlməsi varmı ki, böyük şairin ruhuna toxunmasın. Mən sevgi şeirləri deyəndə Səməd Vurğunun ömür-gün yoldaşı Xavər xanıma yazdığı şeirləri nəzərdə tuturam. Bu şeirləri sətir-sətir gözlərimdən keçirtdikcə Xavər xanımın dilindən eşitdiyim acılı-şirinli, unudulmaz, yaddaşdan silinməsi mümkün olmayan xatirələri haqqında düşünürəm.

Xavər xanımın dediklərindən:

Mən məşhur Dərbənd ziyalısı Əhməd bəy Mirzəbəyovun ailəsində dünyaya gələn 11-ci uşaq olmuşam. Böyük bacım görkəmli yazıçı, böyük müəllim Abdulla Şaiqin həyat yoldaşı idi.

Abdulla Şaiq o zamanın məşhur folklorşünas alimi Vəli Xulufluya öz evində öz xərci ilə toy eləyirdi. Onda mən də bacımgilə gəlmişdim. Səməd Vurğun ilk dəfə o toyda görüb mənə vurulmuşdu. Onda mənim 11-12 yaşım olardı. 1932-ci ildə nişanımız, 1934-cü ildə toyumuz oldu. 16 yaşım olanda Səmədlə ailə qurduq. Bizim toyumuz özü bir tarix idi. Əhməd Cavad məclisin tamadası idi. Məclisdə kimlər yox idi. İndi adları xalqımız üçün çox əziz və unudulmaz olan H.Cavid, A.Şaiq, Y.V.Çəmənzəminli, M.Müşfiq, V.Xuluflu, M.K.Ələkbərli, M.İbrahimov, daha kimlər, kimlər...

Ayağa duran məni şeirlə təbrik edirdi. H.Cavidin, M.Müşfiqin, Ə.Cavadın o toyda mənim şərəfimə oxuduğu şeirləri o zaman qeyd edib saxlamamağım bu gün də məni yandırır. Kaş o toyda oxunan şeirlər, sağlıqlar,

söhbətlər bir yerdə qeyd olunmuş olaydı. Heyif, min heyif itkinlərə və itənlərə.

Bir yerdə Səmədlə 22 il ömür sürdük. Nə yatdıq, nə yuxu görək. Nə oğul toyu gördü, nə qız toyu. Bu gün şairin ev-muzeyi olan evdə Səməd vur-tut 2 il yaşadı, onun da 8 ayı çarpayı dustağına çevrildi. Ölənə yaxın "Ay Xavər, məni öz yerimdən sənin yatdığın çarpayıya dəyişdir, sənin yatdığın çarpayıda can vermək istəyirəm. Bilməzdim ki, mən səndən tez ayrılacağam" sözünü yana-yana, təəssüflə deyirdi. Mən ona "şairlər şahı", o mənə "cananıma canım qurban" deyərdi. 47 ildir Səməd həyatda yoxdur. Onun dediyi bir fikir 47 ildir məni cızır-cızır yandırır. "Ölənə qədər mən sənə yox deməyəcəyəm. Ona görə ki, mən öləndən sonra ömrün boyu yanasan". Səməd düz deyirdi, ondan ayrılan gündən bu günə kimi, bundan sonra da ölənə kimi, nəfəsim ağzımdan çıxana qədər "Səməd!" deyib yanacağam.

Xavər xanım bu yaralı, nisgilli xatirələri mənə danışdıqca dönə-dönə hönkürüb ağladığını, əllərinin əsdiyini, barmaqlarının titrədiyini, dodağının göynədiyini görmüşəm. Zarafat deyil, Xavər xanımın dilini yandıran, dodağını göynədən, əlini əsdirən, saçını qara döndərən Azərbaycan şeirinin əfsanələşən nümayəndəsi dahi Səməd Vurğunun taleyi, həyatı, tərcümeyi-halı, ilhamlı yaradıcılığı ilə bağlı müqəddəs və mübarək duyğulardır.

Səməd Vurğun şeirinin çoxmilyonlu oxucuları!

Böyük şairin yaradıcılığını dönə-dönə oxusanız da, hər şeirinə dərindən bələd olsanız da yenə onun dərin qatları, görünməz, göz işləməz üfüqləri var.

Səməd Vurğun şeirinin zəngin və çoxşaxəli yaradıcılığında, Səməd Vurğun xəyalının parlaq üfüqlərində heç vaxt işığı azalmayan bir poetik mənzərə də var. Səməd Vurğun və Xavər xanım mənzərəsi. İxtiyarınıza verilən və bütünlükdə Xavər xanıma həsr olunan bu şeirlər ilk dəfədir ki, oxuculara təqdim olunur.

Mən sənə bağlıyam bax!
Səni görməzdən qabaq,
Bu dünyada başımdan nələr keçdi, gözəlim,
Gəl unutdur dərdimi, gəl bərabər gəzəlim.

* * *

Gizli nöqtələrə əl aparma sən,
Həyatın iç üzü örtülür bəzən.
Sevgilim, anla ki, qısqanclıq nədir,
Anla ki, doğrudan bir faciədir...

Yusifin, Vaqifin görüm var olsun,
Aybəniz hamıdan bəxtiyar olsun.
Yüz il də Vurğuna Xavər yar olsun,
Ən əziz sirdaşım, köməyim sənsən.

Gətirdiyim bu misallar Xavər xanımın eşqinə oxunan şirin nəğmələr, sevgi dastanının heç vaxt saralmayan yaşıl yarpaqlarıdır.

"Yüz il də Vurğuna Xavər yar olsun".

Təəssüf ki, tale böyük şairin bu arzusunu gözündə qoydu. Səməd Vurğunun Xavərə arzuladığı yüz ildən tale onlara ancaq 22 il ayırdı. Səməd Vurğunun şair ömrü yarıda qırılsa da, onun könül verdiyi sevgi, məhəbbət nəğmələri Yusifin nəsrində, Vaqifin poeziyasında, Aybənizin ata sevgisində, Xavərin yanan ürəyində, qovrulan duyğularında əbədiyyətə qədər yol gedib sevilənlərə ərməğan olacaq. Ölməz Vurğunun Xavərli misralarını oxuyan oxucuların gözünə işıq, qəlbinə təpər arzulayıram.

***09.07.2003***

## ŞƏKİLLƏRDƏN BAXAN DÜNYA

Qarşımda bir kitab var. "Yüz il də Vurğuna Xavər yar olsun" adlanan bu kitaba Səməd Vurğun ailəsinin şəkillər dilində danışan ensiklopediyası demək olar. Bu kitab dünyada ən çox sevdiyim bir şairin – Səməd Vurğunun sevgi dünyasına, könül sirdaşına, ömür-gün yoldaşı Xavər xanıma həsr olunub. Kitabda ara-sıra böyük şairin məşhur şeirlərindən parçalar verilsə də, bütövlükdə kitab şəkillərdən ibarətdir. Ancaq bu şəkillərə sadəcə şəkil kimi baxmaq böyük günah olar. Hər şəkil çəkildiyi anın, vaxtın, zamanın aynası, əks-sədası, surətidir. Bu şəkillər Xavər xanımın Dərbənddə keçən uşaqlıq, körpəlik, gənclik illərinin Vurğunlu, Vurğunsuz çağlarının, Yusifli-Vaqifli, Aybənizli, Aygünlü xoşbəxt dəqiqələrinin unudulmaz, yaddançıxmaz səhifələridir.

İlk dəfədir ki, Səməd Vurğun ailəsi çox geniş və zəngin çeşiddə bu vaxta qədər görmədiyimiz çoxçalarlı bir mənzərədə oxucuya təqdim olunur. Bu şəkillər Xavər xanımın ən şirin, ən kövrək, ən gözəl günlərinin, ən ağır, ən acı, ən çətin saatlarının kağızlara hopmuş görüntüləridir. Çoxsaylı, çoxmənzərəli şəkillər arasında bölgü aparmalı olsaq, Xavər xanımın ömrünü dörd tarixi mərhələyə ayırmaq olar. Səməd Vurğunla tanışlığa qədər olan xoşbəxt uşaqlıq və gənclik illəri, Səməd Vurğunla yaşadığı dünyanın daha xoşbəxt illəri, Səməd Vurğunsuz yaşanan, sızıltılarla, göz yaşıyla, həsrətlə yaşanan illər, oğulla, qızla, gəlinlə, nəvəylə, nəticəylə yaşanan acılı-şirinli zamanlar.

Unudulmaz ədibimiz Abdulla Şaiqin 1931-ci ildə Xavər xanıma həsr etdiyi şeirinin ilk misralarını xatırlayıram:

"Xavər" Günəş deməkdir, parla yüksək adınla,
Bu uğursuz insanlıq yüksələcək qadınla.

Bəli! Qadın ürəyinin sönməz arzuları Səməd Vurğun ömrünə bir təravət və gözəllik gətirmişdi. Ancaq amansız tale insafsızcasına bir oyun oynadı. "Yüz il də Vurğuna Xavər yar olsun" deyən şairə Xavər xanım ürəyi istədiyi qədər yar ola bilmədi. Vaxtsız ölüm Səməd Vurğunu həyatdan tez apardı, Xavər xanım Səməd Vurğunsuz 50 ildən çox göynəyə-göynəyə qaldı. Ən böyük təsəlli ondan ibarət oldu ki, tale Səməd Vurğuna böyük və nadir istedad verməklə kifayətlənmədi, Yusif Səmədoğlu kimi xalq yazıçısı, Vaqif Səmədoğlu kimi xalq şairi, Aybəniz xanım kimi Səməd Vurğun irsini göz bəbəyi kimi qoruyan qeyrətli övladlarla Xavər xanımın ömrünü çiçək kimi bəzədi. Ölümün amansızlığı olsa da, nə yaxşı ki, sənətin ölməzliyi, sənətkarın ölümsüzlüyü var. Bu kitabda Səməd Vurğunla Xavər xanımı nəhəng bir gövdəyə bənzətsək, şəkillərdə görünən qohumları, dostları, ağsaqqalları, ağbirçəkləri, yazıçıları, şairləri çoxqollu, çoxbudaqlı, çoxyarpaqlı həmişəyaşıl bir ağaca bənzətmək olar. Hər budağın gözəlliyi, hər yarpağın öz yaşıllığı, təravəti var. Bu kitabın iki şəkillə başlayıb, üç şəkillə tamamlanmasında həyatı və həyatın davamını gördüm. Kitabın əvvəlində Səməd Vurğun və Xavər xanım, sonunda Yusif, Vaqif Səmədoğlular və Aybəniz xanım. Həyat davam edir. Baba Vurğunun arxasınca nəticə Vurğun gəlir. Qaraqaş, qaragöz eynilə Səməd Vurğuna oxşayır.

"Cahan daimidir, ömür amanat,
Biz gəldi gedərik, sən yaşa dünya".

– deyən şairimiz yaşayır bu dünyada. Xavərin sevgilisi, həyat yoldaşı, Yusifin, Vaqifin, Aybənizin atası, Aygünün babası, Azərbaycan xalqının başucalığı, şeirimizin sultanı, poeziyamızın heç vaxt uçuşdan qalmayan qartalı kimi.

Səməd Vurğun şeirinin dəlicəsinə vurğunu kimi bu kitabın bu şəkildə meydana çıxması məni çox sevindirdi. Burda şairin nəvəsi Aygün xanımın çox böyük əziyyəti var. Bu əziyyət şərəfli bir əziyyətdir. Kaş bütün nəvələr Aygün xanım kimi öz nənə-babaları ilə bağlı belə əziyyəti özlərinə zəhmət yox, şərəf biləydilər.

İnanıram ki, bu kitab oxucular tərəfindən maraqla, sevgiylə qarşılanacaq. Səməd Vurğun dünyası daha geniş və əhatəli şəkildə xalqımıza, müasir oxuculara təqdim ediləcək. Mübarək olsun!

***04.07.2007***

## ATAMIN SEVİMLİ YAZIÇISI

Unudulmaz yazıçımız İlyas Əfəndiyevin yaradıcılığına mən lap körpəlikdən bağlı olmuşam. Atam Yusif Şamil oğlu riyaziyyat müəllimi olmağına baxmayaraq, bədii ədəbiyyatı, xüsusilə nəsri çox oxuyardı. Oxuduğu əsərləri şirin bir dillə nağıl kimi öz övladlarına, xüsusilə mənə danışmaqdan ləzzət alardı. “Mənə” sözünü ona görə deyirəm ki, atamın ilk övladı olduğum üçün bütün maraq və diqqətini mənə yönəldirdi.

Atamın ən çox sevdiyi yazıçılardan biri İlyas Əfəndiyev idi. O zamanlar bu xüsusi sevgini tam dəqiqliyi ilə dərk edə bilmirdim. Sonralar başa düşdüm ki, bu sevginin arxasında böyük bir yazıçının zəngin və təravətli dili, dumduru təfəkkürü, elli-elatlı, aranlı-yaylaqlı təbiətin zəngin və çoxmənalı təsvirləri, Azərbaycan tarixinin ən maraqlı məqamlarına dərindən nüfuz etmə bacarığı, xalqı – onun qədim və müqəddəs adət-ənənələrini, məişətini, ruhunu, mənəvi varlığını ən incə cizgilərinə qədər bilmək, sevmək və sevdirmək qabiliyyəti, ən böyük sevgiyə layiq insan, vətəndaş, yazıçı keyfiyyətləri dayanırmış.

Tale elə gətirdi ki, mənə həyatda bir neçə dəfə bu unudulmaz şəxsiyyəti görmək, əlini sıxmaq, söhbətini dinləmək, tövsiyələrini eşitmək xoşbəxtliyi nəsib oldu.

1970-ci illərdə Bakıda mədəni mərkəz kimi məşhur olan kitab pasajı fəaliyyət göstərirdi. Mən orda kitab dükanında satıcı işləyirdim. Satıcı işləməyimə baxmayaraq, mətbuatda müntəzəm çıxış edir, gənc şair kimi tanınırdım. Burda işləməyimin mənə faydası ondan ibarət idi ki, o dövrün məşhur yazıçı, şair və alimləri, böyük ziyalıları maraqlı kitablar almaq üçün tez-tez

kitab pasajına gələrdilər. İlyas Əfəndiyev bu mərkəzə daha çox gələn, daha çox kitab alan bir yazıçı kimi yadımda qalıb. Mənim bədii ədəbiyyata olan sonsuz marağım oranı kitab dükanından daha çox mədəniyyət mərkəzinə, yazıçılarla oxucuların görüş yerinə çevirmişdi. Tez-tez yazıçı və şairlərlə görüşlər keçirirdik. Müəlliflər öz kitablarını avtoqrafla oxuculara təqdim edərdilər. Bu görüşlərin ikisində İlyas Əfəndiyev də iştirak etmişdir. Mən də sevimli yazıçımızın avtoqraflarını almışdım. Bu gün onları kitabxanamda əziz bir yadigar kimi saxlayıram.

Maraqlıdır ki, heç vaxt şeir yazmayan İlyas Əfəndiyev mənə avtoqrafı şeirlə yazmışdı. Nurlu çöhrəsi, işıqlı siması gözlərimin qabağındadı. Özünəməxsus ağayana bir təbəssümlə "sənin kitabını şeirlə yazacağam", – deyib "Söyüdlü arx" romanına belə yazdı:

"Nəzakətli, sadə, nəcib bir insana –
Kitab dostu, şeir dostu Zəlimxana".

Maraqlıdır ki, kitablarını oxumamışdan əvvəl İlyas Əfəndiyevin o vaxta qədər yaratdıqlarını mən nağıl kimi, dastan kimi, bayatı kimi ürəyimə köçürmüşdüm. Bu ifadələri gəlişigözəl söz kimi işlətmirəm. İlyas Əfəndiyevin yaradıcılığını dərindən izləyən oxucular çox gözəl bilir ki, həqiqətən də, onun əsərlərində, dilində, düşüncə tərzində bir bayatı kövrəkliyi, səhər mehinin titrəyişi, ləpələrin pıçıltılı dünyası var.

Az bir vaxt keçəndən sonra atamın sevimli yazıçısı mənim üçün ikiqat sevimli oldu. Tələbəlik illəri, Bakının qaynar ədəbi həyatı, Azərbaycan Milli Dram Teatrında onun dalbadal tamaşaya qoyulan, səhnədən düşməyən əsərləri, o vaxta qədər yazıçı kimi sevdiyim İlyas Əfəndiyevi dramaturq kimi də mənə sevdirdi. Onun bütün səhnə əsərlərinə sevə-sevə, böyük məhəbbətlə baxmışam. Ədəbiyyatımızın ağsaqqalı, nəsrimizin şairi,

dramaturgiyamızın sütunu, böyük Cabbarlının ləyaqətli varisi, lirik və romantik duyğularımızın tərcümanı, adında, soyadında, atasının adında iki peyğəmbərin adını, soyadını və əfəndiliyini yaşadan, ədəbiyyata "Kənddən məktublar"la, dramaturgiyaya "İntizar"la gələn, lakin heç vaxt oxucularını intizarda qoymayan bir yazıçı-şəxsiyyət haqqında söz demək hər bir qələm sahibi kimi, mənim üçün də böyük şərəfdir.

82 il ömür sürən, 60 il ardıcıl, fasiləsiz yaradıcılıqla məşğul olan, Azərbaycan dramaturgiyasına 19 səhnə əsəri bəxş edən, 50 ildən çoxdur ki, əsərləri səhnədən düşməyən İlyas Əfəndiyev bu illər ərzində neçə-neçə nəslin, gəncliyin tərbiyəsində, kamilləşməsində, püxtələşməsində görün nə qədər heyrətamiz və əvəzsiz bir iş görüb.

İlyas Əfəndiyevə bu düşünmək hünəri, axtarmaq qabiliyyəti, yazmaq eşqi, yaratmaq ehtirası hardan gəlmişdir? Birinci növbədə Allahın verdiyi fitri istedaddan! Qarabağdan, Cıdır düzündən, İsa bulağından, Daşaltıdan, indiki Füzulidən, o zamankı Qaryagin rayonunun aranlı-yaylaqlı, dağlı-binəli mənzərələrindən, bu yollarda köç-köç olan ellərin zilli-bəmli nəğmələrindən, bəy qızı Bilqeyis xanımın uzun qış gecələrində danışdığı nağıllardan, əfsanələrdən, Qarabağ bəylərinin keşməkeşli taleyindən, qaçaqların sərgüzəştlərindən!

İlyas Əfəndiyev kənddən, təbiətdən, torpaqdan gətirdiyi könül sərvətiylə kifayətlənmədi, öz daxili dünyasını Tolstoyla, Dostoyevski ilə, Stendalla, Servanteslə, Balzakla, Floberlə, Dikkenslə, "Don Kixot"la, "Robinzon Kruzo" ilə, "Hərb və sülh"lə, "Səfillər"lə zənginləşdirdi. Mütaliəni və müşahidəni qoşa qanad elədi.

Mehdi Hüseyn kimi yazıçı, Adil İsgəndər kimi rejissor, Soltan Hacıbəyov kimi bəstəkar, Cəfər Cəfərov kimi teatrşünas, oxucu kimi arxa, xalq kimi dayaq hər millətin, hər yazıçının qismətinə düşən xoşbəxtlik deyil.

Mən İlyas Əfəndiyevin çoxsaylı dostlarından bir neçəsinin adını çəkdim. Əslində dövrün böyük ziyalılar ordusunun, milli ruha sahib olan insanların əksəriyyəti bu böyük yazıçı ilə dostluq eləməyi özlərinə şərəf bilirdilər. Çünki İlyas Əfəndiyev sözün böyük mənasında əsli-nəsli, nəsil şəcərəsi uca olan işıqlı bir mərhələnin barı-bəhrəsi idi. Təsadüfi deyil ki, Nazim Hikmət kimi, Səməd Vurğun kimi böyük şəxsiyyətlər onun çoxşaxəli yaradıcılığına böyük qiymət veriblər.

Onun qələmi xalqımız üçün həmişə əziz olan Natəvan obrazını – Azərbaycan qadınının və qadınlığının ucalığını, qeyrətini, milliliyini və bəşəriliyini, dövlətçilik təfəkkürünü millətə təqdim edib, milyonlarla oxucunun varına, xəzinəsinə çevirib.

İlyas Əfəndiyev üzünü həmişə xalqa tutdu, "Sən həmişə mənimləsən" – dedi, xalq həmişə onunla oldu.

İlyas Əfəndiyev könül saraylarının büllur saraylardan qat-qat varlı və zəngin olduğunu qələmin hökmüylə möhürlədi.

İlyas Əfəndiyev gündəliklər məhv olsa da, sevginin, məhəbbətin heç vaxt məhv olmadığını, əbədi yaşadığını tamaşaçılara çatdırdı.

İlyas Əfəndiyev sevgililərin cəhənnəmdə vüsalını təsvir etməklə böyük sevginin cəhənnəmin özünü də cənnətə döndərmək qüdrətini bizə göstərdi.

"Geriyə baxma, qoca", – desə də, tarixə, kökə, yaddaşa, keçmişə böyük ehtiramla yanaşdı, aydın sabahlara boylandı, "Körpü salanlar" və özü ilə xalq arasında dayağı sarsılmaz, tağı yıxılmaz mənəvi körpülər saldı.

"Valehlə Sarıköynəyin nağılı"nı oxuyanda elə bil ki, "Əsli və Kərəm"i, "Abbas və Gülgəz"i yenidən oxuyursan. Hər dəfə aldı Valeh, aldı Sarıköynək deyəndə özünü boy boylayan, soy soylayan ozanlar məclisində hiss edirsən. Ancaq bu romanın ruhu dil və üslub baxımından folklor motivlərinə söykənsə də, əsərdə yaradan,

quran, öz alın təri, əl qabarıyla əsrin, zamanın yeni dastanlarını yaradan, öz halal zəhmətiylə daha da uca və qürurlu olan fədakar insanları görürsən.

İlyas Əfəndiyevin Azərbaycan ədəbiyyatı qarşısında xidmətləri nədən ibarətdir? – sualına mənim cavabım belə ola bilər:

İlyas Əfəndiyev Cəfər Cabbarlıdan sonra Cabbarlı səviyyəsində səhnəmizi yaşadan və zənginləşdirən tək yazıçıdır (həm kəmiyyət, həm də keyfiyyət baxımından). Onun yaradıcılığı dilimizə təmizlik, ruhumuza saflıq, fikrimizə aydınlıq, əqidəmizə böyüklük, nəsrimizə və dramaturgiyamıza lirizm və romantizm bağışladı. Millət üçün bundan böyük sərvət, dövlət üçün bundan zəngin xəzinə yoxdur. Budur xəlqi və milli, budur dünyəvi və bəşəri yaradıcılıq.

İlyas Əfəndiyevin şəxsiyyətinin və yaradıcılığının vəhdəti məndə belə bir məntiqi nəticə yaradır. O, bir ziyalı kimi keçmişin və gələcəyin, dünənin və sabahın, kəndin və şəhərin, sevənlərin və sevilənlərin, gənclərin və baharın yazıçısıdır!

İlyas Əfəndiyev Azərbaycan xalqının azadlığı, müstəqilliyi uğrunda vuruşan, çarpışan, məğlub olan, qələbə çalan fədailərdən biri olub desəm, qətiyyən səhvə yol vermərəm. Azərbaycanın müstəqillik mövzusu xüsusilə onun üç əsərində – “Natəvan”, “Hökmdar və qızı” və “Şeyx Xiyabani”də çox böyük ürək yanğısı, vətəndaşlıq qeyrəti ilə oxucuya təqdim olunur. Bu əsərlərdə qoyulan problemlər, qaldırılan məsələlər, öz haqqı və hüququ uğrunda vuruşan, çarpışan talelər, günahlarımız, səhvlərimiz, aldanışlarımız, qəhrəmanlığımız elə bir bədii sənətkarlıqla təqdim olunur ki, oxucunun, dinləyicinin, tamaşaçının ürəyi parçalanır, tükləri biz-biz olur. Natəvanla Xasay xan Usmiyevin qarşılaşmaları, İbrahim xanla Cavad xanın, İbrahim xanla qızı Ağabəyim ağanın qarşılaşması bugünkü səhvlərimizin, günahlarımızın,

biganəliyimizin kökünün harda olduğunu çox dəqiqliklə, həssaslıqla bizə göstərir. Bu məntiq bizə deyir ki, İlyas Əfəndiyev yaradıcılığı bir güzgüdür, bu güzgüyə bax, özünü tanı, gözəlliklərini də gör, çirkinliklərini də. Uğurlarını da gör, qüsurlarını da!

Bu əsərlərdə müəllif yazıçıdan daha çox tarixçi kimi çıxış edir. Tariximizdəki qara ləkələrin səbəblərinə və səbəbkarlarına qarşı bir hakimə çevrilir, hökm çıxarır, ittiham edir, atəş açır, od püskürür, həyəcan təbili çalır, "Ayıl, ey millət", – deyir.

"Bu yerdə – "Yeddi "Qarabağnamə" var, İlyas Əfəndiyevin yaradıcılığını mən səkkizinci "Qarabağnamə" hesab edirəm" – deyən böyük vətəndaş tənqidçimiz Yaşar Qarayevi tamamilə haqlı hesab edirəm.

Səkkizinci "Qarabağnamə" və İlyas Əfəndiyev. Çox dürüst və dəqiq deyilmiş bu ifadə böyük yazıçının həyat və yaradıcılığına verilmiş halal bir qiymətdir. Torpağını, vətənini, millətini, dövlətini, tarixi keçmişini sevən insanlar üçün bu halal qiymət heç vaxt öz dəyərini və çəkisini itirməyəcək.

Atamın sevimli yazıçısı, mənim sevimli yazıçım sabah da övladlarımın, nəvə və nəticələrimin sevimli yazıçısı olaraq hər gələn nəsillə yenidən kəşf ediləcək, oxunacaq, xatırlanacaq.

Bizdən salam olsun xatirəyə dönənlərə, yaddaşlara köçənlərə, xalqın tərcümeyi-halına çevrilənlərə, xatırlananlara, İlyas Əfəndiyev kimi ruh və qələm sahiblərinə!..

***15.05.2009***

# SÜLEYMAN RƏHİMOV HAQQINDA XATİRƏLƏRİM

1970-ci ilin əvvəlləri idi. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) kitabxanaçılıq fakültəsinin ikinci kursunda oxuyurdum. Bir gün fakültəmizin dekanı, professor Abuzər Xələfov (o zaman tarix elmləri namizədi idi) məni yanına çağırtdırdı. Qısa bir söhbətdən sonra dedi: Xalq yazıçısı Süleyman Rəhimovun 70 illik yubileyinə hazırlıq işləri gedir. Universitetdə təntənəli gecə keçiriləcək. Nəzərdə tutmuşam ki, bizim tələbələr adından sən çıxış edəsən.

Bu gözlənilməz təklifi sevinc qarışıq bir həyəcanla qarşıladım. Sevincimin maraqlı səbəbi vardı. Mərhum atam Yusif Şamil oğlu riyaziyyat müəllimi olsa da, ədəbiyyatı, xüsusən nəsr əsərlərini çox sevərdi. Dünya ədəbiyyatının qiymətli nümunələrini, Azərbaycan nəsrini çox oxuyardı. Onun zəngin mütaliəsində Süleyman Rəhimov yaradıcılığının özünəməxsus yeri vardı. “Saçlı”-dan, “Şamo”dan, “Mehman” povestindən gündəlik söhbətlərində maraqlı misallar gətirər, ən gözəl epizodları bizim üçün danışardı. Süleyman Rəhimovu özüm mütaliə etməzdən əvvəl atamın dilindən eşitmiş, nağıllar, dastanlar kimi uşaq marağı ilə dinləmişəm. Beləliklə, bu məşhur yazıçının ədəbi irsi mənim mənəvi aləmimə hələ körpəlikdən yol açmış, atamın nəfəsiylə yaddaşıma həmişəlik həkk olunmuşdur. Orta məktəb illərində yaradıcılığını bütünlüklə mütaliə elədiyim yazıçı kimi, onun haqqında tələbə sözü deməyə hazır olduğumu bildirdim. Universitet tələbəsi olmağıma baxmayaraq, hələ böyük yazıçını yaxından görüb, şəxsən tanış olmamışdım. Buna görə də görüşqabağı gəncliyə xas olan bir narahatlıq keçirir, həyəcanlanırdım.

Gözlənilən gün gəlib çatdı. Universitetdə Süleyman müəllimin 70 illiyinə həsr olunmuş yubiley gecəsi keçirildi. Müəllimlərin və tələbələrin hamısında bir bayram əhvali-ruhiyyəsi vardı. Akt salonunda iynə atsan yerə düşməzdi. Rəyasət heyətində Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri, alimlər, yazıçılar əyləşmişdi. Şəkillərini dərs kitablarında gördüyüm adamları indi lap yaxından görür, sevinir, heyrətlənirdim. Maraqlı çıxışlar, səmimi ürək sözləri, xoş arzular bir-birini əvəz edir, alqışlar tavanı titrədirdi. Tələbələr adından mənə söz verildi. Həvəs və utancaqlıq duyğuları bir-birinə qarışdı. Məşhur bir yazıçı haqqında adi bir tələbə sözündə nə demək olardı. Çətin məsələ idi. Birdən heç özüm də bilmədən ürəyimdə bir inam hissi baş qaldırdı. Danışmağa başladım. Çıxışımı şeirlə bitirdim. Həmin şeirin əlyazması qalmasa da, üç bəndi bu gün də xatirimdə, yaddaşımdadır:

Gözlərimi açan gündən saçlarını ağ görmüşəm,
Qüdrətini seyr edəndə sanki qarlı dağ görmüşəm.
"Mehman"ında həyat gülən, bülbül ötən bağ görmüşəm,
İlhamın bir güclü çaydır, məcrasından aşıb-daşır,
Keçir dövran, keçir zaman, yazan qəlbin cavanlaşır.

Çox sevdiyim qəhrəmanın Fərhad qızı Şəlalədir,
Dərilməmiş bir çiçəkdir, qövsi-qüzeydə jalədir.
Məhəbbətin sadiq dostu həm Xatundur, həm Lalədir,
Mənliyimi qoruyaram əsən yeldən, axan sudan,
Aman Allah! Məni saxla Qaloşludan, Qaloşludan!

Yaratdığın mənalardan təbiətin ətri gəldi,
Oğul dedin: xatirimə Şamonuzun xətri gəldi.
Qardaş dedin: xəyalıma Vurğunun bir sətri gəldi:
"Ölüm yoxdu od içindən qalib çıxan qəhrəmana!"
Mən deyirəm bəxtəvərdi Süleymanı doğan ana!

Sözümü bitirib alqış sədaları altında hamı kimi mən də yazıçının əllərini sıxdım. Süleyman Rəhimov – bu enlikürəkli, ucaboylu, lopabığlı, ağsaçlı kişi ağır-ağır ayağa durub məni bağrına basdı. Üzünü rəyasət heyətinə tutub, özünəməxsus bir ahənglə hündürdən dedi: bu oğlan kimin tələbəsidir? Abuzər Xələfov ayağa durub cavab verdi: Bizim tələbəmizdir, Süleyman müəllim!

Süleyman müəllim:

– Bu uşaqdan muğayat olun, gənclik bizim gələcəyimizdir, – dedi.

Mənim böyük yazıçı ilə şəxsi tanışlığım belə başladı. O gündən etibarən aramızda güclü bir nəfəs doğmalığı, ustad-şagird münasibətləri yarandı. Mənə həmişə “oğlum” – deyə müraciət edərdi. Söhbətlərimizin birində danışdığı yerdə birdən sözünü kəsib diqqətlə üzümə baxdı. Uzun bir sükutdan sonra gözlənilməz bir sual verdi: “Sən hələ Yazıçılar İttifaqının üzvlüyünə qəbul olunmamısan?”

“Yox!” – cavabını eşidəndə təəccübləndi. Nə üçün gecikirsən, keçmək lazımdır, – dedi. Həmin gün məni evlərinə dəvət elədi. Evdə məni ailə üzvlərinə təqdim etdi. Sən uşaqlarla söhbət elə, mən bir az yazı yazmalıyam, deyib yazı stolunun arxasına keçdi. Təxminən yarım saatdan sonra məni yanına çağırdı. “SSRİ Yazıçılar İttifaqı”nın üzvlüyünə qəbul olunmaq üçün sənə zəmanət yazmışam, oxuyum, qulaq as, – dedi. Sevincimdən beynimdə bir uğultu əmələ gəldi. Ağır-ağır yazdığını oxumağa başladı. Yeddi səhifəlik yazı idi. Ancaq qara mürəkkəblə, iri hərflərlə cümlələri o qədər böyük yazmışdı ki, hər vərəq beş cümlədən artıq olmazdı. Bu iri, qara hərflərin, böyük cümlələrin arxasında böyük bir yazıçı məhəbbəti, ağsaqqal bir ustad qayğıkeşliyi dayanırdı. 1983-cü ildə məni Yazıçılar İttifaqına üzvlüyə qəbul elədilər.

Mən bu xəbəri ona çatdıranda böyük yazıçının nurlu baxışları yenidən işıqlandı. Ancaq məni istəyincə təbrik

edə bilmədi. Xəstəlik kişini yaman üzmüşdü. Sevincini dili ilə ifadə edə bilməsə də, baxışları ilə çox aydın çatdırdı. Həmin gündən iki həftə sonra Süleyman Rəhimovla əbədi vidalaşdıq.

Son ayrılıq çağında sevimli yazıçının payıma düşən qayğıları ilə bağlı qəlbimdə kövrək xatirələr baş qaldırdı.

Maraqlı görüşlərimiz, söhbətlərimiz, müxtəlif vaxtlarda çəkdirdiyimiz şəkillər, kitabxanamda öz əliylə yazdığı əziz yadigar kimi saxladığım avtoqraflar xəyalımda yenidən canlandı. Qalın səsi, ağır və ləngərli danışığı qulaqlarımda yenidən səsləndi. Yazıçının yaddaşımda naxış bağlamış bəzi fikirlərini burada xatırlamağı özümə borc bilirəm: "Əsl yazıçı ədəbiyyatın qara fəhləsi kimi işləməlidir. Belə olmasa, onun qapısını uzunömürlü xoşbəxtlik, halal şöhrət döyə bilməz.

Yazıçı mövzu üçün dağa-daşa düşməməlidir. Təkcə onun işlədiyi iş otağında bütün dünya yerləşir. Sadəcə olaraq bunları görən göz, duyan ürək lazımdır. Yaradıcı adamın müşahidə qabiliyyəti çox güclü olmalıdır. Yazıçı heç vaxt tənqiddən qorxmamalıdır. Xüsusən gənc yaradıcı ziyalılar bilməlidir ki, döyülməyən çəltikdən düyü çıxmaz. Hər tənqidə bir tutarlı əsərlə cavab verə bilməsə, demək, yazıçı həyatın dərin qatlarına enməyi bacarmır. Əsl yaradıcı şəxsiyyəti iki duyğu – dostun məhəbbəti, düşmənin nifrəti hərəkətə gətirməlidir. Dözümlə zəhmət, inamla həqiqət istedadın doğma qardaşlarıdır. Ölüm olmasa, insan yarada-yarada Allah olardı. Elə bir yaradıcılıq zirvəsinə çatmaq lazımdır ki, əmin-arxayın bir şəkildə üzünü bədxahlarına tutub deyə biləsən: hünərin var indi məni dan!"

1970-ci ildən mətbuatda çap olunmağıma baxmayaraq, uzun çətinlikdən sonra 1980-ci il üçün əlyazmamı tematik plana daxil eləmişdilər. "Gənclik" nəşriyyatında ilk kitabım çapa hazırlanırdı. Həcmi ilə bağlı söz-söhbət

yaranmışdı. Bir çap vərəqindən artıq yer vermək istəmirdilər. Yenə Süleyman Rəhimov qayğıkeşliyi kara gəldi. Onun köməyi ilə kitabım 2.5 müəllif vərəqi həcmində oxuculara təqdim olundu.

Səhhəti ilə bağlı toyuma gələ bilməsə də, teleqram vurmuş, ürək sözlərini, xoş arzularını təbrik, təbərrik kimi məclisə göndərmişdi. Gündəlik görüşlərdə məni tez-tez suala tutar, ailə vəziyyətimlə, çətinliklərimlə maraqlanar, mənə həmişə mənəvi dayaq olardı. Mən də qayğılarımı gizlətməz, bir övlad səmimiyyəti ilə ona öz sirrimi açar, dərdimi deyərdim. Hərdən təəssüflə deyərdi: Heyif sənin gənclik çağların mənim qocalan vaxtlarıma düşdü. Ürəyim istədiyi kimi hərəkət edə bilmirəm. Qəlbim çox şey deyir, yaşım çox az şeyə imkan verir.

Bu mövzuda çox şey xatırlaya bilərəm. Sözümün canı odur ki, mən ondan həmişə yaxşılıq görmüş, xeyirxahlığının nurunda işıqlanmışam.

Səməd Vurğun haqqında deyərdi: Səməd Allah vergisiydi, oğul. Onu heç kəslə müqayisə etmək olmaz. Allah ona elə nüfuz vermişdi ki, ən qəddar düşmən, bədxah niyyətli bir adam onun qaynar baxışlarına tuş gəlsəydi, silahı əlindən yerə düşərdi. Onun varlığı başdan-başa səmimiyyətdən, səxavətdən, ilhamdan yoğrulmuşdu!

Bir dəfə yenə kövrək vaxtlarının birində ömür-gün yolundan, şəxsi taleyindən, qələm dostlarından söhbət açmışdı. Səməd Vurğunu daha çox yada salırdı. Birdən yadına nəsə düşdü. Ani bir sükutdan sonra dərindən bir ah çəkib dedi: Kaş mən də Cəfər Cabbarlı kimi, Səməd Vurğun kimi dünyadan tez gedəydim, sinəmə övlad dağı çəkilməyəydi, gözlərim Şamonun ölümünü görməyəydi. Dərdi də şöhrəti qədər böyük olan bir insana baxıb kövrəldim.

***19.02.1989***

# XƏLİL RZA HAQQINDA ÜRƏK SÖZÜ

Xəlil Rza 30 ilə yaxındır ki, poeziyamızın çətin və şərəfli yollarında şeriyyətin oğlu, sənətin layiqli övladı kimi addımlayır, bu addımlar onun yeridikcə gücünü, qaynadıqca həvəsini qanadlandırır.

Kürsülərə sığmayan, cəsur şeirim, ər şeirim!
Təpədən dırnağadək silahlı əsgər şeirim!

– deyəndə bu misraların böyük səmimiyyətinə ürəkdən inanırsan, ona görə ki, Xəlil Rza poeziyası böyük ideallarımızın, danılmaz həqiqətimizin müqəddəsliyi keşiyində əsgər kimi dayanmağı bacaran, iş görən, həmişə yürüşdə, mübarizədə olan poeziyadır.

Məni gecələr də çağırır Xəzər,
Qəlbimdə, beynimdə, gözlərimdədir.
Elə bil yatağım çarpayıda yox,
Həmişə dalğalar üzərindədir!

Təmizlik uğrunda vuruşlardayıq,
Mətanət gündəlik işdə yoxlanır.
Dünyanın hüsnündə bircə ləkəyə,
Sənətkar dözürsə, sənət oxlanır!

Bu misralar narahat əsrimizlə, qarşısında olum, ya ölüm, sülh, yoxsa müharibə?! sualları dayanan zəmanəmizlə bağlı narahatlığın övladı olan bir şairin ürəyindən süzülüb gələ bilər. Xəlil Rza sənətin böyük məsuliyyətini, şairin bir şəxsiyyət kimi cavabdehlik hissini həmişə dərindən düşünür, bütün şeirlərində bu ali duyğulara, ali hislərə cavab verməyə çalışır.

Nə fitnə qalacaq, nə şər qalacaq,
Əsil adamlardan əsər qalacaq.
Çör-çöpü sahilə tullayır dəniz,
Dənizin dibində gövhər qalacaq.

Tez coşmaq ürəyi taqətdən salar,
Tez susmaq qocaldar, saça dən salar.
Söz var ki, insanı döndərər dağa,
Söz də var yüz illik hörmətdən salar!

Hər zaman kükrəmə, bəzən yavaş gəz,
Demə ki, tufanlar qəddimi əyməz.
Vaxtında güllə tək açılmayan söz,
Sahibinə dəyər, hədəfə dəyməz!

Gəlmişəm, yol çəkəm, dağ-daşı yaram,
Al qana boyadı dağ-daşı, yaram.
Fərhad külüngüylə bir dağ yardısa,
Mən sənin yolunda dağ daşıyıram!

Bu misraları oxuyanda adamın ürəyində güclü həyat eşqi, həyata, cəmiyyətə güclü inam və ləyaqət hissi öz gözəl bəhrəsini verir. Bu da şairin xoşbəxtliyi və qələbəsi deməkdir.

Bütün xalqların tarixində olan böyük şəxsiyyətlər, həmişə yaşadığı əsrin ünvanına, bütün zamanların şöhrətinə çevrilib. Bəzən bir neçə əsr bir dahi sənətkarın hesabına tarixdə yaşamaq hüququ qazanıb. Nəsimi və onun əsri kimi. Şair bu haqda görün necə gözəl bədii ümumiləşdirmə verib:

Nəsimi alnında qanlı bir qürur,
Baxır kainata öz dan yerindən .
On dördüncü əsr yıxılır, durur,
Tutur o dahinin ətəklərindən!

Dünyadan nakam getmiş mətin bir vətən oğlunun xatirəsinə yazılan misralara fikir verin:

O dağlara diqqətlə bax bir,
Bəlkə analardı ağarıb başı.
Analar dünyaya oğullar verir,
Dünya analara acı gözyaşı!

Onun nər kürəyi yerdədir bu gün,
Mənimsə qəlbimdə kədər car çəkir.
Yeni bir qəhrəman yaratmaq üçün
Vətən gör nə qədər əzablar çəkir.

Vətəndaşın itgisi, Vətənin həqiqəti oğullarının ürək ağrısına çevrilir, çünki xalqın qəhrəman oğulları həmişə yaranan, tez-tez ələ düşən bəxtəvərlik deyil. Şair bu şeirində yaxşıları, xalqın şərəfi olan oğulları qorumağa, yaşatmağa çağırır. Ürəyimizi təmiz hislərlə, saf duyğularla doldurur.

Şairin aşıq poeziyasına bağlılıqdan, saz dünyasına pərəstişindən yaranan, Aşıq Əmrahın, Kamandarın, Ədalətin və başqa görkəmli sənətkarların haqqında yazılan gözəl şeirləri dillər əzbəri olmağa, təbliğ olunmağa layiqdir. Əgər şair Xəlil Rza Aşıq Kamandarın on bir telli, uzun qollu, gen sinəli tavar sazını el sənətinin güclü inkişafı kimi qiymətləndirməyi bacarırsa, bu cəhət şairin şairliyinin ən gözəl keyfiyyəti deməkdir.

X.Rza bir şair kimi bizə necə əzizdirsə, tərcüməçi və alim, tədqiqatçı və ədəbiyyatşünas kimi də o dərəcədə əzizdir.

Mübaliğəsiz demək olar ki, X.Rza dünya və sovet poeziyasının ən gözəl nümunələrini dilimizə tərcümə edib, bu sahədə də böyük uğurlar qazanıb. Onun tərcüməçilik fəaliyyəti şeirimizə yeni bir genişlik və əlvanlıq gətirib.

Nümunə üçün məşhur rus şairi Yevtuşenkodan bir misal gətirmək istəyirəm:

Dənizə bənzəyir insan şöhrəti,
Onun da qabarıb, çəkilməsi var.
Göylərə baş çəkən bir imarətin,
Qəfildən dağılıb, sökülməsi var!

Zamana heyranam, bütün bəşəri,
Ovcunda sabaha aparar zaman!
Mərmər lövhələrə layiq olmayan,
Adları mərmərdən qoparar zaman!

X.Rza şeirlərində ölçüsüz vətənimiz, böyük Azərbaycanımız həmişə yanğı və ehtirasla, coşqun məhəbbət, dərin səmimiyyətlə tərənnüm olunur.

Azərbaycanımıza bütün varlığı ilə bağlı olan şairin bir şeiri ilə sözümü tamamlayır, dostuma yeni yaradıcılıq üfüqləri arzulayıram.

Bir gün vətən desə vüsal günüdür,
Bu söz ürəyimin başında keçər!
Mən özüm getsəm də raket gücüylə,
Babək at oynadıb qarşımda keçər!

Düşmən həyatıma kəsilsə qənim,
Cismimi dalğalar aparsa mənim,
Araz sularında axsa bədənim,
O taya kəsilmiş başım da keçər!

***19.05.1983***

# AZADLIQ AŞİQİ

Müstəqil Azərbaycan Respublikasının başçısı, hörmətli prezidentimiz Heydər Əliyevin fərmanı ilə üç görkəmli sənətkara – xalq şairləri Xəlil Rzaya (ölümündən sonra), Bəxtiyar Vahabzadəyə və Məmməd Araza “İstiqlal” ordeni verilmişdir. İstiqlal sözünü eşidən kimi istər-istəməz böyük şairimiz Məhməd Akif Ərsoyun məşhur şeirindəki son misranı xatırladım. “Haqqıdır haqqa tapan millətimin istiqlal!” Doğrudan da bu sözün daşıdığı məna yükü, məna çaları ilə mükafatı alan şairlərin ömür yolu, həyatın mübarizəsi bir-birinə nə qədər gözəl yaraşır. Mərhum və unudulmaz xalq şairimiz Xəlil Rza ömrünü, taleyini müstəqilliyimiz, istiqlalımız, azadlığımız yolunda şam kimi əritdi, ocaq kimi yandırdı, tonqal kimi alışdırdı. Gözünün nurunu, ürəyinin odunu, qəlbinin işığını şeirə, sənətə verdi, “zərrə-zərrə, qram-qram” yox, dünya boyda azadlıq istədi. “Kürsülərə sığmayan cəsur şeirin, ər şeirin, təpədən dırnağadək silahlı əsgər şeirin” keşiyində ömrü boyu ayıq-sayıq dayandı, yeriyəndə şah yeridi, duranda şah durdu, danışanda aydın danışdı, hədəfi düz nişan aldı, üzübir, sözübir əqidə, məslək sahibi kimi yaşadı, yaratdı, ucaltdı millətinin başını kişilik, mərdanəlik poeziyası ilə! İllərin zəhməti, yuxusuz gecələr, üstünə dirigözlü açılan səhərlər, sərrast deyimlər, sərt və kövrək düşüncələr sayılması, hesablanması mümkün olmayan gündəliklərə, salnamələrə, kitablara, tərcümələrə, elmi-tədqiqat xarakterli məqalələrə çevrildi, mübarizə yollarına işıq saldı. Bu işıq sevgiyə çevrildi, poeziya məclislərində, salonlarda gur alqışlara döndü.

Mənim şeirim vüsalı, istiqlalı alqışlar,
Şeirimin davamıdı salondakı alqışlar!

Bu alqışlar Allah vergisi olan ilham odundan, qəlb atəşindən, halal qandan mayalandı, əkinçi əlləriylə əkildi, şumlandı, alın təri ilə suvarıldı, bəhrəsini verdi, boy göstərdi. Bütün ziyalılar ordusunun da etiraf etdiyi kimi Xəlil Rza bir ömürdə bir neçə ömür yaşadı. Müəllim ömrü, alim ömrü, şair ömrü, tərcüməçi ömrü. Bağban ömrü, əsgər ömrü, ictimai xadim ömrü, nəhayət, əsl insan ömrü! Müxtəlif dillərə, millətlərə və bütün bəşəriyyətə mənsub olan dünya xalqlarının yüzə qədər görkəmli şairini Azərbaycan türkcəsində "Vaqifin şirin dili"ndə danışdıran Xəlil Rza müasir Azərbaycan ədəbiyyatına, ədəbiyyatşünaslığına elə bir zənginlik gətirdi ki, bu işi ancaq və ancaq bir akademiya görə bilərdi. Bu əsərlərin işığı ilə o, təkcə Azərbaycan mədəniyyətini dünyaya tanıtmaq istəmirdi, eyni zamanda dünyanın mənəvi dəyərlərini Azərbaycan dünyasında yaymağa çalışırdı. Başdan-başa qəhrəmanlıq duyğuları ilə yoğrulub-yapılmış Xəlil Rza poeziyasında çəkilən adlara fikir verin! Atilla, Mete, Bilgə xaqan, Çingiz, Teymur, Alpamış, Sultan Səlim, İldırım Bəyazid, Atatürk, Xətai, Səttərxan, Koroğlu, Şeyx Məhəmməd Xiyabani, Tağı Ərani, Nəsimi, Hadi, Cavid, Sabir, Əhməd Cavad və s. Xəlil Rza qələmi ilə ipə-sapa düzülmüş bu işıqlı adların hər birinin arxasında bəşəriyyətin böyük ideyaları, sönməz arzuları, bitməz-tükənməz həyat eşqi, məsləki yolunda vuruşan, ölümün gözünə dik baxan, şəhidliyi özünə şərəf sayan tarixi şəxsiyyətlərin ömür yolu dayanır. Xəlil Rzanın əsərlərində ildırım, tufan, zəlzələ, şimşək, qasırğa, qeyrət, məslək, qartal, kainat, bəşəriyyət, məşəl, əbədiyyət və s. ifadələrə sıx-sıx rast gəlmək olar ki, bu da onun şair kimi ürəyinin böyüklüyündən, fikrinin genişliyindən, arzularının sonsuzluğundan xəbər verirdi. Xəlil Rzaya qulaq asan,

onu yaxından dinləyən adam yaşamaq üçün özündə yeni bir qüvvət tapırdı, xəstədirsə sağalırdı, qocadırsa cavanlaşırdı, bədbindirsə nikbinləşirdi, fağır təbiətli bir adam birdən-birə mübarizə aşiqinə çevrilirdi. Bu coşqunluğu gənc şairlərdə ona qarşı tükənməz məhəbbət yaratmışdı. Bir neçə ədəbi nəsil demək olar ki, onun evində boya-başa çatıb püxtələşmişdi. Nə tərifdən havalanar, nə tənqiddən sarsılardı. Düşmənin, bədxahın müqaviməti onun gücünü birə-beş artırar, onu daha da yenilməz edərdi. Musa Cəlildən, Petefidən, Yevtuşenkodan, Selvinskidən elədiyi tərcümələrdə adıçəkilən şairlərdən daha çox Xəlil Rzanın böyük ürəyini, geniş qəlbini, kişi cəsarətini görərdik. Xalqımızın gözəl bir misalı var: "Dildən gələn əldən gəlsə, hər gəda sultan olar". Çoxlarının dilindən gələn əlindən gəlmir. Kürsülərdə millət qəhrəmanına çevrilən, vətənin dar günündə övladlarını oxumaq adıyla xaricə göndərən azmı "vətəndaş" tanıyırıq.

Ancaq Xəlil Rza ömrü boyu qəhrəmanlıq poeziyasına xidmət elədi, özü də bağrının parası, gözünün nuru olan Təbrizi də Vətən yolunda şəhid oldu.

Sən – oğul, sən – igid, sən – ər oğlu ər,
İftixarla daşı sən öz adını.
Məğribə, məşriqə, cahana göstər,
Adında gizlənmiş istedadını!

Qəhrəman oğul şair atanın dediyi yolla getdi, qanla yazılan Azərbaycan tarixinin bir parçasına çevrildi. Bu amansız və əvəzsiz itkidən ata ürəyi göynəsə də sarsılmadı, alçaq və rəzil düşmən qarşısında özünü sındırmadı. Sarsılmadı ona görə ki, Təbriz kimi bir qəhrəman oğul Xəlil Rza kimi bir üsyankar şairin ömrü boyu təbliğ elədiyi, yaydığı müqəddəs ideallar yolunda qurban getmişdi. Sarsılmadı, ona görə ki:

Əyilməzlik Ulutürkün əslindədir, soyundadır,
Palıd kimi qamətində, çinar kimi boynundadır.

Elə bil ki, öz oğlunun yasında yox, toyundadır,
Azadlığın, istiqlalın tarixini yaza-yaza,
Çıxış edir Xəlil Rza!

Şəhidlər xiyabanında Təbrizin dəfnində Xəlil Rzanın elədiyi çıxış onu yenidən qanla yazılan Azərbaycan tarixinin bir parçasına çevirdi. Şair atanın və qəhrəman oğulun bu tarixi xidmətləri yuxarıda adlarını çəkdiyim ölməz həyat aşiqlərinin yaşadığı ömrün təkrarsız təkrarı və davamıdır! Yuxulu gözləri açan, mürgülü başları ayıldan, tutqun beyinləri silkələyən, ölmüş duyğuları dirildən poeziyanın mayası qəhrəmanlıq duyğularıdır.

Tutaq ki, var istedadın, bacarığın, biliyin də,
Rədd ol, itil gözlərimdən,
Vətən eşqi yoxsa əgər damarında, iliyində!

Xəlil Rza bir şair və şəxsiyyət kimi qəhrəmanlığa xidmət etməyən dəyərlərin heç birini qəbul etmirdi. Həyatda nəyi görürdüsə, hər şeyə qəhrəmanın və qəhrəmanlığın gözü ilə baxırdı.

Elə ki, dərk elədin öz kişi qüdrətini,
Zağlı bar qılınc kimi kəsmək məharətini,
İylədiyin bircə gül sənin bütöv cənnətin!
Sığındığın guşəcik kəhkəşan imarətin!
Bir stəkan isti çay ən böyük ziyafətin!
Heç bilmirsən verilib, verilməyib qismətin,
Bircə onu bilirsən oğlusan şeriyyətin!

İyirmi il ünsiyyətdə olduğum, ailəvi dostluq elədiyim, qayğısını, xeyirxahlığını gördüyüm, uğurlu və uğursuz günlərinin şahidi olduğum, əziz və doğma bildiyim, çiçək kimi kövrək, qaya kimi sərt tanıdığım Xəlil Rza ömrü boyu təmənnasız yaşadı, heç kimə minnət qoymadı, mükafat, təltif, fəxri ad ummadı. Hətta ona "Xalq şairi" fəxri adı veriləndə üzünü qəhrəman Təbrizin ruhuna tutub "oğlum, bu adı mənə qanbahası kimi veriblər" deməkdən

belə çəkinmədi. Aldığı fəxri adlara, mükafatlara o qədər də sevinməyən Xəlil Rza heç şübhəsiz ki, “İstiqlal” ordeninə layiq görüldüyünü eşitsəydi, çox sevinərdi. Sevinərdi ona görə ki, bu söz Xəlil Rzanın əqidəsindən gələn, inamından doğan həyat eşqindən güc alan bir sözdür. Bu sözün uğrunda o ömrü boyu döyüldü, döyülə-döyülə bərkidi, əzilə-əzilə mətinləşdi, özü də, övladı da, yaradıcılığı da poeziyamızda, müasir Azərbaycan ədəbiyyatında qəhrəmanlıq obrazına çevrildi.

O qarlı dağlara diqqətlə bax bir,
Bəlkə analardı, ağarıb başı.
Analar dünyaya oğullar verir,
Dünya analara acı gözyaşı.

Xəlil Rza dünyaya qəhrəman oğul verdi, dünya Xəlil Rzaya əzab, işgəncə, zindan, məhbəs! Haqqın səsinə səs verdiyinə görə, xalqının taleyini müdafiə etdiyinə görə, hayqırdığına, nərə çəkdiyinə görə qırmızı imperiya cəlladları tərəfindən Lefortovo zindanına atıldı. Bu zindan şairin mənəvi ömrünü uzatsa da, cismani ömrünü gödəltdi, şairin ölümünü yaxınlaşdırdı.

Onun nər kürəyi yerdədi bu gün,
Mənimsə qəlbimdə kədər car çəkir.
Yeni bir qəhrəman yaratmaq üçün,
Vətən gör nə qədər əzablar çəkir!

Xəlil Rza bu gün canından çox sevdiyi Azərbaycan torpağının qucağında, Fəxri xiyabanda uyuyur. Mənimsə qəlbimdən göynəkli, sızıltılı duyğular keçir. Axı Xəlil Rza kimi oğulları hər ana doğmur, hər ocaq yetirmir. Niyə onu qoruya bilmədik. Tez getdi Xəlil Rza, çox tez getdi. “Getdi” sözünü ancaq cismani mənada işlədirəm. O, heç yana getməyib. Qəlbimizdə, ruhumuzdadı, döyüşün, mübarizənin ön cərgəsindədi, səngərdə, vuruşdadı. Biz sabah qələbə çalıb torpağımızı işğalçılardan

azad edəndə Xəlil Rza şeiri dilimizdə duaya, başımızın üstündə bayrağa çevriləcək!

Nəsimi alnında qanlı bir qürur,
Baxır kainata öz dan yerindən.
On dördüncü əsr yıxılır, durur,
Tutur o dahinin ətəklərindən!

Bəli, zaman-zaman tarix şəxsiyyətlərə söykənib, tarixi şəxsiyyətlər yaradıb. Şairin özünün dediyi kimi, gələcək əsrlərdən XX əsrin 80-ci illərinə boylanan nəsillər Xəlil Rzanın aydın və gur səsini eşidəcək, uca boyunu görəcəklər. Müstəqilliyimizin yorulmaz carçısı, həyatın və sənətin cəfakeş oğlu Xəlil Rzaya "İstiqlal" ordeninin verilməsi münasibəti ilə şairin çoxsaylı oxucularını, könül dostlarını, qohumlarını, ailə üzvlərini ürəkdən təbrik edirik!

***"Azərbaycan" qəzeti,***
***1995, 21 aprel***

## YENƏ O BAĞ OLAYDI

Kitab mağazasına girən kimi satıcı qız sevincək mənə sarı yeriyib dedi: “Vaxtında gəlmisən, Müşfiqin yeni kitabını indicə almışıq”. Qız bu sözləri elə həyəcanla dedi ki, mən elə bildim oxucuları və pərəstişkarları ilə görüşə unudulmaz şairimiz canlı Müşfiq özü gəlib. Satıcı qıza təşəkkür edib, kitabı götürdüm. Gözlərim kitaba sataşan kimi xəyal məni ağsaqqal şair və müəllimlərimizin Müşfiq haqqında xatirələrinə doğru apardı. Güclü hafizəyə malik olan, işıqlı sabahın eşqi ilə qanadlanan, hər gün təzəliyə, yeniliyə can atan, güclü inam sahibi, qaraqaş, qaragöz, cavan bir oğlan gözlərim önündə canlandı.

Əsrimizin 40-cı illərindən sonra yetişən nəsil Müşfiqi görməmişdir. Lakin onun dağ çayı kimi coşqun, bulaq kimi qaynar və duru poeziyası həmişə gəncliyin ürəyindən xəbər vermiş, şairə əbədi ömür bəxş etmişdir.

Bu günlərdə “Gənclik” (“Yenə o bağ olaydı”, “Gənclik”, Bakı 1976) nəşriyyatı şairin yeni kitabını çapdan buraxmışdır. Kitabı hörmətli yazıçımız, Müşfiq yaradıcılığının tədqiqatçısı Gülhüseyn Hüseynoğlu tərtib etmiş, “M.Müşfiq yaradıcılığında bədii təsvir vasitələri” adlı geniş və mənalı müqəddimə yazmışdır.

Şeirlər şair ömrünün yazlı, qışlı, yaylı, payızlı fəsilləri kimi dörd bölmədə toplanmışdır.

“Gəzdiyim yerlər” bölməsində şairə doğma olan, qoynunda boya-başa çatdığı, qayğısına qaldığı, dünənindən, bu günündən ilham aldığı yerlər tərənnüm olunur:

> Əsrlərdən bəri, illərdən bəri,
> Dərdinə qaldığım yerdi bu yerlər.

– deyən şair öz doğma torpağının vurğunu kimi hər yeri qarış-qarış dolaşır, əməyə, torpağa, bəxtiyar günlərə şeir həsr etdikcə onda həyati məhəbbət güclənir.

Ah, mən gündən-günə bu gözəlləşən,
İşıqlı dünyadan necə əl çəkim.
Bu yerlə çarpışan, göylə əlləşən,
Dostdan, aşinadan necə əl çəkim.

– deyərkən biz onun həyata nə qədər güclü məhəbbət bəslədiyinin şahidi oluruq.

"Tərtərhes nəğmələri" başdan-ayağa lirik bir nəğmə kimi səslənir. Bu nəğmələrin hər misrasında güclü şair ürəyi döyünür, ilhamın tufanı yaşayır. Şair bu əsəri yazarkən Tərtərin özü kimi cuşa gəlmiş, yaz seli kimi dağlara-daşlara haray salmışdır:

Çırpınmalı el səsində,
Elin köks qəfəsində,
Sözlərinin canı şair.
Həqiqəti görməyinin,
Elə könül verməyənin,
Batsın adı-sanı, şair.

Müşfiqin məhəbbəti qədər nifrəti də güclü olmuş, xalqına, elinə könül verməyən, onun müvəffəqiyyətlərinə sevinməyən dargözləri tənqid atəşinə tutmuşdur.

İkinci bölmədə toplanan şeirlər "Təzə ev" adı altında verilmişdir. Buraya şairin "Baba yurdu", "Qadın", "Üç sağlıq", "Təzə ev" və s. şeirləri daxildir.

Bu şeirlərdə ana məhəbbəti, ata-baba yurduna bağlılıq, qurub yaradan insanların həvəs və arzuları tərənnüm olunur.

Mikayıl Müşfiq bir şair kimi ictimai-siyasi hadisələrə həmişə dövrün, zamanın gözü ilə baxmış, yaradıcılığı boyu bu ruhu tərənnüm etmiş, ona sadiq qalmışdır.

Həyat işdir, döyüşdür, sədaqətdir, əməkdir,
Bilə-bilə bunları dayanmaq nə deməkdir,
Nə deməkdir dünyada tez qarıyıb qocalmaq.

Şair bütün varlığı ilə hər şeirində zamanın səsinə səs vermiş, xalqı həmişə əməyin, zəhmətin qələbəsinə səsləmişdir. "Yalnız ağac" şeiri belə bir sonluqla bitir:

Qəlbimlə, ruhumla qoşuldum elə,
Düşüncəm sakitdir o gündən belə.
Bax indi mən hara, yalqızlıq hara,
Azad fikirlərə, azad quşlara.
Qəlbimin hər gözü bir aşiyandır,
Bədbəxt bu dünyada tək yaşayandır.

Bu parçada zəhmətkeş xalq kütlələri ilə əl-ələ verib ömrünü, gününü zəhmətə bağlayan, bir gün belə özünü xalqdan ayrı təsəvvür etməyən xoşbəxt bir şairin böyük və coşqun qəlbi döyünür.

"Təzə ev" şeirində ayrı-ayrı beytlərə nəzər salaq:

Usta bir ev tikirdi, gözəl işdi gördüyü,
Sanki bir cüt qaranquş yuvasıydı hördüyü.

Can usta, mahir usta, gərək işin
Çıraqban göylər kimi iş olsun,
Ürəyin kimi olsun.

Çiçəklərlə, quşlarla dolacaq bağım mənim,
Daşacaqdır həyatım, əlvan otağım mənim.

Bu şeirdə yeni ailə quran gənc bir insanın istək və arzuları o qədər təbii və səmimi verilmişdir ki, elə bil hadisələr oxucunun gözləri önündə baş verir. Oxucu daşyonan, divar hörən ustanı da görür, sevinə-sevinə ona müraciət edən cavan ailə başçısını da.

Yuxarıda misal çəkdiyimiz parçalardan göründüyü kimi Müşfiq öz vətəninin nailiyyətlərinə ürəkdən sevinən, bu müvəffəqiyyətləri coşqun bir hislə qələmə alan, poeziyanın əsas mövzusuna çevirən əsl vətəndaş şairdir. Onun müasirliyi, unudulmaz olması da bu vətəndaşlıq hissindən irəli gəlir.

Bu şeirlər oxucuya elə təsir bağışlayır kı, elə bil Müşfiq mənən olduğu kimi, cismən də bugünkü böyük qələbələrimizin canlı iştirakçısıdır.

“Yenə o bağ olaydı” Müşfiqin ən məşhur şeirlərindən sayılır. Səbəbini araşdıranda görürsən ki, bu məşhurluq şeirin halal haqqıdır, onun ölməzliyi böyük bir həqiqətə əsaslanır.

Hər şeydən əvvəl şeirin yüksək dərəcədə xəlqi olması, xalqın danışıq tərzinə olduqca yaxınlığı, hislərin doğmalığı, dilin şirinliyi və rəvan olması, təravətli bənzətmələri, cinasları, müraciətləri və s.

Şeirdə ayrı-ayrı parçalara nəzər yetirsək, fikrimiz tamamilə aydın olar:

Arzuya bax, sevgilim, tellərindən incəmi,
Söylə, ürəyincəmi?

Gizli söhbət açaydıq ruhun ehtiyacından,
Qardaşından, bacından.

Yenə o bağ olaydı, yenə o qumlu sahil,
Sular ötəydi dil-dil.
Hər dalğa bir kişnəyən bəyaz yallı at kimi,
Bizim bu həyat kimi.
Gecələr darayaydı saçlarını Ay, gözəl!
Sən gözəlsən, ay gözəl?

Düz 40 il bundan əvvəl yazılan, hamının dilində əzbər olan, heç kimin yadından çıxmayan bu şeir böyük bir sənətkarın ilham bulağının zümzüməsidir. Hər 15 hecalı misradan sonra 7 hecalı misraların gəlməsi elə bir şuxluq gətirib ki, hislərin güclü axını, fikirlərin ləngəri onda Kür coşqunluğu, Araz istiliyi yaradıb. Şeiri oxuyanda istər-istəməz bu qənaətə gəlirsən ki, Müşfiq bu duyğuları bir gün, bir ay, bir il deyil, bəlkə illər uzunu qəlbində bəsləyib və bir neçə dəqiqə ərzində vərəqlərə köçürüb.

Dördüncü fəsil sənətkar fəslidir. Buraya şairin sənət və sənətkarlıq məsələlərinə aid əsərləri, M.Qorkinin, N.Ostrovskinin, M.Ə.Sabirin, C.Cabbarlının xatirələrinə həsr olunmuş şeirləri daxildir.

“Tar”, “Şairin ölümü”, “Şeirim”, “Gözəllik”, “Duyğu yarpaqları” və s. şeirlər unudulmaz şairin sənətə tükənməz məhəbbətinin ifadəsidir.

Bu şeirlərin hamısı qaynar ehtiraslı güclü pafosun, coşqun ilhamın məhsuludur.

Fırtınasız dəniz nə lazım mana,
Alqış, insan oğlu, güclü sevdana.

– deyən şair fırtınalı, qasırğalı dənizlərin vurğunu kimi çıxış edir. O, daim insanı işdə, əməkdə, yüksəlişdə, mübarizədə görmək istəyir.

Süstlüyü, ətaləti, fağırlığı yer üzərindən süpürüb atmaq istəyir:

Sən varlığın eynisən, buna sözmü var?
Ürəksən, beyinsən buna sözmü var?
Gecələr Ay sənindir, gündüzlər günəş,
Kainat kimi.
Hər şey gözəlləşmədə, sən də gözəlləş
Bu həyat kimi!

Şeiri varlığın eyni, ürəyi, beyni kimi qiymətləndirən, könüllər dünyasından xəbərdar olan, hər sözü, hər kəlməsi oxucunun ürəyindən xəbər verən sənətkar şeirin ürəklərdə yuva salmasını şairin əsil səadəti hesab edir.

Xatirəsi xalqımız üçün həmişə əziz və unudulmaz olan Mikayıl Müşfiq xalqımızın, poeziyamızın inkişafı üçün az ömürlə çox iş görmüş və indi də görməkdədir.

Qarşımda bədənli bir kainat var,
Gözəl təbiət var, iş var, həyat var.
Həyatın əslini mənə qandıran,
Könlümü, gözümü işıqlandıran
İşimdir, gücümdür, ehtirasımdır:
Bunlar tükəndimi mənim yasımdır.
Sevirəm, axdıqca alnımın təri
İnsana dad verən gözəllikləri.

***1976***

## NİGAR XANIM RƏFİBƏYLİ HAQQINDA

Xudadat bəy Rəfibəyli kimi bir kişinin qızı, H.Cavid və Abdulla Şaiq kimi böyük ziyalı müəllimlərin tələbəsi, Rəsul Rza kimi sərt tufanlar önündə sal qaya kimi dayanan bir kişi şairin həyat yoldaşı, Anar kimi məşhur bir yazıçı və ictimai xadimin anası olmaq, nəhayət, Azərbaycan kimi zəngin poetik təfəkkürə malik bir xalqın şair qızı olub Xalq şairi səviyyəsinə yüksəlmək ölçüyə gəlməyəcək dərəcədə böyük xoşbəxtlikdir.

Nigar xanım Günəşdən gənclik istədi – Günəş gəncliyini verdi, dənizdən coşqunluq, meşədən dinclik istədi, küləkdən ılıq nəfəs istədi, çiçəkdən ətir, yarpaqdan çətir istədi, dağdan əzəmət, insandan məhəbbət istədi – nəyi istədisə təbiət ondan əsirgəmədi. Əsirgəyə də bilməzdi.

Sadaladığım bu xoşbəxtliklər özü ilə yanaşı böyük bədbəxtliklər də gətirib Nigar xanıma. 43 yaşında atası Xudadat bəy erməni daşnaklarının əli ilə güllələnib, analar anası, xanımlar xanımı Cəvahir xanım hər ölən və itən Rəfibəyli ilə yenidən güllələnib. Ə.Qarayev kimi qaranəfəs, bayquşniyyət, öz xalqının qanını içməyə hazır olan bir bolşevikin böhtan dolu məqaləsi ilə şər və böhtan yağışına tutulub. 12 yaşında ilk pyesini yazan, 24 yaşında ilk kitabı çıxan Nigar xanım 17 yaşından böhtanlar, iftiralar, iyrənc münasibətlərlə üzləşib. Rəfibəylilər nəslinin bütün üzvləri kimi, sovet rejiminin qara siyahısına düşüb. Hətta öz qələm dostlarının hücumuna məruz qalıb. Ata güllələnib, qardaşlar pərən-pərən olub, İrana, Türkiyəyə, Rusiyanın müxtəlif yerlərinə, Orta Asiyaya, Türküstana səpələniblər. Tale Nigar xanımın şəxsində ona görə Rəfibəylilərə divan tutub ki, onların

hamısı öz xalqını azad və müstəqil, öz dövlətini abad və firavan, öz insanlarını savadlı və qabiliyyətli görmək istəyiblər. Bütün bu faciələrə böyük Sabirin dili ilə desək "Seyli-tən öylə təməvvüclə alıb dövrü bizim" deyərək mətanətlə, ləyaqətlə dözüb, ağlasa da, göz yaşları içinə axıb, onu düşmənə göstərməyib.

Bütün bu dərdlər Nigar xanımın şeirlərinə bir bənövşə kövrəkliyi, çeşmə duruluğu, bulaq həzinliyi gətirib. Qürbətdə ölən çiçəklərə şeir yazdı, gecə yuxularında durnaya dönüb dünyanın müxtəlif yerlərinə səpələnən əzizlərinin dalınca uçdu.

## USTADIMA MƏHƏBBƏTLƏ

Dili zərif, qəlbi kövrək, ruhu incə, könlü pərişan bir şair canlanır gözlərimin önündə!

Zirvələri qaya-qaya, düzləri çiçək-çiçək, meşələri tala-tala, dağları cığır-cığır tanıyan, təbiətlə danışmağa dili olan, öz dünyası, öz aləmi, öz bəmi, öz zili olan, "otaqların küncünə çəkilməyən, düzlər keçib dağlar aşan, zirvələrlə qucaqlaşan" bir şair yaşadı bu dünyada, Hüseyn Arif adında! Vaqifin və Vidadinin bal kimi şirin dilindən, Ələsgər sözünün sehrindən, obrazlı deyim tərzindən, Vurğun fikrinin genişliyindən, ulu babası İsgəndərin mərdliyindən, ulu nənəsi Zal qızı Gülnazın səbrindən, dözümündən, Qaçaq Kərəmin bənzərsiz qəhrəmanlığından, tarixə şərəf olan kişiliyindən, İsrafil Ağanın şöhrətindən mayalanmışdı Hüseyn Arif poeziyası!

Ədəbazlığa, yekəxanalığa, əllaməçiliyə, özündənrazılığa, siyasət alverinə, ticarət psixologiyasına yad idi onun şair nəfəsi!

Yaşı altmışı keçəndə də, ömrünün son günlərini yaşayanda da onun poeziyasında qız bakirəliyi, körpə təbəssümü, uşaq halallığı, ocaq istiliyi, çeşmə duruluğu, bulaq saflığı vardı! Bu duruluq, bu saflıq onun xalqından, millətindən, elindən-obasından, yurdundan-yuvasından, gülündən-gülüstanından, balından-pətəyindən süzülüb gəlirdi. Şair kimi yaşadı, şair ömrü yaşadı, qəlbinin səsinə qulaq asdı, duyan könülləri sazın-sözün laylasına tutdu. Dillər əzbəri olan, folklorun nümunələrinə çevrilən, əldən-ələ gəzən, dildən-dilə düşən, eldən-elə addımlayan poetik nümunələri bayatı ömrü qazandı, məclislərin yaraşığına döndü, yaddaşların sərvətinə qarışdı.

Hüseyn şair kimi heç vaxt qurumadı, rəsmiləşmədi, əlli ildən çox qoynunda yaşadığı şəhər dedi-qoduları onun duru və sağlam təbiətini dəyişə bilmədi. Turşməzə sözündən, baməzə söhbətindən, unudulmaz səfərindən ayrılmadı, nəfəsinə, yoluna xəyanət eləmədi. Güləndə hamını güldürdü, ağlayanda hamını ağlatdı. Qarnan yağdı, buludnan axdı, selnən kükrədi, bulaqnan qaynadı, çiçəknən açıldı, çəmənnən yaşıllaşdı! Gecə gündüz, yolda-izdə, axşam-sabah, dağda-düzdə yeridi, yüyürdü, boylandı, baxdı, düşündü, yaratdı, həmişə hərəkətdə oldu!

"Səfərdəyəm, səfərimi
Vurmamışam başa hələ"

– dedi.

Bir zərrə şəfəqlə,
Bir damla suyla,
Bir ovuc torpaqla,
Bir çəmən olam!

– dedi.

Təbiətdən yaza-yaza təbiətin bir parçasına çevrildi, sazdan danışa-danışa sazın gümüşü tellərinə köçdü, torpaqdan deyə-deyə son örtüyü torpaq oldu. Fəxri xiyaban eşqinə düşmədi. "El içində, öl içində" müqəddəsliyinə, ömrü boyu yaşatdığı amala sadiq qaldı, oğlu Ariflə Ağstafa qəbiristanlığında qoşa uyumağı dünyanın bütün təntənələrindən üstün tutdu. Xalqı, eli, obası da onun bu sonsuz məhəbbətinə böyük qayğıyla yanaşdı, yatdığı torpağı ziyarətə, evini muzeyə çevirdi. Həmin muzey, həmin ziyarət rəsmiyyətdən kənar, təbii şəkildə yarandı, xalqın arzusu ilə meydana gəldi. Harda xalqın sevgisi var, orda əbədiyyət var!

Hüseyn Arif mənim üçün unudulmaz müəllim, qayğıkeş ustad, tükənməz yaddaş xəzinəsi, bənzərsiz və özünəməxsus bir insan idi. Yaradıcılığı başdan-başa ba-

har nəfəsli, torpaq ətirli olsa da, təbiəti daha çox payıza bənzəyirdi. Bir himə bənd idi, bahar buludu kimi kövrəlib yağmaq üçün. Hüseyn Arifin tale xoşbəxtliyi orasındadır ki, o yubileyindən yubileyə, rəsmiyyət xatirinə xatırlanan şairlərdən deyil. O, bütün Azərbaycan oxucularının, şair dostlarının, xalqın aşağı-yuxarı bütün təbəqələrinin yol yoldaşı, könül sirdaşıdır. İyirmi beş illik ədəbi mühitdə iştirakçısı olduğum elə bir səfər, elə bir məclis xatırlamıram ki, orda Hüseyn Arif sevilə-sevilə anılmasın, xatırlanmasın. Hüseyn Arifə olan sevgimin qarşısında bu dediklərim olsa-olsa ancaq və ancaq qısa qeydlərdir. Sağlığında özünə də dediyim kimi, ustad sənətkarımız haqqında mənim qəlbimdə bir kitab var. Səhifə-səhifə çevrilir, varaq-varaq yazılır, fəsil-fəsil təzələnir o kitab. "Bir sevinc şairi kimi dünyaya gələn, bir kədər şairi kimi dünyadan gedən", ömrünü-gününü "Dilqəm" adlı dastana döndərən, özünü-sözünü dərddə itirib qəmdə tapan, sinəsində oğul dağı gəzdirən, "Bir dağ kəli yaraladım zirvədə" – deyib, peşmançılıq hissi keçirən "Bu qan məni tutasıydı, tutdu da" deyib ömrü boyu göyüm-göyüm göynəyən, meşəbəyi ilə bardaş qurub oturan, bütün meşəbəyilərin himnini yazan, "Amandı, durnaya güllə atmayın" – deyib haray qoparan, Aşıq Alıya şeyx və övliya kimi, Ələsgərə şeirin sultanı kimi baxan, Vaqifə dilimizin möcüzəsi deyən, "Sazda Vurğun, sözdə Mirzə" deyə-deyə alışıb-yanan bir şair haqqındadır bu kitab. Söz-söz sıralanır, nöqtə-nöqtə cücərir, sətir-sətir düzülür, damcı-damcı süzülür, bənd-bənd zənginləşir, varaq-varaq çevrilir bu kitab. Dirili Qurbani ilə dirilir, Xəstə Qasımla xəstələnir, Tahir kimi dəryada tufanlara qərq olur, Kərəm kim yanır, Valeh kimi heyran olur, Qərib kimi qürbətə düşür, Şahsənəm eşqiylə Vətənə qayıdır Hüseyn Arif şəxsiyyəti, Hüseyn Arif dünyası! Canı, qanı, ruhu, nəfəsi, əqidəsi, etiqadı təbiətdi, varlığı təbiilikdi Hüseyn Arifin! Şeirimizin Səttar Bəh-

lulzadəsi, sözümüzün rəssamıdır. Səfir kimi səfərdədi, yolçu kim yollardadı, ovçu kimi dağlardadı, səyyah kim çöllərdədi, şair kimi dillərdədi, təbiətə heyrətdədi, yerlə-göylə söhbətdədi, çeşmə kimi zümzümədə, bulaq kimi qımqımada, hamı ilə ünsiyyətdə, hamı ilə zarafatda, elə şirin günlər gördü, elə acı dağlar çəkdi, ayrıca bir aləm oldu, ayrıca bir həyat oldu bu həyatda! Yarat! – dedi, bizə xeyir-dua verdi. Nurlan! – dedi, ziyasından ziya verdi. Bərki! – dedi, mayasından maya verdi, hər görüşü, hər gəlişi, hər söhbəti bizə sonsuz dünya verdi.

Uğurlu yol yaza-yaza cavanlara uğur dedi, tapdalanmış yol getməyin, özünüzə cığır açın, cığır dedi.

Harda adı çəkilirsə, harda şeiri oxunursa qəlb açılır, üz nurlanır, dodaq gülür, harda sözü deyilirsə, gül qımışır, torpaq gülür. Hərədə bir xatirə var – Hüseyn Arif xatirəsi. Alimdə də, şairdə də, dəlləkdə də, suçuda da, aşıqda da, qarıda da, həkimdə də, rəssamda da dipdiridi, dupdurudu Hüseyn Arif xatirəsi.

Dağda da, aranda da, toyda da, yasda da, enişdə də, yoxuşda da, yaxında da, uzaqda da, Çin səddində də, Qazaxda da, Kəbədə, Məkkədə də, Borçalıda da, Gəncədə də, Kərbəlada da, Qarabağda da, Bağdadda da, Şamaxıda da, Nyu-Yorkda da, Zaqatalada da, Parisdə də, Ağstafada da, Göyçədə də, Mingəçevirdə də, Dərbənddə də – hər yerdə, hər yerdə, hər yerdə bir Allah şahiddir ki, mənim olub, mənimlə olub, mənsiz olmayıb, onsuz olmamışam.

İşıqdan, nurdan süzülən, Tanrıdan, Allahdan gələn, mələklərə dost, şeytanlara düşmən olan, yaddaşıma hopan, varlığıma həkk olunan hamının yoldaşı, hamının sirdaşı bir poeziyadı Hüseyn Arif poeziyası.

Tay-tuşlarının, qohum və eloğullarının, qələm dostları və səfər yoldaşlarının müşahidələri, zarafatları, gülməcələri, dodaqqaçdıları, Mehdixan Vəkilov, Osman Sarıvəlli və İsmayıl Şıxlı ilə, Bəxtiyar Vahabzadə və

Nəbi Xəzri ilə, Qabil və Nəriman Həsənzadə ilə, Abbas Abdulla və Eyvaz Borçalı ilə, Vaqif Nəsib və Rəfiq Zəka ilə, bu sətirlərin müəllifi ilə, yüzlərlə Azərbaycan ziyalısı ilə olan əhvalatları, hadisələri bir kitaba sığışdırmaq mümkün olarmı görəsən, xeyr, qətiyyən!

Silinmir yaddaşımdan, getmir xəyalımdan, ayrılmır fikrimdən, uzaqlaşmır yanımdan, üzülmür ürəyimdən, çəkilmir gözlərimdən, "ağıl ağılla isinir, can canla isinən kimi", "söz var onu sözlə deyir, söz var qaşla gözlə deyir", "bir qarış torpaqdan keçmir, bir ovuc torpağa dönənə kimi", "Mənə fikir çəkmə deyən, dünya fikir dünyasıdı" – deyir, "Fil üzülüb qalsa da, qartal qanad salsa da, hər palıd qocalsa da", qocalmağı yaxın qoymur, "Axtar babaları, axtar Hüseyni" – deyir, bilir ki, bir gün də nəvələr onu axtaracaq, onu!

Unudulmur, itmir, yaddan çıxmır, uzaqlaşmır, soyumur, kəsərdən düşmür, nəzərdən qaçmır, diqqətdən yayınmır Hüseyn Arif poeziyası! Davam edir bu poeziya! Hüseyn Arif ruhunun davamı Abbas Abdulladadı, Məmməd İsmayıldadı, Nüsrət Kəsəmənlidədi, Akif Səməddədi, Vəli Xırmançaylıdadı, Ağayar Şərifdədi, Məmməd İlqardadı, Barat Vüsaldadı, Murad Köhnəqaladadı, Nizami Saraçlıdadı, Zəlimxan Yaqubdadı – bizdən sonra dünyaya gələn ilham və istedad sahiblərindədi, gələn sabahlarda, gələcək nəsillərdədi! Xalqın ruhunda, millətin bətnindədi Hüseyn Arif poeziyası, Hüseyn Arif xatirəsi!!!

***15.05. 2002***

## MƏMMƏD ARAZ GÜLÜ BİTSİN

Gəlimli-gedimli, son ucu ölümlü dünyanın tükənməzliyə, ölümsüzlüyə doğru gedən yolunda Məmməd Araz Dədə Qorqudla qoşalaşdı. “Zəfər yolu – əbədiyyət qitəsinə səfər yolu” onu da qoynuna aldı. Hər şeyə inanaram, Məmməd Arazın ölümünə yox!..

İnana bilmərəm ölüm Haqq ola,
Torpaq rəssam uda, bəstəkar uda.
Ana dəfn oluna, gözəl qocala,
Bəlkə bir kitabdı, əsərdi bu da...

Əliyin hürkməsinə, qaranquşun yuvasından ayrılmasına, bənövşənin tapdanmasına qıymayan, dağ yelini saçındakı darağa, yovşanlı düzləri təbiətin bəxş etdiyi varağa bənzədən, buz bulaqların əyilib gözündən içmək istəyən, itən gəncliyini görmək üçün təbiətin qoynuna can atan Məmməd Araza təbiət necə qıydı?

Ona öz borcumu verməkdi dərdim,
Yaz, ürək qanınla, şair, yaz onu.
Gözümdən Arazı, Kürü tökərdim,
Neylim ki, göz yaşı ayıltmaz onu.

Onun öz qələmindən çıxan bu misraları Məmməd Araz haqqında oxumaq hər bir dost oxucu – pərəstişkar – vətəndaş üçün ağırdı, çox ağırdı. Musiqidə Üzeyir bəyin, poeziyada Səməd Vurğunun, muğamatda Xanın, rəssamlıqda Səttar Bəhlulzadənin ayrılığı qədər ağırdı bu həsrətin yükü.

“Özülsüz şöhrətlər uçurub tökən, zamana bənzəyən dağ gürşadları” çox adları, ünvanları yer üzündən silib atacaq. Dünəninə qəbir qazmayan, dünənini döşdən asmayan, ürəksiz bir kəlmə yazmayan, gözəllər qəlbini qaş-gözüylə yox, sadə sətirləri ilə ovsunlayan, heç kəsin olmayan, dünyada ölməz poetik nümunələrlə hər kəsin

könül sərvətinə çevrilən Məmməd Arazın halal şair şöhrətindən zaman bir qamqalaq da qopara bilməyəcək. Zaman hər şeyə toxunur. Bircə əbədiyyətlə bacara bilmir.

O əbədiyyət ki, Nizamiləri, Füzuliləri, Nəsimiləri qoruyur, o, Məmməd Arazı da qoruyacaq! O yaddaş ki, Xətaini, Qurbanini, Abbası, Xəstə Qasımı yaşatdı, o, Məmməd Arazı da yaşadacaq. O xalq ki, "nur dağları dikəldib" Sabir kimi söz vulkanı, fikir zəlzələsi ucaldıb, o, Məmməd Arazı da ucaldacaq!

Məmməd Araz poeziyası – bütün keçilməzləri bir mərd qadınla keçdi, barıt çəlləyini oddan, duz tayını çaydan keçirdi, bütün vəznlərə sığdı, sevgi vəzninə sığmadı, təzə məhəbbət cümlələrinin mübtədasına, xəbərinə çevrildi, məst olan başları torpaqla övkələdi, neçə-neçə xatirə dəftərini bəzədi, qələmə külüng, yaradıcılığa fəhləlik kimi baxdı, şairi küsdürən dünyanı Günəş sistemindən kənara tullamaq gücü qazandı, yarımçıq qalan nəğmələri təzədən oxudu, biganələr iqlimini parçaladı, şeirimizə qaya obrazı kimi gəldi, günəşin zirvədə doğan anını nur kimi könüllərə səpələdi, dağlar başında Təbrizi ağlatdı, Bakıya gələ bilməyən Şəhriyara yas tutdu, el sazında bircə sim olmağa tələsdi, çox dağları yerindən oynadan, bir daşı da yerinə qaytara bilməyən, təbiətə divan tutanlara şair şapalağı çəkdi, "iti bazarında atından baha" olan dünyanı nifrətlə damğaladı, göyə bülənd oldu, şərə kəmənd oldu, Araza bənd oldu, "özün sevməyincə, sevilməyincə, özgədən məhəbbət əsəri yazma!" hökmünü verdi. Azərbaycanı ayağa qaldırmaq gücünə sahib oldu, sevdi-sevildi, yaşadı-yaşatdı, "ölə-ölə yazmadı, yaza-yaza öldü". Dünyasını dəyişmədi, dünyanı dəyişdi. Öldü – ölüləri diriltmək üçün. Öldü – ölümüylə qayalıqda çiçək kimi bitdi, çiçəklərin içində qaya kimi göründü. Hansı daşda su yandısa, o daş altdan Məmməd Araz tüstüsü göylərə qalxdı. Oxucuya Tanrı kimi tapındı, anadan, bacıdan gizlətdiyini oxucudan gizlətmədi. Peyğəmbərdən ad, çaydan soyad aldı. Məmməd İbrahimov – Məmməd Araz oldu. Doğulduğu kəndin

adındakı nurdan və sudan mayalandı, Nursunun, Azərbaycanın, Türk dünyasının əbədi nəğməkarına çevrildi. "Bax, beləcə daşa dönəm yavaş-yavaş" deyib, dağ döşündə daşa döndü, göy üzündə quşa döndü, aşıqların sinəsində saza döndü, el dilində "Araz" adlı sözə döndü. Təbiətdən söz düşəndə qaya üstə mamır oldu, Xətainin qılıncına söykənəndə polad oldu, dəmir oldu, ilmə-ilmə, kəlmə-kəlmə ömürlərə körpü salan ömür oldu. Nə tərifi, nə təltifi gözləmədi, hasar üstə ölənlərə nifrətini, bu torpağı bölənlərə nifrətini açıq dedi, heç bir kəsdən gizləmədi. Dilimizin "haralısan" damarına, sözümüzün "sənin-mənim" qabarına şillə kimi ilişdirdi qəzəbini, özü çəkdi təkbaşına bu millətin ağrısını, əzabını. Onun üçün dünya idi dörd misralıq bir bayatı, Füzuliydi Peyğəmbəri, Ələsgərdi kainatı, "Salamat qal!" – nidasıyla möhürlədi, saz üstündə bəstələdi bu həyatı, çox atlılar atdan endi böyük sözün meydanında o çapanda köhlən atı. Anasından yadigardı nəğmələri, atasının kitabıydı hər cümləsi, hər əsəri. O yaşadı Vətən daşı olmaq üçün, o yaşadı bu ölkənin vətəndaşı olmaq üçün. O yaşadı Vətən üçün qanlı köynək ola gələ, o yaşadı ehtiyac bir yola gələ. Dava-şava, müharibə ona dəydi, "səndən-məndən ötən zərbə" ona dəydi. Sönən ocaq, dağılan yurd, uçan saray yaraladı onun şair ürəyini, "Şuşa bürcü" əldən getdi, Qarabağdan qalxan haray yaraladı onun şair ürəyini, Kəlbəli xan, Fətəli xan, nə qədər xan yaraladı onun şair ürəyini, Daşaltıda, Xocalıda tökülən qan yaraladı onun şair ürəyini!

Ey sevgisi aşıb-daşan Məmməd Araz! Ey daşlaşan, torpaqlaşan Məmməd Araz! Baş əyirəm dözümünə, səbrinə mən, baş əyirəm ruhuna mən, qəbrinə mən!

Qoy o qəbrin başdaşında,
Azərbaycan gülü bitsin.
Qoy o qəbrin başdaşında
Azərbaycan dili bitsin...
Məmməd Araz gülü bitsin!

***02.12.2004***

## BƏXTİYAR VAHABZADƏ – 80

Bəxtiyar Vahabzadə ilk növbədə Azərbaycan xalqının, millətinin, ümumiyyətlə, Yer kürəsində olan bütün türkün fəxridir. Bəxtiyar müəllim mənim müəllimim olub, onun yaradıcılığı ilə hələ uşaq yaşlarından tanışam. Amma diz-dizə, göz-gözə ustadla tələbəlik illərində tanış olmuşam. Bizim ustad-şəyird münasibətlərimiz olub, indiyədək o mənim ustadımdır.

Bəxtiyar Vahabzadə gözəl sənətkar olmaqdan əlavə, həm də böyük bir şəxsiyyətdir. Onun düşüncəsi, insani keyfiyyətləri pakdır, təmizdir. O, Azərbaycan xalqına, ümumiyyətlə, bütün bəşəriyyətə məhəbbət bəsləyir. Saf ürəyi, xoş əməlləri ilə yanaşı, onun poeziyası, düşüncələri tükənməz bir sərvətdir. Nizamidən, Füzulidən, Səməd Vurğundan sonra Bəxtiyar müəllim böyük bir iz buraxıb Azərbaycan poeziyasında. Onun şeirləri bütün türk millətinin yaddaşında əsrlər boyu yaşayacaq və seviləcəkdir. Bəxtiyar Vahabzadənin şeirləri Azərbaycan xalqına, Azərbaycan millətinə bir məsləhətdir, dərsdir. Azərbaycanın, bütün türk millətinin tarixçəsi deməkdir. Mən dəfələrlə məclislərdə, tədbirlərdə onun şeirlərini əzbərdən deyirəm. Onun poeziyasının vurğunuyam. Düzdür, mən də qələm sahibiyəm, amma Bəxtiyar Vahabzadənin dəst-xətti təkrarolunmazdır. Onun poeziyasının şah əsərlərinə dönə-dönə müraciət edirəm. Onun "Şəbi-hicran" əsərini yenə də oxuyuram, əzbərdən bilsəm belə.

Bəxtiyar Vahabzadəni səmimi qəlbdən təbrik edirəm. Ona uzun ömür, ən əsası cansağlığı arzu edirəm.

Bəxtiyar Vahabzadə yaradıb, iz qoyub və yenə yaradacaq. Bəxtiyar Vahabzadə Allaha bağlı olan insandır. Ulu Tanrı bilir ki, hələ o, Azərbaycan xalqına lazımdır.

Təbrik edirəm, 80 yaşın mübarək.

***2005***

## İSA HÜSEYNOVA SEVGİ, MUĞANNAYA İNAM

Mən İsa müəllimin şəxsində iki böyük yazıçı tanıyıram. XX əsrin İsa Hüseynovunu sevirəm, XXI əsrin Muğannasını dərk edirəm, həqiqətdən mayalanan ruhani və xəyali dünyasına inanıram. İsa Hüseynov mənim üçün "Saz"dı, "Teleqram"dı, "Tütək səsi"di, "Tütək səsi"ndəki "Ruhani" havasıdı, "Yanar ürək"di, "Məhşər"di, "Kollu Koxa"dı. Muğanna mənim üçün "İdeal"dı. "Ölümdirim"di, "Peyğəmbərin möhürü"dü, "Qapalı dünya"dı, "Cəhənnəm"di, "Əbədiyyət"di, "Qəbiristan"dı. Əsər yox, Əsərdi!

Bədii axarla, fəlsəfi dərinliklə, ictimai-siyasi kəsərlə, psixoloji gərginliklə, romantik vüsətlə, ziddiyyət dolu toqquşmalar və çaxnaşmalarla, çılğın, ərköyün, faciəli obrazlar silsiləsiylə dolu bir əbədiyyət dünyasıdı onun dünyası.

Bədii və fəlsəfi yaradıcılıq yolunda kəmiyyət və keyfiyyət dəyişikliyi eləyən, insanların elədiyi böyük səhvləri, böyük təhrifləri düzəltməyə can atan, bəşəriyyətin elmi-həqiqət dili kimi Odər dilinə inanan və onu bizlərə inandıran, "Boq" sözünün "Bağ" olmasını, "Allah" sözünün "Əlağ"dan gəlməsini, bütün elmlərin anası və mayası, "Saf Ağ" elmini aydınlaşdıran, İsa işıq dediyi yer planetin bəlkə də astronomlar səviyyəsində görən və göstərən Muğannaya inanıram və inanmaya bilmirəm.

İsa Hüseynovu dərindən tanımaq, dərk etmək üçün onun əsərlərinin ayrıca bir mütaliə sistemini qurmalısan. "Məhşər"ə "Kollu Koxa"dan, "Yanar ürək"dən, "Teleqram"dan, "Saz"dan gəlməlisən! "Yanar ürəy"i vətən-

daşlıq yanğısıyla dərk edə bilməsən, "Məhşər" sənə çatmayacaq! Onun qüdrətini və yazıçı qələmindəki hürufizmi, sufizmi dərindən anlaya bilməzsən. Fəzlullah Nəimini, Həllac Mənsuru, Nəsimini İsa Hüseynov fəlsəfəsi ilə aça bilməsən, heç vaxt "İdeal"ı, "Ölüm-dirim"i, "Qəbiristan"ı, "Qapalı dünya"nı, "Peyğəmbər"in möhürünü ruh, mahiyyət və nəticə etibarilə anlaya bilməyəcəksən!

İsa Hüseynovun yaradıcılıq yolu adidən qeyri-adiyə, sadədən mürəkkəbə, dayazdan dərinə, yerdən göyə, ulduzdan kəhkəşana, ruhdan cana, nəfəsdən bədənə, bəzəkdən özəyə, qabıqdan toxuma – İsadan Muğannaya doğru gedən bir yaradıcılıq yoludur!

Güclü pərəstişkarı və fanatik oxucusu kimi mən onun İsadan Muğannaya qədər səksən illik ömrünün altmış illik yaradıcılıq mərhələsini diqqətlə və ardıcıllıqla izləyirəm.

Muğannanın dünyanın səmavi kitablarına da hamımızdan fərqli bir baxışı və yanaşma üsulu var. O, "Zəbur"u da, "İncil"i də, "Tövrat"ı da, "Quran"ı da, "Bibliya"nı da özünün bədii fəlsəfi və psixoloji yozumu ilə tamamilə başqa cür yozur və təhlil edir. Sən bu yozuma və təhlilə inanmaya bilmirsən! Çünki o havadan danışmır, onu danışdıran var. Onun gəldiyi bədii və fəlsəfi qənaət güclü mütaliəyə, intellektual düşüncə tərzinə, geniş dünyagörüşünə, həyatın böyük həqiqətlərinə, kainata, zamanın axar-baxarına dərindən müşahidə qabiliyyətinə və Muğannanın "Saf Ağ" elminə söykənir!!!

O inanır və inandırır ki, həqiqətən də, onun göylər aləmi ilə əbədi və qırılmaz bağlılığı var. Yerlə göyün bir-birinə bağlılığı kimi!!!

Bu, ondan irəli gəlir ki, onun obrazlar sistemini yaradan şəxsiyyətlərin özlərinin də göylərlə bağlılığı var. Muğlara, Muğannalara, Nəimi və Nəsimilərə, Həllac Mənsurlara, Səməd və Mədəd Əmirlilərə gələn,

onlar tərəfindən eşidilən, qəbul edilən ün elə-belə adi səs deyil, "Quran"a çevrilən "Yur ün"dü.

Muğannanın dediyi Odər dilinin, Saf Ağ elminin, "Vərəsə kitabxanası"nın, "İdeal"ın məntiqi nəticəsi bax budur!

Xançal-bıçaqla, top-tüfənglə, ən güclü ordu, ən adil qüdrətli hökmdarla bu dünyanın xilası elmdə, elmdə və yenə də elmdədir. Saf Ağ elmində. Bu elmin də açarı Culfa yolu üstündəki çay qırağındakı "Şeyx Xorasan türbəsi" deyilən qədim məqbərədədir. O yerdə ki, orda Fəzlullah Nəiminin məzarı var, ruhu uyuyur.

Tam səmimiyyətlə deyirəm ki, Muğanna mənim heyrətdən gözümü böyüdən yazıçıdır! Əgər Muğanna Aşıq Alının, Aşıq Ələsgərin yadigarı Dərəçiçəkli Alıya Saf Ağ elminin carçısı kimi baxırsa, Aşıq Alının oxuduğu "Gəl, ay sespayi-bəhrim, qalmadı taqətim, təhrim" şeirinə heç kəsin əli çatmadığı elmi təhlil verirsə, bu o deməkdir ki, o biləni biz bilmirik, o görəni biz görmürük. Böyüklük deyilən, istedad deyilən, ilahi varlıq deyilən insan-yazıçı-vətəndaş budur!

Bir yazıçı kimi İsa Hüseynovun bəxtinə sözün böyük mənasında axına qarşı üzmək, həqiqət uğrunda döyüşmək, ədəbi və bədii həqiqətləri hər şeydən uca tutmaq, ədəbiyyatın təsivini heç kəsə və heç nəyə dəyişməmək, ədəbi dəyərlərin istiqamətini dəyişmək, nəsrimizin incilərinə çevrilmiş bir-birindən qiymətli əsərlərindən imtina etmək hünəri, (biz oxucular o əsərlərdən imtina etməmişik və edə bilmərik) həqiqətin tarixini, tarixin həqiqətini Allahın verdiyi istedadla cilovlamaq xoşbəxtliyi düşüb.

Əgər İsa Hüseynov təkcə "Yanar ürəy"i yazmış olsaydı, yenə ədəbiyyat tariximizdə qalardı. Təkcə "Məhşər"lə əbədi yaşamaq haqqı qazanardı. Muğanna heç nə yazmasa, təkcə "İdeal"ı ilə dünyanın ən böyük yazıçıları ilə bir sırada durardı. Necə ki, durur!!!

Səmavi kitablara yaxından bələd olan bir adam kimi deyə bilərəm ki, Muğannanın "İdeal"ı bu dörd kitabın qucaqladığı dünyanın içində başqa bir səmavi dünya görür, gördüklərini Saf Ağ elminə əsaslanaraq oxuculara çatdırır.

Mən özümü xoşbəxt taleli bir qələm adamı hesab edirəm ki, Muğannayla çox ünsiyyətdə oluram. Etiraf edirəm ki, ondan çox şey öyrənirəm. Mənim yaradıcılığım haqqında bir-birinin ardınca beş məqalə yazan İsa Muğanna mənim üçün bənzərsiz olan, bütövlüyü və qəribəlikləri ilə olduqca uca və maraqlı bir şəxsiyyətdir.

Kök gövdəni sevir, gövdə budağı sevir, budaq yarpağı sevir, yarpaq yağışın damlalarını və günəşin zolaq-zolaq olmuş şəfəqlərini sevir. Bir ağacın şəxsində yer göyə, göy yerə bağlanır. İki ilahi varlıq bir-biriylə əbədi ünsiyyət tapır. İsa Muğannanın sirli-sehrli yaradıcılığı və şəxsiyyəti də o ağacın təbiəti kimidir. Bizi həmişə yerlərdən göyə qaldırır, yerin və kökümüzün üstündə möhkəm dayanmaq üçün!

Muğannanın yaradıcılığı ruhu silkələyən, yaddaşı oyadan, mürgülü başları ayıldan, padoş üzləri şillələyən, səssizliyə üsyan, sükuta tufan gətirən, ölmüş duyğuları dirildən, çürümüş toxumları məhv edib duyğular tarlasında sağlam toxumlar bitirən, sərt və amansız toqquşmaların real və canlı mənzərəsini çəkən, cəmiyyətin fikir, düşüncə, mübarizə tarixinə bədii sözün gücüylə daha çox nüfuz edən, heç kəsin tənqidi və tərifi ilə hesablaşmayan qaya kimi sərt, dağ kimi möhkəm, şimşək kimi ötkəm və əzəmətli, iç həqiqətinə inanan və bizi də inandıran bir yaradıcılıqdır!

Məndə belə bir təsəvvür yaranır ki, Muğanna qələmə sarılanda ağlı da, beyni də, ürəyi də, gözü də, qulağı da, barmaqları da, təpədən-dırnağa bütün vücudu da damarlarındakı qanın odu, atəşi, bütün zərrələri də mürəkkəbə dönüb qələminin ucuna yığılır.

Hərdən öz-özümə fikirləşirəm: Necə olub ki, bu böyük yazıçı "Yanar ürəy"i yazanda varaqlar yanıb külə dönməyib. Necə olub ki, "Məhşər" yazılanda yazıçı ürəyi parçalanıb pul-pul olmayıb. Necə olub ki, Məmiş Əlləzoğlunun şeytandan daha güclü oyunları ilə dünya dağılmayıb.

Təfəkkürdəki dərinlik, fikirdəki zənginlik, duyğulardakı ehtiras, sətirlərdəki yanğı, ürəkdəki çılğınlıq, xəyaldakı romantika, mənəvi göylərdəki ülvilik və ucalıq, yaradıcılıq üfüqlərindəki sonsuzluq, "Bağ"dan "Bağ"a gələn yol İsa Hüseynovu Muğannaya çevirdi.

İsa Hüseynova məni şəxsən doğmalaşdıran heyranlıqla oxuduğum, divanəsi olduğum əsərlərindən başqa, bir də onun sazı olub. Muğların, Muğannaların, təriflərin, Rəhmanların sazı! O saz bizi İsa müəllimin evində çox görüşdürüb. Onlarla ustadın, aşığın sazını çalmışam. Ancaq İsa Muğannanın evində dillənən saz qədər məni dünyanın əlçatmaz məqamına qovuşduran saz görməmişəm. O saz ayrı cür dillənir, ayrı cür köklənir, ayrı cür danışır. Hərdən mənə elə gəlir ki, Muğannanın bütün əsərlərini o saz yazdırıb. Vəhy də, ilham da, pıçıltı da o sazdan gəlib.

Günlərin bir günü evdə tək oturmuşdum. Bütün dostlarımdan vəfalı sazımla baş-başa verib, şirin-şirin söhbət edirdik. Telefon zəng çaldı. Dəstəyi götürdüm. Şirin Qazax ləhcəsində, həmişəki kimi asta və usta bir ahənglə "Ayə, yaman dolmuşam, sən haqda yazmaq istəyirəm, mənə pıçıltılar göndər" – dedi. Dəstəyi asdı. Tanrının işinə bax ki, o anlar mənim də ruhumun pıçıltılı məqamları idi. Duyğularımız üst-üstə düşmüş, qəlbimizin telləri eyni hava üstə köklənmişdi.

Zəng çaldı gecənin bir aləmində,
Köhnə kişilərdən bir nişan kişi.
Ağardıb saçını dünya qəmində,
Yerlərlə, göylərlə danışan kişi.

Zəngin səsini də pıçıltı bildim,
Zərif duyğularla dolub daşırdım.
Ustad çağıranda yerdə deyildim,
Göydə mələklə pıçıldaşırdım.

Ən böyük, ən ali həqiqəti bil,
Hay-küy ağ köynəkdə qara yamaqdı.
Nə "İncil", nə "Quran" danışmaq deyil,
Allahdan bəndəyə pıçıldamaqdı.

Ürəkdə doğuldu, ürəyə yatdı,
Söz ruhun meyvəsi, ilhamın barı.
Nə qədər ölümsüz əsər yaratdı,
Tanrıyla insanın pıçıltıları!

Böyük Muğannanın təklifi, göstərişi elə bil bəndədən deyil, Allahdan gəlmişdi. İçim nehrə kimi çalxandı, dəniz kimi qabardı, çəkildi, Sabir demiş "Yağı yağ üstə çıxdı, ayranı ayranlıq oldu", məni silkələdi. Bir həftə guşənişin oldum, evin küncündən bayıra çıxmadım. Mən Muğannaya pıçıltılar göndərməliydim. Nə böyük şərəf! Nə böyük məsuliyyət!

Bu böyük kişinin təklifindən sonra xeyli müddət pıçıltıların təsirindən çıxa bilmədim. Dərindən düşünəndə dərk etdim ki, nərələrin, harayların görə bilmədiyi işləri bu qoca dünyada pıçıltılar görüb. Uca Allahdan, Peyğəmbərlərə nazil olan səmavi kitablar hamısı Tanrının diktəsi, mələklərin pıçıltıları deyilmi?!

Əzizim İsa Muğanna!

Pıçıltıların haya-küyə qalib gəlməsini sənin həyatında, taleyində, tərcümeyi-halında da görmüşəm.

Başında şimşəklər çaxan, budaqlarını ildırımlar titrədən, yarpaqlarını dəli küləklər didən, kökü torpağın yeddinci qatında sağ-salamat qalan qocaman palıd!

Ən “yüksək” səviyyələrdə tənqid atəşinə tutuldun, ədəbi mühitdə haqsız hücumlarla qarşılaşdın, böyüklüyünün üstünə kölgə salmaq istəyənlər oldu. Ciddi xarakterə, polad iradəyə, sağlam ruha söykəndiyin üçün səni yıxmağa heç kəsin və heç nəyin gücü çatmadı. Çünki sənə göylərdən pıçıltılar göndərən Allah səni böyük bir “İdeal”a doğru aparırdı. Sən ona bütün varlığınla inandığın üçün o səni bütün sınaqlardan və çaxnaşmalardan sağ-salamat çıxarmalıydı!

İsa Hüseynovu Muğannaya çevirmək üçün sən ömrün 80 illik zirvəsindən əbədiyyətə doğru addımlamalıydın! Ədəbiyyatda və əbədiyyətdə Nəsimi tərbiyəsi görmüş böyük şəxsiyyət kimi əqidənə, etiqadına, inamına, idealına sadiq qaldın!

Mən sizə nəsrimizin Nəsimisi kimi baxıram.

Mən sizə nəfsinə tikanlı çəpər çəkən, dünya malında gözü olmayan, heç kəsin şan-şöhrətinə həsəd aparmayan, abır və həyası, dözümü və təmkini, zahiri və batini vəhdəti işıqla dolu olan Peyğəmbər əxlaqına sahib bir kişi kimi baxıram.

Mən sizə “Teleqram”da Zəlimxanın dili ilə dediyin “açıqca deyəcəyəm ki, indi həmin meşədə hara baxırsan kötükdür, əsl müsibət isə burasındadır ki, adamlar da çevrilib kötük olur” – deyən, bizi kötük olmaq bəlasından xilas etməyə can atan böyük vətəndaş kimi baxıram.

Mən sizə Göy Qılıncın aşırımında səksən dörd yaşında Dərəçiçəkli Aşıq Alının çaldığı havaların və dediyi bayatıların işığında Haqqa qovuşan Omar Ağanın, əlli üçüncü ildə “Villis” maşınından düşəndə “Qızıl ilan” tərəfindən güllələnən Mustafa Ağanın oğlu, Muğannaların son yadigarı kimi, Saf Ağ elminin varisi Solloy-İsa kimi, tarix kimi, əfsanə kimi, həqiqət kimi, göylərdən gəlib göylərə çəkilən ruhlar kimi baxıram.

Qılınc Qurbansız sözümüz kəsərli qılınca yox, küt baltaya oxşayardı! İsfəndiyar kişisiz ruhumuz ağsaqqalsız

qalmış xarabalığa çevrilərdi. "Saz"sız qəlbimizin telləri pas bağlayardı. Öz adını itirib Məmməd kişidən Səppəliyə çevrilənlərin faciəsi qəlbimizi göynətməsəydi, insanlıq sifətimizi itirərdik. Kollu Koxanın insanlara verdiyi ləqəblərə gülə-gülə ağlamasaydıq, Cında qarının, Dingə Dəmirin, Limbuz Cavanşirin taleyi bizim üçün Mirzə Cəlil yanğısına çevrilməsəydi, biz səni bu qədər böyük məhəbbətlə sevə bilməzdik!

Allah sizi yaradanda "istedad" adlı, "Allah vergisi" adlı ən böyük ismətlə mükafatlandırıb. Süleyman quş dilini bildiyi kimi, siz də Tanrı dilinə, bəşər dilinə, ərlərin odlu dili olan Od Ər dilinə sahib oldunuz!

Siz də Fateh oldunuz. Ancaq qalalar, şəhərlər fəth eləmədiniz. Aydan arı, sudan duru könülləri, duyğuları, düşüncələri, fikirləri fəth elədiniz!

Tanrının verdiyi istedada, xalqdan qazandığınız tükənməz sevgiyə müstəqil dövlətimiz də, ulu öndərimiz Heydər Əliyev də, möhtərəm Prezidentimiz İlham Əliyev cənabları da vaxtında öz həssas münasibətini bildirdi. Sizi vətənin ən yüksək fəxri adları ilə mükafatlandırdılar!

Sizin böyük istedadınızda və şəxsiyyətinizdə Dövlətlə Millətin, Xalqla Hakimiyyətin ən böyük fəxri adları, ən böyük sevgiləri birləşdi!

Budur şəxsiyyət ucalığı, budur sənətkar böyüklüyü, budur ustad bəxtəvərliyi!!! Siz öz işinizi gördünüz. Fikrə, düşüncəyə, duyğuya, millətə öz misilsiz töhfələrinizi verdiniz.

İndi söz sizdən sonra gələn ədəbi nəsillərin, ədəbi gəncliyindir! Onlar sizə öz töhfələrini verməlidirlər. Xalq və millət qarşısında, sənət və zaman qarşısında sınaqlardan üzüağ çıxdınız! Özünüzü təbliğlə, əsərlərinizin yüksək səviyyədə nəşri, yayılması və tərcüməsi ilə məşğul olmaq imkanınız olmadı. Bir ilham oldu, bir qələm, bir də göylərlə vəhdəti, bağları heç vaxt qırılmayan İsa Muğanna!

İşin texniki tərəfini Sizdən sonra gələn nəsillərin öhdəsinə buraxdınız. Bu gün mənim istedadına çox inandığım güclü və sağlam bir nəsil var. Onlar çox böyük həvəslə dünya ədəbiyyatının böyük nailiyyətləri sayılan əsərləri orijinaldan tərcümə etməklə Azərbaycan mədəniyyətini zənginləşdirirlər. Bu çox gözəldir. Ən böyük arzum ondan ibarətdir ki, bugünkü gənclik həmin ədəbi cəsarət və qeyrətlə sizin kimi yazıçıların, şəxsən İsa Muğannanın əsərlərini dünyanın əksər aparıcı dillərində yaymaq, tərcümə eləmək üçün vətəndaşlıq qeyrəti göstərsin.

Əzizim İsa Muğanna!

Sizi çox sevən könül dostlarınızdan biri kimi sizin üçün əziz olan bu günlərdə sizdən aldığım pıçıltıların az bir hissəsini sizə qaytarmaq istədim! Bilmirəm bacara bildimmi? Bildiyim bircə odur ki, bu dünyanın bizi zaman-zaman öz sehrində, ovsununda, maraq dairəsində saxlayan bir İsa Muğannası var!

İsa Hüseynova sevgim, Muğannaya inamım əbədidir!

Ulu Tanrı sizə yar olsun, ustad!

Ulu Tanrı Odər dilini və Saf Ağ elmini qorusun!

***22.06.2008***

## TOFİQ BAYRAM DÜNYASI

Ağır yerişli, şux duruşlu, şax danışıqlı, aydın təfəkkürlü, açıqürəkli, duru könüllü bir şair yaşadı bu dünyada! Yaşadı! Bu bircə kəlmə sözün daşıdığı məna yükünün altında 60 illik şair – vətəndaş ömrünün ağrılı-acılı günləri, yuxusuz və barlı-bəhrəli gecələri, sarsıntıları yaşayır. O, bir şair kimi kövrək könüllərə poeziya işığı səpələdi. Yaradıcılıq gecələrinə quş kimi uça-uça getdi, poetik duyğulara qanad verdi. Şeir yazdı – ürəkləri titrətdi, şeir oxudu – salonları titrətdi, şairlik gücünü tamaşaçı baxışından, dinləyici zövqündən, oxucu qiymətindən aldı. Sənət sərrafları, poeziya biliciləri ilə döş-döşə gəlməkdən çəkinmədi, xalqa qaynadı-qarışdı, camaatla oturub-durdu, toyda sağlıq dedi, şənləndi, vayda göz yaşı tökdü. Rəşid Behbudovun, Fikrət Əmirovun, Niyazinin dəfn günlərində onun hönkürüb ağladığının şahidi olmuşam. Özü xəstə ola-ola Borçalıya, Bolnis-Kəpənəkçiyə, atamın dəfninə gəlməyini heç vaxt unutmaram. Bütün bunları xatırlamaqla demək istəyirəm ki, o, guşənişin ömür sürüb özü üçün yaşamadı. Eli-obası, xalqı-milləti, ideal arzuları, gözəl əsərləri, istəkli balaları üçün yaşadı!

Ancaq cəfası səfasından, gərginliyi rahatlığından, əzabı istirahətindən çox oldu sənətkar ömrünün.

Hər ürək bu yola gətirməyib tab,
Şairlik nə bəylik, nə sultanlıqdır.
Şairlik ən böyük əzab-əziyyət,
Şairlik ən böyük qəhrəmanlıqdır!

– deyən şairin qəhrəmanlığı əzabından doğdu, şöhrəti zəhmətindən yarandı.

Azərbaycan ədəbiyyatının, Azərbaycan poeziyasının incilərini yana-yana, duya-duya, sevdirə-sevdirə yaşadı. Hər oğulun hünəri deyildi onun tələbkarlığı qarşısında duruş gətirə. Poeziyamızın müqəddəsliyi, dilimizin saflığı naminə ən sərt sözləri belə müsahibinə deməkdən çəkinməzdi. Böyük amallara xidmət edən poetik axtarışlar yolunda hər əziyyətə qatlaşar, zəif yazılarına görə heç doğma qardaşına da güzəştə getməzdi. Çox vaxt düz danışmağın, obyektiv münasibətin ağrısını çəkərdi, onun pisi olardı. Şairin kimliyindən, fəxri adından, yüksək rütbəsindən çəkinməz, yaxşıya yaxşı, pisə pis deyərdi.

Fikrini həmişə açıq çatdırar, pıçıltı ilə danışmaz, inandığı həqiqətə sadiq olardı. Gənclərə qarşı xüsusilə tələbkar idi. O, istedadlı adamları poetik duyğuların zirvəsində görmək istəyirdi. Dili kələ-kötür olanları qətiyyən bağışlaya bilmirdi. "Dəhşətdi!" sözünü elə böyük yanğı ilə ifadə edirdi ki, elə bilirdin böyük faciə baş verib. Əslində də şairlik iddiasına düşənlərin dili bilməməsi faciə idi.

Sənət timsalıdır xeyirxahlığın,
O şərə bürünsə, xeyir yaranmaz.
Bir ana südünün, bir uşaqlığın,
Paklığı olmasa, şeir yaranmaz!

– deyən sənətkarımız yaxşı bir şeir oxuyanda, gözəl bir şairlə tanış olanda, təzə ruhla, təzə nəfəslə qarşılaşanda uşaq kimi sevinər, gözlərinin işığı daha da gurlaşardı. Tanrı kimi Səməd Vurğuna tapınardı, ustad kimi Osman Sarıvəllini sevərdi, sənət fədaisi kimi Mehdi Hüseynə baş əyərdi, Səttar Bəhlulzadəyə sənət Allahı kimi baxardı, Füzulidən, Sabirdən danışanda dili titrəyərdi, Əli Kərimi yana-yana xatırlar, Musa Yaqubun təbiət şeirlərini əzbər deməkdən, tərifləməkdən yorulmazdı.

Siyasət alverindən, ticarət psixologiyasından çox uzaq idi. "Mən düşmənəm həm sənətkar, həm diplomat

olanlara!" – deyər, haqsızlıqlara gücü çatmayanda anasından dərman istəyər, heyfini valokordindən alardı. Hirsdən, hikkədən doğan acı deyimləri, xoş ovqatdan yaranan atmacaları, yaxşı mənada qafiyəbazlığı onu öz həmsöhbətinə sevdirər, eşidən ləzzət alar, onu dinləməkdən doymazdı. Qələm dostlarının əksəriyyətinə yazdığı, yaxud atüstü dediyi qafiyələrin hamısı yaddaşımın silinməz naxışlarıdır. Çap olunması mümkün olmayan şeirlə yazdığı zarafatları belə bu gün mənim yadımdadır. Məni görən kimi gülə-gülə "Zəlimxan, ay Zəlimxan, özüm muzdur, elim xan" deyər, gülər, məni də güldürərdi. Tez-tez evimizin əziz qonağı olardı. Bizdə olan görüşlərin birində məclis çox xoşuna gəldi. Bədahətən, bir-birinin ardınca zarafatyana şeirlər söylədi. İçkidən ləzzət ala-ala dedi: "Ə, Zəlimxan, bu haranın içkisidi?" dedim ki, Borçalının. O dəqiqə bu misraları xüsusi bir ləzzətlə deməyə başladı:

Bakının gecəsi ola,
Borçalının cecəsi ola,
Xırdalanın cücəsi ola,
Mənim kefim beləsini istəyir,
Sənin üçün necəsi ola?!

Bu misallardan çox çəkmək olar. Bu deyilənləri xatırlamaqla demək istəyirəm ki, Tofiq Bayramın yoldaşlığı, dostluğu bal kimi şirin idi. Onunla səfərə çıxanda adamın ömrü uzanırdı. Sevdiyi adama sədaqətini itirməz, sevmədiyi adama nifrətini gizlətməzdi. Tofiq Bayramla aramızda on beş yaş fərq olmasına baxmayaraq, sözümüz tuturdu, bir-birimizi çox yaxşı başa düşürdük.

Dəfələrlə Bakıda, Naxçıvanda, Qazaxda, Borçalıda, Lənkəranda, Astarada, Gəncədə, Ağdamda, Şuşada görüşlərdə, səfərlərdə, məclislərdə olmuşuq. Adını çəkdiyim yerlərin hər biri bu gün Tofiq Bayram xatirəli kövrək duyğulara, şirin deyimlərə, dadlı söhbətlərə çevrilib.

Poeziya ilə bağlı Bakıda mənim ilk məsləhət və istiqamət yerim Mərkəzi Şəhər Kitabxanasında Tofiq Bayramın apardığı şeir dərnəyi idi. Bu poeziya məclisində onun necə qaynar və coşqun, qayğıkeş və tələbkar olduğunu, şeir-sənət yolunun nə qədər çətin və şərəfli bir yol olduğunu dərk eləmişəm. Dərk eləmişəm ki, şairin gəldiyi məntiqi qənaət tamamilə düzgün və haqlıdır:

Məhəbbəti, ilhamı,
Vəzifəylə almazsan.
Zorla Allah olarsan,
Zorla şair olmazsan!

"Şeir dərnəyi" adlanan bu ədəbi məclis o illərdə biz gənclərə çox şey verdi. Bu gün poeziyamızda adı-sanı, özünəməxsus dəst-xətti olan şairlərimizin əksəriyyəti Tofiq Bayramın isti nəfəsi ilə isinib pərvazlanmışdır.

Kimlərəsə sərt və acıdil görünən Tofiq Bayramın yumşaq ürəyi, kövrək təbiəti var idi. Bir xarakter sahibi kimi gileyi, şikayəti, narazılığı çox olardı. Yenə görüşlərimizin birində hal-əhval tutduq. Uğurlarını təbrik elədim. Qısa bir vaxt ərzində üç yenilik olmuşdu: fəxri ad, ev və maşın almışdı. Danışdıranda, gördüm yenə narahatçılığı var. "Nə var, nə yox?" – deyən kimi, əlini yelləyib "heç nə!" – dedi. Dedim, ay Tofiq müəllim, bu uğurlardan sonra yenə narazısan? Gülə-gülə aşağıdakı misraları söylədi:

Maşın təzə, otaq təzə, ad təzə,
Bircə qalır olaydı arvad təzə.

Bir-birimizə qoşulub bu şeirin havasına güldük.

Tofiq Bayram ömrünü orijinal yaradıcılığa və gözəl tərcümə əsərlərinə həsr elədi. Dünya ədəbiyyatından, rus və Qərb ədəbiyyatından ən gözəl şairləri dilimizə tərcümə elədi. Şairlik əzabı ona dadlı-duzlu yaradıcılıq bəhrələri verdi. Rus da, ukraynalı da, qazax da, gürcü

də, ləzgi də, avar da, kabardin də, balkar da Tofiq Bayramın gərgin yaradıcılıq axtarışları sayəsində bizimlə şipşirin Azərbaycan dilində danışırdı. Bu əsərlər dil baxımından o qədər gözəl və bədii cəhətdən kamil tərcümə olunmuşdur ki, çox vaxt oxucu onların tərcümə olduğunu unudur, bu şeir və poemaları ürəyində, yaddaşında Azərbaycanın milli sərvətinə çevirirdi. Bu əsərlərin seçmə nümunələrini şair "Ürəkdən-ürəyə" adlı kitabında nəşr etdirmiş, kitab ədəbi və elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmiş, layiqli mükafatını almışdı.

Şairin tərcümələrinə verilən yüksək qiymət ondan irəli gəlirdi ki, o, bütün yaradıcılıq enerjisini, qəlbinin nurunu, gözünün işığını misralara hopdurur, hər sözün, ifadənin, deyimin üstündə yarpaq kimi əsir, ömrünü şam kimi əridir, oxucu tələbkarlığını, tərcüməçi məsuliyyətini yaxşı bilirdi. Blokdan elədiyi tərcüməyə diqqət yetirin:

Boyun büküb, məlul duran,
Çox daş düzüb yollarıma.
Kürəyimə bıçaq vuran,
İynə vurur qollarıma!

Azərbaycan şeirinin bugünkü taleyini çox gözəl ifadə edən bu şeir parçasını ona görə misal çəkirəm ki, Tofiq Bayram tərcümə xatirinə tərcüməçilik eləmirdi. Seçirdi, arayıb axtarırdı, ən gərəkli, bəşəri məzmun kəsb edən tale şeirlərini öz oxucularına çatdırmağa can atırdı. Belə olmasaydı, onun tərcümələri xalq içində geniş əks-səda verməz, sevilməzdi.

Mən ona bağlıyam öz canım kimi,
Palıdam, kökümdən qopa bilmərəm.
Sinəmdən alsalar öz ürəyimi,
İkinci bir ürək tapa bilmərəm!

– dedi, xalqına, torpağına bağlandı. Ömrünün axır illərini sarsıntılar içində keçirdi. Qan təzyiqi, şəkər, ürək

ağrısı, əsəbilik ona aman vermədi. Dağıstan şairi Rəsul Həmzətovun Azərbaycan xalqına xəyanəti ona çox baha başa gəlmişdi. Bu nankorluğa heç cür dözə bilmirdi. Çünki Rəsul Həmzətovu Azərbaycan xalqına sevdirən Tofiq Bayram olmuşdu.

60 yaşlı şairimiz öz yubiley günlərində iştirak edə bilərdi, bu, onun halal haqqı idi. Neyləmək olar, həyatdır, həyat həmişə biz deyəni demir. Vaxtsız ölüm onu bizdən – dostlarından, oxucularından tez ayırdı. Ölüm ayrılıq olsa da, ayrılıq unudulmaq deyil – həsrətdi, şirinlikdi, əbədi xatırlanmaqdır. Qeyrətli oğulları da, vəfalı həyat yoldaşı, cəfakeş qadın kimi tanıdığım Zərifə xanım da, məzarı üstündə ucalan özünəlayiq heykəl də, oxucuların qəlbindəki həsrət və məhəbbət də Tofiq Bayramın tale xoşbəxtliyi, sonsuz üfüqlərə doğru uzanıb gedən ömür və sənət yoludur.

***"Günay" qəzeti,***
***1994, 17 dekabr***

# MÖVLUD SÜLEYMANLI HAQQINDA SÖZ

Mövlud Süleymanlı elə bir Söz sahibidir və elə bir Sözə sahibdir ki, onun haqqında ürəklə söz demək olar.

Yurdu-yuvası yandırılmış, eli-obası talanmış, qara dağı yıxılmış, kərəni sınmış, orta dirəyi yanmış, alaçığı uçmuş, dəyəsi sökülmüş, yuxusu ərşə çəkilmiş, itənlərə ağlayan, ötənlərə boylanan, köç-köç olan millətin "KÖÇ"ə hopmuş ətri, rəngi və qanıdır Mövlud Süleymanlı Sözü.

Başı daşdan-daşa dəyən, yaddaşa söykənən, keçmişdən qaynaqlanan, tarixin dərin qatlarına enib acı həqiqətləri üzə çıxardan, zamanla kəlləlşən, Qarakəllələr nəslini bütün nəsillərin mənəvi sərvətinə və ağrısına çevirən, Tanrı dağlarını köpəklərin qarnından xilas etməyə can atan, nəsilbənəsil güllələnən, öldürülən, ancaq yenə diri qalan, güllə üstə gedəndə belə gözünü qırpmayan Qarakəllə, Alayan, İmirən, Qarakəllə Göyüşə çevrilib yaddaşlarımıza möhürlənən Qarakəllələr nəslinin danışan dili, döyünən ürəyi, görən gözü, düşünən beynidir Mövlud Süleymanlı Sözü.

Oğuz nərəsidir, Qopuz nəğməsidir, toppuz zərbəsidir, doqquz yüz doxsan doqquz dəfə ölüb-dirilən, qırıldıqca çoxalan, solduqca göyərən, qaraldıqca yaşıllaşan, döyüldükcə bərkiyən, südünü qana döndərsələr, qanı südə çevrilən, gözü cəhənnəmlər görsə də, ruhu cənnətlik olan, ədəbiyyatın və əbədiyyətin halallığa açılan, doğruluğa gedən dost qapısıdır Mövlud Süleymanlı Sözü.

Havası buludda, nərəsi sükutda, baxışı tabutda, meyli arandakı tutda, gözü dağdakı qurutda, yurda dönüşlə bağlı dəli bir umutda, bir əli Tanrıda, bir əli Qorqudda arzusudu, xəyalıdı, həqiqətdi Mövlud Süleymanlı Sözü.

“Can sağ ikən yurd vermərik düşmənə”, – deyən Çıldırlı Aşıq Şenlikdi,

> “Sizin yerdə güllü bahar fəslidir,
> Bizim yerdə niyə belə qış gəldi”

– deyən Faxralı şair Nəbidi, “Zarıncı”, “Mansırı” havaları üstündə dərgahlara od vuran Hüseyn Saraclı sazıdı, gözyaşları ovcunun içində olan Abbas Abdulladı, içi özünü, çölü özgəsini yandıran Zəlimxandı Mövlud Süleymanlı Sözü.

Qara dağı yıxılan gündən qara başını qara saza söykəyən, qara zurnanın havasına oynamaq istəyəndə qara günləri yadına salıb hönkür-hönkür ağlayan Allahın verdiyi dərddi, qımqımadı, zümzümədi, gümüldənmədi, oxşamadı, ağıdı – Mövlud Süleymanlı Sözü.

Mənim uşaqlığımdı, arandan-yaylağa, Bağ Borçalıdan Dağ Borçalıya qalxan enişlər-yoxuşlar, cığırlar, cəhlimlərdi, Bəluz Kəpənəkçidən başlanıb Cücə kəndindən keçib Əyriqara, Qaraxaça, Divsiz gölə, Oy dərəsinə, Noyçalı bulağa, Hacıxəlil ocağına doğru uzanan ilxılara, sürülərə, naxırlara meydan olan, əli-ətəyi yığılmayan yollardı, Cücə kəndinin içindəki qoşa Hacıleylək quşlarıdı – Mövlud Süleymanlı Sözü.

Təndiri istisiz, ocağı tüstüsüz, kündəsi urfasız, quşları yuvasız, çörəyi ətirsiz, sacı fəsəlisiz, fətirsiz, dəyirmanı dənsiz, başı bədənsiz, dirisi cansız, ölüsü kəfənsiz olanların can yanğısı, könül fəryadı, ciyər qanıdı Mövlud Süleymanlı Sözü.

Qara torpaqdı, yaşıl yarpaqdı, qızıl irmaqdı, qurumaz bulaqdı, nahaqqa güc gələn haqq oğlu haqqdı, ona ağız əyənin ağzı əyilər, ona dodaq büzənin dili quruyar, Pir Sultan Abdaldı, Dadaloğludu, şəfalı pirdi, müqəddəs ocaqdı – Mövlud Süleymanlı Sözü!

***05.01.2003***

## XALQ YAZIÇISI MÖVLUD SÜLEYMANLIYA AÇIQ MƏKTUB

Əziz qələm dostum Mövlud Süleymanlı!

"Köç"lə həmişəlik qəlbimə köçən, "Duzsuzluq"da məni çayın qırağında bənövşənin eşqinə ağacı saz eləyən Vəkilin gününə salıb şair eləyən, "qurdu onsuz da vurammazsan, gərək bağrını çatdadasan" – deyib incə və ağrılı müşahidələrlə bağrımı dağ-dağ eləyən, "Qar"la yuxularıma qar yağdırıb ruhumu üşüdən, "Sığırçı gülünün iti"nin ölümünə məni uşaq kimi ağladan, "Dəyirman"da halalı-haramı bir-birinə qarışan dünyanın təsviri ilə məni sarsıdan, ilahi səslərlə şeytani səslərin amansız mübarizəsini qəlbinin harayına, "Səs"inə çevirən, böyük yaradıcılığa "Bulaq"la gələn, bu gün də bütün yaradıcılığında bulaq saflığını qoruyub saxlayan, taleyinə qaçqınlıq damğası vurulan, bir gözü gülən, bir gözü ağlayan istedadlı bir qələm sahibinə, kövrək bir ruh yiyəsinə məktub yazmaq mənim üçün olduqca ağır, çətin və məsuliyyətli bir işdir. Kimdən yazdığımı, niyə yazdığımı, nə üçün bu qənaətə gəldiyimi çox yaxşı dərk edirəm.

Bütün ömrü boyu yazdığı, yaratdığı nə varsa ilk sətirdən son sətrə qədər hamısını oxuduğum, sevdiyim, sevə-sevə mütaliə etdiyim, yaddaşıma köçürdüyüm, kökdən gövdəyə, gövdədən budağa, budaqdan tumurcuğa, tumurcuqdan yarpağa əsərlərini xüsusi bir səliqə və ardıcıllıqla bir tədqiqatçı marağı ilə araşdırdığım, araşdıra-araşdıra zövq aldığım, zənginləşdiyim, məni otun, suyun, ağacın, yarpağın, torpağın, qurdun, quşun dilində danışdırmağa qadir olan bir şair ürəkli nasirə, nəsrimizin poeziyasını yaradan poetik qələm sahibinə

bu məktubu yazmasaydım, təzəcə yazıb nəşr etdiyin "Erməni adındakı hərflər"in ağrısı ürəyimi partlada bilərdi.

Bütün əvvəlki əsərlərində olduğu kimi bu əsərində də nəfəsinə, ruhuna, ağrılarına, qələminə, üslubuna sadiq qalıb tamamilə yeni əsrdə, yeni rəngdə, yeni çalarda bir dərd kitabı bağlamısan.

Romanın baş qəhrəmanı Azərbaycan Dövlət Universitetinin tələbəsi İmirxanlıdır. Əsərdə baş verən bütün faciəli hadisələr onun müşahidələrinə, dediyi, danışdığı fikirlərə söykənir.

Hər şey İmirxanlının dilindən başlanır. Dilindən deyəndə ki, gördüyü, duyduğu, yaşadığı acı həqiqətləri çəkinmədən dilinə gətirir, el içində, kənd arasında danışır, fil qulağında yatanları ayıltmağa çalışır. Erməni daşnaklarının səpdiyi nifaq toxumlarının cücərməsini o, hamıdan əvvəl görür. Görənin gözünü tökməyə hazır olanlar onu heç nə olmamış kimi çox asanlıqla satırlar.

Partkomun gur səsi gəldi qulaqlarına: "Nə danışırsan, ə sən?! İndi deyərəm, gəlib səni deşik-deşik eləyəllər, əlli-ayaqlı gedərsən, aranı qatmağına bax..."

Elə də oldu. İmirxanlını satan da o kəndin adamları oldu, qaçırdıb aradan çıxardan da.

Nə deyirdi İmirxanlı! Deyirdi ki, "saz türkün qapısıdı, dünya üzünə o qapıdan keçib gəlib". Deyirdi ki, "erməni nə aran adamına oxşayır, nə dağ adamına, bizə deyilən kimi deyə bilməzsən ki, ermənininin bir suyu hansı torpağasa, hansı yerəsə çəkir. Oxşadığı, bənzədiyi torpağı tapa bilməzsən... Çünki Vətəni yoxdu. Bu mənada erməni uşağı bir az vağzal uşağına oxşayır. Ona görə də bizdən ayıq, bizdən çox bilmişdilər".

Qarakəlləoğlu onun sözünə qüvvət verirdi. "Erməni atın belində görəndə, deyirsən ki, indicə yıxılacaq". Nə deyirdi İmirxanlı? Deyirdi ki, "əgər Şirak ovalığı Göytürk tayfalarının adıyla bağlıdırsa – Şöröy, Şoray,

Saray, Şərurdusa, Ağbaba, Dərələyəz, Dərəçiçək, Zəngibasar, Vedibasar, Naxçıvan, Göyçə, İrəvan, Uluxanlı, Qaraqoyunlu, Candar, Borçalı, Qaraxaç – Qarakas yaylaqları yüzdə yüz, başından ayağına, saçından dırnağına türkün dünyası, türkün ruhu, türkün yurdu, türkün coğrafiyasıdırsa, erməni burda necə vətən yarada bilər və niyə yaratmalıdır!

Əlli il bundan əvvəl bu basalaqda bir dənə erməni olmayıb, kəndlərin adına fikir verin: Qursalı, Saral, Qarakilsə, Oxçuoğlu, Cücəkəndi, Qurdpınar..."

İmirxanlının qardaşı Uğurlu Cücəkəndində min bir əziyyətlə evini təzəcə tikib qurtarmışdı. Sevinirdi. Əli-ayağı yerə dəymirdi. Torpağına toxum səpmək üçün toxum alıb bazardan qayıdanda yolda ermənilər ona dedi: "De ki, mən türk deyiləm". Erməniləri eşitməyən Uğurlu erməni bıçağıyla qanına qəltan olur. Arvadı Şallının üzünün dərisi təzə tikilən evin divarları boyu didik-didik olub qana bələnir. Vaxtilə çiçək kimi qızaran qadın yanaqları indi üzündə açılan qırışlardan qızarır.

Camaat kəndin müdafiəsinə qalxmaq istəyir. Tüfəng atmaq istəyirlər, paslanıb güllə açılmır. Qılınc götürmək istəyirlər, paslanıb qınından çıxmır. Koroğlu havası çalmaq istəyirlər, kökdən düşüb saz, çalınmır. O boyda kənd bir yapıncının ümidinə qalır. Qarakəlləoğlu deyir ki, yapıncı güllə keçirmir, düz ermənin üstünə gedəcəyəm...

Əzizim Mövlud müəllim!

İmirxanlı obrazının dili ilə elə acı həqiqətlərə enmisən, elə yaralı mətləblərə toxunmusan, elə məsələlər qaldırmısan ki, yazıçı qələmindən su içən bu duyğular ən azı 50 il bundan əvvəl dilə, qələmə gəlsəydi, kitablara çevrilsəydi, yumulu gözləri açsaydı, mürgülü başları silkələsəydi, heç olmasa bu mövzuda yazılan 3-5 əsərimiz – M.S.Ordubadinin, M.M.Nəvvabın, Y.V.Çəmənzəminlinin, Ə.Abbasovun əsərləri həyəcan təbili kimi çalınıb vərəq-vərəq, səhifə-səhifə ən azı tarixi tədris edən

müəllimləri yerindən tərpətsəydi, ermənilər "dənizdən-dənizə" şüarı ilə silahlananda biz:

Kür, Araz, Ararat,
Nə gözəldir, bu həyat
Qardaş olub Hayastan Azərbaycan...

mahnısını xorla, sevinə-sevinə oxumasaydıq, başımızın altına qoyulan balıncın, başımızın üstündən asılan qılıncın nə demək olduğunu vaxtında dərk edə bilsəydik, itkilərimiz, ağrılarımız indikindən qat-qat az olardı, faciələr içində çırpına-çırpına qalmazdıq.

Tarixi başdan-başa saxtalıqlarla dolu olan, ağ yalanları şeypurla dünyanın qulağına üfürən, özlərinin uydurduğu yalanlara həqiqət donu geyindirib dünyaya car çəkən, bizim həqiqətimizin tarixini, tariximizin həqiqətini danan, yalana çıxarmaq üçün dəridən-qabıqdan çıxan ermənilərin siyasi, psixoloji, ideoloji hücumlarına cavab vermək zamanı gələndə biganəlik göstərməsəydik, keyləşmə və güzəşt xəstəliyinə tutulmasaydıq, beynimiz və ağlımız keyləşməsəydi – Azərbaycanın keçmişi və gələcəyi qarşısında başıaşağı, üzüqara, xəcalətli vəziyyətdə qalmazdıq.

Mənim əziz qələm dostum!

Sənin dilində danışan İmirxanlı sadəcə bir Universitet tələbəsi deyil, hadisələrin mahiyyətini, kökünü, səbəbini, xarakterini bir tarixçi-filosof-vətəndaş-torpaqşünas yanğısı ilə dərk edən və keylərə, nadanlara, kökünü dananlara dərk etdirməyə can atan, kökə, tarixə, yaddaşa, milli şüura, milli təfəkkürə sahib olan, gənc olsa da, başı daşdan-daşa dəyən, həqiqəti çılpaqlığı ilə gördüyü və dediyi üçün iradəsi, dözümü, təmkini dönə-dönə sınağa çəkilən, KQB zirzəmilərində sorğu-suala tutulan dil və millət, vətən və torpaq fədaisidir!

Aylarla oğlunun yolunu gözləyən, gözləməkdən gözünün kökü saralan, oğlu ola-ola oğulsuz ölən, kəndin

sonuncu evindən sonuncu ölü kimi çıxan Sayalı ananın başdaşına Qaraca müəllimin təklifi ilə bu sözlər yazılır: “Sonuncu evimizdən sonuncu ölümüzə... min rəhmət”.

– “Oğlumu çağırmaq lazım deyil, bəlkə də bu gün Sayalı arvadı yox, kəndi dəfn edəcəyik” – Qarakəlləoğlunun səsiydi!

Molla “Yasin” oxuyurdu. Qarakəlləoğlu gözünü yumub fikirləşirdi. Bir gün gələcək biz də beləcə öləcəyik. İndi ölək..! İndi ölmək lazımdı. Amma necə ölək, kimnən vuruşaq ölək, kimə deyək ki, bizi döyüşə apar?! Ürək parçalayan suallardı.

80-90-cı illərin hakimiyyətsizlik dövründə vəzifə davasında, kreslo havasında oyuncaq hakimiyyətlər, kukla hökumətlər zamanı bu suallar durmurdumu Azərbaycan xalqının qarşısında?!

Budur bizim dərdimiz, budur bizim faciəmiz! Xalq ola, millət olmaya, qoşun ola, sərkərdə olmaya, güllə ola, hədəfə vuran tapılmaya! Vətənin bundan böyük faciəsi ola bilərmi?!

Ona görə də zəif damarımızı tutan ermənilər dəli Pyotrun vəsiyyətlərinə canla-başla əməl edirdi. Pyotr nə deyirdi? Deyirdi ki, “çalışın türk daha qatı dindar müsəlman olsun. Elə eləmək lazımdı ki, sünni-şiə mollaları çoxalsın. Hər halda molla müsəlmandı, türk olsa da türkçü deyil. Mən bunu sizə əlli dəfə demişəm, hər erməninin ən azı otuz molla dostu, kirvəsi olmalıdı...”. Budur ermənilərin bizim haqqımızda təxribat planının ən qorxulu hissələrindən biri.

Ermənilərin daşqalağında üzü-gözü qızıl qana bələnən Aşıq Ayvazın ürək parçalayan sözləri qulağımda səsləndikcə, başımda qiyamət qopur, təpəmdən tüstü qalxır.

“Mən bu daşı çox görmüşəm, erməni”. Bəli, heç vaxt dövləti olmaya-olmaya dövlətçilikdən dəm vuran, Azərbaycan torpaqları hesabına özünə Vətən düzəltmək

istəyən, Qafqaza qonaq kimi gəlib, ev yiyəsinə çevrilmək iştahından heç vaxt əl çəkməyən, kökü olmayan bu vətənsiz "vətənpərvər"lərə mənəvi birliyimiz, hərbi səfərbərliyimiz, qeyrətimiz, intellektual səviyyəmiz hesabına vaxtında layiqli cavab verə bilməsək, Aşıq Ayvaza dəyən daşlar bizə, bizdən sonra da gələcək nəsillərimizə dəyəcək!

Budur, yazıçı sözünün mahiyyəti, canı, ruhu, tarixə, millətə demək istədikləri!

İmirxanlının xalq və millət haqqında Universitet auditoriyalarında tələbələrə söylədiyi fikirlər, gəldiyi qənaətlər, ruslar və almanlar haqqında siyasi gəzişmələr, azərbaycanlılarla bağlı Mirzə Cəlil yanğısıyla tüstülənən duyğuları həssas oxucunu istər-istəməz sarsıdır.

"Hər çalxalanmanın sonunda yağı yağ olmalıdı, ayranı ayran. Biz azərbaycanlılar daha çox ayranlıq oluruq. Ona görə ki, öz yağımızı içdən-içə özümüz yeyirik. İndi boynumuza alaq ki, biz nehrədən ayran kimi çıxırıq, yağ kimi yox...". Budur ekoloji fəlakətimiz.

"Xalq bic də doğa bilər...". Yəni xalq yüz-yüz illər boyu keçdiyi inkişaf yolunu öz kökü üstündə apara bilmir. Get-gedə öz yolunu itirir, ya da özgə xalqın obrazını geyinir, başqa xalqda səmt yolu seçir, ona görə də özünün doğduğu, bətnindən çıxartdığı millət özünə oxşamır. Buna da deyilir: "Xalq bic doğdu".

Bəli, yüyənini dartan başqası oldusa, öz taleyini özün həll etməyi bacarmadınsa, ən azı azad düşünmək xoşbəxtliyindən məhrum oldunsa, "kim məndəndi" yox, "mən kimdənəm" – dedinsə, köləliyi könüllü qəbul elədinsə, hər gün öz içinə, ruhuna qənim kəsilib cəsarətini öldürdünsə, gələcəkdə səni böyük xoşbəxtliklər yox, millətdən xalqa, xalqdan tayfaya, tayfadan qəbiləyə, qəbilədən sürüyə, ilxıya, naxıra çevirən ən böyük fəlakət, ən böyük bədbəxtlik gözləyir.

Bax, budur yazıçı qələmini yandıran fikirlər, varaqlara od vuran, barmaqları göynədən yaralı sətirlər, yarasından qan axan yaralı cümlələr. Bu gün çəkdiyimiz ağrıların hamısı bic və gic doğulanların, atasından, anasından, xəbərsizlərin, dini, dili və qanı qarışıqların, düşmən dəyirmanına su tökənlərin başımıza gətirdiyi oyunlar, müsibətlərdir.

"Fikir verin, bəlkə də yüz-yüz illərdi yəhudi xalqı yoxdu, yerinə millət var... öz içiylə getməyi bacaran xalq millətə çevrilir".

Budur məntiqi nəticə, budur böyük həqiqət!

Əlləriylə qarnını sıxan ananın acı şikayətini eşidirəm. Burdan çıxandan yoxsuz. Bala doğmadıq, qada doğduq... İndi evdən gedənlərinki getməyə oxşamır, yox olmağa oxşayır. Anam qorxusundan çır-çır çığırırdı: "Nə vətənə oğul oldun, nə anaya övlad. Nə evin kişisi oldun, nə çölün ağası". Hərə öz başının çibinini qoruyanda nəticə ancaq bu cür olmalıdı.

Əlaçı olan türk balası Aytəki birinci partadan qaldırıb axırıncı partada oturdan ermənininin nifrəti yerə-göyə sığmır. Aytək sinif otağından çıxır, bir də ora qayıtmır.

"Səhər tezdəndi. Yaxşı ki, erməni, rus, türk, gürcü səhərləri yoxdu, yaxşı ki, səhərlər heyvanlara necə açılırsa, insanlara da elə açılır. Yaxşı ki, belədi... yaxşı ki, ermənilər səhərlərə düzəliş eləyib, mənimdi deyə bilmir".

Şalikoya oxşayan erməniydi, üzü Biləcəri stansiyasına baxan sal daşlara erməni əlifbasıyla işarələr qoyurdu. "Alçaq erməni, başına çalacam indi külüngü. Yiyəsiz görmüsən bu torpağı, daşına erməni adı yazırsan, mərə kafir?!"

Bu fikirlər erməni eybəcərliyinə, erməni saxtakarlığına qarşı İmirxanlının içindən qalxan nifrət dalğası, qəzəb qığılcımıydı. İmirxanlının bu hadisəyə münasibəti Balacahunluya dediyi bu cümlədə çox aydın açılır, dəqiq cavablandırılır: "Hörmətli akademik, tarixin sonradan qələmə alınması bicliyin kağıza köçürülməsindən başqa bir şey deyil".

Əsərin ən faciəvi obrazlarından biri akademik Balacahunlu obrazıdı. Bu obraz öz taleyi və tərcümeyi-halı baxımından böyük Hunluların kiçilə-kiçilə, əriyə-əriyə, xırdalana-xırdalana gəlib bu günə çatmış, balacalaşmış, Balacahunlu olmuş şəkli, mənzərəsidir. Gözünü elə qırıblar ki, dediyi dilini yandırır, demədiyi içini. Gözündən vurula-vurula, içindən qırıla-qırıla, lal sular kimi bulana-bulana axıb gedən bir ömür yaşayır Balacahunlu.

"1937-ci ildə özünə türk dediyi üçün atamı sürgün elədilər. Səhər tezdən aparmışdılar, axşama yaxın gətirdilər. Üz-gözündə sağ yer yox idi, qan içindəydi.

Nersesyanın səsi gəldi. "Buyur görək" – dedi atama – indi biz sənin ailənə nə deyək, türk ailəsi, yoxsa...?!

Bu ailə də şura hökumətinin ailələrindən biridi, necə istəyirsiz, elə də deyərsiz, hansı millətin adını istəyərsiz, onu da götürəllər, ancaq mən türkəm, yoldaş Nersesyan! Sən nə qədər ermənisənsə, mən də o qədər türkəm!

Atam əllərini mənə sarı uzatdı: – Hə, o azərbaycanlıdı, yoldaş Nersesyan, o türk deyil, ola da bilməz, nə yaşı var ki, onun, türk olsun.

Mən atamı anlayıb:

– Hə, – dedim.

Yəni nə, Nersesyan çənəmin altından qaldırıb gözlərimin içinə baxdı. Mən türk deyiləm – Balacahunlu dalısını danışmadı, heç vaxt da danışmayacaq.

1937-ci il payız aylarının birində axşamçağı qorxa-qorxa, titrəyə-titrəyə "mən türk deyiləm" – dedi və yoldaş Nersesyanın əlindən yapışıb dodaqlarına sıxdı... bununla da anasını, balaca qardaşını, bir də özünü sürgündən, bəlkə də ölümdən qurtardı. Bu Balacahunlunun dəhşətli qanlı ömür-gün tarixçəsidir.

İmirxanlı tələbəlik illərini başa vurandan sonra Balacahunlu onu öz bağına qonaq apardı və dəhşətli bir etirafı dilə gətirdi.

Sən məni bağışla, – dedi – Balacahunlu, bu beş ildə yol gedə bilmədim səninlə, çox şeyi düz deyirdin. Mənim yazdığım tarix də özümə bənzəyir, mən erməni əlindən öpmüş adamam. Özümüz necəyiksə bu xalqın tarixini də o cür yazdıq..."

1937-ci ildə sındırılan, qırılan, qorxusundan millətinin halal adını dilinə gətirə bilməyən gözüqıpıq, bağrı yanıq, qəlbi qırıq böyüyən böyük Hundan balaca Huna çevrilən, bütün bunların hamısından sonra, üstəlik Universitetdə tələbələrə tarix dərsi deyən bir müəllimin, alimin vəziyyətinə baxın. Erməni əli öpən bir alim azərbaycanlı gənclərə dərs deyir. Balacahunlunun tələbəsi olmuş Qara müəllimdən həqiqi tariximizlə bağlı bir söz soruşanda cavabı bu olur:

– Mənə deyiblər ki, mən də sənə deyəm. Allah lənət eləsin akademik Balacahunluya, dərs deyəndə rusun, erməninin dediyini deyirdi...

Allah lənət eləsin Balacahunluya, heç öz tariximizə yanaşmağa qoymadı, akademik idi özü də... Tarix deyir "atdı, yiyənini hara dartsan ora gedəcək".

Tarixin sərt və ciddi suallarını İmirxanlı dalbadal Balacahunlunun üstünə yağdıranda bir dəfə Balacahunlu onu qovmuşdu. Sonra da hərəkətinə peşman olub arxasınca adam göndərib geri çağırtdırmışdı.

Balacahunlunun elə bil dizinə vurub çökdürdülər, bürüşüb oturdu, auditoriyaya göz gəzdirdi.

– Axırıma çıxacaq – dedi – bu! Dönüb-dönüb əllərinin ikisini də qapıya uzatdı. Göstəriş verdi, sən mənim dərsimə gəlmə, bala, – dedi, – elə indi çıx get, bir də gəlmə!"

Bu sözləri onun dili deyirdi, ürəyi demirdi. Çox gözəl bilirdi ki, tariximizin bizim ziyanımıza tədris olunması ilə bağlı İmirxanlının keçirdiyi daxili narahatlıq, həyəcan, təəccüblər və təəssüflər haqlıdı və yerindədi. Yazıq Balacahunlu bildiyi həqiqətlərlə söylədiyi yalanların arasında, vicdan ağrısı ilə İmirxanlının suallarının arasında çırpına-çırpına qalmışdı.

İmirxanlının tarixdən gətirdiyi çoxsaylı misallarının hər birinin həqiqi əsası, canlı kökü var idi. "Dəmirçyan, Köçəryan, Ağacanyan, Balayan, Toxmaqyan, Nənəcanyan, Şahsuvaryan, Şahgəldiyan..."

Əgər dəmir də, köç də, Ağa da, can da, bala da, toxmaq da, nənə də, şahsuvar da, şahgəldi də yüzdə-yüz, xalis mənim dilimin sərvətidirsə, onda erməniyə nə qaldı? Əgər bütün coğrafi ərazilər xalis türk dilindədirsə, Aran Borçalı, Dağ Borçalı, Sabir tala, Orta çala, Soğanlıq – Sakanlık, Ağ Təhlə, Qara Təhlə, Keşəli, Candar, Mığırlı, Daşdıqullar, Kəpənəkçi, Sarvan, Qaçağan, Səfərli, Orzuman, Muğanlı, Abdallı, İmir, Evliyalı, İlməzli, Cücəkənd və s. kəndlər minillərdi halal öz adı ilə çağırılırsa, sonrakı qondarma adları tarix qəbul edəcəkmi? İrəvana – Erebuni, Uluxanlıya – Masis, Calaloğluna – Stepanavan, Uzunobaya – Kalinino, Gümrüyə – Leninakan, Qarakilsəyə – Kirovakan adını verməklə ən böyük saxtakarlığa imza atan ermənilərin cinayəti nə qədər cəzasız qalacaq?

Mənim Vətənimin dili – İrandan Turana, Sibirdən Qafqaza, Ötükən yaylalarından Balkan dağlarına qədər olan bir ərazini qucaqlayırsa, nə qədər oğurlayırsan oğurla, nə qədər ad dəyişirsən dəyiş, rus Qafqaza Vətən deyə bilmədiyi kimi, sən erməni də mənim doğma torpağıma Vətən deyə bilməyəcəksən!

Ancaq hələ ki, əzizim İmirxanlı, özünü yorma, bağrını çatlatma, nə qədər ki, Balacahunlu rişxəndlə sənə – "sən İqrar Əliyevdən çoxmu bilirsən?" deyəcək, sənin yazdığın kurs işi qəbul olunmayacaq!

"Ey Hunların balacası, ey qorxudulub, hürküdülüb, içində balacalaşmış, qabığıyla yaşayan tariximiz! – deyib hayqırsan da sənin kurs işin geri qayıdacaq! Hələ bir az gözləməli olacaqsan, əzizim İmirxanlı!"

1937-ci ildə Balacahunlu nəslinin gözünü ona görə qırmışdılar ki, hər şeyi baş-ayaq salsın, kökünü unutsun,

tarixini ermənininin xeyrinə yazsın, Leninin "cib dəftərçəsindəki qeydlərində" olan tapşırıqları yerinə yetirsin, ermənininin əlindən öpsün, Acaryanın "Qafqazda olmamışıq, ancaq olacağıq" tövsiyəsi vaxtında öz işini görsün, son nəticədə ermənilərin də, erməniपərəst qüvvələrin də fəaliyyəti nəticəsində "böyük Ermənistan" ideyası tamamilə həyata keçirilsin. Əgər İmirxanlı obrazı mənim ruhumun, dilimin, tariximin, həqiqətimin, taleyimin çox doğma, çox əziz bir obrazıdırsa, Balacahunlu səhvlərimizin, günahlarımızın, tərəddüdlərimizin, güzəştlərimizin, bağışlanması mümkün olmayan tarixi nöqsanlarımızın obrazıdı.

Balacahunlu bir dəfə erməni Nersesyanın əlindən öpməklə, özünü, ana-bacısını, qardaşını xilas elədi, ancaq ruhunu, dilini, tarixini xilas edə bilmədi, barışa, köləliyə imza atdı, erməni əli öpənlərin sayını çoxaltdı, ermənininin köləsinə çevrilməklə öz halal yurd-yuvalarından elliklə camaatın pələsəng olmasına yol açdı, şərait yaratdı!

Əzizim Mövlud müəllim!

Sənin halal, təmiz, saf ana südündən, türk ruhundan, həqiqət tarixindən mayalanan yaradıcılığın mənim dərslik kitabımdı. Təbiətin, təbiətdəki rəngarəngliyin, torpağın, torpaqdakı müqəddəsliyin, Vətənin, Vətəndəki şirinliyin, cəmiyyətin, cəmiyyətdəki gözəlliklərin və çirkin xüsusiyyətlərin, Oğuz nərəsinin, qopuz səsinin, toppuz zərbəsinin, köpəklərin qarnındakı Tanrı dağlarının, güllə üstə gedəndə belə gözünü qırpmayan Qarakəllə nəslinin, qara dağı yıxılan gündən qara başını qara sazın üstünə qoyub öz dərdini özünə danışan bir ozanın dərslik kitabı!!!

Titrəyən ürəyimin, əsən yarpağımın, düyünlənmiş alnımın, çatılan qaşımın, müşkül suallarımın zümzüməsi, qımqıması içində boğulan səsimin, sükutdan sonrakı tufanımın, tufanımın içindəki sükutumun dərslik kitabı!

Otuz ildən çoxdu mən sənin yaratdığın bu dərslik kitabını oxuyuram. Bu kitabda mənim dərdim, kədərim, nisgilim, ağrım, göz yaşlarım, toyum, yasım, qara sazım, qara zurnam, kövrəkliyim, mərdliyim, sərtliyim, comərdliyim – bütövlükdə mənim dünyam öz əksini tapıb.

Sənin xoşbəxtliyin ondadır ki, yazdığın bu dərslik kitabında atılası, çıxdaş olası bir fikir, bir cümlə, bir söz, bir mətləb yoxdur, olmayıb, ola bilməz. Bu, nə İqrar Əliyevin, nə də Balacahunlunun dediyi tarix yox, Mövlud Süleymanlının yazdığı tarixdir. Ömrün boyu yurddan yazdın, dərddən yazdın, mərddən, namərddən yazdın, kimdən yazdınsa gözəl yazdın, dürüst yazdın, düz yazdın. Sənin bu əsərin dərindən tədqiq edilə-edilə, araşdırıla-araşdırıla əsl Azərbaycan tarixi yazıla bilər! Yurdda, dərddə, mərddə, duada, ağrıda, ahda, göz yaşında, sazda saxtakarlıq olmadığı kimi, sənin yaradıcılığında da bir zərrə, bir qətrə, bir çınqı saxtakarlıq yoxdu, olmayıb, ola bilməz!

Ömrün boyu yaratdığın dərslik kitabını oxuduqca min dəfə gördüyüm dağları yenidən tanıdım, zəmanənin namərdliyi ucundan nə dirinin hayına, nə ölünün vayına vaxtında çata bilməyən İmirxanlını yenidən sevdim, min dəfə gəzdiyim aranlı-yaylaqlı, dağlı-binəli Borçalını yenidən kəşf etdim. Min dəfə çəkdiyim dərdləri yenidən min birinci dəfə çəkməli oldum. Mənim kəndimin içindən başlayıb sənin kəndinin içindən keçən, Qaraxaç yaylağına doğru gedən daşlı cığırlara, şehli çəmənlərə, asırğallı döşlərə, kəkotulu yamaclara, mamırlı qayalara yenidən vuruldum. Oxuduqca oxudum, əzbərlədim, yaddaşıma köçürdüm.

Sənin dərslik kitabın mənim yaddaşımın, ruhumun, kökümün tarixidir, kitaba məhəbbətin, mütaliəyə marağın azaldığı bir vaxtda sən elə bir dərslik kitabı yazmısan ki, onu min sayla yox, yüz min sayla nəşr eləmək, bütün dünyaya yaymaq, dünyanın aparıcı dillərinə tərcümə eləmək, ali məktəblərdə tədris etmək lazımdı, qoy dünya

görsün ki, gecikən etiraflarımız, ağır günahlarımız, buraxılan səhvlərimiz bizə nələrə başa gəlib. Qoy dünya oxusun ki, "Erməni adındakı hərflər" əsərinin müəllifi əsərin heç bir yerində erməni xalqını söymür, onları təhqir eləmir, alçaltmır. Ən yüksək ziyalı mədəniyyəti ilə erməni xislətinin mahiyyətini açıb göstərir ki, bu da mənim xalqımın yüksək mədəniyyətinin dəqiq göstəricisidir.

Əzizim Mövlud Süleymanlı!

Bütün əsərlərin mənim üçün əzizdən əziz olsa da, "Erməni adındakı hərflər" romanı nəsrimizdə, ədəbiyyatımızda yeni bir mərhələnin – fikirdə, düşüncədə, təfəkkürdə, dildə, tarixdə, üslub tərzində gec də olsa oyanış mərhələsinin başlanğıcıdır. Bu əsərdə bütövlükdə elmilik, tarixilik və bədiilik baxımından sən özün-özünü ötüb-keçmisən.

Bu gün hər hansı səviyyəli oxucu bu kitabı oxumasa, bir qat günahkardı, oxuyub dərk etməsə, ikiqat günahkardı, dərk edib çıxış yolu axtarmasa, üçqat günahkardı. Ümumiyyətlə, biganəlik göstərsə, onda vay bizim halımıza, vay millətin halına, keçmişə də heyif, gələcəyə də.

Mən bu əsəri oxuduqca hansı varaqlara göz yaşım tökülübsə, o varaqlar var olsun, hansı səhifələrdə ürəyim pencər kimi ovulubsa, o səhifələr var olsun! Hansı üç nöqtədən sonra saatlarla xəyala dalmışamsa, o nöqtələr var olsun! Hansı nida işarəsində jurnalı stolun üstünə atıb yerimdən dik durmuşamsa, o nidalar var olsun! Ermənilər əhatəsində təhqir olunmağı qeyrətinə sığışdırmayıb öz əliylə öz boğazını kəsən, şəhid qanını ermənilərin üstünə tökən Ağbilən müəllimin qeyrətini tarixin yaddaşına həkk edən qələmə eşq olsun!

Millətimin qəm çəkəni, dərd daşıyanı, milli və ruhani yazarı, Zəlimxanın ruh və nəfəs qohumu, qələm qardaşı Mövlud Süleymanlısı var olsun. Amin!!!

***09.09.2007***

## TƏBRİZLİ ŞAİR SÖNMƏZ KƏRİM MƏŞRUTƏÇİNİN MƏKTUBUNA CAVAB

Əzizim, iki gözüm Sönməz! Üçüncü məktubunuzu da aldım. Həm çox sevindim, həm də çox kədərləndim. Necə ola bilər ki, yaradıcılığını əzbər bildiyin, sevdiyin, həsrəti, vüsalı ilə yaşadığın Təbriz nəfəsli bir şairdən üç məktub gələ, heç birinə cavab verməyəsən. Bu, ən azı dəhşət deyilmi? Əziz ustad! İcazə verin deyim ki, sizdən ayrılandan bir az sonra, yəni mayın axırında unudulmaz atamı torpağa tapşırdım. Atamın qırxı çıxandan üç gün sonra atamdan beş yaş kiçik əmimi Haqq yerinə qoyduq. Dalbadal gələn zərbələrə dözə bilməyib, az qala həyatdan əlimi üzdüm. Ay yarım xəstəxanada ağır xəstə yatdım. Sizdən gələn üçüncü məktubu mənə xəstəxanada ən ağır vəziyyətimdə çatdırdılar. Bütün sətirləri göz yaşı ilə oxudum. Ayağa durmağa gümanım yox idi. Sizin məktubdan üç gün sonra böyük Şəhriyarın ölüm xəbərini də xəstəxanaya yanıma gələn şair dostlarımdan eşitdim.

Bütün bu üzrlü səbəblərə baxmayaraq, hər üç müqəddəs məktubun cavabını gecikdirdiyim üçün sizdən dönə-dönə üzr istəyir, əllərini öpür, bağışlanmağımı xahiş edirəm.

Bilirəm ki, bu kədərli məktub sizə ağır təsir edəcək, ancaq neyləmək olar, görünür tale bizi ən çox kədər və həsrət üçün yaradıb.

Ərən dağlar,
Uzağı görən dağlar.
Xoyda bir igid ölsə,
Yasında Mərənd ağlar.

Əziz ustad! Məktublarında kitabınla bağlı bildirdiyin arzuların hamısını çox həssaslıqla, qayğı ilə yerinə yetir-

mişik. Kitabı sizin arzunuz əsasında tərtib etmişik. Əla rəssam işi alınıb. Sağlıq olsun, tezliklə oxuculara çatdırılacaq. Kitabla bağlı nigaran olmayın. Sizi kitabla bağlı böyük bir sevinc gözləyir. "Qaranquş yazı gözlər" adlı bu kitab o taylı, bu taylı Azərbaycan oxucuları üçün ən qiymətli hədiyyə olacaq. Xoşbəxtəm ki, o kitabda mənim də adım olacaq.

Mənim öz kitabım da çapa hazırlanır. Allah qoysa, sizə çatdıracağam. Yeni məktubunuzu, şeirlərinizi səbirsizliklə gözləyirəm. Öpürəm sizi! Öpürəm cənublu şair dostlarımızı. Öpürəm bizi sevənləri və bizim sevdiklərimizi. Öpürəm böyük Şəhriyarın məzarını. Onun ölməz ruhu qarşısında diz çökürəm.

Hörmətlə: şagirdin, övladın, dostun Zəlimxan Yaqub.

***14.10.1988***

## KÖVRƏK BİR XATİRƏ

Qarşımda göy rəngli, qalın cildli bir kitab var. Əhəd Hüseynov, "Sənət yanğısı". Bu dörd söz mənim fikrimi 42 il əvvələ, Borçalı mahalına – mənim doğulduğum Bolnis-Kəpənəkçi kəndinə aparır.

Gürcüstan Respublikasının Əməkdar müəllimi, Borçalıda çox məşhur olan Rəşid Acalov mənim ədəbiyyat müəllimim, həm də anamın dayısı idi. O illərdə Kəpənəkçi kənd orta məktəbinin direktoru işləyirdi. Bacarıqlı ədəbiyyat müəllimi, ustad bir ziyalı kimi bütün Borçalıda məşhur idi. Mən də gənc şair kimi təzə-təzə dilə-ağıza düşürdüm. Rəşid müəllim mənim şeirlərimi oxuduqca uçmağa qanadı olmurdu, nə isə hiss eləmişdi, sevinirdi.

1966-cı il idi. Rəşid müəllim arxamca bir uşaq göndərmişdi: "Zəlimxana de, bizə gəlsin!" Bu dəvətdən quş kimi uçmaq istəyirdim. Çünki hər dəfə Rəşid müəllimin evinə gedəndə elə bilirdim Kəbəyə, Məkkəyə gedirəm. Onun evi, zəngin kitabxanası, qonaq-qarası o evi bizim üçün ziyarətgaha çevirmişdi.

Mən evə girəndə gördüm burda xeyli tanımadığım adam var. Rəşid müəllim məni görən kimi – "Əhəd müəllim, mənim bacıoğlumdu, axşamdan sənə təriflədiyim uşaq – Zəlimxan Yaqubov dediyimiz bax bu uşaqdı, mənim ən sevimli şagirdlərimdən biridir", – dedi.

Ortaboylu, tökmə bədənli, qara, qıvrım saçlı, şirin sulu bir kişi "Ayə, eloğlu bir yaxın gəl, səni öpüm", – deyib məni bir ata məhəbbətiylə bağrına basdı. Söhbətin gedişindən məlum oldu ki, Əhəd Hüseynov Borçalı ədəbi ictimaiyyətinin Azərbaycan elminə bəxş elədiyi çox istedadlı bir müəllim, pedaqoq ziyalıdır. Bakıda Rəşid müəllimlə V.İ.Lenin adına Pedaqoji İnstitutda (indiki

Pedaqoji Universitet) tanış olmuş, elə o illərdən eloğlu-luq dostluğa, səmimi qardaşlığa çevrilmişdi.

Bizim kəndə gəlişinin səbəbi isə o zaman çox dəbdə olan “Ulduz” jurnalına abunə yazdırmaq və bu abunə vasitəsilə Azərbaycanda gedən ədəbi prosesin Borçalıda tam genişliyi ilə təbliğ olunması ilə bağlı idi.

1966-cı ilin may gecələrinin birində Rəşid müəllimin evində Əhəd müəllimin şərəfinə keçirilən məclis həyatım boyu xatirimdən silinən deyil. O gecə Əhəd müəllimin baldan şirin danışığında nəsr, poeziya, dramaturgiya, şifahi xalq ədəbiyyatı, klassik və müasir şairlərimizin yaradıcılığı, M.Cəlil yanğısı, M.Hüseyn vətəndaşlığı, S.Vurğun biliyi, O.Sarıvəlli şirinliyi, Ə.Qarabağlı müdrikliyi dağdan şəlalə tökülən kimi o böyük kişinin sinəsindən ürəyimizə axıb tökülürdü. Onun şirin, yapışıqlı, cingiltili, cazibədar səsi, rus poeziyasını rus dilində əzbərdən bilməsi məni çaşbaş salmışdı. Həddən artıq şirin və cazibədar danışığı məni heyran qoymuşdu. Ədəbiyyat vurğunu olan, saza-sözə könül bağlayan, gələcəkdə şair olmaq arzusuyla yaşayan, sözün sehrinə, ovsununa düşən orta məktəb şagirdi üçün belə bir məclisin olmağı bəlkə də mənim bəxtimə, taleyimə işıq saçan ilk mübarək gecəydi, Tanrının mənim üçün göndərdiyi könül sovqatı idi.

Özləri doyunca söhbət edib, bir az nəfəs dərmək məqamına gələndə Rəşid müəllim üzünü Əhəd müəllimə tutub, “Əhəd müəllim, icazə ver, indi də gənc şairimizin şeirlərinə qulaq asaq”, – dedi. Əhəd müəllim “çox gözəl olar” – dedi. Sözü mənə verdilər. 8-ci sinif şagirdi olan bir uşaq ilk dəfəydi ki, belə qaynar bir mühitə düşmüşdü. Utandığımdan rəng alıb rəng verirdim. Dizlərim əsirdi. Qorxurdum ki, dilim topuq çalar, biabır olaram. Rəşid müəllimin vəziyyətimi duyub özünəməxsus mərdanəliklə “utanma, cəsarətli ol, axı sən şairsən!” – sözü məni vəziyyətdən çıxartdı. Utana-utana əzbərdən şeirlə-

rimi oxumağa başladım. Şeir oxuya-oxuya gözlərimi Əhəd müəllimin üzündən, gözündən, baxışlarından çəkmirdim. Əhəd müəllimin gülümsəyən baxışları, təbəssümlü dodaqları, gül kimi açılan rəngi mənə deyirdi ki, deyəsən şeirlər alınıb. Arada özünü saxlaya bilməyib uca səslə “Əla!” sözünü elə bir şövqlə deyirdi ki, elə bil orta məktəb şagirdinə yox, məşhur bir şairin əsərlərinə qiymət verirdi. Gözləmədiyim bir sevinc hissi məni o gecənin qəhrəmanına çevirdi. Mən şeirləri oxuyub qurtardım. Müzakirələr başladı, nə başladı. Çox dəqiq yadımdadı müzakirələr ətrafında gedən söhbətlərdə Əhəd müəllim ən çox S.Vurğunun, S.Rüstəmin, O.Sarıvəllinin adlarını hallandırır, mənim getmək istədiyim yolun kökünün Haqdan gəldiyini, Haqqa qədər gedə biləcəyimi proqnozlaşdırır, çox maraqlı mübahisələr edir, müqayisələr aparırdılar.

Bəli, mənim Əhəd müəllimlə ilk tanışlığım öz doğma kəndimdə, Rəşid müəllimin evində oldu. Elə orada ev telefonunu, ev ünvanını və tapşırığını verdi. Nə vaxt Bakıya gəlsən bizim ev sənin öz evindi, qapılarımız üzünə həmişə açıq olacaq, – dedi. Əhəd müəllim Haqqa qovuşana qədər onun 28 aprel küçəsindəki evi mənim ocağım oldu. Şeir-sənət, elm-təhsil ocağım oldu.

Əhəd müəllim Borçalı ədəbi mühitinin yetirməsi kimi sazın-sözün vurğunu idi. Böyük ağsaqqalımız Əlyar Qarabağlı və Əhəd Hüseynov olan məclislər aşıqsız, şairsiz, poeziyasız keçinməzdi. Borçalı aşıq məktəbinin böyük ustadları Aşıq Əmrahın, Aşıq Kamandarın, Aşıq Hüseyn Saraclının Bakıda məclisləri olanda Əhəd müəllimin bayramı idi. Aşıqpərəst ziyalıları başına yığar, özü də incə zarafatları, ürəkdən gələn şirin söz-söhbəti ilə bir toy-tamaşa yaradardı. Əhəd müəllim el içində el olan, məclis içində məclis olan, həmişə diqqəti çəkən bir təbii istedada sahib idi. Mən onu belə gördüm, belə duydum, belə sevdim.

Əhəd müəllim mənim üçün kim idi? Birinci növbədə saçından dırnağına, kökündən budağına böyük ədəbiyyatın böyük adamı! Vətənimin qeyrətli vətəndaşı! Torpağımın istedadlı oğlu! Od parçası, həyat eşqi ilə dolu bir aləm! Rus poeziyasını, Puşkini, Lermontovu rus dilində əzbərdən bilən, bildiklərini ən mahir aktyordan da gözəl çatdırmağa qadir olan şeir Məcnunu, Mirzə Cəlili az qala başdan-başa əzbər bilən fenomen yaddaş sahibi, klassik və müasir Azərbaycan poeziyasının seçmə nümunələrini sinəsində gəzdirən ulu bir sinədəftər! Nəsrimizin və poeziyamızın ciddi problemlərini bir kişi cəsarəti ilə obyektiv şəkildə işıqlandıran işıqlı tənqidçi! Vəfalı dost, gözəl ailə başçısı! Ölümü doktorluq müdafiəsindən cəmisi bircə ay qabaq gələn, yarı yolda, yarı mənzildə oxu daşa dəyən elm-sənət yolçusu! Yeddi qızın, istəkli dostların qəlbini vaxtsız itkisi ilə sızıldadan bir eşq adamı! Yuxarıda göstərdiyim insani keyfiyyətlərin heç birini gəlişigözəl söz kimi, kiməsə xoş gəlmək üçün yazmıram. Nə yazıramsa gözümlə gördüyümü, qulağımla eşitdiyimi, qəlbimlə duyduğumu yazıram. Halalın olsun, Əhəd müəllim, Allah sizə rəhmət eləsin. Amin!

***04.02.2008***

## GİRİŞƏ GƏLMƏYƏN SÖZ

Hər dəfə Təbrizdən söhbət düşəndə istər-istəməz mərhum və unudulmaz şairimiz Əli Tudəni – Əli müəllimi xatırlayıram. Məcnunun Leylisi, Kərəmin Əslisi, Fərhadın Şirini, Tahirin Zöhrəsi olduğu kimi, Əli Tudənin də dini-imanı, yanan bağrı, qovrulan ürəyi, titrəyən dili, görən gözü, eşidən qulağı – bir Təbrizi vardı. Məcnun Leyliyə, Kərəm Əsliyə, Fərhad Şirinə, Tahir Zöhrəyə qovuşa bilmədiyi kimi Əli müəllim də öz doğmasına – Təbrizinə qovuşa bilmədi.

Bəxtinin ağı-qarası da, vaxtının gecəsi-gündüzü də, ömrünün axşamı-səhəri də, gözünün nuru, qəlbinin qoru da, qismətinin acısı-şirini də, taleyinin uğuru da, uğursuzluğu da Təbriz idi, Təbriz... Təbriz... Təbriz...

Yer üzündə minlərlə şəhər adı var. Hər birinin öz taleyi, öz bəxti, öz qisməti. Təbriz adı çəkiləndə bu kişi nə hala düşərdi, İlahi! Yanırdı, tüstülənirdi, kül kimi qovrulur, köz kimi eşilir, yara kimi deşilirdi.

O, ağsaqqal, ilhamlı, dünyagörmüş ustad bir şair, mən gənc qələm həvəskarı... söhbətimiz çox yaxşı tuturdu. O, Təbriz həsrəti, mən Borçalı yanğısı... Tədbirlərdə, ədəbi-bədii gecələrdə az-az görünər, belə yerlərə seyrək gələrdi. Ancaq bizim hər görüşümüz bir aləm olardı. O, Bakının bağlarını, xiyabanlarını çox sevər, xüsusən Bakı şəhər İcra Hakimiyyətinin sağında-solunda, Filarmoniyanın ətrafında, Qubernator bağı deyilən ərazilərdə, bir söz, Bakının Təbrizi xatırladan, ona bənzəyən yerlərində tez-tez görünər, söhbətləşər, dərdləşərdik. Təbriz ləhcəsi onsuz da şirindi, ancaq Əli müəllimin şirin, isti, yanğılı danışığı bu ləhcəni bir az da şirinləşdirər, gözəlləşdirərdi. Hərdənbir Bakı küləyi öz işini

görüb, onun dümağ, qar kimi yumşaq saçlarını dağıdanda əllərini başına çəkib saçına daraq edərdi. Yumşaq və həlim, sərt və ötkəm danışığı, göyçək, nurani çöhrəsi, abırlı və həyalı təbiəti vardı.

Hərdənbir vaxt imkan verəndə öz avtoqrafı ilə mənə bağışladığı kitabları kövrələ-kövrələ vərəqləyir, dünyadan həsrətlə köçən şairimizin ruhuna dualar oxuyuram.

Sevimli şairimiz Nəriman Həsənzadə ilə ev qonşusu idilər. Aradabir gah öz evlərində, gah da Nəriman müəllimgildə görüşər, doyulması mümkün olmayan söhbətlər edərdik. Əli Tudə ilə Nəriman müəllimin çox şirin qonşuluğu və bir-birlərinə çox böyük hörmətləri vardı. Şübhəsiz, belə münasibət bizim görüşləri birə min gözəlləşdirərdi.

Qarşımda unudulmaz şairimizin iri həcmli bir əlyazması var. Övladları bu kitaba gözəl bir ad da seçiblər: "Yarımçıq dastan", mənə də deyiblər ki, əgər imkanın olsa, bu kitaba giriş sözü yaz. Giriş sözünü necə yazım? Hardan başlayım, harda tamamlayım? İlk sözü hansı fikirlə başlasın? Sonluq nədən ibarət olsun? Bilmirəm, bacarmıram! Öldür məni! As məni! Kəs məni! Bacarmıram! Vaxtsız həsrətə, amansız ayrılığa, acı gözyaşlarına, uğursuz məhəbbətə, göynərtili nisgilə, itən şəhərə, batan gəmiyə, yanan kitaba "Yarımçıq dastan"a giriş sözü yazmaq olarmı? "Öz qardaşına mehman gələndə bir şair könlünün arxalandığı ləkəsiz-boyasız vicdana" giriş sözü yazmaq olarmı? Xeyr! Xeyr! Xeyr! O, ağrılı kitab olar, düşündürən əsər olar, məğrur heykəl olar, ancaq giriş sözü ola bilməz.

Sən məslək uğrunda döyüşdün, müstəqil Azərbaycan yolunda vuruşdun, qələmin süngüyə, şeirin səngərə döndü, söz əsgəri, əqidə aşiqi kimi Vətənin müqəddəsliyinə vuruldun:

Yanında yatmadım dinc yatanların,
Döyüş bayrağıyam mən başlar üstə.

Arxamca su deyil, daş atanların,
Özləri yıxılır o daşlar üstə.

– deyib, döyüş bayrağı kimi dalğalanmaq, Vətəni, milləti xoşbəxt, azad və müstəqil görmək istədin, ancaq toyunla yasın, yatmağınla oyanmağın bir-birinə qarışdı. Nə yatdın ki, nə yuxu görəsən? Sizə də, uğrunda vuruşduğunuz müqəddəs duyğulara da bədnəzər dəydi, göz dəydi:

Nəzər yarı yolda aranı kəsdi,
Ağlıma gəlməyən başıma gəldi.

Mən Sizin kitaba giriş sözü yazmıram, əziz şairimiz! Sizi çox sevən və sizin çox sevdiyiniz bir qələm adamı kimi bu kitaba daxil olan və olmayan bütün əsərlərinizə xeyir-dua verirəm, uğur olsun deyirəm. Qoy gələcək böyük və bütöv, vahid və basılmaz Azərbaycanımız üçün sətirlərin silaha, arzuların bayrağa dönsün.

Ruhun şad olsun. Amin!

***07.01.2004***

# USTAD ŞAİRƏ DOST TƏBRİKİ

Ağır cərrahiyyə əməliyyatından çıxmışdım. Ev şəraitində müalicə olunurdum. Oğlum həftənin qəzetlərini gətirmişdi. "Ədəbiyyat" qəzetini oxuyanda gözüm bir xəbərə sataşdı: "Azərbaycan Yazıçılar Birliyində ustad şairimiz İlyas Tapdığın 75 illiyinə həsr olunmuş yubiley məclisi keçiriləcək". Xəbəri oxuyan kimi ürəyimdən bir sızıltı keçdi. Qırx ilə yaxındır ki, çox yaxından tanıdığım, qayğısını gördüyüm, şəxsiyyətinə və yaradıcılığına dərin hörmət bəslədiyim, boynumda halal haqqı olan, gəncliyin yaradıcılıq uğurlarına ürəkdən sevinən və onları sevə-sevə təbliğ edən, uzun illər ərzində heç vaxt uğurumu diqqətdən qaçırmayan şair dostum İlyas Tapdıq haqqında onun məclisində söz demək fürsətini xəstəliyimlə bağlı təbiət mənim əlimdən almışdı. Sevinc, kədər qarışıq kövrək duyğular içində xəyala getdim: Zəlimxan, ağrılar imkan verməsə də bu imkansızlıqda imkan tapıb ağsaqqal şairimiz İlyas Tapdıq haqqında kürsüdən deyə bilmədiyin sözləri qələmə pıçıldayıb, varaqlara deməlisən. Belə də oldu.

Əsərləri dünyanın bir çox aparıcı dillərinə tərcümə olunan, kitabları keçmiş SSRİ məkanında kütləvi tirajlarla nəşr olunan, ömrü boyu sazımızın, sözümüzün keşiyində dayanan, ustad aşıqlarımızın dostu, gənc şairlərin qayğıkeş ağsaqqalı olan, "Gədəbəydədir" qoşmasıyla doğulduğu torpağın himnini yazan, bir uşaq saflığından yaranmış uşaq şeirləriylə balalarımızın mənəvi dostuna çevrilən bir şair haqqında ürək sözü demək hər bir qələm adamı kimi mənim üçün də olduqca xoşdur.

Əzizim İlyas müəllim!

Sizin yaradıcılığınızı mənə hər ikimizin unudulmaz dostumuz, böyük şairimiz Hüseyn Arif sevdirib.

Sazmısan, kamanmısan,
Nə həssas yaranmısan.
Yananda da yanmısan,
Palıdın közü kimi.

...Qoşmalar ustadısan
Vaqifin özü kimi.

Hüseyn Arifə həsr elədiyin bu şeiri rəhmətlik Qağa özünəməxsus bir həvəs və sevgiylə tez-tez oxuyar, sizin təbiətə bağlılığınızdan, dilinizin şirinliyindən, şair kimi poetik imkanlarınızdan danışardı.

Bənövşə xatirinə
Kol dibinə iz düşdü.

– məşhur şeirinizi klassik poeziyamızın məşhur "Bənövşə"ləri ilə müqayisə edərdi.

Sizin poetik diliniz sazdan, qoşmadan, gəraylıdan, Vaqifdən, Ələsgərdən, Səməd Vurğundan mayalanan, güllərdən, çiçəklərdən şirə çəkən, palıdın kökündən, qayanın sərtliyindən, torpağın yeddi qatından gələn, buludlara, çaylara qoşulub axan bir dildir.

Gəzib-dolaşanda binələrini,
Əzmə çiyələyin dənələrini.
Dərənin dərini, suyun sərini,
Dağların qocası Gədəbəydədir.

Hər kəs bu yerlərdən olubsa halı,
Dəyibsə dilinə bir qaşıq balı,
Söyləyər dolansa bütün mahalı,
Dərdlərin dəvası Gədəbəydədir.

Əziz dostum, çox hörmətli İlyas müəllim!

Ədəbiyyat tariximizdən bizə məlumdur ki, nəinki bir şeiriylə, hətta bir beytiylə də yaddaşlara əbədi həkk olunan şairlər olub. Tam səmimiyyətlə deyirəm, bu illər ərzində heç nə yazmamış olsaydınız, təkcə bu şeirlə ədəbiyyat tariximizdə əbədi yaşamaq haqqı qazanardınız. Qara sazın yaddaşına köçən şairlər ölmür, İlyas müəllim! Vaqiflər, Vidadilər, Xəstə Qasımlar, Səməd Vurğunlar kimi!

Öyünürdü şair yenə,
Öyünməyə haqqı vardı.
Misralara əl vuranın,
Söz əlini yandırardı.

Bu dörd misranın istiliyi bir şair ömrünə bəsdi. Burda poetik mənzərə nə qədər canlı, təbii və diridi.

Təbiətdə min iz itir, bilinmir,
Yetimliyin nəqş etdiyi qəm izi,
Baxışlardan silinmir ki, silinmir.

İnsan taleyi haqqında sözün, fikrin, dilin poetik möhürünü belə vuranda şair adilikdən qeyri-adiliyə yüksəlir.

Sazı öyrən, gözüm nuru,
Sazda ana laylası var.

Bu iki misrada şair ömrünün kitablara sığmayan böyük dünyası, ustadlar, ozanlar yoluna, dədələr-babalar sərvətinə ilahi diqqəti və məhəbbəti var.

Mən gözlərə şeir yazdım,
Gözlər məni gözdən saldı.

Üzüm yaman üzlər gördü,
Üzlər məni üzdən saldı.
...Qəm yolunu bizdən saldı.

Bu sətirlərdə həyatın acı təcrübəsinin təəssüflə dolu məntiqi nəticəsindən doğan, bütün şairlərə doğma olan, ağlayıb-sızlamadan duymayan, insanın vəfasızlığı, etibarsızlığı necə şirin və poetik bir dillə oxucuya təqdim olunur. Bu misralarda bütün sevənlər öz taleyini görür. Öz başına gələn acı duyğuları yaşayır. Şeirin hamının sərvətinə çevrilmək xoşbəxtliyi bax budur.

Taleyinə "şübhə kimi oyaq qalmaq, sevinc verib, dərdi almaq" düşən, qismətinə "əzablardan doğulan kitablar" yazılan, bəxtinə "bir qələm, bir kağız, bir də masa" ayrılan şairin bundan böyük nə sərvəti, nə malı, nə mülkü ola bilər?

Bu gün dünya saz səsinə oyandı,
Mən bu günü başqa günə qatmaram.
Saz səsində dünya necə təmizdi,
Mən bu günü başqa günə qatmaram.

– deyən şairimiz! Mənə belə gəlir ki, siz dünyaya gələndə sazın səsinə yuxudan oyanmısınız. Yoxsa saz səsində dünyanın bu qədər təmiz olduğunu belə bir səmimiyyətlə qələmə ala bilməzdiniz.

Şairin kimliyini, şəxsiyyətini görmək və duymaq istəyirsənsə, onun doğulduğu torpağı yaxından tanımaq gərəkdir. Bu fikri ilk dəfə hansı müdrik səsləndiribsə, çox düzgün fikirdi. Mən İlyas Tapdıqla onun doğulduğu torpaqda, yer üzünün həqiqi cənnəti Gədəbəydə bir neçə dəfə olmuşam. Ona görə deyirəm ki, İlyas Tapdığın yaradıcılığı bizə təbiət qədər əzizdir.

İlyas müəllim həm də gözəl həmsöhbətdi. Vətənimizin dilbər guşələrinə uzanan yollarında onun şirin və maraqlı söhbətlərinə çox qulaq asmışam. Onun söhbətlərindən doymaq olmur. Deyirsən, İlahi, yollar uzana, söhbət bitməyə. O, danışa, sən dinləyəsən. O nədən danışır ki, söhbəti maraqlı olur? Təbiətdə çoxlarının görə və bilə bilmədiyi təbiət möcüzələrindən, ədəbiyyat tari-

ximizin ən maraqlı səhifələrindən, ədəbi şəxsiyyətlərimizin ən maraqlı və unudulmaz keyfiyyətlərindən, Səməd Vurğundan, Osman Sarıvəllidən, Əli Vəliyevdən, Süleyman Rəhimovdan, Mir Cəlaldan, Əbülhəsəndən, əlbəttə, daha çox Hüseyn Arifdən söhbət açanda hiss edirsən ki, gözlərin önündə canlı bir kitab varaqlanır – İlyas Tapdıq kitabı!

Şair ömrü uzun olur, İlyas müəllim! Sazın, sözün ömrü qədər olan ömrünüz onsuz da uzun olacaq. Gələcəyə doğru gedən yolunuz daha da uğurlu olsun, mənim şair qardaşım!

Sən yaşa ömrünü Xızır İlyasın,
Yetmişin üstünə beş gələn kişi.
Şirin nəğmələri yaz ətri verən,
Bu qoca dünyaya qış gələn kişi.

Şair – çiçəklərdən bal çəkən arı,
Şeirin – zirvələrin tərtəmiz qarı.
Qalxıb Gədəbəydən Bakıya sarı,
Dağ enən, düz keçən, döş gələn kişi.

Sözü çiçəklərin dadında qalan,
Eşqi baxışların odunda qalan,
Şeiri Zəlimxanın yadında qalan,
Nəfəsi Allaha xoş gələn kişi.

***16.11.2009***

## AY MƏMMƏD ASLAN!

Ötən əsrin söhbətidir. Şair qardaşım Məmməd Aslanla ulu Kəlbəcərin qoynunda Ağdaban kəndində Dədə Şəmşirin qonağı idik. Yaşıl bir yamacda gül-çiçək dərirdik.

Dağa-daşa heyran kəsildiyimiz bir məqamda dedim:

– Ay Məmməd müəllim, adam ölüb elə bu yerlərdə qalmaq istəyir.

Məmməd Aslan çox sadə və səmimi şəkildə gülə-gülə belə cavab verdi:

– Burda ölsən, qəm eləmə. Kəlbəcər camaatı çox böyük hörmətlə, urvatla səni dəfn edər. Qəbrin bu dağlara qismət olar.

Nə isə... Kəlbəcərli , Şəmşirli, Məmməd Aslanlı, Zəlimxanlı günlər yadıma düşdü, köhnə yaram qövr elədi, iyirmi il əvvəlin könlümə düşən toxumları bir yaz axşamı yenidən göyərdi, bitdi. Bu qoşma camal göstərdi:

Ölüb o yerlərdə qalan deyildim,
Kaş, onda öləydim, ay Məmməd Aslan!
Ağdaban kəndində keçən ömrümü,
Şəmşirlə böləydim, ay Məmməd Aslan!

Sirdaşı olaydım dumanın, çənin,
Yarpağın, torpağın, sünbülün, dənin.
Kövrəlib dolanda Güllü nənənin,
Göz yaşın siləydim, ay Məmməd Aslan!

Minib Taxtadüzün köhlən atına,
Ucaldım göylərin yeddi qatına.
Bal qatıb Qəmbərin zarafatına,
Danışıb güləydim, ay Məmməd Aslan!

Qoşa dillənəydi qələm sazımla,
Baş-başa verəydi aləm sazımla.
Fərhad külüngümlə, Kərəm sazımla,
Dağları dələydim, ay Məmməd Aslan!

Bu dərdi düşünən baş qalmayacaq,
Quruyan gözlərdə yaş qalmayacaq.
Nə bilim daş üstə daş qalmayacaq,
Mən hardan biləydim, ay Məmməd Aslan!

Bilirəm, küskünsən sən də dünyaya,
Gör nə zülm verir bəndə dünyaya.
Kəlbəcər qayıda, mən də dünyaya,
Yenidən gələydim, ay Məmməd Aslan!

***2003***

## ABBAS ABDULLA HAQQINDA ÜRƏK SÖZÜ

Ruhu və qəlbi, cismani və mənəvi varlığı türkün kökündən, yaşından və qan yaddaşından gələn, Borçalı Qarapapaqlarının yurdunda göz açan, Dədə Qorqud ruhlu Kəpənəkçi kəndində, Abdulla ağanın komasında üç bacının bir qardaşı kimi doğulan, bir yaşına çatmamış atasını itirən, bələyi dərdlə, ağılı, həsrətli bayatılarla böyüyən, ömür-gün yollarında başı daşdan-daşa dəyən, yetimçilik görsə də, heç vaxt yetimçiliyi ilə ticarət və siyasət əlaqəsinə girməyən, kövrək və fikirli olduğu qədər sərt və məğrur olan, həmişə öz qəlbinin və öz ruhunun səsinə qulaq asan, 60 illik ömür və tale yolları Borçalıya, İstanbula, Bakıya, Kiyevə, dünyanın müxtəlif yerlərinə səpələnən, 40 yaşında Türkiyədə atasını tapan, elə tapdığı andaca itirən, şirin və son dərəcə maraqlı bir nağılın qəhrəmanına bənzəyən, ömrü boyu özünü yazan, öz içini və dışını şeirə gətirən, yer üzündən daha çox şeirlərini göy üzünə yazan, döyülə-döyülə bərkiyən, bərkidikcə mətinləşən, kövrək bir saz havasına qulaq asanda göz yaşı ovcunda göllənən, mübarizələrdə yenilməz, mübahisələrdə inadkar, öz sözünün üstündə duran, bir işi tutanda, bir məsələ ilə məşğul olanda Allahdan başqa heç nədən çəkinməyən, öz işini özü bildiyi kimi həll edən, yaşadığı illərin ağrı-acısını poeziyasına gətirən, bir neçə dil bilsə də, ən çox maddi yoxsulluğun və ehtiyacın dilini bilən, ancaq türkün mənəvi xəritəsində adı böyük şəhərlər kimi göstərilən 60 yaşlı bir vətəndaş şairin – Abdulla oğlu Abbas kişinin sözünün və şəxsiyyətinin işığına yığışmışıq.

Abbas Abdulla deyiləndə ilk növbədə yada yurd yerlərimiz düşür. Abbas Abdulla deyiləndə yada Türkiyə və Azərbaycan əlaqələri, Azərbaycan və Gürcüstan ədəbi əlaqələri, Azərbaycan və Ukrayna ədəbi əlaqələri düşür.

Onun "Ata yurdu", "Üzü dan yerinə", "Ağlı-qaralı dünya", "Sonsuzluğa gedən karvan" kitabları 60 illik şair və ictimai xadim ömrünün əks-sədasıdır.

## ŞAİR ÖMRÜNÜN COĞRAFİYASI

Şair qardaşım, qələm dostum Hidayəti, tanış olduğum andan bu günə qədər dəyərli tərcümeyi-hal, maraqlı tale sahibi kimi tanıyıram. Onun tərcümeyi-halı təkcə doğulduğu Maralzəmi kəndi, Meğri ərazisiylə məhdudlaşmır. Bu ərazi İrəvanı, Tiflisi, Bakını, Zəngəzuru, Zəngibasarı, Dərəçiçəyi, Dərələyəzi, Qaraqoyunlunu, Vedibasarı, Borçalını, Qarayazını, Qaraçöpü, Başkeçidi, Ağbabanı, adını çəkmək imkan xaricində olan neçə-neçə müqəddəs ərazini qucaqlayır. Adını çəkdiyim, hər qarışı bizim üçün əziz və unudulmaz olan bu yerlərdə Qərbi Azərbaycanın bağrından qopan vətəndaş bir şairin yolu, izi, cığırı, xatirəsi, xatırlanası poetik düşüncələri, yaddaş xəritəsi var. Onun taleyinə gözündə nuru, ağzında dili qədər sevdiyi, adına, ünvanına neçə-neçə şeirlər, nəğmələr qoşduğu Maralzəmi kəndində doğulmaq xoşbəxtliyi də düşüb, doğulduğu doğma torpaqdan, evdən-eşikdən, isti beşikdən əbədi ayrı düşmək bədbəxtliyi də.

Ömrünün 50-ci baharı tamam olan gün anasını itirən bu kişi ömrünün kamil çağlarında gözünün nurunu, doğma balasını – Xəzərini də itirdi. İndi fikir ver, əziz oxucu! Bir insana Tanrı nə qədər dağ çəkər. Anasını itirən, oğlunu itirən, torpağını itirən bir şairin üzü gülər, eyni açılarmı?! Çətin, çox çətin!!!

Allah ona bu dərdlərin müqabilində şair istedadı, ictimai xadim olmaq, dövlət işlərində, dövlətçilikdə özünə layiq yer tutmaq, bir-birindən gözəl tale kitabları yazmaq xoşbəxtliyi də verdi.

Onun tərcümeyi-halı “Burdan bir atlı keçdi, atını oynatdı keçdi” adlı məşhur bayatının şah misralarına

söykəndi, müəllif tərəfindən "Burdan min atlı keçdi" deyimi ilə zənginləşdi.

Qərbi Azərbaycanın ölməz oğullarının, böyük ziyalılarının, ər kişilərinin, nurlu müəllimlərinin, odlu-alovlu aktyorlarının, teatr xadimlərinin, el ağsaqqallarının ömrünə-gününə ayna tuta-tuta Hidayət müəllimin özü də o yerlərin tərcümeyi-halına çevrildi. İllərin axarında, hadisələrin burulğanında, yaradıcılıq meydanında, ilhamlı-ilhamsız anların qabarıb-çəkilən məqamlarında Hidayət adlı bir şair və alim, yazıçı-publisist və ictimai xadim yetişdi.

Hidayət müəllim xatırlanan coğrafi əraziləri səyyah kimi seyrçi nəzərlə gəzib-dolaşmadı, Mirzə Cəlil yanğısı ilə haranı gəzdisə, orda dərdinin üstünə dərd gəldi, hər yerdə erməni daşnaklarının törətdiyi vəhşilikləri gördü, soydaşlarının ağrılı-acılı problemlərini illərlə içərisində gəzdirə-gəzdirə dərd heykəlinə döndü. Yaddaşında qəmli tarixləri varaqladı, ağrılı fikirləri çözələyə-çözələyə bizə ruhu qəmdən, qüssədən, torpaq nisgilindən yoğrulmuş gözəl kitablar bəxş elədi.

Hidayət müəllimin "Burdan bir atlı keçdi" kitabında Qərbi Azərbaycanın yetişdirdiyi görkəmli şəxsiyyətlərin bir neçəsi haqqında geniş məlumat verilib. Mən qələm dostumun kitabında adı çəkilən, öz xalqına, millətinə, dilinə, dininə başucalığı gətirən insanların Qəşəm Aslanovdan və İsmixan Məmmədovdan başqa (Allah hər ikisinə rəhmət eləsin) heç birini görməmişəm, tanımıram. Hidayət müəllimin kitablarını oxuyandan sonra onların hər birini tanıdım, sevdim. Elə bil onların hər biri ilə dəfələrlə ünsiyyətdə olub, unudulmaz anlar yaşamışam. Müəllif bu şəxsiyyətləri oxuculara elə böyük məhəbbətlə təqdim edir ki, istər-istəməz qürur hissi keçirirsən ki, xalqımızın belə kişiləri olub və yenə də olacaq.

Müəllifin öz xalqı qarşısında ən böyük xidməti ondan ibarətdir ki, qələminin, istedadının, zəhmətinin, qəm və torpaq həsrəti üstündə köklənən poeziyasının gücü hesabına unudulmaq təhlükəsi qarşısında qalan çox adları, ünvanları, bir çox maraqlı hadisələri itməyə-batmağa qoymadı. Bu yaradıcılıq böyük vətəndaşlıq və qeyrət işi deməkdir. Bir anlığa təsəvvürünüzə gətirin ki, bu kitablar yazılmayıb. Onda görün biz kimləri və nələri itirərdik. Hidayət müəllim təkbaşına bir elmi araşdırma ocağının işini görüb. Ziyalı üçün bundan böyük nə xidmət ola bilər.

Hidayət müəllimdən söhbət düşəndə bir cəhəti xüsusi qeyd etmək lazımdı. Onun Gürcüstanla, Borçalı mahalı ilə çoxşaxəli əlaqələri ürəkaçan bir fəaliyyətə çevrilmişdir. İstər daşıdığı vəzifə ilə bağlı dövlət səviyyəsində gördüyü işlər, istər şəxsi arzuları ilə bağlı, yaradıcılıq əlaqələri ona Gürcüstan azərbaycanlıları arasında çoxsaylı ləyaqətli dostlar qazandırıb. O dostların cərgəsində qəlbən, ruhən, tale oxşarlığı baxımından Hidayət müəllimə yaxın olan dostlardan biri də Zəlimxan Yaqubdur. Bu sətirlərin müəllifi Hidayəti həmişə sevib. Zəngəzuru, Göyçəni, Maralzəmini, bütövlükdə Qərbi Azərbaycanı, Borçalını, Azərbaycanı sevdiyi kimi.

***10.08.2004***

## BİZİM VİLAYƏTİMİZ

Vilayət Rüstəmzadə! Hər dəfə bu ad dilimdə səslənəndə, fikrimə, xəyalıma hakim kəsiləndə ortaboylu, qıvraq və ötkəm yerişli, lopa bığlı, qara, qıvrım saçlı, şirin danışıqlı, dolu xatirəli, istiqanlı, dəli-dolu həyat eşqi ilə dolub daşan bir ədəbiyyat adamı gəlir gözlərimin qabağına.

Vilayət mənim üçün ayrıca bir vilayət, ayrıca bir coğrafi-mənəvi ərazi idi. Bu vilayətin bir ucu Gürcüstanın Borçalı mahalının Bala-Muğanlı kəndinə dirənir, ordan Azərbaycana – Bakıya, ordan da Moskvaya qədər uzanır, Rusiyanın şəhərlərinə, kəndlərinə, qəsəbələrinə doğru şaxələnib gedirdi.

Maqnit dəmiri çəkən kimi onun danışığı hamını özünə çəkərdi. Güclü ünsiyyət mədəniyyəti, intellektual bal kimi şirin danışığı, ədəbi mühitlə bağlı geniş dünyagörüşü, şaqqanaq çəkib gülməyi, kefikök olanda tez-tez əlini lopa bığına çəkməsi, dərin milli təfəkkürü, sazın, aşığın vurğunu olması, rus dilini əladan əla bilməsi, gül kimi ana dilində danışdığı yerdə birdən-birə rus dilinə keçid eləməsi, yenidən Azərbaycan dilinə keçid edəndə elədiyi danışıq manevrindən özünün də ləzzət alması onu həmişə diqqət mərkəzində saxlayardı. Qeybətdən, dedi-qodudan uzaq, təmiz ürəyi, işıqlı sözləri, aydın baxışları, şuxluğu və sıxlığı hamının ürəyini açar, qəlbini oxşayardı.

Səməd Vurğuna Allah kimi, Osman Sarıvəlliyə Peyğəmbər kimi, Hüseyn Arifə imam kimi səcdə edər, onların haqqında deməkdən, danışmaqdan yorulmazdı. Səməd Vurğunun ölümündən sonra Osman Sarıvəllinin ona yazdığı həsrət, nisgil dolu şeir və poemaları əzbər oxuyar, Hüseyn Ariflə bağlı lirik şeirləri əzbər deyər, lətifələr danışmaqdan həzz alardı.

Moskvada oxuduğu illər onu dünya şöhrətli sənət adamları ilə doğmalaşdırmışdı. O, Rəsul Həmzətovdan, Çingiz Aytmatovdan, Kaysın Quliyevdən, Mustay Kərimdən, David Kukuldinovdan, onların əsərlərindən elədiyi tərcümələrdən, ədəbi görüşlərindən, şəxsi tanışlıqlarından elə ilhamla, sevgiylə danışırdı ki, elə bilirdin aşıqların dastan gecəsində ən şirin bir dastana qulaq asırsan.

Vilayət Rüstəmzadə şair, tərcüməçi, müəllim, nasir ömründə böyük bir ziyalı mədəniyyəti yaşadırdı. O çox savadlı və səviyyəli bir ziyalı kimi yetişmişdi. Təsadüfi deyil ki, keçmiş SSRİ-nin müxtəlif yerlərindən Bakıya məşhur şair və yazıçılar gələndə hökmən Vilayəti axtarıb tapar, Azərbaycan ədəbiyyatı ilə geniş tanışlıq üçün onun istedadı, qabiliyyəti sayəsində güclü ünsiyyət körpüsü yaradardılar.

Canlı həyat adamı, məclislər yaraşığıydı. O harda olsa orda gülüş, qəhqəhə yaranardı. Borçalı aşıqları Bakıya gələndə onun bayramıydı. Sevindiyindən yerə-göyə sığmırdı. Aşıq Əmraha və Hüseyn Saraclıya "Əmrah əmi", "Hüseyn əmi", Aşıq Kamandara "Ustad" deyə müraciət edərdi. Saz çala bilmirdi, ancaq sazdan ötrü canı çıxırdı. Aşıq Kamandar "Mirzəcanı" havasına Vilayətin "Borçalı" şeirini coşqun bir səslə, ilahi bir avazla oxuyanda Vilayətin uçmağa qanadı olmurdu. Aşıq Kamandar:

Könlüm saz istəyir, Aşıq Kamandar,
Bir "Dilqəm" göndərsin bizə Borçalı.
Moskva soyuqdur, üşüdür yanvar,
Həsrətəm ocağa, közə Borçalı.

– deyib zilləri, bəmləri yerbəyer edəndə Vilayətin ömrü yüz il uzanırdı.

Təkcə eloğlu kimi yox, həm də işıqlı bir ziyalı kimi Vilayət müəllimi mən çox yaxından və dərindən tanıyırdım. Səbəb ondan ibarət idi ki, 5-6 il biz eyni binada, ayrı-ayrı idarələrdə işləmişdik. O, "Yazıçı" nəşriyyatının

tərcümə şöbəsində, mən kitabsevənlər cəmiyyətində. Bu coğrafi yaxınlıq bizim mənəvi yaxınlığımıza, dostluğumuza çox gözəl mühit, münbit şərait yaratmışdı. Vilayətin şeir dili, tərcümə dili də danışığı kimi olduqca canlı, şirin və təbii idi. Onun tərcüməsində Rəsul Həmzətovun "Mənim Dağıstanım" əsəri o illərdə həddən çox populyar olub dillərə düşmüşdü. Oxucular o kitabı əl-əl gəzir, oxumaq üçün növbəyə dayanırdılar.

Onun Moskva mühitindən, orda oxuyan azərbaycanlı şair dostlarından, məşhur sovet şairlərindən danışdığı lətifələr o qədər canlı və gözəl olurdu ki, elə bil bir nəfərə yox, səhnədə teatr tamaşasına baxırdın. Xüsusən Rəsul Həmzətovun bütün cizgiləri ilə, danışanın ən incə vurğuları ilə elədiyi hərəkətləri görəndə, eşidəndə elə bilirdin Vilayət Rüstəmzadəni yox, Rəsul Həmzətovun özünü dinləyirsən.

Heyif, Vilayətdən! Canının qədrini bilmədi, özünü qoruya bilmədi. Tez getdi həyatdan. Onun gedişi ədəbiyyatımızın ən ağır itkilərindən biri oldu. Bu itkinin yerini heç kəs doldura bilməyəcək. O boşluğu doldurmaq üçün Vilayət ürəyinin genişliyi, Vilayət dilinin şirinliyi, Vilayət dünyasının zənginliyi lazımdı.

Ağzında dili qədər sevdiyi, özünə ömrü boyu ustad saydığı, "Osman əmi" deyə müraciət etdiyi xalq şairi Osman Sarıvəllinin ona bağışladığı kitabın avtoqrafını xatırlayıram:

Çoxdu Vilayətlər doğma elimdə,
Sən elə yüksəl ki, bizim ölkənin,
Deyim ki, tək bircə Vilayəti var.

Bəli, bizim ədəbiyyat adlı ölkəmizin bir Vilayəti var idi. O Vilayət indi ruhumuzun, xatirələrimizin coğrafi ərazisindən mənəvi ərazisinə köçüb. Coğrafi ərazi zamanın amansız hökmü ilə bölünə, parçalana bilər. Ancaq mənəvi ərazi – Vilayət ərazisi həmişə sağ-salamat və dipdiri qalacaq.

***14.11.2007***

## LAÇINLI, LAÇINSIZ DUYĞULARIM

1979-cu il. Ömrümün ən mənalı anları, saatları, dəqiqələri. Qalxıb-enmək, qabarıb-çəkilmək həvəsim dünyaya sığmır. Buludla axmaq, şimşəklə çaxmaq, qartalla yarışmaq eşqinə düşmüşəm.

Gəzdiyim Vətən torpağıdır. Budəfəki səfərim Zəngilan, Qubadlı, Laçın ellərinə bağlıdır. Bu yerlərin gözəlliyindən doyunca ləzzət alıb, dost məclisləri, el qayğısı görüb ilahi sevgiylə yoğrulan görüşlərin içində əriyib itirəm. İtirəm, özümü həmişəlik tapmaq üçün. "El içində, öl içində" dediyimiz xalqın içində, elin içində. Zəngilanda, Qubadlıda ömrümə-günümə çıraq tutan duyğulardan sonra Laçına sarı qalxıram. Laçını hələ görməmişdən yurdumuzun bu cənnət guşəsi, mərd və sərt oğulları, güclü və tarixi şəxsiyyətləri, özünəməxsus adət-ənənələri haqqında şair dostlarım mərhum Hüseyn Kürdoğludan və Ağa Laçınlıdan çox sözlər eşitmişdim. İndi eşitdiklərimi görmək, sevmək, duymaq üçün əlimə fürsət düşmüşdü.

Rəhmətliklər Muradxan Cabbarov Laçında birinci katib, Xanlar Məmmədov ikinci katib işləyən vaxtlar idi. Onda hələ Laçın yarası, Xocalı harayı, Qarabağ dərdi dünyaya gəlməmişdi. Əsirimiz, girovumuz, qaçqınımız, köçkünümüz yox idi.

Nəysə... Maşından düşəndə məni Xanlar Məmmədov və şair dostum Ağa Laçınlı qarşıladı. Ağa Laçınlı həddən çox zarafatcıl olduğu üçün salamdan qabaq gülə-gülə məni şeirlə qarşıladı:

Gəldiyin yer Zəngilanla Qubadlı,
Bizim Laçın ondan bir az babatdı.
Bağışla ki, yollar səni yubatdı,
Xoş gəlibsən bu yerlərə, Zəlimxan.

“Sözün cavabı söz olar” – deyiblər. Ağanın oxuduğu şeirə cavab kimi Ağa Laçınlı haqqında ürəyimdən gələn misraları elə ordaca dedim. Qucaqlaşdıq, öpüşdük, sevincimizdən yerə-göyə sığmırdıq. Laçın görüşlərimiz belə başladı. Hər yerdə sevgi, məhəbbət, qonaqpərvərlik. Laçında, Oğuldərədə, Səlvədə olan məclislərimiz ölənə qədər yadımdan çıxan deyil. Aradan 28 il keçib, o insanların mərdliyi, kişiliyi, sevgisi, sevinci heç vaxt gözümün qabağından getmir. Ağa Laçınlının and içəndə “Anamın canı üçün” dediyi o xoş günlər unudularmı? O rəhmətlik təbiətdə nə qədər gül-çiçək adı var idi, hamısını əzbər bilirdi. Hansı ot hansı dərdin dərmanıdı, təbiətin loğmanı kimi tanıyırdı. Zarafat deyil, şair anasıydı. Tale o sevinci bizə çox gördü. Ağanın anası o güllərin-çiçəklərin içində yox, Bakıda dünyasını dəyişdi. Ağa Laçınlı da danışırdı ki, anam ölümünə 3 gün qalmış həmin görüşləri xatırlayıb deyirmiş ki, “görən Zəlimxan hardadı, bircə dəfə qulağımın dibində səsini eşitsəm rahat ölərdim”.

Oğuldərə kəndində gördüyüm o doğma insanlar, orda keçirdiyimiz sazlı-sözlü məclislər bugünkü gün kimi gözümün qabağındadır. Bir neçə gün Ağagildə qaldıqdan sonra bizi Səlvə dərəsinə – o elin ağsaqqalları iki qardaş Zülfü və Aydın kişinin evinə dəvət elədilər. İkigünlük görüşdə bir ömür, bir tarix yaşadıq. Elə bir tarix ki, dastanlara mövzu ola bilər. Elə bir tarix ki, bir də təkrar olunmağı qeyri-mümkündür.

Laçın əllərimizdən çıxan cavanlıq, ömürdən gedən gənclik kimi getdi. Bu gün Laçınlı, Oğuldərəli misralar dilimi, ürəyimi göynədir:

Oğuldərə kəndi, Laçın oylağı,
Qaldırar Günəşə, Aya şairi.
Axar nəğmələri Həkəri kimi,
Oxşadar ilhamı çaya şairi.

Onda bir Çalbayır təbiəti var,
Döndərməz üzünü nə qış, nə bahar.
Çəkər imtahana şaxta, boran, qar,
Şimşəklər çağırar toya şairi.

Götürər mayanı, varı bulaqdan,
Soruşar yaxşını, yarı bulaqdan.
İçər Sarı kimi Sarı bulaqdan,
O dağlar yetirər boya şairi.

Küləklər qəmini atar qayadan,
Səsi zirvələrə çatar qayadan.
Baxar bu dünyaya Qazar qayadan,
Olar dağ övladı, qaya şairi.

Bu şeir deyiləndə, oxunanda, Laçın dağlarına səpələnəndə Ağa Laçınlı cavan, istedadlı Azərbaycan şairi, mən Zəlimxan Yaqub yerə-göyə sığmayan havalı bir gənc idim.

İndi nə Laçın var, nə Ağa Laçınlının dəli-dolu dünyası var, nə Ağanın anası var. Bir həsrət var – Laçın həsrəti! Bir yoxluq var – Laçın yoxluğu! Bir ağrı var – Laçın ağrısı.

Biri var idi, biri yox idi. Bir Laçın var idi. Laçınlı günlərimiz var idi. Daşdan, qayadan, mamırdan, palıddan mayalanmış qeyrətimiz və heyrətimiz var idi... Bir də olacaqmı bilmirəm, bilmirəm, bilmirəm! Bircə onu bilirəm o torpaq laçınlıların öz ümidinə qalsa bircə qarışı da əldən getməzdi! Laçın xəyanətin qurbanı oldu, xəyanətin! Mən Laçın oğullarını xəyanətə qarşı cəsarətə, məhəbbətə, mənəvi birliyə çağırıram! Laçına, Oğuldərəyə, Minkəndə, Aşıq Umbayın sazına, Səlvədəki günlərə qayıtmaq istəyirəm. Qaytarın, qaytarın, qaytarın məni o dağlara, o bulaqlara, o zirvələrə, Çalbayıra!

Ağa Laçınlı, gəl gedək Oğuldərəyə! Şahmar Əkbərzadə, gəl gedək vurğunu olduğun Zülfü kişinin Hatəmsəxa məclislərinə! Heyif o günlərə, heyif o görüşlərə, heyif o dostlara! Torpaq itəndə tarix də itir, dost da itir, o günlər də itir. Tapana qədər qarınınki Qurandan keçir.

Nəysə...

Laçında oğullar tanıyıram mən,
Erməni qarışıq Ermənistanı
Tutub qayalardan ata bilərdi...

***30.9.2007***

## LAÇINLI, LAÇINSIZ AĞA LAÇINLI

Nə yaxşı xatirələr var, xatirəyə dönən günlər, aylar, dəqiqələr var. Nə yaxşı alınlara yazılan yazılar kimi, yaddaşlara yazılan hadisələr, görüşlər, söhbətlər, döngələr, dönümlər var. Bəlkə dünya ona görə bu qədər şirindir ki, həmişə dünənə, keçmişə, tarixə, müqəddəs dayaqlara, sarsılmaz qaynaqlara söykənə-söykənə irəliyə, sabaha, gələcəyə, arzulara, xəyallara doğru uçur və uçuşunu heç vaxt dayandırmır.

Hər bir qələm adamının xatirə yazmaq dövrü və xatirəyə çevrilmək məqamları var. Təxminən on il bundan əvvələ qədər heç kəs haqqında xatirə yazmaq barədə düşünmürdüm. Ancaq indi görürəm ki, ömrümüz elə xatirələrlə dolu bir həyatdan ibarətmiş.

Bu şirinli-acılı xatirələr aləminin mənim üçün heç vaxt unuda bilmədiyim bir Ağa Laçınlı dünyası da var. Bu tanışlığın, doğmalığın, dostluğun yaddan çıxmaz o anları məni çox düşündürür. Aramızdakı yaş fərqi çox olsa da, bu fərq heç zaman bizim səmimi dostluğumuza mane olmazdı. Təxminən otuz ilə yaxın dostluq elədiyimiz dövrdə onu həmişə halal, təmiz, təvazökar, səmimi, uşaq kimi kövrək, körpə kimi saf, ipək kimi yumşaq gördüm. Həddən çox zarafatcıl, deyən-gülən, əhatə dairəsini işıqlandıran, təmənnasız, gözütox, ağayana bir kişi, şəxsiyyət idi Ağa Laçınlı. Ağa Laçınlı ilə birlikdə çox yolların yoldaşı, çox könüllərin sirdaşı, çox evlərin qonağı, çox məclislərin yaraşığı olmuşuq. Onun yanında heç vaxt insan gərginləşmir, narahat olmur, təntimir, tələsmir, rahat və azad nəfəs alırdı. Çünki həddən artıq dostcanlı, elcanlı adam idi. Ölənə qədər "Ağanın canı üçün" andı dilindən düşmədi. Anasından ötrü canı çıxırdı. Təbii ki, hamı

anasını çox istəyir. Ancaq bu vaxta qədər Ağa Laçınlı qədər ana pərvanəsi olan şairə rast gəlməmişəm. 1985-ci ildə o ananı Laçında, Oğuldərə kəndində mən də ziyarət etmişdim. İlahi, nə qədər qonaqcanlı, el-oba vurğunu, təbiət pərvanəsi olan bir qadın idi Ağanın anası. Onu danışdırmaqdan doymurdum, damarını yaxşıca tutmuşdum. O dağların, düzlərin nə ki gülü-çiçəyi vardısa hamısını ad-baad sayır, mənə göstərir, hansı çiçək hansı dərdin dərmanıdır bir-bir başa salırdı. O ana oxumamış həkim, təbiətin loğmanı olan bir qadın idi.

Bax Ağa Laçınlını bir şair və insan kimi o müqəddəs ana yetirib, boya-başa çatdırmışdır.

Azərbaycanın çox yerlərində – səfərlərdə, məclislərdə, rəsmi, qeyri-rəsmi tədbirlərdə, el-oba yığnaqlarında bir yerdə çox olmuşuq onunla. Hər yerdə də onu adına layiq, elə Ağa kimi gördüm. Qeybətdən, dedi-qodudan, giley-güzardan, şikayətdən çox uzaq bir adam idi, nə qədər maddi çətinlikləri vardı, ancaq heç kimə ağız açmaz, minnət götürməzdi. Allah onu halalıq üçün yaratmışdı. Ütülü, sığallı, rəsmi geyinməzdi, təbii və sadə geyinər, göründüyü kimi olar, olduğu kimi görünərdi.

Hər dəfə Ağanı görəndə hündürdən hamının eşidəcəyi bir səslə, özüməməxsus qürurla onun şair və şəxsiyyət kimi xarakterini açan şahanə misraları başından yağış kimi yağdırardım:

Sözümün kəsərini, itiliyini,
Qılıncdan, nizədən, oxdan almışam.
Bəzən ilham üçün sevinc olmayıb,
Sevinci, ilhamı yoxdan almışam.
Ağa Laçınlıyam, Haqq aşığıyam,
Həmişə ilhamı Haqdan almışam.

Həmişə ilhamı Haqdan alan şair qardaşımın şeirin bayatı kökünə, bayatı dilinə heyrətini, məhəbbətini, heyranlığını dönə-dönə müşahidə eləmişəm. Hərdənbir

kefimizin kök olan vaxtlarında bayatı üstündə deyişmələrimizin ayrı bir ləzzəti var idi.

Laçında, Oğuldərədə, Səlvədə Ağa Laçınlı ilə keçirdiyim günlər ömrümün ən maraqlı, məhsuldar, barlı-bəhrəli çağları idi. O günlər mənim yaddaşımda ayrıca bir müqəddəslik kimi qalıb. Ağa hər dəfə Laçından gələndə – "Anam sənə xüsusi salam göndərdi!" – ifadəsini çox böyük sevgiylə mənə çatdırardı.

Ağanın anası Rəhimə xanımla aramızda yaranan ana-bala sevgisinin bəhrəsi idi ki, ömrünün son günlərində Bakıda Laçınsız yaşayan (Bilmirəm buna yaşamaq demək mümkündürmü?), ölüm döşəyində olan ana məni xatırlamış, "Zəlimxanı çağırın gəlsin, görüm mənim oğlum necədir?", – demişdir. Bu söhbəti də mənə Laçınsız və anasız qalan Ağa Laçınlı çatdırmışdı. Hər ikimiz əkiz qardaş kimi bu sözün ağrısına göz yaşı tökmüşdük. Ağanın anası təbiətin şairi idi, özü Azərbaycanın!!!

Ağa ağa idi, nökər deyildi. Ağa sadə idi, sadəlövh deyildi. Ağa bütün hərəkətlərində təbii idi, qeyri-səmimi deyildi. Ərki çatan tay-tuşlarına müraciət formasında zarafatla "Əclaf!" deyərdi: "Əclaf, bu sözü yaman demisən", "Əclaf, bu şeiri yaman yazmısan", "Əclaf, bu gün yaman çıxış elədin", "Ağanın canı üçün son illərdə belə kitab oxumamışam". Hardasa qeyri-etik görünən bu ifadələri o qədər səmimi deyərdi ki, adamın canına yağ kimi yayılar, dünyanın ən şirin alqışından, tərifindən qiymətli dost sevgisi kimi qəbul olunardı.

Mən şəkil üçün sinoy gedən, o isə şəkil-məkillə arası olmayan bir adam idi. İndi özümdən razılıq edirəm ki, onu məcbur edib yaxşı şəkillər çəkdirmişdik. Bu gün otuz illik dostluğumuzun yeganə şahidi o şəkillərdi. Hər dəfə mən o şəkillərə baxanda Laçında, Bərdədə, Gəncədə, Bakıda, Qazaxda, Lənkəranda – Azərbaycanın müxtəlif yerlərində yaşadığımız müqəddəs və mübarək anları çox xoş duyğularla yenidən yaşayıram.

Bayatı hikmətlərindən danışanda tez-tez Sarı Aşığın adını hallandırardı, şair böyüklüyündən danışanda Səməd Vurğuna heyrətini dilə gətirərdi, Moskvada təhsil illərini xatırlayanda adına "İblis" dediyi müəllimini yada salar və dostu şair İbrahim Kəbirlinin sərgüzəştlərindən gülə-gülə danışardı, and içəndə oğlunun adını çəkib, "Fəxrinin canı üçün", – deyərdi.

Astadan danışar, yastı və rahat yerişlə yeriyər, salam verəndə adamın əllərini ürəklə sıxar, şirin görüşər, şirin ayrılardı. Bir xahişi, arzusu olanda onu şəstlə deməz, utana-utana, uşaq səmimiyyəti ilə dilə gətirərdi.

Şirin və unudulmaz Laçın görüşlərini xatırlamaq üçün 23 il əvvələ qayıtmaq istəyirəm. 1985-ci il idi. Ədəbiyyatı təbliğ bürosunun xətti ilə doğma Vətənin dilbər guşələrinə yaradıcılıq səfərinə çıxmışdım. Zəngilan və Qubadlı görüşlərimi tamamlayıb daşlı-kəsəkli dağ yolları ilə Laçına qalxırdım. O zaman rəhmətliklər Muradxan Cabbarov Laçının birinci katibi, Xanlar Məmmədov isə ikinci katib idi. Ağa Laçınlı da o yerlərin şair oğlu kimi, Laçında – Oğuldərədə öz ocağının başında, işində-gücündə idi.

Ağa müəllim məni Xanlar müəllimə tərifləyir ki, bir sinədəftər şair gəlir Laçına, gəl onu qarşılayaq. Xanlar müəllim də deyir ki, o ki elə sinədəftər şairdir, maşından düşən kimi sıyırmaqılınc üstünü kəs, bir şeir de, görək nə cavab verəcək. Belə də oldu. Mən avtobusdan düşən kimi hər ikisi məni çox hörmətlə bağrına basdı. Salamdan sonra Ağanın çox şux tərzdə oxuduğu şeir Sarı bulağın duru suları kimi ruhuma axdı:

Gəldiyin yer Zəngilanla Qubadlı,
Bizim Laçın ondan bir az babatdı.
Bağışla ki, yollar səni yubatdı,
Xoş gəlibsən bu yerlərə, Zəlimxan.

Laçına ilk gəlişim olsa da, uzun illər Ağanın söhbətlərinə qulaq asa-asa xəyalən Laçının məşhur mənzərələrini, yer adlarını gözümə, könlümə köçürmüşdüm. Şeir

yazmaq üçün halaldan yoğrulmuş maya var idi. Ona görə də sınaq məqamında çətinlik çəkmədim. Şahanə bir görkəmlə dağlara sarı çevrilib, əlimi göylərə qaldıraraq Ağa Laçınlını dağlar qarışıq vəsf eləməyə başladım:

Oğuldərə kəndi, Laçın oylağı,
Qaldırar Günəşə, Aya şairi.
Axar nəğmələri Həkəri kimi,
Oxşadar ilhamı çaya şairi.

Onda bir Şalbayır təbiəti var,
Döndərməz üzünü nə qış, nə bahar.
Çəkər imtahana şaxta, boran, qar,
Şimşəklər çağırar toya şairi.

Soruşar mayanı, yarı bulaqdan,
Götürər mayanı, varı bulaqdan.
İçər sarı kimi Sarı bulaqdan,
O dağlar yetirər boya şairi.

Baxar bu dünyaya Qatar qayadan,
Küləklər qəmini atar qayadan,
Səsi zirvələrə çatar qayadan,
Olar dağ övladı, qaya şairi.

Çox-çox təəssüflər olsun ki, indi bu dəli-dolu misraları ağrılı-acılı, nisgilli duyğularla xatırlayıram. Odu söndürüb külüylə oynayıram. İndi ilxılı, sürülü, naxırlı, elli-elatlı, aranlı-yaylaqlı Laçın acı bir yuxuya çevrilib. Muradxan Cabbarov yoxdur, Xanlar Məmmədov yoxdur, Rəhimə ana yoxdur, Ağa Laçınlı yoxdur!

Bizi fəxri qonaqlar kimi süfrəsinin başında əyləşdirən Səlvəli Zülfü kişi yoxdur, Aydın kişi yoxdur! Bəs nə var, nə qalıb o günlərdən? İşğal olunan torpaqlar, ayrılıq, göz yaşı, tapdalanan ruhlar, çeynənən, top atəşi, mərmi yağışı ilə didik-didik olan yurdlar, dağılan yuvalar, keçən ocaqlar.

Beş-on günün söhbətidi. Bakının Binə qəsəbəsində yerləşən qəbiristanlıqda bir dəfn mərasimində iştirak

edirdim. Ağa Laçınlı da burada dəfn olunub. Qəbrin ziyarətinə getdim. Diz çökdüm şair qardaşımın ruhu qarşısında, məzarı önündə. Gözyaşlarım qara mərmərin, sinə daşının üstü ilə süzülə-süzülə Ağa Laçınlının dörd misrasının üstünə qonan tozları silməyə can atırdı.

Ölüm görüşü var ömrün sonunda,
Axı qalasıydım yadında sənin.
Bir adam donunda, çiçək donunda,
Yenə bitəsiydim yanında sənin.

Çox doğru buyurursan, mənim şair qardaşım! Halallığın, paklığın, təmizliyin, ağayanalığın, gözütoxluğun, göydə quşların, yerdə daşların, çəməndə çiçəklərin adını və dilini bilən dağsız qalan dağlar şairi kimi həmişə səni sevənlərin yadında qalacaqsan! Ağac donunda, çiçək donunda, mələk libasında, dərviş paltarında şeirlərinlə, zarafatlarınla, atmacalarınla, gülüşlərinlə hər yaz dünyaya yenidən gələcəksən. Hər payız yanımızda olacaqsan! Ruh kimi, nəfəs kimi, nəğmə kimi şeir kitablarını əzizləyə-əzizləyə, əlinlə yazdığın tərifli avtoqrafları titrəyən dodaqlarımla öpə-öpə səni xatırlayacağam! Sənə Zəlimxan kimi söz verirəm, Allah üzümə, Tanrı sözümə baxsa, ölməyib o günü görsəm, Laçına gedəcəyəm. Heç yerdə sağa-sola dönmədən birbaşa Oğuldərəyə – çörəyini yeyib, suyunu içdiyim ocağa, Rəhimə ananın evinə yetişib, üzümü o evin divarlarının daşlarına sürtəcək, nəfəsiniz toxunan yerlərə yenidən nəfəs verib, ayaq izlərinizi oxşamaq üçün o zaman uça-uça gəzdiyim həyətdə bu zaman dizin-dizin sürünəcəyəm! Oğuldərə çiçəklərindən qucaq-qucaq dərib, iki dəstə bağlayaraq Bakıya qayıdacaq, nəfəs dərmədən Binə qəsəbəsindəki qəbiristanlığa gedib o iki dəstə gülü Rəhimə ananın və Ağa Laçınlının qəbrinin üstünə qoyacağam. Allahın möcüzələri çoxdur. Bəlkə Laçın, Oğuldərə ətirli güllər sizi yenidən öz cənnətinizə – Laçınınıza qovuşdura!!!

***04.02.2009***

# TƏMİZLİK, HALALLIQ, UCALIQ

Körpəlikdən görüb-götürdüyüm tərbiyədi. Məndə lap uşaqlıqdan ağsaqqallara, nüfuzlu şəxsiyyətlərə, sözün həmişə təzə mənasında köhnə kişilərə böyük bir vurğunluq, heyranlıq olub. Əgər bir insan ömür-gün yollarında böyük uğurlar əldə edibsə, qeyrətinə, savadına, inadına, qətiyyətinə söykənə-söykənə el sevgisi, xalq məhəbbəti qazana bilibsə, onu sevməmək, dərk etməmək ən azı günahdı. Allah sevib ucaldanı bəndə necə sevməyə bilər. Bu mənada Həsən Seyidova mənim həmişə böyük sevgim, rəğbətim olub. 33 ildir Bakıda yaşayıram. Bu illər ərzində Azərbaycanın baş naziri kürsüsünə əyləşən, bu vəzifəyə gəlib-gedən xeyli sayda insanların şahidi olmuşam. Bunların içində 2-3 nəfərin adı ictimaiyyət arasında, el içində, rəsmi dai-rələrdə böyük sevgiylə xatırlanır, hörmətlə yada düşür. Bunlardan biri şəksiz-şübhəsiz, tərəddüdsüz Həsən Nemət oğlu Seyidovdur. Uzaqdan-uzağa eşitdiyim, yaxından-yaxına şahid olduğum, müxtəlif görüşlərdə və söhbətlərdə yaxşı tanıdığım, şəxsi ünsiyyət vaxtı hər dəfə gözəl bir insani keyfiyyətini kəşf etdiyim Həsən Nemət oğlu sözün əsl mənasında böyük şəxsiyyətdir. Bu böyüklük birinci növbədə onun dövlətə və dövlətçiliyə münasibəti, sədaqəti ilə bağlıdır. Dövlətçilik hissi, dövləti məsuliyyət onun boyuna biçilib. Alnının təri, əlinin qabarı, zəngin mütaliəsi, yüksək intellekti, ciddi tələbkarlığı, geniş dünyagörüşü, qurub-yaratmaq eşqiylə fəhləlikdən – istehsalatdan pillə-pillə yüksəlib həyatın dibindən gələn, ölkənin baş naziri kimi şərəfli bir vəzifəyə sahib olan Həsən Nemət oğlu aradan illər keçməsinə baxmayaraq, bu gün də hörmətlə anılır, məhəbbətlə xatırlanır, onun

adı yaddaşlardan silinmir. Məşhur alimlər, görkəmli şəxsiyyətlər, istehsalat qabaqcılları, tay-tuşları, qocaman partiya və dövlət xadimləri Həsən Nemət oğlu ifadəsini bu gün də çox böyük qürur və iftixar hissi ilə işlədirlər.

Hamıya bəlli olan bir həqiqətdir ki, Həsən Seyidovun görkəmli ictimai xadim, məşhur dövlət adamı səviyyəsinə yüksəlməsi möhtərəm Prezidentimiz Heydər Əliyevin şəxsi qayğısı və münasibəti ilə çox sıx bağlıdır. Demək olar ki, Heydər Əliyev Həsən Seyidovu bir qiymətli sərvət kimi vaxtında tapmış və kəşf eləmişdir. Demək olar ki, Azərbaycanın başdan-başa tikinti meydanına çevrilməsi, inkişaf etməsi də Heydər Əliyevin Respublikada birinci katib, Həsən Seyidovun baş nazir olduğu dövrə təsadüf edir. Həsən müəllimin baş nazir olmadığı bütün dövrlərdə, məclislərdə, söhbətlərdə Heydər Əliyevə tükənməz məhəb-bətinin, böyük ehtiramının dəfələrlə şahidi olmuşam. Bu keyfiyyətin özü də Həsən müəllimin gözütoxluğunun, təmizliyinin, kristallığının, ağayanalığının mahiyyətindən doğur. Həsən müəllimlə çoxsaylı görüşlərim olur. Vaxt tapandan-tapana onun ziyarətinə gedirəm. Şirinli-acılı xatirələrlə, zəngin həyat təcrübəsi ilə dolu olan bu kişi həyatın və istehsalatın, tikintinin və abadlıq işlərinin canlı tarixi, canlı ensiklopediyasıdır.

Həsən müəllimin çoxsaylı söhbətlərinə qulaq assam da, bir dəfə də olsun onda cılızlığa, xırdaçılığa, dedi-qoduya, siyasi oyunbazlığa yer ayırdığının, vaxt itirdiyinin şahidi olmamışam. Həsən müəllim bir şəxsiyyət kimi bütöv adamdır. İşıqlı şəxsiyyətdir. Üzündən-gözündən nur tökülür. Daxili və zahiri gözəlliyinin vəhdəti insanı heyran qoyur. O, həmişə danışanda böyük şəxsiyyətlərdən, böyük işlərdən, ölkə miqyaslı problemlərdən danışa-danışa ona qulaq asanları da böyüdür, kamilləşdirir, ucaldır. Bu kamillik onu boya-başa çatdıran Qaçağan kəndinə, Borçalı mahalına, Azərbaycan dövlətçiliyinə

başucalığı, üzağlığı gətirir. Belə bir ağsaqqalın arxasınca gələn gənclik, onun yetirmələri və tələbələri, şübhəsiz, müstəqil Azərbaycanımızın inkişafı üçün Həsən müəllimdən nümunə götürüb zaman-zaman xalqımıza, millətimizə namusla, qeyrətlə xidmət edəcəklər. Həsən müəllimin həyat təcrübəsi cild-cild kitablara sığışmayan bir kitabdır. O kitab nə qədər çox oxunsa, nə qədər çox varaqlansa gəncliyimiz və gələcəyimiz üçün daha böyük işlər görə bilərik. Gəlin ömrünün 70-ci ilini yaşayan Həsən Nemət oğluna Allahdan cansağlığı, həmişəki kimi qətiyyət və möhkəmlik arzulayaq!

***07.06.2002***

# AÇILMAMIŞ SƏHİFƏLƏRDƏN AÇILMIŞ MƏTLƏBLƏRƏ DOĞRU

Görkəmli alim, pedaqoq, ictimai xadim və millət vəkili Şamil Qurbanovun adı çəkiləndə nədənsə həmişə qeyri-ixtiyari şəkillərdən və canlı xatirələrdən mənə əziz olan, üzünü görmədiyim, sözünün nurunda işıqlandığım Yusif Vəzir Çəmənzəminlini, Əbdürrəhim Bəy Haqverdiyevi, Abdulla Şaiqi, Əlyar Qarabağlını xatırlayıram. Bu xatırlanmanın çox təbii və haqlı əsasları var. El içində bir söz var. Deyirlər "filankəs işıqlı adamdır". Uzun illərdən bəri bələd olduğum Şamil müəllimin təbiətində olan zəriflik, zahiri və daxili nurunun vəhdəti, əsl ziyalılığa xas olan alicənablıq, xeyirxahlıq, səmimiyyət onda gördüyüm işıq onu mənə həmişə sevdirmişdir.

O, bir alim kimi heç vaxt hamının bildiyi asan mövzular dalınca qaçmamış, əksinə, mövzulara qol-qanad vermək, qaranlıqdan işığa çıxarmaq üçün əlindən gələni əsirgəməmişdir. Onun elmi mühitə "Açılmamış səhifələr"lə daxil olması faktı çox ciddi mətləblərdən xəbər verir. Təsadüfi deyil ki, Hüseyn Minasazovun, Rəhim bəy Məlikovun, Həmzət bəy Qəbulovun, Sona xanım Axundovanın, Məmməd Qarayevin ömür-gün yoluna ilk dəfə çıraq tutan, onların taleyinə ilk dəfə işıq yandıran Şamil Qurbanov olmuşdur.

Borçalı ədəbi və elmi mühitinin yetirməsi olan Şamil Qurbanov təbii ki, Tiflis ədəbi mühitinə dərindən bələd olduğu üçün girişdiyi mövzuların hamısını uğurla başa vurmuş, Azərbaycanın elmi mühitinə bir-birindən qiymətli töhfələr vermişdir.

Haqqı tapdanan tarixi şəxsiyyətlərin bir çoxunun böyük mənada haqqını qaytarmaq da Şamil Qurbanova

nəsib olmuşdur. Onun zəhməti sayəsində Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, M.Ə.Rəsulzadə, Kərim Yaycılı kimi ziyalılarımızın öyrənilməmiş tərəfləri oxuculara yenidən təqdim olunmuşdur.

Əlbəttə, bütün mənalı ömrünü elmi yaradıcılığa, gənc nəslin tərbiyəsinə həsr etmiş bir alimə üç-beş kəlməlik ürək sözündə geniş elmi təhlil aparmağa heç bir ehtiyac duymasam da, iki böyük həqiqəti mütləq qeyd etməliyəm. Şamil Qurbanovun bir alim kimi öz xalqı qarşısında ən dəyərli xidməti böyük vətəndaş Ömər Faiq Nemanzadənin elmi-ədəbi və ictimai taleyi ilə bağlıdır. İlk dəfə Ömər Faiqin əsərlərini toplayıb 30 çap vərəqi həcmində çap etdirmək, haqqında ilk dəfə elmi monoqrafiya yazmaq xoşbəxtliyi də Şamil Qurbanovun adı ilə bağlıdır. Xoşbəxtlik sözünü ona görə işlədirəm ki, Ömər Faiq Nemanzadə kimi bir şəxsiyyəti bütöv və əhatəli şəkildə tanımaq və tanıtdırmaq, sevmək və sevdirmək – onun xalqa, vətənə, dilə, dinə, etiqada, torpağa, təhsilə, maarifə, mədəniyyətə, gəncliyə, gələcəyə olan dəlicəsinə sevgi və məhəbbətini xalqa çatdırmaq həm Ömər Faiq üçün, həm də Şamil Qurbanov üçün ən böyük xoşbəxtlikdir. Bugünkü qəzetlər bolluğunda hər şey çatır, bircə şey çatmır, Ömər Faiq yanğısı, Ömər Faiq qeyrəti!

Əgər bugünkü gənc jurnalistlər ordusu Ömər Faiqi arzu olunan səviyyədə yaxından tanısaydılar, səviyyəsiz yazılara, söyüşə, təhqirə qətiyyən yer verməz, xalq üçün daha gərəkli ümumbəşəri mövzulara, əxlaqi dəyərlərə, mənəvi keyfiyyətlərə daha dərindən nüfuz edərdilər. Nəysə… Ömər Faiqin yeri görünür.

Öz xalqı qarşısında xidmətləri böyük Mirzə Cəlildən heç də az olmayan, gözünün nurunu, ürəyinin yağını, ömrünü-gününü xalq üçün kül eləmiş, böyük əzablar görmüş Ömər Faiqi xalq Şamil müəllimin sayəsində bütövlükdə kəşf elədi, sevdi, tanıdı.

Alimin ikinci böyük elmi uğuru qüdrətli ziyalı-vətəndaş Cəmaləddin Əfqani ilə bağlıdır. Sovet dönəmində haqqında söhbət açmaq qəti qadağan olunan, bütün Şərq xalqlarının cəfakeş lideri kimi tanınan, pantürkizmin, panislamizmin banisi hesab olunan Cəmaləddin Əfqani haqqında 1966-cı ildə monoqrafiya yazmaq əsl qeyrət işi, elmi qəhrəmanlıq hadisəsidir.

Şamil müəllim son illərdə bir millət vəkili və ictimai xadim kimi də çox səmərəli fəaliyyət göstərir. Onun mətbuat səhifələrində, radio və televiziyada vətəndaşlıq yanğısı ilə dolu çıxışları hamı tərəfindən məmnuniyyət hissiylə qəbul olunur. Çünki onun dövlətimiz və dövlətçiliyimiz, müstəqilliyimiz və mətbuatımız, problemlərimiz və qayğılarımızla bağlı çıxışları səbrə, təmkinə, ağıla, təcrübəyə, savada, mütaliə və müşahidəyə əsaslanır. Dediyinə həm özü inanır, həm də xalqı inandırır. O, heç vaxt nə çıxışlarında, nə də yazılarında hökm vermir, hikkəylə danışmır, alim nəzakəti, ziyalı mədəniyyəti ilə danışır, hökmü, nəticəni oxucunun və tamaşaçının ixtiyarına buraxır. Ona görə də elmi və ədəbi ictimaiyyətdə, rəsmi dairələrdə, Milli Məclisdə, xalq arasında onun bir vətəndaş-alim, şəxsiyyət-insan kimi xüsusi yeri, çəkisi və mərtəbəsi var.

Sevimli alimimizlə bağlı fikirlərimi sevgi və ehtiram dolu beş yarpaq şeirlə tamamlamaq istəyirəm.

## İŞIĞIN MÜBARƏK

İşığın mübarək Şamil qardaşım,
Adında şam sözü alışıb-yanır.
Səni oxuduqca ucalır başım,
Hər sətrin içindən bir şam boylanır.

İkinci taleni sən bağışladın,
Yatmış imzalara, batmış adlara.
Təzə nəfəs verdi ünvanın, adın,
Yenidən doğulmuş istedadlara.

Sən fikrin sünbülü, mən şeirin dəni,
Yolunda hər şeyə hazıram, hazır.
Haqqında yazdığım beş-üç kəlməni
Qələmim yazmır ki, ürəyim yazır.

Nura bənzədirəm alın tərini,
Önünə dağ çıxdı, qarşına dərə.
Elmin açılmamış səhifələrini,
Çevirdin açılmış səhifələrə!

Yeridin, başına səpələndi qar,
Baxmadın yolların uzaqlığına.
Elmin yollarında ağaran saçlar,
Döndü bir millətin üzağlığına!

İşığın mübarək, Şamil qardaşım,
Adında şam sözü alışıb-yanır.
Səni oxuduqca ucalır başım,
Hər sətrin içindən bir şam boylanır.

***07.01.1999***

## NUR PARÇASI

Heç yatanda yuxuma da gəlməzdi ki, unudulmaz Şamil müəllim haqqında belə tezliklə xatirə tərzində yazı yazmalı olacağam. Sən demə günaşırı, vaxtaşırı görüşlərimiz, söhbətlərimiz, zarafatlarımız, atmacalı sözlərimiz, deyib-gülməyimiz başımızın altına yastıq qoyur, bizi aldadırmış. Sən demə astadan-astadan danışan, şirin-şirin deyib-gülən Şamil müəllim hər gün içəridən şam kimi əriyə-əriyə, tüstülənə-tüstülənə ölümə, ayrılığa, sona və sonsuzluğa yaxınlaşırmış.

Şamil müəllimin ictimai-siyasi, bədii-elmi fəaliyyətinin son on ili mənim gözlərimin qabağında keçib. Bu on il mənə imkan verib ki, bir şəxsiyyət və ziyalı kimi Şamil müəllimi tam dərinliyi və bütövlüyü ilə dərk edim, tanıyım, qiymətləndirim.

Birinci növbədə bütün böyük ziyalılara xas olan bir keyfiyyət onda da çox güclü idi. O, sözün həqiqi mənasında həqiqətpərəst adam idi. On ilə yaxın parlament fəaliyyətində o, demək olar ki, bütün çıxışlarında həqiqəti müdafiə etməkdən yorulmadı, bezmədi, çəkinmədi. Nəyi dedisə elmin, mədəniyyətin, təhsilin xeyrinə, sözün böyük mənasında xalqın xeyrinə dedi. Dediyi həqiqətlər üstündə xəstəxanalara da düşdü, ürəyini də ağrıtdı, ancaq heç vaxt kiməsə xoş gəlmək üçün həqiqətin əleyhinə getmədi.

Şamil müəllimdə tətqiqatçılıq və araşdırıcılıq qabiliyyəti fitri istedad səviyyəsində idi. Demək olar ki, o, bütün kitablarını əl xətti ilə, avtoqrafla mənə bağışlamışdı. Ən sonuncu bağışladığı kitabın avtoqrafının tarixinə baxıram: 23.12.2003. “Atatürk və Nərimanov”. Gözlərimə inana bilmirəm. Üstündən heç iki ay da

keçməmiş artıq onun haqqında keçmiş zamanda danışmaq məndən ötrü nə qədər çətindir.

O, bir alim kimi öz ömrünü xalqın tərcümeyi-halını yaradan böyük şəxsiyyətlərə həsr etdi. M.F.Axundovun, H.B.Zərdabinin, Ömər Faiq Nemanzadənin, Cəmaləddin Əfqaninin, Məmməd Əmin Rəsulzadənin, Sabirin, Mirzə Cəlilin, Rəhim bəy Məlikovun, Hüseyn Minasazovun, Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağayevin, Kərim Yaycılının böyük ürəyi zaman-zaman Şamil Qurbanovun sinəsində döyündü.

Belə olmasaydı, 70 illik bir alim, müəllim və ictimai xadim ömrü 20-dən çox kitaba, yüzlərlə məqaləyə çevrilib xalqın yaddaş xəzinəsini zənginləşdirə, cilalaya bilməzdi. Təkcə Ömər Faiq Nemanzadə kimi bir fikir nəhəngini, yazıçını, publisisti, böyük vətəndaşı Azərbaycan xalqına təqdim eləmək ən böyük vətəndaşlıq deməkdir. Çünki Ömər Faiq elə böyük bir vətəndaşdır ki, onu ancaq M.F.Axundovla, M.Cəlillə, Sabirlə müqayisə eləmək olar.

Son illər bütün fəaliyyətini və yaradıcılıq eşqini xalqımızın böyük oğlu N.Nərimanova həsr etmişdi. Gecə-gündüz N.Nərimanovun faciəli taleyi onu bir vətəndaş kimi düşündürür, rahat buraxmırdı. Bu narahatlığın nəticəsidir ki, Nərimanovu bütün çirkablardan təmizləyən və qoruyan bir gözəl kitab Nərimanşünaslığa ən qiymətli hədiyyə kimi təqdim olundu.

Görkəmli ictimai xadim Həsən Həsənovun Şamil müəllimin kitabına vətəndaşlıq yanğısı ilə dolu giriş sözü yazması böyük həqiqətlərdən xəbər verir. Həsən müəllimin Şamil Qurbanovun vətəndaşlıq qeyrətindən heyrətə gələrək Nərimanovla bağlı yazdığı ön sözdə təkcə Nərimanovun dahiliyini yox, həm də Şamil müəllimin sözün həqiqi mənasında böyük əzabkeş ziyalı olması fikrini önə çəkməsi tamamilə təbiidir. Şamil müəllim rus ədəbiyyatını, onun korifeylərini sevən və

sevdirən, dilimizə tərcümə edən, bu böyük ədəbiyyatın tədrisi və təbliğində, nəşrində və yayılmasında gənc nəslə, tələbələrə çatdırılmasında müstəsna rolu olan böyük ziyalılarımızdan biri idi. Tolstoy, Turgenev, Dostoyevski, Nekrasov, Çexov, Puşkin, Lermontov, Qoqol, Qorki, Qriboyedov kimi böyük şəxsiyyətlər Şamil Qurbanovun alim kimi qələmində, müəllim kimi nəfəsində pərvazlandı, şaxələndi, bütövlükdə Azərbaycan xalqının milli-mənəvi sərvətinə çevrildi.

Şamil müəllimin kitablarına, məqalələrinə, tədqiqatlarına dərindən fikir versək, görərik ki, o, nədən yazır yazsın, kimdən söhbət açır açsın, hökmən o yazıların kökündə ciddi mənəvi-sosial, tarixi-psixoloji problemlər, məqamlar dayanır. İstiqlalımız, müstəqilliyimiz, dövlətimiz, dövlətçiliyimiz dilimiz, təhsilimiz, mədəniyyətimiz onun bütün yaradıcılığından qırmızı xətt kimi keçir.

Zahiri görkəmi nur heykəlinə bənzəyən, iç dünyası elm işığı ilə dolu olan böyük ziyalımız, dostumuz, həmkarımız, Şamil müəllim!

Bütün varlığımla inanıram ki, sizin adınız elmimiz və mədəniyyətimiz tarixində tədqiq etdiyiniz böyük şəxsiyyətlərlə birlikdə həmişə hörmətlə anılacaq və əbədi yaşayacaq. Ruhunuz şad olsun! Allah Sizə rəhmət eləsin! Amin!

***21.01.2004***

## YERİYƏN TORPAQ

*Qulu Xəlilovun ruhuna bağışlayıram*

Çoxsaylı ziyalılar ordusu içində sayı az, sanbalı çox olan, cəmiyyətin keçid mərhələlərində dağdan qopan qaya kimi həmişə yeri görünən qətiyyətli kişilər görmüşəm. Belə kişi ziyalılardan biri – yazıçı, publisist, tənqidçi, müəllim və ictimai xadim Qulu Xəlilov idi. Qulu müəllimi xatırlaya-xatırlaya xatirə ifadəsi haqqında fikirləşirəm. Xatirəyə dönən ömrü hamı yaşaya bilirmi, torpaqda izi, həyatda sözü, dünyada yadigarı qalırmı? Yaratdıqları yaddaşlara köçürmü? Onu tanıyanların, dost və tanışların, müəllim və tələbələrin qəlbində xatirəlik bir şey varmı? "Var!" – deyə içərimdən güclü bir səs gəldi. "Qulu Xəlilovun ömür yolunu yaxşı vərəqləyə bilsən, verdiyin sualların cavabını onda taparsan", – deyirdi o səs. Mən də elə bu səsdəncə yapışıb çıxdım xatirələr yoluna.

1968-1972-ci illər arasında Azərbaycan Dövlət Universitetində keçirdiyim unudulmaz tələbəlik dövründə tanış olduğum, doğmalaşdığım əziz adamlar haqqında düşünürəm. Qulu müəllimin adı tələbələrin dilinin əzbəri idi. İndiki kimi yadımdadı. Bəzi fanat tələbələr Qulu müəllimin şəxsiyyətinə o qədər vurulmuşdular ki, onun yerişini və danışığını, səsinin ahəngini yamsılamaqdan belə ləzzət alırdılar. Şübhəsiz, Qulu müəllimə münasibətdə belə tələbələrdən biri də mən idim. Onun sərt baxışı, ləngərli yerişi, gur səsi, ağır və təmkinli addımları, aydın və səlis nitqi, ötkəm danışığı, sənət və siyasət məsələlərinə özünəməxsus ciddi və kəskin müdaxiləsi və münasibəti, təbiətdən, torpaqdan, xalqdan gələn, geniş

mütaliə ilə daha da zənginləşən poetik və fəlsəfi təfəkkürü, sözün böyük mənasında, təbiətin özü qədər təbiiliyi və saflığı, kişi qətiyyəti, ciddi ədəbi mübahisələrdə qorxmazlığı, sağlam əqidəsi, böyük istedadı onu bizim gözümüzdə yeriyən torpağa, nərə çəkə-çəkə dağlardan düzlərə doğru baş alıb gedən dağ çayına döndərmişdi. Biz Qulu müəllimi sevirdik. Qulu müəllim şəxsən mənə dərs deməmişdi. Ancaq onunla poeziya gecələrində, kitab müzakirələrində, kitabxanalarda, disputlarda, yubiley tədbirlərində, müxtəlif rayonlara səfərlərdə, elin, obanın xeyir-şər işlərində tez-tez görüşərdik. Bu görüşlərin hər biri mənim üçün toy-bayrama çevrilərdi. Bir-birimizə ata-oğul münasibəti bəsləyərdik. Arada yaş fərqimiz çox olsa da, bir-birimizi çox gözəl başa düşürdük. Söhbətimiz çox gözəl tuturdu. İkimiz də şəhərə kənddən, çaydan, çeşmədən süzülüb gəlmişdik. Qulu müəllim torpağı dəlicəsinə sevirdi. Onun torpaqla, təbiətlə bağlı coşa-coşa danışdığı fikirləri yazıya alan olsaydı, torpaq elmi haqqında torpaqşünasların heç bir əsərindən geri qalmayan daha canlı, daha təravətli gözəl bir kitab alınardı. Yağışdan, qardan, borandan, istidən, bürküdən, ilxıdan, sürüdən, naxırdan, eldən, elatdan, köçdən, dəyədən, yaylaqdan, arandan, qayadan, mamırdan, şumdan, əkin-biçindən o qədər canlı və diri danışardı ki, onun hər söhbəti təbiətin bir mənzərəsinə çevrilərdi. Qulu müəllim maraqlı fikirləri ilə gözümüzdə alim kimi gözəlləşsə də, danışanda alimdən daha çox səngərdə dayanan döyüşçüyə, alovlu natiqə, yenilməz qəhrəmana dönürdü. Dolu bədəni, tökmə boyu, qara sifəti, qıvrım qara saçları, iti baxışları onu qayadan yonulmuş heykələ bənzədirdi. Yuxarıda bir döyüşçü sözü işlətdim. Bu söz Qulu müəllimə daha çox yaraşırdı. O, bütün ömrünü döyüşlərdə, mübahisələrdə, haqqın, həqiqətin üzə çıxması naminə mübarizələrdə keçirdi. Şərə, böhtana, rüşvətxorluğa, haqsızlığa, süründürmə-

çiliyə, tənbəlliyə, əsarətə, biganəliyə, avaralığa amansız düşmən idi Qulu müəllim. Haqsızlıqlara dözə bilmirdi. Yana-yana, qovrula-qovrula, qıvrıla-qıvrıla danışırdı. O, carçı idi. Böyük həqiqətin carçısı. Qulu müəllimdəki vətəndaşlıq yanğısı az adamda yox, çox adamda olsaydı, bir qarış torpaq itirməzdik. O, Zəngəzurdan, Göyçədən, Qaraqoyunludan, Qarabağdan danışanda korun-korun yanan ocaq kimi tüstülənirdi.

Qulu müəllimlə bağlı söhbət açarkən mənimçün artıq tarixə çevrilmiş bir hadisəni xatırlamasam, nəyisə itirmiş olaram. Gənc bir şair kimi təzə-təzə ədəbi tənqidin diqqətini çəkirdim. Haqqımda harada bir cümləyə rast gələndə qanadlanıb uçmağım gəlirdi. Cəmisi ikicə kitabım, daha doğrusu, kitabçam nəşr olunmuşdu.

Günlərin bir günü səhər-səhər tələbə yoldaşlarım mənə "Azərbaycan gəncləri" qəzeti gətirdilər. Nə görsəm yaxşıdır? Qəzetin bütöv bir səhifəsi mənim şeirlərimin təhlilinə həsr olunub. Başlıqda çox iri hərflərlə yazılmış "Zəlimxan Yaquba açıq məktub" sərlövhəsini görəndə sevindiyimdən uçmaq üçün bircə qanadım çatışmırdı. Ədəbiyyatın təəssübünü çəkən, ədəbi nöqsanları, qüsurları heç kəsə güzəştə getməyən məşhur bir tənqidçi, ədəbiyyatşünas alim gənc bir şair haqqında güclü bir məqalə yazmışdı. Tənqidi qərəzsiz və obyektiv, tələbkar və ciddi, tərifi yerində, qədərində. Mübaliğəsiz deyə bilərəm ki, bu məqalə ədəbi ictimaiyyətdə, oxucular arasında elə bir əks-səda verdi ki, görəndə gözlərimə, eşidəndə qulaqlarıma inanmadım. İnsafən, tənqid çox sərt idi. Bu məqalədən böyük yazıçımız Süleyman Rəhimovun "döyülməyən çəltikdən düyü çıxmaz" ifadəsinin ətri gəlirdi. Bu yazı mənim ədəbi taleyimdə yeni bir mərhələnin başlanğıcı idi.

Qulu Xəlilov yazanda da ürəkdən yazırdı, danışanda da. Qulu müəllim danışanda onun dili danışmırdı, ürəyi danışırdı. Damarda qanı, üzündə cizgiləri, havada yum-

ruqları, torpaqda addımları danışırdı. Ona görə də bu zəhmətkeş və əzabkeş insan dəfələrlə ağır cərrahiyyə əməliyyatı keçirsə də, bircə gün qələmi əlindən yerə qoymur, "Yaşamaq istəyirəm", – deyib, zəngin və çoxcəhətli yaradıcılığa, ölümə və xəstəliyə meydan oxuyurdu. Cəmiyyətin və təbiətin heç bir problemi onun diqqətindən kənarda qalmırdı. Bütün nöqsanlara və əyriliklərə qılınc kimi sıyrılıb vaxtında öz kəskin münasibətini bildirirdi. Gündəlik Süleyman Rəhimovdan, Aşıq Şəmşirdən, Əli Vəliyevdən, Kəlbəcərdən, Dəlidağdan söz açardı. Xüsusilə Süleyman Rəhimovun zəngin və möhtəşəm yaradıcılığından, kişilik xüsusiyyətlərindən ilhamla danışardı. Səməd Vurğunun, Mehdi Hüseynin pərvanəsi idi. Mehdi Hüseynin şəxsiyyətindəki mərdlik və sərtlik, böyük ədəbiyyat uğrundakı fanatik cəfakeşliyi Qulu müəllimin səsində, nəfəsində yeni bir dünyaya, ayrı bir aləmə çevrilərdi. Mənim şəxsi kitabxanamda Qulu müəllimin kitabları var. Vaxtilə oxuduğum bu kitabları hər dəfə yenidən vərəqləyəndə hər sətirdən, səhifədən onun səsi gəlir qulaqlarıma. "Deyək ki", "Deyim ki", "Necə deyərlər", "Heylə dəyil" kimi çox işlətdiyi ifadələr yenidən canlanır yaddaşımda. Bütün məqalələrin adından, cümlələrin quruluşundan mənə sarı, bizə sarı boylanır Qulu Xəlilov.

Məni sarsıdan bir anı da yaddan çıxara bilmirəm. Dedilər, vəziyyəti ağırdı. "Leçkomissiya" adlanan xəstəxanaya baş çəkib ziyarət etmək istədim. İçəri girəndə nə görsəm yaxşıdı, dəhlizdə iki qüdrətli şəxsiyyət, iki kəsərli qılınc, iki coşqun dağ çayı, iki havalı zirvə qartalı – Xəlil Rza Ulutürk və Qulu Xəlilov divanın üstündə yanaşı əyləşib, çox solğun görkəmdə, qırıq-qırıq, astadan-astadan söhbət edirdilər. Zili bəmə, tərəqqini tənəzzülə, nərəni sızıltıya, şaqraq gülüşü ah-naləyə, gəncliyi qocalığa döndərən tale iki şir oğlu şiri quzuya çevirməyə can atırdı. Harayı-hayqırtısı dağları yerindən oynatmağa

qadir kişilərin indi ayağa durmağı belə çətin bir işə çevrilmişdi. Qollarımı açıb ikisini də bağrıma basdım. Təxminən beş dəqiqəlik sükut çökdü aramıza. Nə onlar danışdı, nə də mən dillənə bildim. Qəhərdən boğazım tutulmuşdu. Məni vəziyyətdən yenə rəhmətlik Xəlil Rza xilas elədi: "Kövrəlmə igid, hər şeyə hazır olmaq lazımdır", – deyən Xəlil Rza sükuta son qoyub söhbətə başladı. Şəhərimizdəki son hadisələrdən, ədəbi-siyasi yeniliklərdən, Qarabağla bağlı məsələlərdən danışdıq, dərdləşdik. İllərlə gördüyüm, duyduğum, eşitdiyim insanları elə bil yenidən kəşf edir, yenidən dərk edirdim. Can nə qədər üzülsə də, ruhun diriliyi, həyat eşqi, millət sevgisi, torpaq məhəbbəti onları üzülməyə qoymurdu. Hətta ara-sıra zarafatlarından da qalmırdılar. Onların heç birini qoruya bilmədik. Onların hər ikisini torpaq dərdi, Qarabağ faciəsi şəhid elədi.

Qulu müəllimin bir "Qaranər" hekayəsi var. Əsərdə Qaranərin ölümü təsvir olunur. Elə Qulu müəllimin özü də təsvir elədiyi Qaranər kimi həyatdan getdi. Ancaq bu ölüm olmadı, ölümsüzlük oldu.

Bəli! Qulu Xəlilov ədəbiyyatın səngərində döyüşən əsgər idi. Ədəbiyyat onun suyu və havası, işığı və günəşi idi. Azərbaycanın hər yerində Qulu Xəlilovun istəkli və istedadlı tələbələri var. Qulu müəllim onların nəfəsində, fəaliyyətində, yaradıcılığında, ən nəhayət, xoş xatirələrində, kövrək duyğularında yaşayır. Qulu müəllim onların kəskin çıxışlarında, həyata, cəmiyyətə obyektiv münasibətlərində yaşayır.

Dostum və müəllimim, böyük alimimiz Qulu Xəlilovun xatirəsi qarşısında baş əyir və yazdığım bu kövrək sətirləri onun ruhuna bağışlayıram. Allah rəhmət eləsin. Amin!

***"Şərq" qəzeti,***
***10.10.2000***

## NƏ GÖZƏL YARADIB...

Camal müəllim kimi dövrünün, zamanının nadirdən də nadir olan, bəlkə də tək olan, şəxsi keyfiyyətləri ilə çox yuxarıda, çox yüksəkdə dayanan, ilahi təmizlik, halallıq, paklıq mücəssəməsi olan, az qala bir Peyğəmbər əxlaqına sahib olan bir şəxsiyyət haqqında danışmaq mənim üçün çox böyük şərəfdi, amma çox da böyük çətinlikdi. Bəlkə də mən həyatımda bu qədər çətin və məsuliyyətli bir mövzu qarşısında dayanmamışam. Şübhəsiz, mən Zəlimxan Yaqubun gələcəkdə Camal müəllimlə bağlı çox mötəbər yazıları olacaq. Buna heç kəsin şübhəsi ola bilməz.

Amma bu gün heç bilmirəm hardan başlayım, harda qurtarım. Mənə elə gəlir ki, bu məqamda şirin xatirələr adamın dadına daha çox çatır. İlini xatırlamıram, tələbə idim. Aktyor evində Aşıq Şəmşirin yubileyi keçirilirdi. O vaxtlar ən mötəbər tədbirlər orada keçirilərdi. Əli Vəliyev, Süleyman Rəhimov, Osman Sarıvəlli, Balaş Azəroğlu və digərləri məclisdə iştirak edirdilər. Rəhmətlik Osman Sarıvəllinin qayğısı ilə o məclisdə çıxış edənlərin siyahısına mən də daxil edilmişdim. Söz mənə verildi. Aşıq Şəmşirlə bağlı səmimi ürək sözlərimi dedim. Çıxışım çox böyük heyrət və alqışlarla qarşılandı. Tədbirdən sonra çölə çıxanda demək olar ki, məni təbrik edənlərin əlindən ayaq altda itmişdim. Bu qələbəlikdə kimsə mənə əl boyda bir kağız parçası verdi. Orada yazılmışdı: "Əzizim Zəlimxan, sabah səni Xarici Dillər İnstitutunda fəlsəfə kafedrasında gözləyirəm. Camal Mustafayev".

Ertəsi gün həmin ünvana getdim. Və çox maraqlıdır ki, mən fəlsəfə kafedrasına daxil olarkən gördüm ki,

ağsaçlı kişi ayağa qalxanda otaqdakıların hamısı ayağa durdu. Və bu nurani insan onlara dedi ki, bax gördünüzmü, ürəyiaçıqdır, özü də gəldi. Sən demə mən onun dünənki heyrətini, sevincini kafedranın üzvləri ilə bölüşdüyü məqamda gəlib çıxmışam. O, məni qucaqlayıb bağrına basdı və dedi:

– Ay eloğlu, sən dünən nə qiyamət elədin! Bu gündən sən mənim balamsan, övladımsan və mənim nəzarətimdə olacaqsan. Mən də Qarayazıdanam – Camal Mustafayev, bu kafedrada işləyirəm.

Ondan ayrılandan sonra müxtəlif adamlarla görüşlərimdə öyrəndim ki, məni görüşə dəvət edən bu adam elmi və ədəbi ictimaiyyət arasında çox böyük nüfuza, hörmətə, ehtirama, əfsanəvi sevgiyə malik olan bir şəxsiyyətdir. Moskva Dövlət Universitetində təhsil alıb, alim kimi yüksək dəyərləndirilir, məqalələri xarici elmi jurnallarda nəşr olunub.

Onun Qarayazıdan olması, saza həddindən çox bağlılığı, Borçalı aşıqlarına dərindən bələdliyi, Aşıq Ələsgər haqqında dəyərli yazılar yazması, Nizami Gəncəvi haqqında qiymətli tədqiqat işləri məni ona hər gün daha möhkəm tellərlə bağlayırdı. Müxtəlif tədbirlərdə tez-tez görüşərdik. Həmişə də məni qorumağa çalışardı. Tanışlığımız beləcə başladı...

Aylar, illər keçdikcə mənim hər uğuruma qəlbən sevindi, qürur hissi keçirdi, fəxr elədi. Mənə "Məclislər fatehi" deyirdi. Yeri gəlmişkən bu ifadəni bu gün də işlədir.

Mən həyatda çox adamlardan bəhrələnmişəm. Böyük alimlər, qiymətli şəxsiyyətlər, yazıçılar, şairlər görmüşəm. Hər birindən də müəyyən lazımi keyfiyyətlər götürmüşəm. Bu gün mənə sual versələr ki, bəs Camal müəllimdən nə götürmüsən, deyərdim ki, mənəvi saflıq, mənəvi paklıq, təmizlik, mütaliəyə həddindən çox bağlılıq, təfəkkür genişliyi, fikir meydanının genişliyini

götürmüşəm. Camal müəllimlə danışanda adam istər-istəməz özünü yığışdırır, elə bil Hegellə, Sokratla, Ərəstunla, Kantla danışırsan. Fəlsəfə dünyasının hələ sağlığında ikən klassikləşən nümayəndələrinin hamısı Camal müəllimin söhbətləri ilə mənim canıma, iliyimə yeriyib. Camal müəllimin həm aşıq poeziyasını, həm klassik ədəbiyyatı, həm də fəlsəfə aləminin böyük şəxsiyyətlərini həddindən artıq gözəl bilməsi, olduqca çox mütaliə eləməsi sanki mənim bəxtimdən idi. Elə bil ki, Camal müəllim münbit qara torpaq, mən isə sağlam toxum idim. Vaxtında o torpağa düşdüm və göyərdim. Camal müəllim vaxtında mənim suyumu da verdi, odumu da verdi, işığımı da və məni bəslədi, böyütdü. Hətta zaman-zaman mənə maddi dəstək də oldu. Bir də görürdün ki, deyir, ay oğul, gedək maaşımı alaq. Dəfələrlə də aldığının hamısını mənim cibimə basırdı. Deyirdim, Camal müəllim, bu mənə çoxdur. Cavab verirdi ki, mən kasıblığı görmüşəm, sən görmə.

O məni həm mənəvi, həm də maddi cəhətdən həmişə qoruyaraq ürəyibütöv saxladı. Çətin, anlaşılmaz, qarışıq, hərc-mərcliklərlə, paxıllıqlarla, rəzilliklərlə dolu mühitdə Camal müəllim bir Zəlimxan Yaqub qoruyub saxladı.

Camal müəllimdə çox yüksək səviyyədə ədəb-ərkan, əxlaq var. Onun haqqında danışmaq mənim üçün birinci növbədə Borçalı mühitindən, Borçalı torpağının yetirdiyi böyük şəxsiyyətlərdən, böyük aşıqlardan, böyük ustadlardan, böyük alimlərdən danışmaqdır.

Camal müəllim Osman Sarıvəlli ilə dost idi. Evlərindəki hər məclisə məni də dəvət edərdi. Aşıq Kamandar nə vaxt Bakıya gəlirdisə Camal müəllimin qonağı olardı.

Bu vaxta qədər gördüyüm şəxsiyyətlərin içərisində məni ən çox təsirləndirən Camal müəllim olub. Mən onu həddindən artıq sevmişəm, o da məni. Bu iki sevgi yan-yana, üz-üzə, döş-döşə baş-başa dayanıb böyük zirvələr

yaradıb. Bu zirvələr Camal Mustafayev və Zəlimxan Yaqub zirvələridir.

İndiyədək kimi Camal müəllimlə söhbət edən görmüşəmsə, hamının onun söhbətinə heyran olduğunun şahidi olmuşam. Çünki Camal müəllim heç vaxt əhvalat danışmır, mahiyyət danışır, fəlsəfi qayəni çatdırır, məruzə eləmir, tezisləri çatdırır, başdan-başa Qurandan danışmır, ayəni çatdırır. Yəni bu adamda mütaliə mədəniyyəti o qədər yüksəkdir ki, birinci cümləsi ilə sonuncu cümləsi dəmir məntiqlə elə möhkəm bağlanıb ki, onu heç traktorla da ayırmaq olmaz.

Camal müəllim həddindən çox elcanlı, insancanlı, ailəcanlı, mahalcanlı bir adamdır. Hətta ömrünün bu ixtiyar vaxtında Qarayazıda elə bir toy və yas mərasimi olmaz ki, bütün ömrü boyu ancaq pəhriz yeməkləri yeyən Camal müəllim orada iştirak etməsin. Camal müəllim xeyrimizin, şərimizin yaraşığıdı. Mənim övladlarımın toyunda bir ağsaqqal kimi başda olub, öz xeyir-duasını verib, onlar da xoşbəxt olub. Camal müəllimin xeyir-duasını alan ailələrdə bərəkət, halallıq, sevgi, xoşbəxtlik aşıb-daşır. İnanın ki, Camal müəllimlə bağlı saatlarla, günlərlə danışmaqla qurtarası deyil. Mən Camal müəllimin övladlarından biri kimi onun evində böyüdüm, onun mənəvi oğlu oldum. O mənim mənəvi atamdır. Camal müəllim mənə həyat vermiş, nəfəs vermiş adamdır. Mənim çətin dövrlərimdə elə bil ki, Xızır İlyas kimi böyrümdən çıxdı.

Onunla saysız görüşlərimiz olub. Dəfələrlə mən onun evində olmuşam, o bizim evimizdə məclislərin başında əyləşib. Heç vaxt da görməmişəm ki, Camal müəllim məişət səviyyəsində söhbətlər eləsin, şəxsi problemlərindən danışsın. Hər söhbətində o bizi göylərə qaldırıb. Nə qədər gərgin anlarımız olsa da, onunla söhbətdən sonra bu gərginlik, sıxıntı bir andaca aradan qalxıb. Onunla söhbətdən sonra elə bil ki, adamın içindən bütün

kin-küdurəti, məkri çıxarıb yerinə mələk nuru doldururlar. Adam ipəkləşir, yumşalır. Mənim bu gün Zəlimxan olmağımda, bu şöhrətin, bu meydanın qazanılmasında Camal müəllimin çox böyük payı var. Amma xoşbəxtlik orasındadır ki, bu, təkcə Zəlimxan Yaqubla kifayətlənmir. Coğrafi ərazisindən asılı olmayaraq Azərbaycanın bütün bölgələrində, Bakının özündə, xaricdə Camal müəllimin yetirmələri ona sitayiş edir. Çünki onun yetirmələri elmdən qabaq ondan insanlığı, ədəb-ərkanı öyrəniblər. Camal müəllim mənim üçün ustadnamədir, onu görəndə ustad kəlamları yadıma düşür. Camal müəllim mənim üçün vücudnamədir, hər dəfə onu görəndə saçından dırnağına qədər seyr edirəm, baxıram. Camal müəllim mənim üçün halallıq, nəfsi toxluq mücəssəməsidir. Allah, bu adam nə qədər gözütoxdur, insan nə qədər gözütox olar, nə qədər dünya nemətlərinin yanından saymazyana keçər. Bunlar ondan irəli gəlir ki, Camal müəllim həm dünyanın böyük filosoflarını, həm də dinlərimizi, xüsusən İslam dinini, Məhəmməd Peyğəmbərin əxlaqi dünyasını dərindən mənimsəyən çox böyük bir şəxsiyyətdir. Təsadüfi deyil ki, ona hələ gənclik illərimdə yazdığım şeirin son bəndi belədir:

Deyir müqəddəsdir eşidən, bilən,
Qoy öpsün hər çiçək, hər yarpaq səni.
Elinə, obana qurban olum mən,
Nə lətif yaradıb yaradan səni.

Camal müəllim cəhənnəmin içində cənnət yaradan, gecəni gündüzə, nifrəti məhəbbətə, yoxluğu varlığa çevirən böyük bir qüdrət sahibidir. Mən bu böyüklük qarşısında ikiqat əyilirəm. Səcdə edirəm bu böyüklüyə. Heyranlığımı, heyrətimi bildirirəm. “Heyrət ey büt!”, – deyən Füzulinin fikrini davam etdirərək deyirəm ki, heyrət, ey Camal müəllimin sadəliyi, heyrət, ey Camal müəllimin halallığı. Necə olub ki, başdan-başa haramla

tutaşan bu cəmiyyətdə sən halal qalıbsan. Necə olub ki, başdan-başa müxtəlif çirkablarla dolu bu cəmiyyətdə bir nöqtə boyda bir çirkab sənin üstünə yapışmadı. Nə təmiz yarandın, nə duru yaşadın, nə gözəl ömür yaşadın. Hamımız fəxr edirik ki, bizim bir Camal Mustafayevimiz var. Yaşından, başından, böyük-kiçikliyindən, vəzifə mövqeyindən, vəzifə mərtəbəsindən asılı olmayaraq kimin bir münasib tədbiri olanda fəxr edir ki, Camal müəllim onun ailəsindədir.

Camal müəllim istedadlı gəncliklə, bütün istedadlı adamlarla zaman-zaman fəxr edib. Onun varlığında bir milliqram xəbislik, paxıllıq deyilən heç nə yoxdur. Onda nə varsa halallıqdır, nə varsa təmizlikdir, nə varsa zəhmətdir, nə varsa mütaliədir, kitabdır. Bu gün bütün şairlərin, ədəbi mühitin sevdiyi bir Camal müəllim var. O nə şair deyil, nə yazıçı. Amma şair haqqında danışanda, yazıçı haqqında danışanda hamı qürur hissi keçirir ki, mənim haqqımda bu sözü Camal müəllim deyib. Onun sözlərini zaman-zaman başının üstündə bayraq eləyir. Görün mən nə qədər xoşbəxt adamam ki, sayca üçüncü olan "Od aldığım ocaqlar" adlı kitabıma "Elə güvənən ucalar" adlı ön sözü Camal Mustafayev yazıb. Və mən də birinci Allahın, sonra da Camal müəllimin və onun kimi xeyirxah ziyalıların qayğısınnan elə güvəndim, ucaldım. Çünki bu halallığa, Camal müəllimin xeyirduasına söykəndim.

Camal müəllimin böyüklüyü bizim böyüklüyümüzdür. Camal müəllimin varlığı bizim varlığımızdır. Camal müəllimin elmi, fəlsəfəsi bizim elmimiz, fəlsəfəmizdir.

***2008, iyul***

## DAĞLA BULAQ KİMİ

Hər dəfə ağır addımlarla Azərbaycan nəşriyyatının 7-ci mərtəbəsinə qalxanda elə bilirəm göylərin yeddinci qatına qalxıram. O mərtəbədə bir otaq var. Bu otağın qapıları üzümə taybatay açılanda elə bil ki, qapı da, pəncərə də, döşəmə də, tavan da, beton divarlar da aradan qalxır, riyazi ölçülər sevginin, məhəbbətin, şirin ünsiyyətin nuru içərisində əriyib yox olur. Riyazi ölçülərin yerinə bir ölçüsüzlük, genişlik gəlir, başımın üstündəki tavan göylər qədər yüksəlir, sağımda-solumda olan divarlar isti insan nəfəsində əriyib yox olur, dar bir otaq böyük və rəngarəng təbiətin özünə çevrilir. Bir darlığa min genişlik verən Allah ən böyük genişliyi insan ürəyinə, insan qəlbinə verib. Belə ürəklərdən birini də ulu Tanrı 20 ildən çoxdur ki, tanıdığım, sevdiyim, əzizlədiyim, ağsaqqal kimi nurunda işıqlandığım əziz dostum, çoxlarının dostu, böyük ziyalımız Teymur Əhmədova verib. Teymur müəllimin baş redaktor kimi əyləşdiyi otaq yaşı 75-i haqlayan, ancaq ruhu həmişə qaynar və təravətli olan Teymur müəllimin öz ürəyi boydadır. O ürəkdə, o otaqda nələr var, İlahi! Orda Mirzə Cəlil yanğısı da var, Nəriman Nərimanov ucalığı da! Nəsimi əqidəsi də var, Füzuli atəşi də. Səməd Vurğun böyüklüyü də var, Müşfiq çılğınlığı da. Hüseyn Arif həzinliyi də var, Xəlil Rza hayqırtısı da. Üzeyir bəy peyğəmbərliyi də var, M.İbrahimov ziyalılığı da! O ürəkdə, o otaqda Zəngəzur və Zəngibasar da var, Dərələyəz və Göyçə də, Qaraqoyunlu və Borçalı da var, Ağbaba və Qars da, Kərkük və Təbriz də var, Kipr və Dərbənd də! Bütöv və böyük keçmiş Azərbaycan da var, bugünkü yaralanmış və paralanmış Müstəqil Azərbaycan da! Millətimizin və

dövlətimizin taleyinə ayna tutan cild-cild lüğətlər, ensiklopediyalar, seçilmiş əsərlər də var, saralmış köhnə məktublar, təzə dəvətnamələr də. "Respublika" qəzeti də var, Azərbaycan dünyası da. Dost məhəbbəti də var, qardaş sevgisi də! Alim təfəkkürü də var, salnaməçi səliqəsi də. Bəli, bu otaq Teymur müəllimin otağı, bu ürək Teymur müəllimin ürəyidir. Hər dəfə mən ruhu həmişə təzə bu köhnə kişini ziyarət edəndə etika naminə görüşüb, sadəcə və rəsmi qaydada salamlaşmırıq. Ata-oğul kimi, ustad-şagird kimi, müəllim-tələbə kimi, dağla bulaq kimi, közlə ocaq kimi, yüz ilin həsrətlisi kimi bir-birimizi bağrımıza basırıq. "Gözəl oğlan, necəsən?" sualına "Yaxşıyam, eşq olsun Ağsaqqala!" cavabını hayqırıram!

Teymur müəllim canlı bir tarix, çoxcildli bir ensiklopediya, oxunub qurtarması mümkün olmayan bir salnamədir. 75 illik ömürdə bu kişi kimlərdən söz açmadı, nələrdən danışmadı, hansı mətləblərə baş vurmadı. "Sovet Ermənistanı"ndan "Respublika"ya qədər gələn yolda nə əziyyətlər, nə çətinliklər görmədi. Teymur müəllimin alim və nasir, ziyalı və ağsaqqal ömrü əl qabarına, alın tərinə, yuxusuz gecələrə, fasiləsiz zəhmətə çevrildi, gilə-gilə əridi bizi işıqlandırmaq üçün, damar-damar alışdı bizi alovlandırmaq üçün, xalqın mənəvi dəyərlərini yaşatmaq üçün köz-köz qovruldu, için-için yandı. Teymur müəllim heç nə yazmasaydı, təkcə Nərimanovla bağlı böyük qeyrət və ağır zəhmət hesabına yaratdığı kitablara, əsərlərə, məqalələrə görə ona qürurla, çəkinmədən "Böyük vətəndaş" fəxri adı vermək olardı. İstər-istəməz sual meydana çıxır: Azərbaycan xalqının dahilər və böyük şəxsiyyətlər bolluğunda nə üçün o, öz mənalı ömrünü daha çox Nəriman Nərimanova həsr edib. Cavab çox aydın və sadədir: Ona görə ki, Nərimanovla Teymur Əhmədovun tərcümeyi-halında çox maraqlı bir tale oxşarlığı var. Nərimanov da bugünkü Azərbaycandan kənarda doğulub, Teymur Əhmədov da!

Nərimanov da başqa millətlərdən dirsək və təzyiq görüb, Teymur Əhmədov da. Nərimanov da qaçqınlığın, köçkünlüyün dadını görüb, Teymur Əhmədov da. Nərimanovun da torpağı ruslar və ermənilər tərəfindən alınıb, Teymur Əhmədovun da! Nərimanovun Borçalısı da yaralıdı, Teymur Əhmədovun Zəngəzuru da. Budur tale oxşarlığı, budur tale yaxınlığı. Budur Teymur Əhmədovu N.Nərimanova, bizi də Teymur Əhmədova bağlayan sevginin ilahi sirri, sehrli cazibəsi.

Teymur Əhmədov qeyrətli atadır, çünki Azərbaycana layiq olan gözəl övladlar böyüdüb, Teymur müəllim nurani babadır, çünki gül kimi nəvələri var. Teymur müəllim böyük ziyalıdır, çünki neçə-neçə alimin yetişməsində danılmaz haqqı, halal payı var. Teymur müəllim əqidəli şəxsiyyətdir, çünki həyatın çətinlikləri ilə çox qarşılaşıb. Teymur müəllim el ağsaqqalıdır, çünki xeyrimizin, şərimizin yaraşığıdır. Teymur müəllim ciddi dövlət adamıdır, çünki Nərimanovla başlanan ömrünü Heydər Əliyev səngərinin dönməz əsgəri kimi yaşayır. Teymur müəllim böyük dostdur, çünki onun minlərlə sevdiyi və onu minlərlə sevən var. Teymur müəllim böyük qardaşdır, çünki onun Zəlimxan kimi kiçik qardaşı və əqidə yoldaşı var. Ulu babamız Yunis İmrə demiş, qeyrətli ataya, nurani babaya, böyük ziyalıya, əqidəli şəxsiyyətə, el ağsaqqalına, dövlət adamına, böyük dosta, istəkli qardaşa onu sevənlərdən və Zəlimxan Yaqubdan salam olsun.

Bilməyən nə bilsin ki,
Bilənlərə salam olsun.

***12.05.2005***

## ABUZƏR XƏLƏFOV – 70

Məktəbi Məkkə bilən, müəllimi Peyğəmbər bilən, qələmə Allahın danışan dili deyən, kitaba Quran kimi baxan, kitabxananı məbədgah kimi səcdə eləyən, ömrünü elmi dəyərlərə həsr edən insanlar – alimlər, müəllimlər dünyanın xoşbəxt insanlarıdır. Belə xoşbəxtlərdən biri də payına, qismətinə, taleyinə “bani” sözü yazılan Abuzər müəllimdir.

Abuzər müəllimi mən ilk dəfə görəndə onun 37 yaşı vardı. Aradan 33 il keçib. Bu 33 ildə Abuzər müəllim kamilləşib, müdrikləşib, öz sənətinin kamil ustadı kimi millətimizin də, dövlətimizin də dərin hörmətini və rəğbətini qazanıb. Abuzər müəllim bir alim kimi bir neçə dərslik kitabının müəllifi olsa da, onun öz şəxsiyyəti mənim üçün dərslik kitabıdır. Onun qüruru və cəsarəti, ağsaqqallığı və ədaləti, ciddiliyi və tələbkarlığı məndə həmişə iftixar hissi yaradıb. Yerişinə fikir verirəm, bu kişi yeriyəndə sal qaya kimi yeriyir. Bu yerişlə o ətrafına və mühitinə deyir ki, mən safam, təmizəm, alnıaçığam, heç kəsin yanında gözükölgəli deyiləm, əqidəmdə bütövəm, şuxluğum və şaxlığım içərimdəki təmizliyin əks-sədasıdır. Abuzər müəllim üçün hər kitab bir tələbə, hər tələbə bir kitabdır. O, sözün böyük mənasında şəxsiyyətdir. Millətimin uca başlı, açıq alınlı, 70 yaşlı ağsaqqalına, mərd və sərt kişiyə Azərbaycanın və dünyanın bir çox yerlərinə yayılan, xalqımıza, elmimizə üzağlığı gətirən tələbə yoldaşlarım adından minnətdarlıq duyğuları ilə ürəkdən çox sağ olun deyirəm. Ona görə çox sağ olun deyirəm ki, Abuzər müəllimin elmi və təşkilatçılıq fəaliyyəti bizi ömürlük kitaba və kitabxanaya bağladı. Axundov adına Respublika kitabxanası, keçmiş Lenin

adına şəhər kitabxanası bizim üçün müqəddəs məbədgaha, orda çalışan kitabxanaçılar isə ən əziz və unudulmaz insanlara çevrildilər. Abuzər müəllim bizə elmi şəkildə yüksək mütaliə mədəniyyəti öyrətdi, kitaba ilahi vurğunluq yaratdı. Abuzər müəllim bizə öyrətdi ki, Turgenevin mənsur şeirlərini oxumamış Tolstoyun "Hərb və Sülh"ünə, Mopassanın hekayələrini oxumamış Hüqonun "Səfillər"inə, Azərbaycanın şifahi xalq ədəbiyyatını oxumamış Nizamiyə və Füzuliyə girişmək olmaz. Ədəbiyyatın bütövlüyünü dərk etmək istəyirsənsə sadədən mürəkkəbə doğru getməlisən. Budur dərk etmənin mütaliədən keçən yolu!

## YAZIÇI-PUBLİSİST RAFAEL HÜSEYNOVA AÇIQ MƏKTUB

Əziz qələm dostum! Türkiyədən gətirdiyim bir ingilis müəllifinin "Tanrı ilə söhbət" adlı üç cildli əsərini təzəcə oxuyub qurtarmışdım. Yerdən ayrılıb göylər aləmində qanad çalırdım. Səmavi kitablardan sonra müqəddəs duyğuların qanadında məni yenidən səmalara qaldıran bu kitab sözün böyük mənasında məni dəli olmaq dərəcəsinə gətirmişdi. Bu əsər məni yerdən alıb göy adamına çevirmişdi. Həmin şirin təəssüratların istisi soyumamış qanadlı fikirlərin dünyasında uçduğum bir zamanda sənin mübarək avtoqrafınla mənə "Rəfibəylilər" adında bu kitabını çatdırdılar. Elə ilk andaca – kitabın üz qabığına, tərtibinə, rənginə baxan kimi faciəli taleyi və əyilməz şəxsiyyəti ilə zamanın fövqünə qalxan Cavid əfəndi haqqında "Vaxtdan uca" kitabını xatırladım. O kitabı ki, Allah eşqinə, insaf və ədalət naminə bir daha deməliyəm: böyük Cavidi ömrünün və taleyinin bütün çalarları ilə bu əsər Azərbaycan xalqına yenidən təqdim etdi. Hər biri mədəniyyətimiz tarixində hadisə kimi qiymətləndirilən "Min ikinci gecə", "Baba Tahir", "Məhsəti necə varsa", "Füzuli tilsimi" adlı sevə-sevə oxuduğum kitablarını minnətdarlıq duyğuları ilə yenidən xatırladım. Bir də onu xatırladım ki, ilhamın və sevginin, qeyrətin və vətəndaşlığın bəhrəsi kimi meydana gələn bu əsərlərin müqabilində sən öz həqiqi qiymətini almamısan. Mən sənə – mədəniyyətimizə təmənnasız xidmət göstərən bir Azərbaycan ziyalısı kimi "Rəfibəylilər"dən sonra yenidən vuruldum.

Hələ "Rəfibəylilər" kitabını açmamış tərtibata fikir verirəm. İstər-istəməz o saat ürəyimə damır ki, bu, qara

rəng – qara günlər, qara bəxtlər, qara talelər haqqında yazılmış bir kitabdır. Tünd qara rəngin içində ümid işartıları kimi doğmaqda olan günəşin uzaqdan zərrin şəfəqləri görünür. Bir də bu qaralığın və qaranlığın içində süd ağlığında nur kimi, işıq kimi "Rəfibəylilər", yəni kitabın adı görünür.

İllərlə suya, yağışa həsrət qalmış, quraqlıqdan cadar-cadar olmuş torpaq suyu, yağışı öz canına necə çəkərsə, mən də bu əsəri öz canıma beləcə çəkdim. Oxumadım, su kimi içdim, yağış kimi ruhuma, qanıma hopdurdum bu kitabı. Əsəri oxuya-oxuya nədənsə bir türk şairinin "Ağlaram, xatirə gəldikcə gülüşdüklərimiz" adlı məşhur şeirini xatırladım. Həcmcə çox qalın olan bu kitabı bir-nəfəsə oxumaq istəsəm də, arada qısa fasilələr verməli olurdum. Sözün tam mənasında səmimiyyətimə inana bilərsiniz ki, bu fasilələr ancaq axan gözyaşlarımı yumaq, bir az havamı dəyişmək üçün olurdu.

Türk olmaq, azərbaycanlı olmaq, müsəlman olmaq, Rəfibəyli olmaq nə böyük faciə, nə böyük dəhşət imiş, İlahi!

Ələkbər bəy Rəfibəyli ilə başlanıb Mahmud və Akif Rəfibəylilər ilə tamamlanan 671 səhifəli bu kitab XX əsr Azərbaycan tarixinin qanlı-qadalı, zindanlı-məhbəsli, sürgünlü-həsrətli, ölümlü-itimli, vətənli-qürbətli, məhrumiyyətlərlə, məşəqqətlərlə, saysız və ağlagəlməz işgəncələrlə dolu bir parçasıdır. Elə bir parçası ki, özünü bu vətənin vətəndaşı, bu xalqın övladı, bu millətin ziyalısı sayan heç bir insan oğlu bu hadisələrə biganə qala bilməz və qalmamalıdır.

Adı bizim, dadı özgənin olan, rusların və ermənilərin, daşnakların və bolşeviklərin qisas və intiqam meydanına çevirdikləri, daş-torpağı qanla suvarılan 20-ci illər Gəncəsini gözlərim önünə gətirirəm. Belə bir vəziyyətdə olan şəhərdə "Gəncənin atası" adını qazanmış böyük şəxsiyyət təhsilə, maarifə, mədəniyyətə, səhiyyəyə,

incəsənətə, teatra xüsusi önəm verən, öz xalqını başıuca və savadlı görmək istəyən, bunun üçün heç bir çətinlikdən qorxmayan, xalqının halal haqqını tələb etməkdən yorulmayan Ələkbər bəy Rəfibəylini xatırlayıram.

Gəncədə övladlarımızın ana dilində təhsil alması üçün Tiflis valisini Gəncəyə gətirən, Qafqazda xalq məktəbləri naziri, qatı ruslaşdırma siyasəti aparan Levitskini maarifimizə xidmətə məcbur edən və ana dilində məktəblərin açılmasına nail olan, Gəncədə türklərə qarşı rus-erməni hücumları əleyhinə mübarizənin önündə gedən, "Daşnak partiyası əmin olsun ki, heç bir vaxt biz öz millətimizin bədbəxtliyi üzərində erməni millətinin səadət və xoşbəxtlik qurmasına yol verməriк" bəyannaməsini elan edən, ölümü bütün Gəncənin və Azərbaycanın matəminə çevrilən, adı böyük hərflərlə yazılan bir kişi – Türk oğlu Türk olub Ələkbər bəy!

Əziz oxucu! Adamın tüklərini ürpədən rəqəmlərə fikir verin: 1918-1919 tədris ilində Gəncə gimnaziyasında təhsil alan 487 tələbənin 350-si erməni, 48-i azərbaycanlı, 67 nəfər rus və 22-si digər xalqların nümayəndələri olub. Əhalisinin 80%-i azərbaycanlı olan Gəncədə 350-nin 48-ə nisbəti bütün bəlalarımızın kökü deməkdir. Ələkbər bəy Azərbaycan məktəblərinin açılması üçün bax buna görə döyüşürdü.

Ələkbər bəyin Gəncədə fəaliyyət göstərdiyi illərdə Azərbaycanın mərkəzi şəhərində – Yelizavetpolda şəhər Dumasının tərkibinə fikir verin: Nikolay Mamikonov, Ter-Saakov, Ter-Marterosov, Ter-Abramov, Melkumov, Ter-Artünov, Ambarsum Saakov... (ermənilərin siyahısı bununla bitmir) gəl indi oğulsan koru körpüdən keçir, görüm necə keçirirsən.

Dünyanın təzadlarına diqqətlə yanaşın. "Yelizavetpol qubernatoru A.Kaçanovun 1906-cı ildəki fərmanı ilə Ələkbər bəy, Bağır bəy, Xudadat bəy Rəfibəylilərdən savayı Hacı Məmməd Rəfiyev, Hüseyn Rəfiyev, Məşədi

Əli Rəfiyev, Abbas Rəfiyev Gəncə müsəlman xeyriyyə cəmiyyətinin ömürlük fəxri üzvü təsdiq edilir".

Görün, bu qədər xeyirxahın nə qədər bədxahı meydan sulayıb, ara vurub, üzə durub, şər danışıb, evlər yıxıb, çuğulluq eləyib, Azərbaycanın əbədi məşəllərini söndürüb, onu dünya durduqca kor qoymaq istəyib. Ancaq Rəfibəylilər nəslinin böyüklüyünə baxın ki, ermənilərin və rusların tüğyan elədiyi bir dövrdə 60 nəfər Duma üzvündən 7-si Rəfibəyli olub. Elə Rəfibəylilərin ən böyük faciələri burdan başlanıb. 20-ci illərdən 90-cı illərə qədər qırılan, dağılan, sökülən, sürgün olunan, dünyanın düz vaxtında da bəraət alması müşkülə çevrilən Rəfibəylilər. Siz dəhşətə baxın ki, Rəfibəylilərə münasibətdə Çar polisi ilə Sovet polisinin, Çar xəfiyyəsi ilə Sovet rejiminin heç bir fərqi olmayıb. Rus barmağı, erməni fitvası bu nəsil haqqında eyni qənaətdə olublar: "Kökü kəsilməlidir!" Vəssalam! Dəqiqliyi mümkün olmasa da, təxmini də olsa Rəfibəylilərin talan olmuş nəsil mənzərəsinə, nəsil şəcərəsinə diqqət yetirin. Ələkbər bəy Rəfibəyli – bu nəslin ulu babası, Xudadat bəy Rəfibəyli – milli hökumətimizin ilk səhiyyə naziri, sonra isə Gəncənin general-qubernatoru, dəyərli ziyalılar, xalq adamları – Hadı bəy Rəfibəyli, Mirzə bəy Rəfibəyli, Məşədi Əzim bəy Rəfibəyli, İsgəndər bəy Rəfibəyli, Cəvahir xanım Rəfibəyli, Cabbar və Qafar Rəfibəylilər, Səməd bəy və Əyyub bəy Rəfibəylilər, Ənnağı bəy və Məşədi Hüseyn bəy, Fərrux bəy, Cavad bəy, İslam və İkram bəy, Mikayıl bəy, Həmid bəy, Heydər bəy Rəfibəylilər...

Birdimi, beşdimi, ondumu, yüzdümü, açıq alınlı, uca boylu, sərt baxışlı, palıd görkəmli, qaya duruşlu, görkəmindən, baxışından ağıl və istedad, nur və səmimiyyət yağan xalq oğlu, millət fədaisi, vətən dəlisi, qürbət girovu, sürgün payı, yeddi dəfə dalbadal güllələnən, asılan, kəsilən, didərgin olan, ancaq yenə də ucalığını və böyüklüyünü saxlayan Rəfibəylilər?!

Birdimi, beşdimi, ondumu, yüzdümü. Rəfibəylilərin üzünə duran ermənilər, Qaraxanyanlar, Ovanesyanlar, Akopovlar, Sarkesyanlar, Şahnazarovlar, Qriqoryanlar, Garuşyanlar, Ovanesovlar... Rəfibəylilər nəslini nə az, nə çox düz yetmiş il nə "Yan"lar yandırmaqdan əl çəkib, nə "Ov"lar ovlamaqdan.

Birdimi, beşdimi, ondumu, yüzdümü sapı özümüzdən olan, Muxtar Sadıqov kimi alçaqlar. Muxtar Sadıqovun 1931-ci ildə bir iclasda çıxış edərkən işlətdiyi cümləyə fikir verin: "Mən 23 evin qapısını bağlı qoymuşam, bəsimdir!" Görəsən, qapısı bağlı qalan evlər kimlərin imiş? Əlbəttə, xalqı xalq, milləti millət, vətəni vətən edən, ziyalılıq nümunəsi, ağsaqqallıq mücəssəməsi, geniş dünyagörüşünə, yüksək savada sahib olan, ermənilərin yuxusunu ərşə çəkən Azərbaycan oğullarının!

Payına və qismətinə ölüm və ayrılıq düşən Rəfibəylilər haralara səpələnməyib? İrana və Türkiyəyə, Rusiyanın qarlı-buzlu düzlərinə, Qazaxıstanın ilanlar mələyən çöllərinə, Qırğızıstana, Özbəkistana. Onları pərən-pərən ediblər, çoxlarından bir iz də qalmağa qoymayıblar. Rəfibəylilərin əslinə-kökünə yaxşı bələd olan hökumət orqanları çox gözəl bilirdi ki, qürbətdə də olsa, Rəfibəylilərin birləşməsi onlar üçün nə deməkdir.

Bax budur QPU-ların, ÇK-ların, NKVD-lərin, KQB-lərin, daşnakların, bolşeviklərin, Stalin-Mikoyan cütləşməsinin milli şüura, milli təfəkkürə, Azərbaycan xalqına, türkün ruhuna, türk dünyasına, islami dəyərlərə vurduğu ağır yaralar, açdığı uçurumlar, endirdiyi unudulmaz zərbələr, tökdüyü qanlar, törətdiyi vəhşiliklər.

Əzizim Rafael müəllim!

Başdan-başa çoxlarına ibrət dərsi olacaq bu kitabı oxuduqca ağladığım məqamlarla yanaşı acı-acı güldüyüm anlar da oldu. Məni düşüncələrə daldıran anların bir çoxu unudulmaz şairimiz, Rəfibəylilər nəslinin başı daşdan-daşa dəymiş, gözü odlar-alovlar görmüş, ömrü

boyu göz yaşlarını uda-uda gözü yollara baxan, 43 yaşlı Xudadat bəy kimi atası güllələnən, nəslinin ömür və tale tarlasına kotan salınan, babasının yurduna süpürgə çəkilən, bəy qızı, bəy nəvəsi, bütün bu ağlasığmaz hadisələrin içindən Vətənin şairə qızı kimi çıxan Nigar xanım Rəfibəylinin ağlamalı və gülməli taleyinə münasibət barədədir. Dəhşətli təqiblərə məruz qaldığı vaxtlarda Nigarın – yetim, atasız Nigarın 17 yaşı var idi.

Bu həmin Nigar Rəfibəyli idi ki, uzun illər bəraət ala bilməyən Rəfibəylilərin içində o, öz bəraətini 1934-cü ildə çıxan ilk şeirlər kitabı ilə ala bilmişdi. İstedadı, mərdliyi, ümidi və çalışqanlığı ilə. Nəslin başına gətirilən oyunlar az imiş kimi indi də burnundan uzağı görməyən, özünün də bəxtinə güllələnmə qismət olan Əliheydər Qarayevin abırsız yazısına, (yazı müqəddəs sözdür), daha doğrusu böhtanına fikir verin. “Madam, madmazel və cənab Rəfibəyovlar” sərlövhəli bu məqalə 1930-cu il dekabrın 18-də “Kommunist” qazetində dərc olunub. İlahi, bu məqalədə şər-böhtanla dolu nələr yoxdur? Adını kişi qoyasan, qönçə kimi açılmağa can atan bir qız haqqında o cür çirkin cümlələr işlədəsən. İnsan bu qədər alçaqlığı özünə necə rəva bilir, görəsən?

Bütün Rəfibəylilər nəslinin ağrı-acısını öz ürəyində yaşadan, illərin atdığı güllələrdən ürəyi şan-şan olmuş Xudadat bəyin həyat yoldaşı Cəvahir xanıma eşq elan edib, ondan rədd cavabı alanda bütün hirsini-hikkəsini Nigar xanımın, günahsız və bakirə bir Azərbaycan qızının üstünə tökən Əliheydər Qarayev görün nə yazır:

“Madmazel Nigar xanım günəşin Şərqdən çıxacağını, yəni ağ at üzərindəki müdaxilənin Şərqdən gələcəyini gözləyənlərdəndir. İngiltərə imperializminin himayəçilərindən olan mülkədar Xudadat bəyin qızı Şimaldan doğmuş qızıl günəşin parlaması ilə razılaşa bilməz. Görünür ki, mülkədar qızı və onun kimilərinin burnu hələ ovulmamışdır, onların burunları lazımınca ovulma-

lıdır. O zaman onlar günəşin haradan və nə zaman doğulduğunu və qızıl günəşin nə üçün şimaldan doğulduğunu anlaya bilərlər.

Nə üçün indiyə kimi Nigar xanım və onun kimilərin quyruğundan tutulub aşkara çıxarılmamışdır. Nə üçün onların üzündəki maska yırtılmamış və onların həqiqi mülkədar üzü kimsəyə göstərilməmişdir".

Bu məqalədən sonra 17 yaşlı Nigara, o dövrün cavan bir şairi ifşaedici şeir həsr edir. Əlbəttə, şeir yox, bayağılaşdırılmış uzun bir nəzm parçası:

"Sən atanın yolunu izləyirsən, deyilmi?
Sən müsavat dövrünü gözləyirsən, deyilmi?"

– deyən o şairin "Ənənə"sini onun başqa bir həmkarı davam etdirir:

Nigar! Madmazel Nigar!
Sözlərim sənə bil, olsa zəhrimar, deyəcəm.

Estafeti "Tabutdan səslər" məqaləsi ilə Mehdi Hüseyn irəlilədir. Məqalənin altında tarixin bir ironik mənzərəsi var. "Biz aşağıda imza edən Azərbaycan proletar yazıçılar cəmiyyəti üzvləri Hüseyn Mehdi yoldaşın yuxarıdakı məqaləsinə tamamən şərik olduğumuzu bildiririk – R.Rza, S.Rəhman, C.Xəndan, Y.Şirvan, Ə.Zəkili, B.İsmayıl, S.Hüseyn, Ə.Sadiq". Bu yerdə dadıma rəhmətlik Əli Kərim çatır.

Daha heç nə demirəm,
Nöqtə, nöqtə və nöqtə...

Mən heç nə deməsəm də, əsl həqiqəti tarix deyir, ədalət hakim olan zaman deyir.

Sonralar məşhur Azərbaycan şairəsi kimi şöhrətlənən, Nizamidən, Nəvaidən, Dantedən, Petefidən, Puşkindən, Lermontovdan, Axmatovadan, Çexovdan, Şevçenkodan, Seretelidən tərcümələri, bənövşə taleli, nərgiz ətirli şeirləri ilə oxucuların ürəyinə yol tapan məşhur şair və

böyük vətəndaş Rəsul Rzanın həyat yoldaşı, ədəbi və ictimai fikrimizə Anar kimi övlad bəxş edən Nigar xanım Rəfibəyli 68 illik ömürdə 600 ilə bəs edəcək dərdli, nisgilli, həsrətli bir tale yaşayıb.

Əzizim Rafael! Çox sağ ol ki, bu kitabda çoxdan tanıdığımız və sevdiyimiz Nigar xanımı bizə tam böyüklüyü və bütövlüyü ilə, nəsli-nəcabəti, kökü-budağı ilə yenidən təqdim edirsən. Anarın "Sizsiz"indən sonra Nigar xanımın ən gözəl tanışlıq xidməti də sənə məxsusdur. Anar oğulluq və yazıçılıq borcunu yerinə yetiribsə, sən bu müqəddəs işdə böyük vətəndaşlıq borcunu yerinə yetirmisən. Çünki Nigar Rəfibəyli təkcə Rəfibəylilərə və azərbaycanlılara yox, bütün türk dünyasına və böyük Türk ədəbiyyatına aid olan bir şəxsiyyətdir.

Mixail Bulqakovun Stalinə məktubunu çox yerində xatırlayırsan. Böyük yazıçı 1930-cu il martın 28-də "Ellər atası"na yazırmış: "İndiyədək mənim və əsərlərim haqqında SSRİ mətbuatında 301 məqalə çıxıb – onlardan 298-i söyüşlərdən və təhqirlərdən ibarətdir". Buna oxşar bir taleni öz keşməkeşli, əzablı ömründə Nigar Rəfibəyli başqa şəkildə yaşamışdı. Öz taleyini "Qarlı yollar" və "Hollandiya çiçəkləri" şeirlərində çox poetik şəkildə ifadə edən Nigar.

Əzizim Rafael! Rəfibəylilərin başına gələn faciələri zəlzələyə bənzədirsən. "Doqquz ballıq zəlzələyə çox şey dözmür. Nə möhtəşəm tikililər, nə rişəsi torpağın dərinliklərinə işləyən ağaclar, nə sal qayalı daşlar. Bu dəhşətdəki zəlzələ darmadağın edir, xarabalıqlar yaradır, ömürləri udur. Rəfibəylilər doqquz ballıq vaxt zəlzələsinə dözdülər". Yerinə düşən bənzətmədir. Öz-özümə fikirləşirəm: Bu kitabı yazdıqca gör özün neçə dəfə ruhən və qəlbən zəlzələyə, tufana, qasırğaya düşmüsən. Təxminən təsəvvürümə gətirirəm. Nələr çəkmisən, neçə dəfə sarsılmısan, şəri-böhtanı, allahsızlığı, qırmızı yalanları, vaxtsız ölümləri, sönən ocaqları, kəsilən başları,

qəbir, qürbət, qaranlıq hissələrini oxuyanda, dilə, qələmə gətirəndə, ürəyin süzgəcindən keçirəndə!

Bu qiymətli kitabın ən böyük uğuru ondan ibarətdir ki, "Rəfibəylilər" adlı nəsil şəcərəsinin fonunda az qala yüzillik bir dövr, bütöv bir xalq, bir əsrə sığışmayan hadisələr, tarixi faktlar və sənədlər əsasında doğru və düzgün, obyektiv əsaslara, bolluca mənbələrə söykənərək işıqlandırılmışdır. Ciddi tarixçi-alim zəhməti, inadkar arxivşünas qətiyyəti, yüksək ziyalı mədəniyyəti, yanğılı vətəndaş qətiyyəti, aydın dövlətçilik mövqeyi, təmiz jurnalist və publisist səliqəsi hesabına başa gəlmiş bu kitab müasir tarixşünaslığımıza ən dəyərli hədiyyədir desəm, yanılmaram.

Kitabın ən qiymətli cəhətləri nədən ibarətdir? Bu kitabı oxumaq bizə – oxuculara nə verir?

Gəncə adını yenidən özünə qaytarmaq üçün əsrin əvvəlindən sonuna doğru yol gələn, Yelizavetpol adlanan bir şəhərdə baş verən qanlı-qadalı hadisələr bir şəhər çərçivəsində qalmır, bütün Azərbaycanda baş verən olaylara canlı orqanizm kimi bağlanır. Türkiyə və Cənubi Azərbaycan münasibətləri genişliyi ilə açılır, milli Azərbaycan hökumətinin qurulması və yıxılması ilə əlaqədar məsələlər xırda detallarına qədər uğuru və qüsuru ilə təsvir olunur, dostlarımız və düşmənlərimiz bütün aydınlığı ilə obyektiv şəkildə göstərilir. Qələmə sığmayan, dilə gəlməyən, təsəvvürə yerləşməyənlər gözümüzün önünə gəlir.

Oxucuya tam şəkildə məlum olur ki, Bakıda olan 20 yanvar qırğını da, Xocalı soyqırımı da, Qarabağın kənd və şəhərlərində olan bugünkü hadisələr də başqa şəkildə, zaman fərqi olsa da, mahiyyət eynidir, birdir, dəyişməzdir!

İctimai-siyasi hadisələr, ədəbiyyatımız və mədəniyyətimiz, iqtisadiyyatımız və sosial problemlərimiz, müharibə və münaqişə qayğılarımız, sürgünümüz, zindanımız,

həsrətimiz, vüsalımız, aldanışlarımız, günahımız və günahsızlığımız, xeyirxahlığımız və alicənablığımız, bəyliyimiz və ağayanalığımız, sabaha ümidimiz, dünənə ehtiramımız, unutqanlığımız və laqeydliyimiz bütövlükdə bu kitabda çox geniş şəkildə öz əksini tapmışdır.

Əziz Rafael!

Sən bir müəllif kimi oxucuya "bu kitabı oxu" demirsən, oxudursan, "öyrən" demirsən, öyrədirsən. "Vuruşaq" demirsən, həqiqət uğrunda, müstəqilliyi igidlik və şəhidlik bahasına başa gəlmiş müstəqil Azərbaycan uğrunda "döyüş" demirsən, döyüşürsən! Çığır-bağırla yox, təmkinlə! Çomaqla yox, qələmlə! Ucuz xal qazanmaqla yox, vətəndaş yanğısı ilə! Sən bizi bu kitabla Mirzə Cəlillərin, Cavidlərin, Sabirlərin, Ömər Faiq Nemanzadələrin, M.Ə.Rəsulzadələrin, Çəmənzəminlilərin, Üzeyir bəylərin ruhuna qonan tufanları, qalxan qasırğaları dərk etməyə çağırırsan. Düşmənini, dostunu tanı deyirsən. Düşmənləri də, dostları da tanıtdırırsan, xalqa, millətə, gəncliyə, gələcəyə, bizdən sonra gələnlərə, XXI əsrdə doğulanlara!

Əhsən sənə, qələm dostum, ziyalı qardaşım! Səni görmək və duymaq, tanımaq və sevmək ancaq və ancaq hər bir kəsə şərəf gətirər.

Xalqımızın keşməkeşlərlə dolu həyatını tarixi kitablara çevirib millətə təqdim etdiyinə görə! Bu tarixdir, öyrənsək, xeyrimizədir, öyrənməsək, yenə uduzacağıq. Qiymətli oğullarımızı, dəyərli ziyalılarımızı görməli, duymalı və vaxtında qiymətləndirməliyik. Bu həqiqəti vaxtında qiymətləndirməsək, daha böyük faciələr gözləyir bizi! Bu kitab təkcə keçmiş tarix deyil, bu günümüz və sabahımız üçün ibrət dərsi, qeyrət dərsi, cəsarət dərsidir. Vay bu dərsdən iki alanların halına. Xoş bu dərsdən əla qiymət alanların halına!

Azərbaycanın bugünkü vəziyyətində qanımızı qaynadan, ruhumuzu oynadan, qollarımıza güc-qüvvət gəti-

rən, bizi alçaq və kəmfürsət düşmənə nifrətlə dolduran, sinəmizi qayalara, yumruğumuzu daşlara, kirpiyimizi güllələrə döndərən, səngərə çağıran, silaha qurşadan, döyüşə göndərən belə kitablara çox böyük ehtiyacımız var. Çox böyük!

Ali məktəblərin müəllim və tələbələri! Orta məktəb şagirdləri, Təhsil Nazirliyinin hörmətli əməkdaşları, övladlarını gələcək Azərbaycanda xoşbəxt görmək istəyən ata və analar, üzümü sizə tuturam, sözümü sizə deyirəm. Oxuyun bu kitabı! Xalqı, milləti, özümüzü, özünüzü yenidən tapmaq, təzədən kəşf etmək üçün! Ağı qaradan seçmək üçün!

Üzümü sizə tuturam, nəşriyyat işçiləri! Bu kitabı 1000 nüsxə tirajla çap etmək təhqirdir Hacı Zeynalabdin kimi kişilər yetirən xalqın ruhuna! Bu kitab 1 milyon tirajla çap olunub, bütün adına ziyalı deyən insanlara təmənnasız paylanmalıdır. Orta və ali məktəblərdə dərslik kimi keçilməlidir. Məscid tikdirən xeyriyyəçilərə təşəkkürlər olsun, müqəddəs iş görürlər. Ancaq gəlin məsciddən əvvəl bizi Lənkəranda, Qubada, Naxçıvanda, Şamaxıda, Gəncədə, Xoyda, Səlmasda, Urmiyədə məscidlərə durub külümüzü göyə sovuran ermənilərlə haqq-hesab çəkək, sonra başqa məsələlərlə məşğul olarıq.

XXI əsrdə dövlətlərin və millətlərin yolu silahdan, müharibədən yox, ağıldan, bilikdən, savaddan, istedaddan, dil bilmək qabiliyyətindən, diplomatiya ustalığından, siyasət çevikliyindən keçirsə, sadaladığım bu mənəvi nemətlərin yolu kitabdan – mütaliədən keçir!

Nəhayət, bu kitabın ən böyük ictimai-siyasi əhəmiyyəti ondan ibarətdir ki, 70-80 il tariximizi saxtalaşdırmaqla məşğul olanlara tarixi dəlillər əsasında tutarlı cavablar verilir.

Sözümü Türk dünyasının iki böyük şairinin şah misraları ilə tamamlayıram.

Sabir:

Çalxalandıqca, bulandıqca zaman nehrə kimi,
Yağı yağ üstə çıxır, ayranı ayranlıq olur.

Nəcib Fazil Qısakürək:

Bizə qalan əziz borc əsrlik zamanlardan,
Tarixi təmizləmək saxta qəhrəmanlardan.

Əzizim Rafael! Ruhunu və qəlbini əsl həqiqətləri üzə çıxarmaq üçün nehrə kimi çalxaladığına görə, yağı yağ, ayranı ayran eləmək cəsarətinə görə, tarixi saxta qəhrəmanlardan təmizləyib həqiqi xalq oğullarını, millətin əsl qəhrəmanlarını tarix kitabı səviyyəsində bizlərə müqəddəs ərməğan elədiyinə görə sağ ol! Bir də sağ ol! Bir də sağ ol!

***"525-ci qəzet",***
***20.04.2002***

## MİKAYIL MİRZƏYƏ MƏKTUB

Əzizim Mikayıl Mirzə! "525-ci" qəzetdə gedən müsahibəni diqqətlə oxudum. Həm kövrək, həm də sərt ovqat üstündə köklənən duyğuların məni həm kövrəltdi, həm də sərtləşdirdi. Bu qədər kövrəklik və bu qədər sərtlik bir ürəyə necə sığışıb, onu düşünürəm. Bahar buludu kimi dolmusan, yağmaq istəyirsən, qışın şaxtası kimi sərtləşmisən, kəsmək istəyirsən. Yaz göylərinin ildırımı kimi çaxmaq, payız səmasının görkəmi kimi ağlamaq istəyirsən. Bu yazıda bir ömrün payına düşən dörd fəslin dördünü də yaşamısan. Bir anlığına şaqqanaq çəkib gülməyin də, hönkürüb ağlamağın da, biədəb zarafatların da, müdrik kəlamların da, qaya kimi bərkiyib, ipək kimi yumşalmağın da, bütün sərhədləri uçuran hirsin-hikkən də, bütün dünyanı qucaqlamağa qadir məhəbbətin də canlı bir mənzərə kimi gözlərimin önündən gəlib keçdi. Nədir bu çalxanma, nədir bu qabarıb çəkilmə? Kimdən küsmüsən, kimdən incimisən? Xətrinə kim dəyib, bostanına kim daş atıb? "Məni öz canından artıq istəyən, ellərdən küsərəm, səndən küsmərəm" – deyən Müşfiq sevdasıdımı başındakı? "Dəymə, dəymə mənə, darıxdım yenə", "qoy çıxım dağlara görüm yar hanı?" – deyən Səməd Vurğun yanğısıdımı könlündəki? "Vətən mənə oğul desə nə dərdim, mamır olub qayasında bitərdim" – deyən Məmməd Araz duyğularıdımı qanından axan? "Cahanda beş oğul varsa biri sənsən Xəlil Rza!" – deyən Xəlil Rza hayqırtısıdımı eşqini və qürurunu ərşi-əlaya qaldıran? Niyə bizi yandırıb yaxırsan, nə istəyirsən bizdən, nə istəyirsən dövlətdən, nə umursan millətdən, nə gözləyirsən sənətdən. Axı xalq məhəbbəti səni xalq artisti elədi, dövlət qayğısı səni millət vəkili elədi, sənət səni Mikayıl Mirzə kimi yaddaşlara həkk elədi.

Günahsız Abdulla kimi ağladın, gördük, Fərhad kimi Şirinin eşqiylə nərə çəkdin, eşitdik, Aydın kimi zəlzələ yaratdın, silkələndik, sözü işə, əmələ, hərəkətə çevirdin, duyduq, əməli, işi, hərəkəti sözdə tapdın, sevindik. Xocalı faciəsinə yandın-alışdın baxdıq. Bəlkə qasırğalı dənizlərdə qol atıb üzmək, aydın üfüqlərdə qanad çalıb süzmək, bu başıbəlalı torpaqda dərvişanə gəzmək sənə bəs eləmir. Həmişə meydanlarda nərə çəkən, izdihamlarda kükrəyən, vətən və millət naminə özünü qayalara-daşlara çırpan, od kimi püskürən, kül kimi sovrulan Mikayıl Mirzə xəlvətə çəkilməyi, guşənişin olmağı, özünə qapılmağı, sakit yaşamağı bacarmır, özünə sığışdırmır? Deyəsən, bəlkəsiz belədir, qardaşım! Buluda axma, yağışa yağma, şimşəyə çaxma, bulağa şırıldama, çaya ləngərlənmə demək olarmı? Olmaz! Olmaz! Olmaz! Vay o gündən ki, yağmağa buludun, çaxmağa şimşəyin, şırıldamağa bulağın, ləngərlənməyə çayın olmaya! Çox şükür ki, bunların hamısı səndə var, Mikayılım mənim! “Mikayılım mənim!” – ifadəsi məndən çox-çox əvvəl Xəlil Rzaya aiddir, əzizim mənim. Sən bu millətə gərəksən – sədəf saza, mizrab telə, nur baxışa, od ürəyə gərək olan kimi! Sən bu dövlətə gərəksən – barmaq tətiyə, əl silaha, səngər torpağa, əsgər orduya gərək olan kimi! Sən xalqa gərəksən – Məcnun Leyliyə, Fərhad Şirinə, Kərəm Əsliyə, Koroğlu Nigara gərək olan kimi! Bilirəm bu saat darıxırsan, tasalanırsan, qıvrılırsan, qovrulursan. Şübhələr, tərəddüdlər, imanlar-gümanlar, sevinmələr və peşmançılıqlar, niyələr və neçünlər, suallar və cavablar döyüşür içində. Səni çox gözəl başa düşürəm. Qatardan ayrılan durnaya dönmək, gölündən ayrılan sonaya dönmək, suları qurumuş dəryaya dönmək, kəkliyi ovlanmış qayaya dönmək, axırda mənasız mənaya dönmək çətindən çətindir, qardaşım mənim. Üzülmə qardaş, üzülmə qardaş! Səməd Vurğun demiş: “Əl işdən soyumaz, ürək arzudan”. Qoşul qatarımıza, qayıt sıramıza, gəl yanımıza, ax ruhumuza. Səni itirmək bizə yaraşmaz, Mikayıl! Qar-

şıda bizi Qarabağ uğrunda, Şuşa yolunda döyüş gözləyir, qanlı-qadalı bir döyüş, səsin o döyüşdən gəlməlidir! Qarşıda bizi qələbə gözləyir, qələbə. Müjdən o qələbədən gəlməlidir! Sən bu gün şeir oxumaq imkanını təbiət əlindən almış böyük Məmməd Arazın "Ayağa dur, Azərbaycan, ayağa dur səninləyəm!" hayqırtısıyla milləti ayağa qaldırmalısan! Sən bu gün "Qolumdakı zəncirləri qıram gərək, qıram, qıram!" – deyən Xəlil Rza nərəsinə yeni bir qüdrət gətirməlisən! Sən bu gün "Mənim ana dilim" – deyən Sabir Rüstəmxanlı şeirinin uçan ruhuna, çırpınan qanadına çevrilməlisən, sən bu gün.... "Könül, əgər bənzəməsən pərvanəyə, ya şama, öl, dünyada yaşama" – deyən Zəlimxan Yaqub şeirinin odlu nəfəsinə dönməlisən! Bənzə Xəlil Rzaya! Çevril Məmməd Araza, dön Sabir Rüstəmxanlıya, yaraş Zəlimxan Yaquba, Mikayılım mənim! Bizim ol, bizlərlə ol, qartallı dağa çevril, ətirli düzlərlə ol, çəkilmə tənhalığa, öyrəşmə yalqızlığa, coşqun dənizlərlə ol, danışanda millətlə, dinəndə sözlərlə ol. Gəl, Mikayıl! Gəl səni 55 yaşın münasibəti ilə bağrıma basım! Bu yaxınlarda respublika sarayında keçirilən tədbirlərin birində möhtərəm prezidentimiz Heydər Əlirza oğlu səni öz doğma balası kimi bağrına basdı. Bu mənzərədə elə bil ki, möhtəşəm bir dağın qoynuna məğrur bir qartal sığınmışdı. Hər ikiniz sevginin, sevincin və kövrəkliyin zirvəsində dayanmışdınız. Qoru o ucalığı, qoru o məhəbbəti, o kişi səni darda qoyub, intizarda saxlamaz.

Qanadlan, pərvazlan, uç, göylər səni gözləyir. Silahlan, səfərbər ol, döyüşlər səni gözləyir, mey iç, məzələn, məclislər səni gözləyir. Qaldır başını, oynat yumruğunu, mübarizə səni gözləyir. Böyük Rəsul Rza demiş: "Mübarizə bu gün də var, yarın da, Sən də onun ən ön sıralarında".

Xalqımın 55 yaşlı sənətkar oğluna, əziz dostuma sənətdə və həyatda özünə, ilhamına və istedadına yaraşan uğurlar arzulayıram.

***29.12.2001***

## MİKAYIL MİRZƏ DANIŞSIN

Əzizim Mikayıl!

Allah sənə gur səsi, gər nəfəsi, aydın nitqi, şirin danışığı, ehtiraslı duyğuları, şahə qalxan fikirləri, güllə tezliyini, şimşək zərbəsini, Tanrı yaddaşını ona görə verib ki, dərdimizi köhnəlməyə, yaramızı qaysaqlanmağa, duyğularımızı keyləşməyə, gözlərimizi mürgüləməyə, ağrılarımızı unutmağa qoymayasan!

Allah səni yaradıb ki, "Ayağa dur, Azərbaycan!" – deyib Məmməd Araz harayı ilə milləti ayağa qaldırasan. "Cəsur şeirim, ər şeirim, təpədən-dırnağadək silahlı əsgər şeirim!" deyən Xəlil Rza Ulutürk kimi hayqırıb orduları səfərbər edəsən.

Hayqıran, coşan, daşan, qabaran, çəkilən, ölən, dirilən, açılan, bükülən, qalxan, ucalan, ucaldan Mikayıl Mirzə! Tez-tez əlini ürəyinin üstünə qoyub "ürəyim ağrıyır" deyirsən. Təbriz dərdi də, Dərbənd itkisi də, Göyçə musiqisi də, Şuşa harayı da, Qarabağ faciəsi də, Daşaltı xəyanəti də, Xocalı tüstüsü də Xəlil Rzaları, Məmməd Arazları, Xudu Məmmədovları, Fərman Kərimzadələri vaxtsız öldürdüsə, sənin – böyük sənətkarın, böyük aktyorun ürəyi necə ağrımaya bilər?! Ağrı Mikayıl, ağrı! Sən bu ağrılarınla Azərbaycan adlı məmləkətə, Heydər Əliyev adlı ulu öndərə, İlham Heydər oğlu adlı prezidentə, Vətən adlı bir müqəd-dəsliyə hələ çox-çox lazım olacaqsan. Yaralanmış və paralanmış Azərbaycan bütövləşmək üçün döyüşə qalxanda ön cərgədə sən və sənin kimi şir biləkli, qurd ürəkli, pələng pəncəli, qartal qıylı, qırğı gözlü, ötgün sözlü oğullar olmalıdır!!!

Bu müqəddəs yolda addımı sən at, nərəni sən çək, şilləni sən vur, yumruğu sən qaldır, gülləni sən tuşla, hədəfi

sən götür, səngəri sən qaz, silaha sən sarıl! Sözün və səsinlə, qeyrətin və cəsarətinlə, mərdliyin və sərtliyinlə, dözümün və inadınla, dönməzliyin və qətiyyətinlə!!!

Bu gün sənin ad günündü. Ancaq yaşın yüz illərin, min illərin yaşıdı. Yazdığım bu dost məktubu sənin təbrikin olsun! Ancaq ən böyük təbriki Qarabağ alınanda sənə çatdıracağam. O günə, o ana, o müqəddəs qələbə xəbərinə doğru gedək, Mikayıl! Qoy qələbə haqqında, muştuluq sədaları altında yay kimi gərilə-gərilə mənim odlu-alovlu, dəli-dolu, çılğın və ehtiraslı qardaşım Mikayıl Mirzə danışsın. Zəlimxan Yaqub da onu bu sətirlərlə millətə təqdim eləsin!!!

Sözü sahibinə, yiyəsinə ver,
Qoyma hər danışan hərzə danışsın.
Zili qaydasında, bəmi yerində,
Danışır, Mikayıl Mirzə danışsın.

Dərmanı kimdədi üzülən canın,
Günahı kimdədi tökülən qanın.
Başı nələr çəkdi Azərbaycanın,
Cahana söyləsin, ərzə danışsın.

Sağalsın millətə vurulan yara,
Çəksin kəmfürsəti boğazdan dara.
Gur səsi yetişsin kar qulaqlara,
Salsın sümüklərə lərzə, danışsın.

Dilində gəncliyin, sabahın sözü,
Sözün silahı var, silahın sözü.
Allahlıq eləsin Allahın sözü,
Çevrilsin şeşpərə, gürzə, danışsın.
Qopsun zəlzələsi, coşsun tufanı,
Qoy indi Mikayıl Mirzə danışsın.

***"525-ci qəzet", 31.12.2004***

## MÜRŞİDİ-KAMİLİM – HACI MAYİLİM

Hacı Mayil – Füzulitək aza qail. Füzuli bir sönməz Günəş, Hacı Mayil Füzulidən qopan atəş. Füzulidən düşən işıq ulu sözün gur işığı, Hacı Mayil o sözlərin yaraşığı. Söz mülkündə Füzuli bir uca səngər, Hacı Mayil o səngərdə qalib əsgər. Hacı Mayil gələn yerə əruz gəldi, heca gəldi, arxalandı Füzuliyə hər məclisə məğrur başı uca gəldi. Hacı Mayil gələn yerə əruzun hər bəhri gəldi, könüllərə Füzulinin seli axdı, nəhri gəldi.

Hacı Mayil – sözlər onun əlində mum, dilində bal, nəfsi təmiz, əli halal, dili halal. Qəlbi arı, hissi duru. Ondan ötrü Füzulinin hər kəlməsi Haqqın səsi, gözün nuru.

Kin-küdurət xoşlamazdı, onun-bunun bostanını daşlamazdı, dediyini qısa deyər, uzun-uzun qaravəlli başlamazdı. Allah onu yaratmışdı məclis üçün, söhbət üçün, söz adlanan sərvət üçün, Füzuliyə heyrət üçün! Hacı Mayil – düz tərbiyə, dürüst abır, düzgün iman. Hacı Mayil – ən maraqlı əlyazması əhli-ürfan, əhli-Quran. Fikirləri, hikmətləri mələklərə çatmaq üçün yerdən-göyə bir nərdivan. Hər kim ona qulaq assa çeşmə kimi durulardı, yerə-göyə kainata Məcnun kimi vurulardı, xoşbəxtliyi buydu onun, günlər ilə ac qalsa da, nə əyləşən əl çəkərdi, nə dinləyən yorulardı. Onun şirin söhbətinə min bir dəfə qulaq asan bir də qulaq asım dedi. Hər sətrini, misrasını Haqdan gələn ayə kimi bağrım üstə basım dedi. Şeir dostu, sənət dostu, yaradanın nəzərində behişt yarı, cənnət dostu. Qəlbimizi inildədən bu tar nədir, dutar nədir, setar nədir, “Segah” nədir, “Qatar” nədir? Xiridartək muğamatı bircə-bircə xırd elədi, muğamatın özü kimi gözümüzdə yuva saldı, qəlbimizdə yurd elədi.

Dostu-yarı çox olsa da, sadiq dostu qələm idi, hər qəzəli bir mənzərə, hər sətri bir aləm idi. Mən bu sevgi yollarının Kərəmiydim, o da mənim Lələm idi. Sədi, Hafiz, Hacı, Qumri söhbətinin ləngəriydi, Seyid Əzim həcvləri silahıydı, səngəriydi, Vahid şeiri, Vahid adı fikri-zikri, əzbəriydi. Zarafatı toy yerində, qəmli sözü yasda dedi, çığırmadı-bağırmadı, dediyini asta dedi, usta dedi, ürəyini hamıya yox, istədiyi dosta dedi.

Hacı Mayil – din adamı, kitab dini, din Kitabı, qalaq-qalaq eləmişdi bir sinədə bir kitabı. Hacı Mayil – Haqq adamı, göy adamı. Tar sirdaşı, kaman dostu, ney adamı. El dilindən, el sözündən yaxşı halı, xeyrin-şərin yaşadığı, elin müdrik ağsaqqalı. Bal söhbəti ağızlarda ağ şanıyla qara şanı, millətimə, çatdırırdı millətimə yaraşanı.

Qədim Bakı kəndlərində çox dinlədim söhbətini, ulu gördüm, ali gördüm, uca gördüm hörmətini. Sevin dedi, seçin dedi, badə kimi için dedi, heç bir kəsdən gizləmədi Allah verən sərvətini. Dilimizdə şeirə döndü, qəlbimizdə xatirəyə, Ulu Tanrı itirmədi onun böyük zəhmətini. Hər məclisdə yad elədik, damarlarda dad elədik, unutmadıq zəhmətini. O dünyada yeri behişt, bu dünyada öz əliylə, öz ruhuyla, öz diliylə yaratmışdı Haqqın səkkiz cənnətini.

Həccə getdi, hacım oldu, sözün gülşən çəmənində ərişim-arğacım oldu, bahar vaxtı çiçəklədi, payız vaxtı bar gətirdi, bar verən ağacım oldu, harda ustad adı gəldi – ona ehtiyacım oldu, o bir ata, mən bir oğul, ata-oğul məhəbbəti başımdakı tacım oldu. Ey yaradan! Ustad Hacı Mayil haqda qəbul eylə Zəlimxanın səndən gəlib sənə gedən, tükənməyən, üzülməyən könül dolu sevgisini, ürək dolu rəğbətini!!!

***02.01.2005***

## ETİBAR İŞIĞI

Əziz oxucu! Mənim bugünkü yazım qələm dostum, jurnalist qardaşım Etibar Babayev haqqındadır. Bu dostluğumuzun tarixinə qısaca bir nəzər salmaq istəyirəm. Etibar müəllimin atası, tanınmış Azərbaycan şairi Adil Babayev gənc şairlərdən biri kimi xətrimi çox istəyər, mənə həmişə qardaşoğlu deyərdi. Bir gün Adil müəllimdən soruşdum ki, mənə hansı səbəbdən qardaşoğlu deyə müraciət edirsiniz. Verdiyi cavabdan sonra mənim gözlərimin önündə Adil müəllimin taleyi ilə bağlı maraqlı bir tarix açıqlandı. Məlum oldu ki, Adil müəllimin atası 1925-ci ildə repressiya qurbanı olub, xalq düşməni kimi güllələnib. Körpə Adil 6 aylıq olanda atası artıq həyatda yox idi. Dəhşət və qəribəlik burasındadır ki, sonralar Adil Babayevdən tələb edəcəkdilər ki, üzünü belə görmədiyi atası haqqında "atandan imtina elə" ərizəsi yazsın. Təbii ki, bu ərizəni yazmayan şairin başı çox bəlalar çəkib. Ona uzun zaman "xalq düşməni"nin oğlu kimi baxıblar.

Adil müəllimin anası Xeyransa xanım oğlunu o zaman Tiflisdə yaşayan qardaşı Əli müəllimin yanına aparıb. Orda 2 illik Tiflis Pedaqoji İnstitutunu bitirib. Bax elə orda mənim atam Yusif müəllimlə 2 il bir yerdə təhsil alıb, dostlaşıb, bir-birinə qardaş deyiblər. O səbəbdən də Adil müəllim mənə "qardaşoğlu" deyə müraciət edirmiş. Adil müəllim Tiflisdə ədəbi yaradıcılığa başlayıb. Şeirlərini Tiflisdə çıxan "Zarya Vastoka" qəzetində çap etdirib. Məşhur "Çinar" şeirini ordan Bakıya göndərib. Əsər "Kommunist" qəzetində dərc edilib. Bu şeir böyük şairimiz S.Vurğunun diqqətini çəkib. Bu şeiri "Bakinski raboçi" qəzetində nəşr etdirib Adil müəllim.

Əslən Qazaxdan olan, ancaq Tiflisdə Şeytanbazar məhəlləsində yaşayan Gülnar xanımla ailə qurur. Həm Tiflisdə, həm də Bakıda toyları olur. Bakıda keçirilən toy məclisində S.Vurğunun ağsaqqallığı ilə o dövrün görkəmli ədəbiyyat və incəsənət xadimləri iştirak edir.

Ailənin tək övladı Etibar Babayev 1950-ci il dekabrın 15-də bu ocaqda dünyaya gəlir. Oğlu dünyaya gələn şairin sevinci yerə-göyə sığmır. Övlad sevgisinə, ata sevincinə, ana məhəbbətinə aid bir-birindən gözəl şeirlər yazılır. Etibara yazdığı şeirlər dilinin duasına çevrilir.

Oğlum, görməmişəm hələ üzünü,
Bilmirəm qarasan, yoxsa ki, ağsan.
Ancaq qəlbimdəki saf duyğuları,
Bilirəm, yenidən canladacaqsan.

Dünyaya gəlişi ana laylası, ata şeirinin həzin misraları ilə bəzənən, süslənən Etibar böyük arzularla həyata atılır. H.Cavid adına orta məktəbi bitirir. İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsini C.Cabbarlı təqaüdü ilə başa vurur. 70-ci illərdən başlayaraq teatra aid maraqlı yazılarla mətbuata ayaq açır. Televiziyada aparıcı və müxbir kimi diqqəti cəlb edir.

Hərbi xidməti başa vurduqdan sonra Az.TV-də "Gənclər" redaksiyasında işə başlayır.

Teatr haqqında yazdığı məqalələrlə fəaliyyətə başlayır Etibar Babayev. Komsomol sıralarından MK-ya, Bakı Şəhər Partiya Komitəsinin təbliğat və təşviqat şöbəsinin müdiri vəzifəsinə qədər yüksəlir.

Bütün bu fəaliyyət sahələri ilə bir yerdə, Etibar müəllim bir jurnalist kimi həmişə məhsuldar yaradıcılıq çeşidləri ilə oxucuları və tamaşaçıları heyrətləndirməyi və sevindirməyi bacardı. Vəzirov dövründə işdən azad olunanda da qələminə, nəfəsinə, yaradıcılığına söykəndi, çaşmadı, özünü itirmədi.

Taleyə şükürlər olsun ki, Türkiyə və Azərbaycan bu gün "Bir millət iki dövlət" kimi çox yaxınlaşıb, çox doğmalaşıb. Bu sahədə ən qızğın və fasiləsiz fəaliyyət göstərən, ürəyini məşələ döndərən, uzun yolların əzabından, çətinliklərindən qorxmayan, sözün böyük mənasında Türkiyəni nəğməsi, səsi, sözü, nəfəsi ilə Azərbaycana gətirən qeyrətli ziyalılarımızdan birincilərdən biri də Etibar Babayev olub. Türkiyə ilə bağlı məsələlərə ciddi ehtiyac olduğu bir dövrdə "Sözlü, nəğməli İstanbul" adlı silsilə verilişlər öz işini gördü. Onun hazırladığı verilişlər Türkiyənin məşhur şəxsiyyətlərini – Alparslan Türkeşi, Turqut Özalı, Sabançını, Barış Mançonu və başqalarını Azərbaycan tamaşaçılarına daha yaxından tanıtdırdı.

Bu yerdə mənim üçün unudulmaz olan tarixi bir anı xatırlamaq istəyirəm.

1993-cü ilin dekabr ayında ulu öndərimiz Heydər Əliyev bir qrup gənc Azərbaycan ziyalısını yanına dəvət elədi. Bu qrupa Etibar Babayev və mən də daxil idim. Məlum oldu ki, ölkə prezidenti bizi Türkiyəyə göndərmək istəyir. Məqsədini geniş şəkildə açıqladı ki, "Türkiyədə mənim haqqımda bəzi qüvvələr tərəfindən əks təbliğat gedir ki, guya mən Rusiyanın və rusların adamı, KQB generalı kimi Azərbaycanda hakimiyyətə gəlmişəm. Sizin fəaliyyətiniz bu fikirləri alt-üst etməli və Heydər Əliyev həqiqətini ortaya qoymalıdır". Açıq şəkildə etiraf edirəm ki, Türkiyədə bu məsələ ilə bağlı Etibar Babayevin böyük vətənpərvərliyi və vətəndaşlığı məndə qürur hissi doğurdu. Onun Türkiyədə, xüsusilə İstanbulda az qala bütün telekanallarla işləmə bacarığı arzu və məqsədimizin həyata keçməsində çox böyük rol oynadı. Budur dövlətə və dövlətçiliyə, xalqa və millətə xidmət.

Son illərdə var qüvvəsini, bütün gücünü və istedadını "Space" telekanalının inkişafına, zənginləşməsinə həsr edən Etibar Babayev ədəbiyyatımızın, incəsənətimizin, poeziya və musiqimizin, tarixi keçmişimizin,

xanlıqlar dövrünün, əxlaqi dəyərlərimizin insanlara qayğı və mərhəmətin təqdimatında və təbliğində müstəsna dərəcədə əhəmiyyətli xidmətləri var.

XX əsrin ən önəmli hadisələrini əks etdirən filmlər, “Gizli və aşkar Azərbaycan”, gənc istedadların üzə çıxması üçün “Azərstar”ın yaradılması, muğam müsabiqələri, xaricdə yaşayan azərbaycanlılarla bağlı verilişlər, “Gecə kanalı”nda qaldırılan məsələlər Etibar Babayev ömrünün barlı budaqları, dadlı meyvələridir.

Məsuliyyətli bir kanalın təşkilatçısı və rəhbəri kimi də, yaradıcı bir ziyalı kimi də Etibar müəllim yorulmadan fəaliyyət göstərir. Bu yolda ona uğurlar arzulayır, 55 yaşının tamam olması münasibəti ilə “əmioğlu” deyə müraciət etdiyim bəy qardaşımıza cansağlığı, güclü həyat eşqi arzulayır və sözümü Adil Babayevin bir bənd şeiri ilə tamamlayıram.

Yandırma, gəl söndür mənim yanğımı,
Bircə budaq üçün neçə bar verim.
Alışan sinəmə bir damla tər tök,
Yerinə əbədi bir bahar verim.

Son misranın daşıdığı məna yükü, əbədi bahar eşqi yoluna yoldaş, könlünə sirdaş olsun, əziz qardaşım.

***08.12.2005***

## KÖNÜL ADAMI

O bir könül adamıdır. Nəyi deyirsə ürəkdən deyir, nəyi danışırsa ürəkdən danışır, nəyi yazırsa ürəkdən yazır. Nə dediyinə, nə danışdığına, nə yazdığına heç vaxt xilaf çıxmır. Çünki dediyində də, danışdığında da, yazdığında da güclü bir səmimiyyətə, ilahi bir sevgiyə söykənir. Onun nə sevgisində, nə səmimiyyətində bərbəzək yoxdur. Onun səmimiyyəti yamaq götürmür. Tərtəmiz, dübbədüz, nə varsa odur. Hər dəfə mən Nizaməddin Şəmsizadəyə zəng edəndə, telefon açanda "Ey dinin nizamı, necəsən?" sualı ilə müraciət edirəm. Cavab həmişə ürəkaçan olur: "Yaxşıyam, çox sağ olun şair, yeni bir yazı üzərində işləyirəm, sağlıq olsun görəcəksən lələşin nələri ortaya çıxaracaq. Mən alınan nəticədən daha çox yaradıcılıq prosesinin özündən ləzzət alıram. Tez-tez görüşə bilmiriksə məni günahkar bilmə. İşə möhkəm girişmişəm. Bu işi qurtaran kimi özüm sənə zəng edəcəyəm".

Mənim müraciətim, sualım təxminən hər dəfə eyni olsa da, onun cavabı müxtəlif və rəngarəng olur. Hər dəfə yeni bir mövzudan, yeni bir əsərin yazılmasından, yeni bir kitabın işıq üzü görməyindən xəbər verir. Onun cavabları məni də ilhama gətirir, yeni həvəs və yeni nəfəs verir, yaradıcılıq gücümü artırır.

Otuz ildir Nizaməddin müəllimi tanıyıram. Əvvəlcə Yeni Yasamalda eyni binada, eyni blokda qonşu olmuşuq, qonşuluq dostluğa çevrilib. Bir-birimizə sirr verib sirdaş, can verib qardaş olmuşuq. Bu otuz ildə nə qədər görüşlərimiz, səfərlərimiz, məclislərimiz, söhbətlərimiz olub. Hələ bir dəfə də olsun onun məişət səviyyəsinə endiyinin şahidi olmamışam. Onun tərbiyəsi, dünyagörüşü, mütaliəsi, müşahidə qabiliyyəti, ictimai-siyasi hadisələrə ağıllı

və təmkinli müdaxiləsi, fəhmi, düşüncə tərzi məni həmişə sevindirib. Bizim söhbətlərimizdə onun baş mövzusu həmişə Azərbaycan torpağı, Azərbaycan xalqının keçmişi, bu günü və sabahı olub. Azərbaycançılıq adlı çox müqəddəs və olduqca vacib bir ideyanın çiçəklənməsi olub. Elmi və ədəbi mühitin, ictimai-siyasi aləmin ən maraqlı cəhətləri, görünən və görünməyən tərəfləri onun üçün sağlam və tükənməz bir yaradıcılıq mənbəyi olub. O nədən yazırsa yazsın, hansı janrda, hansı formada qələm işlədirsə işlətsin onun hamısında bir mütaliə zənginliyi və müşahidə ustalığı var. İstər azərbaycançılıqdan yazsın, istər repressiya qurbanlarından, istər böyük müəllimlərindən, istər yazıçı və şair dostlarının əsərlərinə münasibətdən, nədən və kimdən yazırsa yazsın həmişə ürəklə yazır. Tənqidində də, tərifində də, sevgisində də, nifrətində də ardıcıl və prinsipial, əqidəli və döyüşkən, səmimi və təbiidir. Onun nə elmi və bədii yaradıcılığında, nə şəxsi keyfiyyətlərində, nə də ünsiyyət mədəniyyətində əllaməçilik və qondarmaçılıq yoxdur. Az-çox yaşadıq, dünya gördük, yaxşıları, yamanları tanıdıq. Quruyan, rəsmiləşən, oxlov udan, göylə gedən dostlarımız çox oldu. Ancaq mən Nizaməddin müəllimi həmişə şux, təravətli, həyat eşqi ilə dolu və bütöv gördüm.

O canlı həyat adamıdır. Yasın da, toyun da, zarafatın da, gerçəyin də, yolların, səfərlərin də, elmi məclislərin də yaraşığı, həmdəmi, sirdaşıdır. Onu müəllimləri də çox istəyib, tələbələri də. Dostları da çox istəyib, qonşuları da. Gözəllər də çox istəyib, şairlər də. Onu tənqidçi və ədəbiyyatşünas, nəzəriyyələri alim, müəllim və pedaqoq kimi də mütəxəssis alimlər həmişə yüksək qiymətləndirib. Bu keyfiyyətlər və cəhətlər onun bütövlüyü, tamlığı və xoşbəxtliyidir. Dostumun, qonşumun, sirdaşımın, əzizimin, könül adamının bu xoşbəxtliyi qəbir evinə qədər ondan ayrılmasın, onunla əbədi yol yoldaşı olsun.

***11.12.2010***

## ELİMİZİN ƏZİZ OĞLU MƏHƏBBƏT QARABAĞLIYA

Ürəkdolusu səmimi salamlarım təbiidir. Siz başda olmaqla mənimlə duz-çörək kəsən, əhdi-peyman edən bütün Mingəçevirli dostlara şair salamı göndərirəm.

Sizin xoş sədalarınız həmişə mənim ilhamıma qanad, sözümə söykək olur.

Sizinlə sözün həqiqi mənasında fəxr edirəm. Ancaq həyatda elə məqamlar, anlar olur ki, insan istəyini sübuta yetirmək əvəzinə, əziz bir dostunun yanında xəcalət olur. Şəxsən mən elə vəziyyətdəyəm.

Sizin görüşünüzə gələ bilməməyimin vacib və üzrlü səbəbi olsa da, hətta siz məni bağışlasanız da mən özümü bağışlaya bilmərəm.

Hər halda, az da olsa yüngülləşmək üçün sizdən – gözəl bir insandan üzr istəmək mənim vicdani borcumdur.

Tariyel müəllim çox sağ olsun, sizin salamlarınızı mənə yetirdi. Eyni zamanda çox haqlı gileyinizi də yetirdi ki, "Deyərsən ondan küsmüşəm".

Məhəbbət müəllim, tale hər kəsin şəxsiyyətinə bir cür xarakter bəxş edir. Mən hədsiz dərəcədə kövrək, gözüyaşlı, dili bayatılı bir adamam. Dədələrin gözəl bir söhbəti var: "Axşam öz-özünə haqq-hesab verəndə, yorğanı başına çəkəndə kim sənin könlünə toxunubsa onu unut, sən kimin könlünə toxunmusansa, onu unutma! Vicdan qarşısında həmişə hesabat ver". Mən həm könlümə toxunan olanda, həm də könlünə toxunduğum olanda (belə hallar, əlbəttə, çox nadir hallarda baş verir) əzab çəkirəm. Sizin küsmək söhbətiniz də məni hədsiz kövrəltdi ki, axı niyə belə oldu.

Unudulmaz Müşfiqin aşağıdakı misralarını xatırlayıram:

Məni öz canından artıq istəyən,
Ellərdən küsərəm, səndən küsmərəm.

Əlbəttə, bilirəm məndən küsməzsən, ancaq fakt budur ki, mən küsdürmüşəm. Təkrar edirəm! Siz tam mənada haqlısız.

Fikrimi sənə həsr elədiyim bir şeirlə tamamlayır, səni bağrıma basıram.

## QOŞMA

***Dostum Məhəbbət QARABAĞLIYA***

Üzməzmi ömrümü həsrət, intizar,
Məndən dağ inciyə, təbiət küsə?
Nə əlim yetişə, nə ünüm çata,
Bulaq üz döndərə, şeriyyət küsə.

Yox olar aranda, dağda gözəllik,
Saralar, tökülər tağda gözəllik.
Güldə güllük qalmaz, bağda gözəllik,
Ondan ətir qaça, təravət küsə.

Zəlimxan, onsuz da mən dönə-dönə,
Düşmüşəm borana, düşmüşəm çənə.
Bəxtimin küsməyi dərd deyil mənə,
Dərd odur şairdən Məhəbbət küsə!!!

***01.05.1982***

## YAZIÇI ƏLİSA NİCATA AÇIQ MƏKTUB

Hörmətli Əlisa müəllim!

Ağır əziyyətin, yuxusuz gecələrin, zəngin mütaliənin, güclü tədqiqatçılıq bacarığının bəhrəsi kimi dünyaya gəlmiş, çox az tirajla (təəssüf) nəşr olunmuş "Dünya filosofları" kitabınızı böyük maraqla oxudum. Bəşəriyyət tarixinin, dünya xalqlarının, sivilizasiyaların, intibahların, ruh və qüvvət sahiblərinin, qılınc və qələm ustalarının, təfəkkür və ağıl sultanlarının, allahlaşmış dahilərin, əbədiyyət evinin əbədi sakinlərinin tarixi və taleyi, ömür yolu, tərcümeyi-halı məni fəlsəfə və poeziya adlı, tarix və şəxsiyyət ünvanlı, məhbəs və azadlıq nişanlı, müstəqillik və köləlik məzmunlu duyğuların qoynuna atdı, burulğanına tulladı.

Mən nə filosofam, nə tarixçi, nə tədqiqatçı. Bunların heç birinə baxmayaraq kitab məni elə tutdu ki, bir də gördüm dəftər qarşımda, qələm əlimdə Sizə minnətdarlıq məktubu yazıram.

Mübaliğəsiz deyə bilərəm ki, ömrümün tələbəlik illərindən başlamış bu günə qədər Sizin yazılarınızın hamısını – istər orijinal əsərlərinizi, istər tərcümə yaradıcılığınızı ardıcıl izləmiş, diqqətlə oxumuşam. Müxtəlif mətbuat orqanlarında, qəzet və jurnal səhifələrində, ayrı-ayrı kitablarda İslam intibahı ilə, türkçülük və turançılıqla, qədim dünya filosofları ilə bağlı əsərlərinizi sevə-sevə mütaliə etmişəm. "Dama-dama göl olar", – deyib atalarımız. Düşüncələr, axtarışlar, özünəçəkilmələr, özündənqaçmalar, narahat hisslər, özündən narazılıq duyğuları yığıla-yığıla, arta-arta, çoxala-çoxala gəlib 600 səhifəlik bir kitaba çevrilib. Bu nəşri mən son

illər Azərbaycan kitab mədəniyyətinin ən böyük nailiyyəti, uğuru hesab edirəm. Fransız yazıçısı Alber Kamyu haqqında yazırsınız ki, "vəfatından sonra onun həcmcə o qədər də böyük olmayan yaradıcılığının tədqiqi üçün tam bir institut yaradılmışdır". Bu gün bizdə yağışdan sonra çoxalan göbələk kimi heç bir elmi əsası, maddi-texniki bazası olmayan, rüşvətin ayaq açıb yeriməsinə səbəb olan, maarifçilik ideyalarının saflığını sarsıdan, gülüş və lağ hədəfinə çevrilən, "özəl" adıyla xalqa sırınan "universitetlər" əvəzinə yaxşı olmazmı ki, belə kitabların arzuolunan səviyyədə tədrisi və təbliği üçün ciddi ali məktəblər fəaliyyət göstərsin. Görün onda bu xalqın gəncliyi və gələcəyi nələr qazanardı! Nə isə... mətləbdən uzaqlaşmayaq.

Hörmətli Əlisa müəllim!

Əgər bu kitab 10 il bundan əvvəl oxuculara təqdim olunsaydı, heç şübhəsiz, bu səviyyədə, bu həcmdə ola bilməzdi. İnanıram ki, 10 il bundan sonra da tamam başqa həcmdə, başqa sanbalda daha geniş, daha əhatəli şəkildə nəşr olunacaq. Mən uzaqgörənlik eləmirəm. Bunu mənə Sizin əzabkeş işgüzarlıq imkanlarınız diktə eləyir. Məni ən çox sevindirən cəhət ondan ibarətdir ki, bu kitab çox vaxtında nəşr olunmuşdur. Çünki bu gün xalqımızın belə əsərlərə – silkələyən, ayıldan, düşündürən, kökə qaytaran, mənliyə tapındıran, müstəqilliyə qovuşmağın sirlərini öyrədən, yollarını göstərən kitablara daha çox ehtiyac var. Dövlət xadimi də, siyasətçi də, yaradıcı ziyalı da, əkinçi də, guşənişin də, böyük arzular yolunda özünü şəhid edən də bilməlidir ki, dünyaya kimlər gəlib, kimlər gedib. Dünyaya nə gətirib, dünyada nə qoyub, dünyadan nə aparıblar. Yalan nədir, qalan nədir? Hay-küy nədir, həqiqət nədir? Dahi kimdir, adi kimdir? Ölüm hardadır, ölümsüzlük harda? Allah vergisi nə olan şeydir, çalışqanlıq nədir? İnsan əbədiyyəti harda axtarmalıdır? Təbiətin qoynundakı azadlığı,

genişliyi, böyüklüyü, cəmiyyətin içindəki cansıxıcılığı kim yaradıb? Bütün bu işləri yaradanın adı Tanrıdırmı, Allahdırmı, fələkdirmi, allahlıq eşqinə düşüb bəşəriyyətə faciələr gətirən, adını insan qoyan, düşünməyi bacaran heyvandırmı? Bu səpkidə bundan aşağı və yuxarı səviyyədə yüzlərlə sualın əsl cavabı, həqiqi şəkli, dürüst ifadəsi, aydın və təsirli əks-sədası var bu kitabda!

Kitabın ən böyük məziyyəti ondan ibarətdir ki, burada oxucunu aldadan, çaşdıran, yalançı parıltıyla gözqamaşdıran bir sətrə, bir cümləyə də rast gəlmək olmur. Min illərlə damla-damla yaranan elmi-fəlsəfi, bədii-psixoloji, poetik-mənəvi sərvətin böyük əziyyət bahasına bir məcraya yönəlmiş, bir kitabda toplanmış axarı, məcmusudur bu kitab. Nyuton demiş: "Kitab dahilərin çiynində dayanıb". Danimarka filosofu Kreykeqor Serenin "Yeganə" əsərindəki fikrə diqqət yetirin: "Siyasət yerdə başlayır ki, yerdə də qalsın, ilahiyyat isə əsasını göydən aldığına görə dünyəviliyi üstələyib, sonra da göyə merac etmək istəyir". Filosofun fikrini təsadüfən misal gətirmədim. Tez-tez dəyişən, astarı-üzü bilinməyən, cəmiyyəti haldan-hala salan siyasət başqa şeydir, sənəti, mənəviyyatı, paklığı, halallığı, işıqlı dərinliyi, aydın yüksəkliyi özündə birləşdirən ilahi qüvvə başqa şey! Bəli, ilahiyyatda allahlıq və peyğəmbərlik var, ona görə də insanı meraca çağırır, Allah dərgahına dəvət edir. Heç cür ağlıma gətirə bilmirəm ki, bu kitabı diqqətlə oxuyan adam (əlbəttə, əvvəldən bu sahədə elmi anlayışı, təfəkkürü varsa) yaxşılığa, xeyirxahlığa, ağla və müdrikliyə doğru özündə bir dəyişilmə hiss etməsin! Necə ola bilər ki, dumduru dağ çeşməsindən su içəsən, durulmayasan? Necə ola bilər ki, palıdın, qayanın duruşunu dərk edib, xarakter kimi mətinləşməyəsən? Necə ola bilər ki, günəşin nurunda çiməsən, içərini zir-zibildən, çirkabdan təmizləyə bilməyəsən? Dağ çeşməsi kimi durul, çəmən kimi yaşıllaş, zirvə kimi ucal, düz kimi genişlən, dəniz kimi qabar-çəkil, – deyir bu kitab!

Bütün zamanların, bütün ölkələrin elmi və bədii, tarixi və fəlsəfi, psixoloji və təbii mənzərəsini əks etdirən bu kitabı mən bir zamanla və bir məkanla məhdudlaşdırmaq istəməzdim. Ancaq elə fikirlərə rast gəlirik ki, istər-istəməz Azərbaycan torpağının, Azərbaycan xalqının dünəni, bu günü və sabahı suallı, nidalı şəkildə dayanır gözümün qabağında! Bu yerdə Hegelin bir fikrini oxucuya xatırlatmamaq olmur: "Xalqların ölümdən qorxması onların azadlığının məhvinə səbəb olur". Allah eləsin ki, Azərbaycan xalqı heç vaxt ölümündən qorxmasın! Kövrək müstəqilliyi qorumaq, parçalanmış əraziləri bütövləşdirmək, düşməni üstümüzə güldürməmək üçün bu gün bizim xalqa ölümdən qorxmamaq yolu seçilməlidir! Bu yolda bütün imkanlardan ən yüksək və ən ağıllı səviyyədə istifadə olunmalıdır! Kitabın bizə xatırlatdığı böyük həqiqətlərdən biri budur!

Hörmətli Əlisa müəllim! Ürəyimdən dəli bir arzu keçir. Bu kitabda toplanan müdrik fikirləri, düşündürən sətirləri, şah beytləri, ilahi deyimləri, Allah kəlamlarını, sərt ifadələri bütün evlərə və ailələrə, duyanlara çatdırmaq üçün quşa dönəydim, qızıl bir quşa! Hikmətlər toplusunu yığcam bir kitabça kimi dimdiyimə götürüb qanad çala-çala qanadlı olmaq istəyən adamların qulluğuna yetirəydim. Onda deyərdim ki, bəli, mən də xalqıma xidmət etmişəm!

Kitabda o qədər köçürüləsi, qeyd olunası, yaddaşlara yazılası fikirlər var ki, insan müdrik fikirlər bolluğunda itib-batır, qayıdıb özünü tapmağa qüvvəsi qalmır. Gücü bircə şeyə çatır: Düşünmək, düşünmək... Yaradılanı qorumaq, yaradanı sevmək!

Düşünən başların, böyük ürəklərin yadigarı olan ölməz əsərləri oxuduqca insan qəlbində qəribə hisslər, duyğular baş qaldırır. Təkcə danışmağı, söhbət etməyi yox, susmağı, düşünməyi, düşündürməyi, qulaq asmaq mədəniyyətini öyrənirsən. İstəyirsən hərc-mərcliklə,

anlaşılmazlıqla, təmənnalı münasibətlərlə dolu olan, çirkab və yalan içində itib-batan bir həyatı atıb, maddi aləmdən üz çevirib, mənəvi aləmin, təmənnasız, azad, geniş bir dünyanın qucağına atılasan! Diogensayağı bir loxma çörəklə, bir qurtum su ilə dolanmağa özündə qüdrət tapasan. Tanrıya qovuşmaq məqamları həmişə səninlə ola! Çəkiləsən təbiətin bir bucağına. Gündüzlər gün işığı dostun, gecələr Ay işığı həmdəmin ola! Cəmiyyətin yox, təbiətin sirdaşına çevriləsən. Çünki təbiətdə olan saflıq, təmizlik, halallıq, sakitlik cəmiyyətdə yoxdur və ola da bilməz! Təbiətin bir parçasına çevriləndə tam azad və rahat olacaqsan. Biləcəksən ki, Günəş işığını, Ay nurunu, bulaq suyunu, bulud yağışını, dağlar təmiz havasını sənə versə də, təmənnalı qazanc kimi qaytarıb sənin başına qaxmayacaq. Ona görə əbədi sakitlik səni xoşbəxt edəcək. Demək olar ki, kitabın bütün səhifələri bu müqəddəs duyğuların ətrinə bələnib.

Kitabı qəlbinin gözüylə oxumağı bacaranlar – Çin fəlsəfəsindən qədimliyi, Konfutsidən insanın ali keyfiyyətlərini, yüksək əxlaqi dəyərlərini, Hind fəlsəfəsindən, Buddadan müdrikliyi, Taqordan fikrin poetik zərifliyini, şairanə deyim tərzini, Azərbaycan fəlsəfəsindən Zərdüştlüyü, peyğəmbərliyin sirlərini, yunan fəlsəfəsindən yeddi müdrikin dahiliyini, dahilərin arasındakı əqli qidalanmanı və fərqi, Pifaqordan həqiqətpərəstliyi və doğruçuluğu, Herodotdan tarixi biliklərə yiyələnmək məharətini, Sokratdan sadəliyi, “onu bilirəm ki, heç nə bilmirəm” etirafını, özünüdərketmənin ən uca zirvəsini, Diogendən göz və könül toxluğunu, Fərabidən və İbn-Sinadan yan-yana bir neçə ömrü yanaşı yaşamaq möcüzəsini, Məhəmməd Peyğəmbərdən idrakın və təfəkkürün, böyüklüyün və sadəliyin əlçatmaz ucalığını, Həzrət Əlidən ağılla gücün vəhdətini, Nitsşedən həyata sərt münasibəti, axına qarşı üzmək cəsarətini və s. (bu fikirlər silsiləsini istənilən qədər uzatmaq olar) öyrənmək, görmək, götürmək və yeni tarixi mərhələlər üçün inkişaf etdirmək olar.

Kitabın oxucu üçün tamam yeni keyfiyyətlərindən biri də ondan ibarətdir ki, marksizm-leninizm klassiklərinin tüğyan elədiyi bir dövrdə haqqı tapdanan, adı batırılan, ensiklopediyalara düşməyən, arxivlərdən belə qovulan, dövrün haqsızlıqları ilə barışmayan, aydın zəkalı, kəskin fikirli, əzəli və əbədi meyarlara meydan verən şəxsiyyətlərin yaradıcılığına ilk dəfə olaraq geniş yer verilmişdir. Bu cəhət özü də oxucuya çox şey deyir. Onu deyir ki, zaman təkcə bu gün deyil, sabah var, gələcək var, qanadlı ümidlər, böyük arzular var. Həqiqi ilham və istedad sahibi olan adamların iradəsini heç nəylə – zindanla, məhbəslə, müxtəlif rəngli qadağalarla qırmaq, məhv etmək olmaz! Dağ çeşməsi kimi, bir yerdən batırsalar da, hökmən başqa yerdən göz verib əbədi axarını davam etdirəcək! Bir də onu deyir ki, öz həqiqətinə sadiq ol, Haqqın səsinə qulaq as, həqiqət naminə axına qarşı üzməyi bacar! Ruhdan düşmə, mübariz ol! Aydın fikirləş, doğru danış, dürüst addımla, nala-mıxa döymə! Mövqeyin birinci özünə, sonra da cəmiyyətə bəlli olsun! Cəmiyyət bilsin ki, sən hansı yuvanın quşusan! Bir də onu bil ki, halal zəhmət itmir. Əl qabarı, alın təri öz bəhrəsini verir. Deməli, şair demiş, yaşamağa dəyər!

Bu kitab işgəncələr və əzablar (Sizif haqqında əsatir), tövbələr və durulmalar, andiçmələr və ayılmalar, peşmançılıqlar və təmizlənmələr kitabıdır. Sözə qüvvət kimi alman filosofu Şopenhauerin bir fikrini misal gətirmək istəyirəm: "Böyük zəkalar bəşəriyyətə nə verməlidirlərsə, onlar onu artıq gənclikdən toplamağa başlayırlar". Bu fikrin məntiqi davamı ondan ibarətdir ki, müsəlmanların qibləsi Məkkədirsə, bəşəriyyətin qibləsi dahi şəxsiyyətlər, ustadlar, sərkərdələr, dühalar, Peyğəmbərlərdir. Gənclik üzünü dədələrə tutanda, yönünü sənət Məkkəsinə, elm məbədinə, fikir ehramına, hikmət türbəsinə çevirəndə kamilləşmə yolunda yorulmaq bilmədən irəliləyir və kamilləşir.

Kitabla bağlı deyilməli mətləblər, toxunmalı məsələlər, açılmalı sirlər, gətirilməli zəngin misallar o qədərdir ki, bilmirəm bu məktubu hardan başladım, harda bitirməliyəm. Bildiyim bir şey var, o da Sokratın gəldiyi qənaətdir: "Bir onu bilirəm ki, heç nə bilmirəm".

Hörmətli Əlisa müəllim!

Mən sizə minnətdarlıq duyğuları ilə dolu olan ürəyimin incə hisslərini vərəqlərə köçürməklə bir az yüngülləşdim. Bu yüngülləşmə kitabdan ayrılmaq üçün deyil, kitaba ikinci dəfə yenidən qayıtmaq üçündür. Rus filosofu Pyotr Çadayevi burada xatırlamamaq mümkün deyil. Filosof öz xalqına üz tutaraq yana-yana, ürək ağrısıyla yazır: "İndi mən sizdən soruşuram, hardadır bizim müdriklər? Hardadır bizim mütəfəkkirlər? Nə vaxtsa əvəzimizə kimsə düşünübmü? İndi əvəzimizə kim düşünür?" Qızıl suyuna tutulası suallardır. İki yüz illik tarixə malik olan bu suallar bu gün bir insan kimi məni də düşündürür. Azərbaycan alimlərinin xətrinə dəyməsin. Onların içərisində şəxsiyyətinə, intellektual səviyyəsinə, elmi dünyagörüşünə dərin hörmət bəslədiyim ziyalılar var. Ancaq yuxarıda verilən sualların sərtliyi bu gün bizim üçün də öz qüvvəsində qalır. Niyə susuruq, kimi gözləyirik? Fikir adamlarımızın, təfəkkür sahiblərimizin qiymətini niyə vaxtında vermirik? Buna da qərarmı, göstərişmi lazımdır, bəyanatmı verilməlidir? Biz özümüz öz şəxsiyyətlərimizin qədrini bilməsək, kənardan heç kəs gəlib bizə qədir ağacı əkməyəcək!

Bu kitab mənə bir həqiqəti də çatdırdı. Millətin ən böyük faciəsi maddi yoxsulluqda, çörək qıtlığında deyil, mənəvi yoxsulluğunda, mütaliə mədəniyyətindən uzaqlaşmağında, kitabdan aralı düşməyindədir. "Sabir çörəksiz qalar, Nizamisiz yaşaya bilməz!" – deyən böyük Sabirin əvəzsiz kəlamlarını, bu fikrin daşıdığı müqəddəs mənanı heç vaxt unutmamalıyıq! Unutmamalıyıq, ona görə ki, unutsaq nə Nizami bizi bağışlayar, nə də Sabir.

Əgər müstəqil dövlət, azad xalq, sağlam gənclik, bütöv ərazi sahibi olmaq istəyiriksə, elmlə, kitabla bağlı işlərimizi gündəlik məsələ kimi hər gün, hər saat düşünməliyik!

Hörmətli Əlisa müəllim!

Bu kitabın ictimai dəyərini, elmi qiymətini, fəlsəfi əhəmiyyətini mənim məktubum, münasibətim deyil, elmi-ədəbi mühit, ictimai rəy verəcək. Mən də ağlımın və ürəyimin diktəsindən yaranan minnətdarlıq duyğularını Sizə çatdırmaq istədim. Mətbuatda oxudum ki, bu günlərdə 60 yaşınız tamam olub. Mübarək olsun, ömrün müdriklik zirvəsi! Açıq məktubumu təbrikim və səmimiyyətim kimi qəbul etməyinizi xahiş edirəm! Tale Sizə yar olsun! Amin!

***15.02.1997***

# TƏRCÜMƏ MƏRKƏZİNİN DİREKTORU YAZIÇI AFAQ MƏSUDA AÇIQ MƏKTUB

Hörmətli Afaq xanım!

Orijinal yaradıcılığına, tərcüməçilik fəaliyyətinə, ictimai mövqeyinə rəğbət bəslədiyim, əsərlərini sevə-sevə oxuduğum istedadlı qələm sahibi kimi tanıdığım bir yazıçıya – Afaq xanıma məktub yazmaq qərarına gəldim.

Oxucuların kitabxanalardan, alıcıların kitab dükanlarından soyuduğu, Bakı şəhərində kitabxanaların və kitab dükanlarının qeybə çəkildiyi bir vaxtda, əsl mütaliə həvəskarlarının barmaqla sayıldığı bir zamanda heç kəsin heç kəsi oxumadığı, hamının hamını inkar etdiyi bu hərc-mərclik dövründə, mətbuatda təhqirlərin və söyüşlərin baş alıb getdiyi bir vaxtda sizin rəhbərlik etdiyiniz Tərcümə və ədəbi əlaqələr mərkəzinin işləri, bu mərkəzdə çalışan qələm dostlarımızın fəaliyyəti böyük rəğbətə və xüsusi məhəbbətə layiqdir.

Bu mərkəz fəaliyyətə başlayandan bu günə qədər istər nəşr etdirdiyiniz ayrı-ayrı kitablar, istər də "Xəzər" jurnalının nəşri ədəbiyyatımızda son illərin ən böyük hadisəsi kimi qiymətləndirilməlidir.

Biz bu gün "Don Kixot"u, "Cinayət və cəza"nı, "Hərb və sülh"ü, "Səfillər"i, "Martin İden"i, "Başsız atlı"nı, "Ovod"u, "Atalar və oğullar"ı, "Hamlet"i, "İliada"nı, "Şahnamə"ni, "İlahi komediya"nı, "Qaçaqlar"ı, "Faust"u, "Yevgeni Onegin"i, "Pələng dərisi geymiş pəhləvan"ı (bu siyahını xeyli uzatmaq da olar) tərcümə edən şəxsiyyətləri necə hörmətlə və şükranlıqla anırıqsa, (tərcü-

mələrin keyfiyyət dərəcəsindən asılı olmayaraq) məndə zərrə qədər şübhə yoxdur ki, qədirbilən tələbkar oxucularımız da sizi, kollektivi belə bir sevgiylə zaman-zaman yaşadacaqlar. Buna sözün böyük mənasında sizin tam mənəvi haqqınız var.

Bu illər ərzində tərcümə elədiyiniz və mənim ehtirasla mütaliə elədiyim müəllifləri göz önünə gətirsək yaranan mənzərə kifayət edər ki, bu işin adını böyük vətəndaşlıq işi adlandırasan. Məhəmməd Peyğəmbər, İsa Məsih, Həsən Bəsri, C.Rumi, Ə.Qəzali, X.Kortasar, E.Hemenquey, X.Rulfo, R.Koelyo, P.Neruda, Q.Markes, A.Kamyu, U.Folkner, T.Kafka, A.Platonov, V.Mayakovski, S.Yesenin, A.Rembo, H.Heyne, V.Şekspir, T.Vulv, U.Uitmen, V.Lyosa, O.Giladze, A.Blok, M.Svetayeva, U.Eko, X.Borxes, J.Eşnos, qədim filosoflar, A.Kinzberq, E.Po, L.Andreyev və başqa böyük yazıçılar və şairlər sizin qələminizin, istedadınızın və zəhmətinizin qüdrətiylə bal kimi şirin Azərbaycan dilində danışırsa, Azərbaycan ruhuyla nəfəs alırsa, minlərlə oxucuların mənəvi dünyasına işıq saçır, təfəkkür genişliyi, idrak dərinliyi, üfüq sonsuzluğu, zirvə ucalığı yaradırsa, bunu ancaq təmiz ürək və təmiz niyyətlə alqışlamaq, təqdir etmək, dövlət səviyyəsində bu işin daha geniş vüsət alması haqda fikirləşmək lazımdır.

Əzizim Afaq xanım!

Mənim orta məktəb illərində yaxşı ədəbiyyat müəllimlərim olub. Rəşid müəllimin və Novruz müəllimin adlarını xüsusi ehtiramla çəkməyi özümə borc bilirəm. Bu gün onların heç biri həyatda yoxdur. Gorları nurla dolsun. Onların mənə bir qiymətli tövsiyələri olmuşdu ki, oxuduğum əsərlərdən xoşuna gələn fikirləri qeyd dəftərçəsinə köçürmək yadından çıxmasın. Qulaqlarımda sırğa elədiyim bu fikir həmişə mənim dadıma çatıb. “Xəzər” jurnalının müxtəlif saylarında oxuduğum əsərlərdən qeydlər bu gün az qala bir kitab həcmindədir. Sağlıq olsun, belə bir

fikrim var ki, yaxın gələcəkdə onları (sizin xahiş və məsləhətinizlə) bir toplu halında ayrıca kitab kimi nəşr etdirim. Bu toplu oxuculara çox şey verə bilər.

Mən həmişə bu fikirdə olmuşam ki, heç bir internet, kompüter, kino, çoxseriyalı filmlər insana – oxucuya kitabın, bədii əsərin verdiyi emosiyanı, müdrikliyi, psixoloji, fəlsəfi, ədəbi-bədii keyfiyyətləri aşılaya bilməz. Mənim fikrimcə "Hərb və sülh" romanını oxumaq başqa şeydi, eyniadlı filmə baxmaq tamamilə başqa şey. "Dəli Kür" romanını oxumaq başqa dünyadı, eyni adlı filmə baxmaq başqa şey. Kinoşünaslar, kino işçiləri məni bağışlasınlar. Kinonun tarixi əhəmiyyətini, cəmiyyətdə oynadığı rolu qətiyyən azaltmaq fikrində deyiləm. Bu, başqa söhbətin mövzusudur. Ancaq söhbət bədii əsərdən gedirsə, hansı zamanda yazılmağından asılı olmayaraq hadisəyə çevrilən hər bir əsər bütün zamanların və bütün millətlərin sərvətidir. A.Məmmədovun, A.Məsudun, N.Səfərovun, Z.Fəxrinin, R.Rövşənin, C.Yusiflinin, Yaşarın, T.Vəliyevin, M.Qarayevin, N.Əbdülrəhmanlının, V.Bayatlının, İ.Fəhminin tərcümələri mübaliğəsiz və şübhəsiz müasir Azərbaycan ədəbiyyatına, tərcümə sənətinə elə bir qiymətli hədiyyədir ki, onu heç bir maddi dəyərlə ölçmək olmaz. Heç bir maddi dəyər bu əsərlərin insana təsirini əvəzləmək gücündə deyil.

Bu əsərləri sevə-sevə oxuduqca ürəyimdə istər-istəməz bir arzu baş qaldırır. "Xəzərin kitabxanası" seriyasında Folknerin "Avqust işığı"nı, A.Platonovun hekayələrini, Edqar Ponun və A.Rembonun şeirlər və hekayələr toplusunu, O.Çiladzenin "Uğuruma çıxan adam"ını, A.Kamyunun "Qeydlər"ini, P.Neruda haqqında xatirələri, P.Koelyonun "İşıqçı savaşçının kitabı"nı, X.Rulfonun "Pedro Paramo"sunu, Markesin "Küskün gözəlçələrimi xatırlarkən"i, Kartasarın hekayələrini, Leonid Andreyevin "Yeddi məhbusun hekayəti"ni, H.Steynbekin "Ağ bildirçin"ini, İ.Buninin "Çexov haqqında", J.Eşnosun

"Royal arxasında" əsərləri ayrı-ayrı nəfis kitablar halında oxucuların kitab rəflərində görmək istəyirəm.

Roman və povestlər, şeirlər və poemalar, esselər və müsahibələr, məktublar və xatirələr nə qədər oynaqlı, cazibədar bir mənzərə yaratdı. Jurnalın tirajı ürəkağrıdan az bir sayda – 500 ədəd nəşr olunursa, hansı ədəbi uğurlardan, oxucu auditoriyasından söhbət gedə bilər. Bu jurnalın tərcüməçiləri öz ömrünü-gününü, taleyini, gözünün nurunu, bütün enerjisini tərcümələrə həsr edir. Ancaq çəkilən zəhmətin müqabilində alınan qonorar heç tərcüməçinin kağız puluna çatmır. Bu, çox acınacaqlı haldır. Müstəqil Azərbaycanımızın iqtisadi inkişafında olan yüksəliş bizə imkan verir ki, tərcüməçilərimiz ən yüksək səviyyədə dövlət qayğısı ilə əhatə olunsun. Bundan heç kəs heç nə itirməz, əvəzində qazanan xalqımız, mənəvi dəyərlərimiz, ədəbiyyatımız, böyük SÖZÜMÜZDÜR.

Bu jurnal ona görə belə yüksək diqqətə və qayğıya layiqdir ki, Amerikanı, Avropanı, Asiyanı, bütün Şərqi əhatə edən bütün zamanların dahilərini Azərbaycan mədəniyyətinin tükənməz mənəvi sərvətinə çevirə bilir.

Rəhmətlik A.Məmmədovun təşəbbüsü ilə araya-ərsəyə gələn, 1989-cu ildən müxtəlif fasilələrlə çıxan, iqtisadi çətinliklərlə qarşılaşan, ancaq öz dəsti-xəttini heç vaxt itirməyən, öz yoluna, üslubuna, xarakterinə sadiq qalan "Xəzər" jurnalı bu illər ərzində çox iş görüb.

Ancaq təəssüflər olsun ki, bu jurnalın fəaliyyəti mətbuatda, ədəbi mühitdə elmi ictimaiyyətdə layiqli qiymətini almayıb. Bu illər ərzində tərcümə və nəşr olunan heç bir əsər haqqında geniş, məzmunlu rəylərə, yazılara, tənqidçilərin mülahizələrinə, xeyirxah münasibət bildirən fikirlərə rast gəlməməyimiz acı təəssüf hissi doğurur. Görülən işləri görənlərin görməməzliyə vurması

ədəbi xəzinəmizin zənginləşməsinə yox, yoxsullaşmasına xidmət edir.

Hörmətli Afaq xanım!

Mənim içərimdə özümə gün kimi aydın olan bir həqiqət yaşayır. Bu həqiqət ondan ibarətdir ki, insan hayana gedir getsin, hardan gəlir gəlsin, hara qədər ucalır ucalsın, hara qədər enir ensin, hansı tarixi mərhələdə yaşayır yaşasın, dəxli yoxdur, o hökmən "İncil"lərin, "Quran"ların, "Xəmsə"lərin, "Avesta"ların, "Nəchülbəlağə"lərin, "Leyli və Məcnun"ların, "Don Kixot"ların, "Dədə Qorqud"ların, "Hophopnamə"lərin, "Səfillər"in yanına qayıdacaq, ziyarətinə gələcək. Dünyanı gözəllik xilas etdiyi kimi, gözəlliyi də kitab, mütaliə, mədəniyyət xilas edəcək. Bir vaxtlar kitaba and içən insanlar yenidən kitabı and yerinə çevirəcəklər. Hər gün qarnını dolduran, beynini, ürəyini, ruhunu doldurmağın qeydinə qalmayan insanlara dünyanı etibar eləmək olmaz. Min illər boyu insanlığı və insanları İsgəndərlər, Şirazlar, Napalyonlar, Pyotrlar, Stalinlər, Hitlerlər, Qorbaçovlar yox, Əflatunlar, Diogenlər, Qalileylər, Nəsrəddin Tusilər, İbn Sinalar, Fərabilər, Tolstoylar, Dostoyevskilər, Nəsimilər, yəni kitabı olanlar və kitaba tapınanlar idarə edib və edəcək. Allah kəlamından, kitabdan, sözdən, düşüncədən, təfəkkürdən, mütaliədən qaynaqlanmayan gələcək ancaq və ancaq ölümə məhkumdur. İnsan ancaq müşahidələri ilə yox, həm də mütaliələri ilə, zəngin düşüncə tərzi ilə insandır.

Hörmətli Afaq xanım!

Rəhmətlik Natiq Səfərovun ruhuna müraciətlə yazdığın məktubda "Başımı sufilərlə qatıram" deyirsən.

Mənim əziz qələm dostum, sən bu fikri deməkdə çox təvazökarlıq etmisən. Səninki baş qatmaq deyil. Sufilərdən yazmaqla, onları çox ustalıqla dilimizə çevirməklə bizi – bu gün yaşayan bizi, sabah dünyaya gələcək olanları saflığa, duruluğa, təmizliyə, könül zənginliyinə,

halallığa, mənəvi ucalığa, dərvişlərin, uluların, ozanların, Ə.Yəsəvilərin, C.Rumilərin, Yunis İmrələrin, Hacı Bəktaş Vəlilərin dərgahına çağırırsan. Kaş bütün qələm sahibləri başımızı beləcə sizin kimi qataydılar. Hamımız elliklə xoşbəxt olmazdıqmı?

"Xəzər"in səhifələrində məni çox sevindirən bir cəhəti də sizin diqqətinizə çatdırıram. Bu gün təkcə rus dilindən deyil, dünyanın əksər aparıcı dillərindən, orijinaldan birbaşa gözəl tərcümələr edən çox istedadlı, tərcüməçilər nəsli yetişib.

Milli şüura, milli təfəkkürə, yüksək savada, zəngin söz ehtiyatına, intellektual düşüncə tərzinə, yaradıcılıq ilhamlı istedada malik olan bu qələm sahibləri böyük ədəbiyyat, ciddi ədəbiyyat deyilən bir mənəvi sərvətə sahib olan, bu sahiblik haqqına layiq olan yazıçı, şair, tərcüməçi dostlarımızla biz qürur duymalı, onların həm orijinal, həm də tərcüməçilik fəaliyyətlərini səxavətlə təbliğ etməli, yaymalı, onlara maddi və mənəvi dəstək olmalıyıq, yaşatmalıyıq. "Xəzər"in tərcüməçilik fəaliyyəti artıq belə bir fikri irəli sürməyə əsas verir ki, bu sahə ilə bağlı şəhərin ən gözəl bir yerində "Tərcümə mərkəzi" adlı bütün lazımi avadanlıqla təmin olunmuş gözəl bir bina tikilməlidir. Sözümüzə, ədəbiyyatımıza, mənəviyyatımıza lazımi şərait yaradan bir bina. Millətimizin xoşbəxtliyinə qismət olsun, hər gün Bakıda bir-birindən gözəl şadlıq evləri tikilir. Çox gözəl, kimin nə sözü ola bilər. Ancaq arzu edərdim ki, böyük imkan sahibi olan iş adamları belə bir xeyirxahlıq nümunəsi göstərsinlər. Kim bu işin ağırlığına çiyin versə, mənəvi dəyərlərimizə və özünə heykəl qoymuş olacaq. Əgər bu gün sağlam tərcüməçiləri bir orduya çevirib, bir araya gətirə bilsək, bu Mərkəzin fəaliyyətini ayrıca institut səviyyəsinə qaldıra bilsək, onda Azərbaycanda tərcümə

məsələləri tərcümə sənəti səviyyəsində kamilləşər, püxtələşər, zəif tərcümələr və zəif tərcüməçilər nə özlərini, nə də bizləri aldada bilməzlər. Ramiz Rövşənin Mayakovskidən, Blokdan, Yesenindən, Zakir Fəxrinin Uitomenodən elədiyi tərcümələri görən, duyan müəlliflər cəsarət edib zəif tərcümələri mətbuata sırımazlar.

Hörmətli Afaq xanım!

Rus xalqının böyük ziyalıları tərcümə sənətindən söz düşəndə Jukovskinin adını az qala Tolstoyla, Puşkinlə, Belinski ilə yanaşı çəkir, bu gün də onun adı və istedadı ilə fəxr edirlər. Arzum ondan ibarətdir ki, "Xəzər" jurnalının ətrafında birləşən tərcüməçilərimiz bu sahədə elə bir vətəndaşlıq yanğısı ilə işləsinlər ki, gələcək nəsillər onların adını dünyanın böyük istedadları ilə bir cərgədə çəksinlər. Sizin bu arzunu həqiqətə çevirməyə gücünüz çatar. Tərcümə işinin ciddiliyinə və tarixi əhəmiyyətinə fikir verin ki, Dostoyevski kimi bir dahi rus ədəbiyyatının tərcüməsi ilə bağlı belə bir fikir söyləyir: "Avropa şair və mütəfəkkirlərinin hamısı rus dilinə tərcümə oluna bilir, ruscada verilə bilir, bir qismi mükəmməl şəkildə tərcümə olunub. Bununla yanaşı, rus xalq dili və ədəbi-bədii əsərlərimizdən çox böyük hissəsi bu günə qədər Avropa dillərinə tərcümə oluna bilmir. O dillərdə verilə bilmir".

Bu gün bu sahə ilə bağlı mənim ürəyimdəki ən böyük arzu ondan ibarətdir ki, Azərbaycan dilinə olan tərcümələrlə yanaşı, Azərbaycan dilindən xarici dillərə çevrilmək, dünyaya çıxmaq mümkün olsun. Bunun üçün bizə çox istedadlı və səviyyəli tərcüməçilər lazımdır. Biz tərcümə siyasətimizin yarıtmazlığı ucbatından ən layiqli əsərlərimizi, ən qüdrətli yazıçı və şairlərimizi belə nəinki dünyaya, heç yaxın qonşu ölkələrə də çıxara bilməmişik. Bu işlərin səviyyəli şəkildə görülməsi üçün bir daha dövlət qayğısına böyük ehtiyac var. Bu sahə ilə bağlı

nazirliklər, əlaqədar təşkilatlar düşünüb-daşınmalı, konkret təkliflər hazırlamalı və həyata keçirməlidirlər.

Bütün bu məsələlərin reallaşması, uğurlu nəticələr verməsi üçün sizin şəxsinizdə Tərcümə Mərkəzinin əməkdaşlarına "Xəzər" jurnalının kollektivinə, hörmətli qələm dostlarımıza böyük Ədəbiyyat naminə uğurlar arzulayıram.

Yazın, yaradın. Səməd Vurğun demişkən:
Dünyada qalacaq yalnız yaradan!

***09.09.2006***

## ŞAİR-PUBLİSİST MƏMMƏD ƏFŞANA AÇIQ MƏKTUB

Hörmətli Məmməd müəllim!

Bu günlərdə böyük ziyalımız, əziz dostum akademik Əhliman Əmiraslanov mənə bir kitab bağışladı. Özünəməxsus təvazökarlığı ilə "vaxtın olsa, bir baxarsan", – dedi. Yazı-pozu işlərim çox olsa da, dost məhəbbəti məni xüsusi bir maraqla həmin kitaba doğru çəkdi. "Göyçənin tərlanı" adlı bu kitab elə ilk tanışlıqdan məni özünə bağladı. Tanrı səmimiyyəti ilə deyirəm ki, iki günə, bir nəfəsə mən bu kitabı su kimi ciyərlərimə çəkdim.

Kitab, böyük şəxsiyyəti, yüksək mədəniyyəti, uca ləyaqəti, misilsiz insanlığı ilə öz adını qızıl hərflərlə yaddaşlara həkk eləmiş Göyçənin gözəl oğlu, gəncliyindən el ağsaqqalı kimi böyük nüfuz qazanmış müəllimlər müəllimi, ictimai xadim, düşmən çəpəri, qeyrət qalası Tapdıq Əmiraslanova həsr olunmuşdu.

Bu ad mənə çox-çox doğmaydı. Bu doğmalığın səbəbi unudulmaz xalq şairimiz Hüseyn Arif olmuşdur. Hüseyn Arif Zal qızı Gülnazdan, İsgəndər kişidən, Qaçaq Kərəmdən, İsrafil ağadan, Səməd Vurğundan, Aşıq Mirzədən hansı şövqlə, məhəbbətlə danışırdısa, Aşıq Alıdan, Abbasqulu bəy Şadlinskidən, Yunis Rzayevdən, Tapdıq Əmiraslanovdan, Qəşəm Aslanovdan da həmin sevgi və məhəbbətlə söz açırdı. Hüseyn Arifin anası Göyçənin Cil kəndindən olduğuna, özü də həmin kənddə müəllim işlədiyinə görə Göyçənin tarixini, ədəbi, ictimai-siyasi mühitini, sazlı-sözlü dünyasını çox gözəl bilirdi. İndi bu kitabın Tapdıq Əmiraslanova həsr olunmasını biləndə Hüseyn Arif gəlib durdu gözlərimin önündə. Bu kitabı sona qədər sonsuz maraqla oxumağım üçün ən yaxşı bələdçim oldu, ustad xalq şairimiz.

Hörmətli Məmməd Əfşan!

Bu kitabın ən qiymətli cəhəti, ən dəyərli tərəfi ondan ibarətdir ki, kitabda Tapdıq Əmiraslanovun şəxsiyyəti fonunda bütövlükdə keşməkeşli tariximiz açılır, varaqlanır, zaman-zaman çarizmin, Sovet Stalin-Mikoyan-Xruşşov oyunlarının, rus şovinizminin, daşnak qaniçənliyinin Azərbaycan xalqına, türk dünyasına qarşı apardığı çirkin və tükürpərdici siyasət yenidən bizləri ayıq-sayıq olmağa, dostu, düşməni, tanışı olduğu kimi tanımağa çağırır. "Türkmənçay" və "Gülüstan" müqavilələrinin bizə vurduğu yaralar, Pyotrun vəsiyyətlərini həyata keçirənlərin yolunda özünü fəda edən icraçılar, ermənilərlə barışığa gedən adı dillərdə dastan olan Səməd Ağanın ürəyini partladanlar, Nəcəfin belinə qaynar samovar bağlayanlar, bizim torpaqlar hesabına özünə Vətən yaradanlar, Göyçə qaçqınında Dar dərəni "Sümüklü dərə"yə çevirənlər, qaçmağa macal tapmamış 700-dən çox Azərbaycan türkünü Şişqaya kəndində damlara doldurub yandıranlar, Tapdıq Əmiraslanov kimi bir kişini avtomobil qəzasına salıb, 58 yaşında ürəyini partladanlar, Ambarsumyanın xüsusi tapşırığı, fitvası ilə Göyçəyə Allahın bəlası kimi gələn koçinyanlar, nurcanyanlar bir daha bizə danılmaz bir həqiqəti xatırladır.

Ermənistanla barışığa, sülhə getmək istəyən Azərbaycanı ermənilərlə barışığa gedən Səməd Ağanın və Aşıq Nəcəfin taleyi gözləyə bilər. Bizim üçün bundan böyük daha nə ibrət dərsi ola bilər? Sonluğu hələlik Qarabağ faciələri ilə davam edən bu hadisələrdən qəti və birdəfəlik dərs götürə bilməsək, vay bizim halımıza.

Hörmətli Məmməd müəllim!

Ölkənin başçısı, ordunun sərkərdəsi, gəminin kapitanı, elin ağsaqqalı, evin böyüyü öz yerində olanda insanlar xoşbəxt olur, cəmiyyət rahat nəfəs alır.

Əmir Teymur xatirəli, Şah İsmayıl meydanlı, Miskin Abdal möhürlü, Ələsgər ünvanlı, Səməd Ağa nişanlı,

Aşıq Əsəd nərəli, Mirzəbəylər ürfanlı, Hacı Nağı hikmətli Göyçə mahalı zaman-zaman böyük alimlər və şairlər, aşıqlar və sərkərdələr, ustadlar və ozanlar yetirib. Bu gün də həmin ənənə davam edir. Xoşbəxtlikdən, torpağın məşhur yetirmələri olan Əhliman Əmiraslanovla, Məmmədtağı Cəfərovla, Səfiyar Musayevlə, Teymur Əhmədovla, Abuzər Xələfovla, Qəşəm Aslanovla, Həbib Həsənovla, Zərbəli Qurbanovla çox yaxın dost-qardaş münasibətimiz olub. Xoşbəxtəm ki, bu kişiləri, bu şəxsiyyətləri mən də görmüş, müxtəlif vaxtlarda onlarla yaxından təmasda olmuşam.

Bu şəxsiyyətlər arasında üzünü görmədiyim, ancaq haqqında az qala dastan, əfsanə səviyyəsində söhbətlər, xatirələr, şeirlər eşitdiyim iki şəxsiyyət var ki, onların biri "Türkün sultanı" adını almış Yunis Qəhrəman oğlu Rzayev, o biri "Göyçənin tərlanı" kimi şərəfli ad daşıyan Tapdıq Muxtar oğlu Əmiraslanovdur.

Bu həmin Tapdıq Əmiraslanovdur ki, bir böyük vəzifə sahibi olan erməni başqa bir vəzifə sahibindən soruşur ki, bu Tapdıq Muxtaroviç necə adamdır ki, İrəvanda akademikdən tutmuş Vardenisdə Kasparyana qədər hamı ondan danışır (Nurcanyanın Kasparyana atmacasından).

Bu həmin Tapdıq Əmiraslanovdur ki, Azərbaycanlılar yaşayan rayonları erməni rayonlarına birləşdirəndə (o da Xruşşovun diktəsi ilə olmuşdur) onun qeyrəti, yüksək savadı, iti ağlı sayəsində Basarkeçər müstəqil qalmışdı.

Bu həmin Tapdıq Əmiraslanovdur ki, ermənilər tərəfindən haqqı tapdanan, imtahanda kəsdirilən tələbəyə "Qırmızı attestat" verdirmişdi. Tərbiyəsi, mayası sazla, sözlə, Ələsgərlə, Həsən Xəyallı ilə, Zodlu Abdulla ilə, Xəstə Bayraməli ilə tutulan insan başqa cür ola bilərdimi? Bu həmin Tapdıq Əmiraslanovdur ki, İrəvanda təhsil alarkən anası ona "Oğul, pul tapa bilmədim, üzü-

yümü göndərdim sənə, satıb xərclik edərsən", – demişdi. Bu həmin Tapdıq Əmiraslanovdur ki, əmək fəaliyyətinə başlayanda ilk maaşıyla həmin üzükdən birini alıb anası Zərnigar xanımın barmağına keçirəndə – ana heyrətlə "ay oğul, bu nədir?" – deyə soruşanda – "Bu sənin mənə göndərdiyin üzüyün əvəzidir", – demişdir.

Bu həmin Tapdıq Əmiraslanovdur ki, içi erməni milliyyətçiliyi ilə dolu çirkab olan Sero Xanzadyanın kitablarının satışını Göyçə ərazisində Yunis Rzayev qadağan edib, "Nə qədər mən Basarkeçərdə birinci katibəm, Sero Xanzadyanın millətçiliklə dolu, daşnak təxəyyüllü kitabı Göyçədə oxunmayacaq!" – deyəndə Tapdıq müəllim onun arxasında dağ kimi dayanmışdı. Bu həmin Tapdıq Əmiraslanovdur ki, onun vaxtsız itkisi bütün Azərbaycanı silkələmiş, onun dəfn mərasimində Bakıdan, Gəncədən, İrəvandan, Naxçıvandan, Şərurdan, Dərələyəzdən, Tovuzdan, Qazaxdan, Borçalıdan, Ağbabadan gəlmiş insan axını 40 gün Zod kəndinin yollarına səpələnmişdir.

Zod kəndində "Qarabağlılar" nəslinin nümayəndəsi olan, 58 il ömür sürən, yaşadığı ömrü bütövlükdə elinə-obasına, təhsilə, maarifə, elmə, mədəniyyətə həsr edən, rus, erməni, gürcü dillərini çox mükəmməl bilən, Azərbaycan elminə çox şöhrətli oğullar bəxş edən, son nəfəsinə qədər Göyçəni və Göyçəliləri, Qərbi Azərbaycanlıları qoruyan, milli şüura, milli təfəkkürə sahib olan yüzlərlə istedadlı insanlar formalaşdıran, dəfələrlə güclü məntiqi, dəmir iradəsi, kəskin ağlı ilə büro iclaslarında dəqiq tarixi faktlarla erməniləri zora salıb, yerində oturdan, Basarkeçəri, Vardenis eləmək istəyən düşmənlərin öz əlləri ilə bu məsələni gündəlikdən çıxartdıran (sonralar bu məsələdə ermənilər yenə bildiyini elədi) Tapdıq Əmiraslanov haqqında belə bir tarixi əhəmiyyətə malik olan kitabın yazılması Azərbaycanın qanlı-qadalı keçmişinə, tarixinə, bu gününə və gələcəyinə dərin hörmətin,

tükənməz sevginin ifadəsidir. Bu ənənə istedadlı qələm sahibləri tərəfindən davam və inkişaf etdirilməlidir ki, bu gün yetişən gənclik görsün ki, onlardan əvvəl yaşayan nəsillər dilimizi, dinimizi, ədəbiyyatımızı, musiqimizi, himnimizi, nəhayət, millətimizi və dövlətimizi qorumaq yolunda nə zülmlər görüb, nə əziyyətlər çəkiblər.

Sovet dövlətinin ideologiyası və rus şovinizminin diktəsi əsasında yazılaraq saxtalaşdırılan tariximizi sağlam məcraya yönəltmək üçün böyük şəxsiyyətlərin varlığından, böyük həqiqətlərin özündən yazmaq lazımdır. Bu mənada Tapdıq müəllim haqqında yazılan bu kitabı mən təkcə Tapdıq müəllim haqqında yox, İrəvan çuxurunda, Dərələyəzdə, Vedibasarda, Zəngəzurda, Dərəçiçəkdə, Gümrüdə, Ağbabada, Qarabağda, Qaraqoyunluda, Təbrizdə, Dərbənddə, Borçalıda, Kərkükdə, Mosulda, Kiprdə, Batı-Trakyada öz ruhu, öz milləti, öz varlığı, öz dövləti üçün can verən, şəhid olan bütün qorxmaz insanlara aid edirəm. Tariximiz tarixi şəxsiyyətlərə söykənməklə çox şey qazanar və qazanmalıdır. Çünki biz təkcə torpaqlarımızı deyil, tariximizi də, coğrafiyamızı da, yaddaşımızı da itirə-itirə gəlmişik. Xilas yolu həqiqi tarixin bugünkü gəncliyə gün kimi aydın şəkildə çatdırılmasındadır.

Böyük Türk şairi Nəcib Fazil demişkən:

Bizə qalan əziz borc əsrlik zamanlardan,
Tarixi təmizləmək saxta qəhrəmanlardan!

Bəli! Böyük şairin dediyi kimi tarixi saxtalıqlardan təmizləməyin zamanıdır.

17 ildir Göyçəsiz, 30 ildir Tapdıq Əmiraslanovsuz yaşayan Göyçəlilər çox gözəl bilir ki, birinci Göyçə qaçqını zamanı Vaqram adlı bir erməni zabiti bizə qarşı nifrətini necə bildirmişdir. Vaqram yazmışdı: "Mən Basarkeçərin tatar-türk əhalisini, heç nəyə məhəl qoy-

madan məhv etdim. Bəzən gülləyə heyfim gəlirdi. Bütün qadınları, kişiləri və uşaqları yığıb quyulara ataraq, başlarına daş töküb öldürürdüm".

Budur erməni adlı iblisin xisləti. Təkcə Göyçəlilər yox, bütün Azərbaycan bilir ki, Vedini Ararat, Qəmərlini Artaşat, Qarakilsəni Kirovakan, Gümrünü Leninakan, Basarkeçəri Vardenis, Zəngibasarı Masis, Hamamlını Spitak, Cəlaloğlunu Spetanavan, Dərələyəzi Yexeknazor edən ermənilər bu gün də həmin siyasəti davam etdirir, yer adlarını dəyişməklə etnoqrafiyamızı yer üzündən silmək, süpürmək istəyirlər.

Ona görə də bu gün harda Tapdıq Əmiraslanov səviyyəli şəxsiyyətlərimiz varsa, onların hamısı yaddaşlardan yazılara köçürülməli, kitablara gəlməlidir. Doğrudan da, Göyçənin qara günləri Tapdıq Əmiraslanov torpağa tapşırılan gündən başlanıb.

Tapdıq Əmiraslanov kimi insanlar ədəbiyyatdı, tarixdi, etnoqrafiyadı, musiqidi, poeziyadı, iman və güman yeridi. Belə olmasaydı, Tapdıq müəllim Ələsgəri, Alını, Səməd Vurğunu, Hüseyn Arifi əzbər bilməzdi. Onun Səməd Vurğunla, Əli Vəliyevlə, Hüseyn Ariflə olan görüşləri bu gün Göyçəlilərin dilində ən şirin bir xatirə kimi dolaşmaqdadı. Onun gözəl şairliyi də olub, ancaq heç vaxt özünə şair deməyib. O, dəqiq bilirmiş ki, şairliyin yükü, çəkisi nədir. Nümunə üçün bir şeirindən misal gətirmək yerinə düşər:

Yüz ləbi bal ola, yüz dili şəkər,
Damağımın dadı, bir inci, sənsən.
Yüz dilbər yığılıb sevirəm deyə,
Mənim ürəyimdə birinci sənsən.

Düşsə bəd dillərə söz, ünə baxma,
Bədin özü nədir, sözünə, baxma.
Aravuranların sözünə baxma,
Yüz dəfə ölərəm, bir incisən sən.

Tapdığam, ən uca Çalmalıyam mən,
Ələsgər sazını çalmalıyam mən.
Rəqibin gözündən çalmalıyam mən,
Tək mənə tay olan bir incisən, sən!

Ustadlara layiq şeir nümunəsi! Özü də ən çətin bir şeir forması olan təcnis üstündə!

Çalmalı dağını özünə təxəllüs seçən Tapdıq müəllim “Tapdıq Çalmalı” imzası ilə şeirlər yazarmış.

Demək, Allah verəndə bəndəylə məsləhətləşmir. Belə olmasaydı, YUNESKO-nun xətti ilə keçirilən Aşıq Ələsgərin 150 illik yubileyinə rəhbərlik Ermənistanda ona həvalə edilməzdi.

Hörmətli Məmməd müəllim!

Tale belə gətirib ki, mən körpəlikdən məclislərə, ağsaqqal kişilərin yığıncağına can atar, onların hər sözünü su kimi ciyərlərimə çəkər, nə desələr yaddaşıma köçürərdim. Toylarda, məclislərdə (bugünkü məzmunsuz hay-küy yığnağı olan toylarda yox) ustad aşıqların ustadnaməsinə, vücudnaməsinə, deyişməsinə, atmacasına, hərbə-zorbasına qulaq asdıqca sevindiyimdən uçmağa qanadım olmazdı. Məclisin ağsaqqallarına, söz bilənlərinə, sinədəftərlərinə heyran kəsilərdim.

Sizin Tapdıq müəllim haqqında yazdığınız kitabı ona görə bu qədər həvəslə oxudum və sizə məktub yazmaq eşqinə düşdüm ki, yenə təkrar edirəm, mənə Tapdıq müəllimi ustad şairimiz, uzun illər dostluq elədiyim Hüseyn Arif sevdirmişdir. Göyçəni sazı-sözü, tarixi məclislərin mənəvi dəyərləri ilə varlığıma hopduran Hüseyn müəllim olmuşdur.

İkincisi də, mən Tapdıq müəllimin şəxsində 56 illik ömrümdə gördüyüm, duyduğum, sevdiyim, şəxsiyyətini əzizlədiyim, bütün sınaqlardan qalib çıxan, içərisi dolu işıq olan, dedi-qodulara yem olmayan ər kişiləri, el adamlarını elə bil yenidən kəşf etdim. Yenidən o günlərə, o məclislərə, o kişilərin görüşünə qayıtdım.

Məni bu kitab vasitəsiylə tarixin həqiqətinə, həqiqətin tarixinə, Tapdıq müəllimin çoxsahəli şəxsiyyətinə qovuş-durduğuna, bu kitabla bağlı çəkdiyin böyük zəhmətə görə səni bağrıma basıb öpürəm. Bir də fürsətdən istifadə edib kitab mədəniyyətimizin cəfakeşi, dostumuz Ramiz Hümbətova bu kitabla bağlı çəkdiyi şərəfli əziyyətə görə ürəkdən təşəkkür edirəm.

Sağ ol, eşq olsun sənə. Bir də ona görə sağ ol ki, bu kitabı elə Göyçənin yaşıl yaylaqlarının rəngində oxuculara təqdim etmisən. Yaşıl rəng, həyat, yaşamaq, sevgi, çoxaltmaq, artmaq, dünyaya yeni nəsillər gətirmək, hərəkətdə və bərəkətdə olmaq deməkdir. Biz gedirik Göyçəyə sarı! Biz gedirik oğuzların, qopuzların, topuzların dil-dil ötdüyü yerə! Biz gedirik türkə doğru, Turana doğru! Biz gedirik Allaha, Peyğəmbərə, Qurana doğru! Uğurlar olsun həqiqətin tarixini yaradanlara, yazanlara və yaşadanlara!!!

Uğurlar olsun son nəfəsinə qədər öz yurdunu düşünüb, öz torpağı uğrunda vuruşanlara!!!

***"Yeni Azərbaycan" qəzeti,***
***30.09.2006***

# "525-ci QƏZET"in BAŞ REDAKTORU RƏŞAD MƏCİDƏ İKİNCİ MƏKTUB

Əziz qələm dostum, Rəşad Məcid!

Bir neçə il bundan əvvəl Almaniyada ürəyimdə cərrahiyə əməliyyatı aparılandan sonra Vətənə qayıtmışdım. Yaşadığım ağrılı-acılı duyğuları dəftərə-qələmə gətirib yaralı bülbül kimi oxuya-oxuya şeirə çevirib sizin qəzetə göndərmişdim.

Məktub belə başlanırdı:

*"Əzizim Rəşad!*
*Şeirimi çap elə,*
*Şairi yaşat!"*
*Əziz dostum!*

İndi də böyrəyimdə cərrahiyyə əməliyyatı aparılandan sonra Türkiyədən Vətənə qayıtmışam. Onda məni ürək sarsıtmışdı, indi də böyrək sarsıtdı. Görürsən də, şeirlərim kimi ağrılarım da qafiyə üstündədi. Ürək! Böyrək!

Sükutun səssizliyi ürək parçalayanda, gözün tavana dikiləndə, qəmli və suallı baxışların bir nöqtəyə zilləndə, Əli Kərim demiş – "həkim xəstənin qılığına girəndə", gözyaşları damla-damla, səssiz-səssiz axıb, kirpiklərə od vurub yanaqları yandıranda, həyatla ölümün arasında aciz, kimsəsiz bir vəziyyətdə çırpınmağa taqətin olmayanda ürəyindən nələr keçir, onu bir yerdə sən bilərsən, bir də göydə Allah.

Əziz dostum!

Sənə ikinci məktubumu göndərirəm. Allah bu mövzuda mənə üçüncü məktubu yazdırmasın, Amin! Şəxsiyyətinə və yaradıcılığına dərin hörmət bəslədiyim üçün ərklə deyirəm.

Əzizim Rəşad!

Şeirimi çap elə!

Şairi yaşat!

Nə yaxşı dostlar var, nə yaxşı siz varsınız, nə yaxşı el sevgisi, xalq məhəbbəti var, nə yaxşı dərdin dərmanı, ağrının əlacı, yaranın məlhəmi var. Nə yaxşı həyat var, yaşasın həyat!

## XATİRƏLƏR YARAŞIĞI

Dövlətə, dövlətçiliyə həmişə dərin hörmət bəsləyən, bütün şüurlu həyatını öz xalqının mənəvi dəyərlərinin, mənəviyyatının, mətbuatının inkişafına həsr edən unudulmaz ziyalımız Rəşid Mahmudov mənim yaddaşımda nəcib bir insan, gözəl şəxsiyyət kimi qalıb. Mən onu ilk dəfə Zaqatala rayonunun birinci katibi işləyəndə hörmət və məhəbbət hissiylə kənardan seyr etmişəm. Onun sağlam, gümrah, yaratmaq enerjisi ilə dolu vaxtlarını görmüşəm.

Sonralar tale elə gətirdi ki, bizim aramızda çox doğma və isti bir münasibət yarandı. Rəşid müəllim Dövlət Mətbuat Komitəsinin sədri işləyəndə mən "Yazıçı" nəşriyyatında poeziya şöbəsinin müdiri işləyirdim. Yaradıcılıq işləri ilə əlaqədar tez-tez ünsiyyətdə, münasibətdə olurduq. Sonralar Rəşid müəllim "Kommunist" qəzetinin baş redaktoru işləyəndə onun mənə olan sevgisinin və qayğısının sayəsində o qəzetin ən fəal müəlliflərindən birinə çevrilmişdim. Baxmayaraq ki, "Kommunist" qəzeti sırf siyasi qəzet idi və çox böyük tirajla nəşr olunurdu, o qəzetin səhifələrində Rəşid müəllim tez-tez mənim şeirlərimi oxuculara təqdim edirdi.

"Nizami" kinoteatrı ilə üzbəüz olan binada indiki "Xalq" qəzetinin yerləşdiyi mərtəbə o zaman "Kommunist" qəzetinə mənsub idi. Rəşid müəllimin iş otağı üçüncü mərtəbənin baş tərəfində, dəhlizin sonunda yerləşirdi. Onun qapısı həmişə mənim üzümə açıq olardı. Nə qədər əlində işləri çox olsa da, mənə səxavətlə vaxt ayırar, şeirlərimi sevə-sevə oxuyar, elə oradaca qol çəkib qəzetin növbəti nömrəsinə göndərərdi. Dəfələrlə bir-birindən şirin söhbətlərimiz olub onun iş otağında.

Ədəbiyyata gələn yeni nəsillərlə, ağsaqqal yazıçı və şairlərimizlə bağlı çox şirin və maraqlı söhbətlər edər, mənə öz tövsiyələrini verərdi.

Ünsiyyətində çox zərif insan idi. İncə bir tonda astadan və çox şirin bir danışığı vardı. Söhbətlərində heç vaxt məişət səviyyəli məsələlərə yer verməz, həmişə insanı, şəxsiyyəti böyüdən ciddi məsələlərə toxunar, onu dinləyən həmsöhbətini böyük ideallar, böyük arzular üstündə kökləyər, öz müdrikliyi, dəyərli məsləhətləri ilə gəncliyi güclü vətəndaşlıq mövqeyinə doğru yönəldərdi. Onun adı gənc jurnalistlər içərisində çox hörmətlə çəkilər, ağsaqqal həmkarları arasında "ustad" kimi xatırlanardı.

Ümumiyyətlə, Rəşid müəllimin sayəsində məşhur alim və ziyalı qardaşları ilə – Hikmət Mahmudovla, Ədhəm müəllimlə çox doğma münasibətlərim vardı. İndi oğlu Bəhruz müəllimlə Rəşid müəllimdən gələn doğmalıq, dostluq ənənəsini qoruyuruq.

Yadımdadır, hüquq mühafizə orqanlarında adı hörmətlə çəkilən qardaşı Fikrət müəllim rəhmətə gedəndə mən də Rəşid müəllimin dərdinə şərik olmaq üçün İsmayıllıya yas mərasiminə getmişdim. Xalqın belə bir deyimi var: "İnsanın nəyə qadir olduğunu bilmək istəyirsənsə, onun doğulduğu yeri ziyarət elə". Bəli, mən orda Rəşid müəllimin nəyə qadir olduğunu çox gözəl dərk elədim. O dəfn mərasimi elin, xalqın matəminə çevrilmişdi. Azərbaycanın bütün məşhur adamları orda idi. Camaatın sıxlığı o həddə çatmışdı ki, iynə atsan yerə düşməzdi.

Mən Rəşid müəllimin doğulduğu kəndin təbiətini görəndə anladım ki, Rəşid müəllimin, Ədhəm müəllimin, Hikmət Mahmudovun üzündəki nur, işıq haləsi, dodaqlarındakı təbəssüm, gülərüzlülük hardan qaynaqlanır.

Son illərdə zaman öz hökmünü vermiş, Rəşid müəllim qocalmış, minlərlə insanın varlığına, yaradıcılığına işıq çiləyən gözlərinin nuru sönmüşdür. İnsan sevgisinin

gücünə, ağsaqqallığın etibarına baxın ki, bu vəziyyətdə də mənim uğurlarımın heç biri onun diqqətindən yayınmaz, həmişə mənə zəng edər, televiziyada çıxışlarımla, yeni çıxan kitablarımla, aldığım fəxri adlarla bağlı öz sevincini və təbrikini çatdırar, bir ata sevgisi ilə sevinər, məni də sevindirərdi.

Allah bütün yaxşı insanların yerini cənnət eləsin. İnanıram ki, öz milləti, dövləti, xalqı, övladları, dostları, doğmaları üçün yaxşı və xeyirxah əməllərini bizlərə yadigar qoyub gedən Rəşid müəllimin yeri də cənnətdədir.

Ruhun şad olsun, Rəşid müəllim! Həmişə qəlbimdə, ruhumda, xatirələrimdəsən!!

***25.02.2009***

## ÜMİD QAPISI BAĞLANMASIN

Mən onunla harda, nə zaman, hansı şəraitdə tanış olduğumu xatırlamıram. Xatırladığım odur ki, mən onu çox görmüşdüm. Gürcüstanda, Azərbaycanın Gürcüstandakı səfirliyində, "Gürcüstan" qəzeti redaksiyasında, müxtəlif ictimai-siyasi tədbirlərdə. Azərbaycanda, ədəbi-bədii söhbətlərdə, hərdənbir məclislərdə, tək-tək şəxsi görüşlərimizdə. Artıq bizim üçün xatirələrə dönən Eyvaz Əlləzoğlu xarakteri təbiəti etibarı ilə iddiası az, həlim və yumşaq, rahat və səmimi, şirin danışıqlı, kövrək qələmli bir yazıçı və insan idi. Ara-sıra hekayələrini oxuyurdum. Özünəməxsus düşüncə tərzi, yaradıcılıq üsulu vardı. Son romanı ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmış, "Milli kitab mükafatı onluğu" sırasında yer almışdı. "Əli və Nino" nəşriyyatında cəmisi 500 tirajla yayımlanan romanı onu xeyli sevindirmişdi. Ancaq heyif ki, Eyvaza bu kitabın sevincini doyunca yaşamaq xoşbəxtliyi nəsib olmadı. Vaxtsız və kəmfürsət ölüm onu sıralarımızdan tez apardı. Bu romanda Eyvaz öz acı və acınacaqlı taleyini açıq-aydın vermiş, elə bil öz obrazını yaratmışdı. "Yaxınlaşanda gördü ki, Həbib arxası üstə arabanın içinə uzanıb təntik-təntik: ə, nə olub? – deyə bildi. Həbibdən səs çıxmadı. Yaxınlaşıb onun gözlərini görəndə Sədrəddin məsələnin nə yerdə olduğunu anladı. Həbib canını tapşırmışdı". Müəllifin və obrazın taleyi taleyin hökmü, ölümün fərmanı ilə buradaca möhürləndi. Qış öz üzünü yaza çevirdiyi bir anda Eyvazın yazı qışa çevrildi. Onun beyninə qan sızmışdı. Bu qan sızma nə deməkdir ki, insan onun haqqından gələ, özünü qəfil və vaxtsız gələn bəladan qoruya bilmir. Əgər bədəndə qan coşursa, bu, xoşbəxtlik duyğularının şaxə qalxan məqamlarından doğur. Əgər beyinə qan sızırsa, bu artıq ayrı söhbətdi. Qapıları bağlayıb, ocaqları söndürən bu qara xəbərin

acısı çox dözülməz olur. "Eyvazın beyninə qan sızıb". Günah nədədir? Beyini idarə etməyə gücü çatmayan qandadırmı? Qanın beyin divarlarına vurduğu qəfil zərbədədirmi? Beyini də, qanı da bir-birinə qarışdırıb həftəbecər eləyən maddi və mənəvi sarsıntıların daşa dəyib çiliklənməsindədirmi? Soyuq münasibətlərdən üşüyən ürəyin dözümsüz olmasındadırmı? Üzümüzə bağlanan qapıların ətürpərdən cırıltısındadırmı? Cəmiyyətlə insan arasında yaranan dərin və çıxılmaz uçurumların dibindədirmi? Suallar min dəfə təkrar olunsa da, cavablar min dəfə şaxələnə, çoxala, arta bilər. Günah nədədir? Cəmiyyətin amansız qanunsuzluqlarının qanunlaşmasında, ədalət prinsipinin pozulmasında, istedadın sahibsiz olmasında, güclünün zəifi əzməsində, arzunun zirvədə, imkanın ətəkdə olmasında, toxun acdan xəbəri olmamasında, laqeydlik və biganəlik ucbatından qurulan yuvaların isinməmiş soyumasında, qurulmamış dağılmasında. Əgər min bir əzabla böyütdüyün üç övladı bir damın altına yığıb bircə dəfə "Allah, sənə şükür" deməmisənsə, bu həngaməyə, əzaba, işgəncəyə beyin neyləsin, qan neyləsin, baş neyləsin, ürək neyləsin?! Beyinə qan da sızar, adamın canı da çıxar!

Öz romanından bir parçaya müraciət edirəm:

"Tutaq ki, tanışlıqla, zadla səni qıl körpüdən keçirtdik, gedib orda neyləyəcəksən? Sən mənə de görüm hansı ağlı başında olan üzü qışa sarı ölmək istər. Soyuqda, qarda, tarda orda yuxa kəfənlə nə təhər yaza çıxacaqsan? Özün də arıq, bir sümük, bir dərisən. Sitə-sitə İnkirlə Minkirin qabağında nə təhər dayanacaqsan? Sorğu-sualda dilin bekarca büdrədimi dalından Sibirə basan kimi cəhənnəmə basacaqlar". Bircə bu parça Eyvaz Əlləzoğlu taleyinin güzgüsüdür.

Allah qələm dostumuzu bu dünyasından elədi, o dünyasından eləməsin. Uca Tanrı atasız-anasız qalan övladlarının ümid qapısını bağlamasın! Amin!

***19.03.2011***

## QÜRUR DUYMAĞA HAQQIN VAR

Əzizim Elçin Hüseynbəyli!

Azərbaycan müstəqillik qazandıqdan sonra milli düşüncə tərzinin formalaşması, milli varlığımızın dərki, tarixə qayıdışdan qidalanan tarixi əsərlərin meydana çıxması, açılmamış səhifələri açmaq cəhdi, tarixin həqiqətinə, həqiqətin tarixinə ayna tutan kitabların yaranması məni həddindən çox sevindirir. Ona görə həddən çox ifadəsini xüsusi vurğu ilə işlədirəm ki, 70-80 illik bir tarixi mərhələdə tariximiz tərsinə yazılıb, tərsinə tədris olunub, tarixçi alimlərimiz həm çaşıb, həm də onları bilə-bilə, şüurlu surətdə çaşdırıblar. Həqiqət tarixinin üstünə qalın qara pərdələr çəkib görünməz bir hala salıblar ki, heç kəs öz kimliyini dərk edə bilməsin. Ancaq cidanı çuvalda, Ayı buludda, səsi sükutda gizlətmək mümkün olmadığı kimi, həqiqəti də öldürmək, gizlətmək, dəfn etmək mümkün olmur. Ya zəlzələdən, ya vəlvələdən bir gün zəncirlər qırılır, qollar açılır, zindanlar, məhbəslər dağılır, böyük həqiqət dərindən nəfəs alıb ayağa qalxır və yenidən daha böyük güclə, şahanə addımlarla, təmkinli yerişlə gələcəyə doğru yeriyib gedir.

Əzizim Elçin!

Sənin əsərlərini maraqla izləyən, diqqətlə oxuyan oxucularından biri də mənəm. “Don Juan”ı həvəslə oxuyub başa çatdırmışdım. Əsərlə bağlı fikirlərimi həm telefonda, həm də müxtəlif görüşlərimizdə sənə çatdırmışdım. O əsərin məntiqindən hiss edirdim ki, dünyaya yeni bir tarixi roman gəlir. “Don Juan”ı necə həvəslə oxumuşdumsa, “Şah Abbas”ı da eyni həvəslə gözləyirdim.

Artıq kitab oxucuların ixtiyarına verilib. Yeni yaradıcılıq uğuru münasibəti ilə səni təbrik edirəm.

Açıq və səmimi şəkildə etiraf eləmək lazımdır ki, Şeyx Cüneyddən, Şeyx Heydərdən başlamış, sonuncu Səfəvi şahlarına və şahzadələrinə qədər tariximizin Səfəvilər dövrü hələ lazımi şəkildə nə tarixi, nə də bədii yaradıcılıq baxımından arzu olunan səviyyədə açılmayıb. Hətta Şah İsmayıl Xətai dühası belə tam təfərrüatı ilə bugünkü nəslə çatdırılmayıb.

İnsaf və ədalət naminə deməliyik ki, Səfəvilər dövrü ilə bağlı məşhur tarixçi alimimiz Oqtay Əfəndiyevin elmi araşdırmaları, Fərman Kərimzadənin, Əzizə Cəfərzadənin, Əlisa Nicatın bədii əsərləri hələ sovetlər dönəmində bu sahədə elmimiz və ədəbiyyatımız üçün xeyli iş gördü. Ancaq bugünkü müstəqillik dövrü bizə imkan verir ki, daha obyektiv, daha aydın şəkildə biz öz tariximizi işıqlandıraq. Müstəqillik işığında hər şeyi öz rəngində görək, hər kəsi əməllərinə görə qiymətləndirək. Bu baxımdan sizin qələminizdən çıxan "Şah Abbas" tarixi romanı XXI əsrdən XV-XVI əsrlərə baxış kimi çox maraqlıdır və Səfəvilər dövrünə maraq həmişə güclü olub, bu da, şübhəsiz, Şah İsmayıl Xətai kimi bir şəxsiyyətin dünyəvi nüfuzu ilə bağlıdır.

Əzizim Elçin, Şah Abbas körpəlik və uşaqlıq illərimin, uzun qış gecələrinin, nağıllı-dastanlı dünyamın ən sevimli obrazı kimi mənə əzizdir. Ömrümün dünənində o, mənim nağıllarımın, dastanlarımın qəhrəmanı idi. Bu günsə artıq tarixi şəxsiyyət kimi, bir roman qəhrəmanı kimi sənin sayəndə mən onu sevdim, ona acıdım, ona ağladım, onunla qürur hissi keçirdim, ağlına, qabiliyyətinə, sərkərdəlik məharətinə heyran qaldım, heyrət elədim.

"– Bilmək üçün neyləmək lazımdır?

– Öyrənmək və axtarmaq.

– Nəyi öyrənmək və axtarmaq?

– Məni.

– Biz səni tapmışıq.

– Məni tapmamısınız. Eşitmisiniz. Yaxşı-yaxşı axtarın. İndi isə gedin. Mən dincəlmək və xatırlamaq istəyirəm...”

Mənə belə gəlir ki, bütövlükdə “Şah Abbas” romanı bu sual-cavabların, neyçünlərin, niyələrin axtarışları üzərində qurulub və sonda öz bədii həllini tapıb.

Şah Abbas bütün uğurlu və qüsurlu cəhətləri ilə, bütün zəif və güclü cəhətləri ilə oxucuya təqdim olunub. Bu obrazın şəxsində az qala 50 illik bir tarixi mərhələ bütöv ağrı-acıları, qələbə və məğlubiyyətləri ilə açılıb, şərh olunub.

Şah Abbas ömrünün son günlərində öz şahlıq taxtını nəvəsi Səfi Mirzəyə etibar edəndə ona belə bir tapşırıq verir: “Mənim canamaz dəm-dəsgahımı, sazımı da özünlə götürərsən, bir də Şeyx Səfi xalısını”. Canamaz, saz və Şeyx Səfi xalısı. Bütün döyüşlərdə bu üç müqəddəslik ona həmişə qüvvət vermişdir. Ona görə də tapşırıqla elə bil nəvəsinə demək istəyirdi ki, bu canamazda dinini, sazda ruhunu, xalıda Şeyx Səfi müqəddəsliyini yaşada bilsən sənə zaval yoxdur.

Şah Abbas atası Məhəmməd Xudabəndədən şahlıq tacını alan kimi faciələrlə dolu səhnələr insanı sarsıdır və bu sarsıntılar, saraydaxili didişmələr, sui-qəsdlər əsərin sonuna kimi davam edir. Şah Abbasın anası fars qızı Xeyrənnisənin ustaclı, sanılı, qızılbaş tayfalarına qənim kəsilməsi, Xeyrənnisənin və onun anasının qızılbaşlar tərəfindən qətlə yetirilməsi, Şah Abbasın anasının qisasını almaq üçün 22 qızılbaş əmirinin başını kəsib Qəzvin darvazalarının ucluqlarına sancdırması, Şah Abbasın əmri ilə iki ögey qardaşının – Təhmasib Mirzənin və Əbutalib Mirzənin gözlərinə mil çəkdirib, onları ömürlük kor eləməsi, hətta öz ləlesini belə qətlə yetirməkdən çəkinməməsi elə bir ustalıqla təsvir olunur ki, bu məqamları oxucuya sənətkarlıqla çatdırmaq üçün sənin şəxsində yazıçı qələmi tarixçi qələminə, tarixçi istedadı yazıçı ilhamına qüvvət verir. Nəticədə 40 ildən artıq şahlıq edən Şah Abbasın şəxsi keyfiyyətləri bütün çalarları ilə üzə çıxır. Bu zəhər-

ləmələr, kirişlə boğulmalar, başkəsmələrlə bağlı Kərbəla müsibətlərini xatırlatmağın çox dəqiq yerinə düşür. Hakimiyyəti möhkəm və uzunömürlü etmək üçün qəddarlığın son həddi əksər şahlara xas olan keyfiyyətdir. Şah Abbasın bu qəddarlıqlarına baxmayaraq, ardı-arası kəsilməz müharibələrdə həmişə qalib gəlməsi, yüksək sərkərdəlik məharəti, bütün hərbi manevrlərdən ustalıqla, üzüağ çıxması istər-istəməz insanı – oxucunu heyrətə gətirir. Bütün əsər boyu ürəkləri parçalayan acı bir həqiqəti fani çılpaqlığı ilə açıb bu günün oxucusuna təqdim elədiyin üçün çox sağ ol. Bu əsər götürmək qabiliyyətimiz olsa, tarixin ən böyük ibrət dərsidir. Biz qardaş qırğınlarından söhbət düşəndə nədənsə həmişə Sultan Səlimlə Şah İsmayılın qarşılaşmasını – Çaldıran faciəsini xatırlayırıq. Ancaq bu əsəri oxuduqca hər səhifədə, hər fəsildə təəssüf hissi keçiririk, qəlbimizdən qara qanlar axır.

Faciəmizin böyüklüyünə baxın ki, Şah Abbas Osmanlıları məğlub eləmək üçün Avropa ölkələri ilə güclü əlaqələr yaradır, İspaniya kralına elçi göndərir, Osmanlıları zəiflətmək istəyən Venesiya və İtaliya ilə güc birliyi yaratmağa can atır, Fransadan silah almaq üçün alverə girişir, öz qılıncımız özümüzü kəsir, qardaş öz qardaşının qanını tökür, biri Osmanlı kimi, biri də qızılbaş kimi bir-birini məhv edir, avropalıların fitvasına uyur, bu bədbəxt atabir, anabir qardaşlar heç vaxt başa düşmür və başa düşmək istəmir ki, qardaş qırğınından qazanan ancaq Batı ölkələri olur. Nəticədə Osmanlı imperiyasının ölümü yaxınlaşır, Azərbaycanın parça-parça olması üçün gələcəyə zəmin hazırlanır. Bütün türk-müsəlman dünyasını içəridən çökdürmək üçün rusların, ingilislərin əlinə yaxşı fürsət meydanı keçir. Bugünkü bəlalarımızın kökü elə o zamanlardan gəlir. Şiə-sünni məsələsindən istifadə edənlər bizi bütövlükdə ölümə, məhvə, parçalanmaya aparır. Amansız düşmənə fürsəti həmişə özümüz vermişik. Qırılan da özümüz olmuşuq,

qıran da. Ölən də özümüz olmuşuq, öldürən də. Bir-birini qıran eyni millətin tapdağı altında Şirvan, Bakı, Təbriz, Gəncə, Dərbənd, Naxçıvan, Qarabağ, Çuxursədd, bir sözlə Azərbaycan adlı bir cənnət məmləkət cəhənnəmə çevrilib bölük-bölük olmasaydı bu gün ermәniyə, rusa, gürcüyə yem olmazdıq.

Qalib gələn İran aslanı Şah Abbasla məğlub olan Osmanlı paşanın sual-cavabına fikir verin:

“Şah Abbas ayağa qalxmadan soruşdu: Sən bu qədərmi özündən razıydın, döyüşçüləri evlərinə buraxdın, özünsə ova getdin, məni saymadın?

Əli paşa başını qaldırmadan:

Mən özümdən yox, taleyimdən arxayın idim, o isə sizin üzünüzə güldü, – dedi. Bu cavab şahın xoşuna gəldiyinə görə daha bir sual verdi: Ağlınımı qınayırsan, bəxtinimi?

Əli paşa bu sözün də altında qalmadı:

– Bu döyüşdə nə mənim ağlım, nə də bəxtim günahkardı. Anadan xoşbəxt doğulan sənsən. Çünki qalib xoşbəxtlikdən şişir, məğlub isə boşalır”.

Bu ürəkağrıdan parçanı ona görə misal çəkirəm ki, bu iki bədbəxtin heç biri bilmir ki, hər ikisi böyük gələcək qarşısında məğlub olub. Sabah Türk dünyasını, böyük Azərbaycanı ruslar, farslar, ermənilər, ingilislər yağlı tikələr kimi udacaq, bahalı parçalar kimi doğram-doğram edəcəklər. XV əsrdə dünyanın yarısı olan Azərbaycanı dağıtmaq üçün “Türkmənçay” və “Gülüstan” müqavilələri bağlanacaq, onun arxasınca Qarabağın, Dərbəndin, Borçalının, Zəngəzurun, Göyçənin faciələri gələcək.

1605-ci ildə Cığaloğlu Sinan Paşa ilə Şah Abbasın savaşında qızılbaşlar 34 türk paşasını əsir almışdılar. Əgər bir savaşda 34 türk paşası əsir alınıbsa, indi görün hər dəfə Osmanlılarla qızılbaşlar qarşılaşanda sayı 50 mindən az olmayan qoşunlar bir-birinin qanını sel kimi axıdanda biz nələri və kimləri itirmişik. Dünyanın heç

bir milləti tarixdə bir-birinə bu qədər qənim kəsilməyib. Bu günün gözüylə baxanda Şah Abbasın "böyük köçü"nə tarixin böyük səhvi də demək olar. Əgər o dünən Çuxursəddi, Borçalını, Rəvanı köçürüb farsların içinə doldurmasaydı, bəlkə də Ermənistan və Gürcüstan azərbaycanlılarının daha dəhşətli qaçqınlığı, köçkünlüyü də olmazdı. Şah Abbas o torpaqları boşaltmaqla özündən xəbərsiz erməni kimi kəmfürsət düşmənə dövlət olmaq üçün ərazi hazırlayırmış.

Əzizim Elçin Hüseynbəyli!

Əsərin bir yerində çox qiymətli bir fikir işlətmisən: "Tarix hər zaman ağadır. Ancaq onu ağa kimi də görmək olar, gədə kimi də. Tarixi gədə kimi görənlərin halına yazıq!"

Mən sənə təşəkkür edirəm ki, çox böyük zəhmət, axtarış, istedad bahasına tarixi ağa kimi görməyi və onu bizə ağayana çatdırmağı bacarmısan. Sən əsərdə heç bir yerdə oxucuya hökm eləmirsən, oxucuya təzyiq göstərmirsən, oxucunun hansı nəticəni çıxarmasını onun öz öhdəsinə buraxırsan. Əsərdən çıxan məntiq, qayə budur.

Mənim düşüncəmə görə bu əsər bizə və bizdən sonra gələnlərə belə deyir: Tarixini yaxşı öyrən, şəxsiyyətlərini dürüst tanı, keçmişinə sahib ol, öz qılıncınla özünü kəsmə, dilinə, dininə, əqidənə, etiqadına sadiqlik hissini itirmə, milliliklə millətçiliyi qarışdırma, gələcəyini düzgün qurmaq üçün tarixin acı həqiqətlərindən, böyük dərslərindən ibrət al. Özün ol, özgələşmə. "Mən kimdən" demə, "kim məndən" de. Gücü kökünə ver ki, budaqların tufanlara yem olmasın. Xalqdan millətə, millətdən dövlətə doğru get, millətdən tayfaya enmə, tayfadan millətə doğru get. Getdinsə, getməyi bacardınsa dünya sənindir. Bacarmadınsa nə dünya sənindir, nə də sən dünyanınsan!

Vəssalam, şüttamam!

Öpürəm səni! Sənə yeni yaradıcılıq zirvələri arzulayıram!

***12.05.2009***

## "SƏNİN Kİ DƏRDİN VAR, BİR TƏBRİZ QƏDƏR..."

Təbriz deməkdən dilimiz qabar, könlümüz qubar bağlamışdı. Təbrizi görmək əlçatmaz, ünyetməz bir xəyala çevrilmişdi. Tikanlı məftillər, polad dirəklər, qıfıllı qapılar, tilsimli pəncərələr dünyaya baxmağa, həyata boylanmağa aman vermirdi. "Keçər dövran, belə qalmaz, şad ol könül, nə məlulsan!" – deyib Koroğlunun misralarını düşünürdüm ki, birdən-birə nağıllardan bir ağ atlı oğlan çıxdı. "Gözlərini yum" – deyib məni tərkinə aldı. Gözlərimi açanda gördüm Təbrizdəyəm! Çəmənində çiçəyə, zəmisində sünbülə, ağacında yarpağa, daşında mamıra döndüm. Şair oldum, qələm tutdum, aşıq oldum saz götürdüm, ozan oldum oxudum, dərviş oldum ovsunladım. Yağışın əlindən göz aça bilmirdim. Başıma gül-çiçək yağışı yağırdı.

Məclislərin birində söhbətin şirin yerində üzümü tutdum Təbrizin sehrli saz ustası Çingizə. Dedim, ay Çingiz, gözlərinə Zəlimxan qurban, mən doğulmuşam Borçalıda, sən doğulmusan Təbrizdə. Dur ayağa, sazın zilini zil, bəmini bəm, sinən üstə müstəkəm elə, qoşa bir hava çalaq, görək tutdura bilirikmi. Çaldıq, özü də necə çaldıq. Allah! Allah! İki sazın xalı, gülü, zili, bəmi, keçidi, döndərməsi elə bil bir adamın barmağından süzülürdü. Hiss eləmək olmurdu ki, sazı iki adam çalır. Qoşa sazlar dil açıb ölməz bir həqiqəti məclisə çatdırırdı. Saz deyirdi ki, Bakını Təbrizdən, Gəncəni Səlmasdan, Qaradağı Qarabağdan, Urmiyanı Naxçıvandan, Mərəndi Borçalıdan ayırmaq mümkün deyil. Torpağı müvəqqəti də olsa bölmək olar. Hissi, duyğunu, sazı, muğamı, ruhu, mənəviyyatı bölüb paralamaq Adəmdən Xatəmə hələ

heç bir insan oğluna nəsib olmayıb, ola da bilməz! Budur ruhun ölməzliyi, nəğmənin sərhədsizliyi! Budur sevginin bölünməzliyi!

Ərdəbildə Şeyx Səfi türbəsini, Xətai babamı ziyarət edəndə də, Təbrizdə ulu Şəhriyarın məzarına baş əyəndə də, Gülüstan bağının seyrinə çıxanda da, Şahgölünə heyrətlə baxanda da, Savalan ətəklərində də ürəyimdən sızıltılı bir arzu gəlib keçirdi. Bizə nə qədər həsrət verdin, daha bəsdir, bütün həsrətləri bir-birinə qovuşdur, İlahi! Heç kəsin ürəyini nisgilli, gözünü yaşlı, əlini uzalı qoyma, ulu Tanrı!

Cənublu qardaşlarımız Bakıya Məkkə, Şimali Azərbaycana ümid yeri, arxa, dayaq kimi baxırlar. Biz unutmamalıyıq ki, təkcə özümüz üçün yox, həm də onlar üçün yaşamalıyıq. Bu gün qara qüvvələr bizi bir-birimizdən soyutmaq üçün görünən və görünməyən kanallarla "böyük" işlər görürlər. Heç kəs hissə qapılıb hər deyilənə aldanmamalıdır. Ayıq olmaq lazımdır ki, soyuq danışıqlar düşmənçilik toxumları bitirməsin. Onlar deyəndə ki:

Qar daşı,
Qarlı dağdan qar daşı.
Xəstə könlü nar istər,
Mənim könlüm qardaşı!

Ürəyimin başına od düşürdü. Nəysə... ürəyimdə sözüm çoxdur. Hələ də inana bilmirəm ki, mən Təbrizi gördüm. İnsan oğlu belədir, illərin, əsrlərin bədbəxtliyinə düçar olanda birdən-birə qarşılaşdığı xoşbəxtliyə inana bilmir. Qoy bu xoşbəxtlik hamıya qismət olsun.

Əzizinəm, Səlmasa,
Xoydan gedər Səlmasa.
Bəndə bəndəyə neylər,
Xuda gözdən salmasa!

Aşıqlar demiş, cəmi həsrətlər bir-birinə qovuşsun, gediş-gəliş, çal-çağır o tayı, bu tayı başına götürsün. Ordan bura gələnlər, burdan ora gedənlər əsrlərlə xam qalıb, təzəcə şumlanan müqəddəs torpağımıza səmimiyyət toxumu səpib, sevgi çəməni göyərtsinlər. Bir daha bizi bizdən ayırmağa bəndənin gücü çatmasın, xoşbəxtliyimizi, müstəqilliyimizi xuda gözdən salmasın. Amin!!!

# SƏYYAD AĞBABALIYA AÇIQ MƏKTUB

Əzizim Səyyad müəllim!

Sizin "Səda" nəşriyyatında nəşr olunan "Bir ömrün anları" kitabınızı böyük həvəslə oxudum. Həvəslə ona görə deyirəm ki, öz ömrünü, həyatını, taleyini millətinə, xalqına, torpağına, övladlarına həsr edən, torpaqdan, eldən-obadan mayalanan adət-ənənədən, çətin sınaqlardan, elin ağır imtahanlarından üzüağ çıxan insanların hamısı mənim ruhum, ilhamım, nəfəsim, yaradıcılığımdır. İçərisində işıq gəzdirən adamların hamısı xalqın milli və mənəvi sərvətidir. Bu sərvət qorunmasa, yaddaşlara köçməsə, tarixləşməsə, sizin kimi istedadlı qələm adamları tərəfindən kitabların dilində oxucularla danışmasa itər, batar, məhv olar, unudular.

Mənim aləmimdə bu kitabın və bu qəbildən olan kitabların ən böyük tarixi əhəmiyyəti ondan ibarətdir ki, işğal olunmuş ərazilərimiz işğal olunması mümkün olmayan ərazilər kimi bu günə və gələcəyə təqdim olunur.

50 il bundan əvvəl yazılmış "Məmmədov Rəsulun ailəsinin yaddaş dəftərçəsi" Rəsul müəllim tərəfindən qələmə alınmasaydı, bu gün sizin yazdığınız kitab belə canlı və həyati alınmazdı. Bu o deməkdir ki, hər bir ailə başçısı öz nəsil şəcərəsini yaratmalı, yazmalıdır. Yazmalıdır, ona görə ki, tarixçilər tarixə müraciət edəndə qanlı-qadalı, acılı-şirinli keçmişimizlə bağlı əsərlər yaradanda onlar əfsanələrdən, əsatirlərdən, yozmalardan daha çox tarixi həqiqətlərə əsaslana bilsin.

Bu mənada dəfələrlə ziyarətində olduğum, məclislərində iştirak elədiyim, kəndlərində qonaq olduğum, sazlı-sözlü dünyasını dərindən bildiyim Ağbaba mahalı

və onun yetirdiyi tarixi şəxsiyyətlər mənim üçün əziz, doğma və unudulmazdı. Bu haqda hələlik bu qədər! Keçək əsas mətləbə.

Kitabdan aldığım məntiqi nəticə mənə onu dedi ki, Rəsul müəllim haqda kitab yazmaq kişilik, cəsarət, dözüm, iradə, səbir, ağıl, uzaqgörənlik, el sevgisi, xalq məhəbbəti haqda kitab yazmaq deməkdir! Bu kitabı sən yazmısan, yaza bilmisən, mənim hörmətli qələm dostum, Səyyad Ağbabalı!

Bir tərəfi Borçalı mahalının Sarvan kəndinə, bir tərəfi indi gürcülərin Axalkalaki (təzə şəhər) dediyi Axrkələyə-Ahsıkaya, Xospiya mahalının Sağamoy kəndinə, bir tərəfi Ağbaba mahalına bağlanan Rəsul müəllimin yaşadığı ömür ciddi bir şəxsiyyətin, böyük vətəndaşın, əsl el ağsaqqalının çox şərəflə yaşadığı bir ömür olub.

12 yaşında atasını itirən bir oğulun sonralar el anasına çevrilməsi Rəsul müəllimə asan başa gəlməmişdi. Dil içində dil, din içində din, millət içində millət yaşatmağın çətinliyini ancaq başqa millətin – özü də erməni kimi məkrli, hiyləgər, şeytandan qabaq əmələ gələn, alçaq və amansız, fürsət yoxsulu, rəzil düşmənin içində yaşayanlar bilər.

Adına Ermənistan deyilən, ancaq başdan-başa Azərbaycan torpağı olan bir məmləkətdə 80 il yaşayan, ömrü boyu ermənilərin şərinə, böhtanına, şantajına, qısqanclığına tuş gələn, öz istedadı, qabiliyyəti, kişiliyi hesabına həm özünü, həm də el-obasını, mahalını qoruyan Rəsul müəllimin taleyini o torpaqlarda yaşayan hər bir başıbəlalı soydaşımız yaşayıb.

Böyük Vətən müharibəsi illərində silahdan qabaq "Koroğlu" dastanı ilə silahlanan, savaşın ən qanlı-qadalı vaxtlarında o kitabı yarasına məlhəm bilən, elə Koroğlu ruhu ilə də bütün çətinliklərə qələbə çalan, üzüağ, alnıaçıq, sağ-salamat elinə-obasına qayıdan Rəsul müəllim müharibədən sonra ermənilərlə mübarizədə

öz camaatının, elinin-obasının haqqını şovinist, daşnak ermənilərdən tələb edəndə də heç vaxt sınmamış, əyilməmişdir.

Rəsul müəllim cəbhədə ağır yaralanır. Qan içində ola-ola döyüşçü dostu İsmayıla deyir ki, İsmayıl, "Koroğlu"nu itirmişəm, onu mənə tap gətir, yoxsa nə arxa cəbhəyə, nə də heç yana gedən deyiləm. İsmayıl qarda-qiyamətdə, qan-tərin içində "Koroğlu" dastanının bütün səhifələrini qana bələnmiş şəkildə tapıb yaralı dostuna çatdırır. Rəsul müəllim kitabı qanlı yarasının üstünə qoyub, "bu kitab məni qoruyur, daha mən ölməyəcəyəm!" – deyir.

Budur xalqımızın min illər boyu yaratdığı mənəvi sərvətlərin dar gündə bizə gərək olmaq böyüklüyü!!!

Rəsul müəllimin müharibədən sonrakı həyatı müharibə illərindən də çətin olub. Çünki müharibədə bir düşmənlə, faşistlə açıq-açığına, döş-döşə, mərdi-mərdana döyüşüb. Ancaq ermənilərlə döyüş başqa istiqamətdə gedib. Müharibədən yaralı gələn Vətən oğluna ermənilər dalbadal çox sağalmaz yaralar vurublar. Səssiz güllələrin ağrısı daha amansız, daha kəskin olub. Min dərd varsa, min bir də dərman var, deyiblər. Nə yaxşı Allah Rəsul müəllimə Xanımzər xanım kimi vəfalı, dözümlü, genişürəkli bir Azərbaycan qızı qismət eləyib. Ondan da bir-birindən gözəl övladlar dünyaya gəlib.

Kitabda maraqlı bir söhbətdən yan keçə bilmədim. "XX əsrin əvvəllərində Ağbaba Qars valiliyinin tərkibində olarkən Amasiya kəndi ilə qonşu Daşkörpü kəndi arasında torpaqla bağlı bir münaqişə yaranır. El ağsaqqalları, Paşa kişi bu məsələyə aydınlıq gətirmək üçün Qarsdan Türk paşasını çağırtdırır. Türk paşası soruşur:

– Paşa kişi, sən ağsaqqalsan, özün də çoxdanın adamısan. De görüm, Amasiya kəndinin torpaqları, onun ərazisi tarixən yalı yalla, yoxsa yolu yolla olub?

– Əlbəttə, paşam, bizim torpaqlarımızın sərhədləri yalı yalla olub, – deyə Paşa kişi cavab verir. Türk paşası isə:

– Onda biz sərhədləri dəyişməyəcəyik. Bu torpaqlar yalı yalla Amasiya kəndinə, yolu yolla isə Daşkörpü kəndinə məxsusdur".

Bu hissəni oxuyanda açığını deyim ki, gözlərimin yaşını saxlaya bilmədim. Gör bir vaxtlar bizim olan, mənim-sənin olan müqəddəs torpaqlarımız indi kimlərin tapdağı altındadır.

Əzizim Səyyad müəllim!

XX əsrin 70-ci illərindən sonra Ağbabanın və Ağbabalıların başına açılan müsibətləri o qədər ürək yanğısı ilə yazmısan ki, adamın ürəyi parça-parça olur. Gərək daş olasan ki, bu dərdlərə dözəsən. Təkcə adlarla bağlı siyahını təqdim etmək kifayətdir ki, nələri itirdiyimizin şahidi kimi ayağa qalxaq.

1. Oxçuoğlu – Vaxçi;
2. Əzizbəyov – Areqdanem;
3. Baytar – Hovtun;
4. Düzkənd – Halvar;
5. Qonçalı – Zarisat;
6. Göllü – Vardenis;
7. Qarabulaq – Şağik;
8. Çaxmaq – Kaxmut;
9. Çaybasar – Aravet;
10. Yeniyol – Ağvorik;
11. İbiş – Dayrik;
12. Çivinli – Yeğnacur;
13. Öksüz – Darik;
14. Güllübulaq – Ardagan.

Biz təkcə adlarımızı itirməmişik. Bu adlarla birlikdə yaddaşımızı, dadımızı, duzumuzu, kökümüzü, keçmişimizi, tariximizi, coğrafiyamızı itirmişik. Rəsul müəllim adlı görkəmli bir ictimai xadimə, dövlət adamına, el ağsaqqalına, onun şəxsində ölənlərimizə, itənlərimizə, əsirlərimizə, girovlarımıza bir ağrı abidəsidir bu kitab.

Ağrılarımızı unutmayaq. Tapdanan haqqımızı, itən ərazilərimizi geri qaytarmaq, yaralanmış və parçalanmış Azərbaycanımızı bütövləşdirmək üçün. Bu mənada sənin kitabın həyəcan siqnalıdır! Böyük Azərbaycanımızın halal haqqı uğrunda qoy sənin və sənin şəxsində qüdrətli qələm sahiblərinin etiraz səsi heç vaxt səngiməsin, mənim qardaşım!!!

Neçə-neçə nəğməkarın dilində xoş nəğmədi,
Bu gün bizə ilham verib dilləndirən Ağbaba.
Uzaq-uzaq səfərlərə oğul yola salanda,
Ağ dumanı yaylıq kimi yelləndirən Ağbaba.

Darda qoymaz, elin-günün harayına hay verər,
Zirvəsindən qar göndərər, ətəyindən çay verər.
Gedənlərə qurban kəsər, gələnlərə pay verər,
Ağ sürünü göy yaylaqda gölləndirən Ağbaba.

Yerdən çıxan, göydən yağan sərvəti var, zəri var,
Hər çiçəyin duruşunda bir nazlanan pəri var.
Qonşusuna, qonağına göz üstündə yeri var,
Bir cənnətdi ruhumuzu telləndirən Ağbaba.

Ulu Tanrı bu yerlərdə belə qurub qurğunu,
Ayaq bassa şəfa tapar ayın, ilin yorğunu.
Havaların heyranıdı, aşıqların vurğunu,
Yaxşılara ad-san verib bəlləndirən Ağbaba.

Başımızın ucalığı, sinəmizin səngəri,
Ağsaqqalı, ağbirçəyi yerin-göyün ləngəri.
Aşıq Şenlik laylasında böyütdü İsgəndəri,
Ömrümüzü, günümüzü gülləndirən Ağbaba.

***28.01.2007***

## AĞBABADAN – AĞRIMIZDAN KEÇƏN ÖMÜR

Hörmətli qələm dostum Səyyad Ağbabalını 30 ilə yaxındır ki, tanıyıram. Tanıyıram ifadəsini xüsusi vurğuyla işlədirəm. Yəni onun elini-obasını, yurdunu-yuvasını, kəndini-kəsəyini, onu yetirən torpağın Günəşini, suyunu, havasını, yerini, göyünü yaxşı tanıyıram. Adətini-ənənəsini, sevincini-kədərini, həsrətini, qürbətini yaxşı tanıyıram. Böyük ziyalılarını, ictimai xadimlərini, görkəmli dövlət adamlarını yaxşı tanıyıram. Onun haqqında nə yazıramsa elə bil özüm haqda yazıram. Çünki o mənə ağrılı-acılı, keşməkeşli taleyi, vətənli-vətənsiz tərcümeyi-halı ilə doğmadır. Çəkdiyimiz dərd də eynidir, daşıdığımız həsrət də. Bu tanışlığın, doğmalığın tam mənzərəsini əks etdirən, onun bütün iç dünyasını bizə açıb göstərən çox dolu və zəngin bir kitabla üz-üzəyəm: "Bir ömür yaşadım ağlı-qaralı". Bu kitabı varaqladıqca Borçalıdan Ağbabaya sarı yol gedib, yenidən Bakıya – Azərbaycana qayıdıram. Bu gedişin və qayıdışın içində o qədər dilə, qələmə gələsi duyğular var ki, yazmaqla qurtaran, deməklə tükənən deyil. Çünki bu, insan ömrüdür. Səyyadın ömür kitabında əvvəlcə açılıb pardaqlanan, sonra kül kimi qovrulan bir Ağbaba dünyası var. Əvvəlcə taybatay açılan, sonra birdəfəlik bağlanan qapılar var. Əvvəlcə alışan, sonra birdəfəlik sönən ocaqlar var. Hıçqırıqlar, gözyaşları, hönkürüb ağlamalar var. Amansız ayrılıqlar var. Bu yerdə istər-istəməz Balzakın məşhur bir fikrini xatırlayıram: "Bir insanın tarixini yazmaq, bir şəhərin tarixini yazmaqdan çətindir".

Ömrün körpəlik, uşaqlıq çağlarında, 9 yaş olanda ata itkisi sümüklərini göyüm-göyüm göynədən, müdrik-

ləşən çağlarında yurd-yuvası dağılan, qaçqınlıq-köçkünlük görən, gözü görə-görə Arpaçayı, Çaybasarı, Ağbabası əlindən gedən, dəfələrlə ölümün ağzından qurtaran, Ağbaba faciəsi az imiş kimi, Qarabağın bütün ağrı-acılarını öz içindən keçirən bir vətəndaş ziyalı, yazıçı, jurnalist, qələm sahibi haqda yazmaq, əlbəttə, çətindir. Çətindir, amma şərəflidir. Çünki deməyə söz var. Çünki ömür boşa getməyib, Qarabağın qara günlərindən keçib, Kərkicahanda yanıb kül olub, Şuşadan, Malıbəylidən, Əsgərandan keçib, dərdin içindən keçib, dərdi içindən keçirib. Evdən elə, məhlədən mahala, xalqdan millətə, millətdən dövlətə doğru uzandıqca uzanıb, qazandıqca qazanıb bu ömür. Bu kitabda onun haqqında çox qiymətli məqalələr yazan, ürək sözləri deyən, şəxsiyyətinə ayna tutan müəlliflərə baxıram, kövrəlirəm. Onların hamısı xalqımızın ləyaqətli oğulları, istedadlı qələm sahibləridir. Onların hərəsi bir parça Səyyad ömrü yaşayan, onun çəkdiyi ağrıları öz gözləri ilə ağlayan, onun dili ilə danışan kişilərdi. Elə bu adlar, bu imzalar bəsdir ki, ürəklə deyəsən: Səyyad müəllim, sən ömrünü gözəl yaşamısan. O ömür ki, insanlara işıq kimi paylanır, kökü dərinlərə işləyən, gövdəsi dolu və sağlam olan bir ağacın budaqları kimi şaxələnir, demək bu ömür əsl insan ömrü, ziyalı, şəxsiyyət ömrüdür. Mərd və sərt, dönməz və əyilməz!

Bir də Səyyadı mənə sevdirən təbiətin vergisi olan uca boyu, şax qədd-qaməti, ləngərli yerişi, təmkinli danışığı, təcrübəli dünyası, köhnə kişilərə xas olan ağır oturub, batman gəlməsidir. Bu keyfiyyətlər el ağsaqqalına çevrilən el adamlarında olur ki, o da Səyyad müəllimdə yetərincədir. Mən Səyyad müəllim haqqında söylənən fikirlərə dərindən fikir verəndə, özünün yaradıcılığına bütün xırdalıqları ilə nüfuz edəndə görürəm ki, onun ictimai-siyasi fəaliyyəti, dövlətçilik təfəkkürü, hələ neçə-neçə kitabın yazılmasına zəmin yaradan bir xəzinədir.

Arzu edərdim ki, Səyyad Ağbabalı bu yolu davam etdirsin, ən çox özünü yazsın. Onda ağrılı-acılı xatirələr dünyası daha çox qazanar. Ömür sətir-sətir varaqlara köçəndə, fəsil-fəsil kitablara çevriləndə, damla-damla yaddaşlara hopanda xalqa, millətə, vətənə, tarixə məxsus olur.

Əzizim Səyyad müəllim!

Sənin kitabın dövlətə, dövlətçiliyə, istiqlala, müstəqilliyə, ulu öndərimiz Heydər Əliyevlə bağlı tarixə, möhtərəm prezidentimiz İlham Əliyevin siyasi kursuna, adını özünə təxəllüs götürdüyün mahala layiq bir kitabdır. Tam səmimiyyətlə deyirəm ki, bu kitabı diqqətlə oxuyub, onun əsasında yeni dövrün dəqiq və həssas, düzgün və obyektiv tarixini yazmaq olar. Çünki bu tarixi sən kitablardan oxumamısan, gözünlə görüb, qəlbinlə duyub, ağlınla dərk etmisən. Ona görə də bu kitab sənin kitabındı – Səyyad Ağbabalının kitabı! Dövlətimiz və millətimiz üçün, ruhumuz və tariximiz üçün xeyirli olsun! Uğurlu alınan bu əsər üçün səni və sənin sədaqətli oxucularını təbrik edirəm!

Uğurlar olsun!!!

***11.06.2009***

## BƏHMƏN VƏTƏNOĞLUNUN YARADICILIQ GECƏSİNDƏ ÜRƏK SÖZÜ

Dağlar başında qartal kimi qıy vuran, bülbüllərə qoşulub oxuyan, kəkliklərə qoşulub qaqqıldayan, sellərlə aşıb-daşan, sularla coşub-daşan, qarla əriyən, buzla donan, çiçəklə açılan, çəmənlə yaşıllaşan,

Qartal, o zirvədən belə düş, belə,
İnsanam, zirvədə mən olmalıyam.
Günəş yandıranda ana torpağı,
Duman olmalıyam, çən olmalıyam.

– deyib, zirvələrə meydan oxuyan, quşla quş dilində, daşla daş dilində danışan, içində işıq, ruhunda ucalıq, şeirində təravət yaşada-yaşada təbiətin bir parçasına çevrilən və birdən-birə başının üstündə qəfil şimşəklər çaxan, eli-obası, yurdu-yuvası, gülü-gülüstanı, balı-pətəyi, aranı-yaylağı, daşı-torpağı zorla əlindən alınan, vətəndə qürbət görən, cənnəti əlindən gedib diri-diri cəhənnəm odunda yanan, bir gözü gülən, bir gözü ağlayan, heç vaxt insana sevgisini, vətənə, torpağa məhəbbətini azaltmayan, sevincini də, dərdini də sazın ruhuna, sözün varlığına, qələmli dünyasına, elin yaddaşına köçürən, yaralanmış və paralanmış Azərbaycanın şair oğlu Bəhmən Vətənoğlunu dərd heykəli kimi bağrıma basıram.

Ağrın alım, ay nazlı yar,
Könlüm sənsiz tutmaz qərar.
İkimizdə bir ürək var,
Yarı məndə, yarı səndə.

– deyən Bəhmən Vətənoğlunun nazlı yarı, döyünən ürəyi Vətən torpağıdı, çay qırağıdı, çeşmə başıdı, el məclisləri, gözəllər yığnağı, aşıq söhbətləri, saz havalarıdı.

Zahirdə üzümə dost deyə-deyə,
Yağı düşmən məni saldı nə hala.
Ahımı göylərə bülənd eylədi,
Belə uca nə bürc olmaz, nə qala.

Bu vətəndi, torpağından el əmən,
El mənimdi, qurban olum elə mən.
Öz-özümə alışmışam elə mən,
Ocağıma nə kösöy qoy, nə qala.

– deyən, Vətən dərdinə, el harayına odsuz-ocaqsız yanan, tək olan aslana, yaralı ceyrana, arxasız insana yazığı gələn, alçaq və kəmfürsət qonşu, Allahsız düşmən əlindən ahı göylərə bülənd olan, dərdi qalalardan, bürclərdən uca duran şair qardaşım bütün ömrü boyu xalqın ürəyinin sarı siminə toxunub, eşqi dillərə, səsi tellərə, sözü ellərə düşüb, qazancı Vətən oğlu Bəhmənə, Bəhmən Vətənoğluna çevrilmək olub.

Ay Zəlimxan, elə kövrək olmuşam,
Səhər-səhər meh də dəyir xətrimə.

– deyib, çətin günlərində mənə qəmli məktublar yazardın. Mən də o məktublara cavab göndərər, üzümü ana Kəlbəcərə tutub deyərdim:

Bəhmən, hədələrdən qorunmaq üçün,
Yarağın yoxdursa, yaraq göndərim.
Dərdini deməyə dərdli bir qələm,
Şeirini yazmağa varaq göndərim.

Tam olum, dadmağa tamın yoxdusa,
Cam olum, içməyə camın yoxdusa.
Gecə yandırmağa şamın yoxdusa,
İki gözlərimi çıraq göndərim.
Qoşun bil, özünü təkləmə, qardaş,
Qəlbi qəm üstündə kökləmə, qardaş.

Ürəyi bu qədər yükləmə, qardaş,
Lazımsa, eşqimi dayaq göndərim.

Ellərə doğmadı şairin səsi,
Mən necə sevməyim el sevən kəsi.
Geniş aç qapını ay ev yiyəsi,
Şair Zəlimxanı qonaq göndərim.

Sözümə əməl edə bilmədim. Sənin yanında dilim gödəkdi, qardaş. Səni nə üzlə təbrik edim, nəylə sevindirim? Döyüşdə yarağın, söz üçün varağın, çətində dayağın, işığın kəsiləndə çırağın ola bilmədik. Kəlbəcər kimi cənnətimiz getdi, sənin harayına gələ bilmədik, səsini eşidə bilmədik. Dağlar başında səs-səsə verəndə Kəlbəcər şairləri durna qatarına bənzəyirdi. O durna qatarına göz dəydi.

Qartal düşüncəli, şair xəyallı,
Tərlan yuva salan dağlar oğluyam.
Anam İstisudur, atam Dəlidağ,
Uçurumlu sərt qayalar oğluyam.

– deyən Dədə Şəmşirin məzarı kafir tapdağında inlədi.

Hər gün yönüm düşdü məzarıstana,
Orda zaman qışdı, dövran yatıbdı.
Sanki pıçıldaşır hər məzar daşı,
Şair, asta yeri, insan yatıbdı.

– deyən Qəmkeş Kəlbəcər deyə-deyə köçdü dünyadan.

Torpaq həsrətindən bağrı şan-şan olan, "Ağlayıram, yatmıram ki, gecələr", – deyən şair qardaşımız Şücaətin hələ heç məzarda cəsədi soyumayıb. Bunların hamısı bizim qismətimizə, sənin bəxtinə çıxan Vətən dərdi, el nisgili, Kəlbəcər harayıdı, Bəhmən Vətənoğlu!

Yana-yana çaldın "Yanıq Kərəmi",
Ağrın alım, onu bir də çal, aşıq.

Elə bildim təzə köçüb Ziyadxan,
Yaman saldın ürəyimə xal, aşıq.

Allah! Allah! Kərəmin oduna, Ziyadxanın köçünə dözməyən şair qardaşım Kəlbəcərin, Şuşanın, Qarabağın köçünə necə dözür, İlahi! Kərəmin köçünü Qara keşiş, Kəlbəcərin köçünü Qara keşişin nəvələri elədi, Bəhmən Vətənoğlu!

Səndən ayrılanda bir ah çəkmişəm,
Kərəmtək yandırıb ah məni, dağlar.
Daramır saçımı sənsiz küləklər,
Sənsiz heç oxşamır meh məni, dağlar.

Şirin görüşlərin ömrü kəm olar,
Gözüm yaşla dolar, könlüm qəm olar.
Cənnətim çevrilib cəhənnəm olar,
Olmasam dağların mehmanı, dağlar.

Hər dərddən xəbərdar, hər işdən halı,
Şairdi daşıyan min qeylü-qalı.
Zəlimxan gəzsə də səndən aralı,
Saxla gözün üstə Bəhməni, dağlar.

Böyük Səməd Vurğunun misralarını xatırlayıram:

Qayıt kəndimizə, qorxuram səndən,
Barı Vidadisiz qalmasın vətən.

Qayıt Kəlbəcərə, Bəhmən Vətənoğlu! Qaytar Kəlbəcəri, Bəhmən Vətənoğlu! Qoy dağlar səni göz üstündə, Tanrı nəzərində, Allah ucalığında saxlasın!

***11.03.2002***

## BƏHMƏN VƏTƏNOĞLUNA

Dili şirin Bəhmənim, dərdi dərin Bəhmənim. Ömrü-günü – həyatı bir qan, irin Bəhmənim. Yaralı ürəyində min dərd-vərəm var idi, səndə Məcnun var idi, səndə Kərəm var idi. Dərd, azar çalxamaqdan için nehrəyə döndü. Çəməndən çölə düşdün, yurdun səhraya döndü. Hər dəfə görüşəndə gözündə yaş görürdüm, ruhunda, varlığında ağrı, təlaş görürdüm. Kəlbəcər görüşləri bir-bir yada düşəndə ağlayırdıq Gəncədə. Qaçqın şair olarmı – saniyəsi, saatı çarmıxda, işgəncədə. Solundan ayrı salıb, sağından ayırdılar, arxası dağ olanı dağından ayırdılar. Tale qəm kotanını çəkib keçdi dərindən, səni ayrı saldılar doğma Kəlbəcərindən. Şeirin, sözün yolunda alışan bir şair idin, canın buz baltasıydı, dağ kimi sağlam idin, ölüm nəkarəydi ki, sənə yaxın gələydi, Kəlbəcər gedən gün öldün, ay Vətənoğlu, nədir torpaq ağrısı, bildin, ay Vətənoğlu.

İstisu həmdəmiydin, ruhunu sındırdılar, Dəlidağ qartalıydın, qanadını qırdılar. Heç getmir xəyalımdan, mən səni Taxtadüzdə ilk dəfə gördüyüm gün, isti misralarını, nurlu sətirlərini ağıla, huşa, yaddaşa bir-bir köçürdüyüm gün. Sirdaşımız yaylalar, dostumuz dağlar idi. Ceyran bulağı kimi şeirimiz təmiz, duru, ruhumuz çağlar idi. Sevgimizə tapındıq ocaq kimi, pir kimi, qucaqlaşdıq, sevindik Vurğunla Şəmşir kimi. Bulaqların başında meydanımı qururdum, sən məni qızışdırır, məni coşdururdun. Sözümə-söhbətimə hər dəfə can deyirdin, mən Bəhməndən oxuyur, sən Zəlimxan deyirdin.

Saçıma sığal çəkən külək Bəhmən deyirdi, qoxladığım, dərdiyim çiçək Bəhmən deyirdi, sən meydan oxuyurdun əlçatmaz fələklərə. Göydə səni eşidib fələk

Bəhmən deyirdi, peyğəmbərlik gəlirdi şairliyin üstünə, sənə Cəbrayıl adlı mələk Bəhmən deyirdi. Səni incə gəlinlər, zərif qızlar sevirdi, vəfalılar sevirdi, vəfasızlar sevirdi. Baxışlar addımbaşı səni salır daşqına, sən də şeir yazırdın gözələ, gözəlliyə, gözəllərin eşqinə. Kəlbəcər qibləgahın, Dəlidağ Məkkən idi, mamır ipək balıncın, qaya mütəkkən idi.

Dərələr sazın oldu, Tərtər avazın oldu. Dilindən, qələmindən nə çıxdı əzbər oldu, hər nə yazdın, yaratdın xalqın, elin, millətin, aşığın, sazın oldu.

Kəlbəcərə dönməyə səbir arzulayırdın, səbir qismət olmadı. Sən Murovun başında qəbir arzulayırdın, qəbir qismət olmadı. Dağla, düzlə, dərəylə görüş arzulayırdın, qazancın həsrət oldu. Həsrətin axır günü zülm, məşəqqət oldu. Ürəkləri yandıran sənsizliyin neyidi, sən neyləyə bilərsən, hara qaça bilərsən, bu ki, alın yazısıdır, bu, şair taleyidir.

Səndən bizə nə qaldı? Qabarıb çəkilmələr, qaynamalar, coşmalar, "Təcnis"lər, "Divani"lər, "Bayatı"lar, "Qoşma"lar. Səndən bizə qaldı? Eşqin odundan qopan, sazın canına hopan, öz ölümsüz ömrünü elin ruhunda tapan təravətlər, ətirlər, şirin-şirin misralar, həzin-həzin sətirlər. Səndən bizə nə qaldı? Vətənoğlu adında bir şairin dərdləri, zaman əfv etməyəcək sənə bu dərdi verən kəmfürsət namərdləri!

***5.02.2005***

## KÖVRƏK BAYATILI SƏADƏT BUTA

Müasir Azərbaycan poeziyasında şeirinin rəngi, dərdinin ahəngi ilə seçilən və sevilən şairəmizdi Səadət Buta!

Yurd ağrısıdı, torpaq nisgilidi, Başkeçid yanğısıdı, bənövşə kövrəkliyidi, göz yaşlarıdı Səadət Buta!

Ər yükü daşıyan anadı, dəstədən üzülmüş durnadı, gölündən ayrılmış sonadı, barmağa həsrət qalmış xınadı. Həsrətdən toxunmuş xalıdı, kədərdən qurulmuş xanadı, qoşmalı-təcnislidir, başı qarlı dağlar kimi dumanlı, sislidir. Hardasa hirslidir, şeirimizin xanımı-xatını, sözümüzün gözəlidir, havamızın "Dilqəmi"si, fikrimizin qoşması, qəzəlidir Səadət Buta!

Mən onu həmişə sevmişəm gözəl bir şairə, istəkli bacı kimi, adını başımdan uca tutmuşam şahların qızılı tacı kimi, mən onu həmişə duymuşam ruhumun təsəllisi, ağrımın əlacı, gur ocağın sacı kimi, o məni həmişə ziyarət bilib, mən onu bağrıma basmışam Məkkədən gəlmiş bir Hacı kimi, ikimiz də ucalmışıq duyğuların zirvəsinə, uğurludu yollarımız Haqq elçisi Peyğəmbərin müqəddəs meracı kimi!

Bura qədər sözlə dediyimi, aşıqlar demiş, bu yerdə şairə bacım haqqında sazla deməsəm, dilim od tutub yanar. Aldı görək Zəlimxan Yaqub sözlə dediyini sazla necə dedi:

Gah yanar, gah sönər, söz qovğasında,
Oddadı, sudadı Səadət Buta.
Qəm ilə qohumdu yaranışından,
Dərd ilə qudadı Səadət Buta.

Ruhunu od kimi atıb şeirinə,
Qovuşub sözünə, qatıb şeirinə.

Torpaqdan götürüb qatıb şeirinə,
Bu tamı, bu dadı Səadət Buta.

Şeiri dan yeridi, yaz havasıdı,
Gözəllik sərgisi, naz havasıdı.
"Başkeçid" adında saz havasıdı,
Daşıyır bu adı Səadət Buta.

Qıymadı mənliyi, vüqarı sına,
Qeyrət qılıncını qoymadı qına.
Atalıq elədi dörd balasına,
Anadı, atadı Səadət Buta.

Küskün bənövşədi, boynunu bükər,
Şeirinə qul olub, dərdinə nökər.
Dindirsən, ağlayıb göz yaşı tökər,
Dindirmə, xatadı Səadət Buta.

Eşqin güllərini yarımçıq dərib,
Duruşu qəmgindi, baxışı qərib.
Tanrı Borçalıya sovqat göndərib,
Sevgidi, butadı Səadət Buta.

***2001-ci il***

## KƏRƏM KÜRQIRAQLININ KİTABINA GİRİŞ SÖZÜ

Kərəm Kürqıraqlı 1950-ci ildə qoca Şirvanın Zərdab bölgəsində, Otmanoba kəndində dünyaya gəlib. Ayağı yer, dili söz, əli qələm tutub. Gör-götür dünyasında gördüyünü götürməyə, duyduğunu yazmağa can atıb. Yaradıcılıq deyilən əzablı bir işin uğurlu, uğursuz anları ilə qarşılaşıb. Yollarında işıq görəndə sevinib, duman görəndə küskünləşib. Ancaq nə sevinəndə, nə nə də küskünləşəndə yazıb-yaratmaq eşqi onun şair ürəyini tərk etməyib. İllər boyu dərdini də, sevincini də qələmə söyləyib, varağa danışıb. Yazdığı gəraylılar, qoşmalar, təcnislər, divanilər sandıqlar küncündə sarala-sarala qalmayıb, dildən-dilə düşüb, əldən-ələ gəzib, məclislərə ayaq açıb. Kərəmin xeyirxah dostları, ağsaqqal qayğıkeşləri onu bir şair kimi qoruyub, yaşamağa-yaratmağa həvəsləndirib. "Var başını gizlətməz" – deyiblər. Nəhayət, gün gəlib çatıb. Onun şair səsi radiodan, televiziyadan gəlib, imzası qəzet səhifələrində, adı və şeirləri kitablarda görünməyə başlayıb. Bir gün onun ürəyində öz kitabını görmək marağı baş qaldırıb. Elə bu maraqla da nəşriyyat sorağına düşüb. "Yazıçı" nəşriyyatına gəlib. Şair nəşriyyat redaktoru Müzəffər Şükürdən qayğı və xeyirxahlıq görüb. Lakin bəzi bədxahların maneçiliyi ucbatından kitabı bu nəşriyyatda işıq üzü görməyib. Axırda işıq ucunu "Azərnəşr"də tapıb.

Əziz oxucular, nəşriyyatın sizə təqdim etdiyi bu kitabda gedən şeirlərin əksəriyyəti dövrün, zamanın acı həqiqətlərini, hamımızı narahat edən ayrı-seçkiliyi, tayfabazlığı, rüşvətxorluğu, vəzifə davasını, haqsızlığı, ədalətsizliyi qamçılayan sərt misralardan, kəsərli deyimlərdən yoğrulmuşdur. Təkcə istedadlı və ədalətli adamlara qarşı

deyil, millətimizə, torpağımıza qarşı olan haqsız hücumlar, altıncı ilə ayaq qoyan amansız müharibə, tökülən qanlar, şəhid olan oğullar, yetim qalan körpələr şairin yaralı ürəyində yaralı şeirlərə çevrilib, oxucunu ayıq-sayıq olmağa, düşünməyə çağırır.

Kərəm Kürqıraqlı bir şair kimi bütün bəlaların kökünü daxili çəkişmələrdə, yersiz didişmələrdə görür və bütün bunlara qarşı kəskin nifrətini, qəzəbini bildirir.

Haqsız başda oturanda,
Haqlı olan gör nə çəkir.
Xoş halına ağılsızın,
Ağlı olan gör nə çəkir.

– deyib duyan, düşünən, əsl ziyalı insan ömrü yaşayan adamların nələr çəkdiyini oxucunun gözləri qarşısında bütün çalarları ilə, misraların aydın və səmimi, kəskin və poetika dili ilə çox gözəl ifadə edir. İstər-istəməz oxucu tutarlı deyimləri, sərrast deyilmiş şeir parçalarını yaddaşına yazmağa, yadında saxlamağa çalışır.

Pələngi, bəbiri qovduq meşədən,
Tülküyə, çaqqala şir deyə-deyə.

Bəli, neçə ki, Məmməd Araz demiş, dünya düzəlməyəcək, heç vaxt xalqın əsl şair oğulları susmayacaq. Kərəm Kürqıraqlı da beləcə.

Onun şeirləri layla çalmır, sığal çəkmir, silkələyir canlı meyitləri, ayıldır mürgülü başları, şillələyir qızarmış sifətləri. Kərəm Kürqıraqlı Kür çayının kənarında kəndistan dünyasında torpaqla nəfəs-nəfəsə dayanıb torpaq kimi halal bir şair ömrü yaşayır. Düzü düz, əyrini əyri göstərə-göstərə, öz şair həqiqətinə sadiq qala-qala, "el içində, öl içində" deyib, eli-obası, yurdu-yuvası ilə baş-başa verib ömür sürür, ömrünü misralar üstündə əridə-əridə gələcəyə doğru gedir. Sənətin və arzuların gələcəyinə doğru!

***15.12.1993***

## KÖKLƏRDƏN BUDAQLARA

*Alxas Ağa Hacallı və Rəşid Hacallının şeirlər kitabına ön söz*

Ağır elli, şirin dilli, dolu sinəli, dağlı-binəli, köçü yollara, sürüsü yamaclara, dərdi, həsrəti, arzuları dünyaya sığışmayan Borçalı adlı bir mahal olub, bir mahal var bu dünyada. Ağır oturub batman gələn, din içində din bəsləyən, dillər içində dilinin şəhdini-şirəsini itirməyən, bənzərsiz ağız ədəbiyyatı, folkloru, bayatı yükü, nağıl xəzinəsi, dastan genişliyi, sazlı-sözlü dünyası olan bir torpaqdı bu mahal. Şairləri, ozanları, aşıqları, sərkərdələri, ağsaqqalları, pəhləvanları adla olub bu yerin. Məşhur el şairləri şair Nəbinin, şair Ağacanın, Quşçu İbrahimin, Təhlə Novruzun və başqa-larının say-seçmə şeirlərini bu gün də ustad aşıqlarımız məclislərdə sevə-sevə oxuyurlar. Bu zəngin irsi bizə çatdıran məşhur sənətkarlarımız Aşıq Hüseyn Saraçlının, Əmrahın, Kamandarın əvəzsiz xidmətləri hamı tərəfindən minnətdarlıqla xatırlanır.

Şeirləri el içində sevilə-sevilə oxunan şairlərdən biri də on doqquzuncu əsrdə yaşamış, Bolnis-Kəpənəkçidə anadan olmuş Alxas ağa Hacallıdır. Hacallı o nəsildir ki, onun yetirmələri qılınc qurşayan sərkərdə oğulları, qələm tutan çox savadlı ziyalıları, Emin ağa Kəpənəkçi, İsrafil ağa Kəpənəkçi kimi qəhrəman kişiləri, Alxas ağa kimi məşhur el şairi, Rəşid müəllim kimi çox nüfuzlu şairi – müəllimi, Abbas Abdulla kimi dövrümüzün tanınmış şairi, alimi, ictimai xadimi qəhrəmanlıq tariximizə, elmi-ədəbi mühitimizə öz izlərini qoymuş, imzalarını yazmışlar.

Öz bayatıları, təcnisləri, qoşmaları, divaniləri ilə məşhur olan el şairi Alxas ağa həmin nəslin nümayəndəsidir.

Yaradıcılığı çox zəngin olmasa da, bu günümüzə gəlib çıxan şeirləri onun bir sənətkar kimi kamilliyindən, təbiəti, insanı gözəl bilməsindən, güclü təbə, şirin və rəvan dilə malik olmasından xəbər verir.

Dağ odur ki, arxası var, dalı var,
Gədiyi var, yamacı var, yalı var.
Köhlən odu – qayalarda nalı var,
Yəhərində Rüstəm olu, Zal olu.

İzahata ehtiyac yoxdur. Şeirin təbii deyiliş tərzi, bədii mənzərəsi, poetik bitkinliyi, dadı-tamı, siqləti göz qabağındadır. Şairin bir sənətkar kimi nəyə qadir olduğunu bilmək üçün hökm deyil ki, onun qalın bir kitabını oxuyasan. Bəzən dördcə misradan, hətta bir sətirdən bilirsən ki, bu şeiri yazan adam nə gücün sahibidir.

Alxas ağa öz adı ilə bağlı bir bayatı deyib və bir qoşma qoşub. Nümunələrə fikir verək:

Ay Alxas,
Gün xoş keçər, ay al, xas.
Ər başı ərənə dəyər,
Evdə olsa əyal xas.

Və ya:

Uralanmış bostan, dərilmiş tənək,
Biçilmiş zəmisən, ay Alxas ağa.
Cırılmış təknəsən, qırılmış sənək,
Dağılmış gəmisən, ay Alxas ağa.

Naxırsız arxacsan, sürüsüz bərə,
Soğulmuş bulaqsan, qurumuş dərə.
Gərəksiz dərisən, atıblar yerə,
Boşalmış nəmisən, ay Alxas ağa.

Yuxarıdakı bayatı da, iki bəndini misal gətirdiyimiz beş bəndlik qoşma da şairin ömür-gün yoldaşı haqqında deyilmişdir. Həyat yoldaşını vaxtsız itirən şair həyatda

tək qalan insanın, qadın itirən kişinin faciəsini o qədər bədii detallarla, təbii boyalarla, axar-baxarlı ifadələrlə zənginləşdirmişdir ki, onun təsvirlərinin təbiiliyinə, söz düzümünün səliqə-sahmanına heyran qalmamaq olmur.

Şair beş bəndlik "Alxas ağa" qoşması ilə bir insan ömrünün faciəsini o qədər dolğun və mənalı verib ki, bəlkə də bir romanın verə bilmədiyi məntiqi nəticəni bir şeirin ruhunda görmək və duymaq olur. Budur sənətkarı uzunömürlülər cərgəsində yaşadan, yaddaşlara həkk edən.

Alxas ağa bayatılarının birində nəslini, kökünü bizə belə xatırladır:

Hac Alı,
Hac köynəyin hac alı.
Atam Hacı Əmiraslan,
Ulu babam Hacalı.

Şair öz soykökünü bizə xatırlatmaqla, şübhəsiz ki, qədim və adlı-sanlı bir ocağın övladı olmağı ilə fəxr edir və bu duyğuları bayatı deyimində könlümüzə köçürür.

Alxas ağa Kəpənəkçi kəndinin dağına-binəsinə, aranına-yaylağına, hörmətli adamlarına bir-birindən gözəl şeirlər yazmış, gözəlliyi, incəliyi duyan adamlara böyük məhəbbət bəsləmişdir.

Min il ömr elədi çinar, dedilər,
Pulun kəsərinə dinar dedilər.
Hər şey incələndə sınar dedilər,
İnsan oxalanar qalın olanda.

Atalar sözü kimi səslənən bu misraların arxasında el sənətkarının insana münasibəti dürüst ifadə olunmuşdur.

Bu gün şeirimizdə az qala unudulan, yaddan çıxan, ancaq etnoqrafik baxımdan çox qiymətli olan ifadələr, sözlər var ki, Alxas ağa onları çox ustalıqla, şirinliklə şeirlərinə gətirir. Urvat, çarvadar, xırman sürmək, soyruğ atmaq, ala-toran, vəl, xırman, nehrə, örüş, çöysü-

mək, arxac, göyşəmək, kəfgir, qatdama, buxça və s. kimi ifadələr onu göstərir ki, Alxas ağa bir el şairi kimi elin-obanın həyat tərzinə, məişətinə, xalqın yaradıcılıq təbiətinə dərindən bələd olub. Eldən gələn, torpaqdan mayalanan bu el adamı bu gün də yaddaşımızda, məclislərimizin dadında-tamında yaşayır.

Haqqında söhbət açdığımız nəslin budaqlarından biri də bu gün adı Borçalıda hörmətlə çəkilən məşhur müəllim-pedaqoq, 50 il maarif sahəsində yorulmadan fəaliyyət göstərmiş tanınmış Borçalı ziyalılarının bir neçəsinin yetişməsində halal və danılmaz payı olan, Alxas ağanın oğul nəvəsi Rəşid ağa Hacallıdır.

Rəşid müəllim çox işıqlı bir şəxsiyyət, gözəl şair, böyük mənada əsl ziyalı idi. Müəllimliyi dərin savadında və o savadı aşılamaq qabiliyyətində, işığı həddən çox tələbkarlığında və xeyirxahlığında, ziyalılığı kitaba və kitab mədəniyyətinə münasibətində, şairliyi az-az yazdığı və gözəl yazdığı şeirlərində aydın görünürdü. Rəşid müəllimin ağsaqqal kimi böyüklüyü onda idi ki, yaxşı oxuyan şagirdləri, ədəbiyyata, poeziyaya meyilli gəncləri gözünün işığı kimi sevərdi. Onlara yol göstərməkdən, düzgün istiqamət verməkdən yorulmazdı. Kimdənsə uğurlu bir misra eşidəndə uşaq kimi sevinər, çöhrəsi gülər, gəncləşər, gümrahlaşardı. Böyük şairlərin, ulu ustadların sirli-sehrli dünyasından məhəbbətlə söhbət açar, sevə-sevə bizə də sevdirərdi:

Ustadını anmayan kəs,
Ustad olmaz, ay qadası.
Xalqı arif sanmayan kəs,
Ustad olmaz, ay qadası.

– şeirini təsadüfi yazmamışdı. Bu cür müqəddəs duyğular bir insan kimi onun xislətindən və xarakterindən gəlirdi. Onu yaxından tanıyanlar gözəl bilir ki, o, haqqın, həqiqətin yolunda özünü fəda etməyi bacarırdı.

Allahı həqiqət idi. Böyük Vətən müharibəsində neçə-neçə yara almışdı, ancaq heç kəs onun bircə dəfə də olsun sızladığını, əzildiyini görməzdi. Böyük əqidə sahibi idi. Heç vaxt özünü şair kimi qələmə verməzdi. Hətta hökmlə "mən şair deyiləm!" – deyərdi. Bu da onun böyük şairləri dərk eləmək qabiliyyətindən yaranan tələbkarlıq idi. Düzü-düz, əyrini-əyri deməkdən çəkinməzdi. Aşıqların dilindən düşməyən, məclislərdə el-el gəzən şeirlərindən birində belə deyirdi:

Nanəcibə söyüş söydün, öyündü,
Elin möhnətinə güldü, söyündü.
Əclafın toxumu pərpətöyündü,
Sulasan da bitər, sulamasan da.

El əkər, bitirər el ağacını,
Bülbül məskən eylər gül ağacını.
Zəhləkar itlərə əl ağacını,
Bulasan da hürər, bulamasan da.

Belədi Rəşidin mətləb-muradı,
Elin şənliyində çəkilsin adı.
Min tufan zoruyla sönməyən odu,
Qalasan da yanar, qalamasan da.

Hədəf aydın, mətləb dürüst, fikirlər yığcam və poetik. Yaxşıya yaxşı, pisə pis münasibəti həmişə aydın idi. Bu şeirdə olduğu kimi.

Onun şeirlərində eldən gələn, sazdan gələn bir müdriklik var. Təcnisində zəriflik, qoşmasında yumşaq bir oynaqlıq, divanisində ləngərli bir ahəng var. "Gör" rədifli divanisi bu baxımdan xüsusilə seçilir və klassik nümunə səviyyəsinə yüksəlir:

Ərşi-gürşü dolan könül, hər cürə dövranı gör,
Tərlan kimi cövlan elə, dağlarda boranı gör.

Hikmətindən xəbərdar ol, hakimlərə sal nəzər,
Ədalət bəhrində qalxan, çağlayan ümmanı gör.

Ayda, gündə yol gəzirsən qurmaq üçün taxtını,
Kəhkəşanlı ulduzlarda axtarırsan baxtını.
İnsan oğlu, hədər yerə boş keçirmə vaxtını,
Səninçün sənsiz yazılmış hökmə bax, fərmana bax.

Cahan mülkü uzun yoldu, ömür çatmaz qaşına,
Min baxışla bir nəzər sal torpağına, daşına.
Çox yaşasan bu dünyada nələr gəlməz başına,
Rəşid könlüm ümid gözlə, dərd üçün dərmanı gör.

Bu şeirin nümunə üçün bir bəndini misal gətirmək olardı. Ancaq oxucunun gözündə şeirin tam mənzərəsini yaratmaq üçün müxtəlif bəndlərə nəzər salmaq daha maraqlıdır. Bir şairin yaddaşlarda yaşaması üçün bizcə belə bir nümunənin özü də kifayətdir. Rəşid müəllim yanaşdığı hər bir məsələdə kəmiyyətə yox, keyfiyyətə daha çox fikir verərdi. Elimizin hörmətli ziyalılarından yaxın könül dostları Hacımurad Güləhmədli və Mikayıl Sərdərli ilə çox təbii deyişmələri Vaqiflə Vidadinin "Deyişmə"sini xatırladır.

Şeirlərinin birində Rəşid Hacallı yazırdı:

Yazıl bu dağların gen sinəsinə,
A sözüm-söhbətim, a yazım mənim.
Qarışsın ellərin şirin səsinə,
Nəğməli nəfəsim, avazım mənim.

İnanırıq ki, bir nəslin poetik duyğularının əks-sədası olan "Köklərdən budaqlara" kitabı ellərin şirin səsinə qarışacaq, bir nəğməli nəfəs, bir şirin avaz kimi oxuculara qiymətli ərməğan olacaqdır.

***1996***

## AZƏR TURANIN "CAVİDNAMƏ"Sİ

Qarşımda bir kitab var, Azər Turanın "Cavidnamə" kitabı. Bu kitabın dünyaya gəlməsini, işıq üzü görməsini neçə illərdi mən çox böyük ümidlə və həsrətlə gözləyirdim. Azər Turanla ruh qohumluğumuz, könül dostluğumuz, fikir doğmalığımız, gündəlik söhbətlərimiz, ardıcıl və fasiləsiz ünsiyyətimiz mənə imkan verir ki, Türk-Turan dünyasının böyük şairi Cavid Əfəndiyə həsr olunmuş bu kitab haqqında ürək sözlərimi sevimli oxuculara çatdırım. Uzun illərin müşahidəsi kimi məndə belə bir fikir formalaşıb ki, Azər Turan Cavid Əfəndinin ömürgün yoluna ayna tutmaq, böyük şairin faciəli taleyini, çoxşaxəli və uzunömürlü yaradıcılığını, fikir və məfkurə dünyasını bütün çalarları və rəngləri, bütün istiqamətləri və yönləri ilə açmaq, təhlil və vəsf etmək, sevmək və yenidən sevdirmək üçün bu dünyaya gəlib.

Azəri tanıdığım ilk gündən bu günə qədər elə bir görüşümüz, söhbətimiz, məclisimiz, səfərimiz olmayıb ki, Azərin asta və usta, təmkinli və ağayana danışıqlarında Cavid Əfəndinin taleyi ilə bağlı ən maraqlı, ən acı, ən şirin duyğulara toxunulmasın. Tarixi və ədəbi təcrübə göstərir ki, yazılan əsər, kitab o zaman milyonların sevgisinə çevrilir, o zaman hamının diqqətini çəkir ki, müəllif özünün yaratdığı baş obraza, əsərin qəhrəmanına bütün varlığı ilə vurulur, saçından-dırnağına qədər ona bağlanır, gecəsini, gündüzünü, bir günün 24 saatını gecələr yuxuda, gündüzlər həyatda ona həsr edir, ona bağlanır. Yediyi çörək də, içdiyi su da, udduğu hava da, yeridiyi torpaq da, baxdığı göy də onun üçün yazdığı əsərin mayasına çevrilir. Azər Turanın bəxti onda gətirib ki, yer göyə, bulaq çaya, çay dənizə can atan kimi

o da Cavid Əfəndiyə qovuşmağa, Caviddə əriməyə, Caviddə itməyə can atıb ki, bu itkidə özünün böyük həqiqətini – Cavidini tapa bilsin. Bəli, Azər Turan yazdığı, yaratdığı "Cavidnamə"də öz həqiqətini tapıb. Yazdığı, yaratdığı dedim. İstənilən şair haqqında istənilən kitab yazmaq olar. Bu o qədər də böyük hünər deyil. Ancaq yaddaşların sərvətinə çevrilən bir kitab dünyaya gəlibsə, demək, o kitabı yaradan müəllifdə böyük bir yanğı, güclü bir təfəkkür, coşqun bir ilham, sağlam bir əqidə, sonsuz bir sevgi və həvəs var.

Azər Turan "Cavidnamə" kitabını Cavidin adına, şöhrətinə, türbəsinə, ruhuna layiq bir səviyyədə yaradıb. Əgər Azər bu vaxta qədər heç bir kitabı nəşr etdirməsəydi, "Cavidnamə"dən sonra bir sətir yazı yazmasaydı belə, təkcə bu əsərlə əbədi yaşamaq hüququ qazanardı.

"Cavidnamə" Cavid haqqında Azərin tək əsəri deyil. Bundan əvvəl böyük şair haqqında "Hüsnü-xuda şairi Hüseyn Cavid", "Əbədi Turan", "İrfan çobanı", "Cavid Əfəndi", "Tahir Rasizadə", "Turan Cavidin son söhbəti, son yaşantıları, son günü", "Hüseyn Cavid" kimi kitabları işıq üzü görüb, oxucuların rəğbətini qazanmış, Azər Turana bir müəllif kimi böyük hörmət gətirmişdir. Adını çəkdiyim əsərlərin hamısı "Cavidnamə" adlı bir düşüncələr dənizinin çayları, gölləri, bulaqları, o dənizi daim hərəkətdə saxlayan, qalxan, enən, qabaran, çəkilən dalğaları, ləpələridir.

"Cavidnamə"də elm aləmində ilk dəfə olaraq Cavid bir şəxsiyyət və böyük yaradıcı kimi bütün istiqamətləri, cəhətləri, yönləri, xüsusiyyətləri ilə tam açılır, sərgilənir. Cavidin nəsil şəcərəsi, Naxçıvan, Bakı, Təbriz, Tiflis mühiti, ən geniş şəkildə İstanbul mühiti tam dəqiqliyi və genişliyi ilə açılır.

Azər Turanın Cavidin İstanbul mühitinə daha çox yer vermə-si tamamilə təbiidir. Ona görə ki, böyük şairin Türk-Turan təfəkkürünə çox geniş şəkildə yiyələnməsi, məşhur türk alim və şairlərindən – Rza Tofiq,

İsmayıl bəy Qaspıralı, Əlibəy Hüseynzadə, Yusif Akçurd, Ziya Göyalp, Bəkir Çobanzadə, Xalid Ziya Uşaqlıgil, Cənab Şahabəddin, Əbdülhaq Hamidi, Məhməd Akif kimi şəxsiyyətlərin adı və taleyi ilə bağlı idi. Adını çəkdiyim ruhu hamımız üçün əziz olan bu tarixi şəxsiyyətlər, ədəbi simalar, təkcə Cavidin ədəbi taleyində deyil, ümumən Türk dünyasının taleyində, düşüncə tərzinin yeniləşməsində çox böyük rol oynamışlar. Şübhəsiz ki, bu qədər böyük təfəkkür sahibi olan şəxsiyyətlərin ictimai-siyasi, ədəbi-bədii, fəlsəfi-psixoloji təsir gücü Cavid kimi bir düşüncə sahibinin mənəvi varlığında izsiz-tozsuz, səssiz-səmirsiz ötüşə bilməzdi.

"Cavidnamə"ni çox böyük maraqla fasilə vermədən iki dəfə dərindən mütaliə edən, müşahidələr aparan bir qələm adamı kimi məndə belə bir qənaət yarandı ki, əgər Cavid İstanbul mühitində yetişməsəydi, bu gün Azərbaycan ədəbiyyatının nə "İblis"i, nə "Şeyx Sənan"ı, nə "Peyğəmbər"i olmazdı. Əgər Hüseyn Cavid Osmanlı mühitində Əhməd Yəsəvinin, Mövlananın, Yunis İmrənin irfan nurunda işıqlanmasaydı, Fəridəddin Əttarın "Mantıkı-tayı" əsərini, Əlişir Nəvainin "Qisseyi Sənan" əsərini dərindən duymasaydı, "Quran"ın cazibəsi onu əbədi olaraq irfan şairinə çevirməsəydi, "Şeyx Sənan" kimi ölməz bir əsər yaranmazdı. Yazının bu yerində Cavidin Şeyx Sənanın türbəsi önündə dediyi ölümsüz və şahanə misraları xatırlayıram:

Ayıl, ey piri-xoşdil, ayıl bir xabi-rahətdən,
Qiyamətdir, qiyamət, qalx, oyan zövq al bu hikmətdən.

Ziyarətini gülbusələr təzyin edir hər an,
Sən əhli-eşq üçün bir Kəbə yapdırdın məhəbbətdən.

Bəli, Cavid Əfəndi Şeyx Sənanı yazmaqla, onu Türkün, Turanın sərvətinə çevirməklə Şeyx Sənana məhəbbətdən bir Kəbə yapdırıb.

Əgər Hüseyn Cavidə Şeyx Sənanı yazdıran ulu qüvvət daha çox irfan işığı ilə bağlıdırsa, "İblis"i yaradan səbəb daha çox Cavidin siyasi təfəkkürü, müqəddəs müharibə adıyla, dünyaya böyük maddi-mənəvi dağıntılar gətirən qanla, qırğınla, savaşla, satılanlar və alınanlarla bağlıdır. Məkkə əmiri Şərif Hüseyn Paşanın ingilislərin qızılına və yağlı dilinə aldanıb Türk dünyasının kürəyinə endirilən bıçağın hələ də sağalmaz yaraları, inildəyən ağrıları ilə bağlıdır.

1918-ci ildə Bağdadın süqutu, Mosulun və Kərkükün ingilislər tərəfindən tutulması, Osmanlı imperatorluğunun Mondros müqaviləsi əsasında məğlub olma səbəbləri, Qərbin Şərqə ardıcıl basqınları, müharibələri, şərin xeyrə ardıcıl hücumları böyük Hüseyn Cavidə "İblis" kimi bəşəri və ölməz bir əsər yazdırmışdır.

Eyni zamanda Cavidə "İblis"i yazdıran təkcə müharibə adlı şeytan deyil, həm də insanın içindəki şeytandır. Cavid qələmində İblisin insana müraciətini xatırlayaq:

Siz nə qədər məndən uzaqlaşsanız,
Yer deyil, əflakə uçub qaçsanız,
Qarşılaşıb birləşiriz daima,
Ayrı deyil, çünki biriz daima.

Bu şahanə misralarda böyük şair iblisin insana, şərin xeyrə münasibətini çox gözəl açır, çox aydın təqdim edir.

Mənim üçün, yəqin oxucular üçün də Azərin bir yaradıcılıq hünəri də ondan ibarətdir ki, Cavidin "İblis"inin yaranmasında böyük Turançı Əli bəy Hüseynzadənin böyük alman şairi Hötenin "Faust"undan elədiyi tərcümələrin tarixi əhəmiyyətini də gözdən qaçırmır, bu mövzunun təhlilinə də geniş yer ayırır. "İblis"lə bağlı Azər çox doğru olaraq qeyd edir ki, "Azərbaycanın dünyaya qovuşmasının, milli mədəniyyətimizin Avropa mədəniyyətinə inteqrasiyasının təməli "Füyuzat" tərəfindən atılırdı. Milton, Höte, Şiller, Bayron, Neyne Əli bəyin ölkəsinə Əli bəyin evindən daxil olurdu".

Cavidin "İblis"ini, Hötenin "Faust"u, Belmoutun "Təbliğçi iblis"i, Kalderonun "Ecazkar sehrbaz", Ren Consonun "Şeytan", Bayronun "Qabil", Lermontovun "Demon" əsəri ilə gətirdiyi müqayisələr oxucunu düşündürür və Cavid təfəkkürünün genişliyi insanı heyrətə salır.

Azər Turanın "Cavidnamə"sində Cavidi "Peyğəmbər"ə gətirən yollar, izlər, şaxələr, səbəblər çox dəqiqliyi və aydınlığı ilə təqdim olunur.

Kitabın "Hz. Məhəmməd və Türklər" hissəsində çox maraqlı bir hadisə var. "Məhəbbət və millət" kitabında Əhməd Kabaqlı yazır: "Əbülqazi Bahadır xanın "Gəcəreyi-türk" kitabında xoş bir parça var. Peyğəmbərimizin Türk millətindən olduğunu və ona sevgisini anladır, çox dəyərlidir. "Peyğəmbərimiz Merac əsnasında Cəbraildən soruşdu:

– Yer üzündə bəyaz atlılar görürəm, bunlar hansı millətdəndir?

– Bunlar Allahın süvariləri olan Türklərdir.

O zaman daha türklər müsəlman deyildilər. Peyğəmbərimizə belə bəhs etdirən iç duyğusu nə idi? Buxaranın yanında Qureyş kəndi və oymağı vardı. Tarixin çox qədim dövrlərində türk yurdundan ərəb yarımadasına da köçlər olmuşdu. O böyüklər böyüyü insan öz soyunu və qanını daşıyırdı".

Bu tarixi misalı xatırlamaq kifayətdir ki, Cavidin "Peyğəmbər"ə sevgisi, Tanrı inancından təkcə dini yox, həm də milli duyğularından qaynaqlanır.

Hz. Məhəmməd mövzusu türk yazılı ədəbiyyatında Balasaqunlu Yusifin "Qudatqu bilik", Əhməd Yəsəvinin "Divani-hikmət", Füzulinin "Həqiqətüs-süəda", Hacı Bayram Vəli müridi Yazıçıoğlu Məhəmməd Əfəndinin "Məhəmmədiyyə", Cübran Xəlil Cübranın "Peyğəmbər" əsərləri ilə zənginləşmiş, Cavidin "Peyğəmbər"i ilə tamamlanmışdır.

Qərb ədəbiyyatında Hz. Məhəmməd mövzusu Dantenin "İlahi" komediyasında, Volterin "Məhəmməd faciəsi"ində,

Hötenin "Şərq-Qərb" divanında mənfi və müsbət meyillərlə işlənmişdir. Müsbət fikirlər Höteyə aiddir. Cavid Əfəndinin "Peyğəmbər" əsərini yazması heç şübhəsiz ki, Peyğəmbərin türklər haqqında hədisləri ilə də çox bağlıdır. "Peyğəmbər Xəndək davasını oturduğu Türk çadırından idarə edirdi" fikri də çox maraqlıdır və Azər Turan da bu fikrə hörmətlə yanaşmış, elmi mənbəni də göstərmişdir: "Kütub-əl-Sittə".

Hüseyn Cavid "Peyğəmbər"i yazsa da, onun səhnəyə qoyulmasına icazə verməmiş, öz əl yazısı ilə onu ğan etmişdir. Bu hadisənin özü Cavidin Peyğəmbərə uca və müqəddəs münasibəti ilə bağlıdır və Azər Turan öz kitabında bu məsələləri tam genişliyi ilə oxuculara çatdırır. Azərin "Peyğəmbər"i təhlilində Promefeyə, Zərdüştə münasibəti, Peyğəmbərlə paralel cəhətləri də maraqlıdır və yenidir.

Azər Turan Topal Teymurla bağlı fikirlərini Yusif Akçuranın, Əli bəy Hüseynzadənin, Nihal Atsızın, İsmayıl bəy Qaspıralının mülahizələri, düşüncələri əsasında daha da dəqiqləşdirir, oxucuya Əmir Teymurun və Cavidin "Topal Teymur"unun tarixdə yerini, əhəmiyyətini bir daha elmi şəkildə genişliyi ilə təqdim edir. Əmir Teymurla əlaqədar Cavidin düşüncə tərzi Ziya Göyalpın siyasi dünyagörüşü ilə üst-üstə düşürdü. Ziya Göyalp öydüyü türk qəhrəmanları – Oğuz xanın, Bilgə xaqanın, Sultan Mahmud Qəznəvinin, Alparslanın, Çingizin, Atillanın, Fatehin, Baburun, Nadirin adları ilə yanaşı Teymurun da adını qürur və iftixar hissi ilə çəkir. Bu elmi qənaətlər Azər Turan tərəfindən daha geniş şəkildə araşdırılır və maraqlı məntiqi nəticələr ortaya çıxır. Cavidin "Topal Teymur" əsərindəki İldırım-Teymur münasibətlərinə Azər Turanın çox doğru olaraq münasibəti belədir: "Siyasi oyun Səmərqəndlə Bursa arasında deyil, yəni Əmir Teymurla İldırım arasında yox, Moskva ilə Ankara arasında gedir". Azər Topal Teymura ortaq

mədəniyyətin və ortaq dilin əsəri kimi baxır. Oxucuya Cavidin əsəri tam aydınlığı ilə çatsın deyə Azər Turan o dövrün ictimai-siyasi hadisələrini, Moskva-Ankara, Rusiya-Türkiyə, İldırım-Teymur münasibətlərini çox geniş elmi təhlilə cəlb etmiş və son nəticədə Cavidin bir şair kimi böyüklüyünü, siyasi təfəkkürünün genişliyi tarixdən ədəbiyyata gələn bir mövzunun kamil şəkildə qələmə alındığını göstərmişdir.

Cavidin "Xəyyam" pyesinə də Azər Turanın özünəməxsus elmi yanaşma tərzi var. "Xəyyam" əsərinin yazılmasını da Azər Turan İstanbul mühiti ilə Rza Tofiqin Xəyyam araşdırıcısı olması ilə əlaqələndirir. Xəyyamla bağlı Əli bəy Hüseynzadənin, Əkrəm Cəfərin, İsgəndər Palanın fikirlərinə öz münasibətini açıqlayır. "Xəyyam" təkcə Cavid yaradıcılığında və Azərbaycan ədəbiyyatında deyil, ümumən dünya miqyasında ən maraqlı ədəbi "Xəyyam"lardan hesab olunmalıdır qənaətinə gəlir.

"Cavidnamə" əsərində Cavidlə bağlı elə bir sahə yoxdur ki, Azər Turan ona toxunmasın, ondan yan keçsin. Cavidin ittihad idealı, Turan ülküsü, Qızıl alma romantikası, dildə birlik ideyasına bağlılığı, Türkiyə Cavidşünaslığında Cavidin yeri, Cavidin yetişməsində İsmayıl bəy Qaspıralının rolu, Cavidin və Cavid ailəsinin başına gətirilən faciələr, taleyində 59 ədədi yeddi dəfə təkrar olunan ağrılı-acılı Cavid ömründəki qabarma-çəkilmələri, Cavid və Bağırov problemi, N.Nərimanovla, M.Rəsulzadə ilə, K.Qarabəkir paşa ilə dostluğu, Mirmöhsün ağaya münasibəti, Ərtoğrul Cavidin faciəli ölümü, Müşkünaz xanımın dözümü, təmkini, yaşadığı ağrılar, Turan Cavidin xatirə işığında Cavid, istintaq, dindirmələr, sürgün, qarlı Sibir və şair taleyi, Turan Cavidin son yaşantıları, son günü hamısı tam genişliyi ilə oxucuya çatdırılır. Tarixi məlumat kimi yox, öz həyat ideyalarını Cavidlə bağlayan bir yazıçı-alimin – Azər Turanın yanan ürəyinin, göynərtili duyğularının əks-sədası kimi! Cavidin

mənəvi övladlarından, sənət pərvanələrindən, irfan çobanı aşiqlərindən birinin ürəyinin qanı, gözünün yaşı, dilinin sızıltısı, kimi! Bütün elmini, biliyini, savadını, istedadını öz mürşidi-kamilinə bağlayan bir Cavid müridinin təmiz, saf, bakirə, müqəddəs duyğularının tərcümanı kimi! Azər Turan Cavidlə bağlı gündəlik söhbətlərində heç vaxt Hüseyn Cavid demir, həmişə Cavid Əfəndi kəlməsini işlədir. Əfəndi kəlməsi daha isti və daha səmimi səslənir. Eyni zamanda Cavidin millət və ədəbiyyat qarşısındakı xidmətlərinə, ədəbiyyatda əfəndilik sənətini yerinə yetirdiyinə görə Azərin böyük şairə sevgisi əfəndi müraciətində daha gözəl, daha doğma səslənir.

Cavid Sibirə sürgün olunanda heç kəs onu yola salmamışdı. Çünki dövrün Stalin-Bağırov xofu var idi. Cavid Sibirdən Vətənə qayıdanda bütün Azərbaycan onun pişvazına, onu qarşılamağa çıxmışdı. Çünki müstəqil Azərbaycanın Heydər Əliyev kimi böyük oğlu və Cavidə tükənməz Heydər Əliyev məhəbbəti, xalq sevgisi var idi. Cavid Əfəndi Azərbaycana – Naxçıvana qayıdandan sonra dastanlaşdı, heykəlləşdi, türbələşdi. Heykəlinin ətrafı şeir-sənət meydanına, türbəsi əbədi ziyarətgaha döndü. Zamanın buzu sındı, haqqında çox qiymətli əsərlər yazıldı. Cavid haqqında ən möhtəşəm ədəbi, elmi, tarixi abidələrdən biri də Azər Turanın yazdığı, yaratdığı "Cavidnamə" kitabı oldu.

Bu kitabın ən qiymətli cəhətlərindən biri də ondan ibarətdir ki, bütövlükdə Rasizadələr və Cavidlər ailəsinin taleyi onun səhifələrində çox geniş şəkildə öz əksini tapmışdır. "Cavidnamə"yə tərtibat xüsusiyyətləri"nə görə "kitab içində kitablar" adı da vermək olar. Şeyx Məhəmməd Rasizadənin kitabı, Müşkünaz xanımın kitabı, Tahir Rasizadənin kitabı, Turan Cavidin kitabı.

"Cavidnamə"nin ən uğurlu cəhəti bir də onunla bağlıdır ki, Azər Turan hansı yaradıcılıq yanğısı ilə Cavidə yanaşıbsa, elə həmin sevgiylə də Ərtoğrul Cavidin

həyatını və yaradıcılığını işıqlandırıb. Ərtoğrul Cavidin ortada olan yaradıcılıq məhsulları – şeiri, rəsmi, tərcüməsi, simfoniyası, bəstəsi, folklor yaradıcılığı və s. insanı heyrətə salır. O sanki atasının heyfini acı taleyin acığına öz coşqun və məhsuldar yaradıcılığı ilə almaq istəyib. 24 yaşlı bir gənc. Möcüzəli istedad. Şair, rəssam, musiqişünas, bəstəkar, folklorşünas, etnoqraf, dramaturq, ssenarist.

"Babam Hüseyn Cavid bir Günəş idi, yüksəldi, parladı, yarasaların gözünü kor etdi" – deyən Ərtoğrul bəy də bir Günəş kimi parlamaq gücünə sahib olub, ancaq zamanın qara pəncəsi, amansız işgəncələri onu da atası kimi yarı yolda, yarı mənzildə qoyub, bütün arzularını alt-üst edib. Ərtoğrul bəyin bütün yaradıcılıq məhsullarını bir kənara qoysaq, təkcə folklor araşdırıcısı kimi də ədəbiyyat tarixində qalmağa tam haqqı və hüququ olardı.

Azər Turanın Ərtoğrul bəyin yaradıcılığını tam genişliyi ilə təqdim etməsi bizə imkan verir deyək ki, Ərtoğrul bəyin vaxtsız ölümüylə Azərbaycan ədəbiyyatı ən böyük şairini, Azərbaycan musiqisi ən böyük bəstəkarını, Azərbaycan rəssamlığı ən böyük rəssamını, Azərbaycan kinosu ən böyük dramaturqunu, ssenaristini itirib. Təəssüflər olsun, bu ağır və əvəzsiz itkinin heç vaxt yeri dolmayacaq!

Cavid Əfəndinin – Allah dostunun, Peyğəmbər aşiqinin, "mənim Tanrım gözəllikdir, sevgidir, – deyən Hüsnü-xuda şairinin Əhməd Yəsəvi, Mövlana, Hacı Bəktaş Vəli, Yunis İmrə dostunun, Türk-İslam əxlaqi bilicisinin, ulu Yaradana könül bağlayanın, Haqqa doğru yol gedənin, Nəsimi taleli bir əqidə, qətiyyət və tale sahibinin, dünyada heç kəsə bənzəri olmayan bir acı tale yaşayanın, dünəni öldürüb bu günü dirildənin, uzun illərdən sonra cənazəsi də ruhu kimi Maqadandan Bakıya, Naxçıvana qədər göylərə qalxan səma sakininin, Məkkəylə Təkkəni, Quranla Turanı öz varlığında birləşdi-

rənin – Hüseyn Cavidin haqqında bu qədər təsirli, bu qədər elmi və bədii, fəlsəfi və psixoloji məzmunlu, insanı – oxucunu haldan-hala salan, həm ağladan, həm ağlayan, bütün zamanlara görk olası bir kitabın – "Cavidnamə"nin dünyaya gəlməsi Cavid Əfəndinin adına, taleyinə layiq olması bizə bircə cümlə deməyə imkan verir: "Sağ ol bu kitabı XX əsrin əvvəllərindən bütün çalarları ilə, qayğıları, gözyaşları, iztirabları, sevgiləri ilə XXI əsrə gətirən qeyrətli Vətən oğlu, qüdrətli qələm sahibi, Azər Turan!"

Yazının sonunda bir məsələni burda xatırlatmağı özümə vətəndaşlıq borcu bilirəm. Azər Turana Azər adını ədəbiyyatımızın ağsaqqalı, Azərin atası çox hörmətli İmamverdi müəllim verib. Biz onu gənclik illərindən Azər Əbilov kimi tanımışıq. Azər Əbilovu Azər Turana çevirən isə Cavidin "Nənəsim" dediyi yeganə qızı, ciyərparası Turan Cavid olub. Uzun illər Azərin Cavidə olan ilahi sevgisini, sonsuz məhəbbətini, tükənməz marağını, can yanğısını görən Turan xanım atası Hüseyn Cavidin ona verdiyi adı, müqəddəs əmanəti o da çox böyük həssaslıqla Azərə əmanət edib.

Səmədi Vurğun eləyən, İsfəndiyarı Xan eləyən, Murtuzanı Bülbül eləyən yaradıcılıq və şöhrət taleyi Azəri də Turan elədi. Məşhur adlarla bağlı bu müqayisədən çəkinmirəm. Çünki mən Azərin gücünü bilir, gələcəyini görürəm. Bu ad onun halalıdı. Çünki bu adı ona böyük Hüseyn Cavidin şərəfli qızı Turan Cavid verib. Turan Cavidin qələmindən çıxan, öz xətti ilə yazılan sətirləri oxuculara çox xoş ovqatla xatırladıram:

"...Azər Turan! Dəyərli dostum... Pak şəxsiyyətin, dərin düşüncən, qüvvətli qələmin Sənə Turan soyadını daşımağa tam haqq verir.

Tanrı Səni – Cavid ocağının ləyaqətli varisini bütün bəlalardan qorusun, Amin!"

**Turan Cavid**
**2003, 16 sentyabr**

Ulu Tanrının maraqlı işləri çoxdur. Mən bu yazını Bakıda yox, İstanbulda həkim müalicəsində olduğum günlərdə yazdım. O İstanbulda ki, Cavid kimi dahi bir şəxsiyyətin yetişməsində müstəsna və əvəzsiz rol oynamışdır. O İstanbulda ki, Cavidi böyük mənəvi dünyaya qovuşdurmuşdur. Nə bilim, bəlkə də bu məqaləni Cavidin müqəddəs ruhu yazdırdı. "İstanbula xoş gəlmisən, mənim oğlum, yaz-yarat! – dedi. Ancaq yazılan qalacaq!"

Cavid Əfəndinin qulağında səslənən bu sözləri mənim yadıma mərhum və unudulmaz şairimiz Əli Kərimin

"Qoyub qabağına neçə dəftəri,
Birdən hamısında yazmaq istədi".

– misralarını saldı. Azər Turan da "Cavidnamə" kitabını yazanda ona ulu Tanrıdan elə bir güc gəlib ki, o gücdən heç özünün də xəbəri olmayıb.

"Töküb qarşına ağ varaqları,
Birdən hamısında yazmaq istəyib".

Cavid torpağını şumlaya-şumlaya əkdiyini əkib, səpdiyini səpib, becərdiyini becərib. Ulu Cavidin pak ruhuna, Azər Turanın "Cavidnamə"sinə salam olsun!

***İstanbul***
***17.12.2010***

## NATƏVAN DƏMİRÇİOĞLUNA MƏKTUB

Əziz qələm dostum, hörmətli Natəvan xanım!

İlk dəfə mətbuatda sizin imzanıza rast gələndə, doğrusu, çaşan kimi oldum. Natəvan hara, Dəmirçioğlu hara. Biri Azərbaycanın böyük şairi, biri Koroğlunun sayseçmə dəlilərinin ən güclüsü. Biri zəifliyin, biri gücün, qüdrətin rəmzi, timsalı.

Ancaq əsərlərinizi oxuduqca adın və soyadın mənası mənim üçün yavaş-yavaş açılmağa başladı. Sizin mənə hədiyyə elədiyiniz – "Birinci kitab" kimi təqdim etdiyiniz povest və hekayələri diqqət və maraqla, birnəfəsə oxuyanda gördüm ki, qarşımda maraqlı bir obrazlar sistemi açılır. Sizin əsərlərinizdə Məcnunluq da var, Kərəmlik də, Natəvanlıq da var, Koroğluluq da, bənövşə zərifliyi də var, qaya sərtliyi də. Azərbaycan şairi, Azərbaycan yazıçısı bir qələm sahibi kimi o vaxt xoşbəxt olur ki, xalqın min illər boyu formalaşdırdığı təfəkkür sisteminin daşıyıcısı və davamçısı kimi dünyaya gəlir. Bu mənada mən gördüm ki, siz kağız korlamaqla yox, kökdən, yaddaşdan, əfsanədən, əsatirdən, nağıldan, dastandan, bayatıdan və oxşamadan, ana dilimizin dərin qatlarından gəlirsiniz. Çəkinmədən deyə bilərəm ki, sizin əsərlərinizdə, üslubunuzda, dilinizdə, poetik nəfəsinizdə İsa Hüseynovun və İsmayıl Şıxlının qələmlərindən süzülüb gələn ətirli, təravətli, eyni zamanda psixoloji gərginliyi və kəskinliyi duydum. Elə bildim "Məşhər"i, "Dəli Kür"ü oxuyuram. Elə bildim "Ölən dünyam"da yenidən ölüb-dirilirəm. İsmayıl Şıxlının "Ölüləri qəbiristanlıqda basdırın" əsəri ilə sizin "Avey" əfsanəsində bir qan qohumluğu, nəfəs qohumluğu gördüm. Deyimi şüar kimi səslənsə də mahiyyəti olduqca

dərin qatlardan gələn Tanrıçılıq, Türkçülük, İslamçılıq, müasirlik gördüm sənin əsərlərində. "Yetim"də Tanrıçılıq səni özündən xəbərsiz obrazın qanadlarında Allaha yaxınlaşdırırsa, "Kəlağay"da ağ rəngli qara rəngin çox güclü, poetik kəşfi ruhunu Dədə Qorquda doğru aparır. Bu yaxınlaşmalar, qovuşmalar ondan irəli gəlir ki, sən uçmağı bacarırsan. Sözün, fikrin, duyğunun, düşüncənin qanadlarında uça bilməyənlər heç vaxt Tanrıdan gələn bir gücləyarada bilməzlər, Natəvan xanım! "Bir-iki dəfə xalama dedim ki, yuxularda uçuram, qorxuram. Dedi: Qorxma, böyüyürsən ondandır". O yuxularda mən də çox uçmuşam və şübhəsiz, mən yuxularımda bütün dünyanı, dünyanın şəhərlərini, dağlarını, dənizlərini görmüşəm. Bu gün də uçuram, mənim qız qardaşım, qələm dostum. Mən bilirəm uçmaq nə deməkdir. Səni uçuran qüdrətin adı vergidi, istedaddı, qabiliyyətdi! Daşsalahlı kimi bir kənddə, daşı silah eləyən ulu babaların yurdunda dünyaya gəlib uçmamaq olmaz, Natəvan bacım, Natəvan qardaşım! Ancaq uçan adamlar "itin qara gözlərinin dərinliyindən yağan" dərdləri oxuya bilər!

"Göy yeri, Yer də göyü anlamasaydı göydən yağan yağışa yerdə ot göyərməzdi. Göyərib göyə doğru boy atmazdı. Çinar ağacı yarpağını aşağıdan tökəndə qış sərt gəlir.

Kim xəbər gətirir bunu?"

"Ay kişi, dur, saat dörddür. Bu vaxt yatmaq olmaz. Bu ruzi gələn vaxtdır. Gəlir görür ev yiyəsi yatır, qapıdan qayıdır".

"Ot qədər, dilsiz-ağılsız ağac qədər, toyuq qədər yoxdumu insan? Niyə göylərlə bağlılığı kəsilib".

"Tərtəmizdi göyün üzü. Körpə üzünə bənzəyir. Hər yazbaşı ot göyərib, novruzgülü bitəndə qırxlı körpə kimi olur torpaq. Çillə çıxardır dünya hər il. Bunun sirrini istəklim Tanrıdan başqa kimsə bilmir".

"Nənəm təzə Aya baxanda salavat çevirərdi həmişə".

“Bir nəsil də Allahdan yetim qalsa, dərd yarıdı. Çünki bu nəsil bir elin içində nədi ki! Onun dərdi yaxındı. “El içində, öl içində” – atalar deyib bunu. El içində ölüm də asandır, yüngüllükdür. Qalıb ki, yetimlik ola. Dərd odur ki, bir millət Allahdan yetim qala. Millətin dərdinə əlac özündə və Tanrıda olur. Yetimi öz dərdi sındıra bilməmişdir. Amma millətin dərdinə sınırdı yavaş-yavaş...

Cəmisi 178 səhifəlik kitabından istənilən qədər misallar çəkərdim. O misallar ki, adamın ürəyindən tikan çıxardır, insanı ucaldır, böyüdür, təmizləyir. O misallardan ki, böyük bir qan düşmənçiliyi ortada dura-dura, birdən-birə düşməninə deyəsən ki, “Ay Söyün əmi, deyirlər sən yaxşı saz çalırsan. Sazın evdədirmi?”

Mənim Natəvan bacım! Sənə bu məktubu yazmağımın səbəbi bax bu saz məsələsi oldu.

Sən bircə suallı cümlə ilə insanın içinin genişliyini, sazın ölməzliyini o qədər güclü vermisən ki, hadisənin mahiyyə-tinə enəndə insanın başında tükləri biz-biz olur. Saz barışdırır, qanı yatırır, kini-küdurəti yuyub aparır, insan ürəyini aylı-ulduzlu bir kəhkəşana çevirir, yerdən göyə, bəndəlikdən Allahlığa, xırdalıqdan böyüklüyə, adilikdən aliliyə, gədalıqdan möhtəşəmliyə qaldırır. Budur sənət, budur əsər, budur yaradıcılıq. Budur xalqın mənəvi dəyərlərinə, əxlaqi sərvətlərinə sahib olmaq bacarığı!

Sənə çətin və şərəfli yaradıcılıq yollarında uğurlar arzusuyla qardaşın Zəlimxan Yaqub.

***27.01.2007***

# UCQAR ŞAİRİNƏ MƏRKƏZ MƏKTUBU

Görəsən, kim itirdi, kim qazandı bu dünyada? Ucqarda yaşayanmı, mərkəzə qaçanmı? Mərkəzdə diqqət mərkəzində olanmı, ucqarda gözdəniraq, könüldən qıraq qalanmı? Mərkəzdə küllənənmi, ucqarda öz içəri dünyasına çəkilənmi? "Ərəbi ölən dəvəninmi dərdi çoxdu, yoxsa dəvəsi ölən ərəbinmi?" Cavabı çətin olan bu suallar hələlik qalsın öz yerində.

Günlərin bir günü ucqar şairi İbrahimxəlildən ünvanıma iki kitab daxil oldu. "Cəllad günü", ("Adiloğlu" nəşriyyatı – 2004), "Yar" ("Qanun" nəşriyyatı – 2007). Hər birinin tirajı – sayı 300, iki kitab cəmisi 600 tirajla nəşr edilib.

Kitablar təzəcə əlimə düşmüşdü ki, aradan bir həftə keçməmiş Ana Borçalıya – Kürüstü Kəpənəkçiyə azman sənətkarımız Aşıq Kamandar Əfəndiyevin 75 illik yubileyinə gedəsi oldum. Bu yubiley tədbiri, demək olar ki, bütün Borçalı ziyalılarını bir yerə toplamışdı. Hamıda yüksək bayram əhval-ruhiyyəsi vardı. Bu tədbirdə Borçalı mahalının istedadlı qələm sahiblərinin əksəriyyəti iştirak edirdi. İbrahimxəlillə də orda görüşdük. Bu kövrək təbiətli, gəlin ismətli, qız həyalı, bənövşə çiçəyi qədər zərif körpə kimi utancaq şairə nə tədbirdə bir şeir oxuda bildim, nə də tədbirdən sonrakı qonaqlıq məclisində.

Hamı danışırdı, deyirdi, gülürdü, zarafat eləyirdi. Susan, danışmayan tək bircə nəfər şair var idi o məclisdə. O da peyğəmbər adı daşıyan, danışanda pıçıltıyla danışan, daha çox dinləməyə, eşitməyə çalışan və təbii ki, elə bu nadir xüsusiyyətilə də hamının diqqətini çəkən şair İbrahimxəlil idi. İkilikdə söhbət edəndə elə

verdiyim suallara qırıq-qırıq cavablar verir, ancaq mənə qarşı sevgisini, ehtiramını gizlətmirdi. Görüşümüzə çox sevinirdi. Bu qədər yazıçının, şairin içində təkcə o bənövşəni xatırladırdı mənə. Boynubükük və utancaq duruşuyla. Sussa da, danışmasa da, qəlbindəki narahatçılığı, gözündəki nigarançılığı, ürəyindəki təlatümü, ruhundakı çırpıntıları çox gözəl duyur, yaxşı dərk edirdim. Bu görkəm, bu mənzərə Bolnisi rayonunun Kazreti qəsəbəsində müəllim işləyən, şagirdləri çiçək kimi sayrışan, son illərin tufanları, qasırğaları, doğma bala kimi sevdiyi şirin-şəkər körpələri – şagirdlərini əlindən alan, hal-hazırda cəmisi ikicə nəfərə dərs deyən, müəllim kimi yetim qalan, ziyalı kimi təklənən, qəhərindən göz yaşını güclə saxlayan, baxışlarından "bizi niyə qoyub getdiniz, Borçalı niyə bu günə düşdü" məzəmməti oxunan bir şairin nə vaxtsa püskürəcək tufanından xəbər verirdi.

Çox dəqiq hiss edirdim ki, ən dəhşətli qasırğa da, ən güclü tufan da, ən amansız zəlzələ də, ən dərin uçurum da onun sükutunda, səssizliyində hələlik sakitcə baş-başa vermişdi. Bir həqiqəti çox aydınca dərk elədim ki, bəzən dünyanın bir susan şairi min danışan şairindən güclü və möhtəşəm olur.

İbrahimxəlillə bağlı elə bu kövrək və yaralı duyğularla Bakıya qayıtdım. Kağız mürəkkəbi, maqnit dəmiri, yer göyü, mərkəz ucqarı özünə çəkən kimi İbrahimxəlilin göndərdiyi kitablar məni özünə çəkdi. Günlərlə susuz qalan təşnə bir adam çeşmənin gözünə dodaq söykəyib bulaqdan suyu necə içərsə, mən də İbrahimxəlilin şeirlərini həmin yanğıyla ciyərimə çəkdim. Ancaq onun ilham çeşməsinin suyu ürəyimə sərinlik gətirmək əvəzinə, hər damlası oda-atəşə dönüb ciyərimi parçalamağa, yandırmağa başladı. Çünki onun poeziyası – sönən ocaqların, üstündən paslı qıfıllar

asılmış bağlı qapıların, qırılan ümidlərin, solan arzuların, nəğmədən sonrakı sükutun, toydan sonrakı yasın, üstünü ot basan cığırların, yolçulara həsrət qalan yolların, dodaqdan qaçan təbəssümün, dildən perik düşən nəğmənin, bizsiz darıxan aran-yaylaq yollarının, Vətəndə qürbətin, evinin içində əli hər yerdən üzülən qəribin poeziyasıdı. Onun poeziyası – göz yaşının, ağrı-acılarımızın, həsrətimizin, yarımçıq qalan toylarımızın, bulanan bulaqlarımızın, deməklə bitib-tükənməyən nisgillərimizin poeziyasıdır.

Onun cəmisi 600 tirajla çıxan 2 kitabını oxuyuram. Gözyaşlarım varaqların üstünə tökülür. Bu qədər ağrını, azarı, qəm şələsini, dərd yükünü, fikir karvanını sayı 600 olan kitablarla necə çatdırasan Allaha, bəndəyə, iblislərə, mələklərə, şeytanlara, dünyanın dörd bucağına. Necə deyəcəksən ki, “burda bir şir darda qalıb, bağırır, mürüvvətsiz insanları çağırır”. Kim eşidəcək səsini, kim duyacaq harayını, kim yanacaq halına, kim şərik olacaq möhnətinə? Allahın verdiyi ilahi neməti, böyük sözü Allahın bəndələrinə çatdırmaq bu qədər müşkül bir işə çevrilibsə, şair axına qarşı nə qədər üzə bilər?

Kimə vursun şilləni, kimdən alsın heyfini, kimdən çıxsın acığını? Yaz odun, üşüyən ev, soyuyan divar, buza dönmüş qələm, səssiz otaq və bu tükürpərdən mənzərənin içində puç olan, gözündən vurula-vurula, içindən qırıla-qırıla, sözündən yıxıla-yıxıla neyləsin şair? Neyləsin, neyləsin şair, başına haranın daşını töksün?

Tənhalığın, təkliyin, yalqızlığın, yetimliyin, kimsəsizliyin, payızın, cəllad gününün poeziyasını yaratmaq, şəklini çəkmək, rəngini göstərmək hər gün ölümlə pəncələşmək, əcəllə hampa-çərək oynamaq, öləndən sonra dirilmək, dirilləndən sonra ölməkdi.

Zindan həyatımız mübarək olsun,
Yeraltı yollarda azaram, xanım.

Bağlı qollarımı cəllad açantək,
Sizə təbriknamə yazaram, xanım.

Ayağına qandal, qoluna zəncir, dodağına qıfıl vurulan şair deyə bilər bu fikirləri.

O qədər duz basdıq yaramıza biz,
Eh, budu ölkədə duz qıtlığıdı.

Yarasına duz basılanlar yaradır ölkədə duz qıtlığını. O yerdə ki, həqiqət qıtlığı, duz qıtlığı var, orda nə rahat yatmaq olur, nə arxayın oyanmaq.

Mənim qanım yaxşı tutur payıznan,
İkimiz də cəllad günü doğulduq.

Payız fəsli deyiləndə insanın fikrinə, xəyalına nələr gəlirsə bütün rəngləri və şəkilləri ilə onun hamısı var İbrahimxəlilin təfəkkür dolu, fikir yüklü poeziyasında...

Qadağan yerdə gördüm
Cudamı... adam etdi.
Bu yerdə kimdi cəllad,
Məni dərd edam etdi.

Bu yerdə cəlladın günahı yoxdur, onun mənim ölümümdən xəbəri yoxdur, məni dərd bu günə saldı, dərd məni dar ağacının altına gətirdi.

Əzrayılı qanlı tutmasın anam,
Məni bir alagöz ceyran öldürür.

Ələsgərin ölümündən də Əzrayılın xəbəri yoxdu. Ancaq Ələsgəri öldürən dərdlə, İbrahimxəlili öldürən ayrı-ayrı qütblərdə dayanan dərdlərdi.

Allah yuxarıda, padşah uzaqda,
Həzin həyəcanlar qara çökdürür.
Allaha yazırsan, açılmır səhər,
Padşaha yazırsan, dara çəkdirir.

Allahdan ümidi, padşahdan əli üzüləndə yaradır insan oğlu bu misraları.

Dəniz havasıtək, dağ havasıtək,
Şair havası da var bu dünyada.
Bir az yağışları kədərdə yağar,
Bir az qəmli yağar qar bu dünyada.

Şair havası... İbrahimxəlilin havası vurub məni, özümə gələ bilmirəm. Hərdənbir nəfəsim kəsilir, boğuluram, qəhər məni boğur. Şeirləri dalbadal, ardıcıl oxuya bilmirəm.

Kitabı bir tərəfə qoyub, yoxuşda nəfəsi təngiyən adam kimi fikirlərimə, xəyallarıma dirsəklənirəm. Bu qədər yükün altında İbrahimxəlilin diri qalmağı məni şübhələndirir. Bu qədər poetik ağırlığın altında sağ-salamat qalıb, şax yerimək Allahın möcüzəsidir.

Getdi, yaz dirilmək ümidi getdi,
Ümid verən səsin az gəlir, Allah!
Mən dar ağacında tumurcuqladım,
Kimsə elə bildi yaz gəlir, Allah!

Bundan gözəl, bundan dəqiq və poetik insan əzabını ifadə eləmək mümkün deyil. Yaz dirilmək ümidi əldən gedən günü yıxılır insanın evi. Kərəmi onda ağlamaq tutur. Qapılar onda bağlanır, ocaqlar onda sönür.

Köçmədim, köçə bilmədim,
Sınıq körpü sınar deyə.

Bu ikicə misrada on kitaba sığışmayan yük var. Bu yükü nə dəvə karvanı çəkə bilər, nə də yer üzünün qatarları dartıb apara bilər.

Şairin gücünə və hökmünə bax ki, yenə də "şükür" sözünü dilindən qoymur:

Yerə verdiyinə şükür, nə deyim,
Gündoğan yerinə qürub verirdi.

Heç nəyin yarsını istəmirdim mən,
Verən verdiyini qırıb verirdi.

Araz haqqında bu günə qədər minlərlə şeir yazılıb. İtib-batanları yadda qalanlardan çox olub. Kimisi dəb xatirinə deyilib, kimisi dərdin, ayrılığın həqiqəti kimi. İbrahimxəlilin Arazı başqa Arazdı:

Elə yarpaq-yarpaq, ya varaq-varaq,
Qubarlı yollara töksünlər məni.
Kəfənlik parçadı Araz elə bil,
O taylı-bu taylı büksünlər məni.

Bu yerdə Arazın taleyi şairin taleyi ilə üst-üstə düşür, hər ikisi eyni dərdin yükünü daşıyır. Arazı kəfənlik parçaya bənzətməyin özündə də bir poetik təzəlik, yeni baxış var.

Payızı xəttindən tanıyıram mən,
Səni xətti-xaldan tanıyan kimi.

Payızı xəttindən tanıyan şair uzaqda qalan, bir də qayıdıb gəlməyi sual altında olan baharın həsrətini çəkir, dərs dediyi məktəbdə arı kimi qaynaşan uşaqların həsrətini çəkir. Boşalan sinif otaqlarının bir də dolub-dolmayacağı haqqında fikirləşir.

İstər zəif olsun, istərsə güclü, İbrahimxəlilin heç bir şeirinin üstündən sükutla keçmək, biganə yanaşmaq olmur. Ona görə ki, hər şeirdə, hər beytdə, hər misrada Borçalının, Göyçənin, Təbrizin – ucqardan mərkəzə, mərkəzdən ucqara Böyük Vətənin böyük dərdləri sadəcə xatırlanmır, sadalanmır, poetik misraların gücünə dərdlərimizi, borcumuzu, qayğılarımızı bizə yenidən göstərir, yenidən xatırladır.

Canım, birər-birər Borçalılartək,
Səndəmi payızın sirdaşısan ki?
Dedikcə, bacımın dili titrəyər,
Mən yox, Borçalıdır qardaşı sanki!

Və yaxud:

Payız köynəyindən keçirdi məni,
O gündən mən payız şairi oldum.

Payızın köynəyindən keçən şair bahardan daha çox payızdan, çiçəkdən daha çox qardan, istidən daha çox soyuqdan, günəşdən daha çox buluddan, səsdən daha çox sükutdan danışır, ona görə ki, təbiət ona yazın sifətindən daha çox qışın boz sifətini göstərib. Cəmiyyət ona sevincdən daha çox kədər, toydan daha çox yas, işıqdan daha çox qaranlıq tərəfini göstərib. "Aşıq gördüyünü çağırar", – deyiblər. Təbiət və cəmiyyət nəyi veribsə, İbrahimxəlil də onların dostu olub, onların köynəyindən keçib:

Mən yarı adamam, yarı kitabam,
Mənim yarammı var, yaram ağrısın.
Haranız ağrıyır? – soruşan olmur,
Eh, mənim haram var, haram ağrısın.

Böyük ağrıların cavabı böyük şair ürəyində ancaq bu cür yaralı misralar ola bilər:

Sananan tellərtək dərdimi sayın,
Sayıb yoxsulluğa yozmurdularmı?
Dəftər qıtlığısa... dərimi soyun,
Bir vaxt dəri üstə yazmırdılarmı?

Bu yazını yaza-yaza elə havalanıram, az qalıram, İbrahimxəlilin bütün şeirlərini başdan-ayağa bu yazının ruhuna hopduram. Ayrılmaq olmur göynədən, üşüdən, ağrıdan, düşündürən misralardan, buz salxımı kimi sallanan sətirlərdən. Əlini vurursan əlini göynədir, dilinə alırsan dilini üşüdür, narahat, nigaran şair ürəyinin amansız çırpıntıları!!!

Ax Mirzə Fətəli, ax Mirzə Cəlil,
Azmı qarqabağı kəsən, asdıran.
Sizə cəllad günü yazmamışdımmı:
İtsəm bilən olmaz, ölsəm basdıran...

Və yaxud:

Bəlkə heç üzünü görmədik yazın,
Kim bilir, bəlkə heç yaza çıxmadıq.

– deyən əzizim İbrahimxəlil!

Hərə bir cana borcludur. Daşıdığın bu dərdlər səni öldürə bilər. Cismən qışdan yaza çıxmaya bilərsən. Ancaq sənin yazdıqların öz işini görəcək. Neçə-neçə qışı yaza çıxardacaq. Mirzəcəlillər, Mirzəfətəlilər gör neçə illərdir dünyadan gedib. Bu gediş ancaq cismani gedişdir. Heç bu xalqın Mirzə Fətəlisiz, Mirzə Cəlilsiz bircə günü olubmu, mənim Mirzə Cəlil yollu, Sabir taleli şair qardaşım?!

İtsəm bilən olmaz, ölsəm basdıran...

Sapı özümüzdən olan baltalar, cahillər və nadanlar Şərqin böyük mütəfəkkiri Mirzə Fətəlinin cənazəsini də bir neçə gün ortalıqda qoymamışdılarmı? İndi onlar yoxdu, böyük Mirzə Fətəli var, onun yaratdıqları var. Sənin poetik təfəkküründən qaynaqlanan, dərddən şirə çəkən, böyük mənada xalqın böyük dərdlərinə ayna tutan əsərlərin getdikcə böyüyəcək, qol-budaq atacaq, yaddaşların sərvətinə çevriləcək! Buna mənim zərrə qədər şübhəm, tərəddüdüm yoxdur. "Yarəb, bəlayi-eşq ilə qıl aşina məni".

Əzizim İbrahimxəlil!

Sizin ünvanınıza yazılan bu məktubdan istifadə edib Borçalı ədəbi mühitinin bütün istedadlı nümayəndələrinə – Osman Əhmədoğluya, Rafiq Hümmətə, Tapdıq Yolçuya, Allahverdi Təhləliyə, Afiq Muxtaroğluna, Hə-

villək Bayramlıya, Dilqəmə, Məhəmməd Həsənliyə, Yunis Novruza səmimi salamlarımı yetirirəm.

Ana öz doğma balalarının nazını, qayğısını çəkən kimi sənin kitablarının işıq üzü görməsində əsl vətəndaşlıq qeyrəti göstərən sevimli yazıçımız, çox istedadlı tərcüməçimiz, təkcə sənin yox, bütün Borçalı ədəbi mühitinin ağır və şərəfli yükünü çiynində daşıyan Nəriman Əbdülrəhmanlıya ürəkdən təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Ucqar şairinə mərkəz məktubunu Zəlimxan Yaqubun bu misraları ilə tamamlayıram:

Mərkəzlə ucqarın düz gəlmir sözü,
Mərkəz toz-dumandı, uc qardı, qardaş.
Qəlbində qəriblik olan şairə,
Mərkəzin özü də ucqardı, qardaş.

***"525-ci qəzet",***
***24.11.2007***

## ONUN TƏBİİ İLHAMI VAR

Təbriz İman Darvazlı Borçalı mahalının Darvaz kəndində dünyaya gəlib. 32 yaşı var. Mən onu bu vaxta qədər çox görmüşəm. Elimizin-obamızın toyu-yası, xeyiri-şəri olan tədbirlərdə. Ancaq onun şeir yazdığından qətiyyən xəbərim yox idi. Bir gün mənə dedilər ki, Zəlimxan müəllim, Təbrizin yaxşı şeirləri var, imkanınız olsa bir o yazılara baxarsınız. Şübhəsiz ki, mən böyük məmnuniyyətlə razı oldum.

Artıq o yazılar qarşımdadır. Təbrizin yazıları müxtəlif janrları əhatə etsə də əksəriyyəti qoşmalar, gəraylılar və qəzəllərdir. Daha çox qoynunda boya-başa çatdığı elin-obanın ruhuna uyğun qoşmalar üzərində köklənib onun şair ürəyi. Ürəyə yatan dili, şirin və səmimi deyim tərzi var. Əsas odur ki, təbii ilhamı var.

Dediyini şair kimi deyə bilir:

Hər şeirimdən, hər sözümdən
Başdı ana laylaları.

Bəli, şair ruhunun mayası ana laylası ilə yoğrulanda şair xoşbəxt bir tale sahibi olur:

Tanrı sındırmayan kəsi,
Bəndə sındıra bilərmi?

Ədəbi mühitdə ancaq böyük inama arxalanan, ağır zəhmətə qatlaşan, səbrin və ardıcıl yaradıcılıq eşqinin sahibləri böyük işlər görə bilər. Bu mənada açığı deyim ki, Təbrizin şeirlərini oxuyanda xeyli məyus oldum. Gənc şairin yaradıcılığında qəmli notlar həddən artıq göründü:

Uzun gecələri yata bilmirəm,
Yuxular ağlayır gözümdə mənim.

Və ya

> Çırpınır, sinədə ürək təntiyir,
> Yüksəlir göylərə ün qəmli-qəmli.

Yaxud:

> Yaz, qələmim, yaz dərdimi, bir də yaz.

Təbrizin şeirlərindən belə misraları, bəndləri istənilən qədər misal çəkmək olar. Dərddən, qəmdən, kədərdən danışmayan şeirə rast gəlmək çox çətindir onun yazılarında. Dünyanın ancaq qəmgin və qaranlıq tərəfini yox, sevinc və işıq, inam və mübarizə dolu tərəflərini də görmək və göstərmək lazımdır. Əsas bir iradım da ondan ibarətdir ki, şeirlərin əksəriyyəti çox uzundur. Yaxşı olar ki, bəndlərin sayı az, yükü ağır olsun. Bunun üçün ən yaxşı nümunə klassik aşıq poeziyasında olan örnəklərimizdir. Dilin duruluğu, ruhun saflığı, hər sözün, ifadənin yerli-yerində işlənməsi üçün şifahi xalq ədəbiyyatından, xüsusən bayatılarımızdan çox şey öyrənmək olar.

Mən Təbrizin şair kimi yetişməsinə, püxtələşməsinə inanır, ona bu çətin və şərəfli yolda uğurlar arzulayıram.

***2006***

## İŞIQLI XATİRƏ

Cəlal müəllim deyiləndə istər-istəməz Qarayazı mahalını, o mahalın çayını, çeşməsini, Səməd Vurğun, Osman Sarıvəlli kimi şairlərə ilham verən zəngin, çeşidli Qarayazı meşələrini, o torpağın böyük ziyalılarını, o ziyalıların mənəvi işığının yaratdığı sirli-sehrli dünyanı xatırlayıram. Unudulmaz Cəlal müəllimin böyük şairimiz Səməd Vurğunun yaradıcılığı haqqında yazdığı əsəri, yaratdığı kitabı xatırlayıram. Azərbaycan Dövlət Universitetini, ona doğma və öz evi qədər isti olan filologiya fakültəsini, universitetdə keçirilən saysız-hesabsız poeziya gecələrini, o gecələrdə Cəlal müəllimin çox şirin və özünəməxsus çıxışlarını xatırlayıram. Onun qəlbi böyük ədəbiyyata, böyük sözə və böyük şairlərə bağlı idi. S.Vurğunun və O.Sarıvəllinin şeirlərini və poemalarından parçaları əzbər bilirdi. Əzbər bilməklə işini bitmiş hesab eləmirdi. O əsərləri gözünün nuru kimi sevdiyi istəkli tələbələrinə çox ustalıqla çatdırdı. Nəfəsi şeirlə gedib gəlirdi. Hər dəfə məni görəndə "Ya Allah, ay eloğlu!" – nidası səslənirdi dodaqlarında. Onsuz da nurlu olan simasında yeni bir poetik işıq çöhrəsi yaranırdı.

Günlərin bir günündə ADU-da xalq şairi Osman Sarıvəllinin 90 illik yubileyi keçirilirdi. Çıxışlar bir-birini əvəz edirdi. Söz professor Cəlal Abdullayevə verildi. Cəlal müəllim çox böyük ürəklə çıxış etdi. O.Sarıvəllinin "Gətir, oğlum, gətir" poemasını əzbər söylədi, sürəkli alqışlar salonu başına götürdü. Mən orda Cəlal müəllimin yaddaşına heyran oldum. Müxtəlif görüşlərdə, ədəbi-bədii gecələrdə, toy-yas yerlərində tez-tez görüşərdik. Hər yerdə dost-eloğlu-müəllim-

tələbə kimi görüşər, arabir də fürsət tapanda dərinlərə baş vurar, ictimai dərdlərimizdən, ədəbi məsələlərdən danışardıq. Cəlal müəllim bütün hərəkətlərində, dost münasibətlərində səmimi idi. Səmimi olan hər şey gözəl olduğu kimi, Cəlal müəllim də gözəl idi, işıqlı bir ziyalı kimi gözəl idi. Onun cismani və mənəvi varlığı heç vaxt gözlərimdən getməyəcək, işıqlı xatirəsi mənim ürəyimdə həmişə yaşayacaq!

***30.03.2011***

## ÖMƏR QOÇULUYA AÇIQ MƏKTUB

Sizin mənə avtoqrafla yadigar verdiyiniz "Gözdən sözə" kitabınız gözümün qabağında, əlimin içindədir. Bu kitabı oxudum desəm düz olmaz. Yanan torpaq yaz yağışını cadar-cadar olmuş sinəsinə çəkən kimi mən də bu kitabı ruhuma çilədim, bağrımın başına səpələdim. Elə ilk sətirlərdən bu kitab mənə bir həqiqəti pıçıldadı. Görməsən götürə bilməzsən, görməsən duya və sevə bilməzsən, görməsən gözdən sözə gələ bilməzsən, görməsən yazıb-yarada bilməzsən. Bütün gözəllikləri, bütün sevgiləri balaca bir gilənin içinə sığışdıran gözə və onun gördüklərinə salam olsun! Baxmağa hamı baxa bilər, görmək, dərinə getmək isə hamıya qismət olan xoşbəxtlik deyil. Görmək üçün qəlbin gözü açıq olmalıdır. Qəlbin gözü açıq olanlar gördüklərini sözə, şeirə, nəğməyə, dastana çevirə bilər. Könül gözü açıq olanlar adi bir daşı heykələ, komanı saraya, ağacı abidəyə, qayanı insana çevirə bilər.

Bu kitabı diqqətlə oxuyan oxucu çox aydınca görə bilər ki, sənin qələmidən çıxan təkcə gözdən sözə yox, həm də uşaqlıqdan ağsaqqallığa, körpəlikdən müdrikliyə, gənclikdən cavanlığa, oğuzdan qopuza, qopuzdan saza, Həsən Məcruhdan, Əmrahdan Kamandara, Kamandardan, Vilayətdən Səxavətə, Akif Səməddən, Akif Aşırlıdan Məmməd Dəmirçioğluna, Əlyar Qarabağlıdan Osman Sarıvəlliyə, Hüseyn Arifə, Əhəd Hüseynova, Hüseyn Arifdən Leyla Bədirbəyliyə, Adil İsgəndərova, Həsən Məmmədova, Kirəc Muğanlıdan İncə dərəsinə, Qarabağa, Qarsa, İstanbula, Ərzruma, Qazaxıstana, Qoçulu qalasından Çıraq Qalaya sənin mahir əllərin, sərraf

gözlərin və yüksək istedadınla atılmış tağları, bağları möhkəm və sarsılmaz olan mənəviyyat körpüləridir.

Bir ziyalının mahalı Borçalı, babası el şairi Həsən Məcruh, ustadı telli sazın tanrısı Aşıq Əmrah, dayısı “Azərbaycanın Belinskisi” Abbas Kirəcli, əzizi Borçalının Molla Nəsrəddini Eyyub Kirəcli ola, özü də abidələr, saraylar yaradan memar ola, daxili gözəlliyi kimi zahiri gözəlliyi də kişilik heykəlinə bənzəyə, dilindən dürr, sifətindən nur tökülə ondan zəif kitab, zəif əsər, zəif memarlıq nümunəsi gözləmək olarmı?

Dilin nə şirindi, ruhun nə təmizdi, içərin nə genişdi, həyatın nə maraqlıdı, əllərin nə mahirdi, nəfəsin nə istidi, yazdıqların nə təbiidi, düşüncələrin nə rəngarəngdir, Ömər müəllim! Allah sənə nə gözəl bir irfani dünya bəxş edib. Sənin dünyan həm də mənim dünyamdı, mənim əzizim!

Bu kitabda nə var, bu yazılarda nə gördüm ki, belə havalandım, Borçalı balası! Bu kitabda özünə qayıdış, kökə tapınma, yaddaşa ehtiram, keçmişə hörmət, adət-ənənəyə məhəbbət, böyüklərə böyük sevgi, Heydər Əliyevin, Rüstəm Səfərəliyevin, Həsən Həsənovun şəxsində dövlətə, dövlətçiliyə vurğunluq, dosta sədaqət, kitablardan daha çox həyatdan gələn halal tərbiyə, nəfs və nəfəs halallığın halallığı, yurd yerinə bağlılıq, dilin və ləhcənin incəliklərinə varmaq qabiliyyəti, şair təxəyyülü, rəssam fırçasının sehri, heykəltəraş baxışının dərinlərə nüfuzu, köhnəni təzələmək, itəni tapmaq, yarımçığı tamamlamaq ehtirası, “Bulağ”ı şəhərə və şəhərlilərə gətirmək sevinci, İçərişəhəri daş-daş, kərpic-kərpic, qüllə-qüllə həm özümüzə, həm özgələrə tanıtmaq yanğısı, yüksək vətəndaşlıq duyğuları!!!

Hörmətli alimimiz, Professor Məhərrəm Qasımlı demişkən, kitab ona görə gözəl alınıb ki, sən özünü, öz içini gördüyünü, duyduğunu, sevdiyini yazıbsan. Kitabda zərrə qədər hoqqabazlıq, əllaməlik, quramaçılıq

yoxdur. Həyat bütün rəngləri və çalarlı ilə nədirsə, bu kitab eynilə odur, Ömər bəy! Bəy sözü çox məsuliyyətli sözdür, onu hər adamın ünvanına demək olmaz. Ancaq sən bütövlükdə kökün və budağınla, əslin və dırnağınla, yurdun və torpağınla, nəsil şəcərənlə, baban, məşhur el ağsaqqalı, nur heykəli Molla Mahmudla, yerişin, duruşun, danışığın, yumorun, gülməyin və ağlamağınla bəy oğlu bəysən ki, durmusan!

Haqqın ulu və uca peyğəmbərlərindən, qədim şumerlərdən, yunan müdriklərindən, Şərq filosoflarından bu günə kimi hamı tərəfindən təsdiq olunmuş bir ölməz həqiqət var! Allah və Allahlıq təbiətin özündə və onun təbiiliyindədir. Su öz süzülməyində, çay axmağında, dəniz qabarıb çəkilməyində, Günəş doğmağında, Ay doğub batmağında, ulduzlar sayrışmağında təbii, sadə, gözəl olduğu üçün insanı heyranlıq zirvəsinə qaldırıb rəssama, memara, heykəltəraşa, şairə çevirir. Bütün əlləməçiliklər ölümə, bütün təbiiliklər ölməzliyə doğru gedir.

Sənin ruhunda da, dilində və nəfəsində də insana xoş gələn, ruhu təzələyən, könül açan, qəlb oxşayan bir təbiilik var, getdikcə qəhətə çıxan, az-az adamlarda qalan təbiilik! Hər gün həsrətində olduğumuz, tapanda sevindiyimiz təbiilik!

Xalq şairi Osman Sarıvəllinin məşhur “Ay mamoğlu” şeirinin yazılma tarixinin açması da, Aşıq Qəməndərin Aşıq Kamandara çevrilməsi də, Borçalı aşıq məktəbinin təqdimatı da, boyun büküb balasını gözləyən “hamının balası gəldi, bəs mənim balam hanı?” – deyən, gözləri yol çəkən ananın abidəsi də, Səxavət itkisinin sızıltısı da, Vilayətin dəli-dolu təbiəti də, Ömər Qoçulunun Ömər Paşaya dönməsi də, qıyıf, mayıf, hayıf, sayıf qafiyələrinin təzəliyi də, nakam talenin, iradənin baş daşına yazılan misraların tüstüsü-dumanı da, Tanrı payı Cavidin xeyirxah ənənələri də, elat

mədəniyyətinin dərin təhlili də, Borçalı abidələrinin sözlə görüntüləri də, "Sınıq körpü"nün, "Quşçu qala"-sının, "Qoçulu qala"sının, Arıxlıda "Ağqala"nın, Faxralıda "Səkkizayaq məbədi"nin, Başkeçiddə "Şum qala"sının, Tiflisdə "Şah Abbas" məscidinin geniş şəkildə sərgilənməsi də məni çox sevindirir. Bunların hamısı Borçalının və borçalıların təkcə keçmişi və bu günü üçün deyil, həm də gələcəyi üçün çox faydalı və gərəklidir.

Moskvada məşhur sovet bəstəkarı Dmitri Şostakoviçin evində iki dostun – eloğlunun söhbəti, Şostakoviçin Qara Qarayevin "Üçüncü simfoniyası" ilə bağlı çox qiymətli fikirlərinin bu kitabda verilməsi dahi rus bəstəkarının dahi Azərbaycan bəstəkarı haqda dediyi "... Qarayevin III simfoniyası, həqiqətən də, hadisədir, sovet musiqi epopeyasında yeni cığırdır. Ən maraqlısı budur ki, Qara Qarayev saz çalırdı. Simfoniyanın bütün ritmləri, improvizələri sazın melodiyaları üzərində qurulmuşdur. Bu əsl novatorluqdur. Eşq olsun!"

Ömər Qoçulunun niyyəti təkcə Borçalıda və Azərbaycanda deyil, dünyanın müxtəlif yerlərində, o cümlədən Moskvada, Şostakoviçin evində də sazla bağlı mətləbləri tapıb ortaya çıxarda, yenidən oxucuya çatdıra bilir. Mayası sazdan tutulanın, tərbiyəsi sazdan olanın özü də bir yeriyən, uçan, qanadlanan sazdır.

İfadələr: yazın burnu dəlinəndən, ləliyə-ləliyə ay işığı difdikləndi, xəfə məni boğdu, dabanbasaraq cıdırzəngi, masqara kimi köhnə sözləri təzələmək də dilə hörmətdən xəbər verir. Kitabda Borçalı elmi mühitinin yetirməsi, görkəmli Azərbaycan alimi Zahid Qaralovun zəngin mütaliəsi və müşahidəsi hesabına başa gəlmiş 4 cildlik "Tərbiyə" kitabına verdiyi tərtibat və o haqda səmimi ürək sözləri olduqca dəyərlidir. Tərbiyə anlamının bütün çalarları ilə çox geniş şəkildə Zahid müəllim tərəfindən oxucuya çatdırılması kitabın ictimai çəkisini daha da şərəfləndirir.

“Tərbiyə dünyasına qədəm qoymaq istəyirsinizsə, Zahid Qaralovun fikir qvardiyasına biət edin, yol-ərkan sənətinin, idrak, məfkurə və dərs xəzinəsinin açarı ondadır”, – deyən Ömər bəy, sizin qiymətli fikrinizə tam tərəfdaram. Ona görə ki, həmin tərbiyə kitabının bütün cildlərini eyni həvəslə oxumuş və özüm üçün yeni yaradıcılıq üfüqləri vəsf etmişəm!

Bu kitab məni təbiətin dörd fəsli kimi haldan-hala saldı. “Zəng səsləri” məni ağlatdı, gözlərimin yaşını saxlaya bilmədim. Ürəyində həyat eşqi qaynayan, sala yatıb, sözlə oyanan Vəfadar adlı şəhid qardaşımızın, saçlarını tabutun üstünə tökən şəhid anasının, 19-cu qəbir körpə, uşaq nəvazişi ilə sığallayan, qardaş itirən bacının, yeddi qat bükülmüş atanın taleyi məni sarsıtdı. Çalınan zənglərə bəşəri məzmun vermək, Xatın zəngini, Xirosima harayını, 20 Yanvar qırğınını, Bakıda erməni kilsəsində çalınan zənglərin təkcə Azərbaycanın deyil, insanlığın faciəsi səviyyəsinə qaldırmaq, bu mövzuda dahi Hemenqueyin dahiyanə fikrini oxucuya xatırlatmaq sənin böyük uğurundur.

İstənilən bir hadisəni məhəlli xarakterdən çıxarıb bəşəri hadisəyə çevirmək müəllifdən zəngin mütaliə, güclü müşahidə qabiliyyəti tələb edir. Bu keyfiyyəti səndə gördüyüm üçün sevinirəm, əziz qardaşım!

Bir şəxsiyyət kimi güclü yumor hissinə malik olmaq, şux və zarafatcıl olmaq “Başıma gələn məzəli əhvalatlar” bölməsindəki hekayələri öz bəhrəsini verib. Bu hekayələri oxuyanda da özümü gülməkdən saxlaya bilmədim. “Naturadan rəsm”, “Saz əhvalatı”, “Sünni-şiə”, “Qaynatanın səhvi”, “Çuşke kimdir” yazılarını oxuyanda da oxucu uğunub getməkdən özünü saxlaya bilmir.

Əzizim Ömər bəy!

“Gözdən sözə” kitabını sadəcə gözdən keçirmədim, gözümə təpdim. Ona görə ki, sənə layla çalan Aşıq Əmrah sazı mənə də layla çalıb, sənin gəzdiyin Borçalı və

Başkeçid yaylaqlarını mən də qarış-qarış gəzmişəm, sən içdiyin bulaqların gözündən mən də içmişəm, sən sevdiyin şəxsiyyətləri mən də sevmişəm. Sən yazıya gətirdiyin möhtəşəm qalaları mən də seyr edib, ipə-sapa düzmüşəm. Şair ürəkli memarı memar ürəkli şair daha yaxşı dərk edə bilər. Mən sənin doğulduğun ocağı, yetişdiyin nəsli, aldığın tərbiyəni, yaşatdığın sənəti yaxşı tanıyıram. Yaxşı tanıdığım üçün də bu yazını yazanda mən zəhmət çəkmədim. Bu yazını mənə elə bil ki, hazır-halva Allah özü göndərdi. Mövzunu sən verdin, sevgini Allah! Mən sənin bu gözəl kitabın haqqında yazdığım məqaləni şair dostumuz Rövşən Nəsiboğlunun Kürüstü Kəpənəkçi haqqında yazdığı "Kökdən budağa" kitabındakı bir fikirlə tamamlayıram: "Mən hər dəfə üzü Borçalıya Sınıq körpüdən keçəndə salavat çevirirəm". Mən də sənin "Gözdən sözə" kitabına salavat çevirir, uca Tanrıdan sənə ucaldıqca ucalmaq xoşbəxtliyi arzulayıram!

***12.01.2011***

## DOST HAQQINDA SÖZ

Nahad müəllimin adı çəkiləndə mən istər-istəməz keçmişə qayıdıram. Ömrümün odlu, alovlu, çılğın vaxtlarını xatırlayıram. O vaxt indiki "Azərbaycan" nəşriyyatının dəhlizlərinə sığmırdım. Hay-harayla, nərəylə ora gedirdim. Hər dəfə orda çox təmkinli, çox yüksək mədəniyyət sahibi, çox güclü təhsil görmüş, savadlı, eynəkli bir oğlanla qarşılaşırdım. Və həmişə o, mənim diqqətimi çəkirdi. Özünün kitaba münasibətilə, mətbəəyə münasibətilə, redaktorlara münasibətilə. O illər hörmətli Nazim İbrahimov o nəşriyyatın direktoru olanda, Nahad müəllim də onun işçisi kimi fəaliyyət göstərirdi. Nazim müəllim güclü poliqrafiya işçisi, nəşriyyat işçisidir. Kimlərlə işləməyin lazım olduğunu bilirdi. Və ən gözəl kitabları, vacib kitabları, dövlət əhəmiyyətli kitabları, ensiklopediyaları işləyib nəşr edirdilər. Təsadüfi deyil ki, həmişə Nahad müəllimə etibar eləyirdi. Və mənim də xoşbəxtliyimdən Nahad Əliyev bir neçə kitabımın redaktoru olub. Onların içində "Bir əli torpaqda, bir əli haqda" kitabı var. O kitab çox məşhurlaşıb. Və mənim pasportuma çevrilib. Kitabın redaktoru Nahad müəllim olub. Onunla dəfələrlə iş prosesində çoxsaylı görüşlərimiz olub. Deyim ki, o mənim daha çox yadımda qalıb öz işinə məsuliyyətinə görə. Çox məsuliyyətli adam idi. Ləyaqətinə, insaniyyətinə söhbət ola bilməzdi. Ona nə tapşırılırdısa, yüksək səviyyədə yerinə yetirirdi. Şairlərə qarşı, poeziyamıza qarşı, mədəniyyətimizə qarşı çox diqqətli insan idi. Heç nə gözündən qaçmırdı. Və tam məsuliyyətlə etiraf eləyirəm ki, Zəlimxan Yaquba onun ayrıca məhəbbəti var idi. Bu da təbii ki, qarşılıqlı olub, ikitərəfli olub. Mənim də ona çox böyük hörmətim,

məhəbbətim, ehtiramım var idi. Onun işə gəlməyi, işdə oturmağı, geyim mədəniyyəti, süfrə mədəniyyəti, dostlarla ünsiyyət mədəniyyəti çox gözəl idi. Bu keyfiyyətlər hər insanda olmur. Mən onu görəndə böyük bir Azərbaycan realisti görürdüm. Belə deyək, baxmayaraq ki, yazıçı deyildi, Üzeyir bəyin, Abdulla Şaiqin, Yusif Vəzir Çəmənzəminlinin, Haqverdiyevin reallığı gözümdən keçirdi. Bir naşir kimi naşirlərə işıq yandıran, ədəbiyyatımızın yolunda, təbliğində böyük işlər görən Nahad müəllimin kitab mədəniyyətinin dünya çapında özünə yer alması üçün çox böyük xidmətləri var idi. Bu gün də onun adı, xatirəsi mənim üçün əzizdir. Bu gün də hər dəfə mən onun redaktəsi ilə çıxan kitabları varaqlayanda, hər sətirdə onun nəfəsini duyuram, onun barmaqlarının izini oxuyuram, onun mənə verdiyi xeyir-duaları xatırlayıram. Hər dəfə təzə kitab çıxanda sevinə-sevinə zəng eləyirdi: “Təbrik eləyirəm, kitabın çıxıb, gəl”, görüşərdik. Onu da deyim, tam halal, tam təmənnasız bir insan idi. Bu illər ərzində bəlkə zorla da olsun, bir stəkan çay içirdə bilməmişdim ona. Yəni nə qədər deyirdim, gəl gedək kitabın qonaqlığını verim, deyirdi yox. Deyirdim, “Nahad müəllim, mən məqsədimə çatdım. A kişi, mən hələ sənə bir stəkan çay verməmişəm”. Deyirdi: “Zəlimxan müəllim, sənin mənə verdiyin ən gözəl qonaqlığın mənim sənin ən gözəl kitabını oxuculara təqdim eləməyimdir. Bundan başqa mənim qonaqlığım yoxdur”. Bax belə kövrək, şirin xatirələr yadımda qalıb. O, bir vətəndaş idi. O, milli təəssübkeşi güclü olan adam idi. Hər incəliyi götür-qoy edirdi: bu mənim millətimin şairidir. Bu mənim millətimin şairinin kitabıdır. O, oxucuların əlində olacaq. Yüksək səviyyədə olmalıdır ki, dünyanın bugünkü tələblərinə cavab versin. Bu gün onun redaktoru olduğu kitabların hamısı dillər əzbəridir. Hazırda onları axtarıram tapa bilmirəm. Bu o deməkdir ki, o kitabı gözəlləşdirən təkcə Zəlimxan əməyi

deyil, Nahad müəllimin əməyi, zəhməti olub. Mən Allahdan ona rəhmət diləyirəm. Onun övladlarına, ailə üzvlərinə can sağlığı, xoşbəxtlik arzulayıram. O mənim həmişə yadımdadır, həmişə qəlbimdədir, həmişə xatirələrimdədir. Zəlimxan Yaqub hələ bugünkü Z.Yaqub olmayanda o Zəlimxanı o zaman bugünkü kimi görürdü. Onun yolunda hər çətinliyə dözürdü. Gözəl insan, savadlı redaktor və əsl dost Nahad Əliyevin ruhu qarşısında baş əyirəm.

## ÇƏRKƏZ MÜƏLLİMİN SONASI

Əzizimiz və çoxlarının əzizi, çox hörmətli Sona xanım!

"Sənsiz sənə məktublarım" adlı əlyazmasını çox böyük ehtirasla, tükənməz sevgi və məhəbbətlə oxudum. Kövrək düşüncələri, zərif hisləri, isti duyğuları, qanadlı fikirləri ən çox sevdiyim şeir kimi yaddaşıma köçürdüm. Bu kitab nəsrlə yazılsa da, başdan-başa ruhun şeriyyəti, ağlın işığı, qəlbin poeziyasıdır! Həsrət və qeyrət poeziyası! İsmət və sədaqət poeziyası!

Sizin cismani və mənəvi varlığınız Çərkəz müəllimin xatirəsinə əfsanəvi bağlılığınız "bu gün həqiqi məhəbbət, təmiz sevgi yoxdur" deyənlərə ən tutarlı cavab, tərsinə çəkilən şillədir. Bu gün XXI əsrdə Sona xanımlar yaşayır, Çərkəzləri yaşadırsa, var o məhəbbət, var o sevgi, var o ləyaqət, var o sədaqət!

Siz nə məşhur şairsiniz, nə məşhur alimsiniz, nə də məşhur yazıçısınız. Ancaq bunların üçündən də yüksəkdə dayanan böyük insan, böyük şəxsiyyət, sədaqət və vəfa, dözüm və etibar heykəlisiniz.

25 il bir yastığa baş qoyan, 12 ildir ki, o sevgiyə həsrət qalan, hər ayın üçündə Çərkəz müəllimin ziyarətinə gedən, məzar torpağını gözünə sürən, barmağına xına kimi çəkən, Azərbaycan qadınlığının və qadınlarının başını yeddinci göyə qaldıran Sona xanımların var olmağı, yaşamağı, kitablaşmağı, dastanlaşmağı, bayatılaşmağı xalqımızın böyük mənada xoşbəxtliyidir! Dərs kitabına, dərsliklərə düşəsi sevgi, sədaqət möcüzəsidir! İnsanlıq nümunəsidir! Yaxşılığın, xeyirxahlığın, alicənablığın, mənəvi ucalığın sağlam bünövrəsi, möhkəm özülü, südü-sümüyü, kökü-zatı halal və təmiz olan ailələrdə qoyulur.

Bu ailələrdən biri də sizin ailə olub. Dosta, qohuma, tanışa, eloğluna, yoldan keçənə, ümumiyyətlə, insana qayğı, hörmət qrama-qram, yüzdə yüz hər bir kəsin özünə qayıdır, Sona xanım! Siz gözəl bir alimin, istedadlı bir folklorşünasın, əvəzsiz ailə başçısının, nurlu bir ziyalının – adı böyük hərflərlə yazılan ÇƏRKƏZ müəllimin xatirəsini əbədi yaşatmaq üçün bir-birinin ardınca nə qədər gözəl işlər görmüsünüz, Çərkəz müəllimə bir xatirə abidəsi yaratmısınız!

Ancaq bəlkə heç özünüzün də xəbəriniz yoxdur ki, siz Çərkəz müəllimdən əvvəl özünüzə və öz şəxsinizdə Azərbaycan qadınının böyük sədaqətinə abidə qoymusunuz!

Çox maraqlıdır. Azərbaycanın elə bir görkəmli alimi, şairi, ictimai xadimi, işıqlı ziyalısı yoxdur ki, Çərkəz müəllimin insanlığı və alimliyi barədə, sizin cəfakeşliyiniz haqqında fikir söyləməmiş olsun! Bunun sirri nədədir? Niyə Çərkəz müəllim folklordan, şifahi xalq ədəbiyyatından, bu ədəbiyyatın yetirdiyi Süleyman Rəhimov kimi bir fikir nəhəngindən qidalanıb?

Cavab ondan ibarətdir ki, şifahi xalq ədəbiyyatı, dastanlarımız, nağıllarımız, bayatılarımız bütövlükdə xalqın iliyindən, canından, qanından, çöhrəsindən mayalanıb. Elə sizin Çərkəz müəllimdə gördüyünüz insani keyfiyyətlərin hamısı Kərəm sevgisindən, Məcnun atəşindən, Koroğlu cəsarətindən, Şah İsmayıl şahlığından qidalanıb.

Belə bir mötəbər mənbəni, zəngin xəzinəni, müqəddəs başlanğıcı özünə mövzu seçən alim özü də bugünkü elmimizdə, ədəbiyyatımızda, ictimai və pedaqoji fikrimizdə bir obraza, bir cəfakeş qadının şəxsində bir neçə kitabın baş qəhrəmanına çevrilib.

Əlyazmasının sonluğunda Çərkəz müəllimə və sizə ruhən, qəlbən yaxın və doğma olan, xalqımızın sevilən, seçilən övladlarının adını minnətdarlıq duyğuları ilə xatırlayırsınız.

Sizin sədaqətinizə də eşq olsun, mənim də çox sevdiyim, yaxşı tanıdığım o insanların böyüklüyünə də! Yazmağa da dəyər, yaşayıb yaratmağa da!

Babalardan nəvələrə, atalardan oğullara, qocalardan körpələrə, yaddaşlardan, xatirələrdən kitablara gedən bu müqəddəs yolda sizə də uğur olsun, sizin nəvə-nəticələrə də!

Var olsun qadın sədaqəti, yaşasın kişi böyüklüyü, şəxsiyyət ucalığı! Yaşasın böyük Səməd Vurğunun:

Bizdən ayrı düşənlərə,
Borcumuzdur bu ehtiram.

– şah beytini özünə ideal seçən, vaxtsız ər itirən, sinəsinə sevgili dağı çəkilən Sona xanım!!! Var olsun Çərkəzli-Çərkəzsiz xatirələr!

***07.02.2007***

## MƏFTUNLUQ – MƏCNUNLUQ

Qeysi – Məcnun, Mahmudu – Kərəm, Rəsulu – Qərib, Səmədi – Vurğun, İsfəndiyarı – Xan, Murtuzanı – Bülbül, Hüseyni – Arif eləyən ulu Tanrı Əzizi də Məftun elədi. Leyli adlı bir gözəlin əsirinə, məftununa çevirdi.

Məcnunlaşan, Kərəmləşən, Qəribləşən, Vurğunlaşan talelərin biri də Əzizin – Məftunun qismətinə yazıldı. Bizim tələbəlik illərimiz Məftunun eşqinin əfsanələşən, dillərdə dastan olan vaxtına düşdü. “Leyli də istəyir işlər düzələ, Onu da qoymayan bir anası var” dastanını mən yana-yana “Yanıq Kərəmi” havası üstündə oxuyardım. Azərbaycanın bütün aşıqları onun şeirlərini sevə-sevə oxuyar, oxuya-oxuya dastanlaşdırardılar.

Talenin xoşbəxtliyindən mən Məftunun atası (yaş fərqimiz çox olsa da) məşhur el şairi Mülkülü Həsənlə çox yaxın və səmimi dost idim. Mülkülü Həsənin birinci növbədə gözəl və təbii şairliyi, Allahın gözəllik heykəli kimi yaratdığı qəddi-qaməti, kişi gözəlliyi, bütöv şəxsiyyəti, həddən çox şux və zarafatcıl olması məni ona həmişəlik bağlamışdı. Bakıda, Tovuzda, Borçalıda onunla keçirdiyim xoş günləri heç vaxt unuda bilmərəm. O, mənim Kəpənəkçi kəndində unudulmaz aşıq qardaşım Xanlarla birlikdə toyuma, taleyimə yaraşıq vermişdi, ağsaqqallığı ilə məclisimə işıq və yaraşıq gətirmişdi.

Məftunu həyatda heç vaxt görməmişdim. Dostlarım məni Tovuz mahalına bir məclisə dəvət etmişdilər. Mənə xəbər verdilər ki, Məftun can üstündə, ölüm ayağındadır. Bir neçə ağsaqqalla onun ziyarətinə getdik.

İçəri daxil olduq. Çarpayıda uzanmış, rəngi payız yarpağına dönmüş, başı bəlalar çəkmiş Məftunu görəndə ürəyim nanə yarpağı kimi əsdi. Nə deyim, necə

deyim, nə soruşum, hər şeyi unutdum. Məftun dadıma çatdı. "Mənim çoxdan üzünü görmək istədiyim şair dostum Zəlimxan, mən səni ayrı cür qarşılamaq istəyirdim. Tale bu muradımı da gözümdə qoydu. Bağışla ki, sən ayaq üstə dura-dura mən uzanmış vəziyyətdə səni qarşılayıram". Minnətdarlıq duyğuları ilə əlini sinəsinə qoyub el adətiylə mənə razılıq elədi. Bu görüş məni talan olmuş şəhərə döndərdi. Bu, mənim Məftunla ilk və son görüşüm oldu. Sazı-sözü çox sevən, saçından dırnağına qədər saz olan, söz olan Tovuzlu dostlarım!

Aşıq Hüseyn Bozalqanlını, Aşıq Nəcəfi, Xəyyat Mirzəni, Aşıq Mirzə Bayramovu, Həsən Mülkülünü, Aşıq İmranı, Aşıq Əkbəri, Mikayıl Azaflını, Aşıq Xanları necə sevirsinizsə Əziz Məftunu da eləcə sevin, əzizləyin, yaşadın.

Bu mənada şair dostum Telman Qasımlının Məftuna həsr elədiyi poemanı oxuyanda, başqa bir sevimli şair dostum Barat Vüsalın bu kitaba ön söz yazdığını görəndə bütün səmimiyyətimlə sevindim. Sevindim, ona görə ki, zaman-zaman taleyi, bədbəxtliyi, xoşbəxtliyi, eşqi dillərdə dastan olan bir el şairi Məftun ilk dəfə sanballı bir əsərin baş qəhrəmanına, aparıcı ana xəttinə çevrilmişdi. Sevindim, ona görə ki, heç bir qarışığı olmayan sərvətimiz Türk dünyasının Oğuz elləri, Tovuz elləri, Qopuz elləri Məftunu Məftun eləmişdi. Nəhayət, sevindim, ona görə ki, "Dözümü qaya olsa da, eşq yoluna çınqıl kimi tökülən" Məftun, şeirin, poeziyanın, bədii təfəkkürün diliylə yenidən nəhəng bir dağa, əzəmətli bir qayaya çevriləcək. Bu dağdan, bu qayadan zaman heç nə apara bilməyəcək! Məftunun dillər əzbəri olan şeirləri də, Telman Qasımlının sevə-sevə, göz yaşıyla, sənət yanğısıyla yazdığı əsər də oxuculara Məcnunluq, Kərəmlik, Məftunluq gətirəcək!!!

***13.02.2007***

## YANAN KƏNDİN ŞAİRƏ QIZI

Qarlı bir qış günündə evimizin qapısını bir qız döydü. "Buyurun" – deyib, xoşgəldin elədim. Duruşundan dərd, baxışından nisgil yağırdı. Kimliyini soruşdum, nəçiliyi ilə maraqlandım. Qara taleli Qarabağın qara günlü şairə qızı, yanıb külə dönmüş Cəmilli kəndinin şeir-sənət pərvanəsi olan bir övladıydı. Yurdundan-yuvasından, elindən-obasından, gülündən-gülüstanından ayrılmış bir el qızının sızıldayan ürəyini, göynəyən qəlbini duymamaq üçün ancaq daş olmaq lazım idi. Dərd onu şair eləmişdi. Söz sözə calanır, söhbət söhbəti çəkirdi. Utana-utana kövrək misralarını oxuyurdu. Oxumurdu, elə bil öz-özünə ağı deyir, dərdinə layla çalırdı:

Sahibsizdi Kərkicahan, Nəbilər,
Satqın, qorxaq yurd qədrini nə bilər.
Üzə çıxa Korğlular, Nəbilər,
Qeyrətinə nəğmə qoşam, qoşam, hey!
Cəmillim hey…! Xocalım hey ...! Şuşam hey…!

Onun mayası el-oba həsrətindən, xəmiri qanlı-qadalı günlərimizdən yoğrulmuş şeirlərini hörmətli oxucularımıza təqdim edirəm. Bu şeirlərin uğurlu, qüsurlu cəhətlərindən söhbət açmıram. Onları sizə talenin yazdırdığı misralar kimi təqdim edirəm. Qoy bu şeirlərin işığı İmarət xanımın ürəyində gücə, inama, tükənməz yaradıcılıq ehtirasına çevrilsin! Amin!

***17.02.1994***

## "AY İŞIĞI"NDAN ALDIĞIM QÜVVƏT

Qışın soyuq və şaxtalı vaxtı olsa da, o gün Quba-Qusar başdan-başa ilahi nurun, Tanrı işığının sehrinə qərq olmuşdu. Koroğlu demişkən: "Uca-uca dağ başında tala-tala qar görünsə" də o qar bizə soyuqluq yox, bir istilik və eşq, məhəbbət və səmimiyyət gətirmişdi. Sevginin, nurun, işığın yaratdığı kövrək və müqəddəs duyğular o görüşün hər bir iştirakçısını nur parçasına döndərmişdi. O nuru mən əlimi sıxan salamlarda, açılan qollarda, titrəyən dodaqların istisində, baxışların səmimiyyətində görürdüm. Mən tam səmimiyyətlə deyirəm ki, qələm dostlarımın görüşünə yox, ziyarətinə getmişdim. O görüş ki, sözlə, ruhla, təfəkkürlə, Allahın möcüzə kimi yaratdığı şeirlə, şeriyyətlə bağlıdı, ora görüş yeri yox, sözün böyük mənasında ziyarət yeridir.

Qubada fəaliyyət göstərən "Ay işığı" ədəbi birliyinin rəhbəri, Azərbaycan Yazıçılar Birliyi Quba filialının sədri, gözəl şairimiz Ramiz Qusarçaylı məni qələm dostlarımla görüşə dəvət edəndə çox böyük sevgiylə razılaşdım.

Poeziya gülüstanında hər şair bir çiçəkdir. Mən də o çiçəklərin ətrini ciyərlərimə çəkmək üçün, onların poetik dünyasına, iç aləminə dərindən bələd olmaq üçün bu səfərin baş tutmasına ürəkdən sevinirdim.

Abbasqulu Ağa Bakıxanov kimi bir dahi mütəfəkkirin adı və taleyi ilə bağlı olan, "Gülüstan" adlı tarixi ədəbi məclisi ilə tarixlərin yaddaşına köçən bir cənnət məkanda, onun davamı və məntiqi nəticəsi kimi dünyaya gələn "Ay işığı" ədəbi məclisinin dinləyicisi və iştirakçısı olmaq hər bir qələm adamı kimi mənim üçün də fəxr və qürur mənbəyi idi.

Məclis üzvlərinin hamısı öz şeirlərini oxudular. Mən bu şeirlərə qulaq asdıqca deyilən hər sətirdə, hər şeirdə

torpaq halallığı, təbiət təmizliyi, bulaq saflığı, çeşmə duruluğu görür, hər şairin daha gözəl yazıb-yaratması üçün ədəbi mühitin daha da yaxşılaşması haqqında düşünürdüm.

Cavanşirin oxuduğu:

Sel-suyam, dəryaya axıb gedirəm,
Yerdə nəyim varsa yıxıb gedirəm.
Dünyadan biryolluq çıxıb gedirəm,
Dünyanın bu gündüz, günorta vaxtı.

Sirli səssizliyə bürünüb çəmən,
Yenə uzaqlara baxır yasəmən.
Elə hey ağlamaq istəyirəm mən,
Dünyanın bu gündüz, günorta vaxtı.

Telman Təravətin oxuduğu:

Səfər üçün ömür gödək, yol açıq,
Cavan şair, yol sənindi, yola çıx.
Mənim ömrüm külək döyən alaçıq,
Daha məndən şair olmaz, ay olmaz.

Daha mənim qız qaytarmır baxışım,
Ürəklərə düşüb qalmır naxışım.
Öz içimi isladır öz yağışım,
Daha məndən şair olmaz, ay olmaz.

İndiyəcən bir kitabım çapda yox,
Yazdıqlarım dərgidə, hesabda yox.
Söz yükünə dözüm də yox, tab da yox,
Daha məndən şair olmaz, ay olmaz.

İzmirağa Təhməzlinin:

Gündəlik qayğılardan başım-beynim yüklənib,
Qazandığım duz-çörək, bəhər yadımdan çıxır.
Ürəyim arzulardan kənardadı, təklənib,
Gecə gördüyüm yuxu səhər yadımdan çıxır.

Əlləşib vuruşmaqla irəli getmək olmur,
Ehtiyac itələyir irəli, getmək olmur.
Düzlüklə, halallıqla irəli getmək olmur,
Gecə gördüyüm yuxu səhər yadımdan çıxır.

Yalanlar qalaq-qalaq, tərifl ər biçim-biçim,
Çölüm hey tüstülənir, məni yandırır içim.
Hərdən könlümdən keçir, cam dolu zəhər içim,
Camı alıb gedirəm, zəhər yadımdan çıxır.

Mövlan Şahidin oxuduğu:

Vətənin arxası xalqdır, xalqın da arxası torpaq,
Torpağın bağrı virandı, biz ki, viranə deyildik.
Niyə dönmür o zamanlar, çəkilib oxlu kamanlar,
Bizə tuşlandı nişanlar, biz ki, nişanə deyildik.

Sabir Nemətovun oxuduğu:

Çəkdi sinəmizə məhəbbət dağı,
Aldı ağlımızı bu yad sənəmlər.
Bu gün "uf" demədən satdı torpağı,
Dünən Əsli üçün yanan Kərəmlər.

İbrahim Ağçaylının oxuduğu:

Qaranı ayırıb bulaq sözündən,
Qara söz əkdilər dağ sinəsinə.
Tanrını unudub şeytan sözündən,
Çəkdilər dağların dağ sinəsinə.

– kimi şeirlər təbiətin və cəmiyyətin poetik əks-sədası kimi səslənirdi. Hər sözdə, hər ürəkdə bir yaşamaq eşqi. İrəliyə doğru yerimək, mənzil başına doğru hərəkət etmək. Yerimək var, yorulmaq yox, büdrəmək var, yıxılmaq yox.

13 yaşlı Orxan Xalidoğlundan tutmuş ən yaşlı şairə qədər, qadın şairələrimizdən, Aşıq Əlikram Əliyevə qədər hər bir məclis iştirakçısı öz poetik nəfəsi ilə ruhumuza bir təravət gətirdi.

Mən bu qənaətə gəldim ki, Azərbaycanımızın hər yerində istedadlı qələm sahibləri var.

Onlara qayğı və diqqət göstərmək, hər birinin taleyi ilə maraqlanmaq səlahiyyət sahiblərinin borcu və vətəndaşlıq vəzifəsidir. Ulu öndərimiz Heydər Əliyevin, möhtərəm prezidentimiz İlham Əliyevin yaradıcı ziyalılara qayğısı və məhəbbəti rayon rəhbərlərinin işində bir nümunə olmalıdır. Yaxşı olardı ki, ildə bir dəfə rayonlarda yaşayan qələm adamları ilə Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda, Bakıda başqa böyük mədəniyyət ocaqlarında maraqlı görüşlər, maraqlı məclislər keçiriləydi, onların əsərlərinin nəşrinə diqqət artırılaydı. Mərkəzdə yaşayan ağsaqqal şair və yazıçılar onlara xeyir-dua verəydi. Mədəniyyətimizin daha mənalı və faydalı inkişafı naminə onların şəxsi probleminə, sosial vəziyyətlərinə qayğı, kömək göstəriləydi. İldə bir dəfə cildi çıxmaq şərti ilə Respublikanın bütün guşələrində yaşayan şairlərin seçmə şeirləri və hekayələri toplanıb nəşr olunaydı. İstedadın parlaması üçün bütün dediklərim mənim arzu və təkliflərimdi.

Əsas odur ki, Quba rayonunda bütün şimal rayonlarını əhatə edən "Ay işığı" adlı bir ədəbi məclis müəyyən çətinliklərə sinə gərərək yaşayır, öz nurunu, işığını könüllərə paylamaq üçün yanır və yaşadır. Bu məclisin ən ürəyə yatan keyfiyyəti bir də ondan ibarətdir ki, poetik nəfəsi ustad şairlərimizin həmişə diqqət mərkəzində olan, ruhu, nəfəsi, ürəyi halal yaradıcılıq çeşməsindən su içən, Azərbaycan poeziyasında öz səsi, öz nəfəsi olan gözəl bir şair – Ramiz Qusarçaylı bu məclisə ağsaqqallıq edir.

Uğur olsun "Ay işığı"na və onun bütün istedadlı üzvlərinə!

***13.11.2007***

## HƏMİŞƏ RƏHMƏTLƏ ANILAN KİŞİ

Xatirə yaza-yaza insan özü də xatirəyə çevrilir. Görünür, mənim də xatirəyə dönəcək çağlarım yaxınlaşır. Ona görə də həyatda gördüyüm, tanıdığım, sevdiyim köhnə kişiləri çox tez-tez xatırlayıram. Belə kişilərdən biri də mənim üçün Əlfi Qasımov olub. Onu bir yazıçı kimi də, nəşriyyat işçisi kimi də, sədaqətli dost kimi də, el ağsaqqalı kimi də, gözəl ailə başçısı kimi də ancaq və ancaq xoş xatirələrlə yada salmaq olar. Məni yaxından tanıyanlara yaxşı bəllidir ki, mən çox gəzən, çox görüşən, çox səfərlərdə olan bir qələm əhliyəm. Yaşadığım 60 il ərzində Azərbaycanın müxtəlif guşələrinə səyahətdə elə bir səfər xatırlamıram ki, orda qələm dostları, yazıçılar və şairlər, müxtəlif fəsillərə malik ədəbiyyat adamları onu ən kövrək, ən isti duyğularla xatırlamasınlar. Onu bir insan kimi sevməmək, duymamaq qeyri-mümkün idi. Tarixi təcrübə göstərir ki, şairlər və yazıçılar yazdığı əsərlərdən daha çox, şəxsi keyfiyyətləri, insanlığı, ədəb-ərkanı, qayğıkeşliyi ilə, canlı həyat adamı olmasıyla daha çox yadda qalır. Əlfi Qasımov ona görə həmişə xoş xatirələrlə yada düşür ki, o, əsl həyat adamı olub. Hal əhli, məclis əhli, ürfani dünyanın, ürfani aləmin adamı olub.

Mən yazıçı nəşriyyatında poeziya şöbəsində işlədiyim illərdə Əlfi Qasımov "Azərnəşr"də işləyirdi. Çox tez-tez görüşərdik. Həmişə də şirin, səmimi, mehriban. Baxmayaraq ki, o məşhur bir ağsaqqal yazıçı, mənsə gənc bir ədəbiyyat adamı idim, aramızda çox yaş fərqi vardı, ancaq Əlfi müəllimin yüksək səmimiyyəti, insani keyfiyyətləri bu fərqi aradan qaldırardı. Ədəbi məsələlərlə bağlı həm ciddi, həm də Əlfi müəllimə məxsus

zarafatyana söhbətlərimiz olardı. İşinə məsuliyyətli, sözünə dəqiq, ətrafına diqqətli, istiqanlı və təbii Əlfi müəllimi hamı sevir, hamı yüksək qiymətləndirirdi. Bu gün o dövrdə yaşayan, Əlfi müəllimi yaxından tanıyan bircə nəfər adam tapa bilməzsən ki, onu ən xoş, ən mübarək, ən kövrək duyğularla xatırlamasın.

Günlərin bir günü böyük şairimiz Xəlil Rza mənə zəng elədi: "İgid, yazıçı, şair dostlara bir qonaqlıq verəcəyəm, axşam saat 5-də bizdə olmalısan. Gəlməmiş olma!" Baş üstə, Xəlil bəy, – deyib, axşamüstü mənim üçün həmişə doğma olan bir evə – Xəlil Rzanın evinə getdim. Bir azca gecikmişdim. İçəri girəndə gözlərimə inanmadım. Təxminən otuza yaxın o dövrün məşhur yazıçı və şairlərini Xəlil bəyin gen açılmış bol süfrəsinin başında gördüm. İstər-istəməz qürur hissi keçirdim. Qəlbim dağa döndü. Belə bir tarixi məclisin iştirakçısı olmaq, məsum adamlarla həmsöhbət olmaq mənim üçün böyük xoşbəxtlik idi. Hamı yerbəyer olub məclis sahmana düşəndə, Xəlil Rza özünəməxsus qürur və ötkəmliklə ayağa durdu. Onun dediklərini dəqiq olmasa da, təxmini şəkildə bu günün əziz oxucularına çatdırmağı özümə şərəfli və tarixi borc bilirəm. Böyük şair və əziz dost sözünə belə başladı:

"Əziz dostlar! Bizim evə, bizim evə yox, əslində hamımızın olan öz evinizə, Xəlil Rza ocağına xoş gəlmisiniz. Bu gün sizi bura dəvət etməkdə mənim heç bir şəxsi təmənnam, umacağım yoxdur. Böyük alim, böyük vətəndaş Xudu Məmmədovun qırxı təzəcə çıxıb. Dağ boyda, dünya şöhrətli bir kişi Üzeyir bəyin ev muzeyində qəfildən əlimizdən getdi. Bu gün kim deyə bilər ki, bizi də belə bir aqibət gözləmir. Düşmənlər üstümüzə ayaq alıb. Bir yandan erməni, bir yandan rus, bir yandan fars Azərbaycanı tikə-tikə eləməklə məşğuldur. Gəlin bu gün biz böyük ağrılarımızı, böyük dərdlərimizi, müzakirə edək. Xudu Məmmədovdan ibrət alaq.

Bir-birimizə sevgi və sayğılarla yanaşaq. İçimizdə düşmən obrazı yaratmayaq. Əsil düşmənlərimizi və əsil dostlarımızı yaxşı tanıyaq. Bir-birimizi sevməyi və yaşatmağı bacaraq. Bu, bizdən daha çox xalqa, millətə, vətənə, Qarabağa lazımdır. Rədd olsun şəxsi umu-küsülər, yaşasın səmimiyyət!" Xəlil bəy bir az nəfəs dərib, daha güclü bir pafosla çıxışının ikinci, daha isti və doğma hissəsinə keçdi:

"Kimlər var bu məclisdə. İftixar hissi keçirirəm ki, bizim böyük milli sərvətimiz var. Bu sərvət sizsiniz. Bu sərvət bu məclisdə olanlardır. Cəmil Əlibəylidir, Əlfi Qasımovdur, Nahid Hacızadədir, Ağacavad Əlizadədir, Şahmar Əkbərzadədir, Oktay Rzadır, Zəlimxan Yaqubdur...

İndi fikirləşirəm, hər biri ağsaqqal olan bu məclisdə məclisə kim ağsaqqalıq eləsin. Ürəyimdən Şahmar Əkbərzadə keçir, Zəlimxan Yaqub keçir, ancaq onlar gənc və cavan ərlərimiz olsa da, mən deyirəm bu məclisə hamımızın sevimlisi Əlfi Qasım ağsaqqallıq eləsin. Belə məclislərdə başda əyləşmək, könüllərə sultanlıq eləmək daha çox onun haqqıdır. Həm də baxmayaraq ki, Əlfi müəllim yazıçıdır, o ədəbiyyata şeirlə gəlib, mən onu bir şair kimi də yüksək qiymətləndirirəm. Yadımdadır, Amerika Koreya dövlətinə müharibə elan edəndə Əlfi bəy Amerikanı hədələmiş, "Koreyadan əlini çək!" şeirini yazmışdır. Bunu eşidən Əlfi Qasımov gülə-gülə ayağa durdu. Xəlil Rzanın sözünü kəsib dedi: "Xəlil bəy, mən o şeiri yazan kimi Amerika məndən qorxub Koreyadan əlini çəkdi. Elə həmin gündən mən şeirdən əlimi çəkdim. Bildim ki, şairlik mən bacaran iş deyil". Əlfi müəllimin bu sözündən sonra gülüş məclisi başına götürdü və rəhmətlik Əlfi müəllim həmin o unudulmaz məclisə ağsaqqallıq elədi.

Mən Əlfi müəllimi müxtəlif yerlərdə çox görmüş, çox müşahidə eləmişdim. Ancaq o məclisdə mən onun şəxsində çox şirin, çox səmimi, əsil həyat adamı, içərisi

işıqla dolu, paxıllıqdan, xəbislikdən çox-çox uzaq olan böyük bir insan, şəxsiyyət, ziyalı kəşf elədim. O gün Əlfi müəllim ayrı alim idi. Zarafatı, atmacası, şeiri, yaşlı yazıçılardan, öz həmyaşlarından gətirdiyi misallar məclisdə olanların hamısını göyün yeddinci qatına qaldırmışdır. O gün mənim üçün Əlfi müəllimi kəşf elədiyim gün oldu. O gündən onu daha çox sevdim, daha çox dinləmək istədim. Çünki o kişi ilə ünsiyyətdə olanda insan bir daxili rahatlıq tapır, yüngülləşir, ancaq gözəl şeylər haqqında düşünürdü. İnsanı xoşbəxt eyləyən duyğuları insanlara, xüsusən gənclərə səxavətlə payladığına görə gənclik onu çox sevirdi. Çox sevirdi, ona görə ki, o gəncliyi çox sevirdi, qayğı göstərirdi, onların heç bir ədəbi uğurunu diqqətdən qaçırmırdı, münasibət bildirirdi. Qayğıya və diqqətə böyük ehtiyacı olan çox həssas və kövrək gənclər Əlfi müəllimin bu unudulmaz xüsusiyyətlərdən danışa-danışa, xatırlaya-xatırlaya özləri də gəlib Əlfi Qasımov yaşına çatdılar. Onlar bu gün müxtəlif sahələrdə ədəbiyyatımızı, dilimizi, ruhumuzu, publisistikamızı yüksək ləyaqətlə təmsil edir, Əlfi müəllim kimi kişilərin ruhuna Allahdan rəhmət oxuyurlar. Rəhmətə və xoş xatirələrə layiq olan Əlfi müəllimin ruhuna Zəlimxan Yaqubdan mübarək salamlar olsun!

***10.01.2010***

## KƏDƏRİ İNCİTMƏYƏN ŞAİR

Əbülfət Mədətoğlu... Bu imza mənim üçün çoxdan doğmalaşıb. Bu doğmalığın əsasında dərd dayanır. Ağrı-acıları heç vaxt tükənməyən Borçalının taleyi, Borçalının dərdi. Bağrımızın başında qara yaraya çevrilmiş, itirilmiş, talan olmuş Qarabağ dərdi. Mənim dərdim köhnə dərddi, Nadir şahdan, Adil şahdan üzü bəri dəvə karvanı kimi o ağır yükü daşımaqla məşğuluq. "Dəvəsi ölmüş ərəbəm, dözərəm hər zülmə". Bu bayatı insan oğluna hər şeyi deyir. Adı "qara" sözüylə başlayan, günü göy əskiyə bükülən, "Tehran cənnətə dönsə, yaddan çıxmaz Qarabağ" deyimi ilə dərdini tarixin yaddaşına həkk edən Qarabağın qara günləri, dillə deyilməsi mümkün olmayan faciələri Əbülfətin baş mövzusudur. Min illərin təsdiq olunmuş bədii bir həqiqəti var. Dərdi olmayan şairin özü yoxdur. Bu mənada Əbülfətin taleyi elə gətirib ki, o, bir şair kimi hara baxırsa, kimə baxırsa orda öz içini, öz daxili dünyasını, öz dərdini görür. Özünü dərd dəlisi adlandıran, kədəri incitməyən, qəmin doğma adamına çevrilən şairin yaradıcılığı bütövlükdə bütün dərd çəkənlərin, qəm daşıyanların poeziyasıdır.

"Tətiyi çəkirəm, ölüm açılmır". Tətik, intihar, ölüm... Poeziyanın əbədi mövzusu. Olumla ölümün arasındakı tərəddüdlər, şübhələr, qabarıb-çəkilmələr, faciələr...

Əbülfət ürəyində olan ağrıların, narahatlıqların hamısını öz sevgisinə və sevgilisinə müraciətlə dilə gətirdiyi üçün oxucunu, dinləyicini yormur, bezdirmir. Əksinə, onları incə duyğuların, zərif hisslərin diliylə daha da doğmalaşdırır, özünə çəkir, poetik sözün ovsununa salır.

Dünya cənnət, mən qərib,
Könlüm səntək gül dərib.
Tanrım səni göndərib,
Sevgi nədir – qanım mən.

Bəli, uca Tanrı sevgini insanlara dünyanı dərk etmək üçün göndərib, göndərib ki, insan həmişə diri və duru, pak və təmiz, zərif və həssas olmağı, öz gəlişiylə dünyanı gözəlləşdirməyi bacarsın. “Min Əbülfət qəlpələnsin ki, bir məhəbbət var ola bilsin”. Yer üstə möhkəm dayanmaq üçün də, göy üzünün qapısını açmaq üçün də insana, xüsusən də şairə böyük sevgi gərəkdi. Bu, Əbülfət Mədətoğlunun poetik qənaətidir.

Sən mənə bənd olma, tutaq ki, mən heç,
Görmək istəmirsən, gözünü yum keç.
Kimi axtarırsan bax onu bil, seç,
Aparma özünlə – o sənin deyil.

Baxıb gözlərimdən yağan yağışa,
Dilimdə alışan bu yalvarışa.
Nə olar, sən onu son kəz bağışla,
Aparma özünlə – o sənin deyil.

Örnək kimi gətirdiyim bu sətirlər sırf sevgi şeiri olsa da, Tanrıya dua kimi səslənir. Mənə belə gəlir ki, dünyanın nə qədər şirin və səmimi şeirləri varsa onların hamısı Tanrıya açılan əllərin, göylərə dikilən gözlərin, Allaha bağlanan ümidlərin barı-bəhrəsidir və dünya bu barın-bəhrənin hesabına işıqlanır.

Başına dolanmağa,
And içib pir gəzirəm.

– deyən şairin ocağı da, piri də, ilahi sevgisi də insandır, Allahın möcüzə kimi yaratdığı insan. Əbülfət də bir şair kimi, bir insan və vətəndaş kimi o insanın iç dünyasını,

sirli-sehrli könül aləmini açmaq, kəşf etmək, anlamaq üçün yazıb-yaradır. Bu da şair üçün, dünyanı poetik deyimlərlə gözəlləşdirmək üçün insana, insanlığa, bəşəriyyətə hava, su kimi lazımdır. Dünyanın bütün ağırlığı poetik sözün çiyninə düşür. Bu ilahi yükü daşımaqda ayaqların yorulmasın, çiyinlərin ağrımasın, Əbülfət Mədətoğlu!

***21.09.2009***

# DÜŞÜNDÜRƏN VARSA, DÜŞÜNMƏYƏ DƏYƏR

***Gənc şair Fərid Hüseynə açıq məktub***

Əzizim Fərid!

“Əzizim” sözünü gəlişigözəl ümumi ifadə forması kimi yox, isti və doğma, şirin və canlı müraciət kimi işlədirəm. Sənin mənə bağışladığın əl boyda ilk kitabın bir daha göstərdi ki, səmimiyyət, doğmalıq heç vaxt kəmiyyətlə bağlı olmur, əsas məsələ keyfiyyətdədir. Bəzən bir kitabça ilə də, lap bir misra ilə də insan insana, aylar-illər doğması ola bilər. “Əlifba sırası”nda oxuduğum və dönə-dönə yenidən üstünə qayıtdığım özünə oxşayan boyca balaca, məzmunca təzə və gözlənilməz əsərlərin kimi!

Elə ilk səhifədəcə kitaba verilən ad və ada verilən məna mənim diqqətimi özünə çəkdi. Əlifba sırası dünyanın ən ədalətsiz sırasıdır. Ona görə ki, bu sırada insanları adlarına görə sıralayırlar, ağıllarına, mövqelərinə görə yox! Bizim ilk kitabımızın adı “Əlifba” olduğu qədər də, sənin ilk kitabının adının əlifba sırası olması maraqlıdır və təzə düşüncədir. Kitabın “Müəllifdən” hissəsinin özü ayrıca bitkin bir düşüncə sisteminin məhsulu olan bir əsərdir. Cəmisi səkkiz sətrə yerləşən “Sadə” şeiri sadə olduğu qədər də insan ömrünə ayna tutan mürəkkəb bir bitkinliyə malikdir. Tam səmimi deyirəm. Bütün yazılarına sevginin gözüylə baxdım.

Məni sevindirən əsas cəhət odur ki, əksər şeirlərində və kiçik nəsr əsərlərində istedadı gəncliyə xas olan, ancaq həm də təkcə sənə məxsus olan yenilik, təzəlik ciddi mütaliədən və maraqlı müşahidələrdən doğan bir rəngarənglik gördüm.

Mən səni bütöv sevirəm,
Niyə hissə-hissə qopursan məndən?!
("Bütöv sevirəm")

Tüpürcəyini udanlar cəsarətsiz adamlardır,
Tüpürmək iyrənməkdən qurtulmaqdır.
Həyatda iyrəndiklərimə tüpürə bilmədim bəzən,
Məndən qəhrəman olmaz.
("Məndən qəhrəman olmaz")

Bu şeirdə yaşına uyğun olmayan ağır bir yükün altına girmisən.

Şərab şüşəsi şərabı bizdən daha əvvəl içib,
Amma o bizim qədər sərxoş deyil nədənsə.
("Yuxu kimi")

Poetik mənzərə çox gözəldir, xəyyamvaridir.

Bu gecə adamlar evlərinə getmirlər, dostum,
Bu gecə hərəni öz dərdi gəlib aparır.
("Susma")

Eh, daha mən də dəyişmişəm,
Daha saçımı daramıram.
Üzümü qırxmıram,
Təzə geyinmirəm,
Ətir vurmuram,
Sən gedəndən elə mən də
Ancaq qarnıma fikir verirəm.
Yeyirəm, içirəm və yaşayıram sənsiz...

"Qarnıma fikir verirəm" – ilk məhəbbətinə qovuşmayan gəncin psixoloji durumu çox gözəl təsvir olunub.

Küçə süpürən qadın
Dərin səmimiyyətlə səni söyə,
Anlayarsan ki, tək deyilsən.
Sevənin olmasa da, söyənin var.
("Belə olacaq")

Mən ona baxıram,
O səhərə.
O mənə baxır,
Mən yerə.
("Utancaq")

Cəmisi dördcə misrada sevənlə sevilənin yaşadığı duyğular şəkil kimi çəkilib, əladır!

İnsan kimin üçün doğulduğunu bilməsə də,
Kimin üçün öldüyünü bilir.
("Eynəklər gizlədə bilməz kədəri")

Dünya kimləri itirib,
Amma özünü heç nə itirməmiş kimi göstərir.
("Yuxusuz gecənin himni")

Tale bizi yıxa-yıxa,
Bəlkə də döyüb öldürür.
Tale bəzən qocaların,
Qəddini əyib öldürür.

Xoş halına ölənlərin,
Vay halına qalanların.
Tale bəzən sevənlərin,
Xətrinə dəyib öldürür.
("Xoş halına ölənlərin")

Bu şeirin deyiliş tərzi gözəl olsa da, özgədən təsirlənmə var. Çalış özgəyə yox, özünə oxşa. Sən yaşda gəncin ölümdən yazmağını qəbul edə bilmirəm, hələ çox tezdir. Ölümdən yox, həyatdan daha çox yazmaq məsləhətdir. Gəncliyi qarşıda ölüm yox, həyat gözləyir.

Mənim gözlərimdə çox uçurum var,
Mənim gözlərimdən çox insan düşüb.

Hamıya qartopunu yavaş atırsan,
Mənə çatandasa
Elə bil şeytana daş atırsan.

Yeddi rəng var deyə,
Yeddini müqəddəs saymayın.
Çalışın sizin də öz müqəddəsləriniz olsun.
("Necəsən Nitser")

Oyuncaq dükanlarını uşaqlara bağışlayalar,
Ya da uşaq vaxtı oyuncaq almağa pulu olmayan qocalara.
("Kaş və bəlkə")

Xoşbəxt tarixçə, tarix, keçmiş odur ki, həm ürəyin, həm sözün, həm də ağlın yaddaşında qalır.
("Gözümüzün yaddaşı")

Fikir verdinmi, cəmisi 85 səhifəlik balaca bir kitabçada misal gətiriləsi nə qədər tapıntılar, yeniliklər var. Bu yeniliklər güclü mütaliənin, gənclik ehtirasından doğan axtarışın, təzəliyə can atan gənc bir istedadın poetik təfəkkürünün, mənəvi imkanının maraqlı göstəricisi, gələcəyə boylanan ilk işartılarıdır.

Örnək misal gətirmədiyim "Əla söhbət", "Mərtəbə", "Nə yaxşı getmisən", "Üç söz", "Ehtimal nəzəriyyəsi", "Bir anda", "Unutmamışam", "Dünyaya sığmıram", "Sıravi vətəndaş", "Müharibə", "Məğlubiyyətin himni" və başqa şeirlərində də qeyd olunmağa, misal gətirilməyə layiq qiymətli poetik düşüncələr var.

21 yaşlı bir gənc üçün mən bu şeirləri və nəsr parçalarını uğurlu başlanğıc hesab edirəm. Səndə düşünmək və düşündürmək qabiliyyəti var. Ədəbiyyata gəlmək istəyən adamın ən vacib keyfiyyəti bu meyarla ölçülməlidir. Mən şeirlərdən poetik seçmələri verməyə də bilərdim. Bu misalları ona görə gətirdim ki, sənin kitabını oxumayan oxucular mənim məqaləmi, ürək sözümü, xeyir-duamı oxumaqla qoy səni daha yaxından tanısın, kitabını tapıb sənin könül aləminə səyahət eləsin. Gənclik vaxtında kəşf olunmayanda, diqqəti çəkməyəndə, qayğı görməyəndə istər-istəməz içəridən qırılır, sınır,

yeni uçuşlara ürəklə qanad gərə bilmir. Özün demişkən, ilk kitabın tez nəşr olunması da, gec çap olunması da istər-istəməz sonralar özünə tələbkarlıqla yanaşan şairlərdə peşmançılıq hissi yaradır. Amma ilk kitab vaxtında işıq üzü görəndə daha uğurlu, daha uzunömürlü olur. Mən sənin əsərlərində uzunömürlü bir başlanğıc gördüm. Bu başlanğıc uğurlu olsun!

Əzizim Fərid! Bəzi arzu və tövsiyələrimi də bildirmək istəyirəm. İnanıram ki, dediyim fikirləri səmimi qəbul edəcəksən.

Azərbaycan dili olduqca axar-baxarlı, şirin, rəvan, sehrbaz bir gözəlliyə malikdir. İşığı bol, havası təmiz, suyu duru, torpağı münbit, bal kimi şirin ana dilimiz var. Allah bu dili musiqi üstündə, ahəng üstündə, saz-muğam kökündə yaradıb. Bayatı sehri, layla ovsunu, oxşama möcüzəsi, gəraylı ləngəri var bizim dilimizin. Əgər bir şair kimi yaddaşlarda qalmaq, ürəklərdə yaşamaq istəyirsənsə, beyindən daha çox ürəyə, ürəyin ritminə fikir ver. Özünü, sözünü, ruhunu, dilini ahəng üstündə köklə. Dünyada analar çox olsa da, hər kəs öz anasının dilində danışır. Sən də öz ananın dilində danış. İçini nehrə kimi çalxa. Ulu babamız Sabir demişkən, yağı yağ üstə çıxıb, ayranı ayranlıq olanda ürəyin məhsulunu üzə çıxart. Kitab dilindən qaç! Torpağın, suyun, mehin, təbiətin üstündə köklən! Onda poetik təfəkkürün daha da gözəlləşəcək. Bu gözəllik yollarında sənə gözəl yaradıcılıq uğurları arzulayıram. Yeni kitablarını gözləyirəm.

***11.01.2010***

## YARALI XATİRƏ

İpə-sapa düzülməyən dərdlərimizin sayı tükənməsə də, onda hələ Şuşa adlı dərdimiz dünyaya gəlməmişdir. Ömrümüzün, günümüzün bəxtəvər çağlarıydı. Şuşada Vaqif poeziya günləriydi. Bakıdan və Azərbaycanın müxtəlif yerlərindən geniş tərkibdə ədəbiyyat və incəsənət xadimləri Şuşaya – Cıdır düzünə, Vaqif türbəsinin önünə toplaşmışdı. Böyük şairin şərəfinə şeirlər oxundu. Alovlu çıxışlar oldu.

Məclisin ikinci hissəsi heç vaxt unuda bilməyəcəyim, sözün böyük mənasında tarixi bir ziyafətə çevrildi. Xalq şairi Cabir Novruz məclisə ağsaqqallıq edirdi. İsa bulağının başında qurulmuş bu məclisdə poeziya və musiqi zirvələri ucala-ucala gedib Tanrı dərgahına çatmışdı. Məclisin şirin yerində bir polis işçisi mənə yaxınlaşdı: "Zəlimxan müəllim, heç kəsə söz vermə, ziyafətdən sonra sizi "oğurlamaq" mənə tapşırılıb". Doğrusu, bu yarızarafat, yarıciddi sözdən çaşan kimi oldum. Tərəddüdlə "kimdi məni oğurlamaq istəyən", – deyə dilləndim. "Ələmdar müəllim!", – deyib həmin polis işçisi isti təbəssümlə məndən ayrıldı.

Mən "oğurluqla" məşğul olmaq istəyən adamın kimliyi ilə maraqlandım. Məlum oldu ki, bu kişi Şuşada polis şöbəsinin rəisi işləyən Ələmdar müəllimdir!

Nəhayət, "oğurluq" əməliyyatı yüksək səviyyədə həyata keçirildi. Şuşanın say-seçmə ziyalıları ilə Ələmdar müəllimin təşəbbüsü və təşkilatçılığı sayəsində çəkildik xəlvət və cənnət guşələrin birinə. O zaman Şuşanın Ələddin adında bir prokuroru var idi, Qazaxlıydı. Adını səhv deyirəmsə, Allah günahımdan keçsin. O, məclisə gözəl bir saz gətirmişdi. Allah! Allah! Qarabağ ola, Şuşa

ola, el məclisi ola, Zəlimxan ola. O gecə sazı mən çalmırdım, Allah çaldırırdı. Sözü mən demirdim, Allah dedizdirirdi. Bir də ilk dəfə görsəm də, mininci dəfə gördüyüm bir adam kimi duzu-məzəsi, şirinliyi, zarafatı, atmacası ilə, istiqanlılığı ilə hamıdan seçilən və hamının sevdiyi Ələmdar müəllim havalandırmışdı məni.

İlk tanışlıqdan, yəni 1986-cı ildən ömrünün son günlərinə qədər Ələmdar müəllimin mənim ruhumda yaratdığı bu hava heç vaxt məni tərk etmədi.

Şuşadan sonra müxtəlif rayonlarda, müxtəlif vəzifələrdə çalışan Ələmdar müəllim heç vaxt mənimlə əlaqəsini kəsmədi. Şəxsi dostluq ailəvi dostluğa çevrildi. Bu gözəl insanın ailəsində dəfələrlə duz-çörək kəsdik, dəfələrlə müxtəlif tədbirlərdə, xeyir-şər məclislərində üz-üzə əyləşdik. Açıq ürəyi, duz-çörəyi, səmimiyyəti, dostcanlı olması, şeirə, sənətə vurğunluğu, şairlərimizə, geniş mənada ziyalılarımıza olan hörməti onu gözəl insan kimi çoxlarından fərqləndirirdi. 15 illik dostluğumuz onu bir şəxsiyyət kimi mənim yaddaşıma əbədi yazdı. Hər dəfə Bakı-Sumqayıt yolunun kənarında yerləşən Xırdalan qəbiristanlığında gözüm onun qəbirüstü heykəlinə sataşanda ürəkdən bir "Allah rəhmət eləsin, Ələmdar müəllim!" – deyib, onun ruhuna dua oxuyur, salavat çevirirəm.

Bir dost da vədəsiz köçdü dünyadan,
Elə bil başıma aləm dar oldu.
Nə vaxt dindirəndə can deyərdi, can,
Canımdan ayrılan Ələmdar oldu.

***23.02.2002***

## DƏRDİMİZİN CARÇISI

O kişi ilə mən həyatda şəxsən ikicə dəfə görüşmüşəm. Birinci dəfə İrəvanda "Sovet Ermənistanı" qəzetinin redaksiyasında, ikinci dəfə AzTV-də mənimlə bağlı "Zamanla üz-üzə" verilişində. Az qala arası 25 il çəkən bu iki görüşdə o, mənim diqqətimi necə özünə çəkib. Bunun əsas xeyirxah səbəbkarı yenə Azərbaycan Dövlət televiziyası olub. Bizim ana televiziyamızda onun çıxışlarını quraqlıqdan cadar-cadar olmuş torpaq dağların selini-suyunu, göylərin yağışını necə ciyərinə çəkərsə eləcə ciyərimə çəkib, nəfəs dərmədən dinləmişəm.

"Dən xırmandan nümunədir" – deyiblər. Arif adamlar üçün onun bircə çıxışı, bircə məqaləsi, bircə söhbəti bəs edər ki, sən onun tarixə, yaddaşa, kökə, taleyə, xalqa, onun ağrı-acılarına nə qədər dərindən bələd olduğunu biləsən, aydınca dərk edəsən. İsrafil müəllim uzun müddət Ermənistanda mötəbər, çətin və məsuliyyətli vəzifələrdə çalışdığına görə erməni daşnaklarının dabbaqda gönünə bələddir. O, çoxlarından gözəl bilir ki, erməni xisləti, daşnak xarakteri, məkrli düşmən hiyləsi, kürəyə dəyən bıçaq nə deməkdir.

Biri var, hər hansı bir məsələni kitablardan, mötəbər mənbələrdən oxuyub öyrənəsən, biri də var, özün canlı kitab olasan, tarixlə maraqlanan yaradıcı insanlar üçün özün mötəbər mənbəyə çevriləsən!

Çox hörmətli İsrafil müəllimin bugünkü ziyalılar mühitində tutduğu yer tarix və tale baxımından çox mötəbər və çox gərəkli bir yerdir. Əgər tarixin acı həqiqətlərindən

ibrət dərsi almaq istəyiriksə, biz onun ictimai dərdlərimizlə dolu çıxışlarını dinləməklə kifayətlənməməliyik. Gedib kəsdirməliyik onun dizinin dibini! O, sinəsini, qanlı-qadalı can dəftərini varaqlamalı, biz də onu istedadın, ağlın və qələmin gücünə kitablara çevirməliyik. Qaçqınlıq və köçkünlüklə, igidliyimiz və şəhidliyimizlə, dağılan xanimanımız, itən yurd-yuvalarımızla, əsir və girovlarımızla, dəyişdirilən adımız və dadımızla bağlı o kişidə çox şey var. Çünki bütün bu müsibətləri o, öz xalqının timsalında, öz taleyində görüb, duyub, yaşayıb. "Yaşayıb" deyəndə ki, əslində onunku yaşamaq olmayıb. Zülm, zillət, əzab, işgəncə, gərginlik, narahatçılıq olub. Xalqımıza, onun görkəmli şəxsiyyətlərinə, sadə insanlarına qarşı ermənilərin şovinist münasibətləri onu əsəbiləşdirib, gərgin və narahat günlər yaşayıb, gücü nəyəsə çatmayanda, gözünün qabağında əzilən haqqı görəndə gözyaşlarını saxlaya bilməyib, hirsindən əlini stola çırpıb, başını əllərinin arasında sıxıb, özünü zorla cilovlayıb.

Bəli, Ermənistanda yaşayan görkəmli şəxsiyyətlərimizin ağrı-acılarla dolu taleyini İsrafil müəllim də yaşayıb. Onun tərcümeyi-halı Yerevana çevrilən İrəvanın və irəvanlıların taleyi, tərcümeyi-halıdır.

Bugünkü təsəllimiz ondan ibarətdir ki, İsrafil müəllim işğal olunmuş ərazilərimizin işğal olunması mümkün olmayan bir parçası kimi yenə də gənclik eşqiylə yaşayır, yaradır və fəaliyyət göstərir. İstedadının, ağlının, fəhminin, elmi araşdırmalarının, tarixi təcrübəsinin hesabına o bizə ekrandan, efirdən dərs verir. Tarixin həqiqətindən və həqiqətin tarixindən dərs verir. Vay bu dərsin imtahanından "2" qiymət alanların halına! Eşq olsun İsrafil müəllimin tarix dərslərindən "əla!" qiymət alanlara! Azərbaycanın

halal haqqını Azərbaycana bu acı dərsləri bütün incəliklərinə qədər bilənlər və öyrənənlər qaytaracaq!

Əziz ağsaqqalımız, İsrafil müəllim! Yaşa, yarat, dərs ver, öyrət, başa sal, silkələ, ayılt, bizi həmişə olduğu kimi, yenə də böyük həqiqətlərə hazırla, böyük qələbələrə hazırla!

Arxanca gəlirik, gələcəyik, gəlməməyə haqqımız yoxdur! Çünki dərdlərimiz böyükdür.

***13.07.2008***

## CABBAR QULİYEV HAQQINDA SÖZ

Cabbar Quliyev deyiləndə mənim xəyalıma bütün ömrünü və həyatını, əl qabarını, alın tərini, yuxusuz gecələrini rənglərə həsr eləmiş, doğulduğu Qərbi Azərbaycanın, bu gün tarixin ədalətsiz hökmü ilə bağlı Ermənistan adlandırılan böyük bir coğrafi ərazinin dağlarını, çaylarını, çeşmələrini, tarixi hadisələrini sehrkar fırçasının gücü ilə kətana köçürmüş, təbiətdə ikinci bir təbiət yaratmış cəfakeş və zəhmətinə Allahı kimi sitayiş eləyən bir rəssam canlanır.

Cabbar Quliyev deyiləndə mənim yadıma gözünün işığı, qəlbinin hərarəti ilə yaratdığı, övladı qədər sevdiyi, balası qədər əzizlədiyi, sevgilisi qədər nazını çəkdiyi əsərləri düşmən əlinə keçən, baş qəhrəmanları tonqalda yandırılan, ruhu işğal olunan, fırçası əsir, rəngləri girov olan, 50 illik əməyi puça çıxan, həsrətdən qovrula-qovrula itkin əsərlərini yenidən həyata qaytarmağa can atan, ancaq buna nə vaxtı, nə ömrü, nə gənclik həvəsi imkan verməyən, yaratdığı yandırılan, qurduğu sökülən, qəddi əyilən, beli bükülən, sifətindən, rəngindən heç vaxt qaçqınlıq, köçkünlük buludu çəkilməyən, yaralanıb qaralmış bir palıd ağacı düşür.

Cabbar Quliyev deyiləndə mənim xatirimə təkcə təbiəti deyil, müasir cəmiyyətimizin, xüsusən Azərbaycanın tarixə çevrilən bütün hadisələrinin tam və bütöv mənzərəsini yaradan, xalqımızın ağrı-acısını, müstəqillik yollarında çəkdiyi iztirabları, qarşılaşdığı məhrumiyyətləri, millətimizin azadlıq eşqini, yaşadığı böyük sevinci, daşıdığı böyük kədəri bütün çalarları ilə əks elətdirən bir rəssam düşür.

Ömür-gün yollarında qarşılaşdığı ağır və məşəqqətli hadisələrə, məhrumiyyətlərə baxmayaraq, ömrünün ixtiyar çağlarında belə gənclik eşqi ilə yaradan ustad sənətkarımızı qazandığı uğurlara görə təbrik edir, ağsaqqal rəssamımıza yeni yaradıcılıq zirvələri arzulayıram.

***24.11.2001***

## CƏFƏR HƏKİM

Şəxsiyyəti, insanı, sənətkarı nişan vermək üçün ikicə kəlmə söz də kifayət edər. Cəfər həkim! Adı və ixtisası, sənəti, peşəsi insanın tərcümeyi-halına yaraşıq və şan-şöhrət ola bilər. Cəfər həkimin adı və həkimliyi kimi! Onu yaxından tanıyan bütün insanlar ona Cəfər həkim deyə müraciət edir. İnsanlığı, tərbiyəsi, dünyagörüşü, mənəvi keyfiyyətləri, dostcanlı, elcanlı olması onu ən gənc vaxtlarından çoxlarına sevdirib. Həkimliyi, həkimliyin gətirdiyi nüfuz və şöhrət onu elin loğman oğlu kimi dərdlərin dərmanına, yaraların məlhəminə çevirib. İnsanlıqla ixtisas bir-birini tamamlayanda, bir-birinə dayaq olanda, yaraşıq verəndə ömürdə kəm-kəsir, yollarda uçurum, ürəkdə çat yaranmır. İnsan getdikcə bütövləşir, müdrik çağlarına çox asanlıqla, əzab çəkmədən qədəm qoyur. Cəfər həkim kimi!

O, bizim ruhumuzun, sözümüzün, şeirimizin, şairlərimizin illərin sınağından sağ-salamat çıxan, dostluq və doğmalıq yollarında heç bir itkiyə yol verməyən vəfalı və sədaqətli dostudur. Onun gəncliyini Məmməd Araz görüb, cavanlıq və qocalıq çağlarını mən – Zəlimxan Yaqub!

Zəngin və parlaq ənənələrlə dolu olan ədəbiyyat tariximizə fikir versək görərik ki, bütün məşhur şairlərin bədənə köynək qədər, ələ əsa qədər, gözə eynək qədər yaxın olan, unudulması mümkün olmayan dostları, sirdaşları, könül həmdəmləri olub. Xətainin Lələ bəyi kimi, Kərəmin Sofisi, Lələsi kimi!

Otuz ilə yaxındır ki, mən Cəfər həkimi tanıyıram. Onun adı çəkilən kimi mənim yadıma nədənsə qeyri-

ixtiyari Məmməd Araz gəlir. O Məmməd Araz ki, çıraq kimi yanan, şam kimi əriyən, gün kimi doğan, Ay kimi batan ömrünü Vətənə, vətəndaşa, dosta, dostluğa, insana, insanlığa, Araza, ayrılığa, ağrıya, dərdə həsr eləmişdi. O Məmməd Araz ki, saysız dostları içində ən çox ona inanmış, ona könül bağlamış, ona etibar eləmişdi. Əgər XX əsrin ən böyük şairi özünü Cəfər həkimdə tapmasaydı, anadan-bacıdan, qələmdən-kağızdan gizlətdiyini həkim dostuna açmasaydı, ulu babası Füzuli kimi "İstədim pünhan edim, səndən nə pünhan, ey həkim" deməsəydi, o Məmməd Araz olmazdı! Məmməd Araz şöhrətinə mənəvi dayaq olmasaydı, həkim dostumuz da çox quru və bəsit səslənən Cəfər Quliyev olardı, dostluqda adı böyük hərflərlə yazılan Cəfər həkim olmazdı. Cəfərin həkimliyi Məmməd Arazın şairliyi qədər bütün çətinliklərə kişi kimi sinə gərməsəydi, bu möhkəm və sarsılmaz dostluq Məmməd Arazın son nəfəsinə qədər davam etməsəydi, son nəfəsdən sonra da Fəxri xiyabanda Məmməd Arazın qəbirüstü abidəsinin, daş heykəlin yanında daşa dönməsəydi bu dostluq qayalara çevrilib əbədiləşməz, bir ovuc səhra qumu kimi küləklərə yem olardı!

Məndə qətiyyən şübhə yoxdur ki, zaman gələcək Məmməd Arazla Cəfər həkimi bir-birinə bağlayan müqəddəs tellər haqqında, ilahi bağlılıq və müqəddəs dostluq haqqında Azərbaycanın ən istedadlı şairlərindən biri "Şairlə həkimin dostluq əfsanəsi" adlı bir əsər yazacaq. Və biz o əsəri oxuyanda Vaqiflə Vidadinin, Səməd Vurğunla Osman Sarıvəllinin dostluğunu yenidən hörmət və ehtiramla xatırlayacağıq.

Cəfər həkimi müasir poeziyamızın istedadlı nümayəndələrinin hamısı çox istəyir. Şairlər də onu çox sevir, Məmməd Arazsız qalan dünyanın ətrini ondan alırlar. Elə bir tədbir, elə bir poeziya məclisi xatırlamıram ki,

Cəfər həkimlə görüşən şair dostları onu ən əziz adamları kimi bağrına basmasın. Çünki Cəfər həkimi sevmək həkimləri sevmək, şairləri, ziyalıları, işığı, səmimiyyəti sevməkdir. Cəfər həkimi sevmək – doğma Naxçıvanı, Ordubadı, onun doğulduğu Üstüpir kəndinin üstü də, altı da pir olan, ocaq olan dünyasını sevməkdir. O təkcə poeziyanı yox, musiqini, muğamı da, sazı da, xalq mahnılarını da, bəstəkarlığı da, bəstəkarları da könüldən və əbədi bağlandığı həkimlik ixtisası qədər sevir, duyur, qiymətləndirir. Bu ali insani keyfiyyətləri özündə yaşatdığına görə özü də sevilir, duyulur və qiymətləndirilir.

Üç dəfə öz qanını Məmməd Arazın damarlarına köçürən, şairin qan qardaşına çevrilən, insanlarla insani münasibətləri yaratdığı "Ordubadium" və "Zümrüd" adlı dərmanları qədər şəfalı olan, Ləyaqət xanım kimi ləyaqətli həyat yoldaşından güc, qüvvət alan, Məkkə ziyarətinə getməklə hacılıq haqqı qazanan və bu hacılıq rütbəsini daşımağa halal haqqı olan, o ucalığa və müqəddəsliyə layiq olan, xeyirxahlığı həyatının mənasına çevirən, halal zəhməti, vətənə, millətə xidməti "Şöhrət" ordeni ilə bəzənən, naxışlanan, həmişə ilhamlı ömür yaşayan, həkim kimi minlərlə xəstənin ürəyində ümid çırağı yandıran, cərrah bıçağı ilə insanlara yeni dünya, yeni həyat bəxş edən Cəfər həkim kimi insanlar öz halal şöhrətinin zirvəsində həmişə bərqərar olacaq!

"Haqqın var Məmməd Araz, haqqın var yaşamağa!" – deyən Məmməd Araz haqqında bu adda çox gözəl bir kitab yaradan xalqımın loğman oğluna mən də ürəkdən deyirəm: "Haqqın var, Cəfər həkim, haqqın var yaşamağa! Sənin yaşamağın mənəvi dəyərlərimizin, əxlaqi sərvətlərimizin, poetik ruhumuzun, işıqlı dünyamızın yaşamağıdır! Əlbəttə, sənin bu mübarək yaşına ən şirin söz, ən böyük hədiyyə, ən qiymətli sovqat, ən mübarək təbrik gözünün nuru qədər sevdiyin M.Arazdan gəlməliydi. Ancaq neyləmək olar ki, həyatın öz qanunları var, ondan qaçmaq olmaz.

Yaşa, yarat, 75 yaşlı dostum, qardaşım mənim! Cəfərim mənim – “əbədiyyət yollarına səfər”im mənim!!!”

Ömrün sınağından üzüağ çıxan,
İnsan saf kişidi, saf ərdi, qardaş.
Qocalıq ölümə gedən yol deyil,
Qarlı zirvələrə səfərdi, qardaş.

Həyat sadəlikdi, dəbdəbə deyil,
Müdriklər ustaddı, tələbə deyil.
Doğulmaq, yaşamaq qələbə deyil,
Yaşatmaq ən böyük zəfərdi, qardaş.

Tale bəxtimizə gör nəyi yazdı,
Min dəfə Allaha şükür etsək azdı.
Nə yaxşı ruhumuz Məmməd Arazdı,
Nə yaxşı dostumuz Cəfərdi, qardaş!

***03.01.2010***

## DƏRD ŞAİRİ

Qarşımda bir əlyazması var: "Səndən sonra". Kitabın adı istər-istəməz böyük Məmməd Arazın dahi Səməd Vurğuna həsr elədiyi "Səməd Vurğunla söhbət" şeirinin misralarını yadıma saldı:

Səndən sonra
Görüşlərin hərarəti sənsizləşib,
Kürsülərin cəsarəti sənsizləşib,
Ağsaqqallar səxavəti sənsizləşib.
Mən saymadım sənsizləşib daha nələr,
Axı niyə sənsizliyi gizlədilər.

Bəli, Səməd Vurğun yoxluğu Məmməd Arazın şair ürəyini necə göynədib, titrədibsə, Hüseyn Cavid yoxluğu da qəmi sevincindən, göz yaşı gülüşündən çox olan, İnfil ocağından mayalanan, Məmməd Araz şeirindən ətirlənən, bu ocağın şairə qızı Rəhilə Elçini eləcə göynədib, onun zərif qadın ürəyində dərin şırımlar, yaralar açıb. Üstəlik də Məmməd Araz yoxluğu, 23 yaşında qəfildən dünyasını dəyişən Firudin adlı qardaş itkisi, cəmi 25 gün sonra bu faciəyə dözə bilməyən Elçin adlı qardaş intiharı... Bütün bu itkilər, ağrılar, faciəli hadisələr Rəhilə xanımı bir şairə kimi Rəhilə Elçinə çevirib, dərdli bir könül dünyasının yaranmasına səbəb olub.

Könlümdə his tutub qəmim qalacaq,
Kədərə qol tutan dəmim qalacaq.
Sənin gözlərində nəmim qalacaq,
Səninçün ağlayıb gözlərim mənim.

Bu qəmli misraları ardı-arası kəsilməyən dərdlər, faciələr görmüş bir qadın – şairə qələmi yaza bilər.

XX əsr Azərbaycan poeziyasının Nəsimisi, böyük əqidə və etiqad şairi, təpədən dırnağa Türk-Turan şairi Hüseyn Cavid haqqında əsər yazmaq istənilən qələm sahibindən böyük məsuliyyət, ciddi yaradıcılıq yanğısı, tükənməz həyat eşqi, vətəndaşlıq qeyrəti tələb edir. Cavid haqqında çox yazılıb, hələ neçə-neçə əsərlər yazılacaq. Rəhilə Elçinin belə bir mövzuya müraciət etməsi bir daha onun qanlı repressiya illərində qanına qəltan olan şəxsiyyətlərə tükənməz məhəbbətin, onların qanını tökənlərə sonsuz nifrətin lirik səpkidə poetik ifadəsidir.

Dünənlər illərin düyün nöqtəsi,
Qat kəsib, çat kəsib, aça bilmirəm.
Dərd məni dərd boyda kamına çəkib,
Qaçmaq istəsəm də, qaça bilmirəm.

Poetik düşüncə, böyük ürək sahibi olanlar heç vaxt böyük dərdlərdən qaça bilməz. Rəhilə Elçin kimi.

"Cavid ömrünün qəm səhifələri" adlı poemada təkcə Cavid yox, Cavid taleli böyük şair və ədiblərimizin, ictimai xadimlərimizin, qüdrətli alimlərimizin ürəkləri parçalayan ağrılı-acılı taleyindən geniş söhbət açılır.

Cavid taleyi, Müşkünaz sızıltısı, Ərtoğrul istedadının tez sönən Günəşi o qanlı-qadalı illəri poeziyanın dili ilə bu günə gətirir ki, itkilərimizdən ibrət dərsi alaq, keçmişi yaşadaq, gələcəkdə səhvlərə yol verməmək üçün.

Deyirəm, şairim, anların günə,
Ayların illərə calandı getdi.
Cəsarət simvolu şahanə ömrün,
Qırıldı, bölündü, talandı getdi.

– deyən şairə qırılan, bölünən, talanan ömürlərin taleyinə ayna tutan bu əsərlə Cavidşünaslıq elmi üçün gərəkli olan bir çox maraqlı məqamları işıqlandırıb.

Rəhilə Elçinin şeirlərində Məmməd Araza həsr olunmuş silsilə şeirlər, bir əmi məhəbbətindən daha çox

böyük bir şairə xalq sevgisinin tükənməzliyindən danışır. Naxçıvandan, Şahbuzdan, Nursu kəndindən, İnfil ocağından, o ocağın müqəddəsliyindən söhbət açır. O ocaqda neçə-neçə şairin, alimin, ziyalının qonaqlı-qaralı günlərindən danışır.

Onun şeirlərində dərdin bütün rəngləri, qəmin bütün çalarları, nisgilin bütün şaxələri öz işini görüb, onu dərd şairinə çevirib. "Səndən sonra", məndən sonra, ondan sonra dərddən bağlanmış cild-cild kitablar qalacaq gələcəyin dərd çəkən, dərddən halı insanları üçün.

Kitabın üzərində iki şəklə baxıram – ikisi də əli çənəsində, ikisi də boynu çiyninə sarı əyilmiş, ikisi də fikirli, düşüncəli. Biri böyük hadisələrin, böyük çaxnaşmaların, amansız toqquşmaların, daşlaşan, torpaqlaşan qayaların şairi, ruhumuzun və dilimizin Məmməd Arazı, biri Məmməd Araz qayasının yasından çox ağrı-əzab görmüş, çovğunlara, tufanlara düşən zərif çiçəyi – Rəhilə Elçini. Hər ikisi böyük sözün pərvanəsi, Məcnunu.

Rəhilə Elçinin bu kitabında müxtəlif mövzular, müxtəlif şeir formaları, çoxsaylı lirik, həzin, epik, ləngərli şeirlər olsa da, onların hamısı gül dəstəsinə çevrilib, bir məqsədə, bir amala xidmət edir: "Ruhlara sığal çəkmək, insanı insanlaşdırmaq, poetik sözün gücü ilə insanın daxili dünyasını zənginləşdirmək". Bu yol müqəddəs yol, bu məqsəd uca məqsəddir. Bu çətin və şərəfli yaradıcılıq yolunda şairə bacımıza uğurlar, yeni poetik zirvələr arzulayıram.

***25.12.2008***

## ÜMİDİN İŞIĞINDA DİNCƏLƏN ŞAİR

Otuz ildən çoxdur ki, Mətləb Misiri bir şair kimi tanıyıram. Onun ilk xeyir-duasını unudulmaz xalq şairimiz R.Rza verib. Hörmətli xalq şairi F.Qoca "Çadır, çadır rəngləri" kitabına maraqlı və səmimi giriş sözü yazıb. Mətləb Misir mənə təqdim etdiyi bu kitabına "Dərdin rəngləri" adını verib.

On beş ildən çoxdur ki, doğma ocağından, isti bucağından, müqəddəs Qarabağından zorla ayrılan qaçqınlıq, köçkünlük, didərginlik həyatı yaşayan bir şair dərdin hansı rəngi qalıb ki, onu görməmiş olsun. Ömrün yetmişini qaçqın çadırında yaşayan şairin kitabının adı elə dərdin bütün rənglərini oxuculara çatdırmaq üçün "Dərdin rəngləri" olmalıydı.

Bu dünyanın dərdliləri,
Əyləşib bizdə qalacaq.

Dərd təkcə Mətləb Misirin dərdi deyil, Mətləb Misirlərin – Ağa Laçınlının, Məmməd Aslanın, Hüseyn Kürdoğlunun, Famil Mehdinin, Şahmar Əkbərzadənin, məzarı doğulduğu torpağa qismət olmayanların dərdididir.

Zaman şairi ağrı əkənə, ağrı çəkənə döndərəndə qapılar bağlanır, ocaqlar sönür, ümidlər qırılır, insanlar pərən-pərən düşür, ölülər qəbiristanlıqda basdırılmır. Bir kənddə yırğalanan beşiklər min bir kənddə qərib məzarına çevrilir. Bax onda şair dilə gəlib deyir ki:

Qəm becərib ağrı əkən,
Mətləb Misir ağrı çəkən.

Xalqımızın min illərlə cilalanıb gələn deyimləri, duyumları, alqışları, qarğışları var. Xalq birinə alqış elə-

yəndə deyir: "Səni görüm yurdunda qaim-qədim olasan!" Qarğış eləyəndə deyir: "A yurdu itənin, ocağı batanın oğlu!" Nəsə, Allahdan xeyirlisi. XX əsrin əvvəllərində də, ortalarında da, axırına yaxın da Tanrı bizə sözün qarğış üzünü göstərdi. Bu illər ərzində Azərbaycan şairləri sürgün görmüşdü H.Cavidin şəxsində, güllələnmə görmüşdü Ə.Cavadın, M.Müşfiqin şəxsində, mühacirət görmüşdü A.İldırımın şəxsində. Bunlar az imiş kimi, tale xalqımızın şairlərinə öz doğma torpağında qaçqın olmağı da göstərdi. Bu faciə də bizim nəslin payına düşdü. Ona görə də şair bu dünyanın dərdlilərini özünə həmdərd, həmsöhbət eləyir, onlarla dərdləşir.

Bütün duyan könüllərə,
Həmsöhbət, həmdərd adamam.

– deyən yaralı şairimiz təsəllisini dərdi duyan insanlarla söhbətdə görür. Arzu ilə gümanın, ümidlə şübhənin, ölümlə həyatın, xeyirlə şərin, haqla nahaqqın arasında çırpına-çırpına qalır. Bu çırpıntılar ürəkdən qələmə, qələmdən varağa, varaqdan kitaba, kitabdan oxucuya doğru yol gəlir. Şairdən oxucuya qədər gedən yollarda şair nə çəkir, onu bir Allah bilir, bir də şairin özü!

Ömrümün uşaqlıq və gənclik illərini xatırlayıram. Elə ki, qulağımıza çadır sözü gəlirdi uçmağa qanadımız olmurdu. Bilirdik ki, Borçalı yaylaqları bizi çağırır. Arandan yaylağa elin-elatın köçü başlayardı. Çadırlar açılardı, dəyələr, alaçıqlar qurulardı. Körpə uşaqlar uçuşan kəpənəklər kimi yaşıl çəmənlərə səpələnərdi. İndi isə çadır sözü bizim üçün ən dəhşətli bir obraza çevrilib. Həm poeziyamızda, nəsrimizdə, həm də gündəlik danışığımızda. O çadır hara, bu çadır hara. Böyük şairimiz Səməd Vurğun dillərdə dastan olan məşhur şeirində deyirdi:

Binələrin çadır-çadır,
Çox gəzmişəm özüm, dağlar.
Qüdrətini səndən aldı,
Mənim sazım, sözüm, dağlar.

Bu günün şairi Mətləb Misir deyir:

Sonuncu qəbirdi,
Sonuncu çadır!

O çadır hara, bu çadır hara! Əvvəlki çadırlar sevginin, məhəbbətin, sazın, könül açan, ruh oxşayan məclislərin çadırıydı. Bu günün çadırları dərdin, ağrının, hıçqırığın, göz yaşının, vaxtsız ölümün, vərəmin, xərçəngin çadırlarıdır.

Çadır mövzusu, onun bütün rəngləri və çalarları Mətləb Misir poeziyasında dərininə, eninə, uzununa şaxələnir, dərinləşir, poetikləşir, şair harayına, həyəcan təbilinə çevrilir.

Mətləb Misir istər lirik şeirlərində, istər lirik-epik poemalarında öz mövzularına sadiqdir. Onun qoşma və gəraylıları da, sonetləri də, sərbəst şeirləri də, qələm dostlarına həsr elədiyi əsərlər də, beynəlxalq mövzularda olan kəsərli və tutarlı misraları da, gördüyü, duyduğu, yaşadığı Azərbaycan dünyasının, Qarabağ ağrılarının içindən keçir.

Bu şeirlər, bu əsərlər bizə deyir ki, bu gün biz Mətləb Misirə və o taleli şairlərimizə qarşı olduqca həssas olmalı, onlara qarşı sözün böyük mənasında xeyirxah və alicənab olmalıyıq. Onların ürəyi yaralı və kövrəkdir. Onlar bizdən təbəssüm, qayğı, diqqət və məhəbbət görsələr yaradıcılıq sarıdan ədəbiyyatımız, poeziyamız daha çox qazanar.

Sanma ki, bu dünya qaradır, qara,
Sinəndə yer saxla yaxşılıqlara.

– deyən şairin sözünü qəribçiliyə salmamalı, onun əsərlərinə mətbuatımızda səxavətlə yer ayırmalı, onlar haqqında məqalələr, oçerklər, publisistik yazılar yazmalıyıq ki, onlar əyalət sözündən qorxmasınlar, əyalətdə ola-ola özlərini ədəbi proseslərin tən ortasında hiss etsinlər.

Mətləb Misirin bu diqqətə, bu qayğıya halal haqqı var. Bu haqq ona verilməlidir. Çünki şairdir, elin-obanın şairi, xalqın, millətin şairi, dərdin və dərmanın şairi.

Hörmətli şairimiz Mətləb Misirin "Dərdin rəngləri" kitabının oxucular tərəfindən rəğbətlə qarşılanmasına ürəkdən əminəm. Və onun qələm dostlarından biri kimi bu əminliyə xeyir-dua verirəm. Mətləb Misirə uğurlar olsun! Dərdin rəngləri sevincin rənglərinə dönənə qədər yol getməliyik, ayrı yolumuz yoxdur!

***18.07.2010***

## YARIN BAĞÇASINDA ÜÇ GÜL AÇILMIŞ...

Rəssamlıq nə gözəldir: rənglərə saf könüllə sığal çəkir. Memarlıq nə gözəldir: daşlara mahir əllə sığal çəkir. Şairlik nə gözəldir: sözlərə doğma dillə sığal çəkir. Rənglər könüllə, daşlar əllə, sözlər dillə sığallanır. Dilimizin çox şirin sözlərindən biri olan sığal sözündə ilahi bir yumşaqlıq, zəriflik və istilik var. Sevdiyin gözəlin tellərinə sığal çəkəndə dünya gözlərində cənnətə dönür. Məsum bir körpənin saçlarına sığal çəkəndə içərində bir ilahi zəriflik dünyası yaranır. Güllərə sığal çəkəndə ürəyində bir yaşıl çəmən çiçəklənir. Bu sığalların içində bir sığal da var: şair dilində sözün ilahi sığalı.

Haqqında böyük səmimiyyətlə söz açdığım şairə Allah üç qabiliyyəti birdən verib: rəssamlıq, memarlıq və şairlik. Hər üçündə səmimi, hər üçündə təvazökar!

Ustadımız Hüseyn Şəmkirli demiş:

Yarın bağçasında üç gül açılmış,
Ağ gül, qırmızı gül, bir də sarı gül.

Bu güllərin hər üçü müqəddəsdir, Tanrı sovqatı, İlahi vergisidir.

Əziz qələm dostum Məmməd Dəmirçioğlunun "Nurlan" nəşriyyatı tərəfindən nəfis və gözəl tərtibatla çapdan çıxmış "Səhra gülləri"ni oxuyanda çox kövrək hisslər keçirir, zərif duyğuların xumarlığında məst olurdum. Kitabın üz qabığındakı göylərin üzünü bəzəyən durna qatarı da, durna qatarına işıq salan Ay da, səhraların sirdaşı dəvə karvanı da, dolu sünbül dənəsi də, açılan lalələr də, şair dostumuzun eynəyi arxasından uzaqlara baxan mənalı baxışları da, Həzrəti Mövlananın səma rəqsi də istər-istəməz məndə bir sual doğururdu: görə-

sən, üzü gözəl olan kitabın sözü də gözəl olacaqmı? Çox şükür Allaha ki, "vəhdəti-vücud" parçalanmadı. Üzü gözəl olanın sözü də gözəl oldu. Həmişə ya onun zəngi gələndə, ya mən zəng edəndə "Koroğlu" dastanından bir bəndi çox böyük həvəslə salam əvəzi səsləndirirəm:

İgidlər yaralı gərək,
Qovğaya xaralı gərək,
Dost dostdan aralı gərək,
Dəmirçioğlu, Dəmirçioğlu.

Bəli, Məmməd Dəmirçioğlu!

Mən sənin kitabını böyük sevgi və sayğılarımla oxudum. İstər-istəməz Qazax mahalının İncə dərəsini və Aşıq Avdının "İncəgülü" havasını xatırladım. İncə dərəsində yetişən şairlərin hamısının dili sazdan şirə çəkib, güllərdən bal çəkib, çiçəklərdən ətir çəkib. Adı İncə dərəsi olan yerdə doğulan şairin sözlə kobudcasına rəftarına Tanrı icazə verməz. "İncəgülü havası adama qənim olar. Bu hava insanı pəltək danışmağa qoymaz.

Hərdən fikirləşirəm ki, əgər dilimizin qoşma, bayatı, divani ləngəri olmasaydı, dilimiz də torpağımız kimi çoxdan işğal olunardı. Sizin kimi halal dili olan şairlər bal kimi şirin olan Azərbaycan dilinin döyüş səngərində vuruşan əsgərləri, fədailəri, mücahidlərisiniz.

Dumbuzla dilmi bağlanar,
Çumbuzla selmi bağlanar,
Yığvala belmi bağlanar,
Yığvalı dönənin oğlu.

Çumbuzla dumbuzun, yığvalla belin poetikasına salam olsun.

"Qan verən dan yeri, can verən qürub". Təkcə bu misra öz ruhunda şairliyi və rəssamlığı qoşalaşdırıb.

Bağçamızın ayağını, başını,
Yarpız-yarpız öpüb gedən çay kimi.

Bir beytini misal gətirdiyim bu etüd qoşmanın hər misrasında İncə dərəsində şırıl-şırıl axan suların ilahi səsini, qımqımasını, zümzüməsini eşidirəm.

Səhər doğulunca gecə can verir,
Üfüqün qırmızı tül körpüsündə.
Sabaha salamat çıxan ümidlər,
Şeh olub titrəşir gül körpüsündə.

Yunis İmrə havasında sözü belə deyənlərə, gözəlliyi belə duyanlara, sözün şəklini belə çəkənlərə bir də salam olsun!

Xalqımızın gözəl bir deyimi var: "Ağa kərəmsiz, qul xatasız olmaz". Görün Dəmirçioğlu bu fikri nə gözəl oynadıb:

Yazdığım şeirlər qul xatasıymış,
Allah, kərəm eylə, qulların yazıq.

Qulağıma tarixdən səslər gəlir. Xətainin xətası yadıma düşür:

Yazdıqlarım varaqlarda ağladı,
Yazmadığım yanağımda yaş oldu.

Vidadi ruhu çiçəklənir bu qəmli misralarda. O Vidadi ki, onun dil zirvəsinə hər şair çata bilməz.

Mən İncə dərəsini bir saza bənzədirəm. Qoltuq və cürə saza yox, tavar saza bənzədirəm. O sazın heç vaxt susmayan, həmişə şirin və həzin nəğmələr oxuyan telləri o yurdun şairləridir. Pərdəsi dağ cığırları, təzənəsi küləklər olan o sazın gur səsli bir teli də Məmməd Dəmirçioğludur!

Nə nazlı mələkdi açılan səhər,
Çəkilib qaraca tül camalına.
Hər quş öz dilində salam söyləyir,
Açılan sabahın gül camalına.

"Peyğəmbərlərin gül camalına salavat" deyimini çox eşitmişik. Açılan sabahın gül camalına salam vermək üçün rəssam ürəkli şair, şair ürəkli rəssam olmalısan ki, çoxlarının görə bilmədiyini sən görə və göstərə biləsən.

Məmməd Dəmirçioğlunun əsas xoşbəxtliyi ondan ibarətdir ki, şifahi xalq ədəbiyyatından, irfan dünyasından, ruhumuzun saz-söz qatından çox incəliklə, ustalıqla faydalana, qidalana bilir. Onun yazdıqlarını həssas bir düşüncə ilə araşdırmağı bacaran oxucu görür və duyur ki, onun hər gəraylısı, hər qoşması, hər təcnisi özündən əvvəl deyilənlərin əqli qidalanma yolu ilə yenidən çəkilmiş və ancaq Məmməd Dəmirçioğluna məxsus olan şəklidir.

Məmmədin:

Ey eşq əhli, dərviş könül, əhli-hala baş endir,
Uy gözəllər sevdasına, bir halala baş endir.

– beyti ilə başlanan divanisi ruhumuzun ulu Dədəsi Aşıq Ələsgərin "Baş endir" divanisinin mənəvi və məntiqi davamı deyilmi?

Belə misallardan çox çəkmək olar. Məmməd Dəmirçioğlunun şəxsiyyətinə yaradıcılığından, yaradıcılığına şəxsiyyətindən gələn bir irfani kamillik, ağırlıq və dədə kişilərə məxsus bir ləngər, çəki var. Onun şəxsiyyətindəki təmkin və ağayana görkəm Hacı Əfəndi ocağından mayalanan irfani dünyanın çeşməsindən su içir.

Gön varağa, daş kitaba düzüldüm,
Sözdən-sözə, dildən-dilə yol gəldim.
Puçur-puçur, qönçə-qönçə dərildim,
Çöldən-çölə, güldən-gülə yol gəldim.

Bu yol Əhməd Yəsəvidən, Dədə Qorquddan bu günə qədər gələn, bizdən sonra da davam eləyən sözün mərifətdən həqiqətə doğru gedən yolu deyilmi? Məmməd Dəmirçioğlu rəssamlığında da, memarlığında da, şair-

liyində də bax bu yolun, mürşidi-kamillərin yolunun davamçısıdır.

Ləpələr düzülür zərxana kimi,
Gedəcək nəfəsi darıxana kimi.
Yığıb dərdlərini barxana kimi,
Haraya yol gedir dəvə karvanı?

Əzizim Məmməd! Elə sən özün də yükünlə, çəkinlə, qayğılarınla bir dəvə karvanına bənzəyirsən. Qoşul səhradakı dəvə karvanlarına, qoşul göy üzündə Vaqifin, Vidadinin şeirlərinə ölümsüzlük gətirən durna qatarına, qoşul çöllərdə küləklərə, sularda balıqlara, hərəkətdə və bərəkətdə ol! Yaz, yarat! Gözün ilahi rənglərdən, əlin xınalı daşlardan, dilin ilahi sözlərdən ayrılmasın!

Yarın bağçasında üç gül açılmış,
Ağ gül, qırmızı gül, bir də sarı gül...

***03.10.2010***

# MƏNİ SEVİNDİRƏN ROMAN

***Cavid Zeynallıya açıq məktub***

Əzizim Cavid!

Bu məktubu sənə Ukraynadan – müalicə olunduğum sanatoriyadan yazıram. Bura gələndə özümlə üç roman gətirmişdim. Onlardan biri sənin mənə avtoqrafla yadigar verdiyin "Günəşi gözləyənlər" romanı idi. Ucdan-qulaqdan bu əsərin tərifini eşitmişdim. Mənim nəzəimdə yazılarını diqqətlə izlədiyim, əsərlərini maraqla oxuduğum, gələcəyinə inandığım gənclərin sırasında sənin də ayrıca yerin var.

Biz səninlə gənc şair və yazıçılarla dəfələrlə görüşüb yaradıcılıq söhbətləri eləmişik. Görüşlərimizdə səni danışmaqdan daha çox qulaq asan, dinləyən, düşünən görmüşəm. Sən haqda fikirləşəndə hərdən öz-özümə deyirdim – görəsən, Cavid niyə belə sakit dayanır, söhbətlərə qaynayıb qarışmır.

"Günəşi gözləyənlər"i oxuyanda mənə aydın oldu ki, sən düşünməyə, düşündürməyə, mütaliəyə, müşahidəyə daha çox yer ayırırsan. Əgər belə olmasaydı, sənin əsərini bir nəfəsə oxuyub heyrətlənməz, yaxşı mənada gözləmədiyim mənzərə ilə qarşılaşmazdım.

Açıq və səmimi şəkildə etiraf edirəm ki, son illərdə gənclərin bir-iki kitabını çıxmaq şərti ilə məni belə sevindirən roman olmamışdı. Gözləmədiyim heyrətamiz bir mənzərə ilə qarşılaşdım. Yaş etibarı ilə çox gənc olan, o qədər də yaradıcılıq təcrübəsi olmayan bir qələm sahibinin birdən-birə belə bir əsərinin meydana çıxması həssas oxucunun diqqətini çəkməyə bilməz.

Roman janrı haqqında sovet dönəmində bizdə belə təsəvvür formalaşmışdı ki, əgər romandırsa, ən azı üç yüz, beş yüz səhifə olmalı, bütün məsələləri tam genişliyi ilə öz səhifələrində əhatə etməlidir.

Ancaq dövr, zaman dəyişdi, aylar, illər bir-birini əvəz elədi, müstəqillik dövründə ədəbiyyatımıza çox istedadlı yazıçılar və şairlər nəsli gəldi. Bu nəsil qısa bir vaxtda öz yaradıcılığı ilə bir bədii həqiqəti təsdiqlədi ki, roman səhifələrin çoxluğu, kitabların qalınlığı ilə yox, bədii siqləti və mahiyyətinin səviyyəsi ilə ölçülməlidir. Sənin balaca formatda, 303 səhifədə nəşr olunan kitabın bunun əyani sübutudur, həcm heç vaxt söhbət mövzusu ola bilməz. Söhbət bədii səviyyədən, bədii dəyərdən getməlidir. Az qala bütün gənclərin, tələbələrin tərcümeyi-halına çevrilən tələbəlik illəri, yataqxana şəraiti, kirayənişin həyatı zəngin və rəngarəng, olduqca maraqlı və unudulmaz mövzularla doludur. Bu mövzuları, əhvalatları, hadisələri poetik düşüncə, həssas münasibət, zərif müşahidələr hesabına bədii ədəbiyyatın sərvətinə çevirmək olar.

Əzizim Cavid!

Sənin yaratdığın obrazlar – Üzeyir, Əqrəb, Nərminə, Qaragöz, Yasəmən, Firəngiz xala, Şaman nənə, fəlsəfə professoru, anası ölmüş yetim qalan küçüklərdən ötrü ağlayıb göz yaşı tökən uşaq obrazlarının hər biri böyük sevgiyə və məhəbbətə layiqdir.

Kitabı bir nəfəsə oxuyub qurtarandan sonra nida işarəsi, üç nida, sual qoyduğum səhifələrə dönə-dönə qayıtdım, yenidən varaqladım. Əhsən dediyim, ağladığım, narahat olduğum, həyəcanlandığım səhifələr məni rahat buraxmadı.

Əsər məni dərindən düşünməyə vadar elədi. Demək, mövzu hər yerdə var, onu görən və göstərən göz, duyan ürək, eşidən qulaq, incə müşahidə qabiliyyəti olmalıdır ki, yaşadığın həyatı ədəbiyyata gətirəndə əsərlə həyat arasında uçurum yaranmasın, ədəbiyyat həyatı, həyat ədəbiyyatı tamamlasın.

Bakıda yaşadığım 45 ilə yaxın bir vaxt ərzində "Qələbə" kinoteatrının yanından, kənardan baxanda xarabaya oxşayan, ancaq yastıyapalaq evləri xatirələrlə dolu olan Alatavanın içərisindən, dar döngələrlə keçdiyim, mənim qəlbimdə də çox şirin və canlı xatirələri yaşayan Alatavanı birinci dəfə görürmüş kimi sənin əsərində yenidən kəşf elədim. Sən bədii təfəkkürün gücü ilə Alatavanı mənə elə sevdirdin ki, bu sınıq-salxaq, töküldüm-itdim gecəqondular gözlərimdə bu gün tikilən göydələnlərdən daha çox hörmətə mindi. Az qala gedib şəhərin merinə yalvarmaq istədim ki, Alatavanı tələbəlik illərimizin tarixi muzeyi kimi qoruyub saxlasın. Siz oraları uçursanız, bizim xatirə yuvalarımız darmadağın olacaq!

Üzeyir obrazını nə gözəl, nə səmimi, nə təbii yaratmısan. Tələbəlik həyatı keçən, kirayədə yaşayan gənclərin hərəsi bir Üzeyirdir, Cavid bəy! Onun qarşılaşdığı çətinliklər, aclıq, pulsuzluq, işsizlik lövhələri, çətinliklər torunda çırpındığı anlar, hörümçək toruna baxıb öz taleyini də tora düşmüş təsəvvür edən bir gənc. Bu yolu hamımız keçmişik. Mən neçə-neçə səhifədə özümü – Üzeyir – Zəlimxanı çox aydın görür və bütün dəqiqliyi ilə yenidən yaşayırdım. Budur həyatdan gələn, hamının olan ədəbiyyat!

Zorge parkındakı oturacaqdan qalxarkən şalvarı cırılan, bir şalvar almağa gücü çatmayan, yolun ortasında bir qızın – Nərminənin zorla 10 manatını əlindən alan, qonşu evin həyətində kəndirdən asılan şalvarı oğurlamağa cəhd edən, ancaq fikrindən daşınan, avtobusdan düşəndə pul verməyib sürücünün söyüşləri altında itən, "məni diriykən ən hörmətsiz ölülər siyahısına qara hərflərlə yazıb zibil yeşikləri ilə dolu xatirələr məzarlığında gorbagor eləmişdilər" deyə düşünən, özü ac qala-qala bir tikə çörəyi ölməsinlər deyə küçüklərə yedirdən, qaraçı qızının könlünü öz mərhəməti ilə ovun-

duran, özü çətinliklər içində çırpınsa da bədbəxt olmuş insanları xoşbəxt eləmək uğrunda hər çətinliyə qatlaşan Üzeyiri sevməmək, onun siçana, itə, pişiyə, bütün canlılara qeyri-adi sevgisinə hörmətlə yanaşmamaq qeyri-mümkündür. Nərminənin intiharla bitən faciəli taleyini, onun anası – dul qadının universitetin fəlsəfə professoru tərəfindən bədbəxt edilib atılmasını, onun xərçənglə sona yetən ömrünü oxucunu sarsıdan bir səviyyəyə qaldırmısan, əzizim Cavid!

Əsərdə Üzeyirin əqrəb bürcündə doğulduğu üçün Əqrəb adı verdiyi tələbəlik illərində Üzeyirlə sevişən, Üzeyir hərbi xidmətdə olanda başqasına ərə gedən, orda da bəxti gətirməyən, bədənində günahkar ruh gəzdirən qızın keşməkeşli taleyi oxucunun diqqətini xüsusi cəhətləri ilə özünə çəkir. Üzeyirin xeyirxahlığı və fədakarlığı, təmənnasız sevgisi nəticəsində bədənində günahkar ruh gəzdirən Əqrəbin Şaman nənənin köməyi ilə bu əzabdan xilas olması, günahkar ruhun onun bədənindən çıxması, yenidən Üzeyirin həyatına qayıtması müəllifin yaradıcılıq qələbəsidir. Qələbənin məntiqi ondan ibarətdir ki, dünyada günahı olmayan insan yoxdur. Ancaq qarşı tərəfdə o günahı əfv edən, bağışlayan tapılanda həm bağışlanan əzabların pəncəsindən xilas olur, həm də bağışlayan böyüyür, böyük həqiqətə qovuşur. Üzeyirlə Əqrəbin bir-birinə qovuşduğu kimi!

Əzizim Cavid!

Nə yaxşı sən Alatava "məktəbi" keçmisən. M.Qorki demişkən: "Həyatın dibindən" gəlmək istedad sahibi üçün əslində böyük xoşbəxtlikdir. Yay kimi gərilməsən, ox kimi atıla bilməzsən. Çəltik kimi döyülməsən, səndən düyü çıxmaz. "Qədim Romanın zavallı qara qulları" sayaq zülm ayaqlamasaydın, fəhləlik edəndə palçıq vedrəsi başına tökülməsəydi, dilənçi kökünə düşüb dilənçiləri, falçıya möhtac olub falçıların psixologiyasını öyrənməsəydin, "it adamı" adlandırdığın yerdə kirayədə

olmasaydın, geydiyin corablardan barmaqların eşiyə çıxmasaydı, nimdaş libasla qızları görəndə ölüb yerin dibinə girməsəydin bu gün "Günəşi gözləyənlər" dünyaya gəlməzdi. Salam olsun dözülməz çətinliklərə ki, bəhrəsi tarixi, ədəbiyyatı yaradır.

Sənin ilk romanın hər bir xeyirxah oxucu kimi məni də ürəkdən sevindirdi. İlk roman, ilk uğur, ilk yaradıcılıq qələbəsi. Səndə olan müşahidə qabiliyyəti, mütaliə zənginliyi əsərdən də göründüyü kimi Avropa və Amerika ədəbiyyatına bələdçilik hadisələri təsvir eləməkdən daha çox onları detallaşdırmaq, konkret və kəskin dialoq qurmaq ustalığı, ifadə və təfəkkür tərzindəki özünəməxsusluq, güclü səmimiyyət, rəsmiyyətçilikdən çox-çox uzaq olan təbii düşüncə tərzi, əşyaları insan kimi danışdırıb ona can və nəfəs vermək müəllifdən xüsusi yaradıcılıq eşqi, yazmaqdan daha çox düşünmək, düşündürmək istedadı tələb edir. Sənin gələcəyinə inanıram. "Günəşi gözləyənlər"in müəllifindən daha güclü və daha dəyərli əsərlər gözləməyə bizim mənəvi haqqımız var. Poeziyamızın böyük Cavid Əfəndisi var! Qoy Azərbaycan nəsrinin də böyük Cavidi yetişsin. Sənə uğurlar olsun, mənim əzizim!

***"525-ci qəzet",***
***2011-ci il***

## ŞAİR ƏLİZADƏ NURİYƏ DOĞRU

Ah, məhlə, niyə mahal ola bilmədin, ah, ucqar, niyə mərkəz ola bilmədin, ah, əyalət, niyə vilayət ola bilmədin?

Məhlə, ucqar, əyalət sözlərinin sıxıntısında, bürküsündə, darlığında nə qədər ilhamlar sönüb, nə qədər ümidlər sınıb, nə qədər qələmlər qırılıb atılıb. Uçuş meydanı geniş olmasa, təyyarə nə havaya qalxa, nə də havadan enə bilər. Uca zirvələr, əngin səmalar, mavi üfüqlər olmasa, qartal qartallıq eləyə bilərmi, əlbəttə, yox? Ancaq ədəbi-bədii dünyanın tarazlığının pozulmaması üçün bəzən məhlədə, ucqarda, əyalətdə elə istedadlar dünyaya gəlir ki, onlar öz istedadları, əzabları bahasına mərkəzi ucqara, vilayəti əyalətə gətirmək gücünə sahib olurlar. Ancaq bu iş onlara asan başa gəlmir. Çox böyük əziyyətlər və məhrumiyyətlər hesabına başa gəlir. Ona görə də bu yaradıcılıq əzabının meyvəsi həmişə dadlı, əzabı həmişə şirin olur, ucqarın on istedad sahibi sahibsizlik ucbatından sönsə də, birdən-birə bir istedad sahibi öz poetik imkanı ilə elə parıldayır ki, çoxlarının gözlərini qamaşdırır. Görməyənə özünü göstərir, bilməyənə özünü bildirir, dərk etməyənə öz poetik varlığını dərk etdirir. Həzrəti Mövlana demişkən, tanı məni, gör məni, bil məni, – deyir, o sözü demək haqqını qazanır.

Bu taleyi yaşayan şairlərdən biri də yaradıcılığına, şəxsiyyətinə çox böyük hörmət bəslədiyim, üzünü az-az görsəm də, poetik sözünün işığında tez-tez işıqlandığım Əlizadə Nuridir. Onun daxili dünyasının təzəliyi, orijinallığı haqqında unudulmaz xalq şairimiz Məmməd Araz vaxtilə çox böyük məhəbbət və səxavətlə söz açıb. Təkcə bu ədəbi fakt kifayətdir ki, onun yaradıcılığına dönə-dönə qayıdasan, nəyinsə xatirinə başqa səmtə gedənləri tədqi-

qat obyekti kimi onun səmtinə doğru yönəldəsən. Çünki Məmməd Araz bir şair kimi sözə, ədəbiyyata, ədəbi gəncliyə qarşı çox tələbkar və məsuliyyətli sənətkar idi, vətən daşı olmayana vətəndaş deməzdi! Əgər Əlizadə Nuri çağdaş şeirimizin vətəndaşına çevrilibsə, gəlin onu qoruyaq, qayğı göstərək, sevək, qiymətləndirək. Uca sözün, halal şeirin ucqarlarda çiçəklənməsi naminə!

Nəinki şairləri, ümumiyyətlə, insanları unutmağa və unudulmağa qoymamalıyıq.

Dünya söz vermişdi
Məni xoşbəxt etməyə.
Nə deyim, bəlkə də
Huşundan çıxıb.

İnsanı, şairi, söz adamını Allahın huşundan çıxmağa qoymamalı, Allahın özünə belə xatırlatmalıyıq ki, İlahi, sənin burda söz demək səlahiyyəti verdiyin bir şair yaşayır, nəzərini onun üstündən kəsmə!

Ucqarda yaşamasına baxmayaraq, mətbuat orqanları onun yaradıcılığına həmişə yer ayırıb, şeirləri oxucular arasında əks-səda verib, çağdaş şeirimizin söz sahiblərindən biri kimi, tənqidçi və ədəbiyyatşünas alimlərin diqqətini çəkib, doğrudan da, bir şair kimi Tanrı onun üstündən nəzərini kəsməyib.

Onun poeziyası tənhalığın, təkliyin, sükutun, səssizliyin, qürubun, gileyin, şikayətin, duaların, pıçıltıların, ağrıların, acıların poeziyasıdır. İşlətdiyim bu ifadələrlə bağlı onun yaradıcılığından onlarca poetik misallar çəkə bilərəm. Hər sözü, ifadəsi, deyim tərzi dürüst, sərrast, nizam, şirin, səliqəli, yerli-yerində, poetik, düşündürən!

Bu yer kürəsini döşəmə sandım,
Göyü başım üstə tavan saxladım.
Sənin ad gününə bir az gecikdim,
Mən səni bir az da cavan saxladım.

(“Sənin ad gününə qəsdən gecikdim”)

Dənizə qar yağır, üşüyür dəniz,
Durmuşam bir sahil daşının üstə.
Bəlkə əllərimi çətir eləyim,
Saxlayım dənizin başının üstə.

("Dənizə qar yağır")

Əslində biz hamımız göyü tavan kimi başımızın üstündə saxlayırıq, ancaq onu görən şair gözləri, onu duyan şair ürəyi olur. Döşəmə-tavan söhbəti müqəddəs Quranımızın məşhur ayələrindən birində Allah kəlamı kimi işlənsə də, şairin də bu fikrə özü kimi yanaşmağa səlahiyyəti və ixtiyarı var. "Qabağa Peyğəmbərlər, sonra şairlər gəldi" – Nizami, "Sirlər xəzinəsi".

Əllərimi çətir eləyib dənizin üstünə tutmaq istəyirəm ki, dənizə qar yağmasın, dəniz üşüməsin. İlk baxışda adi görünən, ancaq mahiyyətinə varanda böyük humanist duyğuları ifadə edən bu incə və zərif duyğular ancaq istedadlı şair qələmindən çıxa bilər. "Kəndimizin qurumuş bulağı haqqında elegiya" əsərini oxuyan oxucu çox dərinlərə gedir, düşünür, düşündürür. Bir bulağın timsalında şair, təkcə bulağın deyil, biganəlik və laqeydlik ucbatından sönən ocaqların, keçən işıqların, bağlanan qapıların, qırılan ümidlərin, məhv olmuş arzuların taleyini verir:

Qurutdular bu bulağı,
Hər gün nəğmə oxuyardı,
Kiritdilər bu bulağı.

Daha öz həzin səsiylə bu kəndə layla çalan olmayacaq, qurutdular bulağı. Bulağın qonşuluğunda yaşayan qızlar daha gəlib sirrini, sözünü, yuxusunu bulağa açа bilməyəcək, qurutdular bu bulağı!

Bayquş səsini sevənlər
Qu səsini sevmədi.
Qulağı ulaq səsinə öyrəşənlər
Su səsini sevmədi.

Qurutdular bu bulağı!
İndi bu bulağın gözündə
Bir damcı yaş da qalmayıb,
Özü-öz halına ağlaya bilsin...

Şeirin sonluğunda oxucunu sarsıdan bir poetik-ictimai haray var, səssiz haray, insanın içini yandıran haray!

Görəsən, ən gözəl
Kim ağlayar
Bu bulağın qəmini.
Kim ağlaya bilirsə,
Götürsün qələmini!

Şairin ən çox sevdiyim əsərlərindən biri kimi bu şeir məni çox sarsıdıb. Əslində çox aktual mövzuya, güclü ictimai kəsərə sahib olan bu şeir çox dərdlərimizə ayna tutur. Rəzillik və paxıllıq, xudbinlik və dargözlük ucundan bir görün nə qədər bulaqlar quruyub, nə qədər ilhamlar sönüb, nə qədər şeirlər beşiyindəcə boğulub, nə qədər nəğmələr susub, nə qədər səslər batıb, xeyirxah olanları belə hay-qusniyyət adamları söyə-söyə, döyə-döyə bədxah eləməyə can atıblar. Nəticədə uduzan kim olub – ədəbiyyatımız, sözümüz, ictimai fikrimiz. Özünü savadlı göstərmək naminə "böyük ədəbiyyat" deyib bağıranların çoxu ədəbiyyatı böyüməyə qoymayıb, onu xırdalamaqla, ucuzlaşdırmaqla məşğul olublar. Bu əsərdə şairin gəldiyi ədəbi qənaət bundan ibarətdir!

Bədxah elə bildi yıxılmışam mən,
Ancaq bilmədi ki, namaz üstəyəm.

Bizdən salam olsun şairi şair kimi vüqarlı və uca saxlayan sağlam ruhun sağlam şeirinə!

Ucqardımı, əyalətdimi, mərkəzdimi – fərqi yoxdur, əgər şair bir məclisə girəndə ünvanına "xoş gəldiniz" sədaları yüksəlmədisə, "buyurun, əyləşin" təklifi eşidilmədisə, özünü urvata, sözünü hörmətə mindirənlər tapıl-

madısa, orda heç bir ədəbi inkişafdan, heç bir ədəbi prosesin mərhələlərindən söhbət gedə bilməz! Orda ancaq üfunətdən və rəzalətdən, ürək bulandıran, könül küsdürən mətləblərdən söhbət gedə bilər. Harda yaşamasından asılı olmayaraq, xalq öz şairini urvata mindirməli, hörmətdə saxlamalıdır. Nəyinsə və kiminsə xatirinə onuncu dərəcəli bir adamı qabağa çəkib, birinci dərəcəli adamı isə arxa plana keçirərək görməməzliyə vurmamalıdır. Çünki Allah şairə xalq adından danışmaq səlahiyyəti verib. Çünki dar gündə, dar ayaqda xalqın halına şairdən çox ağlayan, gözləri kor olan bir kimsə yoxdur!

Hər şairə ürək qızdırıb "mənim şairim" demək olmur. Ancaq mən Əlizadə Nuriyə eli-obası, ucqarıəyaləti, taleyi, tərcümeyi-halı, şəxsiyyəti və yaradıcılığı ilə ürəklə "Mənim şairim!" – deyirəm. Səbəblər çoxdur. Birinci səbəb odur ki, o, sözün əsl mənasında şairdir!

"Allaha xitab" şeirindəki misralara fikir verin:

Qılınclar enir üstümə,
Sən də mənə qalxan ol!
Allah, mənim arxam yoxdur,
Başım üstə arxam ol!

Bu misraların müəllifinə arxa durmamaq, kömək olmamaq, qayğı göstərməmək ən azından günahdı, günahdan beşbetər günah!!!

Mən söylədiyim bu fikirlərlə Əlizadə Nurini əzizləmək xəyalından uzağam. Şair döyüşdə, mübarizədə, ədəbiyyat cəbhəsinin odlu-alovlu səngərlərində vuruşa-vuruşa özünə yol açmalı, özünü təsdiq etməlidir. Ancaq özünütəsdiqə qədər həmişə, hər yerdə qayğı, dəstək olmalıdır ki, o, məcbur olub deməsin ki:

Dostu Əzrayıldı, özü kimdi bəs,
Quru bir budaqda solğun bir nəfəs.

Özünü asmağa ip tapa bilməz,
Asar ürəyinin damarlarından!

Deməsin ki:

Yüz dəfə öldüm, dirildim,
Bu adam adam olmadı.
Çıraq oldum, işığımı
Asmağa bir dam olmadı.

Deməsin ki:

Vətən, qəfəsinə düşmüşəm əsir,
Qəfəsə salmağa quşun yoxdumu?
Başıma düşməyə daşın müntəzir,

Evimə hörməyə daşın yoxdumu?

Belə olanda şair dünyadan küsür, taledən inciyir, qələm əlində buza dönür, yeni yaradıcılıq eşqi ilə qanadlanmaq üçün özündə güc tapa bilmir.

Hər gün göy üzünə məktub yazıram,
Ancaq ki, atmağa bir qutu yoxdur.
Mənim bu dərdimə ad qoyulmayıb,
Mən olan dünyanın Qorqudu yoxdur.

Haqsız da dünyada haqdan ölərdi,
Dağ çayı yıxılıb dağdan ölərdi.
Dünya istəsəydi çoxdan ölərdi,
Ancaq özü boyda tabutu yoxdur.

Əlizadə Nurinin bu şeirləri misra-misra, söz-söz tale şeirləri, tale yazılarıdır. Bu şeirləri oxuyanda duyumlar, deyimlər, yeniliklər qarşısında heyran qalmamaq, poetik təfəkkür imkanlarının yeni çalarları qarşısında sözün böyük mənasında təslim olmamaq, şairə ürəkdən "əhsən" deməmək qeyri-mümkündür.

Şairin elə şeirləri var ki, cəmisi səkkiz-on misradan ibarətdir. Ancaq bu misraların məna tutumu az qala

insan nəslinin bütün dövrlərini əhatə edir. Səkkiz misralıq "Şəcərə" şeirinə fikir verin:

"Haralısan?" deyirsən,
Tənha oğlu təkdənəm.
Ulu eşq nəslindənəm,
Söz yaranan kökdəyəm.
Əkizik, bu qəm ilə,
Mən eyni bələkdənəm!
Həm dünənəm, həm bu gün,
Həm də gələcəkdənəm...

"Haralısan?" Bu sual səslənən kimi istər-istəməz bizdə – oxucuda xoşagəlməz bir əhvali-ruhiyyə yaranır. Ancaq şair çox böyük ustalıqla bu sualı tamam başqa bir istiqamətə yönəldir, bu fikrə yeni bir biçim verir. Sualın cavabı belədir: Mən bu suala sığışmıram. Tək olan Allahın bir parçası kimi təklərdənəm. Yaradanın yaradılan bəndəsiyəm. Allah ilk dəfə sözü yaratdı. Mən söz adlanan ilkdən, əzəldən, kökdən gəlirəm. Qəm ilə əkiz doğulmuşam, bələyimiz eyni vaxtda, eyni gündə bələnib. Mən bir insan olaraq həm bu günəm, həm gələcəyəm. Təxminən ulu babası Nəsimi kimi "gövhəri laməkan mənəm, kövnü məkana sığmaram" – deyir Əlizadə Nuri!

Tam səmimiyyətlə deyirəm, Əlizadənin elə şeirləri var ki, həcmindən asılı olmayaraq o əsərlərin canında bir dastanlıq mətləb yatır. Təkcə böyük istedad sahibi Ramiz Rövşənə yazdığı "Sən evi neynirsən, evi tikilmiş" şeiri kitablara sığmayan mətləblərdən xəbər verir, Ramiz Rövşəni tərifləmir, poetik detallarla onun böyüklüyünü bir evin timsalında bir dünya kimi təqdim edir:

Evsiz-eşiksizdi göydə xalıq da,
Sulara bürünüb yaşar balıq da.
Bu qurd-quş ulayan xarabalıqda,
Sən evi neynirsən, evi tikilmiş.

Sözün dodaqlarda qaldı – bəsindi,
Nəğməni quşlar da aldı – bəsindi,
Bir tənha söyüdün altı bəsindi,
Sən evi neynirsən, evi tikilmiş.

Əhsən, hər iki şair dünyasının böyüklüyünə! Hər evdə söhbəti gedən şairin evinin ev yox, dünya olduğunu bundan gözəl necə vermək olar!

Yerin dərdi nə boydadı,
Xalqdan başqa kim bilir?
Dəniz suyunun dadını,
Balıqdan başqa kim bilir?
Qocanı necə cırnatmaq olar,
Qarıdan başqa kim bilir?
Ən ətirli gül hansıdır,
Arıdan başqa kim bilir?

Bu poetik və turşməzə suallarda canlı və diri bir həyat var. Bu həyatı bu şəkildə ancaq şair görə və göstərə bilər. Qarabağ dərdi, Şuşa faciəsi haqqında poeziyamızda ara-sıra poetik, düşündürücü tapıntılara rast gəlirik. Bu mövzuda Əlizadə Nurinin "Papaq" şeiri daha tutarlı, daha güclü deyilib. Qarabağ faciəsini, yəqin ki, bundan gözəl ifadə etmək çox çətindir. Oxuyun, ibrət götürün:

Başından papağı düşüb dağların,
Dağların könlünə bu bir dağ olub.
O kimdi – papaqsız qaldığı gündən
Peşəsi telini daramaq olub.

Satdıq papağı da o torpaq kimi,
O kimdi, yer verdi xaça yerindən?
Çəkib xaç suyuna bizim papağı,
Asdılar Şuşanın uca yerindən.

Çox ağrılı deyilib.

Açıq etiraf edirəm ki, şair dostumun şeirlərinin əksəriyyəti həddən artıq ağrılı olduğuna görə bəzən bir oxucu kimi sarsılıram, axıra qədər kədər burulğanına düşüb boğuluram və bir az havamı dəyişmək, nəfəsimi dərmək, ruhumu təzələmək istəyirəm. Hardasa qəmin içində bir sevinc axtarıram. Onda yenə də şair özü mənim dadıma çatır. Aşağıdakı misraları oxuyanda bir az yüngülləşirəm:

Yayda Günəş ilə dodağı qaçar,
Qar olar Tanrının qış təbəssümü.
Dimdiyi ucunda dəni görəndə,
Nə xoşbəxt olurmuş quş təbəssümü.
Çox şey gərək deyil xoşbəxtlik üçün,
Bəsdi bir körpənin xoş təbəssümü.

Şairin özünün dediyi kimi, mən də onun yaradıcılığında təkcə qəmin, kədərin, qaranın yox, həm də sevincin, vüsalın, ağın, işığın bol-bol çalarlarını görmək istəyirəm və inanıram ki, onu da görəcəyəm.

Yaxşı ki, qanadı bir cütdü quşun,
Yaxşı ki, tüfəngin tək lüləsi var.
Kibrit çöplərindən ev tikənlərin,
Evinin alışmaq təhlükəsi var.

Mən şair dostumun yaradıcılığını kibrit çöplərindən tikilən və bir çınqı alovdan alışıb külə dönən ev kimi yox, ucaldıqca ucalan, oddan-sudan, yağışdan-tufandan, zəlzələdən, qasırğadan qorxusu olmayan uca söz sarayları kimi görmək istəyirəm. Bu, nə qədər çətin və zor iş olsa da, Əlizadə Nuri ilhamı bu işin öhdəsindən gəlmək gücünə malikdir. Yol uzun, meydan geniş, arzular tükənməzdir.

Özü bir bayatıda insan – sənətkar taleyi haqqında çox uğurlu bir deyim işlədib:

Mən aşıq, gecə yarı,
Ay doğdu gecəyarı.

İnsan qızıl tozudu,
Bilinər gec əyarı.

Gec gələn, güc gələn, halallıqdan su içən şöhrət daha şirin olur. Bütün varlığımla inanıram ki, şairin əyarı, qiyməti də bilinəcək, çünki onun yaradıcılığında qondarma heç nə yoxdur. Nə varsa təbiətin özü qədər təbii, cəmiyyətin özü qədər realdır. Sevimli şair dostuma müqəddəs yaradıcılıq yollarında əyarı həmişə üstündə olan, heç vaxt bədii dəyərini itirməyən yeni-yeni əsərlər, işıqlı, poetik duyğular arzulayıram!

***2011, 15 iyun***

## YARALI XATİRƏ

1983-cü ilin yaz fəsliydi. "Bir ay yarım novbahardan keçəndə" dağları gəzmək həvəsinə düşmüşdüm. Ulu ozanımız Dədə Ələsgərlə bağlı "Göyçədən gələn səslər" adlı poema üzərində işləyirdim. O vaxta qədər bir neçə dəfə Göyçədə olmağıma baxmayaraq, yenidən bu qədim sazlı-sözlü mahalın ziyarətinə can atırdım. Elə bil ki, qan yerinə damarlarımda bu ləngərli misralar dolaşırdı: "Adım Ələsgərdi, Göyçə mahalım". Bu qoşa, bir-birinə yaraşan müqəddəs adlar gözəgörünməz bir qüvvə ilə məAni özünə çəkir, tarixi bir ünvana çağırırdı:

Şeh düşdü göy çəmənə,
Göz vurdu göy çəmənə.
Ələsgəri səslədim,
Səs verdi Göyçə mənə.

Bu misralar ürəyimdə o zaman baş qaldırmışdı. Bir gün tale fürsət verdi, qanadlandım o səsin gəldiyi tərəfə. Kəlbəcərdən Qazuçan yoluyla aşdım Göyçəyə. Heyrətdən doğan məhəbbət, məhəbbətdən doğan heyrət bir-birinə qarışmışdı. Cığırları, çəhlimləri, yolları, izləri bir-birinə qata-qata yeriyirdim. Uçurdum ulu səsin, ulu sözün, ulu sazın dərgahına doğru. Heyrətlənmişdim. Bu qədim torpağı-mızda Ələsgərin ayağıyla yeriyir, qarlı zirvələrə onun gözləriylə baxır, gülə-çiçəyə, daşa-qayaya onun əlləriylə toxunurdum. Göyçə təbiəti də öz növbəsində Aşıq Ələsgərə dönüb məni doğma övladı kimi bağrına basırdı. Söhbətimiz yaman tutmuşdu. Ələsgər ocağında ustadın nəvəsi, hörmətli alimimiz İslam Ələsgərzadənin evində unudulmaz görüşlər, məclislər bir-birini əvəz edirdi. Aşıq Ələsgərin sonbeşik oğlu Aşıq

Talıb rəhmətə getmişdi. Səsinə, sazına, söhbətlərinə maqnitofon lentində qulaq asırdıq. “Ustad oğlu şəyird olmaz” – deyiblər. Aşıq Talıbın söhbətləri Ələsgərin sirli-sehrli yaradıcılığına ayna tutur, düyünlü nöqtələri açır, gizli mətləbləri aşkarlayır, dəfələrlə eşitdiyimiz şeirlərin hamısında yeni məna çaları ilə qanımıza axır, varlığımıza hopurdu. Aşıq Talıbın söhbətlərinə ustadın nəvələri – şair qardaşımız İsmixan, Haqverdi Talıboğlu, İslam müəllim, Ələsgər ocağının sədaqətli dostu Həbib müəllim yeri gəldikcə öz əlavələrini, naxışlarını vurur, məclisimizi yaddaşlara yazırlar.

Gecələrin birində Ələsgər ocağının xeyir-duasını almaq, fikirlərini bilmək, məsləhətlərini eşitmək üçün “Göyçədən gələn səslər” poemasını oxudum. Hamı bir ağızdan ürəklə xeyir-dua verdi, mənə unudulmaz sevinc bəxş elədi. Bu tarixi günü xatirəyə çevirmək üçün məsləhət oldu ki, Ələsgərin məzarı başında şəkil çəkdirək. Nə yaxşı o şəkil çəkildi. Nə yaxşı o günləri yaşaya bildik.

Birdən-birə hər şey tərsinə döndü. Elə bil o günlər yalan imiş. Bir də gözlərimi açanda gördüm Göyçə dağılıb. Məni Göyçəyə çağıran bayatını tale yenidən tərsinə yazdırdı:

Şeh düşdü göy çəmənə,
Göz vurdu göy çəmənə.
Ələsgəri çağırram,
Səs vermir Göyçə mənə!

İstər-istəməz Aşıq Talıbın bir şeirini xatırladım:

Dilimin əzbəri andım, amanım,
Daha sağlığına yoxdu gümanım.
Ölüb Ələsgərim, itib İmanım,
Dolanıram heç bir yanı tapmıram.

İtkin düşən İmanın dərdindən göyüm-göyüm göynəyən Aşıq Talıb bir mahalın itkisini görsəydi, görəsən, nə

hala düşərdi. Taleyin işinə bax! Göyçədə Ələsgəri ziyarət eləmək Bağdadda Füzulini, Hələbdə Nəsimini ziyarət eləməkdən qat-qat çətin oldu. Bütün ağrı-acılarımıza baxmayaraq, inanıram ki, bir gün bizi o yerlərə yenə Ələsgərin ruhu qaytaracaq! Göyçənin bəxtəvərli günlərində çəkdirdiyimiz şəkli yaralı bir xatirə kimi "Mədəniyyət" qəzetinin hörmətli oxucularına təqdim edir və sözümü Aşıq Ələsgərə həsr elədiyim bir şeirlə tamamlayıram.

Könlümdə yaşadıb könül varını,
Sazımı eşqinlə çalmışam, ustad!
Aylarla oxuyub qoşmalarını,
İllərlə xəyala dalmışam, ustad!

Bağlanıb varlığım qıfılbəndinə,
Tilsimdi, sehrindən qopa bilmirəm.
Bağlama demisən, bircə bəndinə,
Bir ömür qoymuşam, aça bilmirəm.

Ürəyin yanğısı tellərə düşüb,
Cinas ilmələnib, təcnis toxunub.
Yazıya düşməmiş dillərə düşüb,
Ellərin dilində əzbər oxunub.

Sən elə qatmısan balı qaymağa,
Dadan ləzzətindən doymur, ay ustad!
Sözün şöhrətini elə, oymağa,
Hamı sənin kimi yaymır, ay ustad!

Baxdım yaratdığın misraya, bəndə,
Nə memar işidir, nə zərgər dedim.
Dilim söz tutanda, ağlım kəsəndə,
Ələsgər çağırdım, Ələsgər dedim!

***"Mədəniyyət" qəzeti, 11.07.1991***

## DƏDƏ HƏSRƏTİ

Xeyli zamandır ürəyimi bir həsrət göynədir. Dədə Şəmşir həsrəti. Ola bilərmi ki, on il ata-oğul, ağsaqqal-cavan, ustad-şagird kimi nəfəs-nəfəsə, üz-üzə, göz-gözə dayandığın kamil bir ustaddan ayrılasan, göynəməyəsən, kövrəlməyəsən. Vaxt vardı ki, əlini öpüb, gözümün üstünə qoyardım, indi torpağını öpüb gözümün üstünə qoyuram.

Həyatda yadigar qoyub getdiyin,
İzəm, nişanəyəm, ləpirəm, ustad!

Ağsaqqal, nurani, pirani bir kişi idi Dədə Şəmşir. Ömrünün 87-ci ilində onun ruhu da Dədə Qorqudun ruhuna qovuşdu.

Rəhmətlik həmişə deyərdi, ocaqdan çıxmaq hara, bucaqdan çıxmaq hara. Deyərdim, ay Dədə, zəhmət olmasa, bu məsələni bir az xırdala. Deyərdi, oğul, yadında saxla, lazım olar. Mənim ulu babam məşhur el şairi Miskin Abdal olub. O Miskin Abdal ki, Növrəs İman:

Yaxşı bəyənmişəm Miskin Abdalı,
Cəm olub başında ağlı-kamalı.

– deyib, ona böyük qiymət verib. Miskin Abdalın nəvəsi Ağdabanlı Aşıq Qurban olub. Qurban kişi də bilirsən ki, mənim atamdı. Oğullarımdan, nəvə-nəticələrimdən də nigaran deyiləm, bilirəm ki, bunlardan kimsə saz-söz ocağını sönməyə qoymayacaq, onu daha da şənləndirəcək. Bax mən ocaq deyəndə nəslimizin kökünə, budağına işarə verirəm, oğul.

Saysız-hesabsız görüş və söhbətlərimizdə iki ad dilindən düşməzdi Dədə Şəmşirin. "Ələsgər əmi" dediyi Aşıq Ələsgərin və "Səməd" dediyi Səməd Vurğunun.

Aşıq Ələsgəri xatırlaya bilirsənmi? – sualıma cavab verəndə nədənsə əvvəlcə bir az tutular, kövrələr, sonra gülümsünərək yerişi də, duruşu da, baxışı da bugünkü gün kimi gözlərimin qabağındadı", – deyərdi. Atam Aşıq Qurbanla yaxın dost idilər. Onlar söhbətə başlayanda, məclisə girəndə daş-divar da göz-qulaq arzular, gördükcə görmək, eşitdikcə eşitmək istərdi ozan dədələrimizi. Ələsgər əmim Ağdabana gəlir deyəndə, hamı axışıb yolların qırağına tökülər, bu "Haqq vergisi"nin uca boyuna, salğarlı yerişinə tamaşa etməyə can atardı. Görən sevinər, görə bilməyən peşman olardı ki, niyə görmədim. Onların söhbətinə nəfəsimi çəkmədən qulaq asardım ki, sözlərin hamısını eşidə bilim. Heç bir hərəkət gözümdən yayınmasın. Əlim çənəmdə, dirsəyim dizimdə nə baxmaqdan yorulardım, nə dinləməkdən. Mənim heyranlığımı görəndə Ələsgər əmim gülə-gülə deyərdi: "A Qurban, deyəsən bu uşaqdan bir şey çıxacaq". Atam cavabında: "Ustad oğlu şəyird olmaz, külü küllükdən götür", – deyərdi.

Şəmşirəm, bilirəm dürr qiymətini,
Cavan qiymətini, pir qiymətini.
Zərgər olan bilər zər qiymətini,
Verin qədirbilənlərə sözümü.

– deyən Dədə Şəmşir el şairlərindən, ustad aşıqlardan söz düşəndə zərgər kimi zər sahiblərinə çox doğru-düzgün qiymət verərdi. Nə artıq, nə də əskik. Hər kəsə öz yerində, öz mərtəbəsində.

Xalqımızın böyük nəğməkar oğlu Səməd Vurğundan söz düşən kimi, ciddi bir görkəm alar, sifəti tutqunlaşar, həmişə ah çəkib deyərdi: "Tez getdi, çox tez getdi, gücümüz çatmadı onu yolundan saxlamağa". Oxuduğu bir şeir indi də qulaqlarımda səslənir:

Səndən söhbət açdı cavan bir şair,
Ahı-naləm asimana toxundu.

Könül sənsiz səbri-qərar tutmadı,
Cismim oda yana-yana toxundu.

Sənsən ürəyimi sıxan, titrədən,
Fəraqi-firqətdə alışır bədən.
Yoxdu ismarıcın gəlib-gedəndən,
Ayrılıq həsrətin cana toxundu.

Səməd Vurğunla bağlı söhbətlərə toxunan kimi, onsuz da həssas olan Dədə Şəmşir uşaq kimi ağlamaq istəyirdi.

Böyük şairin mötəbər ağsaqqallığından, tükənməz şeriyyət sahibi olmağından, kişilik sifətlərindən yana-yana danışar, S.Vurğun haqqında şeirlərini həzin-həzin oxuyardı. Sazla oxuduğu kimi, sözlə də hər şeirin yazılma tarixi ilə bağlı bir-birindən şirin xatirələr dünyasına baş vurardı.

Ömrünün son illərində xəstəliyi ilə əlaqədar tez-tez Bakıya gələrdi. Bir dəfə ustad Bakıya gələndə mən şəhərdə olmamışdım, Borçalıya, doğma kəndim Kəpənəkçiyə getmişdim. Yanına gələnlərdən məni soraqlayır, görür mən gəlib çıxmadım, belə bir şeir yazır:

Qoca təbiətin hökmünə bir bax,
Loğman yurdu Mərdəkana gəlmişəm.
Qurtarır azarı bu kəskin ocaq,
Bir dərd üçün min dərmana gəlmişəm.

Minnətdaram bu dövrana, bu baxta,
İqbala, həyata, taleyə, baxta.
Hicran məndən uzaqdadır, uzaqda,
Səadətli xoş məkana gəlmişəm.

Çatanda dostuna Şəmşirin halı,
Deyin çoxalmasın dərdi, məlalı.
Kəndi Kəpənəkçi, eli Borçalı,
Xəbər verin Zəlimxana, gəlmişəm.

Aradan bir həftə keçir, kişinin nigarançılığı daha da çoxalır ki, necə ola bilər, mən on gündü xəstəxanada olam, Zəlimxan məndən xəbər tutmaya. İkinci bir şeir yazır:

Yenə düşüb ay Zəlimxan,
Mərdəkana yolum mənim.
Dostunu tapar axtaran,
Gör necədi halım mənim.

Vəfalımsan, daim var ol,
Adlı-sanlı sənətkar ol.
Həsrətimdən xəbərdar ol,
Sənə çatmır əlim mənim.

Şəmşir görsə qulaq dinci,
Şeir yazar zərif, inci.
Bakımızın uzaq küncü,
Ağdabandı elim mənim.

Borçalıdan qayıdan kimi vəziyyəti mənə xəbər verdilər. Ustadın görüşünə getdim. Ziyarət elədim. Ay vəfasız, harda qalmısan, – dedi.

Gec gəldiyimə görə üzr istədim. Vəziyyətini soruşdum. Verdiyim suala ustad şeirlə belə cavab verdi:

Zəlimxan, soruşma mənim halımı,
Necə deyim canda yara hardadı.
Ata fərzəndinə həsrət qalımı,
Bu xəstəni axtar, ara hardadı.

Ərsəyə çatmışam Murov dağında,
Çox şərbət içmişəm Daşbulağında.
Alçaq azar tapdı qoca çağımda,
Mənim kimi bir füqara hardadı.

Doğrusu, çaşıram sözümü birdən,
Azalır canımın dözümü birdən.

İtirib gəzirəm özümü birdən,
Kömək edən sənətkara hardadı.

Baxıram, görünmür Kəpəz, nə Qoşqar,
Nədən belə uzaq düşüb arılar.
Şəmşirin qəlbində hələ arzu var,
Əlim çatmır o dağlara, hardadı.

Əziz ağsaqqalımızın belə bir şeir oxuması məni çox kövrəltdi. Dedim, ustad, niyə belə nigaransan, sağlıq olsun, hər iş öz qaydasına düşəcək. Dedi, oğul, niyə kövrəlməyim, indi mənim iki dostum var, sağımda xəstəlik, solumda qocalıq. Ellər yaraşığı, məclislər bəzəyi gəlib dörd divara qısılmışam. Üstəlik də Güllü nənəndən aralı heç dözə bilmirəm.

Neyləmək olar, qoca dünya öz saydığını saydı, bildiyini elədi. Dədə Şəmşir məclisi təzədən qura bilmədi. Ancaq Dədə Şəmşirin hikmət xəzinəsi, şeir-sənət dünyası dünya üçün yadigar qaldı.

Böyük ustad ömrünün son günlərində belə mötəbərlik səviyyəsindən enməmiş, ölümündən beş gün əvvəl yazdığı şeirlərində canı, qanı qədər sevdiyi Azərbaycan torpağına, saz-söz adamlarına xeyir-dua vermiş, dünyadan gedənin dünyada qalana xoş arzusu, şirin diləyi kimi səslənən nəğmələrlə öz ömür kitabını tamamlamışdır.

"Salamat qalın" rədifli qoşma ilə ustad dünya ilə vidalaşır.

Səfalı, sərvətli, aranlı-dağlı,
Mehriban ellərim, salamat qalın.
Obalarda xoş güzəran keçirdim,
Aylarım, illərim, salamat qalın.

Səcdə edim bu müqəddəs torpağı,
Hüsnünü bəzəyir zəfər bayrağı.
Gəlir səmalardan mahnı sorağı,
Şeyda bülbüllərim, salamat qalın.

Darıxıram, kaş olaydı yanımda,
Hüseynim, Tofiqim, Bəxtiyarım da.
Saz çalmağa taqət yoxdu canımda,
Titrəyir əllərim, salamat qalın.

Dədə köçür, ay Zəlimxan, gözləmə,
Sızıldayıb, Məmməd Aslan gözləmə.
Çağlayan, gurlayan dastan gözləmə,
Kiriyib tellərim, salamat qalın.

Xəyalımda Qarabağ var, Gəncə var,
Ruhu kövrək, ürəkləri incə var.
Sinəm üstə əcəl adlı pəncə var,
Ay şirin dillərim, salamat qalın.

Kəsirim yox daha mətləb-murazdan,
Vaxt salmasın bu qurğunu tarazdan.
Muğan içir şirin Kürdən, Arazdan,
Bəzənən millərim, salamat qalın.

Üzümlü, buğdalı, pambıqlı ölkəm,
Adı tarixlərə yazılan qitəm.
Ceyranlı düzlərim, tərlanlı zirvəm,
Sonalı göllərim, salamat qalın.

O yandan Şahdağı, Qoşqar, Lənkəran,
Ürəyim Bakıdı, qəlbim Naxçıvan.
Sən canlı tarixim qədim Qobustan,
Yazılı çöllərim, salamat qalın.

Şairlər ordusu, aşıqlar dəsti,
Siz yazın-yaradın, deməyin bəsdi.
Şəmşirin bağında bir tufan əsdi,
Soluxdu güllərim, salamat qalın.

## ŞƏMŞİRLİ, ŞƏMŞİRSİZ GÜNLƏRİM MƏNİM

Tez-tez yuxularda görürəm səni. Tez-tez həyatda qarşılaşırıq səninlə. Evimdə, elimdə, dilimdə, məclislərdə, səfərlərdə, toylarda, yaslarda anıram səni. Oxuduğum nəğmədə, dediyim bayatıda, bağrıma basdığım sazda, çaldığım havalarda həmişə sən varsan, Dədə Şəmşir! Düz on il ağsaqqal-cavan, ustad-şagird, ata-oğul kimi bir-birimizə bağlı yaşadıq. Məni öz doğma balalarından seçmədin, oğlun-övladın kimi sevdin, əzizlədin, Dədə Şəmşir! Məni necə əzizlədiyini mənim haqqımda yazdığın şeirlər, mənə göndərdiyin məktublar danışır, ustad! Səni necə sevdiyimi qoy haqqında yazdığım şeirlər, nəğmələr silsiləsi, deyişmələr çələngi desin, dastanlaşmış görüşlər, hadisələr söyləsin, el ağsaqqalı! Səni ilk dəfə həyatda gördüyüm zamandan çox-çox əvvəl – Borçalı məclislərində, ustad aşıqlarımızın, Əmrahın, Kamandarın, Hüseyn Saraclının sözündə, söhbətində, əfsanələşmiş "Vurğun – Şəmşir" dastanında gözümlə görüb, qulağımla eşidib, qəlbimlə duymuşam. Kövrək uşaqlığım, zərif körpəliyim yazdığın şeirlərin ətrinə bələnib, ozan babam! Uşaq marağım, körpə məhəbbətim, təmiz niyyətim sənin görüşlərinə doğru aparırdı məni. "Niyyətin hara, mənzilin ora", – deyiblər. İllərlə gözlədiyim belə bir gün gəlib çatdı. Bakıda Aktyor evində 80 yaşını qeyd etmək üçün hazırlıq işləri gedirdi. Günlərin bir günündə yaxşılıqlarını heç vaxt unutmadığım, neçə-neçə qayğısını gördüyüm unudulmaz xalq şairimiz Osman Sarıvəlli Yazıçılar İttifaqında məni görüb, öz iş otağına dəvət elədi. Özünəməxsus qayğı və səmimiyyətlə – hazırlaş, Aşıq Şəmşirin 80 illiyində gənc şairlər

adından sənə söz verəcəyəm! – dedi. Ustad şairə minnətdarlığımı bildirib, otaqdan necə çıxdığımı bilmədim. Sevincimdən yerə-göyə sığmırdım. Uçmağa bircə qanadım çatmırdı. Bu şad xəbər məni universitetə, tələbə yataq-xanasına doğru yel kimi uçururdu.

Dillər əzbəri olan şeirlərinin birində belə demişdin, Dədə Şəmşir:

Şəmşiri axtarıb görmək istəsən,
Verdiyin ilqara gəl vədəsində!

Mən də bu poetik tapşırığa əməl edib, xalqımız sənin ad gününü bayram elədiyi bir vaxtda sənin görüşünə, ziyarətinə gəlmişdim.

O məclis indiyə qədər gördüyüm məclislərin bəlkə də ən gözəli, ən şiriniydi. Məclisə kimlər gəlməmişdi. Mirzə İbrahimov, Süleyman Rəhimov, Əli Vəliyev, Nəbi Xəzri, Hüseyn Arif, Balaş Azəroğlu və adını çəkmək, sadalamaq imkan xaricində olan nə qədər yazıçı, şair, sənət adamı, saz-söz vurğunu, sənət fədaisi. Yubiley məclisinə Osman Sarıvəlli ağsaqqallıq edirdi. Səməd Vurğun – Aşıq Şəmşir söhbəti məclisin cazibə qüvvəsinə çevrilmişdi. Səməd Vurğun cismən o məclisdə iştirak etməsə də, mənən bütün çıxışların qəhrəmanına çevrilmişdi. Böyük şairin ömründən böyük aşığın ömrünə düşən qayğılar ən şirin nağıllar kimi danışılır, ən gözəl xatirə kitabı kimi varaqlanırdı. Bu tarixi görüşün yaşca ən kiçik nümayəndəsi kimi söz demək şərəfi mənə də çatdı. Daxilən çox çılğın və həyəcanlı olsam da, sözümü, fikrimi xalqa çatdıra bildim. Gur alqışlar içində səni bağrıma basdım. Ata-oğul kimi qucaqlaşdıq. O gecə oxuduğum şeirlərdən birini yenidən xatırlamaq yerinə düşər. Ruhun şad olsun, ozanlar ozanı!

Aşıq el oğludu, el anasıdı,
Qəlbindən fərəhlə, qəm şirə çəkər.
Bağban da özüdü, bağ da özüdü,
Həm çiçək bitirər, həm şirə çəkər.

"Yanıq Kərəmi"ni gətirsən dilə,
Əriyər odunda dağ gilə-gilə.
İncə barmaqların dad verər zilə,
Usta əllərindən bəm şirə çəkər.

Zəlimxan yollarda min köhlən yora,
Qəlbi düşən deyil heç zaman tora.
Çəkməz nanəcibə, çəkməz nankora,
Çəksə Ələsgərə, Şəmşirə çəkər.

Məni Ələsgərə, Şəmşirə çəkən duyğular zirvə qarının təmizliyindən, dağ çeşməsinin saflığından, Göyçənin köklü-budaqlı, sazlı-sözlü torpağından, Dəlidağdan, Ceyran bulağından mayalandı, ömürlük yol yoldaşıma, könül sirdaşıma çevrildi, həmin tarixi gecəni həmişəlik yaddaşıma yazdı. O gecədə el ağsaqqalı, şair dostum Şamil Əsgərin həyəcanlı çıxışı heç vaxt yadımdan çıxmaz. Şamil müəllim böyük səxavət və məhəbbət hissiylə bütün yubiley iştirakçılarını Kəlbəcərə – aşığın saz-söz bayramına dəvət edirdi. İndi Şamil müəllimi Bakının küçələrində, xeyir-şər məclislərində görəndə ürəyim göynəyir, qəlbim sızıldayır. Onun Kəlbəcərdəki evi Azərbaycan mədəniyyətinin, tarixinin, poeziyasının beşiyi idi. Rəhbərlik etdiyi Kəlbəcər diyarşünaslıq muzeyi dünyanın əvəzsiz incisi idi. Çox-çox təəssüflər olsun ki, Allah vergisi olan sərvətlərimizi biganəliyimizə qurban verdik. Nə isə... qayıdaq mətləbə.

Aradan illər keçdi. 1979-cu ildə Aşıq Şəmşirin anadan olmasının 85 illiyi Kəlbəcərdə qeyd edilirdi. Rayon Mədəniyyət evində ayaq basmağa yer yox idi. Burda keçirilən yubiley gecəsi sözün həqiqi mənasında mənəvi zirvə sayılan bir tədbir idi. İndiki millət vəkili, o zaman Kəlbəcər rayon partiya komitəsinin birinci katibi işləyən, yaxın dostum İnqilab Nadirov çox böyük təşkilatçılıq işi görmüş, bütün rayonlardan qonaqlar dəvət

eləmişdi. Tədbirə Bakıdan – Yazıçılar İttifaqından, müxtəlif təşkilatlardan xeyli adam gəlmişdi. Aşıq Şəmşir sənətinin dostları – Məmməd Aslan, Hüseyn Kürdoğlu, Nüsrət Kəsəmənli, Famil Mehdi, Fikrət Sadıq, Səyavuş Sərxanlı və başqaları öz yaddaqalan çıxışları ilə o məclisi tarixə çevirib yaddaşlara yazdılar. El şairi Əli Qurbanovun odlu-alovlu çıxışı indi də qulaqlarımda səslənir. Kəlbəcər aşıqlarının bir-birindən gözəl çıxışları qocaman aşığın həmişəcavan duyğularını bütün Azərbaycana çiçək kimi səpmək istəyirdi. Aşıq Şəmşirin çıxışı, söhbəti Səməd Vurğunun valdan eşidilən dağ çayı kimi ləngərli, axar-baxarlı səsinə qarışıb sehrli və doyumsuz bir mənzərə yaratdı. Kəlbəcər ömrünün ən xoş günlərini yaşayırdı. Mübaliğəsiz deyə bilərəm ki, mənim ömrümün də ən gözəl çağlarının bir hissəsi o vaxtdan sonra Kəlbəcərlə bağlandı.

Dəfələrlə ilahi gözəlliklərin – çayların, çeşmələrin, İstisuyun, Dəlidağın, Başlıbelin, Taxtadüzün, Tərtərin, Ağdabanın eşqi ilə səfərə çıxdım, ziyarətə getdim. Bütün bu ziyarətlər Dədə Şəmşirlə, Güllü nənə ilə, Qəmbər müəllimlə, Ələsgərlə, Rəşidlə, Ağdabanlı Aşıq Qurban ocağının dünəni və bu günü, gələcək taleyi ilə bağlı olurdu. Dədə Şəmşirin sonbeşik oğlu Rəşidin toyunda Ağdabanda keçirdiyimiz günlər, görüşdüyümüz sənətkarlar bir dastanlıq sözün-söhbətin mövzusudur. Hər görüşdə, hər söhbətdə Aşıq Şəmşirin şair və aşıq, ustad və ozan ömrünün yeni bir hikməti açılır, təzə bir çaları üzə çıxırdı. "Ustad görməyənin işi xam qaldı" deyiminin nə qədər ilahi bir gücə qadir olduğunu ustadı hər dəfə yenidən kəşf edəndə daha geniş anlamda başa düşürdüm. Heç bir kitabda oxumadığım, heç kəsdən eşitmədiyim Allah kəlamları, ustad deyimləri, dinimizin və dilimizin qüdrətiylə bağlı xoruz səsi eşitməyən mətləblər vardı Dədə Şəmşirdə. Bizim biganəliyimizin ucbatından hamısını özü ilə apardı.

Kəlbəcər və Şəmşir sözləri mənim üçün suyla torpaq kimi, közlə ocaq kimi, sözlə dodaq kimi bir-birinə yaxın və doğma sözlərdir. Çünki Allah-təala Kəlbəcəri xəlq edəndən bu günə kimi Kəlbəcər heç bir aşığın, şairin, ziyalının dilində Aşıq Şəmşirin dilində olan qədər poetik yüksəkliyə, mənəvi ucalığa qalxıb, poeziyanın mənəvi sərvətinə çevrilməyib.

Qartal düşüncəli, şair xəyallı,
Tərlan yuva salan dağlar oğluyam.
Anam İstisudu, atam Dəlidağ,
Uçurumlu sərt qayalar oğluyam.

Dəlidağa ata, İstisuya ana deyən, tərlan yuvasını özünə dünya bilən ustad sənətkarımızla hər görüş, hər ayrılıq neçə-neçə şeirin, əsərin yaranmasına səbəb olurdu. Ustadın görüşünə gedəndə ürəyimdən bu misralar keçirdi:

Təbiətin ürəyindən od aldı,
Həm Fərhadı, həm Şirini dağların.
Sinəsində enər-qalxar avazlar,
Zil şöhrəti, bəm şirini dağların.

Bulağı var, gözlərimdə dənizdi,
Çiçəyi var, bir solmayan bənizdi.
Mənə iki gözüm qədər əzizdi,
Həm acısı, həm şirini dağların.

Nə yorular, nə bu yoldan bezərəm,
Ömrü-günü nəğmələrlə bəzərəm.
Ana yurdu Vurğun deyib gəzərəm,
Unutmaram Şəmşirini dağların.

Ustad məni Kəlbəcərə elə həvəslə çağırırdı ki, bu çağırışlar, görüşlər necə şeirə, şeriyyətə çevrilməsin:

Şair oğlum, Kəlbəcərə qonaq gəl,
Qədəmlərin gül üstündə yerisin.

Bir görüşün bir dastana sığışmayan sözündən-söhbətindən sonra Dədə Şəmşirin sazını bağrıma basıb ustadla belə vidalaşırdım:

Kəlbəcər dağları, salamat qalın,
Meylimi düzlərə salıb gedirəm.
Zirvələr önündə əyib başımı,
Dərin bir xəyala dalıb gedirəm.

Dünya yarıtmadı məni payından,
Nə ilindən doydum, nə də ayından.
Ceyran bulağından, Tərtər çayından,
Vurğunun ətrini alıb gedirəm.

Zəlimxan, alışıb yanmaqdır peşəm,
Gərək Fərhad olub qayalar deşəm.
Qurban ocağında közə dönmüşəm,
Şəmşirin sazını çalıb gedirəm!

Mən "gedirəm" deyəndə, ustad "getmə!" – deyirdi. Duyğularım o qədər qanadlı, hislərim o qədər duru olurdu ki, kişinin ağzından çıxan hər söz, hər kəlmə mənim təzə bir şeirimin yaranmasına səbəb olurdu. Yaxşı yadımdadır, o, "getmə" deyəndə "Qaytarma" üstündə mən bu sözləri oxuyurdum:

Su içmişəm bulağından dağların,
Bulaq olub süzülməmiş getmərəm.
Yazın xeyli həsrətini çəkmişəm,
İntizardan üzülməmiş getmərəm.

Vurulmuşam şimşəklərin oynuna,
Sığınmışam çəmənlərin qoynuna.
Misralarım çiçəklərin boynuna,
Muncuq kimi düzülməmiş getmərəm.

Gözüm qalıb naxışında, zehində,
Daranmışam küləyində, mehində.

Qoy islanım yağışında, şehində,
Dolusunda əzilməmiş getmərəm.

Aran anam, yaylaq bacım, dağ atam,
Gərək hər gün qanad açam, tağ atam.
Şeirim olub düzə ləzzət, dağa tam,
Bu yerlərə yazılmamış getmərəm!

Kəlbəcərdən ayrılsam da, cığırlarda izim, qayalarda səsim qalırdı. Kəlbəcər xatirəli, Şəmşir qanadlı duyğularla Borçalıya uçur, Bakıya qayıdırdım. Aşıqlığı, şairliyi, ağsaqqallığı qədər ürəyi də böyük idi Dədə Şəmşirin. Təkcə məni yox, bütün Azərbaycan şairlərini, ustad aşıqlarımızı, görkəmli ziyalılarımızı Kəlbəcərdə Kəlbəcərin özü qədər böyük sevgi və səxavətlə qarşılayardı böyük ustadımız. Bu sevgi və səxavət göydən düşməmişdi, onun kökündən, soyundan, nəsil şəcərəsindən gəlirdi. Rəhmətlik həmişə deyərdi ki, insan bucaqda yox, ocaqda böyüyər, külü küllükdən götürərlər. Şah İsmayıl Xətaidən, Miskin Abdaldan, Ağdabanlı Aşıq Qurbandan Şəmşirə qədər gələn bu köklər-budaqlar Azərbaycan mənəviyyatının dərin qatlarından xəbər verir. Allah Kəlbəcəri Şəmşirə, Şəmşiri də Kəlbəcərə xəncərə gümüş kimi yaraşdırmışdı.

Təəssüflər olsun ki, uzun illər ötəri-itəri vıyıltılara baş vermişik, sənətin özəyi, cövhəri, mahiyyəti ilə yox, bəzəyi, parıltısı ilə məşğul olmuşuq. Neçə-neçə görkəmli sənətkarımızın yaradıcılığı və şəxsiyyəti elmi və bədii nöqteyi-nəzərdən arzu olunan səviyyədə araşdırılmayıb, öyrənilməyib. Bu da bizə çox-çox baha başa gəlib. Tale Kəlbəcərli, Şəmşirli günləri bizə çox gördü. Əvvəlcə Şəmşirsiz qaldıq, sonra Kəlbəcərsiz! Dilim qurusun Allah, Allah! Kəlbəcərsiz də Azərbaycan olarmı? Aşıq Şəmşirin yanına üzüqara getməmək üçün igidlərin, şəhidlərin qanı bahasına olsa da, bütün Azərbaycan torpağı, o cümlədən Kəlbəcər əvvəlki günlərinə və

əvvəlkindən də yaxşı vəziyyətə qayıtmalıdır! Bunu bizdən düşmən tapdağı altında inləyən, əzab çəkən Ələsgərin, Vaqifin, Natəvanın, Sarı aşığın, Şəmşirin müqəddəs ruhları tələb edir.

Ömrünün son illərində tez-tez xəstələnərdi. Bir neçə dəfə müalicəsi ilə bağlı Bakıya, Mərdəkana gəldi. Bu gəlişlərin hamısında onunla olmağa can atar, ustadı darıxmağa qoymazdım. Hər görüşdə onu bir şəxsiyyət kimi yenidən kəşf edərdim. Ağrısını büruzə verməz, şeirdən, sənətdən şirin söhbətlər açar, kövrək xatirələrə baş vurar, Ələsgərin, Vurğunun adı dilindən düşməzdi. Uşaqlığında Ələsgəri, cavanlığında Vurğunu görən Dədə Şəmşir Ələsgərə "Ələsgər əmi", Səməd Vurğuna "Səməd" deyərdi. Xalqın yaddaşında dastanlara çevrilən söhbətləri kitab kimi yenidən varaqlayardı. Möcüzəli yaddaşı vardı. Yaşı doxsanı haqlasa da, şeir oxuyanda qətiyyən çaşmazdı. Günlərin birində Dədə Şəmşirdən xahiş elədim ki, Səməd Vurğunlu günlərindən söhbət elə. Ustad cavabında bildirdi ki, Səməd Vurğunla bağlı xatirələrim hamıya məlumdu. Məndən Səməd Vurğunsuz günlərimin xatirəsini soruş. Xeyli fikrə getdi. Qaşları çatıldı, bir azdan dodağına nurlu bir təbəssüm gəldi. Fikirli-fikirli dedi: Səmədi Allah əlimizdən çox tez aldı. Onun ölümü bir çox el sənətkarlarının mənəvi ölümünə səbəb oldu. Qəlbinin telləri saz üstündə köklənmiş şairlərin, aşıqların çoxunu yetim qoydu Səməd. Səməd Vurğundan böyük qayğı və məhəbbət görən el adamlarının çoxu sonralar adını şair qoyub. Böyük vəzifə və imkan sahibi olan adamlardan soyuq və ögey münasibət görüb həyatdan və yaradıcılıqdan küsdülər.

Bu da bizə, şəxsən mənə çox ağır təsir elədi. Yaxşı ki, Səməd Vurğunun mənimlə bağlı vəsiyyətini Osman Sarıvəlli yüksək ləyaqətlə yerinə yetirdi.

Mənim kitabımı çap etdirmək istəyən Səməd Vurğunun arzusunu Osman Sarıvəlli öz öhdəsinə götürdü və

bu işin öhdəsindən gəldi. Səməd Vurğunsuz günlərimdə çox əziyyətlər, biganəliklər gördüm, danışsam çox gedər, bu mövzuda başqa şeirlərimlə yanaşı, bir təcnis də yazmışam:

Kim küsər oldusa halal payından,
Əlinə nə əppək, nə kökə düşdü.
Artıq tamah ayrı düşdü tayından,
Çöpü nə arığa, nə kökə düşdü.

Neyləyirəm, ürək olsa bir dəmir,
Qoca aşiq ləblərini birdəmir.
Taleyin kotanı kəskin bir dəmir,
Nə daşa ilişdi, nə kökə düşdü.

Qızıl gülü bağçamızdan üz, a çıx,
Aç pərdəni, gəl məclisə üz açıq.
Yatan baxtım, cavanlığım, üzə çıx,
Gör Şəmşir qocaldı, nə kökə düşdü.

Azərbaycan aşıq şeirinin çox nadir qafiyəsi üstündə yazılan bu təcnis məni çox duyğulandırdı. Mən bu mövzuda gedən söhbətlərimizdən çox kövrəldim və ustada belə bir şeir yazdım:

Sənsiz Kəlbəcərdə darıxmazmı saz,
Yatma, bu yastıqdan dur, Dədə Şəmşir.
Ellər məclisinə bərəkət kimi,
Yağsın sifətindən nur, Dədə Şəmşir.

Ömrü uzanmasın həsrətin, qəmin,
Vaxtıdı dağlarda söhbətin, dəmin.
Gözləri yol çəkir Güllü nənəmin,
Yolun damarını qır, Dədə Şəmşir.

Gümüşü tellərə çəkilsin sığal,
Ruhuma naxışdı hər vurulan xal.

Ömrün doxsanında “Qəhrəmanı” çal,
Desinlər eşqinə kür, Dədə Şəmşir.

Gəl qoyma cavabsız sual-sorğunu,
Etmə Zəlimxanı illər yorğunu.
Ceyran bulağından soruş Vurğunu,
Məclisi təzədən qur, Dədə Şəmşir.

Şeir rəhmətliyin çox xoşuna gəldi. Növbəti görüşlərimizin birində həmin şeirə yazdığı cavabı oxudu:

Dürlü sözün nələr saldı yadıma,
Düşdü xəyalıma hara, Zəlimxan.
Ata övladına həsrət qaldımı,
Sənətkarı axtar, ara, Zəlimxan.

Sığallı tellərə nə lazım sığal,
Fəhmimdə fərasət, başımda kamal.
Bir “Cəngi” oxuyum, eşit ləzzət al,
Səs yayılsın o dağlara, Zəlimxan.

Əlimdən gedibdi həya, ismətim,
Hələ müşkül haldı sözüm-söhbətim.
Taleyim yar olsa, olar qismətim,
Yönüm düşər o dağlara, Zəlimxan.

Aşiqə müqəddəs yol budu, dostum,
Bizə ilham verən el budu, dostum.
Qurbanın saldığı yol budu, dostum,
Rəhmət böyük sənətkara, Zəlimxan.

Fikir ver Şəmşirin çəkdiyi aha,
Söz ağır gəlməsin qadir Allaha.
Vurğunu çağırmaq çətindir daha,
Qövr edir sinəmdə yara, Zəlimxan.

105 il yaşayan Aşıq Ələsgərin, 100 ildən çox yaşayan Ağdabanlı Aşıq Qurbanın davamçısı, yadigarı, övladı olan Aşıq Şəmşir 100 ili başa vura bilmədi. Dünyadan vaxtsız gedən Əkbər adlı oğlunun, Səməd Vurğun kimi böyük dostunun dərdi yaşamağa aman vermədi. Ömrünün 87-ci ilində ölüm onu yaxaladı. Ölümündən bir neçə gün əvvəl yazdığı şeirlərdə yenə bizi – dostlarını xatırlamışdı:

Bu müşkül halımda mənəm deyənlər,
Borandadı gəlsin, qardadı gəlsin.
Fani dünya Süleymana qalmayıb,
Əli xəzinədə, vardadı gəlsin.

Mənim bu dərdimə münasib dərman,
İstəkli dostlardı, sevdiyim insan.
Hüseyn Kürdoğlu, oğlum Zəlimxan,
Səyavuş Sərxanlı hardadı, gəlsin.

Dərsim aldım, kama çatdım "əmmə"də,
Var canımda bir amansız əmmə də.
Xəbər verin Kəlbəcərli Məmmədə,
Şəmşir dərdə düşüb, dardadı, gəlsin!

Ustadın çağırışına dostları və bütün Azərbaycanın şeirsevər ziyalıları səs verib özlərini Kəlbəcərə yetirdilər. Ancaq gec idi, biz ustadın son nəfəsinə yetişə bilməmişdik. Başını qaldırıb son dəfə dünyaya boylanan sənət övladı ölüm ayağında belə "özünü itirməmiş", "Salamat qalın" rədifli məşhur qoşmasında ürək dostlarının, könül adamlarının adını hörmətlə yada salmış, eli-obası, yurdu-yuvası, işıqlı dünyası ilə halal bir nəfəslə halallaşmışdı.

Ağdaban kəndinin qənşərində yan-yana dayanmış "Yeddi qardaş" dağı var. Yeddisi də bir-birindən öyməli, boylu-buxunlu. Yeddinci dağın zirvəsində bir uşaq qəbi-

ristanlığı var. Dədə Şəmşirin vəsiyyətinə görə biz onu həmin uşaq qəbiristanlığına, yeddinci dağın zirvəsinə tapşırdıq. Fikri, xəyalı həmişə zirvələrdə dolaşan bir ustadın məzarı da zirvələrə qismət oldu. Torpağın şöhrətinə, elin-obanın səcdəgahına çevrildi. Allahın işinə baxın ki, Dədə Şəmşirin dəfn günündə qar dizə çıxsa da, günəş bütün varlığını Kəlbəcərə həsr eləmişdi. Yerin nuru, göyün nuru bir-birinə qarışıb ustadı Haqq evinə gur işıqlar içində yola salırdı. O gün Kəlbəcərin ən işıqlı günü idi. Dədə Şəmşirin poeziyası kimi! O gün Kəlbəcərin ən qaynar günü idi. Dədə Şəmşirin məclisləri kimi!

Kəlbəcər faciəsi ilə bağlı məni ən çox yandıran ustadın əlyazmalarının külə-kömürə çevrilməsi oldu. Bu gün ustadla bağlı mənim yeganə təsəllim aşığın məndə olan əlyazmaları, məktubları, bir də müxtəlif vaxtlarda birlikdə çəkdirdiyimiz qiymətli şəkilləridi. Əlyazmaların külə dönməsi məni ona görə çox yandırır ki, mən dəqiq bilirdim orda nələr var. Şəmşir kişinin atası Ağdabanlı Qurbanın "Qurani-Kərim"in yazılarına bənzəyən, xəttatlıq nümunəsi səviyyəsində əlyazmalarını da görmüşdüm orda. Aşıq Şəmşir atasının əlyazmalarını özününkülərdən daha artıq bir sevgi və oğul məhəbbətiylə göz bəbəyi kimi qoruyub saxlayırdı. Xəstə Qasım demiş: "Ay hayıf, hayıf" onun qoruduğu xəzinəni biz qoruya bilmədik, min əhsən bizə!

***10.12.1993***

# AZAFLI ÇİNARI

Qəbul imtahanından kəsilmişdim. Kor-peşman, əli ətəyindən uzun Borçalıya – doğma kəndimiz Bolnis-Kəpənəkçiyə qayıdırdım. "Bakı-Tiflis" qatarının kupesində üç nəfər əyləşmişdik. Qatarın tərpənməyinə cəmisi beş-altı dəqiqə qalmış dördüncü adam da gəlib çıxdı. Ağsaçlı, ortaboylu, nurani çöhrəli bir kişi ədəblə salam verib, bizdən icazə istəyib əyləşdi. İlk baxışda bu kişiyə o qədər də əhəmiyyət vermədik. Səbəb də o idi ki, çox qızğın bir söhbətə başlamışdıq, o söhbətin kəsilməyini nə mən istəmirdim, nə də məni yaxşı tanıyan, söhbətimə aludə olan, şəxsiyyətini yaxşı tanıdığım öz kəndçilərimiz. Söhbət aşıq şeirinin gözəlliyindən, el şairlərinin Allah vergisi olmağından, sazın-sözün ilahi qüdrətindən gedirdi. Heç kəs sözümü kəsmir, nəfəs dərmədən huş-guşla məni dinləyirdilər. Allahın işinə, Tanrının yazısına, mənim xoşbəxtliyimə fikir verin. Söhbət hərlənib-fırlanıb Azaflı Mikayılın üstünə gəldi. Yadımdadı. Mən orta məktəbdə oxuduğum illərdə Borçalının ustad aşıqları Azaflı Mikayıldan çox danışır, çox oxuyur, onun həbsə düşməsindən, zindan şeirlərindən, məşhur aşıq Sadıq Sultanovun qızı, xalq hakimi Sara xanıma yazdığı məktubdan, "Dünya" adlı məşhur müxəmməsindən ağız dolusu deyib-danışır, çalıb oxuyurdular. Aşıq Hüseyn Saraclının vala yazdırdığı "Bağban olsan bir bağçaya, bağı gözlə, gözlə sən" divanisini saz üstündə avazla oxumaqdan doymazdım. Mikayıl Azaflının qoşmaları, divaniləri, gəraylıları mənim dilimin əzbəri idi. Ona görə də nə mən deməkdən yorulurdum, nə də qulaq asanlar dinləməkdən. Mən o qədər həvəslə şeirlər oxuyurdum ki, dinləyənlər özünü saxlaya bilmir, aradakı

"sağ ol", "bərəkallah", "eşq olsun" sözlərini çox ürəklə səsləndirirdilər. Səsi çıxmayan, heç bir sözümüzə reaksiya verməyən bir adam vardısa o da ən axırda bizə yoldaş olan bu ağsaç kişi idi. Ürəyimdə hərdən onu qınayırdım ki, deyəsən bu kişinin heç bu dünyadan, sazdan, sözdən xəbəri yoxdur. Sakitcə bir tərəfdə oturub qulaq asmağında idi.

Söhbət getdikcə qızışırdı. Deyəsən Ələti, Hacıqabulu keçmişdik. Heç kəs söhbətin kəsilməyini istəmir, yatmağı, uzanmağı belə yaxın qoymurdular. Gecə gecədən keçirdi. Nəhayət ki, bu ağsaç kişidən səs çıxdı. İlk sualı bu oldu:

– Oğlum, sən Azaflı Mikayılı görmüsənmi?

Dedim:

– Xeyr, o xoşbəxtlik mənə nəsib olmayıb.

– Bəs tanımadığın bir el şairini sənə bu qədər dərindən sevdirən nədir?

O dəqiqə cavab verdim:

– Borçalı məclisləri, Borçalı aşıqları!

Bu cavab kişinin çox xoşuna gəldi. Söhbətimizə qoşuldu. Borçalı aşıqlarını tərifləməyə başladı. Söhbətimiz daha da gözəlləşdi. Nəysə... dincəlib yatmaq məqamı gəldi. Hər kəs öz yerinə uzandı. Səhər-səhər qatar Tovuz vağzalına yaxınlaşanda bu nurlu kişi dedi mən burda düşməliyəm. Yuyundu, geyindi-keçindi, ağ saçlarına daraq çəkdi. Qatardan düşmək məqamı gələndə bizlə sağollaşdı. İlk görüşün son ayrılığında, son anda çox isti bir səmimiyyətlə əllərimi sıxdı, məni bağrına basıb "oğlum, axşamdan şeirlərini əzbərdən oxuduğun Azaflı Mikayıl mənəm. Bu gündən sən mənim könül dostumsan. Mən gəzərgi adamam, harda olsan səni tapacağam. Tanrı sənə yar olsun" – deyib qatardan düşdü. Mən sevincimdən, heyrətimdən yerimdəcə donmuşdum. Yuxumu görürdüm, yoxsa bu həqiqət idimi. Özümü danlayırdım ki, niyə bu fürsəti əldən verdim. Az qala

haqqında əfsanələr danışılan, qaçaqlığı, qoçaqlığı, aşıqlığı, şairliyi dillər əzbəri olan bu kişini niyə vaxtında tanımadım ki, mən susam o danışa, biz də doyunca qulaq asaq. Nəysə... fürsəti əldən qaçırmışdıq.

Aradan illər keçdi. Məclislərdə, toylarda, mağarlarda, Bakının konsert salonlarında, dost məclislərində çox görüşdük. Doğrudan da, aramızda yaş fərqi çox olsa da dosta, qardaşa çevrildik. Mənim toy məclisimdə rəhmətlik Aşıq Xanlarla, Mülkülü Həsənlə iştirak elədi. Toyuma şərəf, məclisimə başucalığı gətirdi. Dəfələrlə Tovuzda, Azaflıda evinin əziz qonağı oldum. Dəfələrlə Borçalıda Kəpənəkçi məclislərində görüşdük. Bir-birimizin şərəfinə şeirlər yazdıq. Deyişmələr yaratdıq. O deyişmələr, o şeirlər hamısı dillər əzbəri oldu.

Azaflı kəndinin girəcəyində, Mikayıl Azaflının evinin lap yaxınlığında çox nəhəng bir çinar ağacı var. Hər dəfə mən Azaflıya gedəndə, Əsrik dərəsi ilə üzüyuxarı qalxanda o çinarın yanında dayanır, əvvəlcə çinarı, sonra da çinara yaxın Azaflı Mikayılın məzarını ziyarət edir, qəmli düşüncələrə qərq oluram. Hər dəfə o çinarla görüşəndə elə bilirəm köküylə, gövdəsiylə, şaxələnən budaqları, pıçıldaşan yarpaqlarıyla mənə Azaflı Mikayıldan danışacaq. O nəhəng ağac mənim üçün təkcə möhtəşəm bir ağac deyil, həm də Mikayıl Azaflı çinarıdı. Kökündə, gövdəsində min illərin şəhdini-şirəsini, tarixini-yaddaşını yaşadan M.Azaflı çinarı.

Kim idi mənim üçün Mikayıl Azaflı?

“Haqq aşığı yaranıb ki, qəm çəkə” – deyən Haqq aşığı, “Zaman məni doğrasa da”, “Ağa qara deyəmmərəm” – deyən həqiqət carçısı, “Qoca Azaflıyam, dilim var, lalam, Təbrizdə qardaşım, Sibirdə balam” – deyən həsrət-hicran nəğməkarı, zamanın əlləriylə dönə-dönə döyülən, zindanlar küncünə atılan dərd dağı, qəm dəryası, “Özümün əllərim döydü özümü, çığnadı qəlbimi, tökdü gözümü” – deyən şikayətçi, “Ağarmayın ay saç-

larım, amandı" – deyib saçlarına yalvaran köməksiz bir Allah bəndəsi, "Gördüm bir daşqın sel aparır məni, sən demə özümün göz yaşım imiş" – deyən Füzulinin "Şikayətnamə"sindən sonra ən böyük şikayətnamələr müəllifi, "Zəmanə seçməsə haqqı nahaqdan, Dövrandan küsməyim, bə kimdən küsüm" – deyən zəmanə küskünü, "Ömrümün baharı sır-sıra bağlar, sərt tufan qocaltdı, mən qocalmazdım" – deyən gözləri odlar görmüş xalqın dərd daşıyan qocası, sənət dağlarının qoca qartalı, Aşıq Hüseyn Bozalqanlının, Aşıq Nəcəfin, Xəyyat Mirzənin, Aşıq Mirzə Bayramovun ləyaqətli varisi, mənəvi davamçısı, XX əsr aşıq sənətinin Dədə kişilərindən biri, Zəlimxanın yol yoldaşı, könül sirdaşı, xəyali həmsöhbəti. Mən onu görmüşdüm, məclislərdə, səfərlərdə, Bakıda, Borçalıda, Kəpənəkçidə, Keşəlidə...

Mən onu görürəm arzuda, xəyalda, gələcəkdə, dünyaya Haqq aşiqi kimi gələnlərin ürəyində. Mən onu eşidirəm sazda, sözdə, havacatda, laylada, oxşamada. Mən onu yaşadıram ürəyimdə, söhbətlərimdə, xatirələrimdə, yaddaşımda.

Mikayıl Azaflı sənəti, onun şəxsiyyəti və şəxsi keyfiyyətləri öyrənilməyə və öyrədilməyə layiq olan bir məktəbdir.

O məktəbin şagirdi, tələbəsi nə qədər çox olsa, bir o qədər xalqın, millətin, sənətin, ruhun, yaddaşın və gələcəyin xeyrinədir. Öyrədənlərə və öyrənənlərə eşq olsun!

Ulu ozanın, böyük xalq şairinin, el aşığının ruhuna salam olsun!

Əbədiyyət yolunun yolçularına uğurlar olsun!

***22.3.2007***

# BORÇALI AŞIQ MƏKTƏBİ HƏMİŞƏ DİRİ VƏ DURUDUR

***(2005-ci ildə Bakıda işıq üzü görmüş "Borçalı aşıqları" kitabına yazılmış ön söz)***

Borçalı aşıqları ifadəsi mənim üçün həyat sözü, tale sözü, Tanrı sözü, ozan sözü qədər əziz, şirin və müqəddəsdir. Mən gözümü açıb bu dünyaya gələndə qulağıma gələn xoş sədalar içində bəlkə də elə ən müqəddəs ifadələrdən biri Borçalı aşıqları ifadəsi idi. Bu sözü mən hələ bu aşıqların üzünü görməmişdən əvvəl lap uşaqlıqdan babalarımdan, əmilərimdən, dayılarımdan, müəllimlərimdən eşitmişəm və heyrətlə o günü gözləmişəm ki, görüm, aşıqların özünü, onların boy-buxununu, şəxsiyyətini, eşidim səslərini, duyum ürəklərini, sevim çaldıqları havaları, yaddaşıma köçürüm yazdıqları şeirləri. Tale mənim arzularımı çox qısa məqamda həqiqətə çevirdi.

"Borçalı aşıqları" söz birləşməsində iki söz var. Borçalı sözü və aşıq sözü. Bəlkə də dünyanın heç yerində, heç bir dilində iki söz aşıq sözüylə Borçalı sözü, Borçalı ifadəsi ilə aşıq ifadəsi qədər şirin və gözəl şəkildə birləşməyib. Borçalı deyilən kimi istər-istəməz o torpağı, o kökü, o mahalı, o yaddaşı duyan, bilən, sevən adamların yadına aşıqlar, aşıq deyilən kimi isə Borçalı düşür. Bunlar suda şəkər əriyən kimi bir-birinin bətnində ərimiş ifadələrdir. Balla pətək kimi, çiçəklə arı kimi, qartalla qaya kimi, zirvəylə qar kimi, dağ kəliylə buz kimi, göylə durna kimi bir-birinə yaxın, bir-birinə doğma ifadələrdir. Tale belə gətirdi ki, mən öz ömrümdə, yəni XX əsrin 50-ci ilində – bu gün böyük ustadlar, ozanlar kimi xatırlanan böyük şəxsiyyət və sənətkar aşıqlarımız

Əmrah Gülməmmədovun, Xındı Məmmədin, Hüseyn Saraclının və Aşıq Kamandarın nəhəngləşən, genişlənən, ucalan, püxtələşən, dünyanı qucaqlayan bir dövründə dünyaya gəldim. Təəssüflər olsun ki, o dövrdə Türk dünyasının qapısı indiki kimi nə Borçalının, nə də Azərbaycanın üzünə açılmamışdı. O böyük sənətkarlar sağlıqlarında Türk dünyasına qanad aça bilmədilər. Bu, mənim ürəyimdə həmişə bir ağrı kimi gəzir. Ancaq, bütün Azərbaycanda, Təbrizdə, Türkiyənin xüsusilə Qars və Ərzurum tərəflərində bu aşıqların adları elə sağlıqlarında ikən əfsanələşmişdi.

Anamın laylası ilə birlikdə Borçalı aşıqlarının çaldığı saz havaları da ana sözü, layla qədər müqəddəs olaraq mənim ruhuma hopdu, iliyimə, varlığıma, canıma, qanıma hopdu və məni gözəlləşdirdi. Məni diri və duru saxladı. Məni yaşatdı. Nə vaxt şeir yazdım, özüm də bilmədim. Gördüm mənim yazdığım şeirləri ellər-obalar öz məclislərində oxuyur. Nə vaxt saz çaldım, heç özümün xəbərim olmadı. Gördüm hər yerdə deyirlər ki, Zəlimxan nə gözəl oxuyur. Ancaq Zəlimxanın gözəl saz çalması da, gözəl oxuması da, gözəl şeir yazması da, gözəl yaddaşı da təkcə Zəlimxanın hünəri deyildi. Onu yetirən mühitin hünəriydi. O aşıqlı, şairli, ağbirçəkli, sərkərdəli, ozanlı, dədəli Borçalı dünyasının əfsanələşmiş şəxsiyyətlərinin Zəlimxana verdiyi ilahi qüdrətin bir parçası idi. Yəni bu gün mən taleyimə minnətdaram ki, indiyədək çap olunmuş 30-a yaxın kitabımdakı şeirlərin, poemaların hamısı uşaq vaxtından eşitdiyim Borçalı aşıqlarının sazının, sözünün, qaravəllisinin, atmacalarının, qıfılbəndlərinin, müəmmalarının, dastan ifaçılığının barı, bəhrəsi kimi mənim sinəmdə pərvazlandı, qanadlandı. Yəni bu gün Azərbaycan mühitində, Azərbaycan poeziyasında, Azərbaycan sazında Zəlimxan adlı bir adam varsa o, Borçalı aşıqlarının – özü dünyada olmayıb ruhu hər gün bizimlə olan aşıqlarımızın gəzəri

heykəli kimi gəzir. Çünki mən onların hər birinin dəlisi olmuşam, vurğunu olmuşam, Məcnunu olmuşam. Doğrudur, Xındı Məmmədin üzünü görməmişəm. Ancaq bizim böyük şairimiz H.Arif gözəl deyib:

Vələsmi, palıdmı ocaqda yanan,
Çıtıltıdan duyub, közdən bilərsən.
Pələngmi, çaqqalmı bu yerdən keçən,
Cığırdan tanıyıb, izdən bilərsən.

Bəli, adamın kimliyini, nəçiliyini kəlmədən anlayıb, sözdən bilərsən. Xındı Məmmədi mən görməsəm də təkcə onun bu gün bizə gəlib çatan "Yanıq Kərəm" ilə bağlı oxuduğu "Əsli və Kərəm" dastanından o üç bəndlik şeir mənim üçün kifayət edir deyim ki, Xındı Məmməd öz səsiylə, avazıyla Tanrı dərgahından gələn Allahın avazıdı, möcüzəsidi. O, həm Koroğlu olanda gözəl olurmuş, həm də Kərəm olanda. Bu adamın yerişi, duruşu, danışığı, gərdişi, eşmə bığı, şəxsiyyəti, məclisdə gəzişi bir məktəb olub.

Özünün saz dünyası ilə havalara yenilik gətirən, Azərbaycan tarixində ilk dəfə olaraq sazı püxtələşdirən, kamilləşdirən, on bir telli saz şəklinə salan, onu Tanrı dərgahına qaldıran şəksiz və şəriksiz, müdaxiləsiz və müdafiəsiz, tərəddüdsüz Aşıq Əmrah Gülməmmədov olub.

Aşıq Hüseyn Saraclını Allah əsl ozan kimi yaratmışdı. Ona baxanda elə bilirdin Yunis İmrə də budur, Dadaloğlu da budur, Aşıq Veysəl də budur, Xəstə Qasım da budur. Yerişi, duruşu, gəzişi, danışığı, əlini bığına çəkməyi, nəmli dəsmalla arada bir alnının tərini silməyi – hamısı o qədər ölçülü-biçili, nizamlı, səliqəli, insanı heyrətə gətirən bir gözəllik mücəssəməsi idi.

Aşıq Kamandar sənəti ovsun idi, tilsim idi, sehr idi, cazibəydi, cazibədarlıq dünyası idi.

Mən bu 4 klassik aşığın şəxsində Borçalı aşıqlarının ifa mədəniyyəti haqqında tutaq ki, qısaca nə isə deyə

bilərəm. Ancaq Borçalıda yetişən el şairlərimiz – Ağacanın da, şair Nəbinin də, Təhlə Novruzun da, adlarını çəkdiyimiz və çəkmədiyimiz başqa sənətkarların da xoşbəxtliyi onda olub ki, onlar sazla sözü birləşdiriblər. Ona görə də bu gün onların hamısının şeirləri mənim yaddaşımdadır. Təkcə mənim yox, həvəskarlarının hamısının dilinin əzbəridir. Çünki Borçalı şairləri həmişə sazla sözü birləşdirmişlər. Heç bir şair sazdan ayrı olmayıb. Əgər olanı varsa, onların özləri bilər, öz taleləri bilər. Onların bizə dəxli yoxdur. Amma o şairlər ki, öz taleyində sazla sözü birləşdirdi onlar xalqın yaddaşına yazıldı, əbədiyyətin yaddaşına yazıldı.

Borçalı aşıqlarının üstün və uğurlu bir cəhətini də deyim ki, onlar Borçalı aşıq məktəbini təmsil etsələr də Azərbaycan aşıq məktəblərinin hamısına böyük hörmətlə yanaşıblar. İstər Göyçə-Kəlbəcər aşıq məktəbi olsun, istər Şirvan məktəbi, istər Təbriz məktəbi olsun, istər Qazax-Gəncəbasar məktəbi – hamısına hörmətlə yanaşıblar. Bu gün Azərbaycan aşıq sənətində ad qoyub, ucalıb dünyadan gedən sənətkarların hamısına sayğı göstəriblər. Borçalı aşığıyam – təkcə Borçalıdan oxumalıyam deməyiblər, belə şeydən çox uzaq olublar.

Azərbaycan poeziyasının – şairlərimizin, ustad aşıqlarımızın nə qədər gözəl şeirləri varsa mənim yaddaşıma bu ustad aşıqların yaddaşından köçüb.

Borçalı aşıqlarının fəaliyyəti, ifaçılıq mədəniyyəti, sazla sözün vəhdətinin yaratdığı emosional duyğu bizim dilimizin saflığını yaratdı. Heç kəsin xətrinə dəyməz və mən bunu qürur hissi ilə deyirəm ki, bizim dilimiz – Borçalı ziyalılarının dili, bu gün ədəbiyyatda olan, ədəbi fəaliyyətlə məşğul olan Borçalı şairləri, yazıçıları, alimləri bir cümləsindən tanınır. Çünki dilin olduqca təmiz və təravətli, diri və duru, işıqlı və pak, dedi-qodudan, şikayətdən, xıltdan, paxıllıqdan, xəbislikdən uzaq, tərtəmiz bir mənəvi dünyası, mənəvi mühiti var. Bax,

bu gözəl dünyanı, pak dünyanı, müqəddəs dünyanı bizə Borçalı aşıqları verib. Bu gün Azərbaycanın ictimai-siyasi fikir tarixinə öz möhürünü vurmuş Nəriman Nərimanov da, Əlimərdan bəy Topçubaşov da, Əliyar Qarabağlı da, Abdulla Şaiq də, Həsən Seyidov da, Həsən Həsənov da, Camal Mustafayev də, Abbas Abdulla da, əlbəttə, bu adları çoxaltmaq da olar, ona görə yüksələ bildilər ki, onların hamısının mayasında mənim dediyim o sazın və sözün, dastan ifaçılığının yeri var. Onların hamısı o qaynaqdan qidalanıb. Allah Həsən Seyidova rəhmət eləsin, Həsən Həsənovun da canı sağ olsun, mən şahidiyəm ki, onlar sazı dinləyəndə qan yaddaşından, gen yaddaşından gələn duyğuları necə təzələnirdi, oyanırdı. Və mən bu fikirdəyəm ki, Zəlimxan Yaqub kimi adamların bu gün ədəbiyyatda, sazda, incəsənətdə olması, aşıq sənəti ilə bağlılığı heç də təsadüfi deyil, böyük zərurətdir. Mən inanıram ki, Borçalı aşıq məktəbi elə şairlər yetirəcək ki, Zəlimxan bəlkə də onların cərgəsində ən zəifi olacaq. Çünki bulaq heç vaxt qurumur, çayın yatağı qurumur, qabarır, çəkilir, dağ kəli kimi özünü o başa, bu başa vurub axır.

Bu gün Mahmud Kamaloğlu, Dərviş Osman və Şurəddin Məmmədlinin ilk təşəbbüs kimi “Borçalı aşıqları” adlı samballı bir kitab araya-ərsəyə gətirməsi məni həddindən artıq sevindirir. Müəlliflərin belə bir kitabı ortaya çıxarmasına mən qəhrəmanlıq kimi baxıram. Ona görə ki, bu kitabda adları çəkilən aşıqların çoxları bu gün həyatda yoxdur, haqlarında yazılı məlumat olduqca azdır, bəzilərinin şəkilləri belə yoxdur. Ancaq bu qədər yoxluğun qabağında belə bir kitabı var eləmək çox böyük bir zəhmətdir, əziyyətdir, amma çox böyük də şərəfdir, müqəddəslikdir. Bununla belə istər kitabın müəllifləri M.Kamaloğlu, D.Osman və Ş.Məmmədli, istərsə də redaktoru Musa Nəbioğlu gözəl bilsinlər ki, onlar yalnız özlərinə, Borçalı aşıqlarına xidmət etməyib-

lər, min illik tarixi olan ozan türklərinin, Borçalı türklərinin yaddaşını təzələmək üçün "Borçalı aşıqları" adlı kitabı bizə təqdim etməklə onları yenidən diriltdilər. O aşıqların hesabına, sözün hesabına – sazın yaşatdığı sözün hesabına, sözün yaratdığı sazın hesabına həm də bu gün biz yaşayırıq, yaradırıq, coşuruq, fəaliyyət göstəririk. Yəni çox köklü, çox budaqlı bir ağacdır Borçalı aşıqları. Onun barlı budaqları var, dadlı meyvələri var, yaşıl yarpaqları var. O yarpaqların üstündə sərin-sərin titrəyən, əsən meh var. İşıq zolağı kimi oynayan günəş zərrələri var.

Bu mənada bu kitaba mən çox yüksək, çox müsbət münasibət bəsləyirəm. Ulu Tanrı kitabı ərsəyə gətirənlərə yar olsun. Mən inanıram ki, bu kitab Təbrizdə də, Dərbənddə də, Borçalıda da, Azərbaycanda da böyük hörmət və ehtiramla qarşılanacaq.

"Borçalı aşıqları" adlı kitabın nəşri, təbliği, yayılması bugünkü ziyalılarımızın, başda Zəlimxan Yaqub, kitabın redaktoru Musa Nəbioğlu, hörmətli folklorşünas alim Elxan Məmmədli və başqaları olmaqla bütün Borçalı ziyalılarının borcudur. Qoy bizim yaddaşımızda olan Borçalı aşıqları Azərbaycanın yaddaşına köçsün.

Bu kitabın dünyaya gəlməsi münasibəti ilə beş-üç kəlmə ürək sözü dedim. Amma, şübhəsiz ki, bu kitab böyük tədqiqatlar üçün gözəl, ağıllı bir mənbə olacaq, gələcək folklorşünaslarımız ondan bəhrələnəcəklər. Uğur olsun! Bu müqəddəs aşıqların adları mənə Quran qədər əzizdir. Dünyanın bu müqəddəs nümayəndələri qarşısında baş əyirəm və inanıram ki, kitab Azərbaycan elmi ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanacaq və bu işdə hamımızın böyük qayğımız olacaq.

Bu kitabın dünyaya gəlməsi ilə biz də bu müqəddəs şəxsiyyətlər qarşısındakı müqəddəs borcumuzun bir hissəsini qaytarmış oluruq.

## AŞIQ KAMANDAR HAQQINDA XATİRƏLƏR, FİKİRLƏR

Aşıq Kamandar təzənəni tellərə yox, ürəklərə çəkirdi. Aşıq Kamandarın səsi boğazdan yox, ürəkdən gəlirdi. Aşıq Kamandar dərsini kitablardan yox, qırxlar pirindən, ələst aləmindən, ərənlər məclisindən almışdı. Boyu-buxunu da, yerişi-duruşu da, durumu-qırımı da, səs diapazonunun genişliyi də, nəfəs mənzilinin uzaqlığı da, avazı-laylası da, on bir telli, uzunqollu, gen sinəli tavar sazı da bəndənin yox, Allahın əsəridi.

Aşıq sənətinin iki nəhəng ustadından dərs almışdı. Nağıllı-dastanlı xəzinənin zənginliyini Aşıq Sadıqdan, sazın möcüzəsini, sehrini Aşıq Əmrahdan götürmüşdü. Aşıq Sadıq Sultanovun şəxsiyyətinə Allah kimi səcdə edərdi. Onun sənətinin sirlərindən, bənzərsiz xüsusiyyətlərindən, səhnə mədəniyyətindən, səs oynatmalarından, müxtəlif dilləri kamil bilməsindən, sənəti həmişə uca saxlamaq, tamaşaçılarını, dinləyicilərini sehrləmək, məclisi ovsunlamaq məharətindən danışmaqdan doymazdı. Aşıq Əmrahın xallı-güllü, keçidli-döndərməli, aşırımlı-bələnli barmaqlarında nə güc vardısa, hamısını öz barmaqlarına köçürmüşdü. “Aşıq Kamandarın ifasında filan hava daha gözəl səslənir” – demək qeyri-mümkün idi. O, hansı havaya əl aparırdısa, onu səsinin laylası, barmaqlarının sığalı ilə ilahi bir yüksəkliyə qaldırırdı, elə bir yüksəkliyə ki, ora heç bir ifaçı aşıq qalxa bilmirdi.

Hansı havanı daha çox sevirdim? “Dastanı”ydımı?, “Ruhani”ydimi?, “Məmmədbağırı”ydımı?, “Yanıq Kərəmi”ydimi?, “Qaradonnu”ydumu?, “Bəhmanı”ydımı?,

"Sultanı"ydımı?, "Kərəmköçdü"ydümü?, "Baş sarıtel"iy-dimi?, "Qara kəhər"iydimi? Hansını sayım, hansını dilə gətirim?! Hamısı gözəl idi, hamısı, hamısı, hamısı... Hər hava onun ifasında heykəlləşir, ilahiləşirdi.

Aşıq olub tərki-vətən olanın,
Əzəl başdan pür kamalı gərəkdi.

Oturub duranda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.

Elə bil bu müqəddəs və ölməz misraları Dədə Ələsgər Dədə Kamandar üçün söyləmişdi. Kamandar əhli-ürfan məclislərinin aşığı idi. Sazı-sözü çayxana-meyxana səviyyəsinə endirənlərlə heç vaxt barışmazdı. Özünün qiymətini çox gözəl bilirdi. Mətahını baha satırdı. Özünü şax tutardı. Yersiz əllaməliyin yox, təbii yeniliklərin tərəfdarı idi. Nazı sazına yaraşırdı, sazı da nazına. "Mərifət elmindən halı" olmayanlara o yolun yolçusu olmağı tövsiyə etməzdi. Qarnı üçün yox, qədri üçün yaşayıb-yaradırdı. Təzənə tellərə toxunan kimi, o an hamı bilirdi ki, bu, Kamandar sazıdı. Ağır və ləngərli, təmkinli və dalğalı, asta və usta. Nə çalanda, nə də oxuyanda qətiyyən tələsmirdi. Yarada-yarada, yana-yana, duya-duya, düşündürə-düşündürə, insanı dərinliklərə və ucalıqlara qovuşdura-qovuşdura Kamandarlıq eləyirdi.

"Divani"dən "Təcnis"ə, "Təcnis"dən "Qaraçı"ya, "Qaraçı"dan "Dübeyti"yə, "Dübeyti"dən ta "Müxəmməs"ə qədər keçidləri ilə keçir, havadan havaya elə körpülər salırdı ki, onun kamilliyinə, ustadlığına heyran qalmamaq olmurdu.

Yeri gəlmişkən, "Baş Divani" havasına Qurbanidən oxuduğu bir şeirin üstündə Kamandarvari gəzişmək istəyirəm:

Fələk, sənlə əlləşməyə bir belə meydan ola,
Açıla Haqqın qapısı, ədalət-divan ola.

Onun oxumağı oxumaq deyildi, fələklərə meydan oxumaq idi. Haqqın qapısını açmağa can atırdı, ədalət-divan axtarırdı. Həyatda olan ədalətsizliyə, haqsızlığa, zorakılığa, yalana, böhtana, şərə, süründürməçiliyə, insanı əzən, insani dəyərləri öldürən xüsusiyyətlərə üsyan idi onun oxumağı. O, bir ustad sənətkar kimi çox gözəl bilirdi ki, Haqqın qapısını açmağa ancaq haqq vergisi olanların gücü çatar.

Pərim, zülfün kölgəsində bir qədər yatmaq gərək,
Tabutumdu sərv ağacı, kəfənim yarpaq gərək .

Aşıq Kamandarın ömür-gün yoldaşı Pəri xanım ustada vəfasız çıxdı, üç il Kamandardan əvvəl Haqqa qovuşdu. Bəlkə də Pəri xanım bu gün yaşasaydı, onun sevimli Kamandarı ölümə təslim olmazdı, daha çox yaşaya bilərdi. Pəri xanımın zülfünün kölgəsində yata bilmədiyi üçün tez-tələsik tabutu sərv ağacı, kəfəni yarpaq oldu ustadın.

Bir gülü ki, dərəmmirsən, dərib xəndan eyləmə,
Bir könlü ki, tikəmmirsən, yıxıb viran eyləmə.

Bu beyt onun sənəti uca saxlamaq üçün sənətkar dostları qarşısında tələbkarlığını əyani şəkildə göstərən ən gözəl nümunə idi. Ustad bu sözü oxumaqla bu yolun yolçularına deyirdi: havanı çalanda qarışdırma, yeddi arxın suyunu bir yerə yığma, havadan havaya keçidin sərhədini dəqiq bil, "ustad görməyənin işi xam qaldı", ustaddan öyrənməkdən bezmə, yorulma, sözü səhv oxuma, fikri sərrast və aydın qandır, məclisin arxasınca getmə, məclisi arxanca apar, el-obanın "bərəkallah"ını qazan, bunları bacarmırsansa, get özünə başqa sənət tap!

Çünki bu sənət ilahi bir eşqə bağlıdır. Onu adiləşdirənləri nə Allah bağışlayır, nə də el-oba!

"Aşıq Qərib" dastanına heykəl qoydu ustad Kamandar. Bu məşhur dastanın bir parçasını televizorda elə ifa elədi ki, elə bil bütün qəribləri qürbətdən vətənə gətirdi. "Qərib gələydi" qoşmasına "Gülabı" havası üstündə sərin-sərin oxuya-oxuya qəriblərin ürəyinə su çilədi. Qərib gələydi deyə-deyə Kamandar gələydi arzusuyla yanıb-yaxılıram.

Qızlar, mənə bir təsəlli eyləyin,
Əlim üzülməzdən Qərib gələydi.
Şirin canımı yara qurban eylədi,
Güllərim solmazdan Qərib gələydi.

Çağırın yanıma dərdli anamı,
Qərib yoxdu, o bağlasın yaramı.
Qadir Mövlam sözü versin aramı,
Gözlərim dolmazdan Qərib gələydi.

Ancaq nə fayda, min çağır, min harayla, daha Kamandar gələsi deyil. Səsi-sorağı bütün qapıları döysə də, şirin avazı yetirmələrinin dilində hər yerdən gəlsə də, özü məclislərə gələsi deyil.

Borçalı mahalında ömrümün uşaqlıq və gənclik illərini xatırlayıram. Aşıq Kamandar hansı kəndə toya gələrdisə, azı bir ay əvvəl səsi-sədası ev-ev dolaşardı ki, filankəsin toyuna Kamandar gələcək. Hamı həsrətlə o günü gözləyər, toy sahibinə bəxtəvər deyərdilər. Mənsə dördgözlə yollara baxar, sağlığında əfsanəyə çevrilmiş aşığın yoluna göz dikməkdən yorulmazdım.

O, evdən çıxıb məclislərə gedəndə elə bilirdin general ağır bir döyüşə gedir. Onun gedişi, bəzənməyi, tellərinə sığal çəkməyi, tikmə və dolu qamətinə yaraşan

papağı başına qoymağı, gümüşü sallama kəməri belinə bağlamağı, paltarının ütülü-sığallı yaraşıqlı, çəkməsinin tumarı, səliqəsi həqiqətən də onu generala bənzədirdi. Aşıq libasını o qədər nazla geyinərdi ki, o, evdən çıxana qədər bayırda gözləyən toy sahiblərinin canı çıxardı. Belə məqamları görəndə mən hərdənbir yarıciddi, yarızarafat bayatı dili ilə aşığa atmaca atardım:

Yar içərdən,
Kəs bağrım, yar içərdən.
Gözüm qapıda qaldı,
Çıxmadı yar içərdən.

O da cavab əvəzi ya yüngülcə təbəssümlə gülər, ya da kefikök olanda qəhqəhə çəkərdi.

Deyirdim ay ustad, elə altdan geyinib üstdən qıfıllanmısan ki, elə bil toy məclisinə yox, güləş meydanına, ya da müharibəyə gedirsən. Aşığın bu fikrə özünəməxsus ciddi münasibətilə açıqlama verdiyi heç yadımdan çıxmır. Cavab təxminən belə idi: – "Sənət meydanı ilə güləş meydanının heç bir fərqi yoxdur. Hər ikisində yıxmaq və yıxılmaq, qələbə çalmaq və məğlub olmaq məsələsi var. Sən Şah İsmayıl olsan da, unutma ki, qarşına Ərəbzəngi çıxa bilər. Koroğlu olsan da, Gizir oğlu Mustafa bəylə qarşılaşa bilərsən. Dastanlarımızda elə məqamlar var ki, səndən asılı olmayaraq səni özündən çıxardıb obrazın ixtiyarına verə bilər. Kərəm kimi kül olmaq da, Qərib kimi Hələbdən Tiflisə gələndə yolda qara-borana düşmək də, Gülgəzin yolunda Abbas kimi quyuya düşüb Yaradana yalvarmaq da – hər şey başına gələ bilər. Ona görə məclisə girən aşıq döyüşə girən əsgər kimi bütün varlığını öz sənəti üçün səfərbər eləməli, onu dinləyənlərə ürəyinin yağını, gözünün nurunu, qəlbinin hərarətini, xəzinəsinin incilərini verməlidir. Bunları bacardınsa, qələbə çalmısan, deməli, könüllər fəth eləmisən, yox, bacarmadınsa, rüsvayçılıqla məclis-

lərdən uzaqlaşacaq, bir də o yerlərə dönə bilməyəcəksən. Bax, budur mənim xalq qarşısında, el məclislərində həmişə səfərbər olmağımın sirri!"

Bəli, bu böyük həqiqəti ancaq Aşıq Kamandar səviyyəsinə yüksələn ustadlar dərk edə bilər. Budur böyüklük! Budur xalq qarşısında əsl sənətkar məsuliyyəti!

Gələk ədəb-ərkan məsələsinə. Aşıq Kamandar həddən ziyadə zərif adam idi, həssas və kövrək idi. Sözə qüvvət, bir hadisəni xatırlatmaq istəyirəm. Bakıda, bizim evdə ömrə-günə yazılan bir məclis qurulmuşdu. Ağsaqqal filosof alimimiz Camal Mustafayev, Kamandar sənətinin vurğunları Oruc Əlizadə, Səməd Gürzəliyev, rəhmətlik Knyaz Nəzirli, yazıçılar, şairlər Kamandar sənətinin alovunda alışıb-yanırdılar. Ustad "Mina gəraylı" havasına "Qalacaq" rədifli bir gəraylı oxuyurdu. Şeirdə təxminən bu misralar var idi:

Kərəm yandı, külü qaldı,
Şairdən də söz qalacaq.
Şairin də balası var,
İz üstündə iz qalacaq.

Sonuncu beyti dəyişdirdi, başqa cür oxudu, yəni bala sözünü, övlad deyimini ayrı sözlə əvəz elədi. Mən ustadın üzünə baxıb işarə elədim ki, axı düz oxumadın. Ustad işarə verdi ki, üstünü vurma. Məclis dağılandan sonra dedim, ay aşıq, bayaq o sözü niyə olduğu kimi oxumadın? Dedi, ay Zəlimxan, məclisdə filankəs iştirak edirdi, onun övladı olmur, mən bala sözünü dilimə gətirsəydim, onun yarasının üstünə duz basmış olardım. Bir daha dərk elədim ki, təkcə böyük sənətkar olmaq kifayət eləmir, eyni zamanda şəxsiyyət olmaq lazımdır.

Bəxtəvərli günlərimiz çox olub Borçalının azman aşıqlarıyla. Hüseyn Saraclının danışdığı dastanlara, qaravəllilərə qulaq asmaq üçün canımı verərdim ki, İlahi,

məclis qurtarmasın. Əmrah kişinin barmaqlarına günlərlə baxardım ki, görüm hansı xalı götürə bilərəm. Kamandarla üz-üzə durar, sazı-havacatı qoşalaşdırardıq. Bu, o demək deyil ki, mən Kamandar kimi çalıb-oxuya bilirdim. Xeyr, əstəğfürullah! Sadəcə olaraq, ustad məni çalğıda və oxumaqda elə gözləyirdi ki, qulaq asan elə bilirdi bir saz çalınır, bir adam oxuyur. Biz üz-üzə dayananda ən çox "Mina gəraylı", "Şahsevəni", "Qəhrəmanı", "Ovşarı", "Dübeyti" havaları çox çalıb-oxuyardıq. O havaları indi qanadı qırılmış qərib bir quş kimi Kamandarsız oxuyuram.

Həyatda olduğu kimi, sənətdə də daşlı-kəsəkli yollar var və bu yolların cəfakeş, yorulmaz yolçuları var. Həyatda olan yollar kimi sənətdə olan yolların da özünəməxsus və oxşar cəhətləri var. Dədə Qorquddan gələn, yüz yerə, min yerə şaxələnən cığırlar, yollar içində Aşıq Kamandarın öz yolu var. O yol təkcə dağlardan, dərələrdən yox, həm də ürəklərdən, könüllərdən keçib gedir. Aşıq Kamandar özündən əvvəllə özündən sonranın arasında ən uzunömürlü körpüdür. Urmiya və Təbrizdə, Qarsda və Ərzurumda, Dərbənddə və Borçalıda üzünü görüb, səsini eşitmədiyimiz minlərlə cavan aşıqlar da bu müqəddəs körpüdən keçib Aşıq Kamandarın səsini-avazını, laylasını-havasını, xatirəsini, eşqini gələcək nəsillərə və əsrlərə çatdırmaq üçün dəmir çarıq, dəmir əsa ilə el-el gəzib, dünyanı dolaşacaqlar.

Vaxtsız ayrılığına inanmadığımız Aşıq Kamandarın qəfil ölümü bizi bir çox mətləblər haqqında ciddi düşünməyə vadar edir. Sənətkarlarımızın qədir-qiymətini vaxtında bilirikmi, onların böyüklüyünü lazımınca dərk edirikmi, milli şüurun inkişafında əvəzsiz xidmətləri olan, özümüzü özümüzə tanışdıran və tanıdan şəxsiyyətlərin xəzinəsindən lazımınca bəhrələnmək üçün arzu olunan səviyyədə iş görürükmü?

Xeyr! Xeyr! Xeyr!

Aşıq sənətinə bələd olanlar yaxşı bilir, "aşığın yükü" adlı bir söz var. Abbas Divarqanlının "Arallar, yükündə nə var deyəllər" deyimi də bu fikrin bədii ifadəsidir. Yüklü aşıq "Baş divani" ilə məclisi açar, "müxəmməs"lə, yəni duvaqqapma ilə qapayar, sona yetirər. "Baş Divani"dən "Müxəmməs"ə qədər gələn yolda "Ustadnamə", "Vücudnamə", "Təcnis", "Qıfılbənd", "Hərbəzorba", "Dodaqdəyməz", "Gözəlləmə", "Deyişmə" və s. formaların hansı lazım gəlsə, onu yerində, məqamında işlədər, sözü-söhbəti dinləyiciyə qızıl qiymətinə satar, bal kimi yedirdər. Gör nə qədər güclü yaddaşa, iti hafizəyə malik olmalısan ki, bu qədər çeşid müxtəlifliyi olan şeirləri bilib yerində işlədəsən. Bu aləmə dərindən bələd olan sənətkarlar haqqında deyirlər: "Filankəs çox yüklü aşıqdır".

Dəfələrlə məclislərdə şahidi olduğum üçün deyə bilərəm ki, bu yük Kamandarda artıqlaması ilə var idi.

Hərcayı hədyanı sayar, naşı bilməz qiymətin,
Əhli-ürfan məclisində gövhər misaldır yüküm.
Pirim mənə nüsrət verdi, bu gün çıxdım bazara,
Sərrafısan, aç baxgınan, gör nə cəlaldır yüküm.

Dəb xatirinə, kiməsə xoş gəlmək üçün ucuz, yüngül, bayağı şeirlər oxumazdı, özünün sevdiyi "gövhər misal" şeirləri seçməkdə, sərrafına satmaqda yükündə olan cahcəlalı əsl sahibinə çatdırmaqda ayrıca bir aləm idi Aşıq Kamandar!

Dədə Ələsgərdən misal gətirdiyim bu "Divani"ni o, təsadüfən oxumurdu, özünü, kimliyini ifadə edirdi.

Aşıq Kamandarın varlığı aşıq sənətinə elə bir şöhrət gətirdi ki, o şöhrət çələngi heç vaxt solmayacaq. Təsadüfi deyil ki, bu gün aşıqların əksəriyyəti İranda, Türkiyədə, Borçalıda, Dərbənddə, Kərkükdə, 9 milyon-

luq müstəqil Azərbaycanımızda, ümumiyyətlə Türk dünyasında aşıq Kamandar yolu ilə gedir, onun üslubunda çalıb oxuyurlar. Bu gün gənc aşıqların çoxu özünü Kamandarın şagirdi hesab edir, ona oxşayanlar, ona bənzəyənlər fəxrlə deyir ki, mən ustad Kamandarın şagirdiyəm. Aşıq Kamandar sənətini bundan sonra dünyaya gələn yüzlərlə, minlərlə aşıqlar yaşadacaq. Neçə ki, xalqımız var, sazımız var, Aşıq Kamandar da var olacaq, yaşayacaq!

## SAĞLIĞINDA HEYKƏLLƏŞƏN AŞIQ

Kamandarın ömrü sazın, saz üstündə köklənən sözün ömrüdür. Qurbanidən Dədə Şəmşirə və bu günə qədər gələn ozan aşıq dünyasında olan böyük sənətkarların hamısının birgə yaşadıqları ömürdür. Bəxtim onda gətirib ki, üç böyük sənətkarın – Aşıq Əmrahın, Aşıq Kamandarın və Aşıq Hüseyn Saraclının tərlan kimi qıy vuran vaxtı mənim dəliqanlı gənclik illərimə təsadüf edib. Onların üçünün də balını arı çiçəkdən bal çəkən kimi çəkmişəm. Aşıq Kamandar səs ləngərinə, diapazonuna, xəzinə zənginliyinə, şaqraq zəngulələrinə, axarı kəsilməyən şirin söhbətlərinə, dodaqdəyməzlər, vücudnamələr, ustadnamələr, divanilər, təcnislər yükünə malik olan 3-5 aşıqdan biri olub. Aşıq Kamandar sağlığında heykəlləşib, xalq məhəbbəti qazanıb. On bir telli, gen sinəli, uzun qollu, tavar saz onun sinəsinə dirənəndə elə bilirdin çay ləngərlənir, çeşmə qaynayır, bulaq zümzümə edir. Kamandar sazında nə sehr var idi, İlahi! Məlum olduğu kimi on bir telli sazı çalmaq çətindir. Adətən, sazın doqquz teli olur ki, telləri üç-üç götürürsən. On bir telli sazda isə dörd tel götürürsən.

Onun ifasında dəhşətli ləngər var idi. Elə bilirdin dağ qalxır, enir. Bu dünyaya baş vuranda sənin daxili dünyan, ruhun lərzəyə gəlirdi. Səs diapazonu çox geniş idi. Nə qədər zildən oxusa da, səsindəki şirinlik qalırdı. Xanəndələr, müğənnilər var ki, səsi zilə qalxan kimi səsində çığırtı eşidilir. Kamandarın səsi Allahdan gəlmə idi. Təmiz, şirin, kövrək səsə malik idi. “Zarıncı”, “Sultanı”, “Mixəyi”, “Mansırı” havalarını ifa edəndə musiqinin dərinliyinə baş vururdu. Bəzən sazını kənara qoyaraq hönkürüb ağladığını da xatırlayıram. Qeyd edim ki,

onun bu xüsusiyyəti mənə də keçib. Ona görə də bu hisslər mənə tanışdır. Kamandar əlçatmaz bir ucalıq idi. İndi saz çalanların 70-80 faizi özünü ona bənzətməyə çalışır. Ancaq heç kəs Kamandar ola bilməz. Məclislərdə ona bənzər aşıq olanda hamı "sağ ol, bala Kamandar", – deyir.

Kamandar yeganə adamdır ki, hansı havanı daha gözəl çaldığını deyə bilmərəm. Çünki hansı havanı ifa edirdisə, sazın və sözün vəhdəti ilə həmin havaya heykəl qoyurdu. Sanki səs gülüstanı idi. Kamandarın avazından doymaq olmazdı. Səsinin qüdrəti onda idi ki, səni əsrlərin dərinliklərinə aparırdı.

Müasir dövrdə aşıq var ki, saz çala bilir, sözü yoxdur. Bəziləri sazı da bilir, sözü də. Amma içərisində xəzinə – dastan yükü, nağıl, atmaca, qaravəlli, ustadnamə, qıfılbənd yoxdur. Aşıq Kamandarda bütövlük və şahanə zahiri görünüş var idi. Adama elə gəlirdi ki, qartaldı, uçacaq.

Kamandarın ölümü son illərin ən böyük itkisidir. Çünki onun yerini verə biləcək adam yoxdur. Doğrudur, Borçalıda kamil səviyyəli aşıqlar var. Ancaq Aşıq Kamandar heç vaxt təkrarlanmayacaq şəkildə xatirələrdə qalacaq. Mübaliğəsiz deyərdim ki, Kamandar ölüb sözü, Zəlimxan ölüb deməkdir. İndi mən iki ömür yaşamalıyam. Onun sinəsində nələr var idisə mən bilirdim. Onun ölümü ilə aşıq sənəti usta-şagird ənənəsini itirdi. Ümumiyyətlə, o şagirdlərinə qarşı çox qəddar və tələbkar idi. Kamandarın yanında şagird iki ildən artıq duruş gətirə bilmirdi. Dostları həmişə deyirdi ki, Aşıq Kamandarın nə nazından olmaz, nə sazından. Malını baha satardı, hər yerdə görünməyə cəhd eləməzdi.

Aşıq Kamandarın ölümü hər şeydən əvvəl şəxsiyyət ölümüdür. Kamandarın ölümü ilə aşıq sənətində böyük dövr qapandı. Belə sənətkarı yetirmək üçün mühit lazımdır. Kamandarın ölümü ilə aşıq sənəti ləngərli havaları, şaqraq nəfəsi itirdi.

Aşıq Kamandar ağzı düz aşıq idi. Yəni heç vaxt heç kəsin şeirini təhrif etməzdi. Allah ondan heç nə əsirgəməmişdi.

Onun tələbəsi olmasam da, özümü həmişə Aşıq Kamandarın, Aşıq Əmrahın və Aşıq Hüseyn Saraclının tələbəsi hesab etmişəm. Mənə qarşı heç vaxt qəddar olmayıb. Həmişə mənimlə qürur duyduğunu deyərdi.

Bir yerdə olanda "Mina gəraylı" havasını çox çalardıq. Bu havanı kefimizin nizam olan vaxtında çalardıq. Qəmgin olanda isə "Mansırı"nı, "Sultanı"nı çalardıq. Bu havaları bir yerdə çalanda, kənardan dinləyən olsa, elə bilərdi ki, bircə nəfər çalır. Yəni o qədər barmaq-barmağı, söz-sözü tutardı.

Zamandan, dövrandan, bəxtindən çox narazı adam idi. Çünki o, istedadına qarşı həmişə haqsızlıqlarla qarşılaşmışdı. Zaman-zaman küsdü, gəlmədi buralara. Gedib qəlbini ovundurmaq istədim. Dedim ki, Dədə Qorquddan bu günə qədər gələn sənətdir, gəl qaytar xalqın sərvətini. Yadımdadır, "Aşıq Qərib" dastanını lentə aldırana qədər on dəfə onun yanına getdim. Amma dövlət tərəfindən qayğı yox idi. Moskvada Azərbaycan mədəniyyəti günləri keçiriləndə Aşıq Kamandara, Aşıq Əmraha və Aşıq Hüseyn Saraclıya qarşı çox böyük ədalətsizlik olmuşdu. Məclis bunların çiynində keçmişdi. Amma fəxri adlar veriləndə demişdilər ki, siz başqa respublikanın nümayəndələrisiniz. Onlar Azərbaycandan kənarda yaşadıqları üçün çox kövrək və həssas idilər. Dövlətdən biganəlik görəndə qırılırdılar. Təsadüfi deyil ki, Kamandarın televiziyada lent yazıları azdır. Gedib yalvarıb Azərbaycana gətirir, səslərini yazdırırdım. Bir dəfə efirə gedəndən sonra soruşanda deyirdilər ki, silmişik. Bu cür münasibət onlara təsir edirdi.

Sonra quruluş, zaman dəyişdi. Amma Aşıq Kamandarın narazılığı qaldı. Çünki on il əvvəlki Kamandarla iki il bundan əvvəlki Kamandar ayrı-ayrı adamlar idi.

Çox qürurlu adam idi. Əgər oxuyanda səsində xırıltı hiss etsəydi, özünü öldürərdi. Həmişə deyirdi ki, səs sözümə baxmayanda sazı asacam evdən. Allah da gəlsə, sazı köynəkdən çıxarmaram. Çünki məni Kamandar kimi görüblər. Əgər bu gün Kamandar kimi oxuya bilmirəmsə, əlimə saz almaram.

Nə qədər adamlar itirdik, amma bizə yenə dərs olmadı. Aşıq Kamandar diapazonunu bir də yaradan olacaqmı? Yox! Bundan sonra nə yaranacaq, sual altındadır. İndi həmin aşıqları yarada bilən mühit yoxdur. Araq çıxdı, sənət getdi, ay haray...

***01.11.2000***

## BU GÜN HƏR DƏQİQƏ ONUN YERİ GÖRÜNÜR

Saz mənim üçün Türk ruhunun şəksiz və şəriksiz, tək və müqəddəs alətidir. Saz mənim üçün ana laylası, beşikdən məzara qədər ömür yolunda yol yoldaşım, könül sirdaşım, həyatım, varlığımdır. Kitablarımın anası, şeirlərimin anası, anamın anası, Borçalımın anası, Borçalı adında bizim üçün əbədi qibləgah olan bir mahalın rəmzi, obrazı, ümumiləş-dirilmiş kitabı – səs kitabı, söz kitabı, avaz və havacat kitabıdır.

Əl atmaq nə lazım kağız, qələmə,
Heç kəsə demərəm yaz ünvanımı.
Kimə gərək olsa sözüm, söhbətim,
Ona göstərəcək saz ünvanımı.

İstəyirsən de Borçalıdanam, istəyirsən de Sazdanam – eyni sözdür. Saz Borçalı deməkdir, Borçalı da saz. Çox şükür Allaha ki, Borçalının yetirdiyi övladlar, onun şairləri, alimləri, ziyalıları yüzillik mərhələdə bu həqiqəti təsdiqlədilər ki, bəli, Borçalının rəmzi sazdır. Ona görə ki, Borçalı saçından dırnağına qədər xalis Qıpçaq türkü, oğuz türkü olduğundan onun şəksiz və şəriksiz aləti də onun əbədi silahıdır, sözünün silahıdır. Bax, saz mənim üçün budur. Saz bu günə qədər yazdığım bütün şeirlərin qaynağıdır, dayaq nöqtəsidir, istinad nöqtəsidir. Mənim həyatımdır, varlığımdır.

Aşıq Kamandar mənim üçün kimdir? Şübhəsiz ki, Dədə Qorquddan bu günə qədər taleyin xoşbəxtliyindən aşıq sənətinin çox böyük, nəhəng, möhtəşəm, mötəbər, unudulmaz, yaddaşlara həkk olunan böyük şəxsiyyətləri olub. Bunların hər birinin aşıq sənətində özünün yeri,

özünün mərtəbəsi, özünün məqamı olub və heç bir aşıq o biri aşığın yerini dar eləməyib. Böyük sənət belədir, böyük sənətkarlıq belədir. Çünki onların yeri xalqın ürəyindədir. Xalqın ürəyi də çox genişdir, bütün istedadlar ora yerləşir. Mənim öz yaşımda gördüyüm, adlarını çəkdiyim sənətkarlar – Əmrah, Hüseyn Saraclı, Xındı Məmməd mənim üçün olduqca müqəddəsdir. Mən bunlarla nəfəs alıram. Mən Xındı Məmmədin üzünü görməmişəm. Tək bircə "Yanıq Kərəmi" bəsdir ki, özüm üçün təsəvvür eləyəm ki, bu adam nəyə qadir olub. Ancaq taleyin xoşbəxtliyindən mən üç canlı klassikin laylasında böyümüşəm. Üçünün də sazını çalmışam, üçünnən də qoşalaşıb saz çalmışam. Bundan böyük bir xoşbəxtlik ola bilərmi?! Onların üçünün də hər birinin öz mərtəbəsi, öz yeri, öz qiyməti, öz dəyəri, gözəlliyi olmaqla bərabər, söhbət Aşıq Kamandardan gedirsə, Aşıq Kamandar on bir telli, uzunqollu, gen sinəli tavar sazı ilə sözünü bütün dünyaya dedi.

Heç vaxt ona deməyə ehtiyac qalmırdı ki, filan havanı çal. Çünki hansı havanı çalırdısa, o qədər dolğun və zəngin, o qədər axar-baxarlı, o qədər qəm ləngəri çox olan bir yeriş gedirdi ki, deyirdin ay Allah, ayrı hava çalmasın, dünyada bundan gözəl hava yoxdur. Çaldığı havaların hamısı bir-birindən gözəl olurdu. Kamandar hansı havanı oxudusa, o havaya möhürünü elə vurdu ki, ayrı kim oxusa biz onu həzm edə bilmədik. Hər havada Kamandarın oxumaq möhürü var. Bu elə möhürdür ki, bundan sonra min illər boyu gedəcək. İndi bu gün sənətkarın böyüklüyünü dərk eləmək üçün özündən sonra onun izinə baxmaq lazımdır. Əgər o izi, o cığırı, o yolu ot basıbsa, demək, o sənətkar papağı günə yandırıb. Yox, o sənətkarın açdığı iz cığıra, yola çevrilirsə, getdikcə ağacın budağı kimi şaxələnirsə, bu o deməkdir ki, o dahidir. Bu mənada bu gün elə Borçalının özündə də heyrətli bir mənzərə var. Bu gün o taylı, bu taylı Azər-

baycanın hər yerində aşıqların doxsan faizi Kamandar üstündə gedir. Kim Kamandara daha çox oxşayırsa, biz də onu daha çox sevirik.

Poeziyada da belədir, musiqidə də belədir. Məsələn, şairlər yüzillərlə Füzulinin sehrindən, ovsunundan çıxa bilmirlər. Səməd Vurğunun cazibəsindən çıxa bilmirlər. Çünki cazibə qüvvəsi o qədər böyükdür ki, hökmən özünə çəkir. Aşıq sənətində də Aşıq Kamandarın cazibə qüvvəsi 50 milyonluq Azərbaycan dünyasını qucaqlayıb. Rəhmətlik Kamandarın qırxı günü məzarı başında çıxış edəndə dediyim şeirin sonluğu belə idi:

Deməyin ki, vaxtı başa yetirdik,
Saz kamansız, kaman tarsız qalmasın.
Aman ellər, xan Əmrahı itirdik,
Sənət mülkü Kamandarsız qalmasın.

Kamandar öləndə mənim qollarım boşalıb yanıma düşdü ki, sənət mülkü Kamandarsız qalacaq. Amma sonra mən çox böyük səhv elədiyimi başa düşdüm. Gördüm ki, sənət mülkü bir gün də Kamandarsız qalmır. Çünki baxmayaraq ki, Kamandar bu gün cismən həyatda yoxdur və onun səsini, boğazını təkrarlamaq heç cür mümkün deyil, amma yenə o yolla gedənlər var, demək, heç vaxt bu sənət ölməyəcək. Heç vaxt Kamandar ölməyəcək.

Onun yerişi, duruşu, qədd-qaməti, danışığı, təmkini, ləngərli havacatı, qəm üstündə köklənən dünyası ayrıca öyrənilməli bir məktəbdir. Bu sirlər açılmalıdır.

Aşıq Kamandar xoşbəxt taleli sənətkardır ona görə ki, min illər boyu bu ad yaşayacaq, bu sənət yaşayacaq. Bizim əsərlərimizdə, kitablarımızda yaşayacaq. Xatirələrdə yaşayacaq, nəsildən-nəsilə keçəcək. Şükür Allaha, indi texniki imkanlar elədir ki, səs ölmür, avaz ölmür, yaşayır. Şükür Allaha ki, Azərbaycanın, bir neçə yerindən sərhəd çəkilən Azərbaycanın yox, xəyalımızda,

ürəyimizdə olan Azərbaycanın, Turan dünyasının içində Kamandarın çox möhtəşəm bir yeri var. Hər gün o zirvə görünür, o ucalıq görünür.

Bizim evə az qala hər iki gündən bir Cənubi Azərbaycandan qonaqlar gəlir, məclis qurulur, qonaqlıq olur. Və hər dəfə də kim ağzını açırsa Kamandar kimi başlayır, Kamandar kimi tamamlayır. Bu o deməkdir ki, onun sənətdə yaratdığı cazibə qüvvəsindən çıxmaq mümkün deyil. Və Kamandarın cazibə qüvvəsinə kim nə qədər yaxınlaşırsa, o qədər böyüyür, o qədər möhtəşəm olur. Bütün bunlarla bərabər, mən onun sinəsində o qədər zəngin xəzinə görmüşəm, ədəb-ərkan görmüşəm, rəftar görmüşəm, əhli-ürfan dünyasının gözəl məqamlarını görmüşəm ki, bu gün hər dəqiqə onun yeri görünür. Baxmayaraq ki, onun səsini, avazını oxşadanlar çoxdur, amma heç kim Kamandar ola bilməz. Kamandarın hər gün, hər saat, hər dəqiqə bütün məclislərdə yeri görünür. Bu ləngərin, boy-buxunun, əzəmətin, bu dağın, bu qabaran-çəkilən dənizin yeri görünür. O havalarda olan ləngərin yeri görünür. O təzanənin, o biləyin, o barmağın, döndərmələrin yeri görünür. Ona görə də Kamandarın 75 illiyi də olacaq, yüzilliyi də olacaq, min illiyi də olacaq. Bizdən sonra o adam zaman-zaman yaşayacaq. Bizdən sonra dünyaya gələn sənət oğulları, sənət adamları, öz dədəsini-babasını yaxşı tanıyanlar, kökünü yaxşı dərk eləyənlər, türkün ruhuna tapınanlar, qanı qarışıq olmayan, südü qarışıq olmayan xalis Türk oğlu türklər, xalis borçalılar, xalis Azərbaycan türkləri həmişə Kamandarı çox böyük ehtiram və məhəbbətlə yad edəcəklər. Çünki o səs də var, o avaz da var, o havacat da var.

Məni bu gün sevindirən bir də odur ki, Aşıq Kamandar yolu ilə gedənlərin heç biri Kamandar olmasa da, onun yüzlərlə davamçıları var. O davamçılar Kamandarı həmişə yaşadacaq.

Təxminən 200-300 ildir "Aşıq Qərib" dastanı var. Onu kitablardan kimi oxuyurdu, kimi oxumurdu. Amma Aşıq Kamandarın "Aşıq Qərib"i bircə dəfə Azərbaycan televiziyasında oxumağıyla Qərib də dirildi, Şahsənəm də dirildi. Hələbdən Tiflisə gələn yolları da bütünlüklə əzbər bildik. Qarsda da namaz qıldıq. Yəni o, bu dastanı gözəlləşdirdi. Mən bu ifadələri ona görə işlədirəm ki, Kamandar bu dastanı elə danışdı ki, biz "Aşıq Qərib" dastanının vasitəsi ilə Türk dünyasının xəritəsini bir də gördük. Qəriblə birlikdə at minib o yolları bir də gəldik.

Aşıq Kamandar dastanda da böyükdür, şəxsiyyətdə də böyükdür, havacatda, sənətdə və sənətkarlıqda da böyükdür. O, azman sənətkardır və min illər boyu bu dünyada yaşayacaq. Heç kəsin tənqidindən, tərifindən, yazdığı kitabdan, yazmadığı məqalədən asılı olmayaraq Aşıq Kamandar böyüklüyü zaman-zaman nəsillərin yaddaşında yaşayacaq. Eşq olsun Kamandarı yetirən Borçalı mahalına, Kəpənəkçi kəndinə! Eşq olsun Azərbaycan türklərinə, Qıpçaq və oğuz türklərinə ki, XX əsrdə bizə Kamandar kimi bir oğul verib. Kamandar həm də XXI əsrdə yaşayacaq, ona görə ki, mən Zəlimxan Yaqub XXI əsrdə yaşayıram. Mən hardayamsa, orda Kamandar var. Mən hardayamsa, orda Kamandarın sazı var, sözü var, şagirdi var, yetirməsi var, onu sevənlər, onun pərəstişkarları var. Neçə ki, mən XXI əsrdə yaşayıram, o da mənimlə yaşayacaq. Məndən sonra bu gün bir yaş səkkiz aylıq olan nəvəmin sazında yaşayacaq. Yəni Kamandar belə yaşayacaq. Ona görə də o, bütün əsrlərin sənətkarıdır.

***"Ulu körpü" qəzeti,***
***25.10.2007***

## GÖYNƏRTİLİ XATİRƏ

Aşıq Xanları ilk dəfə Borçalı mahalında, Kürüstü Keşəlidə, şair dostum Osman Əhmədoğlunun toyunda ustad Mikayıl Azaflı ilə bir yerdə görmüşəm. Şirin sulu, şirin səsli, qarayağızın göyçəyi, qara sazın dilbiləni, gənc, odlu-alovlu bir aşıq idi Xanlar. O zaman şagird olsa da, Mikayıl Azaflının ona necə hörmət və ehtiramla, sevgiylə yanaşdığı, istedadı ilə öyündüyü, xoş sözlər dediyi indi də gözümün qabağındadı. Xanlar da gənc olmasına baxmayaraq, ustadın bu münasibətindən havaanmaz, əksinə, özünü ağır aparar, "Aşıq olub tərki-vətən olanın əzəl başdan pürkamalı gərəkdi" hikmətinə ustad-şagird ənənəsinə layiq şəkildə əməl edərdi. Aşıq Xanlarla o gündən bu günə dostluğumuz davam elədi.

1978-ci ilin qarlı-boranlı dekabr ayını xatırlayıram. Doğma kəndim Kəpənəkçidə mənim toy məclisim qurulmuşdu. Rəhmətliklər Aşıq Əmrah və Aşıq Hüseyn Saraclı məclisə ağsaqqallıq edirdilər. Aşıqlar da çox idi, xanəndələr də. Saz-sazı, söz-sözü, hava havanı çəkir, dastan dastana qarışırdı. Məclisin şirin yerində bir də nə görsək yaxşıdı – unudulmaz Mikayıl Azaflı, el şairi Mülkülü Həsən, Aşıq Xanlar bir dəstə özlərinə yaraşan bəynişan oğullarla öz şair dostlarını sevindirmək üçün qarlı-çovğunlu bir vaxtda Tovuzdan Bolnis-Kəpənəkçiyə gəliblər. Aradan 20 ildən çox vaxt keçir. İndi o sənətkarların heç biri dünyada yoxdu. Allah hər üçünə rəhmət eləsin. O məclisdə Xanların yaratdığı qara sazın tufanı indi də xatirələrdən silinmir. Xanlar o gün özü boyda oda dönmüşdü.

Tale elə gətirdi ki, mən də Xanların doğulduğu Əlimərdanlı kəndində onun toyunda ağsaqqallıq elədim.

Bu iki toy məclisindən məndə yaranan təəssüratı təfərrüatı ilə qələmə alsam, gözəl bir kitab yaranar. Yəqin ki, bu kitabı mən nə vaxtsa yazacağam. Nə isə...

Aşıq Xanların şəxsiyyəti və sənətkarlığı barədə nə deyə bilərəm. Saz adlı bir dünyası vardı. Özünü sazda tapmışdı. Ustad aşıqların ifa elədiyi, oxuduğu, çaldığı havalara özünəməxsus obyektiv təhlili və münasibəti vardı.

Tələbi çox yüksək idi. Hər ifanı ona bəyəndirmək olmurdu. Heç kəsin də halal haqqını danmazdı. Qiymətini çox düzgün müəyyənləşdirərdi. Sevdiyi ustad aşıqlar çox idi. İdealı, dilinin əzbəri Aşıq Əmrah idi. Ona sazın Allahı kimi səcdə edərdi. "Nizam" sözünü çox işlədərdi. "Filankəs filan havanı çox nizam oxuyur", – deyərdi. Danışığında təmkinli, söhbətində şirin və axıcı, məclisində atmacalı, zarafatcıl, sazında ağır və ləngərli idi. Sazı ağır-ağır çalar, başını gümüşü tellərin üstünə endirər, pərdələrlə ana-bala kimi dərdləşər, sazı incitməz, həmdərdini yumşaq danışdırardı. Pəsdən çalıb pəsdən oxumağın, laylanın, oxşamanın anası idi. Xanlar oxuyanda elə bilirdin anan sənə layla çalır, oxşama deyir, bayatı oxuyur. Oxumaqda da, çalmaqda da çığır-bağırın əleyhinə idi. Özü də kəlmə-kəlmə danışar, sazı da kəlmə-kəlmə danışdırardı. Xanların üççə havasına qulaq asmaq kifayət idi ki, dumduru durulub dağ çeşməsinə dönəsən. Hara gəldi özünü irəli atmazdı. Sazını da, söhbətini də baha satar, urvatda tutardı. Dünya malında gözü yox idi. İddialı adam deyildi. Allahın verdiyi qismətə qail olan idi. Xeyirxah idi. Dostlarına sədaqətli idi. Süfrəli, çörəkli idi. Qeybətdən zəhləsi gedirdi. Gözəl ömür yaşadı. Heç kəsin paxıllığını çəkmədi. Nəyi dedisə, sənətin müqəddəsliyini qorumaq naminə dedi. Gözəl zövqü vardı. Təbiətin seyrinə çıxmaqdan, çaylarla, çeşmələrlə görüşdən doymazdı. Bulaqların başında başını qara sazın üstünə endirəndə özü də bir qaynar bulağa dönərdi.

Böyükqışlaq dərəsində, Bahar bulağında, Cökəli bulaqda, Ceyrançöldə, Kür yaxasında, Girzanda, adını çəkmək imkan xaricində olan nə qədər müqəddəs yerlərdə xatirələri var Xanların. Ömrünün son illərini şəhərə bağlamışdı. Ancaq şəhərə sığmırdı. Genişliyə öyrəşən Xanlar darlığa sığışa bilmirdi. Nə etmək olar, heç kəsin taleyi öz əlində deyil. Hər kəsin alın yazısını tale özü yazır. Aşıq Xanların taleyi yazılanda İlahidən hökm belə buyurulub ki, "Sən 50 yaşa çatmamış dünyadan getməlisən!"

Aşıq Xanların ən böyük xoşbəxtliyi ondan ibarət oldu ki, xatirələrə dönə bildi. Onu tanıyanların hərəsində bir parça Aşıq Xanlar qaldı.

Mənim övladlarımın hər birində Aşıq Xanlarla bağlı neçə şirin xatirə qaldı. Sonbeşik oğlum Şəhriyara müraciətlə "Azaflı dübeyti" üstündə oxuduğu

Canım-gözüm, ay Şəhriyar,
Çay gətir Xanlar əminə.

– beyti ilə başlanan şeiri ailəliklə yaddaşımıza yazıldı. Xanlar bu şeiri baldan şirin zümzüməsi ilə astadan-astadan çox gözəl oxuyardı. Zaman gələcək, balaca Şəhriyar böyüyəcək, ancaq Xanlar əmisinin o avazı heç vaxt onun yaddaşından silinməyəcək.

Aşıq Xanların gözəl ailəsi, gözəl balaları var. İnanıram ki, onlar bu ağır itkidən sarsılsalar da, özlərini itirməyəcəklər. Atalarının sənətkar adına layiq olmaq üçün ləyaqətli ömür sürüb, Xanları nəvəli-nəticəli bir nəslə çevirəcəklər.

Xanların yas yerindən üçü günü çıxanam. O hadisədən sonra mən də möhkəm ağrıdım. Bilgəhdə müalicə olunurdum. Yanıma gəlib-gedən dost-tanışların çoxu bu qırx gündə tez-tez Xanlarlı günlərə, xatirələrə qayıdırdı. "Xanlarım" adlı ağı-xatirə şeir də bu nisgilli-göynərtili duyğuların bəhrəsidir.

## XANLARIM

Ayazlı bir qış axşamı,
Bəd gəldi vədən, Xanlarım.
Qara gəlmiş bir xəbərlə,
Bağrımı didən Xanlarım.

Ağrıdan ahı qabaran,
Könlümdə tufan qoparan,
Şimşək vuran, sel aparan,
Əlimdən gedən Xanlarım.

Havacatdan zərin vardı,
Saz adlı səngərin vardı,
Dağ kimi ləngərin vardı,
Hanı o bədən, Xanlarım.

Balaların yuxu yatmaz,
Yatanları saz oyatmaz.
Həkimlərin gücü çatmaz,
Dərindi zədən, Xanlarım.

Qarışan şərə nə deyim,
Nəhs düşən zərə nə deyim,
Oğlun Azərə nə deyim,
Tez getdin nədən, Xanlarım?

İşimiz dərd-azar oldu,
Ömrümüz tezbazar oldu,
Yerin vaxtsız məzar oldu,
Dəyirmanda dən Xanlarım.

Toyuna verdim yaraşıq,
Toyumda sən oldun aşıq,
Söndü ocaq, keçdi işıq,
Qayıtmaz ötən, Xanlarım.

Dağlar başı qar itirir,
Bağban ölür, bar itirir.
Millət oğullar itirir,
Yaş tökür Vətən, Xanlarım.

Çətin gündə, ağır anda,
Qəmli vaxtda, fağır anda,
Xanlar deyib, çağıranda,
Hayıma yetən Xanlarım.

Açmışdın, soldun gül kimi,
Canın qovruldu kül kimi.
Səndən ötrü bülbül kimi,
Mən oldum ötən, Xanlarım.

Süzülən yaşın olaram,
Çatılan qaşın olaram,
Bitib, başdaşın olaram,
Könlümdə bitən Xanlarım.

Kövrəlsə də el, oxuyaq,
Olaq coşqun sel, oxuyaq.
Dur bir "Sarıtel" oxuyaq,
Əcəli yetən Xanlarım.

Həyat yalan, ölüm doğru,
Zəlimxanın yandı bağrı.
Canımdakı nisgil, ağrı,
Saçımdakı dən, Xanlarım.
Şimşək vuran, sel aparan,
Əlimdən gedən Xanlarım.

***19.01.1999***

## ONUN YAŞADIĞI ÖMÜR

İkimiz də eyni ildə, eyni ayda dünyaya gəlmişik. 1950-ci ildə. XX yüzilliyin tən ortasında. O, yanvarın 5-də Tovuz mahalının Alımərdanlı kəndində, mən yanvarın 21-də Borçalı mahalının Bolnis-Kəpənəkçi kəndində. Allah ona da sazı buta vermişdi, mənə də. Xasiyyətimizdə, xarakteri-mizdə, təbiətimizdə oxşar cəhətlər çox idi.

Mən ona ömrüm boyu vəfalı oldum. Ancaq o, mənə qarşı vəfasızlıq elədi. Məndən çox tez və vaxtsız ayrıldı. 25 il dostluq elədiyim bir əvəzsiz dostu, saz dahisini 50 yaşında əllərimlə torpağa tapşırdım. Dünyanın bəlkə də nadir insanı idi ki, dərmansız, həkimsiz, heç kəsə əziyyət vermədən saz sinəsində öz ömrünə layla çala-çala mələk kimi uçub bu dünyadan getmişdi.

İndi öz-özümə fikirləşirəm. 25 illik bir dostluğu, qardaşlığı, mənəvi qohumluğu, ruh bağlılığını, ünsiyyəti, əlaqəni, gördüyümüz, keçirdiyimiz məclisləri, eşitdiyimiz söhbətləri, dastanları, şeirləri, atmacaları, zarafatları, acılı-şirinli günlərimizi bir xatirəyə, bir məqaləyə sığışdırmaq mümkündürmü?

Yox!

Yox!

Yox!!!

Mümkün deyil. Çünki onun yaşadığı ömür ustadların, ozanların, el ağsaqqallarının, el şairlərinin ömrü idi. Onun yaşadığı ömür sazın, məclislərin, bir-birindən ləngərli havaların, havacatların ömrü idi.

Yüz sazın içindən bir xalından tanıyırdım onun çaldığı havaları. Kiməsə təqdimat verməyə, başa salmağa, xatırlatmağa, “Bu, Aşıq Xanların havasıdır”, – deməyə

ehtiyac yox idi. Onun vurduğu xallar deyirdi: "Mən Aşıq Xanların barmaqlarından süzülmüşəm, mən onun xallarıyam, mən onun endərməsi, döndərməsi, eydirməsiyəm".

Aşıq Əmrah və Aşıq Ədalət kimi saz tanrılarından sonra o yüksəkliyə ucalmaq, özünəməxsus yol seçmək, seçilmək, əzizlənmək, xalq sevgisi, el məhəbbəti qazanmaq hər oğlun yox, ər oğlun işidir. Bu misilsiz işi Xanlar bacardı, özü də yaxşı bacardı. O, bir sənətkar kimi çox tez şöhrət qazandı. Bu şöhrət qısa bir vaxta bütün saz vurğunlarının əzizinə, istəklisinə çevirdi onu. Sadə idi, təvazökar idi, köhnə kişilər kimi ağır oturub batman gələn idi. Şöhrətini kiminsə gözünə soxub qürrələnməzdi. "Mən belə çaldım, mən belə oxudum" yekəxanalığından çox uzaq idi. Hamı onu sevirdi. Açıq ürəyinə, səxavətinə, qonaqpərvərliyinə, səxavətinə görə Allah onu şirin yaratmışdı.

Ömrünün ən təravətli vaxtında mən onu ilk dəfə Borçalı mahalının Keşəli kəndində, o mahalın şair oğlu Osman Əhmədoğlunun toy məclisində böyük sənətkarımız Azaflı Mikayılla birlikdə görmüşəm. Elə ilk görüşdən, ilk tanışlıqdan Tanrı bizi dosta, qardaşa çevirdi. Bu bağlılıq bu gün də övladlarımız arasında davam edir. Ata kimi Zəlimxan-Xanlar dostluğunu oğul kimi Bəhlul-Azər davam elətdirir. Mən onun havalarıyla nəfəs alır, o, mənim şeirlərimlə yaşayırdı. Haqqa şükürlər olsun ki, bu gün az da olsa mənim şeirlərim onun ifasında videolentin yaddaşında qalır.

Mən onu ilk dəfə görəndə qaraqaş, qaragöz, qarasaç, qarayağızın göyçəyi, qara sudan qaymaq tutan bir şirinliyə, cismani və mənəvi gözəlliyə sahib idi. Tale belə gətirdi ki, mən onun toy məclisinin ağsaqqalı oldum. Tovuz aşıqlarının iştirakı ilə keçən toy məclisi Xanların toyundan daha çox, elin saz-söz məclisinə bənzəyirdi. Kimlər yox idi o məclisdə. Aşıq İmran, Aşıq Əkbər,

Aşıq Ələsgər, Mikayıl Azaflı, Seyid Rza, Aşıq Əli, Aşıq Aydın. Kimlərin adını xatırlaya bilmədimsə onlardan üzr istəyirəm. Bu məclis Alımərdanlı kəndinin yox, bütün Tovuz mahalının məclisi idi. Bu, belə də olmalı idi, çünki sazın-sözün beşiyi olan Oğuz yurdunda, Tovuz mahalında Aşıq Xanların toyu belə keçməli idi.

1977-ci ildə Borçalıda – Bolnis-Kəpənəkçidə, mənim toyumda Mikayıl Azaflı, Həsən Mülkülü və Aşıq Xanlar da iştirak edirdi. Aşıq Əmrah Gülməmmədovun və Aşıq Hüseyn Saraclının ağsaqqallıq elədiyi bir məclisdə meydan almaq, sevgi qazanmaq çətin məsələ idi. Burda da Aşıq Xanların böyük istedadı dada çatdı. Aradan 33 il keçməsinə baxmayaraq, bu günün özündə də Aşıq Xanların o məclisdə yaratdığı saz möcüzəsini, saz tufanını Kəpənəkçi camaatı minnətdarlıq duyğuları ilə xatırlayır. Elə bil o gecə Allah yığıb-yığışdırıb nə ki qüdrət var hamısını Aşıq Xanlara ərməğan eləmişdi. Qara Xanlar qara başını qara sazın üstünə endirib insanları mat qoymuşdu, məclisi sehrləmiş, könülləri ovsunlamışdı.

Deməsin dəlidi huşsuz görəndə,
Yersiz qınamasın baxanlar məni.
Qalarmı başımda ağlım, kamalım,
Azdımı yandırıb yaxanlar məni.

Aşiqin istəyi, gözəlin nazı,
Gətirər hər ömrə baharı, yazı.
Bilər nə deməkdi aşığın sazı,
Duyar selə dönüb axanlar məni.

Ruhlar cərgəsində çəkər sanımı,
El deyər itirdim Zəlimxanımı.
Xalları, gülləri alıb canımı,
Ya saz öldürəcək, ya Xanlar məni.

Unudulmaz dostumun, əziz qardaşımın şərəfinə yazılan bu qoşma ona olan dərya sevgimin bir damlasıdır.

Mən onu dövlət tədbirlərində də, toy-nişan mərasimlərində də, səhnələrdə də həmişə alqış selinə düşən, gül-çiçək yağışında itən görmüşəm.

Heç yadımdan çıxmaz. 1994-cü ildə İstanbulda Azərbaycan ədəbiyyatı və incəsənəti günləri keçirilirdi. Türkiyənin indiki baş naziri Rəcəb Taib Ərdoğan onda İstanbulun bələdiyyə başqanı idi. İstanbulun ən böyük salonlarının birində mədəniyyət günlərinin açılış mərasimi keçirilirdi.

Azərbaycandan gedən nümayəndə heyətinin tərkibində Anar, Fərhad Bədəlbəyli, Fərhad Xəlilov, Ziyafət Abbasov, Rasim Balayev, Ramiz Əzizbəyli, Ramiz Rövşən, Aşıq Xanlar, bu sətirlərin müəllifi və başqa nümayəndələr iştirak edirdi.

O gün o səhnədə çoxları çıxış elədi. Hərəsinin öz yeri, öz gözəlliyi. Ancaq Aşıq Xanların çaldığı "Ruhani" havası Ərdoğan da başda olmaqla 3 min nəfərlik salonu alqış tufanı ilə ayağa qaldırdı. Azərbaycanın müstəqillik dövrünün ilk çağlarında Türkiyəyə təzə-təzə ayaq açdığı bir vaxta bu mənzərə təkcə Aşıq Xanların deyil, Azərbaycan ozan-aşıq sənətinin böyük bayramı, böyük qələbəsi idi.

Qış fəsliydi. Bilgəhdə müalicə olunurdum. Bir gün axşamüstü Xanlar öz telli sazını da götürüb bir neçə ürək dostu ilə mənim yanıma gəlmişdi. Dedi: – "Ay Zəlimxan, yaxşı eləyib gəlmişəm bura. Son zamanlar ürəyim sözümə baxmır, o ki, sən burdasan, mən də gələcəyəm müalicə olunmağa. Bəzi işlərim var, onları yoluna qoyum, mütləq gələcəm". Rəhmətlik özüylə bağlı bu sözü çox işlədərdi: "Mən oxumuram, ciyərimlə əlləşir, ürəyimə zülm verirəm".

Özünəməxsus bir təmkin və səbirlə yavaş-yavaş sazı köynəkdən çıxarıb kökləməyə başladı. O, sazı kökləyə-kökləyə həm də içini, ruhunu kökləyirdi. Özünü, sözünü, sazını tam nizama salanda başını qaldırdı mənə sarı:

– “Qardaş, ölüm-itim dünyasıdı, dünyanın işini nə bilmək olar? Deyirəm iki qardaş sazımızı qoşalaşdıraq, vaxta körpü salaq, harda ağlımız kəsər orda da dayanar, karvanı əyləyərik”.

Zəlimxan ola, Xanlar ola, sazlar qoşalaşa, indi gəl doy bu tamaşadan. Bütün sanatoriya bizim səsimizin işığına yığılmışdı. “Şahsevəni”, “Qəhrəmanı”, “Baş Sarıtel”, “Ovşarı”, “Dilqəmi”, “Süsənbəri” havaları qoşa səsdə, qoşa nəfəsdə dinləyiciləri göyün yeddi qatına qaldırdı. Məclisi başa çatdırıb söhbətə son verəndə, birdən Xanlar yuxudan ayılan kimi əllərini dizinə çırpıb çox böyük təəssüf hissi ilə dedi: – “Ayə, ay Zəlimxan, bu nə dərgah idi biz yaratdıq, heyf bunlar yazılmadı. Bir də belə çalıb oxumaq bizə qismət olacaqmı, nə bilim”. Mənim də ürəyimdən olan bu arzunu həyata keçirmək üçün söz verdim ki, heç narahat olma, mən müalicəmi qurtarıb Bakıya qayıdan kimi hökmən bu işi həyata keçirərik. Razılaşdıq, ayrıldıq. 10 gündən sonra mən Bilgəhdən evə qayıtdım. Onda mən Yeni Yasamalda yaşayırdım, evə gəlişimdən 3-4 gün keçmişdi. Bir gün gördüm səhər tezdən qapı döyüldü. Gələn Xanların ölüm xəbərini gətirmişdi. O xəbəri ki, yatanda yuxumuza, düşünəndə ağlımıza gəlməzdi. Ancaq başımıza gəldi, gördük. Mənim Xanlarım ölmüşdü. Elə bil məni ildırım vurdu, ürəyimi tutub divana yıxıldım...

Aşıq Xanları Tovuzdan, Alımərdanlıdan, Bahar bulağından, Cökəli bulaqdan uzaqda – Bakıda, Patamdar qəbiristanlığında torpağa tapşırdıq. Bu yerdə böyük şairimiz Hüseyn Arifin çox sevdiyim ölməz misraları yadıma düşür:

Qorxardım ağlamaqdan,
Ürəkdən qəh-qəh çəkib
Gülənlər olmasaydı.
Mən qorxardım ölümdən,
Məndən sonra dünyaya
Gələnlər olmasaydı.

Bu gün mənim üçün ən böyük təsəlli odur ki, Xanların ocağı sönmədi. Onun bağrının parası, gözünün nuru, böyük istedad sahibi Azər Xanlaroğlu onun yolunu, sənətini bir kişi qeyrəti ilə, çox ləyaqətlə davam etdirir. Hər dəfə Azərə qulaq asanda gözümün yaşını saxlaya bilmirəm. Xanlar gəlir durur gözlərimin qabağında. Boyu-buxunu da, çalğısı-havacatı da, ləngəri-təmkini də Aşıq Xanlardı ki, Aşıq Xanlardı. Ata üçün, sənətkar üçün bundan böyük nə xoşbəxtlik ola bilər.

Aşıq Xanlar sözün əsl mənasında xoşbəxt taleli sənətkardı. Ona görə ki, ata öz sənətkar və insan ömrünü övlad ömründə, Azər ömründə yaşayır. Xanlar bir də ona görə xoşbəxtdir ki, bu gün o tayda – Cənubi Azərbaycanda, Təbrizdə nə ki saz-söz vurğunu var onların hamısı Xanların xatirəsini çox əziz tutur, onun havaları ilə nəfəs alırlar.

Xanlar bir də ona görə xoşbəxtdir ki, onun Zəlimxan Yaqub kimi könül dostu, ruh qardaşı var. Bütün bunlar sərvətdir. Xalqın, elin-obanın milli və tükənməyən sərvəti.

Xanların ömrü sazın ömrü, “Baş Sarıtel” havasının ömrüdür. Saz yaşadıqca Aşıq Xanlar yaşayacaq, öz sehrkar sənəti ilə milyonları da yaşadacaq. Azər kimi bir övladın sənin sənət yurdunda ocaq kimi yanması münasibətilə sənin ruhunu təbrik edir, məzarın qarşısında baş əyib deyirəm:

Neçə dost ayrılıb, neçə yar gedib,
Gələn bu dünyaya təzə-tər gəlir.
Sazın meydanından bir Xanlar gedib,
Sazın meydanına bir Azər gəlir.

***Krım, Yalta,***
***15.06.2010***

## HƏR AŞIQ BİR ÜRFAN DÜNYASIDIR

Sevimli sənətkarımız Aşıq Əlinin şeirlər kitabına giriş yazmaq fikrinə düşəndə onunla bağlı duyğular, düşüncələr, yollar, səfərlər, xatirələr, otuz illik dostluğumuz, Tovuz mahalında, Bakıda, Azərbaycanın müxtəlif yerlərində yaşadığımız günlər, aylar, həftələr məni xəyal dünyasının qanadlarında çox-çox uzaqlara apardı.

Aşıq Xanlar Məhərrəmov, Aşıq Əli Quliyev, Aşıq Aydın Çobanoğlu və Zəlimxan Yaqub bu dünyaya təxminən eyni vaxtda gəlib. Bu dördlüyün ikisi haqq dünyasında (Allah rəhmət eləsin), ikisi də həyatdadır. Hər dördümüz saza, sözə, ədəbiyyata və musiqiyə eyni vaxtda gəlmişik. Bir otağın dörd divarı kimi bir-birimizə möhkəm bağlı olmuş, qibtə olunası dostluq duyğuları ilə yaşamışıq. Mən bu fikirdəyəm ki, qonaq olduğumuz bu dünyada harda, nə vaxt əlimizə fürsət düşürsə, bu dostluğa layiq olan işlər görməli, addımlar atmalıyıq.

Bu gün əlimə belə bir fürsət keçib. Aşıq Əlinin şeirləri, sənəti və şəxsiyyəti haqqında yazmaq fürsəti. Aşıq Əli həmişə bir şəxsiyyət kimi ləngərli, ağır taxtalı, götürümlü, köhnə kişilərə xas oturuşu, duruşu ilə, asta deyib, usta danışmağı ilə mənim diqqətimi çəkib. Aşıq Əli telli sazın uca zirvəsi Aşıq Ədalətdən dərs alıb. Aşıq Ədalət kimi bir saz nəhəngindən dərs alasan, onun tilsimindən çıxıb, özünə yeni cığır açıb yol salasan, bu, sənətkardan əsl hünər və istedad tələb edir. Aşıq Əli bu çətinliyin öhdəsindən gəlməyi bacarıb. Onun saz ifaçılığı artıq sənətdə öz möhürünü vurub, öz yerini tapıb. Ancaq səmimi etiraf edirəm ki, onun "Dilqəmi"si çox dəryalarda mənim çox gəmilərimi batırıb. Aşıq Əli məni öldürmək fikrinə düşəndə həmişə bu havanı çalıb.

Bu kitaba daxil elədiyi “Aşıq Əli, “Dilqəmi”ni bir də çal” şeirimi onun çaldığı “Dilqəmi” havası yazdırıb. Sonralar mən “Saz” poemasını yazanda “Dilqəmi” fəslini bu şeirlə başlamış, onu bu əsərə daxil etmişəm.

Əlyazmasının üz qabığında ürfan və dərviş sözlərinə diqqət kəsilirəm. Bəli, ürfan əhli olmaq üçün Allahdan vergin, Tanrıdan butan, Haqdan payın olmalıdır. Qırxlar piri, ərənlər məclisi, dərviş alması nə deməkdir, bunları dərindən duymalı və anlamalısan. Əslində hər bir böyük istedad sahibi olan aşıq ürfan əhlidir, dərvişdir. Onların heç nəyi yoxdur. Bir sazı var, bir sözü, bir də Haqqa bağlanan hörmətləri. “Qəm daşıyan dərviş oldum” ifadəsi əsl ozan-dərviş-aşıq kitabına yaraşan addır.

Aşıq Əli deməz yalan,
Eşqə düşüb oldum talan.
Malım, mülküm, varım olan,
Sazdan ötrü ölmürəmmi.

Çox gözəl demisən. Sazdan ötrü ölməsəydin, ruhumuzu diri və duru saxlaya bilməzdin. Sənətin ucalığı, böyüklüyü, sehri, ovsunu insanı öldürəndə insan dirilir. Mövlana həzrətləri demişkən: – “Xam olan yanır, yanan bişir. Bu da olur sənətin ucalığı, sənətkarın xoşbəxtliyi”.

Bir ah çəksəm külli-aləm əriyər,
Üstümüzə dağlar, daşlar yeriyər.
Dərd əlindən fağır canım çürüyər,
Əylən, baba dərviş, sənlə gedəyim.

Baba dərviş hamını özünə yoldaş eləmir. Qəlbi saf, ruhu təmiz, dili və əli halal, qəlbi pak, dünyası geniş olanları, Tanrıya doğru getməyə mənəvi haqqı olanları özünə yoldaş eləyir. Sən də bir dərvişsən, Aşıq Əli! Yunis və Hacı Bəktaş Vəli, Mövlana və Şəms dövrünün yox, Ələsgər və Şəmşir, Bozalqanlı və Aşıq Mirzə dövrünün, XXI əsrin dərvişisən. Bu dərvişlik sənin sazında,

sözündə, oxuduğun havalarda, yazdığın şeirlərdə, keçirdiyin məclislərdə, xalq sevgisində, el məhəbbətindədir. Kitabda toplanan gəraylılar, qoşmalar, təcnislər, divanilər, yazışmalar, deyişmələr, haqqında yazılan şeirlər, şair və aşıq dostlarına həsr etdiyin əsərlər hamısı bu əhli-ürfan dünyasının, dərviş təbiətinin çiçəkləri, meyvələrdir. Bu çiçəklər heç vaxt solmasın, bu meyvələr heç vaxt daddan düşməsin, Aşıq Əli!

Əliyəm, bu dünya qurulub belə,
İnsan yaranıb ki, bir zaman ölə.
Bir aşıq oxudub dinləsən, Lələ,
Gətir məzarımın başında dinlə.

Ölmək hələ tezdir, qəbir evindən söhbət açma! Yaşa, yarat, sev, sevil, əllərin pərdədən, sinən sazdan, dilin, dodağın layladan, barmaqların tellərdən, qəlbin həyat eşqindən ayrılmasın. Oxucularla yeni görüşün mübarək olsun! Dərviş yolu, ürfan məclisi səni zamandan-zamana aparan qoşa qanadın olsun!

***15.02.2011***

## MƏNİ SEVİNDİRƏN KİTAB

Aşıq poeziyasının, ümumən ədəbiyyatımızın ən uca zirvəsi sayılan böyük ustadımız Aşıq Ələsgərin adı, şəxsiyyəti, yaradıcılığı hamımız üçün əziz və doğmadır. Bu əzizliyin və doğmalığın səbəbi ondan ibarətdir ki, Aşıq Ələsgər bir böyük istedad sahibi kimi xalqımızın əxlaqi sərvətlərini, mənəvi dəyərlərini, adət-ənənəsini, toyunu-yasını, sevincini-kədərini, ictimai dərdlərini çox böyük ustalıqla, uca sənətkarlıqla öz əsərlərində əks etdirmiş, açıb göstərmişdir. Onun əsərlərində Azərbaycan təbiəti, onun dağları, düzləri, çayları, gölləri, bulaqları, göy yaylaqları bütün ətri, təravəti və gözəlliyi ilə öz əksini tapmışdır. Elə bu səbəbdən də onun bizə gəlib çatan zəngin yaradıcılığı özündən sonra gələn istedad sahiblərinin – şairlərin, aşıqların, bəstəkarların, xanəndələrin, müğənnilərin, rəssamların diqqətini çəkmiş, hər kəs öz imkanı daxilində bu böyük sənətkara öz töhfəsini vermişdir.

Aşıq Ələsgər irsinin toplanıb üzə çıxarılmasında, ustada layiq şəkildə xalqa çatdırılmasında görkəmli alim və şairlərimizin – Hümbət Əlizadənin, Əhliman Axundovun, İslam Ələsgərlinin, Həmid Araslının, Mürsəl Həkimovun, Səttar Axundovun, Osman Sarıvəllinin, Hüseyn Arifin, Məmməd Aslanın, İlyas Tapdığın, Vaqif Vəliyevin və s. böyük və danılmaz xidmətləri olmuşdur.

Xüsusən, Aşıq Ələsgər irsinin geniş şəkildə araşdırılmasında, öyrənilməsində, tədqiqində Hümbət Əlizadənin daha çox xidməti olmuşdur.

Aşıq Ələsgərin sağlığında kitabı nəşr edilməmişdir. İlk nəşri 1937-ci ildə Hümbət Əlizadənin tərtib etdiyi "Aşıq Ələsgər" adlı kitabı olmuşdur. Bundan sonra müxtəlif illərdə ustadın kitabları dolğunlaşa-dolğunlaşa,

təkmilləşə-təkmilləşə nəşrdən-nəşrə daha mükəmməl şəkildə çap olunmağa başlamışdır. İldən-ilə onun yaradıcılığına maraq daha da güclənmiş, xalqımızın görkəmli alimləri onun yaradıcılığını bütün yönlərdən, müxtəlif istiqamətlərdən təhlil və tədqiq etmişlər.

1972-ci ildə ustadın anadan olmasının 150 illiyi, 1988-ci ildə 175 illiyi çox böyük təntənə ilə qeyd edilmiş, əsərləri Azərbaycan Elmlər Akademiyası tərəfindən iki cilddə çap edilmişdir.

Bəstəkarlarımızdan Bayram Hüseynli, Qəmbər Hüseynli, Səid Rüstəmov, Hacı Xanməmmədov və başqaları Aşıq Ələsgərin əsərlərinə dillər əzbəri olan musiqilər bəstələmişlər. Ümumiyyətlə, elə bir bəstəkar, xanəndə, müğənni, aşıq təsəvvür eləmək olmaz ki, o, Aşıq Ələsgər yaradıcılığına müraciət etməmiş olsun.

Bu gün məni sevindirən bir yeniliklə qarşılaşıram. İlk dəfə olaraq Aşıq Ələsgərlə bağlı "Biblioqrafik göstərici" nəşr olunur. Aşıq Ələsgərin anadan olmasının 190 illiyinə həsr olunan bu göstərici M.F.Axundov adına Milli Kitabxananın əməkdaşları Sevgiyə Əsədova və Gülbahar Misirovanın tərtibatçılığı, Mədinə Vəliyevanın redaktorluğu, Milli Kitabxananın direktoru Kərim Tahirovun ixtisas redaktorluğu ilə işıq üzü görür. Baxmayaraq ki, bu vaxta qədər Aşıq Ələsgər yaradıcılığı ilə bağlı çox iş görülüb, bu biblioqrafik göstərici ilk dəfə nəşr olunur və böyük tarixi-ictimai əhəmiyyəti var. Tarixi əhəmiyyəti ondan ibarətdir ki, böyük sənətkarın həyatı, yaradıcılığı, ayrı-ayrı şeirləri, kitabları, haqqında yazılan elmi məqalələr, müxtəlif illərdə və müxtəlif dillərdə nəşr olunan əsərləri xronoloji ardıcıllıqla oxuculara təqdim olunur. Bu işdə tərtibçilərin zəhmətini xüsusi qiymətləndirirəm, ona görə ki, ilk təşəbbüs həmişə daha məsuliyyətli, daha çətin olur. Onlar bu çətinliyin öhdəsindən uğurla gələ bilib, bu kitabla ustad sənətkarımıza yeni bir ədəbi abidə qoyublar. Biblioqrafik göstəricinin

bir gözəlliyi də ondadır ki, böyük sənətkarın yaradıcılığı, həyatı, əsərləri rus dilində də oxucuya təqdim olunur. Bu isə Aşıq Ələsgər yaradıcılığından istifadə edən rusdilli oxucular üçün də geniş imkanlar açır.

Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Aşıqlar Birliyinin "Aşıq Ələsgər" ili elan etdiyi 2011-ci ildə belə bir kitabın nəşrini mən ustadın ruhuna bağışlanan ən qiymətli hədiyyə hesab edir, bu kitabın araya-ərsəyə gəlməsində zəhməti keçən hər bir əməkdaşa ürəkdən təşəkkür edirəm.

***22.07.2011***

## QOPUZDAN SAZA GƏLƏN YOLDA

Müqəddəs qaynaqlara, sarsılmaz dayaqlara, əbədiyaşar tarixi ənənələrə bağlı olan, ən qədim sənət olsa da, heç vaxt köhnəlməyən, nə qədər sirləri açılsa da, yenə sirr olaraq qalan ozan-aşıq sənətinin dünəni, bu günü və gələcəyi yüksək səviyyəli tədqiqatçıların həmişə diqqət mərkəzində olub. Coğrafi ərazisi, mənəvi dünyası bütün Şərqi əhatə edən, ozandan aşığa, qopuzdan saza doğru yorulmadan yol gələn, hər gün təkmilləşən, kamilləşən saz havalarının nota alınması haqda son illərdə hər yerdə çox maraqlı söhbətlər gedir.

Mütəxəssis alimlərin, ziyalıların fikri bundan ibarətdir ki, saz havaları bütünlükdə nota alınmalı, millətin əbədi sərvətinə çevrilməlidir. Mən də bu fikirlərlə tam razıyam. Ancaq bir həqiqət də var ki, sazı Tanrı dərgahına qaldıran Əmrah Gülməmmədov və Aşıq Ədalət kimi ulu və uca sənətkarlar notu bilməyə-bilməyə fitri istedadı, güclü fəhmi və musiqi yaddaşı ilə bütün havalara ölməzlik və ucalıq gətirdilər. O vaxta qədər notu olmayan saza notsuz elə bir möhtəşəmlik gətirdilər ki, bu möhtəşəmlikdən bu gün hamı bəhrələnir, hamı öyrənir.

Təəssüf ki, son 20-30 ildə ustad-şagird ənənəsi qırılıb. Qırılan bu ənənəni bərpa etməyin ən yaxşı yolu saz havalarının nota köçürülməsidir. Burda da təəssüf hissi keçirirəm ki, sazın kamil və azman ustadları bu gün həyatda yoxdur. Çox yaxşı olardı ki, saz havaları həvəskarların yox, əsl sənətkarların ifasında nota köçürüləydi. Onun effekti və estetik dəyəri başqa cür olardı. Ancaq yenə olana və qalana şükür demək lazımdır. Bəstəkarlarımız birbaşa sazın not məsələləri ilə məşğul olmasalar da, dahi Üzeyir bəydən tutmuş F.Əmirova, Q.Qarayevə,

S.Ələsgərova, C.Cahangirova, Aqşin Əlizadəyə qədər adı çəkilən müəlliflər saz havalarından lazımi qədər bəhrələnmişlər.

Bu gün sazın nota köçürülməsi məsələsi zamanın tələbi, dövrün mənəvi ehtiyacıdır. Ancaq burda çox ehtiyatlı olmaq lazımdır. Not kitabı yazanlar bu sahədə son dərəcədə hazırlıqlı və ehtiyatlı olmalıdır ki, səhvlərə yol verilməsin. Müqəddəs və düzgün istiqamət əyilməsin. Düzdür, bu vaxta qədər bəstəkar S.Kərimi, A.Quliyev, M.Əliyevin yazdığı "Saz məktəbi", Çingiz Mehdioğlunun yazdığı "Qopuz məktəbi" kitabları nəşr olunub. Ancaq bunlar böyük yolun başlanğıcıdır. Elə bu mənəvi ehtiyacı ödəmək üçün o taylı-bu taylı Azərbaycanın böyük saz ustadı, sazın həm elmi, həm də irfani tərəfini çox gözəl bilən görkəmli sənətkarımız Çingiz Mehdioğlunun 2 cilddə "Qopuz (saz) məktəbi" kitabını mən öz tərəfimdən ədəbi-mədəni hadisə adlandırıram. Sazla texniki davranış qaydalarından tutmuş, ən yüksək səviyyədə təqdimatına qədər Çingiz tam dərinliyi ilə bu sahənin təfərrüatına vara bilib, mahiyyətini açıb. Sazı ən yüksək səviyyədə mükəmməl bilməyən adam heç vaxt saza bu dərinlikdə müdaxilə edə bilməz. Çingiz Mehdioğlunun xoşbəxtliyi ondadır ki, o, çox yüksək səviyyəli mütəxəssisdir. Həm ustad aşıq kimi, həm də aşıq sənətini, saz havalarını mükəmməl bilən alim kimi. Ona görə də inanıram ki, onun çox böyük elmi və texniki zəhmət hesabına başa gələn "Qopuz (saz) məktəbi" kitabı mütəxəssislər, müəllimlər, tələbələr tərəfindən yüksək məhəbbətlə qarşılanacaq, saz havalarının tədrisində olan nöqsanları aradan qaldıracaq, gələcəyimizə düzgün istiqamət verəcəkdir.

Mən müqəddəs yaradıcılıq yolunda ustad sənətkarımıza daha böyük yaradıcılıq uğurları arzulayıram.

***13.07.2011***

## QARABAĞ – QEYRƏT QALAMIZ

Nədənsə Qarabağ deyiləndə ilk dəfə xəyalıma alınmaz Şuşa qalası gəlir. Ucalığına görəmi, tarixi şərəfinə görəmi, musiqi beşiyi olduğuna görəmi? Bilmirəm! Bircə onu bilirəm ki, harda qalamız varsa, orda basılmazlığımız, düşmənə meydan oxumağımız var.

Gözəlliyə, gözələ könlünü bağlayanda
Füzuli "heyrət!" – dedi.
Millətinin halına güləndə, ağlayanda
Sabirim "Qeyrət!" – dedi.
Heyrət ilə qeyrəti yoğurdular, yapdılar,
Hər biri bu dünyada həyat qədər qalası,
Azərbaycan şeirinin
Biri heyrət qalası!
Biri qeyrət qalası!

Azərbaycanın ağır günündə, millətin dar ayağında mənəvi qalalarımız olan Xətaini, Koroğlunu, Nəbini, Qaçaq Kərəmi Koroğlu qalası, Ərk qalası, Şuşa qalası kimi özümüzə səngər eləməsək, Füzuli heyrətini, Sabir qeyrətini qoşa qanada çevirməsək, torpağın hər qarışını inam yerinə, əqidə beşiyinə döndərməsək heç bir qələbədən söhbət gedə bilməz!

Xalqımızın tarix boyu yaratdığı ölməz sənət abidələri – bayatılar, nağıllar, dastanlar bugünkü nəsillər üçün ibrət dərsi olmalıdır!

Bir bayatının yaşatdığı bir dünya hikmətə fikir verin:

El gözü sərdar gözlər,
Sərdar başı dar gözlər.
Hər igid bir sərdardır,
Görə bilsə dar gözlər.

Xalqın taleyi bizdən tələb edir ki, dargözlüyü, xəbisliyi, mənəm-mənəmlik xəstəliyini birdəfəlik yaddan çıxardaq. Kökünə tapınan, özünə qayıdan, milli mənliyini dərk edən, müstəqillik yolunda kövrək addımlarını atan Azərbaycanı ancaq və ancaq güclü əqidələr, böyük inamlar xilas edə bilər! Hər kişiyə Koroğlu, hər oğula Xan Eyvaz kimi baxmasaq, igidlərimizə verilən qiymətdə xəsislik eləsək, ağsaqqallarımızı Allah gözündə görməsək Allah bizə qənim ola bilər.

Gəlin bir anlığa keçmişə boylanaq. Teymurla İldırımı, Sultan Səlimlə Xətaini, xanlıqlar dövründəki qardaş qırğınlarını, tayfa psixologiyasını yadımıza salaq və fikirləşək!

Biz dünənki böyük səhvlərin ağrı-acısını daddığımız kimi, gələcək nəsil də bizim səhvlərimiz ucundan, bizim ağılsızlığımız hesabına sonsuz bəlalara düçar olmasın!

Bu gün acı bir həqiqət hamı tərəfindən etiraf olunmalıdır. Gözümüz baxa-baxa görməmişik, qulağımız ola-ola eşitməmişik, dilimiz ola-ola danışmamışıq. Kar olmaq, lal olmaq, kor olmaq mütiliyinə öyrəşmiş, ağlımız kəsə-kəsə mənəviyyatımızı şikəst eləmişik.

Rəhmət sənə, böyük Sabir! "Görmə, baş üstə, yumaram gözlərimi!" İlahi, gərək daş olasan ki, bu misranın daşıdığı mənanın dəhşətini dərk etməyəsən. Gərək dəmir olasan ki, bu ölməz sənət əsərini yaradan kişinin ağlının üsyanına, qəlbinin fəryadına, gözlərinin yaşına dözəsən, tab gətirə biləsən!

Qarabağ niyə qara taleyimizə döndü? Çünki toxun acdan xəbəri olmadı! Xocalı niyə yandı, kül oldu? Çünki başına kül olmuş rəhbərlər xalqa arxa durmadı! Yanıb qaralmış kəndlərimiz niyə nəslimizin yaddaşına qara möhür kimi basıldı? Çünki möhür yiyəsi, səlahiyyət sahibi olan adamlar qaçqınlara, didərginlərə biganə qaldı. Niyə bizə Allahın qəzəbi keçdi? Çünki Allahsız olmağımızla zaman-zaman fəxr elədik. Daha bəsdir! Bıçaq

sümüyə dirənib, qaradan artıq rəng olmaz. "Səhv etməyən bir Allahdı" – deyiblər. Gəlin zamanın acı dərslərindən ibrət alaq!

Yenə bir xalq deyiminə üz tuturam:

Əzizinəm, nə qıyam,
Zülfün eylər nə qiyam.
Sən canından nə qıydın,
Mən canımdan nə qıyam.

Vətənin taleyi təhlükədə qalanda millətin qeyrəti sınağa çəkiləndə, xalq öz dünəninə və sabahına qarşı ciddi məsuliyyət daşıyanda, canımızı qıymağı bacarmasaq, Vətən yolunda ölümün ölümsüzlük şərəfini duya bilməsək cəmiyyət bizə heç nəyi qıyan deyil! Təbiət bizə heç nəyi bəxş etməyəcək!

Şuşanın tarixi şöhrəti sayılan ulu şairə nənəmiz Natəvanın kövrək və unudulmaz misralarını xatırlayıram:

Varımdır sinəmdə dərdi-qəm nihan, ölürəm,
Fəda olum sənə, gəl eylə imtahan, ölürəm!

Öz-özümə düşünürəm: On yeddi yaşında oğul itirən, vaxtsız oğul həsrəti, bala dağı görən həssas ürəkli, bənövşə təbiətli Natəvan Şuşanın bu gününü görsəydi, görəsən, nə hala düşər, nə yazar, nədən danışardı, görəsən, Şuşanın bu günündə Xan "Qarabağ şikəstəsi"ni nə cür oxuyar, Bülbül

Qalada yatmış idim,
Top atdılar oyanmadım.

– mahnısını necə dilə gətirərdi. Görəsən, Bülbülün ruhu duydumu ki, doğrudan da top atdılar, oyanmadıq, əgər vaxtında oyansaydıq bu faciələrin heç biri olmazdı. Ruhdan düşmürəm! Su axan yerdən bir də axar deyiblər. İnanıram ki, qələbimiz, haqq işimizin nurlu sabahı uzaqda deyil!

Gözəllər gözəlimiz, müqəddəs məkanımız Qarabağ! Bir də onu deməliyəm ki, sənin başına nələr gəlibsə şöhrətinə, adına, maddi və mənəvi sərvətlərinin tükənməzliyinə görə gəlib. Heç görmüsənmi ovçu ova çıxanda çaqqala, tülküyə güllə ata, həmişə pələngi susdurmağa çalışır, meşədə min ağac olsa da ildırım həmişə palıdı vurur, dünya gözəli dedi-qodu hədəfi olur, qar uca dağların başına yağır, zamanın dərdini böyük istedadlar çəkir. Sənin də qismətinə bu ulu məqamlar, ali keyfiyyətlər düşüb.

Qəm yemə, qəddini əymə, gözəlliyinlə çoxlarının gözünü tökmüsən, olan oldu, innən belə tale bir tükünü qara yelə pay eləməsin! Qoru bizi, qoru özünü, qoru gələcək şərəfimizi! Ustad şairlərimizdən olan Əbdülxalıq Cənnətinin bir beyti ilə dərdinə dərman tapıb, yarana məlhəm qoyuram:

Zülm evi qalar, gör Kəbətullah olsa da,
Qan içən şəxsin içərlər qanın, Allah olsa da!

Zülm evi Allahın evi olsa belə, dağılmalıdır! Böyük Nəsimi demişkən:

Həq mənəm, həq məndədir, həq söylərəm,
Bulmuşam həqqi, ənəlhəq söylərəm!

Qarabağım, qeyrətimin qalası! Haqq sənsən, haqq səndədir, həqiqət sənin tərəfindədir! Cəbrayılın qanadı, Qorqudun xeyir-duası, Cabbarın muğamı səni bütün bəlalardan qorusun! Amin!

***10.04.1992***

## XOCALI FACİƏSİ

"Allah, Məhəmməd, ya Əli" – dedilər. Ancaq o gecə nə Allah, nə Peyğəmbər, nə imamlar xocalıların səsini, harayını eşitmədi. Eşidə də bilməzdi. Çünki biz o zaman Vətənin, torpağın, millətin taleyini düşünmək əvəzinə, Allahın yoluna yox, şeytanın yoluna qulluq eləyib daxili didişmələrlə, dedi-qodularla məşğul olmuşduq. O gecə dişindən dırnağına, dirsəyindən dizinə qədər alçaq, rəzil və amansız düşmən Allahın və Məhəmmədin, Quranın və kitabın, İslamın və Türkün qanına susayıb bizim kökümüzü qazımaq, nəslimizi kəsmək üçün var qüvvəsini sərf eləyib hücuma keçmişdi. Nağıllarda eşitmədiyimiz, kitablarda oxumadığımız, kinolarda görmədiyimiz, ancaq bu gün qanlı kitabımıza, qorxulu yuxularımıza dönən Xocalı faciəsi dünyanın faciəsi idi.

Sim bağlar,
Yaralarım sim bağlar.
O gün yada düşəndə,
Yaralarım sim bağlar.

Cənazəsi yuyulmayan, kəfənə tutulmayan, məzarı qazılmayan, Quranı oxunmayan, çöllərdə qurda-quşa yem olan, toyu çalınmayan, əli xınalanmayan, gəlini sonalanmayan insanlığın və insanların faciəsi idi, insanlığın və insanların dərdi idi Xocalı dərdi...

Qazan ağlar,
Od vurar, qazan ağlar.
Qərib yerdə ölənin
Qəbrini qazan ağlar.

Daşdı canı,
Kəkliyin daşdı canı.

Bilən yox nə çəkirəm,
Deyirlər daşdı canı.

Ölənlər, itənlər, qaçanlar, köçənlər, sürünənlər, onların bu gün sizinlə üzbəüz dayanan yadigarları...

Bu gün Azərbaycan xalqını çoxlu yaralı suallar düşündürür. Axşam olanda saçınızı kim sığallayır? Gecə olanda laylanızı kim çalır? Səhər olanda alnınızdan kim öpür? Gündüz olanda qayğınızı kim çəkir? Bu suallar bu saat başının üstündə Allahı, ayağının altında torpağı, qəlbində vicdanı olan hər bir insanı, hər bir vətəndaşı düşündürür. Xocalı müsibəti bizə təzə dərd deyildi. Xocalı 1905-ci ildə Göyçə qırğınından başladı, təxminən. Mən qədimlərə getmirəm, 1918-ci ildə Bakıda, Gəncədə, Şamaxıda, Qubada Mart qırğını ilə faciələndi. 30-cu illərdə qanlı repressiyalar başlandı.

Ə.Cavadı qanına qəltan elədi, Cavidi Sibirdə çürütdü, Müşfiqi güllələtdi, S.Vurğunu 50 yaşında xərçəng xəstəliyinə saldı. 90-cı illərdə arzularımızın və müstəqilliyimizin üstündən tanklar yeridi sağdan sola, soldan sağa xışdadı, gözümüzün odunu aldı ki, bu millət ayılmasın, bu millət durmasın, bu millət silkələnməsin, bu millət haqqını almasın. Ancaq elə deyil. Tarixin öz axar-baxarı var. Xocalı qırğınında biz günahkarıq. Xocalıda o müsibətlər olmaya bilərdi. Xocalı müsibətləri olmasa idi Şuşanın, Laçının, Kəlbəcərin heç bir müsibəti olmayacaqdı. Vahiməni Xocalıda başladı alçaq və qəddar düşmən. Baxıram bizim gözəl balalarımıza, baxıram onların dünyasını dəyişən əzizlərinə, deyirəm, nəydi sizin günahınız? Düşməndən əvvəl Xocalının günahkarı biz idik. Biz özümüz idik.

Tufana, məşələ dönə bilərdik,
Sıyrılmış xəncərə dönə bilərdik,
Allahu-əkbərə dönə bilərdik,
Döyüşdə səngərə dönə bilərdik,

Torpaqda əsgərə dönə bilərdik.
Dünya bizdən ötrü Məhşərə döndü,
Qoruya bilmədik məzarınızı,
Qoruya bilmədik qeyrətinizi.

Yurdun işığını nurunu satdıq,
Odunu, közünü qorunu satdıq.
Satdıq, dədəmizin gorunu satdıq,
Qaniçən yağının ixtiyarına
Qəbiristan da verdik, qəbir də verdik.
Utanmaz-utanmaz hələ bir durub,
Bu xalqa öyüd də, səbir də verdik.
Hər şeyi qoruduq qeyrətdən özgə,
Hər şeyi qoruduq ismətdən özgə,
Qoruya bilmədik məzarınızı.

Könül adamları, ruh adamları, o Şuşanın bağrında Qarabağa heykəl yapan oğulların əməyini itirdilər. Vaqifə heykəl yapan kişilərin əməyini itirdilər.

Könül adamları, ruh adamları,
Ağrı adamları, ah adamları,
Saflıqda dünyanın şeh adamları,
Ulu məmləkətin şah adamları,
Belimiz qırıldı şah damarından,
Qoruya bilmədik məzarınızı.

Xocalı soyqırımına, Xocalı faciəsinə düşmənlərin münasibəti nədir, bilirik, ancaq özümüz hesabat verməliyik belə bir tarixi gündə. Xocalı soyqırımı qeyrətsiz başçıların, küt başların, köntöy münasibətlərin, kor gözlərin, kar qulaqların, lal duyğuların, daş sifətlərin yadigarıdır ki, Azərbaycan xalqına yadigar qaldı.

Kölgələnə,
Gün düşə kölgələnə.
Kül o mərdin başına,
Namərdə kölgələnə.

Ulu Cavidimiz, heykəlləşən Cavidimiz, əqidə, etiqad sahibi olan Cavidimiz, elə bil 30-cu illərdən üzünü tutub Xocalı soyqırımına və deyib:

İdrakı soyuq başçıların qəfləti ancaq,
Etmiş, edəcəkdir, milləti əllərdə oyuncaq.

Baxıram bu sızıldayan, uyuşan, üşüyən səslərə və deyirəm, Xocalının dərdi təkcə Xocalılarınmı dərdidir? Yox! Azərbaycanınmı dərdidir? Yox! Bütün Türk dünyasının, İslam aləminin, müsəlmanlığın dərdidir.

Çəkənə ver,
Qəlyanı çəkənə ver.
Mən dərdi çəkəmmirəm,
Məndən al, çəkənə ver.

Xalq bu sözü təsadüfən deməyib. Mənə elə gəlir ki, belə bir tarixi gündə belə bir tarixi sözü deməyə borcluyuq ki, Xocalı təkcə bizim üçün dərd olmamalıdır. Yaramıza köz basan, sinəmizə duz basan, gecə yuxumuzu, gündüz qərarımızı əlimizdən alan, bizi haqq və həqiqət yolunda, torpaq və millət yolunda, ədalət yolunda əbədi döyüşə, əbədi mübarizəyə səsləyən, hər səhifəsi qan ilə yazılmış dərslik kitabıdır. Xocalı bizim dərsliyimizdir. Bu gündən sonra alimlərimiz Xocalı adında ayrıca dərslik kitabı yazmalıdır və o, bütün nəsillərə tədris olunmalıdır, bütün nəsillərdə o kitab ən müqəddəs yerlərdə saxlanmalıdır. Qızlara cehiz verilməlidir ki, gör sənin taleyin necə olub, gör sənin taleyini necə hərraca qoyublar, gör səninlə necə oynayıblar. Yəni Xocalı bu gün təkcə dərdimiz yox, həm də dərsimizdir.

Mən baxdım bu sızıltılara, istədim mən də boynumu bükəm, mən də bunlara qoşulub ağlayam. Birdən qulağıma bir səs gəldi, Məhəmməd Hadinin səsi:

Məyus olma, amandır,
Məyus olmaq yamandır.

Qorxaq diləksiz yaşar,
Millətin qəhrəmandır.

“Qəhrəman” sözü, “qəhrəman” ifadəsi tutdu yaxamdan, məni elə silkələdi ki, “sən nə danışırsan Kəlbəcər kimi ucalığı gedən, Şuşa kimi qalası gedən, Laçın kimi səngəri gedən, Ağdam kimi xəzinəsi gedən, Qarabağ kimi gözəlin ismətinə ləkə düşən bir millətin adına da qəhrəman demək olarmı?” Bir səs yenə gəldi arxadan, olar, əgər dövlətlə millətin, xalqla hökumətin, iqtidarla müxalifətin sağlam qüvvələrini birləşdirə bilsək, içimizdəki dedi-qodunu, kini-küdurəti çıxardıb kənara tullayıb, onun yerinə Allah eşqini, Peyğəmbər nurunu, insan məhəbbətini, torpaq sevgisini qoya bilsək olar. Niyə olmur?

1914-cü ildə Çanaqqala savaşında Türk dünyasının taleyini xatırladıram. Bir donanma tamam qırılmışdı, bircə çavuş qalmışdı. Əl atdı, 274 kq ağırlığında top mərmisini götürüb atdı və yarım dünya ingilis gəmisini parça-parça elədi. Bir çavuşun qəhrəmanlığı bir millətin taleyini xilas elədi. Və 1921-ci ildə respublika elan olunanda Mustafa Kamal paşa həmin əsgəri fəxri qonaq kimi çağırmışdı. Dedi: “Əsgərim, de görüm necə oldu sən o mərmini təkbaşına qaldıra bildin?” Əsgər dedi: “Paşam sağ olsun, onu mən qaldırmadım. Torpağın taleyi, millətin qeyrəti, Türk dünyasının əzəli, axırı, kökü, budağı, ərləri, ərənləri əl-ələ, səs-səsə, nəfəs-nəfəsə verdi, dedi at əlini, mən qaldıracam. Onu qaldıran qaldırdı, mən qaldırmadım”.

Bu gün Xocalının ibrət dərsi ondan ibarət olmalıdır ki, həmin o Türk əsgəri o mərmini qaldıranda hansı inamla yaşamışdısa, biz o inama qayıda bilsək, biz bu qələbəni çalacağıq, biz düşməndən hayfımızı alacağıq. Bütün məğlubiyyətlərin hamısı didişmələrin, çəkişmələrin məhsuludur. Bütün qələbələrin hamısı birləşmələrin məhsu-

ludur, bağlanmağın, can deyib can eşitməyin məhsuludur. Min dəfə üzr istəyirəm, bütün əxlaqsız adamlar, əxlaqsız ailələrdə böyüyənlər sonra cəmiyyətin başına faciə gətirən adamlardır. Böyük şəxsiyyətlər, böyük sərkərdələr hamısı qüdrətli ailələrdə böyüyüb milləti xoşbəxt eləyən adamlardır. Bir də səs gəlir Xocalıdan "olar", Ali Baş Komandanın, sərkərdənin arxasında dağ kimi dayansaq, səngər kimi bərkisək, qoşun kimi yerisək, əsgər kimi döyüşsək, bir can, bir ürək olsaq qələbə çalmağa nə var.

Nurlu axşam düşər, qızıl dan olar,
Qızıl sünbül bitər, qızıl dən olar.
Millətin dirəyi qızıldan olar,
Daşlar gül bitirər, qayalar çiçək,
Bu gün yumruq kimi birləşə bilsək.

Bizə nə lazımdır – ağız birliyi,
Ağ bəxtə yol açan ağ üz birliyi.
Qıpçaq qıvraqlığı, Oğuz birliyi,
Olsaydı Xətai, Yavuz birliyi,
Axmazdı ildırım, çaxmazdı şimşək,
Yuyardıq tarixi günahları da
Bu gün yumruq kimi birləşə bilsək.

Torpağa kimi qan, kimi tər verər,
Ana oğul verər, qadın ər verər.
Bu xalqın gücünə bələdəm, vallah,
Təzədən dünyaya Peyğəmbər verər,
Könül bulandırmaz arada milçək,
Bu gün yumruq kimi birləşə bilsək.

Ağıllı başçılar başa tac olar,
Bir dərdə min dərman, min əlac olar.
Yaxşılıq hamıya ehtiyac olar,
Bir canda döyünər neçə min ürək,
Bu gün yumruq kimi birləşə bilsək.

Ağacın dalınca yarpaq gedəcək,
Torpağın dalınca torpaq gedəcək,
Qanımız getdisə, canımız gedir.
Baş getdi, dalınca papaq gedəcək,
Dünya şirinlikdən, daddan çıxacaq,
Papaq unudulub yaddan çıxacaq.
Ləçək bağlanacaq başlara, ləçək,
Bu gün yumruq kimi biz birləşməsək.

Göydə tutulsa da gün ahımızdan,
Tarix keçməyəcək günahımızdan.
Nigaran qalmışıq bu günümüzdən,
Bizim arxamızca gələn nəsillər
Nigaran qalacaq sabahımızdan.
Yırtıldı, sırtıldı bəndələrimiz,
Əlimiz üzüldü Allahımızdan.
Yağsın üstümüzə lənət daşları,
Yağsın başımıza göydən daş, kəsək,
Bu gün yumruq kimi biz birləşməsək.

Biz birləşməsək, aydındır nəticə nə olar. Vətən əgər dardadırsa, ölünün də haqqı yoxdur məzarda rahat yata, vəzifəsi dirilməkdir, yeri gəlsə kaman kimi gərilməkdir. Vətən əldən gedən günü vətəndaşın qalır bircə vəzifəsi, bir kəndirdir, yağlı kəndir, bir boğazdır, bir ilməkdir. Allah bu xalqın boğazını bu yağlı kəndirdən, yağlı ilməkdən saxlasın.

Havalar soyuqdur, aralar sərin,
Güllələr qansızdır, yaralar dərin.
Qandal ayaqların, buxov əllərin,
Qıfıllar dodağın faciəsidir.

Birinin yerində beşi yoxdusa,
Gülləyə verməyə döşü yoxdusa,
Yolunda ölməyə kişi yoxdusa,
Vətənin, torpağın faciəsidir.

Mən baxıram bu balalara. Görürəm ki, Xocalının hayfını birinci bunlar özləri alacaq. Səs gəlir qulağıma. Böyük türk şairi M.Akifin səsi gəlir:

Basdığın yerlərə torpaq deyərək keçmə, tanı,
Düşün altında minlərcə kəfənsiz yatanı.
Sən şəhid oğlusan, incitmə, sakındır atanı,
Vermə, dünyaları alsan da bu cənnət vatanı.

Kim bu cənnət vatanın uğrunda olmaz ki, fəda,
Şüheda fışqıracaq torpağı sıxsan, şüheda.
Canı, cananı, bütün varımı alsın da xuda,
Etməsin tək vatanımdan məni dünyada cuda.

Ulu Tanrı, qadir Allah heç bir vətəndaşı vətənindən cuda salmasın. Mən inanıram, bu gün sizinlə üz-üzə dayanan, sizin kədərinizdə, sizin sevincinizdə üzən, özünü hardasa xoşbəxt, hardasa bədbəxt hiss eləyən bu nəsil böyüyəcək, ucalacaq, qalxacaq, şöhrət tapacaq, qüvvət tapacaq, dən kimi səpiləcək, bərəkət kimi göyərəcək, çəmən kimi yaşıllaşacaq, buludun sinəsindən günəş kimi çıxacaq, yasın ortasından toy kimi boy verəcək, kədər dənizindən sevinc kimi çalxanıb çıxacaq və Azərbaycan xalqını, Azərbaycan torpağını xoşbəxt eləyəcək. Sizinlə əl-ələ, səs-səsə, nəfəs-nəfəsə, kürək-kürəyə, ürək-ürəyə verib Azərbaycan xalqının bugünkü qisasını bu səslər, bu nəfəslər, bu balalar, bu könüllər alacaq. Azərbaycan xalqı özünün qəhrəmanlıq imzasını yenə əvvəlki şərəflə tarixlərə yazacaq.

***26.02.1995***

## HAVA

Deyirlər dünya dörd ünsürdən yaranıb. Oddan, sudan, havadan, torpaqdan. Oddan da, sudan da, torpaqdan da çox yazıblar. Hava gözə görünmədiyi üçün ondan az yazılıb. Görünür, hava gözəgörünməz olduğu üçün yada salan olmayıb. Allah da gözəgörünməzdi. Bəs nə üçün sözümüzün əvvəli də, axırı da Allahla başlayıb, Allahla qurtarır. Bəlkə elə Allah deyilən şey bizi yaşadan havanın özüdür. Havamız çatmayanda, darıxanda Allaha üz tuturuq. Dilimizdən dualar havalanır. Şair təkcə havalı olanda yox, havası çatmayanda da gözəl şeirlər yazır.

Dəymə, dəymə mənə darıxıram yenə,
Qoy çıxım dağlara görüm qar hanı!
Fələk möhür basdı düşmən deyənə,
Bəs mənim verdiyim yadigar hanı?

Bu, Səməd Vurğunu sıxan həsrət havasıydı, şeirlərini havaya çevirib onunla nəfəs alırdı.

Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi.

Xanın səsindəki hava Səməd Vurğunu havalandırmasaydı, bu havalı misralar dünyaya gəlməzdi.

Xanın hava payını Allah bu qədər bol eləməsəydi onun dilindəki muğamatlar, şikəstələr, xalq mahnıları bu qədər havalanmazdı.

Ağacda leylək yuva bağlar gedər,
Qız sevən oğlan hava bağlar gedər.

Havaların ən gözəli, ən təmizi, ən bakirəsi qız sevən oğlanın içindəki sevgi havasıdı.

Məcnunu dəli eləyən, Kərəmi külə döndərən, Qəribi qürbətə salan, Fərhadın başına külüngü çaxan bu sevgi havasıydı.

Od yolu, su yolu, torpaq yolu var. Bu yolların hamısını gözümüzlə görür, ağlımızla dərk edirik. Bir də var hava yolu. Bu yol göylər aləmi ilə bağlıdı. Dərkedilməz bir dünyadı, bu yol daha çox sevənlərin, sevilənlərin, haqq dəlisi olan haqq şairlərinin yoludu.

Sonsuzluğa, əbədiyyətə gedən yol yerdən daha çox göylə, hava yolu ilə bağlıdır. Dəli-dolu adamlar yeriyəndə yerdən daha çox göyə baxırlar. Belə adamlara filankəs "havalanıb" deyirlər. Dolu olmayan adam dəli ola bilməz. Dəliliyi yaradan doluluq havasıdı. İçi boş adamda hava axtarmaq mənasız bir işdir.

Qara zurnada bir "Qaradonlu" havası var. Bu hava eşmə bığlı, qara yapıncılı, qaya duruşlu, köhnə kişilərin havasıdı. İndi az-az yada düşür. Onu havalı kişilər, ağır oturub batman gələn adamlar oynayardı. Qartala baxıb, yaylaq havasını ciyərinə çəkən kişilər bu havanı çox sevərdi. Havası alınan kəslər bu havanı oynaya bilməzlər. İliyimə işləyən, qanıma hopan, sümüyümə düşən havalar var. Məni həmişə havalı saxlayan saz havaları!

Sazla havalıyam, sözlə diriyəm,
Sevəndə bildim ki, eşqin piriyəm.

Havalı yaşamaq dirilik və duruluq əlamətidir.

"Məndə sığar iki cahan, mən bu cahana sığmazam", – deyəndə Nəsimi havalanmışdı.

"Olsaydı məndəki qəm Fərhadı mübtala,
Bir ah ilə verərdim min Bisutunu bada"

– beytini yazıb, çəkdiyim bir ahla min Bisutun dağını küləklərə sovuraram deyəndə Füzuli havalanmışdı.

“Dərya dilim dalğa vurdu bulandı,
Qərq olmaq istəyən ümmana gəlsin”

– deyəndə Ələsgər havalanmışdı.

“Bənzərəm bir qocaman dağa ki, dəryada durar”, – deyəndə Sabir havalanmışdı.

“İstəkli Dilbərim qarşımda durdu,
Yenə şairliyim başıma vurdu”

– deyəndə Müşfiq havalanmışdı.

Sularda daşqına bax,
Sellərin məşqinə bax.
Dərdimdən oynayıram,
Deyirlər eşqinə bax.

– deyəndə bayatı çəkən analarımız havalanmışdı.

Havasız eşq yoxdur, sevgi yoxdur, saz yoxdur, ney yoxdur, kaman yoxdur, ürək yoxdur, insan yoxdur, həyat yoxdur!

İnsan darıxanda həmdəm axtarır,
Ona lazım olan hava, su kimi.
Sərinlik istəyir sinədə ürək,
Havalı dağların havası kimi.

Mən hava istəyirəm, oduna, suyuna, çayına, çeşməsinə həsrət qaldığım Qarabağın havasını. Mən hava istəyirəm, Qədirin “Sona bülbüllər”də yaratdığı havanı! Mən hava istəyirəm, Kamanı Habilləşdirən havanı!

Mən hava istəyirəm, Səttar Bəhlulzadənin rənglərindəki havanı! Mən hava istəyirəm, saf, duru, təmiz, aydın bir hava. İnsan oğlunu xoşbəxt eləyən bir hava! Havasız adamlar nə bilsin havalı adamlar nə çəkir.

Ustad aşıqların nəvəsiyəm mən,
Könlüm çalmasınmı saz havasını.
Meylini verməzmi bağlara bülbül,
Tərlan istəməzmi yaz havasını.

Düşəndə gözlərin dodağı qəndə,
Günahdı salasan ürəyi bəndə.
Sallama yerişli bir qız görəndə,
Dinləmək istərəm naz havasını.

Sevdiyi varlığa tapşıranda can,
Qarlı dağlar kimi ucalar insan.
Aşıq, layla deyən dilinə qurban,
Çal mənim anamın öz havasını.

***22.3.2003***

## BORCUMUZDUR BU EHTİRAM

*("Ozan-aşıq dünyası" kitabına ön söz)*

Sağlıqlarında öz halal haqlarını almayıb dünyadan köçən ustad aşıqlarımızı xatırlayanda istər-istəməz təəssüf dolu bir hiss yaşayırıq. Belə hallar daha çox XX əsrdə – Sovet imperiyası zamanında baş verib. Doğrudur, Azərbaycanda Sovet hakimiyyəti illərində aşıqların dörd dəfə qurultayı keçirilib, amma burada da kommunist rejimi öz marağını güdüb. Çalışıb ki, el arasında böyük nüfuzu olan aşıqları özünün təbliğat maşınının bir hissəsinə çevirsin. Xüsusilə Sovet hakimiyyətinin ilk illərində aşıqlarımız bir sıra çətinliklərlə üzləşib, onların arasında sürgün həyatı yaşayanlar da olub. Aşıqlarımız təzyiqlərə məruz qalıb, sazları sındırılıb, sürgün olunublar, güllələniblər. Ancaq heç bir çətinlik, zor, məhrumiyyət xalqın iradəsini sındıra bilməyib, sazı onun əlindən almağı bacarmayıb. Xalqımızın tarixi və qan yaddaşı olan saz onun ruhunda və canında yaşayıb.

Artıq dövr dəyişib, Azərbaycan müstəqil ölkə, xalqımız da özünün maddi və mənəvi sərvətlərinin sahibidir. Və bu müstəqillik mədəniyyətimizin, incəsənətimizin bütün sahələrində olduğu kimi, sazımızın inkişafında da yeni bir mərhələnin başlanğıcını qoydu. İndi sazımızın səsi yüksək səviyyəli beynəlxalq tədbirlərdən – Parisin, Londonun və Avropanın digər şəhərlərinin möhtəşəm salonlarından gəlir. Muğamımızla sazımız Avropanı və bütün dünyanı qoşa gəzərək xalqımızın qədim və zəngin musiqi xəzinəsi ilə dünya ictimaiyyətini heyrətləndirir.

Artıq dövlət səviyyəsində aşıq sənətinə qayğı, bu sənətinin inkişafına göstərilən kömək göz önündədir.

Azərbaycan dövlətinin, xüsusilə YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın aşıq sənətinin qorunması, inkişafı və təbliği istiqamətində yorulmaz fəaliyyəti nəticəsində 2009-cu ildə Azərbaycanın aşıq sənəti YUNESKO-nun qeyri-maddi mədəni irs üzrə siyahısına daxil edildi ki, bunun da nəticəsində bu gün Azərbaycan aşıq sənətini dünya qeyri-maddi irsinin inciləri sırasında görürük. Bu, eyni zamanda beynəlxalq səviyyədə aşıq sənətinin Azərbaycan mədəni irsinin ən qədim nümunələrindən biri olduğunun təsdiqidir.

2008-ci ilin avqustunda özünün V qurultayını keçirən Azərbaycan Aşıqlar Birliyi də fəaliyyətini yenidən canlandırmağa başladı, aşıq sənətinin inkişafına göstərilən dövlət qayğısına əməli işlə cavab vermək işimizdə əsas prinsipə çevrildi. Aşıq sənətinin bugünkü problemlərinin çözülməsi, gənc aşıqlara qayğı ilə yanaşı keçmişə hörmət, bu sənətin inkişafında böyük xidmətləri olmuş ustad sənətkarların yubileylərinin keçirilməsi, onların kitablarının nəşr edilməsi, xatirələrinə həsr olunmuş kitabların yazılması fəaliyyətimizin mühüm tərkib hissəsidir və bu istiqamətdə artıq bir sıra böyük tədbirlər həyata keçirmişik. Dədə Şəmşirin, Mikayıl Azaflının, Hüseyn Bozalqanlının, Avdı Qaymaqlının, Aşıq Əkbərin, Əmrah Gülməmmədovun və digər məşhur ustad aşıqların kitabları nəşr olunub, yubileyləri respublika səviyyəsində qeyd olunub.

Bütün bunlarla yanaşı, Azərbaycan Aşıqlar Birliyi olaraq qarşımıza məqsəd qoymuşuq ki, ozan-aşıq sənətinin inkişafında azacıq da olsa xidməti olmuş heç kəs unudulmasın, heç kəs yaddan çıxmasın.

Oxucuların ixtiyarına verilən bu kitab – fotoalbom adı və xatirəsi xalqımız üçün həmişə əziz olan, Haqqa qovuşan sənətkarlarımızın xatirəsinə həsr olunmuş bir ədəbi abidədir. Böyük şairimiz Səməd Vurğun demişkən:

“Bizdən ayrı düşənlərə borcumuzdur bu ehtiram”. Fotoalbomda 200-ə yaxın sənətkarın şəkli və qısa məlumat xarakterli tərcümeyi-halı verilmişdir. Bu şəkil və məlumatların əksəriyyəti yuxarıda adını çəkdiyimiz dövlət arxivlərindən götürülüb. Burada indiyədək adı xalqımıza çox yaxşı məlum olan aşıqlarımızla yanaşı, bizə az məlum olan sənətkarların da şəkilləri və tərcümeyihalları öz əksini tapıb.

Məqsəd ondan ibarətdir ki, ozan-aşıq sənətində fəaliyyəti, xidməti olmuş insanların imkan daxilində heç biri yaddan çıxmasın, heç kəs unudulmasın. Bu şəkil və məlumatlarla yaxından tanış olduqca istər-istəməz insanın içindən bir yanğı hissi gəlib keçir. Bir görün nə qədər böyük sənətkarlar, böyük şəxsiyyətlər, sinəsi sözlə dolu, xəzinəli insanlar itirmişik. Hər aşığın sinəsində nə qədər nağıllar, dastanlar, bayatılar, oxşamalar qara torpağa pay olub, yazıya alınmayıb, lentə köçürülməyib. Bu kitabda yazıdan daha çox şəkillər danışır. Çəkildiyi andan tarixə dönən, bizə çox həqiqətləri, çox mətləbləri aşkar edən şəkillər!

Hər şəkil bir tarixdir, yaddaşdır, xatirədir, keçmişi bu günə və gələcəyə qovuşduran mənəviyyat körpüsüdür. Qoy bu gün yaşayıb-yaradan aşıqlarımız görsün ki, bu yolda, bu sənətdə bu dünyadan kimlər gəlib gedib, kimlər əbədiyyətə qovuşub. Onlardan bugünkü mənəviyyatımız nə qazanıb, hansı dəyərlər onların hesabına əbədi yaşamaq haqqı qazanıb.

Daşıdığı məzmun və mahiyyət etibarilə bu kitab ilk təşəbbüs olduğundan, heç şübhəsiz, yaddan çıxan, şəkilləri tapılmayan bir çox sənətkarlarımız da var. Bu o deməkdir ki, axtarışlar davam edəcək. Oxuculardan, ozan-aşıq sənətinin həvəskarlarından, fəallarından xahiş edirik ki, bu kitabın daha da təkmilləşdirilmiş yeni nəşrini hazırlamaq işində yardımçı olsunlar, əllərindən gələni əsirgəməsinlər. Kitabın ilk nəşrində nöqsanların

olması təbiidir. Ancaq ikinci nəşr üçün daha çox iş görmək lazımdır və biz də bu köməyi və qayğını bu sənətin qədir-qiymətini bilən xeyirxah insanlardan gözləyirik.

Baxın, xatırlayın, sevin, qiymətləndirin, dəyər verin bu şəkillərə. Bu şəkillər sazımızın və sözümüzün, ruhumuzun və qəlbimizin, duyğularımızın və düşüncələrimizin şəkilləridir. Biz onlara baxdıqca yenidən kökümüzə, yaddaşımıza qayıdacağıq. Bu qayıdış geriyə getmək deyil, keçmişə hörmət və ehtiram, gələcəyə, bu sənətin gələcəyinə inam deməkdir!

# QAN QORXUSU

*(Hekayə)*

İnsan azad və sağlam bir vəziyyətdə təbiətin qoynunda addımlayanda, yolla yeriyəndə nə yerə sığır, nə göyə, elə bilir yer də, göy də özüdür. Elə bilir yer də, göy də, yeridiyi yol da onun dədəsinə borcludur. Elə ki, xəstəlik başının üstünü kəsir, onda ayılır, yerlərə, göylərə daha çox baxmaq istəyir. Həm özünə, həm təbiətə daha çox həssaslıqla yanaşmağa can atır. Həyatın üzündən daha çox astarını görür. Gördüklərini fikrindən, xəyalından, kövrək xatirələrindən keçirib yenidən dərk edir ki, bir insan kimi var olduğuna, yaşadığına, sevdiyinə, sevildiyinə görə təbiət ona yox, o təbiətə borcludur. İndi Allah xəstəyə xəstəxana pəncərəsinin gözü boyda bir baxış meydanı verir. Baxa bildikcə bax deyir. O sən, o xəstəxana çarpayısı, o da pəncərə.

Mən də yer üzündə olan milyonlarla xəstələrdən biri kimi pəncərədən diqqətimi çəkən bir mənzərəyə baxıram. Səhərdən bir parça kimi donub qalmış, rəngi qapqara qaralmış, yağmaq istəyən ancaq yağa bilməyən qara buluda baxıram. Az qala yarım gündü bir qarış da olsun yerindən tərpənmir. Birdən onun hərəkətsiz, donub qalmış vəziyyətini başa düşdüm. Onu yerindən tərpətmək üçün üfüqlərdən əsən dəli küləklər lazımdır. Külək buludu hərəkətə gətirən eşqdir. Xəstənin üzünə sevdiyi insanın nəfəsi dəyəndə insan necə cana gələr, dirilərsə, küləyin gəlişi də buludu eləcə sevindirər, yerindən tərpədər. Mən də öz küləyimi, havamı, suyumu, həyat eşqimi, məni yerimdən tərpətməyə gücü çatan öz həyat eşqimi gözləyirəm. Çünki mən də bu halımla

o qara bulud kimi tərpənmərəm. Mən öz küləyimi gözləyirəm. Hələlik qanım qaradır. Əgər qan qaradırsa, insanın gözündə heç nəyin əhəmiyyəti, mənası yoxdur.

XX əsrin tam ortasında dünyaya gəlmişəm. XXI əsrin on ilini yola salıb, on birinci ilinin ilk aylarını xatırlayıram. Bu il Azərbaycana yaz gec gəlmişdi. Fəsil xeyli ləngimişdi. Niyə gecikirdi, kimin xeyrinə idi, kimin ziyanına idi, bu sirri bir yaz fəsli bilirdi, bir də onu gecikdirən Allah. O gecikmişdi, amma mən onu bu dəfə daha tez görmək istəyirdim. Özümdən xəbərsiz nə isə ürəyimə danmışdı. Ona görə altmış dəfə mübarək üzünü gördüyüm yaz fəslini altmış birinci dəfə daha tez görməyə can atırdım. Bu canatmada qəribə duyğular baş qaldırmışdı içimdə. Ən azı yaşıl çəmənlərin qoynuna səpələnmiş qan kimi qıpqırmızı lalələri görmək istəyirdim.

...Ürəyimə danan başıma gəlmişdi. Bu yaz mənimki qanla gəlmişdi. İllərlə ruhumdan, qəlbimdən süzülüb axan heç kəsin görmədiyi, görə bilmədiyi qan indi hər kəsin görə biləcəyi şəkildə ürəyimdən, bədənimdən axıb göz yaşı kimi suları qıpqırmızı qana bələmişdi. Ömrüm boyu sevdiyim yaşıl rəng olub, qırmızı rəng məni həmişə qorxudub. Yamyaşıl zəmidə qıpqırmızı lalə olsa belə. Harda qırmızı rəngi görmüşəmsə həmişə qorxmuşam. Bu rəngdən mənim üçün həmişə qan iyi gəlib. Həyatda heç nə səbəbsiz olmadığı kimi, mənim qanla bağlı qorxum da səbəbsiz deyildi.

...9 yaşım vardı. O gün məndən çox sevinən, oynayan, uşaq sevinciylə atılıb-düşən bəlkə də təkcə mən idim. Mən özün toyda bir toya dönmüşdüm.

Toy, nə toy! Gündüzdən evimizin qabağındakı yekə xırman boyda həyət silinib-süpürülmüş, güləşçilər yıxılanda ağrımasın deyə xırmana saman dağıtmışdılar. Çalan çalmış, oynayan oynamış, güləşən güləşmişdi. Yavaş-yavaş şər qarışırdı. Sən demə bu axşamın gəlişi bizə xeyir yox, doğrudan da, şər gətirirmiş. Ancaq

bu şərin nə olduğunu heç kəs bilmirdi. Hərə öz dünyasında, öz aləmində idi. Şıdırğı güləşəngi havaları öz yerini yavaş-yavaş "Tərəkəmə"yə, "Heyvagülü"yə, şux, oynaq rəqs havalarına verir, cavan oğlanların yerini daha çox gündüzdən oynamaq üçün sümükləri göynəyən qızlar, gəlinlər, muraz üstə olan gözəllər alırdı. Qara Hümmətin qara zurnasının səsi bütün Lök dağını başına götürmüşdü. Bəzənən şaxları, alışan şamalları, şamalların dibinə bağlanan nişanları vurmaq üçün atılan güllələri, hay vuran oğulları, haray vuran qızları gördükcə özümü yerdə yox, göyün yeddinci qatında hiss edirdim. Həm də ona görə hamıdan çox sevinirdim ki, toy bizim həyətdə çalınırdı. İyirmi beş yaşlı Təyyar əmimə toy olurdu. Könül coşduran çal-çağırları ruhu sakitləşdirən həzin və rahat bir sakitlik əvəz edirdi. Ana balasına, quş yuvasına çəkilən kimi hər kəs öz ocağına, bəy də gəlin otağına çəkilmişdi. Adət-ənənə, intizarlı gözləmə dəqiqələri, göyərçin qanadı kimi çırpınan ruhlar gecənin ilahi bir mənzərəsini yaratmışdı. Birdən-birə gecənin şirin və dərin sükutunu pozan güllə səsi eşidildi. Toy gecəsi əmim özünü güllələmişdi. Özümü dəhşətli çığırtılar selinin içinə atdım. Bəylə gəlini görmək əvəzinə evin ortasında qan gölünü və o qanı tökən qoşalülə tüfəngi gördüm. Bəy qan içində, gəlin qan içində, haya gələnlər, yıxılanlar, özündən gedənlər qan içində. Mənim qanla tanışlığım və qorxum belə başladı. Sonralar bütün ömrüm boyu qan qoxusu və qan qorxusu məndən əl çəkmədi, qarabaqara məni izləməyə başladı. Bu gün də izləməyində davam edir. Şər-böhtan şəklində, paxıllıq və rəzillik şəklində, təhqirlər və tənələr şəklində. Yuxuda da, həyatda da! Bu yerdə misalsız keçinə bilmədim. Məşhur yazıçı A.Şmoklinin "Cordano Bruno" kitabından taleyimlə səsləşən bir fikri xatırlatmaq istəyirəm: "Əgər mən kotan sahibi olub onu işlətsəydim, heyvan sürüsü otarsaydım, bağ becərsəydim, paltar yamasaydım,

heç kəs mənə fikir verməzdi, çox az adam mənim dalımca göz qoyardı, çox az hallarda məni danlayardılar və mən asanlıqla hamını yarıdardım. Amma mən təbiət tarlasını ölçürəm, ruhları otarmağa çalışıram, beyinləri becərmək xəyalındayam və insan ağlının adətlərini tədqiq edirəm. Elə buna görə də mənə baxanlar məni hədələyir, mənim dalımca göz qoyanlar mənə hücumlar edir, daldan mənə çatanlar məni dişləyir, məni tutanlar məni yeyir, həm də bunları edənlər tək-tək adamlar deyil, bir çoxlarıdır, demək olar ki, hamıdır".

Şöhrətdən də, məhəbbətdən də, siyasətdən də qan iyi gəlir, qan!

Qan çəkir adamı həyata doğru,
Qan çəkir adamı ölümə doğru.
Qanın da çox qansız yolları varmış,
Ömrü aparırmış zülmə doğru.

Kəndimizin qocalarından atçılıqla, ovçuluqla, comərdliklə ad çıxarmış söhbətcil bir kişi tanıyırdım. Məni öz doğma nəvələrindən seçməzdi. Atın dilini, itin dilini, ceyranın, cüyürün dilini, təbiətin dilini az qala təbiətin özü qədər gözəl bilirdi. Bildiklərini çox şirin bir dillə mənə nağıl eləməkdən yorulmaz, mən də uşaq heyrəti, körpə marağı ilə dinləməkdən doymazdım.

Onun danışdığı bir hadisə nədənsə əlli ildən sonra yenə xəyalıma gəldi. Ovçunun dilindən:

Günlərin bir günü Osmanlı beşaçılanı çiynimdə yenə ova çıxmışdım. Lök dərəsinin yolları, izləri, aşırımları, bələnləri ovcumun içi kimi mənə bəlli idi. Dağları məhlə-məhlə, binələri yurd-yurd, çəmənləri çiçək-çiçək əzbər bilirdim. Onun üçün də ova çıxanda çətinlik çəkmirdim. Dəqiq bilirdim ki, ayın-günün hansı vədəsi cüyürlər hansı talada, hansı döşdə, hansı dərədə daha çox dolaşır. Yolu, izi, cığırı, çəhlimi, ləpiri ovcumun içindəki damarlar kimi tanıyırdım. Ömrüm boyu heç vaxt ovdan əliboş

qayıtmamışdım. İndi də həmin ümidlə ovdaydım. Uzaqdan göy talada heç nədən xəbərsiz dünyanın ən bəxtəvər varlığı kimi otlayan, oynayan, atılıb-düşən cüyür sürüsü gözümə sataşdı. Osmanlı beşaçılanının gülləsi açılan kimi cüyürün biri yıxıldı. Yıxıldığı ilə qalxdığı bir oldu. Axsaya-axsaya qaçmağa başladı. Bildim ki, vursam da sərrast ata bilməmişəm. Gəldim cüyür vurulan yerə. Tökülən qanın izini tutub qanın izinə düşdüm. O yerdə yetirdim ki, cüyür başını dizlərinin üstünə qoyub. Sağ budundan qan axırdı, gözlərindən yaş. Əlimi çənəmə qoyub cüyürün axan qanından daha çox gözündən sel olub axan yaşlara baxırdım. Nə qədər ov eləmişdim, heç belə sarsılmamışdım. Qəfil qulağıma bir səs dəydi: – Ay eloğlu, nə fikrə getmisən? Başımı qaldıranda bir orta boylu, nazik bədənli bir kişinin başımın üstündə dayandığını gördüm. Mənim bu halımı görüb heç nə demədən birbaşa bədahətən şeirə keçdi:

Nahaq düşdün sən bu qanın izinə,
Güllə dəyib şikarının dizinə.
Qan salmısan gözəlliyin gözünə,
Bu qan səni başqa qana salacaq.

Sən demə ovçuya rast gələn məşhur Faxralı Nəbi imiş. O sözü boşuna demirmiş. Haqq şairi olduğu üçün Haqqın sözünü ovçuya çatdırırmış. Həmin ovçunun iki oğlu dünyaya gəlmişdi, ikisi də ömürlük şikəst. Qanla oynamaq olmaz. Mən qandan qorxuram.

Yazın gəlhagəl çağları idi. Ruhumun çox duru vaxtı idi. Xeyli vaxtdır yazmağa başladığım “Mövlanadan Şəmsə doğru” əsərində “Şəmsin ölümü” fəslini işləyirdim. Gecənin tən ortasında, zil qaranlıqda yeddi qatilin yeddi qılıncı elə bil Şəmsi yox, məni doğramışdı. Birdən-birə qanım möhkəm qaraldı. İldırım vurmuş ağaca döndüm. Elə bil hadisələrin içində Şəmsin yanında idim. Mövlana dərgahına qan tökülmüşdü. Dərgaha tökülən qan

elə bil mənim bəxtimin, qismətimin üstünə tökülmüşdü. Nə isə daxilən çox narahat idim. Beş-on gün aradan keçmiş mənim də qanım tökülməyə başladı. O qan ciyərimdən gəlir, qəlbimdən axırdı. Dişim dodağımı, ağrılar içimi doğrayırdı. Çalışırdım ki, doğmalarım duyuq düşməsin. Ancaq gördülər, bildilər. Ağrımı kəsməyə, qanımı dayandırmağa həkimin, dərmanın gücü çatmırdı. Qatil olmaq istəyirdim, ölümün, əcəlin qatili. O məni öldürməmiş, mən onu öldürmək istəyirdim.

Ağrıların əlindən baş götürüb ağrısız bir yerə getmək istəyirdim. Hara gedim? Elə bir yer varmı orda ağrı, azar olmasın? Elə bir kənd varmı bir tərəfi qəbiristanlıq olmasın? Elə bir şəhər varmı dedi-qoduları insanları xərçəngə, vərəmə, ürək ağrılarına düçar eləməsin. Varmı? Yoxdur, yoxdur! Heç vaxt olmayacaq. Elə bu vəziyyətdə ağrılarımı başıma, dərdlərimi qollarımın üstünə alıb uzaqlara, çox uzaqlara çıxırdım. Evdən çıxanda anam, həyat yoldaşım, bacım, övladlarım, nəvələrim məni yola salırdı. Bacım lala əlində bir qabda su tutmuşdu arxamca atmaq üçün. Qəfildən qab əlindən düşüb sındı, su yerə töküldü. “Aydınlıqdır! aydınlıqdır!” – desələr də içimə bir qaranlıq çökmüşdü. Axı mənim arxamca atılmalı su niyə yerə tökülməliydi. Onsuz da qara olan qanım bir az da qaraldı. İş tərsinə gələndə sudan da qan iyi gəlirmiş.

Bir şair dərdindən söhbət açıram. Hüseyn Arifin oğul dərdindən. Qanlı-qadalı bir hadisədən. Hər dəfə qanım qaralanda, işim düz gətirməyəndə başımı götürüb onun yanına qaçırdım. Bir gün də belə oldu. Gördü fikirliyəm, səbəbini soruşdu. Dedim, əşi, nə bilim, ustad, bir az qanım qaradı. Birdən elə bil kişini ildırım vurdu. Qapqara qaraldı. Fikirli-fikirli “hər xırda şeydən ötrü qan sözünü dilinə gətirmə!” – dedi. Allah göstərməsin, mən qanı görmüşəm, mən bilirəm qan nə deməkdir”, – deyib başına gələn faciəni tüstülənə-tüstülənə, korun-

korun yanan ocaq kimi danışmağa başladı: "Günlərin bir günü Şah dağının ətəyində dostumun maşını ilə gəzməyə çıxmışdım. Yolun sağında güllü-çiçəkli bir yamac diqqətimi çəkdi. Sürücüyə maşını ora sürməyi xahiş etdim. Beş-on addım getmişik ki, tükürpərdən səs eşitdik. Səsin haradan gəldiyini bilmək üçün səsimizi içimizə çəkdik. Maşının arxasına boylandıq. Nə görsək yaxşıdı. Qan içində ana-bala iki cüyür qan içində çapalayırdı. Maşının təkəri təzəcə balalamış ana-bala ceyranların üstündən keçmişdi. Başımın tükü biz-biz olmuşdu. Əllərimi dizimə çırpdım. Mən şair yox, təbiətin qoynunda özümdən xəbərsiz iki dünya gözəlini qana bələmişdim. Ana cüyür balasını ağlayırdı, bala cüyür anasını, mən də hər ikisini. Üçümüz də baş-başa verib ağlayırdıq.

Bir məqamda üç çağlayan görmüşəm,
Biri mizrab, biri pərdə, biri sim.
Bir məqamda üç ağlayan görmüşəm,
Biri mənəm, biri sənsən, biri kim?

Bu şeiri mənə həmin sarsıntılarım yazdırmışdı. Bilirdim ki, bu qan məni tutacaq. Aradan heç üç ay keçməmiş gözümün ağı-qarası tək oğlum Arif balam 24 yaşında maşın qəzasında qanına qəltan oldu. Həmin o yaralı ceyranın halında Arif balamı evə gətirmişdilər.

Ey Hüseyn, müxtəsər et sözünü,
Bu qan səni tutmalıydı, tutdu da.

Şairin bu şeiri məni haralara aparmışdı, İlahi! İndi qanımın mənə namərd çıxdığı bu vaxtda öz-özümə fikirləşirəm. Mən ki heç kimin toyuğuna daş atmamışam, bir quş dimdiyi qanatmamışam, bir kəpənək qanadı əzməmişəm. Bəs məni hansı qan tutub? Bu sualın cavabını axtarıram. Axtarmaqdan yorulmuşam, tapa bilmirəm ki, bilmirəm. Görünür, bu suallara cavab axtara-axtara bu dünyadan gedəcəyəm, qanlı-qadalı sualları, qanın suallarını...

Ağrılar üstümə qəfil və gözlənilməz hücumlara başlayana qədər mən qanın bu qədər hökmlü olduğunu bilməzdim. Ürəyim ağrıyır, başım ağrıyır, gözüm ağrıyır deyənləri çox eşitmişik. Heç qanım ağrıyır deyənə rast gəlməmişik. Sən demə qan ağrımırmış. Qan ağrıdır, qan öldürür, qan dirildir, qan yaşadır, qan çürüdürmüş. Bədən üzvlərinin hansında ağrı varsa, sən demə orda qanın barmağı varmış. Bu vaxta qədər qanın bircə sifətini görmüşdüm. Qanın neçə üzü, neçə rəngi, neçə sifəti, neçə oyunu varmış, İlahi! Qırmızı qan, ağ qan, qara qan, göy qan. Qan! Qan! Qan!

Qırmızı qar ola bilərmi? Olar! Qırmızı qar yağa bilərmi? Yağa bilər! O günü qırmızı qan bizim səhərimizə yağmışdı:

O gün qan üstündə açıldı səhər,
O gün Xocalıda qan qırmızıydı.
Qırmızı-qırmızı üzümə durdu,
İblis görkəmində şər qırmızıydı.

İyirmi il əvvəl Xocalıda axan qanlar iyirmi il sonra mənim bədənimdən, damarımdan, çəkdiyim nəfəsdən axıb çıxmışdı. Doğrudur, fışqıran təkcə mənim qanım deyildi. Mənim qanımla bir yerdə başqa adamların qanı da fışqırırdı. Çünki mənim bədənimdə qan köçürmə əməliyyatı aparmışdılar. Mənim damarlarımdan axsa da, başqalarının qan haqqını danmaq olmaz!

Görəsən, bəşəriyyət elə bir dahi yetirə biləcəkmi ki, o damlasından zərrəsinə yer üzündə axan qanları birdəfəlik dayandıra bilsin. "Kəssə hər kim tökülən qan izini, qurtaran dahi odur yer üzünü" deyən qanın və qansızlığın bütün sifətlərini gördüyünə görə ən böyük dahiliyi bəşəriyyəti qandan xilas edən adamın şəxsində görürdü. Hələ ki, ilk qan tökən və ilk qanı tökülən Habil və Qabil qardaşlarından bu günə kimi bu müqəddəs işin öhdəsindən gələn olmamışdır. Bəlkə elə ona görə S.Vurğun

demişkən – “Dünya qan üstündə bir xanimandır!” Bəlkə də doğurdan da dünya bir qan çanağıdır. Kələntər dayının gülləsi heç vaxt boşuna getməyəcək. Cəlalın qanı həmişə töküləcək, Aşıq Vəli də “Yanıq Kərəmi” çalacaq.

Gəlişinin vaxtı, vədəsi mənə bəlli olmasa da, gəlişini gözləyirdim. Bilirdim ki, qan gələcək. Amma sakit gəlməyəcək, gurultuyla, nəriltiylə, ürəyi partladıb, damarları dağıdıb gələcək. Mən öz qanımı yaxşı tanıyırdım. Ağlayanda hönkürüb ağlayan, güləndə şaqqanaq çəkən, oynayanda qartal kimi göylərə qalxan, yeriyəndə yeri tərpədən bir insanın qanı sakit axa bilərdimi?! Mənim qanım orta vəziyyətdə olmağı, birtəhər baş girləməyi, papağı günə yandırmağı sevmirdi. Yanırdı, məni də yandırırdı. Coşurdu, məni də coşdururdu. Arzu ürəyə, ruh bədənə, nəfəs cana sığmayanda, insan özünəsığmaz olanda qan Allahlıq eləyir. Əgər Allahlıq edirsə, demək, onun sevgisi adi sevgi deyil, ilahi sevgidir. Mənim qanım ağıllı qan deyil, dəli qandır. Məcnun qanıdı. Ahı fələkləri yandıran qandır. Heç yerdə heç zaman rahatlıq tapmayan, ancaq əbədi rahatlığı Haqqa qovuşmaqda tapan həqiqət eşqinin qanıdır. İllərlə məni meydanlarda, kürsülərdə, məclislərdə, səfərlərdə havalandıran qan hökmən bu amansız ağrıları, dözülməz iztirabları, dərmansız dərdləri də gətirməliydi, sonunda yenidən böyük eşqə, Allah eşqinə qovuşmaq üçün “Ya Rəbb bəlayi-eşq ilə qıl aşına məni” deməliydi. Arzunu həqiqətə çevirməyin yolu eşqin bəlasından keçir.

Bu qədər qan hardandır insanda!

Niyə mənim qanım bu qədər axmalıdır?

– Çox üzə dirənmə, qarışma Allahın işinə, bəlkə belə məsləhətdir.

– Məsləhətinə qurban olum, nə deyirəm. Heç olmasa səbəbini bilim.

– Allah hər şeyin səbəbini açıb xırdalasa, o Allah olmazdı ki, olardı sənin, mənim tayım. Allahlıq onun

sirrindədi, onu da açdı, daha geridə nə qaldı. O heç nəyi insana açıq danışmır, əlamətlərlə, işarələrlə insanı başa salır. Qiyamətin əlamətləri kimi.

Mən ki atalı-analı, ürəyi bütöv, cismən-mənən sağlam mühitdə, sözün işığında, sazın laylasında, aqillərin hikmətinin nurunda böyümüşəm. Böyük sevgi, güclü işıq olan yerdə qan axmaz, orda Allah nuru, Peyğəmbərin işığı, mələklərin pak və müqəddəs ruhu dolaşar.

– Mənim qanım axmamalıydı, niyə axdı bu qan?

– Cavabını bilmirsənmi?

– Yox!

– Sənin qanın axmamalıydı, sənin qanını axıtdılar. Kim axıtdı onu sən özün gözəl bilirsən. Ancaq o sirri açmaq istəmirsən. Allah sirr açmayıb, sən də açma!

– Niyə?

– Niyəsini Allahdan yox, şeytandan soruş. Bu işlərin ustası da, bənnası da odur.

– Axı mən şeytanı heç vaxt içərimə buraxmamışam.

– Elə ona görə də o sənin qan düşmənindir. Sən Allaha ən sadiq olduğun üçün şeytanın ən qatı düşmənisən. Bunu birdəfəlik bil.

– Bəs onda Allahın dostluğu, gücü harda qaldı?

– Darıxma, Allahın birinci adı səbirdir. Axırda qələbə yenə onun və sənin olacaq! Şeytanın pisliyi özünə qalacaq. Görəcəksən!!!

Şərqin ilk böyük təsəvvüf şəhidi Həllac Mənsurdan hələlik son böyük təsəvvüf türk və islam şəhidi – hamısının aqibəti belə olub. Onların hamısının qanını axıdıblar.

– Səbəb?

– Səbəb – onların nuru, işığı, Allaha bağlılığı, ilahi eşqi, özünə sığmazlığı, Allahı özündə gəzmək, kitablardan daha çox insanları oxumaq qabiliyyətidir. Yaradanı yaradılana görə sevmə xoşbəxtliyini dərk etmələri, Haqqı yaxşı tanıdıqlarına görə heç vaxt əqidələrindən dönməməyi onların qanını axıtdı. Həllac Mənsur

Allahın yer üzündə həqiqət carçısına çevrilməsəydi, Nəsimi "Allah məndədir" deməsəydi, Cavid "Hüsnü-xuda" şairi olmasaydı, kimin onlarla nə işi vardı? Onlar Allahın sevilmiş və seçilmiş bəndələri olduğu üçün şeytan onların başına nə oyunları vardısa açdı.

– Axırda kim qalib gəldi?

– Şübhəsiz və birmənalı şəkildə Allah!

– Allahın çaldığı qələbəni nədə görürsən?

– Adını çəkdiyim kişilərin əbədi iriliyində, əbədiyaşarlığında. Hər gün dillərdə, dodaqlarda, könüllərdə yaşamağında! "Mənim tanrım gözəllikdir, sevgidir" deməsində. Kitab kimi əllərdə, söz kimi dillərdə, nəğmə kimi dodaqlarda, fikir kimi beyinlərdə yaşamalarında!

– Mən də tanıdığım və tanımadığım şeytanlar üzərində qələbə çala biləcəyəmmi?

– Sən o qələbəni çoxdan çalmısan, özündən xəbərin yoxdur.

– Bir-bir yadına sal, xatırla!

– Sənin hər kitabın, hər şeirin, oxucularla hər görüşün, hər uğurlu yaradıcılıq səfərin, görüşlərdə başından yağış kimi yağan çiçəklər, dağların çayı kimi gurlayan alqış selləri, zalları, salonları ayağa qaldıran səs qüdrəti, söz demək hünəri, xalq sevgisi, el məhəbbəti – bunların hamısı böyük şeytanın üzərində Allahın izni ilə çaldığın qələbə deyil, bəs nədir? Birmənalı şəkildə bilməlisiniz. Qansız qələbə yoxdur. Sənin bütün böyük və balaca düşmənlərin hamısı üzərində çaldığın qələbə bu qıpqırmızı qandan keçib gedir.

– Onda mən ürəklə öz qanımı öpüb, ona çox sağ ol deyib ona minnətdar ola bilərəmmi?

– Sən bunu çoxdan eləməliydin, yenə gec deyil.

– Zəlimxan Yaqubun damarından axan qan ilahi eşqin qanıdır. Onu öp, ona xoşgəldin elə. O səni yarıyolda, yarı mənzildə qoymayacaq, çox-çox uzaqlara – ömrün boyu gözlədiyin yerə – Tanrı dərgahına aparacaq!

Bütün varlığımla heyranam sənə,
Allahım, tökülən bu qana şükür.
Qan mənim qanımdı, can mənim canım,
Bu qanı qaynadan bu cana şükür.

Ağrı ha tərəfdən gəlirsə gəlsin,
Hərəni bir adla qan aparacaq.
Torpağın üstündən torpağın altda,
Hərə bir yaralı can aparacaq!

***2011, 10-17 may***
***Almaniya, Hannover***

## KÖHNƏ DOSTLAR

Qürbətdə adamın dostları çox olmur. Biz də çox deyildik. Qələm idi, dəftər idi, mən idim. Vətən və qürbət, görüş və həsrət anları haqqında hiss və duyğularımı, fikir və düşüncələrimi, arzu və xəyallarımı əlli illik vəfalı dostum qələmə pıçıldayırdım, o da öz köhnə adət və vərdişinə uyğun olaraq mənim dediklərimi nöqtəsinə, vergülünə toxunmadan olduğu kimi Türkiyədən alıb gətirdiyim palıdı rəngli dəftərə köçürürdü. Dəftər məsələsini xüsusi qeyd etməyimin də balaca bir tarixçəsi var. Mən o dəftəri İstanbuldan alanda elə oradaca ilk səhi fəyə yazmışdım: "Səfər dəftəri". Evə gələndə dəftərimi bir xəlvət yerə qoymuşdum ki, nəvələrim yazıb-pozmasın. Nəvələr bizim gözümüzdən yayınanda şeir dəftərimin hansı gəldi töküblər ortaya yaz ki, yazasan, poz ki, pozasan. "Səfər dəftəri"ndə məndən əvvəl onlar yaradıcılıq işinə başlayıb. Əyri xətt, düz xətt, qırıq xətt, dairəvi xətlər hamısını qarışdırıb bir-birinə qatıblar. Guya yazı yazıblar. Amma ata və analarının, nənə və babalarının adlarını dəqiq yazıblar. Hələ məktəbə getməsələr də yazı yazmağa çox meyillidirlər. Çünki evdə gözlərini açıb hamını kitab oxuyan, yazı yazan görüblər. Bir sözlə, mənim səfər dəftərimin səfərə çıxası halı qalmamışdı. Birinci səhifəni o qədər dolaşıq yazılarla doldurmuşdular ki, heç Orxan-Yenisey abidələri üzərindəki yazıları kəşf edən alimi tapıb gətirsələr o da heç nə oxuya bilməzdi.

Yenə qürbət, yenə həsrət, yenə həkimlərin müəmmalı baxışları. Sarsıntılı ağrılar keçirirdim. Bir az ağrılar ayazıyanda əlimi səfər dəftərinə aparırdım. Açanda həmin mənzərəni gördüm. Ağ varaq, hardan gəldi əkilən səliqəsiz qara mürəkkəbin qara şumları. Diqqət və həs-

saslıqla dönə-dönə Yusif və Zəlimxanın yazısına, xəttinə baxdım. Titrəyən dodaqları o xətlərin üstə qoydum. Nəvələrimin əlləri, barmaqları, dırnaqları gözlərimin önündə dayandı. O əlləri, o barmaqları gözümün giləsinin üstünə qoyub sakitləşmək istəyirdim. Ancaq bu mümkün deyildi. Nəvələrim çox-çox uzaqda idilər. Onlar vətəndə, mən qürbətdə. Bahar bulududan betər olmuşdum. Nə qədər elədim özümü saxlaya bilmədim. Dəli bir hönkürtü ilə ağlamağa başladım. Ağlamaq imkanım geniş idi. Mane olan, təsəlli verən yox idi. Çünki otaqda tək idim. Buludumda son damla qalana qədər yağdım, boşaldım, sakitləşdim.

Dilimizdə "burnumun ucu göynəyir" ifadəsi var. Bəzən biz onu gəlişigözəl söz kimi də işlədirik. Ancaq qürbətdə bu deyimin nə qədər ürəkyandıran bir ifadə olduğunu hiss edirsən. Ümidin açılan qapıya, baxışların tavana, gözlərin pəncərəyə dikiləndə, əlin göydən, ayağın yerdən üzüləndə bilirsən ki, burnunun ucu göynəmək nə deməkdir. Onda təkcə adamın burnunun ucu göynəmir, saçından dırnağına bütün varlığı, bədənin bütün əzaları, hüceyrələri göynəyir.

...Həkimlər tam ümid vermək üçün özlərində güc tapa bilmirdilər. Çünki qan məsələsi onları bərk çaşdırmışdı. Yaman fikirliydim, düşüncələr dünyasına qərq olmuşdum. Elə bu vaxt qulaqlarıma səslər gəldi. Səs Bakıdakı həyət evimizdən gəlirdi.

Anamın səsi: Ay Zəlimxan, ay bala, xörəyin buza, qara döndü, yazı qaçmır, çörəyini ye, sonra yazarsan!

Həyat yoldaşımın səsi: Ay Zelli, günortaya nə bişirim, ürəyin nə istəyir?

Oğlumun səsi: Ata, bazara gedirəm, meylin nə çəkir, nə alım gətirim?

Nəvələrimin qarışıq səsi: Baba, biz saz çalmaq istəyirik, Nigar sazımızı vermir ki, qırarsınız, ona de sazımızı versin.

Səslər... səslər... Nə yaxşı qeybdən gələn səslər, nə yaxşı uçan fikirlər, qanadlanan xəyallar var imiş. Nə yaxşı ümidin ölümü ən axırda gəlirmiş. Əgər qulaqlarına doğmaların səsi gəlirsə, deməк, sən yaşayırsan, yaşayacaqsan!

Sükut və səssizlik, qürbət və qəriblik. Bu ifadələrin arxasında nə sirlər, soraqlar, nə xəzinələr, nə dəfinələr gizlənirmiş, İlahi! Səs-küy varsa, sən özündə deyilsən, özgələrdəsən. Sükutda nə var özünsən, özündəsən. Ağrılar, tənhalıq, təklik düşüncələrin anasıdır. Ağrılar içində düşüncələrə qərq olanda yarpaqdan yuxa, kağızdan nazik, tüldən zərif, sapdan incə olursan. Başqa vaxtda yeddinci dəfə deyilən sözün fərqinə varmayan adam, kövrələndə bir dəfə deyilən sözün yeddi qatından keçir. İndi mən bu vəziyyətdə idim. Həssas, zərif, yuxa, kövrək.

Ömrüm boyu az əhəmiyyət verdiyim şeylərə indi daha çox diqqət yetirir, ömür-gün yollarımı ələyib ələkdən keçirirdim. Həyatım boyu gördüyüm, bildiyim, tanıdığım insanları gözlərimin önünə gətirirdim. Elə bil qürbət mənim gözlərimə böyüdücü şüşə taxmışdı. Hər şeyi, hər kəsi daha aydın, daha geniş şəkildə görmək və göstərmək üçün. Dost cildində düşmənləri də, düşmən sifətində dostları da, cani-dildən olan zənglərin candərdi zənglərə çevrilməsini də çox aydın və dəqiq şəkildə yenidən görür, duyur və tanıyırdım. Ən çox şairlərimizi xatırlayırdım. Qürbəti, həsrəti, ağrını, əzabı bütün rəngləri və çalarları ilə öz cismani və mənəvi varlığında daşıyan şairləri.

Vaxtsız əcəl, məndən uzaq dayan, dur,
Qılıncını məndən uzaq dolandır.
Onu bil ki, qələm aldım əlimə,
Qürbət eldə can vermərəm ölümə!

61 il bundan əvvəl yazılmış bu şeir elə bil mənim – 61 yaşlı Zəlimxan Yaqubun boyuna biçilmişdi. Elə bil

Səməd Vurğun məni qürbətdə bu vəziyyətdə görüb bu əsəri yaratmışdı.

“Bu yollarda öləcəyəm, özüm bilirəm, bu ölümü ən şərəfli ölüm bilirəm” deyən, otuz il sərbəsər cismən xəstə olan, ruhu və qəlbi ilə həmişə sağlam və diri olan Məmməd Arazın bu misraları da mənim boyuma biçilməmişdimi? Otuz il ölümlə, xəstəliklə pəncələşən Məmməd Araz, ağrıların əlindən nələr çəkmisən. İndi mən səni daha yaxşı dərk edirəm. Rəhmət sənə böyük kişi!

Hardan çıxdı ölüm, bu qoca kaftar,
Görmür ki, əlimdə nə qədər işim var.

Otuz səkkiz yaşında Haqqa qovuşan unudulmaz Əli Kərim ölümü qoca kaftar adlandırmaqda çox haqlı idi.

Elə ki həkim girdi xəstənin otağına,
Onda həkim, salam-əleyküm!

Bu şeir deyil, şeirdən daha uca, ağrılı bir hissin şair dilində ifadəsidir.

Deyin insafdımı belə bir vaxtda,
Çəmən çöldə yata, şair otaqda.

May ayının sonları. İndi Azərbaycanın hər yerində gül gülü çağırır. Mən kimi çağırım qürbətdə, xəstəxana çarpayısında! Heç insafdımı, təbiət Allahlıq eləyə, ilin-günün bu vaxtında şair də vətən deyib haray çəkə!

Sənə min rəhmət Əli Kərim!

Yanana od veriləndə, donanın üstünə bu tökdürüləndə, batana dəryalar birdən bəxş ediləndə, qranit dağlar belə bu dərdlərə tab gətirməyəndə yazır şairlər ən ağrılı və ən gözəl şeirlərini.

Yəqin deyirsən ölmüş,
Ölməmişəm mən ölmüş.

Ölümlə mənim aramda bircə qarış məsafə qalmışdı, ölmədim, mən ölmüş, Əli Kərim!

Yığıb qabağıma neçə dəftəri,
Birdən hamısında yazmaq istədim.

Dünyanın bütün şeirlərini mən yazmaq, bütün kitablarını mən oxumaq, bütün dəftərlərini mən doldurmaq istəyirdim. Sənin bu dəlicəsinə yazmaq ehtirasın mənə keçmişdi, Əli Kərim! Əgər bu ağrılar məni sarsıtmasaydı, heç vaxt səni belə dərindən dərk edə bilməyəcəkdim, Əli Kərim! Səni mənim üçün bir şair kimi yenidən kəşf edən ağrılarıma minnətdaram.

Elə bil ki, tonqalın ortasına tük endi,
Ömrü kimi qoca da gözlərimdə tükəndi!

– deyən ustad şairimiz, hansı şəkildə, nə mənada olur-olsun bizim tükənməyimiz cismani ömrümüzdə, tükənməzliyimiz mənəvi ömrümüzdədir! Nə yaxşı belədir!

Vəfalı və köhnə dostlarım çox canfəşanlıq edir. Qələm – "mən yazmalıyam!", dəftər – "mən yazmalıyam!" – deyirdi. Qələm – "məndən heç nəyi gizləmə, fikrindən, xəyalından nə keçir hamısını pıçılda" – deyirdi. Axı mən 50 ildir sənə xidmət edirəm, heç vaxt yorulduğunu, soyuduğunu, dayandığını görməmişəm. İndi də görmək istəmirəm. Dəftər – "mən torpağam məni şumla, mən şumam suyumu, işığımı, havamı bol elə, məni ək, toxumunu səp, barını-bəhrəni, yeni əsərlərini, yeni şeirlərini yetir oxucularına" – deyirdi. Bütün dostlar vətəndə qalmışdı. Ağrılarla baş-başa üç dost qalmışdıq. Qələm idi, dəftər idi, mən idim.

İşıqlandı nurda dostlar,
İşıq saldı yurda dostlar.
Xırdalandı xırda dostlar,
Böyük dosta salam olsun!

***2011, 20-25 may***
***Almaniya, Hannover***

## MÜNDƏRİCAT


Yaddaşımda yaşayan Osman Sarıvəlli....5
Sevgi dastanı....12
Şəkillərdən baxan dünya....15
Atamın sevimli yazıçısı....18
Süleyman Rəhimov haqqında xatirələrim....24
Xəlil Rza haqqında ürək sözü....29
Azadlıq aşiqi....33
Yenə o bağ olaydı....39
Nigar xanım Rəfibəyli haqqında....44
Ustadıma məhəbbətlə....46
Məmməd Araz gülü bitsin....51
Bəxtiyar Vahabzadə – 80....54
İsa Hüseynova sevgi, Muğannaya inam....55
Tofiq Bayram dünyası....64
Mövlud Süleymanlı haqqında söz....70
Xalq yazıçısı Mövlud Süleymanlıya açıq məktub....72
Təbrizli şair Sönməz Kərim Məşrutəçinin
məktubuna cavab....85
Kövrək bir xatirə....87
Girişə gəlməyən söz....91
Ustad şairə dost təbriki....94
Ay Məmməd Aslan!....99
Abbas Abdulla haqqında ürək sözü....101
Şair ömrünün coğrafiyası....103
Bizim vilayətimiz....106
Laçınlı, Laçınsız duyğularım....109
Laçınlı, Laçınsız Ağa Laçınlı....113
Təmizlik, halallıq, ucalıq....119
Açılmamış səhifələrdən açılmış mətləblərə doğru....122
Nur parçası....126
Yeriyən torpaq....129
Nə gözəl yaradıb......134
Dağla bulaq kimi....140

Abuzər Xələfov – 70 ....................................................................143
Yazıçı-publisist Rafael Hüseynova açıq məktub ..............................145
Mikayıl Mirzəyə məktub ............................................................157
Mikayıl Mirzə danışsın...............................................................160
Mürşidi-kamilim – Hacı Mayilim ..................................................162
Etibar işığı .................................................................................164
Könül adamı ..............................................................................168
Elimizin əziz oğlu Məhəbbət Qarabağlıya .....................................170
Yazıçı Əlisa Nicata açıq məktub ..................................................172
Tərcümə mərkəzinin direktoru yazıçı
Afaq Məsuda açıq məktub...........................................................180
Şair-publisist Məmməd Əfşana açıq məktub ..................................188
"525-ci qəzet"in baş redaktoru Rəşad Məcidə
ikinci məktub.............................................................................196
Xatirələr yaraşığı .......................................................................198
Ümid qapısı bağlanmasın ...........................................................201
Qürur duymağa haqqın var.........................................................203
"Sənin ki dərdin var, bir Təbriz qədər..." ......................................209
Səyyad Ağbabalıya açıq məktub ...................................................212
Ağbabadan – ağrımızdan keçən ömür ...........................................217
Bəhmən Vətənoğlunun yaradıcılıq gecəsində
ürək sözü ...................................................................................220
Bəhmən Vətənoğluna ..................................................................224
Kövrək bayatılı Səadət Buta .........................................................226
Kərəm Kürqıraqlının kitabına giriş sözü.........................................228
Köklərdən budaqlara ...................................................................230
Azər Turanın "Cavidnamə"si ........................................................236
Natəvan Dəmirçioğluna məktub.....................................................247
Ucqar şairinə mərkəz məktubu .....................................................250
Onun təbii ilhamı var...................................................................259
İşıqlı xatirə ................................................................................261
Ömər Qoçuluya açıq məktub.........................................................263
Dost haqqında söz .......................................................................269
Çərkəz müəllimin sonası ...............................................................272
Məftunluq – məcnunluq ...............................................................275
Yanan kəndin şairə qızı ...............................................................277
"Ay işığı"ndan aldığım qüvvət ......................................................278
Həmişə rəhmətlə anılan kişi ..........................................................282

Kədəri incitməyən şair ..........................................................................286
Düşündürən varsa, düşünməyə dəyər..............................................289
Yaralı xatirə ..........................................................................................294
Dərdimizin carçısı ................................................................................296
Cabbar Quliyev haqqında söz ...........................................................299
Cəfər həkim ............................................................................................300
Dərd şairi ................................................................................................304
Ümidin işığında dincələn şair.............................................................307
Yarın bağçasında üç gül açılmış... ....................................................311
Məni sevindirən roman.........................................................................316
Şair Əlizadə Nuriyə doğru ..................................................................321
Yaralı xatirə ...........................................................................................331
Dədə həsrəti...........................................................................................334
Şəmşirli, Şəmşirsiz günlərim mənim ...............................................340
Azaflı çinarı.............................................................................................352
Borçalı aşıq məktəbi həmişə diri və durudur ....................................356
Aşıq Kamandar haqqında xatirələr, fikirlər.......................................362
Sağlığında heykəlləşən aşıq ................................................................371
Bu gün hər dəqiqə onun yeri görünür..................................................375
Göynərtili xatirə .....................................................................................380
Onun yaşadığı ömür .............................................................................385
Hər aşıq bir ürfan dünyasıdır ................................................................391
Məni sevindirən kitab...............................................................................394
Qopuzdan saza gələn yolda ..................................................................397
Qarabağ – qeyrət qalamız.......................................................................399
Xocalı faciəsi ..........................................................................................403
Hava ........................................................................................................411
Borcumuzdur bu ehtiram (Almaniya dəftəri)......................................415
Qan qorxusu (Hekayə) ...........................................................................419
Köhnə dostlar ..........................................................................................431

“Şərq-Qərb” Nəşriyyat Evinin məhsuludur.
www.eastwest.az
www.fb.com/eastwest.az

Buraxılışa məsul **SEVİL İSMAYILOVA**
Texniki redaktor **GÜLTƏKİN YUSİFOVA**
Dizayner **ELŞƏN QURBANOV**
Səhifələyici **XƏQANİ FƏRZALIYEV**
Korrektorlar **FƏRİDƏ SƏMƏDOVA**
**ELŞAD ÇOBANLI**
Nəşriyyat direktoru **RASİM MÜZƏFFƏRLİ**

Çapa imzalanmışdır:09.07.2013. Format 60x90 1/16. Ofset çapı
Fiziki çap vərəqi 27,5. Sifariş 13 198. Tiraj 500

"Şərq-Qərb" Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49

"**Şərq-Qərb**" Nəşriyyat Evinin bütün kitablarının toplusu:
**http://www.eastwest.az/az/books/** ünvanda